BAKI AVRASİYA UNİVERSİTETİ

Elmi-nəzəri jurnal

SİVİLİZASİYA

ЦИВИЛИЗАЦИЯ
CIVILIZATION

“Sivilizasiya” jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 06 iyul 2012-ci il (Protokol № 10-R) tarixli qərarı ilə aşağıda göstərilən elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısına daxil edilmişdir: Tarix, Antropologiya və Siyasi elmlər; Fəlsəfə və Sosiologiya elmləri; Filologiya elmləri; Sənətşünaslıq Sahəsi.

1.2016

Təsisçi
Bakı Avrasiya Universiteti

Baş redaktor
Nazim Hüseynli-Prof. Dr.

Baş redaktorun 1 müavini
İzzət Rüstəmov-Prof. Dr.

Baş redaktorun müavinləri
Nazim Cəfərli-Prof. Dr.
Mütəllim Rəhimov-Doç. Dr.

Məsul katib
İslam Sadıq-Doç. Dr

REDAKSİYA HEYYƏTİ

Tarix, Antropologiya və siyasi elmlər üzrə:

Teymur Bünyadov-AMEA-nın həqiqi üzvü, Prof. Dr
Əsədulla Cəfərov-Prof. Dr
Kərim Şükürov-Prof. Dr.
Aqşin Mehdiyev-Prof. Dr
Aygün Attar-Prof. Dr. (Türkiyə)
Siyavuş Qasımov-(redaktor)

Fəlsəfə və sosiologiya elmləri üzrə:

Bəxtiyar Əliyev-AMEA-nın müxbir üzvü, Prof. Dr
Kurmanbek Abdıldayev-Doç. Dr. (Qırğızıstan)
Əziz Məmmədov-Prof. Dr.
Nizami Məmmədov-Prof. Dr.(Moskva)
Rəfael Həsənov-Prof. Dr
Suat Günsel-Prof. Dr. (KKTC)
Zahid Orucov-Prof. Dr. (Moskva)
İlham Rəhimov-Prof. Dr.
Hüseyn Məmmədov-Doç. Dr.
Siyavuş Talışlı-Prof. Dr. (redaktor)

Filologiya elmləri üzrə:

Nizami Cəfərov-AMEA-nın müxbir üzvü, Prof. Dr.
Cəlal Qasımov-Prof. Dr.
İkram Qasımov-Prof. Dr.
Fəxrəddin Veysəlli-Prof. Dr.
İsmayıl Bozkurt-Prof. Dr. (Türkiyə)
Novruz Məmmədov-Doç. Dr.
Seyfəddin Rzayev-Doç. Dr.
Əsgər Quliyev-Doç. Dr.
Ədalət Tahirzadə-Doç. Dr.
Səriyyə Gündoğdu-Doç. Dr.

Sənətşünaslıq sahəsi üzrə:

İlham Rəhimov-Prof. Dr.
Vidadi Muradov-Prof. Dr.
Ziyadxan Əliyev-Doç. Dr
Məleykə Alı qızı-Doç. Dr.
Yasin Qaraməmmədli-Doç. Dr. (redaktor)

© "Bakı Avrasiya Universitetinin" nəşri, 2016

BAKI AVRASİYA UNİVERSİTETİ

“Sivilizasiya” jurnalı 2016.№1

Müslüm NƏZƏROV

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun
“İncəsınət, texnologiya, mülki müdafiə və
fiziki tərbiyə” kafedrasının müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

ALİ MƏKTƏBLƏRDƏ HUMANİTAR FƏNLƏRİN TƏDRİSİNƏ DAİR

Açar sözlər: *təhsil, dəyərlər, informasiya cəmiyyəti, mədəniyyət, sivilizasiya, humanitarlaşdırma.*

Ключевые слова: *образование, ценности, информационное общество, культура, цивилизация, гуманитаризация.*

Keywords: *education, values, information society, culture, civilization, humanization.*

Ölkəmizin ali məktəblərində humanitar fənlərin tədrisi ilə bağlı problemlərə müraciət etməyimiz ali təhsilin təkmilləşdirilməsi, onun zamanın tələblərinə uyğunlaşdırılması zərurətindən irəli gəlir. Əslində əsas məsələ humanitar blokdan olan fənlərin resurslarından humanitar təhsildə nə dərəcədə səmərəli istifadə olunmasındadır. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu yaradıcı şəxsiyyət və vətəndaşın formalaşdırılması problemlərini müəyyən edir.Qanunda deyilir ki, təhsilin əsas məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrə və demokratiya prinsiplərinə, insasn hüquqlarına və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdən ibarətdir (1s.12). Bu əsas məqsədin həyata keçirilməsindən gözlənən nəticə fəal Azərbaycan vətəndaşlarının yetişdirilməsidir

Təhsilin “yaradıcı şəxsiyyət formalaşdırmaq” missiyası onun humanist, humanitar xarakterini meydana çıxarır, hələ XX əsr Qərb filosoflarının və kulturoloqlarının (A.Peççei, P.Hiqqins, A.Mol, A.Şeler, A.Maslou, A.Şveytser, Teyar de Şarden, E.Fromm, E.B.Taylor və b.) müasir mədəniyyətin aksioloji problemlərinə həsr olunan əsərlərində qaldırılan, Rusiya filosof və tarixşünaslarının (N.N.Berdyayev, İ.A.İlyin, P.N.Milyukov, V.O.Klüçevski, M.F.Kopterev, P.F.Lesqaft, L.İ.Petrajitski və b.) əsərlərində araşdırılan humanitar təhsil problemini daha da aktuallaşdırır. Qeyd edilən mütəfəkkirlər bəşəriyyətin sırf iqtisadi artımı rəhbər tutmasının təhlükəli olduğunu,

gələcək inkişafın daha çox insanın mədəniyyət və müdriklik səviyyəsi ilə müəyyən olunacağını əsaslandırırdılar. Erix Frommun deyirdi ki, inkişaf insanın malik olduğu şeylərlə yox, onun özünün mövcud olması ilə, kimliyi ilə, həmçinin onun malik olduğu şeylərlə nə edə biləcəyi ilə müəyyən olunur.

Müasir dövrdə bu problemin təhlili ilə məşğul olan mütəfəkkirlər R.Mehdiyev, A.A.Hüseynov, P.Q.Şedrovitski, N.S.Rozov, B.S.Qerşunski, V.M.Rozin, V.Sadovniçiy, A.Y.Fliyer, V.M.Şepel, V.T.Lisovski və b. ali təhsili humanitar biliklərə malik olmayan, dardüşüncəli mütəxəssislər yetişdirdiyinə görə tənqid atəşinə tutur və yeni təhsil konsepsiyasının əsasına qoyulmuş fəlsəfi-metodoloji ideyaları işləyib hazırlayır, təhsil sistemlərinin formalaşdırılması prinsipləri və dəyərlərini təhlil edir, humanizmin mahiyyəti, onun ali məktəbdə tədris olunan humanitar elmlərin məzmununda əks etdirilməsinə dair fikirlər irəli sürürlər. Belə ki, akademik R.Mehdiyevin "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" məqaləsində humanitar və ictimai elmlərin qarşısında duran başlıca vəzifələr, bu sahədə mövcud olan problemlər göstəril-mişdir. Lakin problemlər qalmaqdadır.

Bu gün ali təhsilin humanitar problemlərini araşdıran alimlər “təhsil”, “şəxsiyyət”, “dünyagörüş”, “mentalitet”, “sosiallaşma”, “özünüaktuallaşdırma” anlayışlarının, habelə kütləvi mədəniyyətin məna və əhəmiyyətini açıqlayan anlayışların definisiyasını işləyib hazırlayır, müasir sosiomədəni situasiyanın xüsusiyyətlərini təhlil edirlər (3s.6). Onlar kütləvi mədəniyyətin postsənaye cəmiyyətin mədəniyyət sisteminin aparıcı elementinə çevrildiyini, mədəniyyətin statusunu aşağı saldığını vurğulayırlar. Mədəniyyət bu gün heç də I.Kant, M.Veber, Q.Zimmel, N.A.Berdyayev, S.L.Frank və başqalarının dediyi kimi, bəşər övladının son məqsədi yox, həyatda müvəffəqiyyət və maddi rifaha nail olma vasitəsi kimi qavranılır. Kütləvi mədəniyyətin mahiyyəti və müasir cəmiyyətdə yeri və rolu ilə bağlı alimlər ümumi fikrə gəliblər. Artıq heç kim şübhə etmir ki, kütləvi mədəniyyət, birincisi, postsənaye cəmiyyətdə mədəniyyətin vektoru və inkişaf templərini təyin edir; ikincisi, o qloballaşma dövründə geniş miqyas alır və öz növbəsində qloballaşma proseslərinin dərinləşməsi və genişlənməsinin çox güclü vasitəsinə çevrilir; üçüncüsü, kütləvi mədəniyyət məhsullarının istehsalı iqtisadiyyatın ən gəlirli sahələrindən biridir; dördüncüsü, kütləvi mədəniyyət əsərləri auditoriyanın təhsil səviyyəsi və hazırlığından asılı olmayaraq işləyən universal psixoloji qavrayış mexanizmlərinə əsaslanır. Təhsilin kommersiya yönümlü olması fundamental təhsilin səviyyənin aşağı düşməsinə səbəb olmuşdur. Etik problemlərə, sosial ədalətə, tənqidi analizə az yer ayrılır. Bundan başqa, əldə edilmiş biliklərin fraqmentləşməsi problemi də yaranır ki, bu da sosial elmlər üçün daha çox səciyyəvidir. Müasir informatizasiya prosesləri dünyanı daha çox əyləncə yönümlü kütləvi mədəniyyət vasitəsilə bir araya gətirir.

Bütün bunlar onu deməyə əsas verir ki, insanın sürətlə dəyişən dünyaya adaptasiya etməsi üçün möhkəm təməli məhz humanitar elmlər qoymalıdır (4.s.109).

Fikirlərimizi konkretləşdirərək, problemin aktuallığının aşağıdakılarla şərtləndiyini qeyd edə bilərik:

-elmi-texniki nailiyyətlər, sosiomədəni situasiyada baş verən dəyişikliklər dünyanın yeni mənzərəsinin formalaşması, yüksək texnologiyaların inkişafı, onların sürətlə

bir-birini əvəz etməsi təlim keçənlərin yaradıcı və proyektiv qabiliyyətlərinin inkişaf etdirilməsini tələb edir;

-ekoloji böhran təhsilin, xüsusən də mühəndis təhsilinin qarşısında ekoloji şüurun kökündən dəyişdirilməsi, peçə əxlaqının tərbiyələndirilməsi vəzifəsini qoyur;

-informasiya inqilabı və cəmiyyətin informasiya cəmiyyətinə transformasiya etməsi təlim keçənlərin informasiya mədəniyyətinin formalaşdırılması zərurətini ortaya qoyur, eytni zamanda təhsilin məzmununda informasiya komponentinin gücləndirilməsini tələb edir.

Yaxın keçmişimizi yada salsaq, onda humanitar fənlərin tədrisi metodları haqqında məsələnin nə dərəcədə vacib olduğunu dərk etmiş olarıq. Axı yaxın keçmişdə humanitar elmlərin tədrisi kommunist ideologiyasının təsiri altında idi. XX əsrin 20-ci illərində Azərbaycanda təhsil dünya və milli mədəniyyət kontekstindən kənarda qaldı. Təhsilin əsas parametrlərini hakim ideologiya diktə edirdi. 80-cı illərin ortalarından başlayaraq humanitar təhsilin məzmununun ölkənin ictimai-siyasi həyatındakı dəyişikliklərə uyğun gəlmədiyi üzə çıxdı. Azərbaycanın Qərb elmi fikrin inkişafından üzün müddət təcrid olmasının və ölkəmizdə marksizm-leninizm ideologiyasının stereotiplərinin hakim olmasının nəticələrəni aradan qaldırarkən humanitar fənlərin məzmununa və onların tədrisi metodikasına yenidən baxmaq lazım gəldi. Ali məktəb-lərin tədris planlarına çoxlu sayda yeni kurslar daxil edildi.

İndi dəyərlərə yenidən baxılır. Buna görə də tamamilə yeni humanitar təhsil paradiqması işlənməlidir. Bu paradiqmada humanitar fənlərin spesifikası nəzərə alın-malıdır. Yəni, humanitar sferada hansısa bir, "yeganə düzgün" olan təlim yoxdur. Burada heç kim mütləq həqiqəti bilmir. Buna görə də müəllim tələbələrdə humanitar konsepsiyaların çoxölçülüyü və zənginliyi, mədəniyyətlərin rəngarəngliyi, bəşər tari-xinin mürəkkəbliyi və çoxmənalılığı haqqında təsəvvürləri formalaşdırmağa çalış-malıdır. Müəllim müzakirə olunan problemlə bağlı öz xüsusi konsepsiyasını yox (bunu o, öz elmi nəşrlərində də edə bilər), ictimai fikirdə mövcud olan konsepsiya və bilikləri tranlyasiya etməlidir. Əlbəttə, bu cür tranlyasiya sadəcə bu konsepsiyaların mətninin çatdırılmasından ibarət olmamalıdır. Əsas məsələ müxtəlif nöqteyi-nəzərlər, yanaşmalar, mövqelər və fikirlər əsasında sosial hadisə və proseslərin inkişaf qanuna-uyğunluqlarını və onların daxili mahiyyətini üzə çıxarmaqdır. Eyni zamanda müəllim tələbəni mürəkkəb mədəniyyət aləminə inteqrasiya etdirə biləcək interpretasiya ustalığına malik olmalıdır. Müəllim sadəcə ictimai fikir ilə yetişməkdə olan nəsil arasında vasitəçidir. Onun mədəni rolu və yüksək mənəvi məsuliyyəti də bundan irəli gəlir.

Keyfiyyətli ixtisaslaşma olmadan öz işində peşəkar olan mütəxəssisi formalaşdırmaq mümkün deyil.Bu tezis heç kimdə şübhə doğurmur. Lakin humanitarlaşdırma olmadan mükəmməl şəxsiyyəti yetişdirmək mümkün deyil. Peşə insana funksional baxımdan, yəni bacarıq və vərdişləri tərəfdən cəmiyyətə inteqrasiya etməkdə köməklik göstərir. Lakin cəmiyyətə funksional adaptasiyadan başqa, insan mədəniyyət məkanına da inteqrasiya etməli, onun məna və dəyərlərini mənimsəməlidir. İnsanın mənəviyyatı, dünyagörüşü məhz bu prosesdə formalaşır.Bu mənəviyyatdan kənarda biz bu ictimai əmək bölgüsü sistemində fəaliyyət gösətərən "mexaniki" insanı formalaşdırmış olacağıq.Bu orta insan müasir sivilizasiyadan geri qalır.O, peşəkar olsa da, savadlı olsa da, "mədəniyyətsizdir" (2). U.Eko bunu mədəniyyətlərin ayrılması kimi səciyyə-

ləndirir (6.s.120).

Antik dövrdən başlayaraq fəlsəfədə mədəniyyətin üçlüyü-Həqiqət, Xeyir və Gözəllik haqqında dəqiq təsəvvürlər formalaşmışdır. Belə ki, əsl həqiqət estetik formalara bürünür və Xeyirə xidmət etməlidir. Mədəniyyətin bu tərəfləri insan fəaliyyətinin müxtəlif sferalarında-elm, fəlsəfə, incəsənətdə təcəssüm tapmışdır. Lakin zaman keçdikcə, onlar qarşı-qarşıya qoyulmağa başladı. Bəzi tarixi şəraitdə isə iş hətta onla-rın fatal şəkildə bir-birindən ayrılmasına gəlib çatmışdır ki, bunu da O.Şpenqler və onun ardıcılları mədəniyyət və sivilizasiya arasında kəsilmə kimi səciyyələndirmişdir. Sonralar bu kəsilməni Çarlz P. Snou mədəniyyətin vahid orqanizmini ənənəvi huma-nitar (şərti desək, Gözəllik+Xeyir) və XX əsrin elmi-texniki tərəqqisindən irəli gələn yeni, elmi mədəniyyətə ayrılması kimi qiymətləndirmişdi (5). Yarımədəni, ən yaxşı halda elmi-idraki, darixtisaslı texniki fəaliyyətinə qapanmış, lakin mədəniyyətin zən-gin mənəvi və bədii estetik ənənələrini mənimsəməmiş kütlə daha təhlükəlidir. A.Tvardovski bir dəfə çox gözəl demişdi ki, ömrü boyu cəmi bir kitab oxumuş adam heç bir kitab oxumayan adamdan daha qorxuludur.

Bu gün biz tədris proqramında humanitar və peşə fənləri bloklarının həcmlərinin nisbəti məsələsində korporativ mənafelərin təzahürləri ilə üzləşirik. Elmi informasiyanın həcminin artdığını bəyan edən peşəkarlar humanitar fənlər blokunu minimal hədlərə endirməyə çalışırlar. Öz növbəsində humanitar mədəniyyətin tükənməz xəzinəsini özündə daşıyan humanitar elm nümayəndələri yeni-yeni kursların tətbiqini tələb edirlər. Bu iki yanaşma arasında gedən mübahisə təhsil prosesində bu gün mövcud olan ziddiyyətləri, o cümlədən təhsilə utilitar texnokratik baxışla, yəni bazar şəraitində yaşamalı olan mütəxəssis hazırlığı ilə demokratik cəmiyyətdə fərdi inkişaf üçün imkanların təmin edilməsi; formal təhsilin sərt çərçivələri ilə insan qabiliyyətlərinin tükənməz kombinasiyaları arasındakı ziddiyyətləri əks etdirir.

Zənnimizcə, bu məsələ ətrafında mübahisə aparmaq mənasızdır. Kompromiss mövqe daha konstruktiv ola bilər. Fundamental, humanitar və peşə blokundan olan fənləri optimal şəkildə uzlaşdırmaq lazımdır. Nəzərə alsaq ki, humanitarlaşdırma birinci növbədə elmi-texniki və humanitar mədəniyyət arasında uçurumun aradan qaldırılması deməkdir, onda onun istiqamətləri aşağıdakılardan ibarət ola bilər: tədris prose-sinin təşkilində sistemliliyin gözlənilməsi, mədəniyyətin tarixi və nəzəriyyəsindən xüsusi kursların təşkili, tədris proqramlarına texniki və humanitar elmlər arasında aralıq mövqe tutan yeni fənlərin (erqonomika, sistemli modelləşdirmə, sinergetika, proqnostika, qlobalistika, texniki estetika, mühəndis psixologiyası, etika, peşə etikası və b) daxil etdirilməsi, ümumelmi fənlərin dünyagörüşün formalaşdırlması baxımından potensialına üstünlüyün verilməsi, elmin, texnikanın tarixinə diqqətin artırılması, təhsilin fundamentallaşdırılması, ekolojiləşdirlməsi və s.

Təhsilin humanistləşdirilməsinin və humanitarlaşdırılmasının meyarlarına gəlincə, hesab edirik ki, onların meyarları aşağıdakılar olmalıdır:

1. tələbələr humanitar biliyin və mədəniyyətin ümumbəşəri dəyərlərinə və fəaliyyət üsullarına yiyələnməsi;

2. fəlsəfənin humanitar matrisanın nüvəsi olması;

5. fənlərarası həm üfüqi, həm də şaquli əlaqələrin gözlənilməsi.

Beləliklə, müasir dövrdə təhsil mədəniyyətin üçlüyünün vahid universal fasiləsiz təhsil prosesində tarazlaşdırılmasını nəzərdə tutur. Ümid edirik ki, məqalədə verdiyimiz tövsiyələr gələcək diskussiyalar üçün material olacaq və bu və ya digər şəkildə humanitar fənlərin tədrisindəki mövcud vəziyyətə təsir göstərəcəkdir.

QAYNAQLAR

1. Azərbaycan Respublikasının "Təhsil haqqında" qanunu. "Bakı Çap evi" 2012.
2. Зыкова А.Б. Учение о человеке в философии Х. Ортеги-и-Гассета: критические очерки /А.Б. Зыкова.-М.: Наука, 1978.-160 с.
3. Метаобразование как философская и педагогическая проблема.-Ставрополь, 2001.
4. Назаров М.Г.Проблемы века гуманизации образования //Актуалъные про-блемы философии и социлогии. Научно-практический журнал. Выпуск 6. Одесса, 2015.С.109-111.
5. Сноу Ч. Две культуры.-М., 1973.
6. ЭкоУ.Отсутствующая структура.Введение в семиологию.М, 1988.с.119-144.
7. Шешукова Г.В. Проблемы преподавания гуманитарных дисциплин в неп-рофильных вузах// Контекст и рефлексия: философия о мире и человеке.-2014.-No4.-С. 19-34.

Müslüm NƏZƏROV

Ali məktəblərdə humanitar fənlərin tədrisinə dair

Xülasə

Məqalədə təhsilin inkişaf perspektivlərinə və təkmilləşdirilməsi problemlərinə cəmiyyətdə baş verən köklü dəyişikliklər bucağında baxmağa cəhd edilir, ali məktəblərdə humanitar fənlərin tədrisi problemləri təhlil olunur, təhsil sisteminin təkmilləşdirilməsinin şərti kimi mədəniyyətin varisliyinin qorunub saxlanılması əsasında humanitar və texniki fənlərin sintezinin təmin edilməsi zərurəti əsaslandırılır.

Муслим НАЗАРОВ

К преподаванию гуманитарных дисциплин в вузе

Резюме

В статье предпринята попытка рассмотреть перспективы развития и совершенствования образования сквозь призму коренных преобразований в обществе, анализируются проблемы в сфере преподавания гуманитарных дисциплин в вузе, и обосновывается необходимость обеспечения синтеза гуманитарных и технических наук на основе сохранения преемственности культуры как условия совершенствования системы образования.

Muslim NAZAROV

Of teaching humanitarian disciplines in the University

Summary

In article attempt to consider the prospects of development and improvement of education through the prism of fundamental changes in society, analyzes the problems in the field of teaching of humanitarian disciplines in the University, and the necessity of ensuring the synthesis of humanitarian and technical Sciences on the basis of the continuity of culture as the conditions of improving the system of education.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Piri AXUNDOV
AMEA Fəlsəfə və Hüquq İnstitutunun dissertantı

İSLAMDA YENİLƏNMƏ MEYLLƏRİNİN NƏZƏRİ ƏSASLARI

Açar sözlər: *İslam, Xristianlıq, din, islahatçılıq, yenilənmə*
Ключевые слова: *ислам, христианство, религия, реформирование, обновление.*
Keywords: *İslam, Christianity, religion, reformation, updating.*

Malik olduğu həqiqət və qurtuluş ünsürləri ilə insanlara təsir etmə və istiqamətləndirmə məqsədləri daşıyan din üçün cəmiyyətin və fərdlərin dəyişən xarakteri həmişə problem təşkil etmişdir. Dinin təməl mənbələrinin sabit olması və əsasən dəyişməzliyi qarşısında insana təsir edən şəraitin zaman və məkana görə dəyişməsi həmişə bu dəyişiklik qarşısında dinin necə mövqe tutmalı olduğu problemini müzakirə mövzusuna çevirmişdir. Bu istiqamətdə dinin başa düşülməsi və idrak edilməsi ilə bağlı problem bir çox dini ənənədə inanan fərdlərin gündəmində yer almışdır: dəyişən mühit qarşısında dinin əsas əmrlərini və bu əmrlərə istinad təşkil edən mənbələrimi əsas almaq lazımdır, yoxsa dinin əsas əmrləri istiqamətində zaman və məkana bağlı qalmadan insanımı? Problemi aşağıdakı kimi qoymaq da mümkündür: din və insan münasibətlərində dinin başlıca əmrlərimi əsasdır, yoxsa insanın, zamanın və məkanın dəyişkənliyinə bağlı tarixsəl varlığımi?

Tarixin axışı ilə dəyişən sosial-mədəni şərtlərə və insanın dəyişən və inkişaf edən hisslərinə dinin baxışının necə olacağı ilə əlaqəli bu problem monoteist dinlərdən politeist ənənələrə, həmçinin İslam, Xristianlıq və İudaizmdən Şərq dinlərinə qədər demək olar ki, bütün etiqad sistemlərinin müntəzəm olaraq məşğul olduğu önəmli problemlərdən birini təşkil etmişdir. Zaman keçdikcə cəmiyyətdə baş verən dəyişikliklər qarşısında dinin əsas hökmlərinin, yoxsa zaman və məkan daxilində dəyişən şəraitin əsas alınması problemi dini ənənənin başa düşülməsi ilə bağlı konkret mövqeyi olan “yenilənmə”, “təcdid”, “islahat” kimi anlayışlarla ifadə edilən müəyyən yanaşma tərzlərini ortaya çıxarmışdır. Bu cərəyanlarla bağlı qiymətləndirmədə əsas olaraq iki fərqli perspektiv mənimsənmişdir. Bunlardan birincisi, dini yenilənməni dinin ortaya çıxdığı ilk dövrlərə qayıdış kimi görən baxış tərzidir. İkincisi isə, yenilənmə prosesini zamanın tələblərinə uyğun olaraq dini dəyərlərin yeni ictimai şəraitin tələblərinə uyğun şəkildə yenidən şərh etmənin vacib olduğunu irəli sürən baxış tərzidir. Xristian ənənəsində fundamentalist cərəyanlarla İslamdakı sələfi cərəyan bu yanaşma tərzlərindən birincisinə misal olaraq göstərilə bilər.**[10, səh.6]**

Dində yenilənməni, dövrün şərtlərinə adaptasiya olmaq, sosio-mədəni dəyişməyə paralel olaraq dini yenidən təfsir etmək kimi başa düşən yanaşmalarda isə əsas alınan cəhət, yaşanılan dövr və onun şərtləridir. Bu yanaşmaya görə dinin əsas istinad nöqtə-

si olan müqəddəs kitab da daxil olmaqla, bütün dini mənbələr, təsəvvürlər və prinsiplər dövrün şərtləri və baxış tərzinə uyğun olaraq yenidən şərh edilməlidir. İctimai inkişafın tələblərinə cavab vermək məcburiyətində olan fərd üçün din maneə yox, onun istifadə etdiyi vasitələrdən biri olmalıdır. Bu baxış tərzində bütün dini yanaşmalardakı ümumbəşəri mesaj ortaya qoyulmağa və bu çərçivədə dini düşüncələrin dövrün şərtlərinə uyğun şərhi verilməyə çalışılır. Dinin zamanın və məkanın şərtlərinə bağlı olaraq yenidən inşa edilməsinə dayanan fikirlər, dinin tarix içində təzahür edən təşkilati strukturu ilə bağlı lokal və milli səviyyəli baxışları da bərabərində gətirmişdir. Xüsusilə, Xristian dini və Buddizm kimi dini sistemlərin tarixi inkişafına baxdığımızda fərqli coğrafiyalarda və müxtəlif etnik kimliklər arasında dinin yenidən şərh edilib inşa edildiyinə şahit olunur. Başlıca dini mənbələrdən hərəkətlə dini idrak yerinə milli kimlik və bununla yaxından əlaqəli ənənəyə dayanaraq, dinin yenidən şərh edilib institutlaşması, qarşımıza, məsələn, Xristian ənənəsində yüzlərlə milli kilsə təşkilatlanmasını çıxarır. Buna bənzər vəziyyəti Buddizmin tarixi inkişaf prosesində də görmək mümkündür. Eyni zamanda, İslam ənənəsində də-hər nə qədər Xristianlıq və Buddizm kimi dinlərlə müqayisə edilməyəcək səviyyədə olsa da-vaxt keçdikcə yerli ünsürlərin təsiri ilə bəzi milli din anlayışına söykənən məzhəb hərəkatlarının ortaya çıxdığına da şahid olunmuşdur.

Xristian islahatçılıq təcrübəsini İslamda islahatçığın tərəfdarı olan fikirlərlə iki cəhətdən əlaqələndirmək mümkündür. Bunlardan biri, dini ənənə, yerləşmiş dini formalar və dinin təşkilati strukturuna qarşı ifadə edilən tənqidi yanaşma baxımından "neqativ" istinad təşkil etməsidir. Bu neqativlik, ən ümumi şəkildə dinin dəyişdirilməsi və əslindən uzaqlaşdırılması şübhəsini əhatə etməkdədir. İkincisi isə, Protestant islahatçılığının "veberçi" yanaşma tərzi ilə Qərb intibahının önünü açan və insan ağlını Roma Katolikliyinin mənəvi işğalından təmizləyən mənada Qərbə xas "pozitiv" yanaşma tərzinin ön plana çıxmasıdır. Bu müsbət istinad nöqtəsi, müsəlmanların müasir Qərb cəmiyyətləri qarşısında dünya həyatının bir sıra sahəsindəki geri qalmasının aradan qaldırılmasında dində islahat prosesinə olan ehtiyaca diqqət yetirir, Xristianlıq tarixindəki təcrübənin bu ehtiyaca təkan verəcək uyğun model olaraq ələ alınabiləcəyini ortaya qoymaqdadır.

İslahatçılıq nöqteyi-nəzərdən İslam dininin Protestant Xristianlık ilə ilk dəfə müqayisə edilməsi 1882-ci ildə U. S. Blant tərəfindən aparılmışdır.**[4, səh.46]** Xristianlıq tarixi ilə müqayisə edildikdə qeyri-ənənvi İslam cərəyanlarından bəzilərinin, dini ənənələri, simvolik dini manifestləri və kultları, göstərişli məscidləri və türbələri hədəf alan tənqidi baxışları ilə Protestantlığa bənzədiyini ifadə etmişdir. Blantın bu müqayisəsini müsəlmanlar arasında ilk dəfə diqqətə alanlar İslamı Qərbin dəyərləri və qurumları ilə çulğaşdırma axtarışında olan yenilik tərəfdarı ziyalılar olmuşdur.**[11]** Xüsusilə İslam elmlərini öyrənməklə yanaşı, dünyəvi elmləri də öyrənən yeni müsəlman intellektuallarının ortaya çıxması və bu müsəlman fikir adamlarının dinlər arasında daha elmi müqayisələr apararaq İslamda yenilənmənin vacibliyini ortaya qoymuşlar. Blantın 130 il bundan əvvəl təsbit etdiyi bu bənzərlik daha çox şəkli xarakter daşıyır. Bu bənzətmə və müqayisənin bir layihə olaraq özünü ortaya qoyması üçün həm Xristian dini, həm də İslam düşüncəsində XX əsrə məxsus yeni baxış tərzlərinin ortaya çıxması lazım gəlmişdir. Əvvəlcə Xristian islahatçılığının bir model kimi müsbət cə-

hətlərinin təsbit edilməsi üçün yenilənmə və Protestantlıq arasında pozitiv əlaqə qurulması baxımından sonrakı dövrlərdə "Veberçi" baxışdan daha ciddi mövqe ortaya çıxmışdır. İslam düşüncəsində isə xüsusilə genişlənmə mərhələsindən sonra özünütənqid meylləri dinin "yenidən mənalandırılması" baxımından bir dönüş nöqtəsini dilə gətirmişlər. Bu səbəblə İslam düşüncəsində ortaya çıxan islahatçı meyllər ilə Xristian islahatçılığı arasındakı qartılaşdırma kriteriyaları getdikcə artmışdır. Əsas xətləri ilə bu müqayisələr üç cərəyanda birləşdirilə bilər: 1) sosioloji və bənzəşdirici yanaşma; 2) hermenevtik yanaşma və 3) bənzərliyi qəbul etməyən yanaşma tərzləri.

Dinlər arasında müqayisə üsulu ilə aparılan sosioloji və benzəşdirici yanaşmada Xristianlıq və İslam dinləri, teoloji tərkibindən çox tarixi inkişaf prosesləri baxımından tədqiq edilməkdədir. Burada dinlərdə aparılan yenilənmə və islahat prosesləri arasında pozitivist perspektivi əks etdirən və olduqca sekulyar əsaslara dayanan bir bənzəşdirmə mövcuddur. İslahatlar arasındakı bənzərliyi ortaya qoyan yanaşma, Protestant islahatçı M. Luterin Katolikliyə qarşı 1521-ci ildə Vorms Meclisindəki məruzəsini çıxış nöqtəsi olaraq qəbul etməkdədir. Vormsdakı İmperiya Məclisində kilsə nümayəndələrinin qarşısında mühakimə edilən və islahatçı fikirləri tərk etməyə dəvət edilən Luter, müqəddəs mətin və ağıl ilə təkzib edilmədiyi halda bu fikirlərindən əl çəkməyəcəyini bəyan etmişdir. İslahatçı, ağlının Roma papasına və ya keşişlərə deyil, ancaq Tanrıya bağlı olduğunu ifadə etmişdir.**[7, səh.112]** Luterin Vorms Məclisindəki islahatçı fikirləri hər nə qədər müqəddəs kitabın əmrlərini əsas alsa da, əsas etibarilə Katolik Kilsəsi, Papalıq qurumu və keşişlərin şəxsində mövcud olan dini hakimiyyətə qarşı qiyam xarakteri daşıyırdı. Belə ki, müqəddəs kitabın hökmranlığı, ən azından dini ənənənin tərkib hissəsi olan Katolik Kilsəsi üçün də eyni dəyərə malikdir. Luterin müqəddəs kitabın hökmranlığı əsasında həqiqətdə var olan mövcud dini nizama qarşı çıxması, islahat istəklərinin dində yeniliyi arzulayanlardan başqa digər insanlardan da dəstək görməsinə səbəb olmuşdur. Bu prosesdə, Qərbin orta əsrlərə aid bütün ənənələri, islahatçıların Katolik Kilsəsinə qarşı tənqidlərindən əlavə intibah və hümanizm düşüncələrinin də təndiq hədəfinə çevrilmişdir. Bu dövrdə coğrafi səyahətlər nəticəsində yeni qitələrin kəşfedilməsi, yeni fikir və həyat tərzinin formalaşmasına gətirib çıxarmışdır. Guttenbergin icad etdiyi mətbəə isə xəbərləşmə vasitələrində köklü dəyişikliklərə səbəb olmuşdur. Böyük ailə ticarət şirkətləri yaranmış və Avropada kapitalist iqtisadi sistem yavaş-yavaş öz sosial, siyasi və hüquq sistemlərini formalaşdırmışdır. Xüsusilə, kilsənin iqtisadi istismarına məruz qalan siyasi elitalar, hətta Katolik olanlar da islahatçılığa dəstək vermişlər. Bundan sonra siyasi sistemlərin imperiyadan milli dövlətlərə çevrilməsi və mətbəə sayəsində müqəddəs kitabın Latın dilindən başqa dillərdə nəşr edilməsi ilə Katolik kilsəsinin dini hökmranlığını və "universallığını" sarsıdan, beləliklə lokal dini baxış tərzlərinin formalaşmasına səbəb olan islahatçı baxışlar sürətlə bütün Avropaya yayılmışdır. Bu tendensiya siyasi, iqtisadi və intellektual inkişafdan bəhrələnən və Katolikliyin hökmranlığını tənqid edən Luterin dini islahatçılıq düşüncəsinin yolunu aydınlatmışdır.

Tarixi nöqteyi-nəzərdən baxıldıqda Xristian dinində islahat prosesi, müasir dövrdəki İslamda islahat axtarışlarına tətbiq edildikdə, həm sosioloji şərtlərin, həm də yenilikçi İslam düşüncəsi və hərəkatlarının Xristianlıqdakı islahatçılıq təcrübəsi ilə bənzəşdirilməsi asanlaşır. Luter kimi, son dövrlərdə bəzi müsəlman mütəfəkkirlərin yal-

nız Allahın kəlamının hökmünü qəbul etməyə və ictimai səviyyədə Allan ilə insanların münasibətlərinə qarışanların buna haqlarının olmadığından söz etmələri, bu yanaşma tərzinin baxışlarının əsasını təşkil etməkdədir. Xristian islahatının dini struktura yönələn tənqidi mövqeyi və bu möveyi möhkəmləndirən din xaricindəki ünsürlərin təsiri, İslamda islahat istəyində önəmli bir modeli ifadə edəcək şəkildə dəyərləndirilməkdədir. Bu baxış tərzi, son dövrlərdə İslam ənənələrinin mübahisə mövzusu olduğu və bu istiqamətdə İslam ehkamlarının müasir dövrdə necə tətbiq ediləcəyi ilə imanın prinsiplərinin nələr olduğuna dair sualların inananların şüurunda yer aldığı fikrinə əsaslanmaqdadır. Bu prosesdə diqqəti cəlb edən və bəlkə də ən ümid verici görünən təsbit isə İslami dini fikir və şərhlərdəki demokratikləşmə olduğudur. Bundan əlavə, ali təhsilin kütləviləşməsi, kütləvi informasiya vasitələrinin təsiri, qloballaşma və qlobal miqrasiya prosesləri ilə standart bir tənqidi dilin formalaşdırılması kimi din xarici faktorların da əhəmiyyəti diqqəti cəlb etmişdir. Elə görünür ki, sosioloji və bənzəşdirici yanaşma, müasirləşmənin məhdudlaşdırıcı ünsür kimi dinin inhisarçı hökmranlığını işarət etməkdədir. İslamda islahatçılıq prosesində bu inhisarçı hökmranlığın hakimiyyət dairəsinin daraldılması məqsədilə müasirləşmənin yaratdığı ünsürlərdən istifadə edilməsinin vacibliyi qeyd edilməkdədir. Buna bağlı olaraq, dini hökmranlığın yıxılması, yeni fikirlərin daha çox və daha geniş coğrafiyada yayılması imkanı, fərqli və alternativ düşüncələrin özünü ifadə etmək üçün imkan tapması və bu fikirlərin qloballaşması, İslamda yenilənmə meyllərinin önünü açan faktorlar olaraq qəbul edilməkdədir. İslam ölkələrindəki oxuma-yazma səviyyəsinin artması, dünyəvi təhsilin yayılması və Qərbdə ali təhsil alan müsəlman tələbələrin tənqidi mövqeləri, müsəlman xalq kütlələrinin yenilənmə istəklərini artıran ünsürlər arasında mühüm yer tuturlar.**[8, səh.332-333]**

Keçmişdə dini və ideoloji yanaşmalar əsasən dini hakimiyyət tərəfindən "yuxarıdan" diktə edilirdi. Dini və siyasi liderlərin müəyyənləşdirib xalqın riayət etməsi istənən düzənləmələrə nəzərən müasir dövrdə dini və siyasi dəyərlərlə bağlı dəyişiklik istəkləri əsasən intellektual səviyyəsi yüksələn müsəlman xalqın özündən, yəni "aşağıdan" gəldiyi müəyyən edilməkdədir.**[5, səh.19]** Müsəlman cəmiyyətlərdəki bu dəyişikliklərin təkcə siyasi sferaya və ideologiyalarla əlaqədar olmadığı, eyni zamanda keçmişdə formalaşdırılan inam və praktik təcrübələrə qarşı da tənqidi yanaşmanı özündə əhatə etdiyi vurğulanmaqdadır.

Sosioloji bənzəşdirici yanaşmanın İslamda islahatçık tərəfdarlarının hədəf mərkəzinə yerləşdirdikləri dini bilgi və hökm səlahiyyətini əlində cəmləşdirən "dini qurum" ilə birlikdə Quranın təfsirinin yenilənmənin hədəfi olaraq qəbul edildiyi teoloji İslamda islahat fikri də mövcuddur. İslam ənənəsinin yenidən gözdək keçirilməsi və Quranın başa düşülməsi üçün yeni metodoloji yanaşmalar bu istiqamətin içində ələ alınmaqdadır. Burada çağdaş İslam düşüncəsindəki "islahat" təkcə İslamın ilk yayıldığı dövrə qayıdışı deyil, eyni zamanda bu dinin sosial mühiti ilə birlikdə yenidən şərh edilməsi prosesi olaraq qəbul edilməkdədir. Bu səbəblə İslam düşüncə tərzində meydana gələn tənqidi fikirlər və Quranın yenidən təfsir edilməsi istəklərinin İslamda yenilənmənin işarətləri olduğu qəbul edilməkdədir.**[13, səh.64-75]** Xüsusilə, Quranın "sosial təsirlərinin"nin müasir dövrün şərtləri ilə əlaqələndirilməsi, Qərbdə, Protestant islahatçıların Katolik Kilsəsi ənənələrini rədd edərək, müqəddəs kitabı hər bir fərdin

istədiyi kim şərh etmək hüququ əldə etməsi mənasında hermenevtik yanaşma olaraq dəyərləndirildiyi diqqəti çəkməkdədir.

İslamda yenilənmə meyilləri baxımından Quranın statusu və anlaşılması nöqteyi-nəzərindən müxtəlif yanaşma tərzlərini ifadə etmək üçün 2003-cü ildə Amerika Birləşmiş Ştatlarında nəşr edilən RAND raportunda çox müxtəlif məlumatlara yer verilmişdir. RAND raportunda, 11 Sentyabr hadisələri ilə dünyanın gündəminə oturan İslamda fundamentalist meyillərə baxmayaraq, Qərbin strateji maraqlarına və demokratik dəyərlərinə uzun müddətli və daha dağıdıcı təhlükənin "ənənəvi İslam"dan gəldiyi qeyd edilir. Raport, ənənəvi müsəlmanları, Quranın Allahın kəlamı olduğu qəbul etməklə yanaşı, "məqsədlərinin ortodoksal dəyərləri, qaydaları və davranış tərzlərini qorumaq" üçün mübarizə aparan insanlar kimi təsvir edir. Bu müsəlmanlar ibadət və islamın əmrlərini yerinə gətirməkdə, həmçinin gündəlik davranışlarında qəti mövqe sərgiləyərək Qurana, Sünnəyə və fiqh hökümlərinə müntəzəm olaraq müraciət etdikləri üçün tənqid edilirlər.**[2, səh.4]** RAND raportu müsəlman dünyasında "demokratiyanı inkişaf etdirməyə kömək etmələri üçün" ənənəvi mövqeyə malik olan müsəlmanlarla əməkdaşlıq etməyin mümlün olmadığını qeyd edir. Ənənəvi İslamın müsəlman ölkələrin iqtisadi sərvətləri üzərində hakim olan Qərbə qarşı çox neqatif mövqeyə malik olduğu və belə müsəlmanların həyat tərzləri qədər Quranda yazılanların da, Qərbin intibah dəyərləri ilə qeyri harmonik olması, bu əməkdaşlığın mümkün olmadığının digər səbəbi olaraq göstərilir.**[2, səh.33]**

RAND raportuna görə Quran, əmr etdiyi davranış tərzləri və əhatə etdiyi çox sayıdakı əmr və dəyərlərlə müasir cəmiyyət daxilində tam mənası ilə tətbiq edilə bilməz ki, bu cəhəti ilə digər müqəddəs kitablardan fərqli deyil Bibliya kimi Quranın da, müasir həyatın problemlərinə işıq tutan bir mənbə kimi fəaliyyət göstərməkdən çox, eyni Protestant anlayışda olduğu kimi, estetik və şairanə bir ifadə və mənəvi dəyər kimi diqqətə alınması təklif edilməkdədir.**[2, səh.37]**

İslam düşüncəsi içində inkişaf edən hermenevtik metodun İslamda islahatçılıq tarixi baxımından yeni bir istiqaməti ifadə etmənin yanında islahatın mövzusunu da fərqliləşdirdiyinə də diqqət çəkilməkdədir. Məsələn, XIX əsrdə yaşayan İslam islahatçılarının əksəriyyəti dinin əsas mərhələləri olan ilk əsrlərə və orta əsrlərə aid fiqhi prinsipləri yenidən nəzərdən keçirmə tərəfdarı olduğu halda, dini liberalların ənənəvi fiqh cərəyanları tərəfindən yazılan prinsipləri bir kənara ataraq tamamilə yeni hermenevtik yanaşma tərzini müdafiə edirlər. Bu yanaşmanın əsası isə, İslamda islahat prosesindən gözlənilən nəticəni ifadə edəcək şəkildə, üləma və fiqhçilərin müqəddəs kitabı qrammatik qaydalar və kəlimələr cəhətdən tədqiq edərək vəhyin həqiqətini öz nəzarətləri altına aldığı fikrinə dayandırılmaqdadır.**[3, səh.161]**

İslamda yenilənmə meyillərini müasir Qərb normaları daxilində formalaşdırmağa cəhd edən An-Naimə görə, İslam hüququnun siyasi olaraq dəyişdirilməsini çətinləşdirən xüsus, şəriətin tətbiq edilməsinin müasir beynəlxalq hüquq və insan hüquqları mətinləri qarşısında "tarixi" məsuliyyət daşımasıdır. An-Naimin beynəlxalq hüquq nəzdində şəriəti tənqid etməsinin bir çox elm sahəsində yenidən nəzərdən keçirilməsinin lazım gəldiyini qeyd edən çoxlu hermenevtik yanaşmanın tərəfdarlarından olan Əbu Zeyd, bu prosesdə əvvəla, Qurana hermenevtik cəhətdən yanaşılmasının vacibliyini vurğulayır. Ebu Zeydə görə bir kəlam olaraq Quranın xüsusi tarixi şəraitlərdən

asılı olan bir dil və mətin, eyni zamanda mifik və simvolik ifadə formaları içində işlədildiyi üçün, bütün təfsir ənənələri müsəlman toplum içindəki fərqli cərəyanlar tərəfindən bu "həqiqətin" təsis edilməsi və məhdudlaşdırılması prosesini ifadə etməkdədir. **[1, səh.85]** Bu çərçivədə Quranın mətin olaraq bağlayıcılığı ilə nəzərdə tutulanın müqəddəs kitabın literallığına və bu kitabın dəyişməz mənası olduğuna dair qəti görüş formalaşdırdığı və sadəcə özlərini İslamın qoruyucusu kimi təqdim edən dini hakimiyyətin bu fikrə gəlməsinin mümkün olduğu qeyd edilməkdədir. Əbu Zeydə görə, Quran endirilməyə başlandığı vaxtdan günümüzə qədər müsəlman alimlər tərəfindən həmişə bir "kitab" olaraq başa düşülmüşdür. Məsələn, hər bir teoloji baxışın təşbehli ayələrə öz dini mövqelərinə uyğun olaraq müxtəlif mənalar yüklədiklərinə şahid olunmuşdur.**[1, səh.93]** Halbuki, Quranın çoxlu hermenevtik metodla ələ alınması halında müasir dövrün şərtlərinə təzad təşkil edən xüsusi tarixi tətbiqatlara qarşı Quranın bir məsnət olaraq istifadə edilməsinin qarşısının alınacağı; beləliklə, literalizm və fundamentalizmə qarşı mübarizənin asanlaşacağı qeyd edilməkdədir. Lakin bunun üçün əvvəla İslamın siyasi, sosial və dini ənənələr baxımından bütün mənafe qruplarının nəzarətindən azad edilməsi, ardından bütün müsəlmanlara "məna"nı formalaşdırmaq üçün səlahiyyət verilməsi yolu ilə demokratik və açıq hermenevtikə imkan tanınması lazımdır.**[9, səh.76]**

İslam və demokratiyanın harmoniyası haqqında davam edən mübahisələr bir tərəfə, Protestant təcrübə kontekstində hazırlanan İslamda reform layihələrini "səmərəsiz islahat" olaraq görən A. Əl-Əffəndi, "İslamda islahat"ın müsəlmanların davamlı və konsensusa əsaslanan siyasi təşkilatlar təsis etmələrində nə məcbur, nə də yetərli olduğunu dilə gətirməkdədir. Bu baxışa görə islahatçılıq, ilk növbədə arzu edilən olmalıdır və bu müsəlmanların qərar verəcəyi bir məqamdır. Siyasi mütənasiblik adına qısa müddət ərzində baxış tərzini dəyişdirmək, əvvəllər Xristian islahatçılığında olduğu kimi, şiddətli qütbləşmələrə gətirib çıxaracaq, daha qəti ifadə ilə uğursuzluğa məhkumdur.**[6, səh.38]**

Nəticə etibarilə, Qərb baxış tərzi daxilində yer alan və əsasən müsəlman mənşəli alimlərin fikirləri əsasında tərif etməyə çalışılan İslamda islahatçılıq meyillərinə aid paradiqmaları artırmaq mümkündür. Burada ələ alınma şəkli ilə sosioloji bənzəşdirici yanaşmaya görə, xristianlıq tarixinin insanlığın müştərək tarixi kimi qəbul edilərək bütün dini ənənələrin eyni dini tarixi inkişaf prosesindən keçəcəyi proqnozlaşdırıb, İslamın da Protestantlıq təcrübəsində olduğu kimi müasirliyə qarşı tab gətirə bilməyərək, adətan "Protestantlaşacağı" təxmin edilməkdədir. Sosioloji və tarixi baxımdan bənzəşdirici yanaşma İslamda yeniləşmənin qaçınılmaz olduğunu ifadə etməklə birlikdə, qloballaşma, miqrasiya və inteqrasiya prosesləri kontekstində siyasi səbəblərlə mənalandırıldığı görünməkdədir.

QAYNAQLAR

1. Abu Zayd N. Reformation of Islamic Thought: A Critical Historical Analysis. Amsterdam: Amsterdam University Press, 2006.

2. Benard C. Civil Democratic Islam: Partners, Resources, and Strategies. Santa Monica: Rand Co., 2003.

3. Binder L. Islamic Liberalism. Chicago: The University of Chicago Press, 1988.

4. Blunt V. S. The Future of Islam. Lahore: Sind Sagar Academy, 1975.

5. Eickelman D. F. "Who Speaks for Islam?", An Islamic Reformation?, edt: M. Browers, C. Kurzman, Nyu York: Lexington Books, 2004.

6. El-Affendi A. The Elusive Reformation // Journal of Democracy, No: 14:2, 2003.

7. Luther M. "Luther at the Diet of Worms, 1521", Career of the Reformer II, ed. J. J. Pelikan, H. C. Oswald&H. T. Lehmann, Luther's Works. Philadelphia: Fortress Press, 1999

8. Mandaville P. Global Political Islam. London: Routledge, 2007.

9. Maşalı M. E. Nasr Hamid Əbu Zeydin təfsir qabiliyyəti və bu qabiliyyətin məqsədyönlü və fəlsəfi hermenevtikaya istinadları // Uludağ Universiteti, İlahiyyat fakültesi jurnalı, No: 3/1, 2004.

10. Gündüz Ş. Öze bağlılıq və dəyişikliyə uyğunlaşma mübahisələri arasında din // Milel ve Nihal jurnalı, No: 5/2, 2008, s. 4-7.

11. Modernist Islam, 1840-1940: A Source Book, edt: Charles Kurzman, Nyu York: Oxford University Press, 2002.

12. Pipes D. Slave Soldiers and Islam: The Genesis of a Military System. Yale: Yale University, 1981.

13. Vright R. Two Visions of Reformation // Journal of Democracy, No: 7, 1996, ss. 64-75.

Теоретические основы обновление тенденции в исламе

Резюме

Христианскоя реформирования эксперимент, который связан с идеями реформ в Исламе в положительном или отрицательном смысле был причиной строго сравнительного анализа реформ идей и религии. В этой статье такой метод приближается было несколько б. В обоих Западом и Востоком, раскрывающих концепции были обсуждены, что связано с тем, почему это нуждается в обновлении в исламе, подобные особенности этих реформ с христианской Реформации и сколько это сходство является правильным.

Theoretical Bases of Updating Trends in Islam

Summary

Christian reformation experiment, which is associated with reform ideas in İslam in positive or negative sense was reason for strickly comparative analysis of reform ideas of both of religion. İn this article such method of approaching was somewhat used. İn both West and East revealing conceptions were discussed, which connected with why is in need of updating in İslam, similar features of these reforms with Christian reformation and how much this resemlamce is correct.

Rəyçi: tarix ü.f.d., doş. F.Y.Yusifov

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Vüqar İSMAYILOV
İqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru
Azərbaycan Texnologiya Universiteti

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN-İNTERNETİN AİLƏDAXİLİ MÜNASİBƏTLƏRƏ TƏSİRİ

Açar sözlər: *ailə, ailədaxili münasibətlər, internet, cəmiyyət, texnoloji inkişaf*
Ключевые слова: *семья, семейные отношения, Интернет, общество, технологическое развитие*
Keywords: *family, family relations, Internet, society, technological development*

Ailə, ərlə arvad, valideynlərlə övladlar arasında tarixən təşəkkül tapan konkret münasibətlər sistemidir. Ailə fərdlə cəmiyyət, həmçinin fərdlə dövlət arasında vasitəçi kimi səciyyələnən, köklü dəyərləri nəsildən-nəslə ötürən kiçik sosial qrupdur. Beləliklə, ailə ər-arvadlıq, valideynlik-qohumluq əlaqələri ilə şərtlənən, bağlanan, uşaqların sosiallaşmasına istiqamətlənən, sosial qarşıdurma və gərginliyi aradan qaldırmağa yönələn və öz üzvlərinin birləşməsini təmin edən spesifik sosial birlikdir.

Ailənin formalaşması bir sıra mərhələlərdən keçir. Onların içərisində ən mühümləri aşağıdakılardır: 1. nikahın bağlanması-ailənin yaranması; 2. uşaq doğumunun başlanması-ilk uşağın doğulması; 3. uşaq doğumunun sona çatması-sonuncu uşağın doğulması; 4. “boş yuva”-sonuncu uşağın ailəni tərk etməsi; 5. ailənin mövcudluğunun sona çatması-ərin və ya arvadın vəfat etməsi. Hər bir mərhələdə ailə ancaq özünə xas olan sosial və iqtisadi xüsusiyyətlərə malik olur.**[7, səh.113]**

Ailəni digər institutlardan fərqləndirən əsas cəhətlərdən biri də onun funksiyalarının çoxluğudur. Ailə əvvəllər iqtisadi, siyasi, sosial, mədəni, və s. funksiyaları yerinə yetirirdi. Bəzi alimlərin gəldiyi qənaətə görə, qloballaşan dünyada ailə bir sıra funksiyalarını yaranmış digər qurumlara təslim etmişdir. Ancaq bu fikir heç də ailənin spesifikliyini və əhəmiyyətini azaltmır.

İnsan cəmiyyəti daim fiziki və mənəvi təkrar istehsala ehtiyac duyduğundan, uşaqların doğumu və sosiallaşdırılmasının təşkilinin sosial forması kimi ailəyə sosial tələbat həmişə aktualdır. Bu həm də elə özünəməxsus formadadır ki, bu zaman həmin sosietal funksiyaların həyata keçirilməsi ailəvi həyat tərzinə fərdlərin şəxsi motivasiyası şərtilə, hər hansı xarici məcburiyyət və təzyiqsiz baş verir. Bütün bunlar ailənin reproduktiv (doğum) funksiyasından xəbər verir.

İnsan bioloji canlı olaraq dünyaya gəlsə də, sadəcə bioloji ehtiyaclarının təmin edilməsi onun üçün kifayət deyildir. Bioloji ehtiyacları ilə yanaşı, onun psixoloji, sosioloji və fizioloji ehtiyacları da mövcuddur. Hər bir insanın sosioloji ehtiyacları var,

çünki o, eyni zamanda sosial bir varlıqdır və içində yaşadığı sosial həyatın bir hissəsini təşkil edir. İnsanın bu ehtiyacı isə onun sosiallaşması ilə təmin olunur. Sosiallaşmanın təbii nəticəsidir ki, fərd öz yerini şəxsiyyətə devr edir. Sosiallaşma prosesinin təməli isə ailədə atılır.

Hər bir insan cəmiyyətdə doğulur, böyüyür və inkişaf edir. İnsanın içində yaşadığı cəmiyyətə məxsus ola bilməsi üçün isə, o, cəmiyyətə aid norma və dəyərləri, adət-ənənələri mənimsəməlidir. Bu prosesin həyata keçməsi üçün isə müvafiq cəmiyyətdəki insanlarla, qruplarla qarşılıqlı münasibətdə olur və beləcə fərd sosiallaşaraq şəxsiyyətə çevrilir.**[4, səh.57]**

Sosiallaşma insanın dünyaya gəlməsi ilə başlayan və insanın bütün həyatı boyu davam edən prosesdir. Fərdin sağlam bir şəxsiyyət qazanmasında əsas şərtlərdən biri, funksional ailə mühitində bioloji və sosyal-psixoloji ehtiyaclarının qarşılanmasıdır. Bu ehtiyacların qarşılanması üçün isə, ailə üzvləri arasında sağlam sosial əlaqələrin qurulması vacibdir. Ailələrin növlərindən asılı olaraq ailə daxilində bir çox sosial əlaqə formaları mövcuddur. Ailə qrupundakı sosial əlaqələr fərdin sosiallaşması, bioloji, sosyal-psixoloji ehtiyaclarının qarşılanması və şəxsiyyətinin formalaşması yönündən çox əhəmiyyətlidir: **[3, səh.5]**

- Cütlük arasındakı sosial əlaqənin müfrədatı-sədaqət, himayə, fədakarlıq və sevgi;
- Uşaqlar arasında formalaşan sosial əlaqənin müfrədatı-qardaş və ya bacı sevgisi, himayə və fədakarlıq;
- Ana ilə uşaqlar arasındakı əlaqənin müfrədatı-ana şövqəti, övlad sevgisi, fədakarlıq, himayə və ana sevgisi;
- Ata ilə uşaqlar arasındakı əlaqənin müfrədatı-övlad sevgisi, fədakarlıq, himayə və ata sevgisi.

XX əsrin sonlarından etibarən kütləvi informasiya vasitələri (KİV-medya) modern cəmiyyətlərin ən əsas institutu halına çevrilmişdir. Medya həyatımızın içində, hətta belə desək, mərkəzindədir. Obrazlı şəkildə desək, bu gün insanlar medya mədəniyyəti ilə nəfəs alırlar. Kütləvi informasiya vasitələri dedikdə, biz əsasan, aşağıda adları qeyd olunan vasitələri nəzərdə tuturuq: radio, televiziya, kitablar, qəzetlər, jurnallar, sabit və mobil telefonlar, vcd, dvd, internet və s.

Xüsusilə, 1980-ci illərdən etibarən baş verən texnologiya inqilabı insanların həyatında spesifik inkişafa səbəb oldu. Peyk, internet, rəqəmsal cihazlar və s. texnoloji yeniliklər zaman və məkan məfhumunda müəyyən dəyişikliklərə səbəb oldular.

Gündəlik həyatımızda artıq insanların hər şeyi texnoloji vasitələrlə həyata keçirməsinin nəticəsidir ki, insanların bir-birləri ilə ünsiyyətləri ciddi mənada azalmağa başlamışdır. Bu səbəblədir ki, Naisbitt insan təbiətinin mənəvi ehtiyacları ilə texnoloji vasitələr arasında tarazlığın qorunması ehtiyacından bəhs etmişdir.**[2, səh.36]** İnsanlar arasında ünsiyyətin azalması ictimai əlaqələrin yoxa çıxması deməkdir. Fərdin başqalarıyla olan ictimai münasibəti ona özünü tanımağa kömək edir. Yəni insanın ətrafındakı insanlar onun "güzgüsüdür". Hər bir fərd ətrafındakı insanlarla davamlı ünsiyyətdə olmalıdır. Çünki o, ətrafındakıları tanıdıqca əslində özünü tanımaqdadır. Bunun çatışmazlığıdır ki, hal-hazırda fərdlər kifayət qədər sosiallaşa bilmirlər.**[1, səh.72]**

Texnoloji inkişaflar hər keçən gün sürətli bir şəkildə irəliləyir. Buna ayaq uydurmaqda çətinlik çəkən insan isə öz təbiətindən uzaqlaşır. Texnologiyaya aludəçiliyin mənfi nəticəsidir ki, insanlar bir-birinə yaxınlaşdıqca əslində uzaqlaşmaqda, sayları artdıqca tək qalmaqdadırlar. Çünki insan sadəcə maddədən ibarət bir varlıq deyildir. Maddi ehtiyaclarını texnoloji ünsiyyətlərlə "qarşılayan" fərdlər, sözün həqiqi mənasında, mənəvi boşluq yaşayırlar. Əslində isə problem texnologiyada deyil, onu məqsədəuyğun şəkildə istifadə edə bilməyən insanlardadır.

1975-ci ildə insanların evlərində film izləyə bilmək üçün istehsal edilən böyük ekranlardan sonra Artur D.Litle qeyd edirdi ki 1980-ci ilə qədər kinoteatrlara gedən insan qalmayacaq.**[2, səh.42]** Təbii ki, bu baş vermədi, çünki o, unudurdu ki, insan sosial bir canlıdır və onun ünsiyyətə, qarşılıqlı münasibətə ehtiyacı vardır.

Texnoloji inkişaf zərərli və qarşısının alınması lazım olan bir tendensiya deyildir. Burada əsas diqqətlərii yönəltmək istədiyimiz məsələ, bu inkişafla ictimai həyat arasında stabilliyin qorunması və bu istiqamətdə məqsədyönümlü addımların atılmasıdır.

Texnologiyanın sürətli bir şəkildə inkişafının nəticəsidir ki, bu gün internet həyatımızın hər nöqtəsində öz mövcudluğunu qoruyur. Məlumatlar, şəkil, video, xəbər, istənilən mətnin sürətli bir şəkildə əldə edilməsi, oyun, söhbət və sosial medya fürsətləri interneti həyatımızın vazkeçilməzi etmişdir. Sadə dillə desək, internet, kompüterlər arasında məlumatların ötürülməsini həyata keçirən sistemə verilmiş tərifdir.**[5, səh.12]** İnternet mütəmadi olaraq inkişaf edən və dünyada öz nüfuzunu gündən günə artıran təsirli kütləvi informasiya vasitəsidir.

Ötən əsrin əsas kəşfi sayılan internet, bu əsrdə də insanların həyatında öz əhəmiyyətini daha da artırmaqda davam edir. Əvvəllər qarşılıqlı münasibətlərini üz-üzə quran insanlar, artıq virtual ünsiyyət yollarına üstünlük verirlər. Yaranma tarixi 1960-cı illərə dayanan internet kütləvi olaraq 2000-ci ldən sonra özünü büruzə verdi. Bütün dünyada internet istifadəçilərinin sayı 1995-ci ildə 1 milyon ikən, 2000-ci ildə bu rəqəm 360 milyona çatdı. 2014-cü il məlumatı isə bu rəqəmin 3 milyarda çatdığından xəbər verirdi. Təbii ki, digər kütləvi informasiya vasitələrindən fərqli olaraq internetə marağın bu şəkildə artmasının müəyyən səbəbləri var idi:

- İstədiyin məlumatı dərhal əldə edə bilmə xüsusiyyyətinin mövcudluğu;
- Bütün kütləvi informasiya vasitələrini nəzdində barındırma xüsusiyyəti;
- İstifadəçilərinin digər KİV istifadəçilərinə nəzərən aktiv ola bilməsi;
- Fikir bildirmək və mövcud ola bilmək üçün fiziki bir bədənə ehtiyacın olmaması;
- Ünsiyyətin virtual olmasının insanlarda mədəni cəsarəti oyandırması;
- Ünsiyyətin müəyyən qaydala çərçivəsində deyil, daha səmimi bir mühitdə formalaşması;
- İnsanlar arasında sinfi, irqi, milli, cinsi və yaş fərqinin qoyulmaması və s.

İnternetə marağın sürətlə artması və qeyd etdiyimiz kimi iştirakçıların kütləviliyi mütəxəssislər arasında internet haqqında müəyyən mülahizələrin yürüdülməsinə səbəbiyyət verdi. Bəzi alimlər internetin faydalarından bəhs edərkən, buna qarşı fikirlər səsləndirən mütəxəssislər də ortaya çıxdı və internetin faydaları və zərərləri haqqında

fikir ayrılıqları yaranmağa başladı. İnternetin fayda və zərərlərini ümumiləşdirərək aşağıdakı şəkildə göstərmək mümkündür:

İnternetin bir çox faydaları ilə yanaşı aşağıdakı qeyd olunan bəzi zərərləri də vardır. Bunlar:

- Həddindən artıq istifadə edildiyində həm zamanın, həm də səhhətin məhvinə gətirib çıxarır;
- Zərərli saytlar həm uşaqların, həm də yetkinlərin mənəviyyatının pozulmasına gətirib çıxarır;
- İnternetdə oynanılan oyunlar uşaqların şiddətə meylini artırır və onlarda psixoloji pozuntuların yaranmasına səbəb olur;
- Ailə daxili münasibətlərə ciddi zərər yetirir;
- Saxtakarlıq üçün münbit bir məkandır;
- İnsanları asılı hala salaraq onlarda zərərli vərdişlər yaradır.

Yuxarıda da qeyd olunduğu kimi internet ailədaxili münasibətlərə ciddi zərər vurur. Ana və ata uşağın ehtiyaclarını qarşılamaqda vəhdət təşkil edirlər. Onlardan birinin yoxluğu və ya əksikliyi uşağın böyüməyində, inkişafında və sosiallaşmağında tam formallaşmağa mane olacaqdır. Uşağın ana məhəbbətiylə yanaşı, ata qayğısına, onun güclü qollarına və avtoritet idarəetməyinə hər zaman ehtiyacı vardır. Təbii ki, bu gün işdən çox gec və yorğun bir şəkildə evə gələn və gəldikdən sonra yemək, televizor və digər kütləvi informasiya vasitələri ilə "yorğunluğunu üzərindən atmağa çalışan", qisa vaxta bu qədər çox işi sığdıraraq, bu arada da evdəki körpəni tamamilə unudan bir ata modeli ilə üz-üzəyik.

Matilda və Con Riley bir tədqiqatında gəldiyi qənaətə görə, "ailələrinə möhkəm bağlarla bağlanmış uşaqlarda internet və televiziyaya maraq digər həmyaşıdlarından daha azdır".**[6, səh.19].** Valideyinləri ilə münasibətləri sağlam əsaslarla qurulmuş uşaqlar digər həmyaşıdlarına görə real həyata daha tez adaptasiya ola bilirlər ki, bu da onların internet oyunlarında macəra axtarmaqdan uzaqlaşdırır.

Əslində texnoloji inkişaf bu gün hər birimizə kifayət qədər asudə vaxt qazandırmışdır. Ancaq təəssüflər olsun ki, qazandığımız bu asudə vaxtı ailə üzvləri ilə birlikdə keçirməkdənsə təkrar texnoloji vasitələrə üz tuturuq.

Nəticə etibarilə, ailə strukturunda baş verən köklü dəyişikliklər ailənin fərdlər üzərində təsirini azaltmış və bu azalma bərabərində müəyyən əksikliklər də gətirmişdir. Yəni ailə öz sosiallaşdırma "silahını" əlindən buraxaraq, digər sosiallaşdırma vasitələrinə "təslim" olmuşdur. Ailəsi tərəfindən sosiallaşmayan uşaqlarda isə, daha öncə də qeyd etdiyimiz kimi, sevmə, sevilmə, aid olma, bağlılıq, himayə edilmə və güvən hissi yetərincə azalmışdır.

Ailəsindən yetərli qarşılığı ala bilməyən uşaqlar isə çarəni digər vasitələrdə və ya real həyatdan uzaqlaşmaqda, içə qapanmaqda və "öz dünyalarına" çəkilməkdə tapmağa çalışırlar. Elə internetdən istifadə də bu alternativlərdən biri olmuşdur. Real həyatda istədiyini əldə edə bilməyən insanlar virtual aləmə yönlənməyə başlayırlar. Sosial qabiliyyəti zəif, özünü ifadə edə bilməyən, utanqaç və çəkingən insanlar üçün internet risksiz bir şəkildə yeni insanlarla tanış olma fürsəti verdiyi üçün çox cazibəlidir. Real

həyatla güclü bağları olan, funksional ailə mənsubu fərdlərin üzərində isə internetdən istifadə dərin yaralar açmaz.

Real həyatdan uzaqlaşma, yalnız qalma istəyi artıq fərdi deyil, ictimai xarakter almışdır. İnsanları ictimai həyata qaytaracaq tədqiqatlar aparılaraq bu istiqamətdə məqsədyönümlü addımlar atılmalıdır. Bunun üçün ilk öncə ailə strukturu təkrar gözdən keçirilməli, qadının ailədə rolu, onun iş həyatı və ailə arasındakı tarazlığı qoruması üçün təkliflər hazırlanmalıdır.

Funksional ailə modeli əldə etməyin yolu, eyni zamanda, ailə qurarkən atılacaq addımlarda və düzgün seçimdə gizlidir. Bunun üçün ailə həyatı quracaq gənclərə, onları gözləyən məsuliyyət və ailədaxili vəzifələrlə əlaqədar olaraq müəyyən seminarlar verilməli və bu istiqamətdə planlı addımlar atılmalıdır.

Cəmiyyət daxilində ailə üzvlərinin hər zaman birlikdə ola biləcəyi, asudə vaxtlarını birlikdə dəyərləndirəbiləcəkləri hobbilər inkişaf etdirilməli və birlikdə həftə sonları keçirəbiləcəkləri məkanları hər ailənin büdcəsinə uyğunlaşdırılmalıdır.

Məsələnin həlli yolu tamamilə internetdən uzaqlaşmaqda deyil, ondan istifadəni nizama salmaq və planlı bir şəkildə istifadə etməkdir. Eyni zamanda hansı saytlardan istifadə, hansı metodlarla istifadə də bu istiqamətdə göstərilməli və maarifləndirici addımlar atılmalıdır.

Uşaqlar ailələri tərəfindən sosial fəaliyyətlərə qatılmağa yönləndirilməli, dərsdən xaric asudə vaxtlarda isə incəsənətə və ya idman fəaliyyətlərinə yönləndirilməlidir. Ümumiyyətlə, asudə vaxtların düzgün dəyərləndirilməsi istiqamətində məktəblərdə şagirdlərə yön göstərilməli və eyni zamanda valideyinlərə yönəlik də bu istiqamətdə tədbirlər həyata keçirilməlidir.

QAYNAQLAR

1. Almacıoğlu T. Ailədaxili ünsiyyətin gəncin təhsil həyatına təsirləri. İstanbul Universiteti Sosial Elmlər İnstitutu, 1992.
2. Naisbitt J. Megatrends ten new directions transforming our lives. New York: Warner books, 1984.
3. Nirun N. Sistematik sosiologiyaya görə ailə və mədəniyyət. Ankara: Atatürk Mədəniyyət Mərkəzi, 1994.
4. Özkalp E., Kocacık F. Davranış elmlərinə giriş. Red: Ənvər Özkalp, Əskişəhər: Anadolu Universiteti, 1997.
5. Peterson M.P. Cartography and the internet: introduction and research agenda. Cartographic perspectives, 2013.
6. Şirin M.R. Televiziya, uşaq və ailə. İstanbul: İz, 1999.
7. Vahidov F.Q., Ağayev T.B. Sosiologiya (dərs vəsaiti). Bakı: 2008.

Влияние Средств Массовой Информации-Интернета на Семейные Отношения

Резюме

В наши дни технология развивается все быстрее. И человек, который с трудом пытается идти в ногу с технологией все больше отдаляется от своей природы. На самом деле, проблема не в самой технологии, а в людях, которые не в состоянии использовать ее соответствующим образом.

Научно-технологическое развитие в мире, особенно бурное развитие средств массовой информации и их глубокая интеграция в жизнь каждого человека серьезно влияет на структуру семьи, ее функции, семейные отношения, в общем, весь институт семьи.

Эта статья исследует связь между использованием Интернета и семейными отношениями, и пытается определить результаты корреляции.

Influence of Mass Media-Internet on Family Relations

Summary

These days technology develops and evolves rapidly. And human being who tries hardly to keep up with technology moves further away from his own nature. In fact, the problem is not technology itself, but the people who are unable to use it appropriately.

Scientific and technological development in the world, especially the rapid development of mass media and its deep integration into every person's life seriously affects the family structure, its functions, family relations, in short, the whole institution of the family.

This article explores the connection between the use of the Internet and family relations and attempts to determine the correlation results.

Rəyçi: tarix ü.f.d., doş. F.Y.Yusifov

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Solmaz ƏHMƏDOVA
ADNSU-nun müəllimi

MƏMMƏD SƏİD ORDUBADİNİN İCTİMAİ-SİYASİ VƏ FƏLSƏFİ GÖRÜŞLƏRİNİN FOMALAŞDIĞI TARİXİ ŞƏRAİT

Ключевые слова: *Идеология, общественно-политическое, просвещение, течение, прогресс*
Key words: *Ideology, social-political, enlightenment, trend, progress*

XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan Rusiya tərkibində demokratik inqilab mərhələsinə daxi olur. İnqilabın, sosial-milli ziddiyyətlərin dərinləşməsi və getdikcə kəskinləşməsinin təsiri ilə milli azadlıq hərəkatı Azərbaycanda da genişlənməyə başladı. Erməni-müsəlman qırğınları buna bir daha təkan verdi. Milli azadlıq hərəkatı Azərbaycanın təkcə şimalında deyil, cənubunda da baş qaldırır. M.S.Ordubadi də İran inqilabında fəal iştirak edir və vahid Azərbaycan dövlətinin yaradılması uğrunda fədakarcasına mübarizə aparır.

1905-ci il birinci rus burjua inqilabının Azərbaycanda da milli oyanışa, ictimai fikrin siyasiləşməsinə güclü təsiri olmuşdur. Məhz bunun nəticəsi idi ki, milli mətbuat sürətlə inkişaf edir, ictimai fikirdə çoxlu ideya cərəyanları meydana gəlir. Bu ideya cərəyanları sırasında sosial-demokpatik, inqilabi-demokratik və millətçilik cərəyanları başlıca yer tuturdu. Belə bir şəraitdə M.S. Ordubadinin ictimai-siyasi və fəlsəfi görüşlərinin inkişafında, yaradıcılıq fəaliyyətində yeni -inqilabi-demokratik mərhələ başlanır. XX əsrin əvvəllərində Azərbaycanda inqilabi-demokratik fikrin təşəkkülündə M.S. Ordubadinin də böyük xidmətləri olmuşdur. Ədəbiyyatşünas alim Əziz Mirəhmədov böyük mütəfəkkir ədib Cəlil Məmmədquluzadənin XX əsrin əvvəllərində Azərbaycanda demokratik ictimai fikrin, milli-azadlıq hərəkatının inkişafında rolundan bəhs edərkən yazır ki, «Məmmədquluzadə birinci rus inqilabının təsiri altında qələm dostları M.Ə. Sabir, Ə. Haqverdiyev, Ö. Faiq, Ə. Nəzmi, M.S. Ordubadi və başqaları ilə birlikdə «molla nəsrəddinçilik» adı almış böyük bir fikir cərəyanı, inqilabi-demokratik ədəbi jurnalist hərəkat vücuda gətirmişdir. Bu fikir cərəyanı və ədəbi jurnalist hərəkatı əhəmiyyəti, gözəllik və qüvvəsi, hər şeydən əvvəl milli-azadlıq hərəkatından ilham almasında və ona xidmət etməsində, Azərbaycan torpağına, onun qəhrəmanlıq tarixinə, zəngin mənəvi sərvətinə, habelə dünya xalqlarının humanist mədəni irsinə bağlı olmasındadır» [1].

Azərbaycanda bəhs edilən dövrdə inqilabi-demokratik fikir cərəyanının təşəkkül tapmasında M.S. Ordubadinin adı da xüsusilə qeyd edilir. Bu əlbəttə ki, heç də təsadüfi olmayıb, tarixi həqiqətlərə söykənən məntiqi nəticənin ifadəsidir. M.S. Orduba-

dinin sözün əsl mənasında XX əsrin əvvəllərində Azərbaycanda fəlsəfi, ictimai-siyasi, ədəbi-bədii, publisistik fikrin milli istiqlal məfkurəsinin formalaşması istiqamətində inkişafında özünəməxsus yeri və rolu vardır.

Akademik F.Q.Köçərli Azərbaycanda milli-azadlıq hərəkatının aparıcı qollarından biri olan «Molla Nəsrəddin»çilərin baxışları və fəaliyyəti haqqında yazmışdır: «XX əsrin əvvəllərində Azərbaycanda orta əsr qalıqlarına və çarizmə qarşı mübarizədə xalqın ictimai və mənəvi köləlikdən azad edilməsi uğrunda mübarizə vəzifələri ilə birləşirdi. Odur ki, inqilabçı demokratlar cəhalətə, fanatizmə, geriliyə, din və mövhumata qarşı mübarizə apararkən öz fəaliyyətlərində təbii olaraq maarifçiliyə də geniş yer verir, zəhmətkeşlərin, savadlanması, mənəvi səviyyəsinin yüksəlməsi zərurətini qeyd edirdilər». Belə cəhətlər M.S.Ordubadinin də ictimai-siyasi və fəlsəfi görüşləri üçün də səciyyəvi olmuşdur.

XX əsrin əvvəllərində ideoloji baxımdan maarifçilik ön plana keçsə də, təsir dairəsini saxlamaqda idi. Professor İ.Ə. Rüstəmov yazır: XX əsrin əvvəllərində Azərbaycanda marksizm-leninizm ideyalarının yayılmaqda olması ilə bir sırada maarifçilik hərəkatı hələ öz tarixi rolunu oynamaqda idi. Cəmiyyətdə elm və mədəniyyətinin, ictimai-fəlsəfi fikrin inkişafı üçün, xalqın maariflənməsi, nadanlıq və cəhalətin aradan qaldırılması, ölkədə geniş məktəb şəbəkəsinin yaradılması üçün ciddi fəaliyyət göstərilməsi demokratik maarifçilik hərəkatının xarakter xüsusiyyətlərindən idi. Maarifçilərdən bir çoxu, əlbəttə, elə başa düşürdü ki, əhali içərisində elmi biliklərin yayılması ilə onların düçar olduqları nadanlıq və cəhalət, digər ictimai bəlalar mexaniki surətdə dərhal aradan qalxacaqdır» [2].

Ənənəvi maarifçilərdən fərqli olaraq M.S. Ordubadi belə düşünməsə də, onun yaradıcılıq fəaliyyətində maarifçilik ideyaları az yer də tutmamışdır. Lakin inqilabi-demokratik motivlər burada aparıcı olmuşdur. Bunu M.S. Ordubadinin həmin dövrdə yazdığı əsərlərinin elmi-nəzəri təhlilində aydın görmək olur.

M.S.Ordubadinin yaradıcılığında mədəni geriliyin, savadsızlığın, nadanlığın, cəhalətin, mütləqiyyətin geniş tənqidi ilə yeniliyin, mədəni tərəqqinin, sosial ədalətin azadlığın qızğın təbliği və təqdiri vəhdət təşkil edir. Onun ictimai-siyasi görüşləri də məhz bu yöndə təşəkkül tapmış, inkişaf etmişdir.

Xalqları əsarət altında saxlamaq üçün çarizmin onları xurafat içində saxlamağa, savadlanmasına mane olmağa çalışır, ruslaşdırma, xristianlaşdırma siyasəti aparırdı. Çarizm yerlərdə müstəmləkə zülmünə qarşı hər hansı çıxışı qan içində boğurdu. Belə bir şəraitdə istər Azərbaycan burjuaziyası, istərsə də xalqın digər maarifpərvərləri kimi böyük mütəfəkkir M.S. Ordubadi də xalqı savadlanmaq, gözünü açmaq üçün əlindən gələni edirdi. Millətlərin taleyini düşünən qabaqcıl ziyalılarımızın çarizmin milli-müstəmləkə siyasətini tənqid etməkdən başqa imkanları yox idi.

Azərbaycan burjuaziyasının bir çox liberal nümayəndələri də xalqı maarifə, elmə çağırır, bunun üçün 70-ci illərin sonundan Tiflisdə çıxmağa başlayan «Ziya», (bir qədər sonra isə o Ziyayi -Qafqaziyyə adlandırıldı) qəzetinin səhifələrindən istifadə edirdilər. Bu dövrdə burjuaziyanın bəzi nümayəndələri xalqın həyatını yenidən qurmaq, ana dilini geniş yaymaq fikirlərini irəli sürürdülər. «Vətən», «millət» məhfumları işlədirdilər.

M.S. Ordubadinin «Azərbaycan tarixinin yaradılması prinsipləri», «Əbül-Ülа Gəncəvi və Rüdəki», «Rüdəki haqqında müəxxəzlər», «Bab və Bəha», «İran Pəhləvi dövründə», «İranın qədim tarixindən» kimi bir çox elmi-tədqiqat xarakterli məqalələri ilə şərqşünaslıq və azərbaycanşünaslıq elmini zənginləşdirir [3].

Bu dövrdə Azərbaycanda mütərəqqi-demokratik hərəkat güclənir. Bu fikrin nümayəndələri öz əsərlərində, publisist yazılarında Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında baş verən hadisələrdən bəhs edir, cəmiyyətin əksliklərini tənqid atəşinə tuturdular.

«Şərqi-Rus» qəzetində çap olunan şerlərinin hamısında şair məhz milli oyanış, qəflət və cəhalət yuxusundan ayılıb, maarifə, mədəniyyətə, elmə, sənətə yiyələnmək məsələlərini təbliğ edirdi. Bu məsələləri o, dövrün, zamanın tələbləri səviyyəsində izah edir, geniş mənada tərəqqi və milli inkişaf tələbləri nöqteyi-nəzərindən işıqlandırmağa çalışırdı. Ümumiyyətlə, M.S.Ordubadinin ilk dövr yaradıcılığı qızğın maarifçilik ideyalarının açıq təbliği ilə səciyyələnir.

M.S.Ordubadidə azadlıq, istiqlaliyyət fikirləri gücləndikcə təqib və təhdidlər də gücləndi. Ordubadi elm və sənətin avamlıqdan, ağılın qəflətdən üstünlüyü barədə söhbətini «Qəflət» şerində davam etdirir, millətin «iki yüz səmtə» bölünüb vaxtını tiryəkçiliyə, cindarlığa, və s. səmərəsiz işlərə sərf etməsindən gileylənir. Avropa və Amerikadakı dəyişikliklərdən, «simsiz teleqraf»lardan, rentgen şüasının kəşfindən danışır, eşq macəralarına uyanlara, «dilbərin zülfü-pərişanı» tərifləyənlərə, gülə-bülbülə aludə olanlara müraciətlə deyirdi: «Qəzəl bazarı keçdi, düşdü şah beyt qiymətdən» [4].

Bütün Rusiyanı təlatümə gətirən 1905-ci il inqilabı dövründə zəhmətkeşlərin mövcud quruluşa qarşı mübarizə ziyalıların da ruh yüksəkliyinə, dərin marağına səbəb oldu.

O, «Vətən və hürriyyət» kitabında çıxan şerlərinin birində Azərbaycanın əsrlər boyu yadelli işğalçıların talanlarına məruz qalmasından, olmazın bəlalar çəkməsindən bəhs edir, zülmdən qurtulmaq üçün yollar axtarır, din xadimlərinin qeyrətsizliyindən, varlıların «kərəmsizliyindən» qəzəblənir, rəiyyətdə «elmü vüqarın» olmamasına təəssüflənirdi. Başqa bir şerində M.S.Ordubadi vətən övladını azadlıq uğruda candan keçməyə, birgə hərəkət etməyə çağırır, «dünyada fəzilət yolunu səy göstərməklə tapmaq olar» deyən görkəmli fransız yazıçısı Viktor Hüqodan misal gətiripdi. Burada müəllifin qeydi çox maraqlıdır. O, millətin qeyrətini çəkməklə zindanlara düşsə də, məqsədinə nail olmaqdan bəhs edərək yazırdı: «Hürriyyət uğrunda zindanlara düşənlərin sərsiləsi Bonivar nam cavan idi. Məzkur cenevrəli olub… 1530 səneyi miladisindən 1536-cı səneyi miladisinə qədər Şilyon nam həbsxanada qalmışdır. Əsarətdə qaldığı Şilyon şatosundan hürriyyətlə qurtulub kəndi Vətənini dəxi hürriyyətdə gördü» [5]. M.S. Ordubadi də öz həmvətənlərini belə görmək istəyirdi.

Qəflət qaranlıqlarına işıq saçmağa, elm ziyasını yaymağa can atan M.S.Ordubadi öz həmvətənlərini bilikli, savadlı görmək üçün əlindən gələni əsirgəmirdi.

M.S.Ordubadi Azərbaycan dilinin saflığı uğrunda «Molla Nəsrəddin» jurnalının apardığı mübarizədə fəal iştirak edirdi. «Ana dilində məktub» əsərində o, Azərbaycan, ərəb, fars dillərində eyni məna verən sözləri qəsdən yan-yana düzərək, qıraq-bucaqdan eşitdikləri hər xarici sözü zorla dilə gətirməyə çalışan alimnümaları lağa qoyurdu. “Millətpərvər intellegent”, “Azarlamaq”, “Ana dili” felyetonlarında «yazıq ana dilinin» bərbad hala salınmasından bəhs edir və nifrətini bildirirdi.

QAYNAQLAR

1. Məmmədquluzadə C. Xatiratım. Əsərləri :6-cı cild. Bakı, Azərnəşr, 1985 s.142-144).
2. Azərbaycan tarixi. Bakı, 1994, səh.614)
3. Yenə orada səh. 614.
4. Mirəhmədov Ə. Azərbaycan Molla Nəsrəddini. Bakı Yazıçı.1980, səh. 3-4).
5. Rüstəmov İ.Ə. XX əsrin əvvəllərində Azərbaycanda təbii-elmi və fəlsəfi fikir. Bakı, Azərnəşr, 1992, səh.9.

Историческая ситуация формирования общественно-политических и философских взглядлв М.С.Ордубади

Резюме

Чтобы держать народ в неволе и невежестве, царизм всячески препятствовал его образованию, проводил политику русификации и христианизации. Царский режим топил в крови народ, который неоднократно выступал против колониального гнета. В такое неспокойное время азербайджанская буржуазия, просветители народа, в том числе и мыслитель М.С.Ордубади, делали все возможное, чтобы просветить народ и открыть им глаза. Именно в такое тяжелое для народа время формировались общественно-политические и философские взгляды азербайджанского просветителя М.С.Ордубади.

Historical situation of formation political and philosophical views of M.S.Ordubadi

Summary

The tsarism keep in bondage the people tried to preserve them against damage, interfered in training, russification and pursued christianization policy. The tsarism squeezed in blood each performance on places against colonial tyranny. In this situation both the Azerbaijani bourgeoisie, and other educators of the people as the great thinker M. S. Ordubadi did everything possible to train the people and open eyes for them. His political and philosophical views was formed only in such strained situations.

FİLOLOGİYA ELMLƏRİ

BAKI AVRASİYA UNİVERSİTETİ
"Sivilizasiya" jurnalı 2016.№1

İslam SADIQ

TÜRK DİLİNDƏ HECA QANUNU

Açar sözlər: *türk dili, heca, heca vəzni, heca sistemi, heca qanunu, səs, söz*
Keywords: *turkish language, syllable, metre based on the number of syllable, syllable system, syllable law, sound, word*

Türk, o cümlədən Azərbaycan dili söz kökləri və sözdüzəldici şəkilçilərlə olduqca zəngindir. Qədim dövrlərdə söz kökləri daha çox birhecalı olmuşdur. Azərbaycan dilində birhecalı sözlər indi də yetərincə çoxdur.

Birhecalı sözlərin əksəriyyəti dildə semantik yuva rolu oynamış, onlardan çoxlu yeni sözlər yaranmışdır. Məsələn, su sözünü götürək. Su türk dilində işlənmiş ən qədim sözlərdən biridir. Şumer dilində də su sözü indiki anlamda işlənmişdir. Su sözü türk dilində semantik yuva olmuş, ondan onlarla yeni sözlər əmələ gəlmişdir: su, su-lu, su-çu, su-çu-luq, su-vat, su-luq, su-luq-la-maq, su-luq-lan-mış, su-dur, su-var-maq, su-va-rıl-maq, su-va-rıl-mış, su-lan-mış, su-la-maq, su-qo-vu-şan, su-qa-rı-şan, su-yuq, su-yuq-luq, su-ba-şı, su-vaq, su-vaq-çı, su-va-maq, su-van-maq, su-van-mış, su-vaq-al-tı, su-vaq-lı, su-cuq, su-cuq-luq, su-cuq-la-maq, su-yo-lu, su-ba-sar, su-tu-tar, su-qa-bı, su-suz, su-suz-luq, su-suz-la-maq, su-lu-luq, su-a-yı-rı-cı, su-bal-dır-ğa-nı, su-ba-san, su-bas-qı-lı, su-bi-bə-ri, su-bi-ti, su-vaq-la-maq, su-vaq-lan-maq, su-vaq-lat-dır-maq, su-vaq-lat-maq, su-vaq-sız, su-vaq-çı-lıq, su-var-ma, su-var-maq, su-vat-maq, su-vat-dır-maq, su-va-caq, su-vaş-qan, su-vaş-qan-lıq, su-vaş-dır-maq, su-vaş-maq, su-qa-ba-ğı, su-qa-mı-şı, su-qa-ran-qu-şu, su-qo-zu, su-quz-ğu-nu, su-zan-ba-ğı, su-i-la-nı, su-i-ti, su-ya-da-vam-lı, su-ya-ya-tan, su-ya-ran, su-kir-pi-si, su-laq, su-lan-maq, su-lat-dır-maq, su-lat-maq, su-luq-lan-maq, su-luq-laş-maq, su-lu-luq, su-lu-ca, su-nər-gi-zi, su-öl-çən, su-pə-ri-si, su-pi-şi-yi, su-sa-maq, su-suz-la-maq, su-sə-pən, su-sər-çə-si, su-si-ça-nı, su-si-ço-vu-lu, su-suz-laş-dır-ma, su-suz-laş-dır-maq, su-sün-bü-lü, su-fə-rə-si, su-çi-çə-yi, su-çə-kən və s.

Göründüyü kimi, təkcə su kökündən yüzə yaxın söz yaranmışdır. Yəqin ki, bunlar su kökündən yaranmış sözlərin hamısı deyil. Bu sözlərin hamısını göstərməkdə və həm də hecalara bölünmüş şəkildə göstərməkdə məqsədim var. Yuxarıdakı sözlərə baxdıqda aydın görünür ki, onların hamısı hecalara bölünərkən su kökü istisnasız olaraq öz bütövlüyünü saxlayır.

Türk dilində sait səslərlə başlayan sözlərin sayı yetərincə çoxdur. Məsələn, a səsini götürək. Bu səs türk dilində çox işləkdir, onunla başlayan sözlər sayca üstünlük təşkil

edir. Bunlar öz yerində. Bizi maraqlandıran odur ki, a səsi ilə başlayan sözlərin çoxu hecalara bölünərkən birinci a səsi tək qalır və ayrıca heca əmələ gətirir. Məsələn: a-la, a-ta, a-na, a-yaq, a-laq, a-çıq, a-cıq, a-ra-ba, a-la-çıq və s. Lakin sözlərin sonunda belə hallara rast gəlinmir. Türk dilində elə bir söz yoxdur ki, hecalara bölünərkən onun sonundakı sait səs tək qalsın və heca əmələ gətirsin. Əslində sözlərin ortasında da belə hal müşahidə olunmur. Yalnız ikinci tərəfi a səsi ilə başlayan və həmin sözün özü ayrılıqda hecalara bölünərkən onun birinci a səsi təklikdə müstəqil heca əmələ gətirən mürəkkəb sözlər hecalanarkən buna rast gəlinir. Bu da ondan irəli gəlir ki, mürəkkəb sözü əmələ gətirən ikinci sözün tərkibindəki a hecası burada da müstəqil heca funksiyasını saxlayır. Yuxarıda su kökündən yaranmış sözlərin arasında buna aid bir örnək vardır: su-a-yı-rı-cı. Bu, mürəkkəb sözdür. Onun birinci tərəfi su, ikinci tərəfi isə ayırıcı sözüdür. A-yı-rı-cı sözü hecalara bölünərkən birinci a səsi təklikdə heca əmələ gətirir və bunu mürəkkəb sözün tərkibində də saxlayır. Bu ona görə belə olur ki, a qədim dildə semantik yuva funksiyası daşımışdır və ondan çoxlu yeni sözlər yaranmışdır. İndi həmin sözlər hecalara bölünərkən a semantik yuva kimi öz ilkin şəklini saxlaya bilir. Məsələn, a-la-qa-ran-lıq. İndi gəlin bu sözün hecalara bölünməsinin başqa variantına baxaq:

Al-aq-ar-an-lıq

Görəsən həmin söz niyə hecalara bu cür bölünmür? Bu bölgüyə əngəl törədən nədir? Bəlkə sözün hecalara bu cür bölünməsini qəbul etmək olar?

Bəri başdan demək lazımdır ki, sözün heca-heca tələffüzü sonuncu suala yox cavabı verir. Burada sözün hecalara düzgün bölünmədiyini təkcə gözlə görüb, düşüncəmizlə müəyyənləşdirmirik. Söz deyilişdə bu cür tələffüz olunmur. Onu zorla bu cür tələffüz edən kimi eşitmə orqanlarımız həyəcan siqnalı göndərir ki, hardasa yanlışlığa yol verirsiniz. Yəni sözün düzgün tələffüz olunmadığını eşitmə orqanlarımız daha dəqiq duyur.

İndi qayıdaq birinci sualın cavabına: görəsən həmin söz niyə hecalara bu cür bölünmür: Al-aq-ar-an-lıq.

Hər söz bir zəncirə bənzəyir. Əlbəttə, bu gizli bir oxşarlıqdır. Ona görə gizli oxşarlıqdır ki, zəncirin gözlə görünən şəkli var, sözün gözlə görünən şəkli yoxdur. Sözün şəklini əvvəlcə xəyalımızda canlandırırıq. Sonra onu kağızın üstündə də göstərmək olur.

Flektiv dillərdə sözün hər səsini zəncirin bir həlqəsinə bənzətsək, türk dilində yalnız sözün hər hecasını zəncirin bir həlqəsi hesab edə bilərik. Bu ondan irəli gəlir ki, flektiv dillərlə türk dilinin arasında yerlə göy qədər fərq var. Flektiv dillərdə sözlər hecalardan yox, səslərdən əmələ gəlir. Buna etiraz edib deyə bilərlər ki, türk dilində də sözlər səslərdən yaranır. Tamamilə doğrudur. Biz bunu inkar etmirik. Lakin unutmaq lazım deyil ki, türk dilində səslər əvvəlcə heca əmələ gətirir, sonra isə həmin hecalaşmış səslərdən sözlər düzəlir. Flektiv dillərdə isə səslərin heca əmələ gətirməsi vacib deyil. Ona görə də flektiv dillərdə sözün başlanğıcında üç samit, ortasında hətta dörd-beş samit yanaşı gələ bilir. Hətta nadir hallarda yalnız samit səslər birləşib söz əmələ gətirirsə, türk dilində belə hallara rast gəlinmir. Flektiv dillərdə sözlərin sətirdən-sətirə keçirilməsi zamanı heç bir heca bölgüsünün gözlənilməməsi də yəqin ki,

bununla bağlıdır. Türk dilində isə sözlər sətirdən-sətirə yalnız heca-heca keçirilir. Bunun səbəbini zəncirin misalında aydınlaşdıraq.

Sözün hecalara bölünməsi zəncirin həlqələrinin qırılmasına bənzəyir. Zəncirin həlqələri heç zaman bütöv yerdən qırılmır, onun qırılma nöqtələri calaq yerləridir. Çünki calaq yerlər bütöv olmadığına görə, qırılmağa daha çox həssasdır. Zəncir dartılan kimi onun ən zəif yerləri gücə tab gətirmir və qırılır. Sözsüz ki, bütöv yerlərə nisbətən calaq yerlər daha zəif olur. Bunu aşağıdakı kimi göstərə bilərik:



Bu bir zəncirdir. Onu bütöv xətlərlə kəsilmiş yerlərdən qırmaq çətindir. Qırıq-qırıq xətlərlə kəsilmiş yerlərdən isə zəncir daha asanlıqla qırıla bilir.

Sözlər də eynilə belədir. Onların da hecalara bölünmə yerləri məhz calaqlarıdır. Ona görə də türk dilində sözlər yalnız heca-heca qırılır. Bu da o deməkdir ki, türk dilində sözlər hecalara yalnız calaq yerlərindən bölünür. Sözləri zorla bütöv yerlərindən qırmaq olmaz. Bir misala baxaq: alabaxta.



Bu söz bir zəncirdir, dörd hecadan (həlqədən) ibarətdir. Yəni söz dörd hissənin birləşməsindən əmələ gəlmişdir. Bu hissələr yuxarıda göstərilən zəncirdəki kimi bir-birinə calanmışdır. Tutaq ki, biz sözü zorla aşağıdakı kimi hecalara böldük:

Al-ab-ax-ta

Əslində ilk baxışda bu söz səkkiz səsdən və dörd hecadan əmələ gəldiyinə görə, hecaların iki səs, iki səs bölünməsi daha gözəl olardı. Hazırda isə türk dili bu "gözəl bölgü"nü qəbul etmir, çünki həmin "gözəllik" dilin təbiətinə yad olduğundan onun gözəlliyinə əməlli-başlı xələl gətirir. Bütün gözəlliklər yalnız dilin öz təbiətindən doğmalıdır. Dilin təbiətində bizim görmədiyimiz, bilmədiyimiz sirlər var. Bunlardan birinə baxaq:

Nərdtaxta sözü mürəkkəb sözdür, nərd və taxta sözlərindən əmələ gəlmişdir. Nərd sözünün sonunda iki samit səs var. Ona samit səslə başlayan taxta sözü birləşəndə sözün ortasında üç samit səs yanaşı gəlir ki, bu, türk dilinin təbiətinə yaddır. Ona görə də yeni alınmış söz heç vaxt ortada yanaşı gələn üç samitlə tələffüz olunmur, deyilişdə d səsi düşür və söz nərtaxta kimi səslənir. Sözün bu cür deyilişi onu yumşaldır, ağırlıq aradan götürülür. Burada dilin təbiətində gizlənmiş sirli daxili bir güc öz işini görür. Yazı qaydalarını isə insanlar, yəni dilçilər müəyyənləşdirdiklərinə görə, onların yanlışlığında dilin heç bir günahı yoxdur. Əslində bu sözü deyildiyi kimi də yazmaq olar və bunda heç bir qayda-qanun pozuntusuna yol verilmir.

Türk dilində söz yaradıcılığının bir çox yolları var. Onlardan biri də söz köklərinə sözdüzəldici şəkilçilərin birləşməsidir. Sözdüzəldici şəkilçilər istənilən söz kökünə birləşə bilir. İstənilən söz kökü deyəndə sadə, düzəltmə və mürəkkəb sözlər nəzərdə tutulur. Lakin burada da dilin təbiətindən doğan mükəmməl qaydalar var. Bu qaydalardan ən açıq şəkildə nəzərə çarpanlarından biri odur ki, türk, o sıradan Azərbaycan dilində söz kökləri və sözdüzəldici şəkilçilər mütləq ən azı bir hecadan ibarət olur.

Hətta burada istisnalar da gözə dəymir. Dilimizdə heca əmələ gətirməyən söz kökü və sözdüzəldici şəkilçi yoxdur. Ona görə də türk dilində samit səslər hecadan kənarda təklikdə və bir neçəsinin birləşməsinə baxmayaraq söz kökü funksiyası daşıya bilmir. Çünki samit səslər hecadan kənarda qaldıqda, yəni sait səslərlə birləşmədikdə heç bir semantik mənaya malik olmur. Yuxarıda deyildiyi kimi, türk dilində sözlər birbaşa səslərdən yaranmır. Əvvəlcə bir səs ayrılıqda, yaxud bir neçə səs birləşib heca əmələ gətirir, sonra hecaların birləşməsindən sözlər yaranır. Birhecalı sözlər belə əvvəlcə heca şəklində yaranır, yalnız bundan sonra semantik məna kəsb edərək sözə çevrilir. Halbuki bugün də tək samit səsləri sözdüzəldici şəkilçi hesab edən alimlərimiz var. Həmin alimlər belə düşünürlər ki, q, k, n kimi samit səslər təklikdə sözdüzəldici şəkilçi ola bilir və onların sözlərə birləşməsi yolu ilə bir çox sözlər yaranmışdır. Məsələn, həmin alimlər daraq sözünün dara feilindən və q sözdüzəldici şəkilçisindən yarandığını yazırlar. Tutaq ki, bu fikir doğrudur. Dara sözü daramaq feilinin əmr formasıdır. Daraq da ona q sözdüzəldici şəkilçi qoşulmaqla yaranmışdır: dara+q=daraq. Onda bu fikrin doğruluğunu sübut etmək lazımdır. Təəssüflər olsun ki, həmin fikri söyləyən alimlər onun sübutu haqqında düşünməyiblər.

Bu fikri sübut etmək üçün bir neçə bir neçə üsuldan istifadə etmək olar. Biz burada onlardan dördünün üzərində dayanacağıq:

1. Dilin təbiətinə uyğunluq;
2. Məntiqə uyğunluq;
3. Ənənəvilik (davamlılıq, kütləvilik, təsadüfi olmamaq);
4. Hecalara bölünmə.

Yuxarıda deyildiyi kimi, türk dilində hecadan kənarda samit səslər söz kökü və sözdüzəldici şəkilçi ola bilmir. Əgər türk dilində samit səslər söz əmələ gətirə bilmirsə, onda samit səslərin ayrılıqda sözdüzəldici şəkilçi funksiyası daşıması türk dilinin təbiətinə yaddır.

İndi məntiqə baxaq. İstənilən fikrin doğruluğunu yoxlamaq üçün məntiq ən inandırıcı yollardan biridir. İlk dəfə söylənmiş hər hansı bir fikir məntiqlə təsdiqlənmirsə, yəni ilk baxışda məntiqə uyğun gəlmirsə, onun doğruluğu qəbul edilə bilməz. Bu zaman onu sübut etmək üçün məntiqdən daha tutarlı və inandırıcı arqumentlər ortaya qoymaq lazım gəlir. Ona görə əvvəlcə daraq və daramaq sözlərini məntiqin işığında aydınlaşdırmaq lazımdır. Burada toyuğun, yaxud yumurtanın birinci yaranması məsələsi qarşımıza çıxır: birinci daraq sözü yaranıb, yoxsa daramaq? Q samitini sözdüzəldici şəkilçi hesab edən dilçilərə görə, birinci daramaq feili yaranıb, onun dara əmr formasına q samiti birləşməklə daraq sözü alınmışdır. Bəs burada məntiq nə deyir? Belə ola bilərdimi?

Məntiq deyir ki, əgər təbiətdə su yoxdursa, torpağı, əkini, bağ-bağçanı suvarmaq və paltarı yumaq haqqında təsəvvür yarana bilməz. Birinci su olmalıdır ki, ondan sonra insanın beynində su ilə görüləcək işlərlə bağlı düşüncələr yaransın. Daraq və daramaq sözləri də belədir. Tutaq ki, insanın daraq haqqında heç bir təsəvvürü yoxdur. Darağı görməyib və onun nə olduğunu bilmir. Ancaq gündəlik danışığında daramaq sözünü işlədir, nəyisə daramaq istəyir. Onda belə çıxır ki, bel sözü belləmək, yaba sözü yabalamaq, toxa sözü toxalamaq, yuva sözü yuvalamaq, gecə sözü gecələmək feillərindən yaranmışdır. Heç vaxt belə ola bilməzdi. Yalnız bel varsa, yeri belləməkdən

söhbət gedə bilər. Bel birincidir, belləmək ikinci. Bu məntiqə də tam uyğun gəlir. Onun əksini isə məntiq təsdiqləmir. Yuxarıdakı misalların hamısında feilin məsdər formasından isim yox, isimdən feil yaranmışdır. Məntiq də bunu deyir ki, əgər bir əmək aləti kimi toxa yoxdursa, toxalamaqdan, bel yoxdursa, belləməkdən söhbət gedə bilməz. Həm də ad birinci, hərəkət ikincidir. Hər bir iş, əməl, hərəkət addan sonra gəlir. Türk dilində cümlədə mübtəda və xəbərin ardıcıllığı da buna uyğundur. Cümlədə əvvəl mübtəda, sonra xəbər işlənir.

Sübutun üçüncü üsulu ənənəvilik, kütləvilikdir. Bu nə deməkdir? Bu o deməkdir ki, daraq sözünün yaranma qaydası buna oxşar bütün sözlərin yaranmasına da aid olmalıdır. Yəni daraq sözündə olduğu kimi, ona oxşar sözlərin hamısı feilin əmr formasına (dara) q sözdüzəldici şəkilçisi artırılmaqla yaranmalıdır. İndi gəlin görək belədirmi? Məsələn, qulaq sözü qula +q olanda qula ayrılıqda feilin əmr forması da deyil, heç bir semantik məna da vermir. Çolaq sözü də belədir. Çola +q bölgüsündə də əgər q samitinin ayrılıqda sözdüzəldici şəkilçi olduğunu qəbul etsək, çola feilin əmr forması deyil, onun da ayrılıqda heç bir semantik mənası yoxdur. Buna aid onlarla misal göstərmək olar.

Buradan aydın olur ki, daraq sözünün yaranma qaydası ənənəvi deyil, təsadüfi səciyyə daşıyır. Ona oxşar sözlərin bəziləri feilin əmr formasından (cala+q, yala+q) və q samitindən ibarət olsa da, bunu həmin qəbildən olan sözlərin əksəriyyəti haqqında (tulu+q, yolu+q, balı+q, qura+q, vərə+q, buru+q) demək mümkün deyil.

Eyni sözləri k və n samitləri haqqında da deyə bilərik. Əgər k və n samitlərinin də ayrılıqda sözdüzəldici şəkilçi olduğunu qəbul etsək, çörək (çörə+k), külək (külə+k), kəpək (kəpə+k), kötük (kötü+k), sürtük (sürtü+k), çəltik (çəlti+k) kimi onlarla sözlər var ki, sonundakı k samitini götürdükdə yerində qalan hissə feilin əmr forması olmur və heç bir semantik məna daşımır.

Nəhayət təsdiqin dördüncü üsulu sözlərin hecalara bölünməsidir. Hecalara bölünmə qaydası söz kökləri ilə şəkilçiləri bir-birindən ayırmağın ən düzgün və inandırıcı yoludur. Daraq sözü da+raq kimi hecalara bölünür. Burada və buna oxşar bütün sözlərdə q samiti sözdüzəldici şəkilçinin tərkibinə daxildir və ondan qopması istənilən halda mümkünsüzdür.

Deməli, q samitinin ayrılıqda sözdüzəldici şəkilçi funksiyası daşıyıb, sözlərin sonuna qoşularaq yeni sözlərin yaranmasında iştirak etməsi fikri yuxarıdakı şərtlərin heç birinə uyğun gəlmir və təsdiqlənmir.

Yuxarıda deyilənlərdən aydın görünür ki, türk dilində mükəmməl bir heca sistemi var. Bu sistem elə möhkəmlənmişdir ki, onu dəyişmək, pozmaq mümkün deyil. Sözlərin kök və şəkilçilərə bölünməsində bu sistemin pozulmazlığı, dəyişməzliyi özünü daha qabarıq şəkildə göstərir. Əgər oturuşmuş, möhkəmlənmiş bir sistemi, qaydanı pozmaq, dəyişmək mümkün olmursa, bu, qanun adlanır. Onda türk dilindəki heca sistemini **Heca** qanunu adlandırmaq olar. Biz yuxarıdakı bütün hallarda sözlərin quruluşunda, onların hecalara bölünməsində bir qanunauyğunluq olduğunu gördük. Ancaq bu qanunun adını çəkmədik. Bu, Heca qanunudur. İndən sonra bu və buna oxşar bütün hallara qanunauyğunluq dedikdə bilmək lazımdır ki, söhbət heca qanunundan gedir.

Türk dilində heca qanununun mövcud olduğunu təsdiqləyən çox tutarlı arqumentlərdən biri də heca vəznidir. Heca vəzni türk dilinin öz ruhundan, bətnindən doğulmuşdur. Bu vəznin atası da, anası da türk dilidir. Bu vəzn yalnız türk dilindədir. Başqa dillərdə heca vəzni yoxdur. Heca vəzni türk şeirinin ana vəznidir. Xalq şeirimiz, aşıq şeirlərimiz, yazılı şeirimizin böyük bir hissəsi heca vəznində yazılmışdır.

Heca qanunu və heca vəzni türk dilinin daxili sirlərini qoruyub saxlayan, bir-birilə qırılmaz tellərlə bağlı olan pozulmaz, dəyişilməz qaydalardan ibarətdir. Ona görə də indi demək olar ki, heca qanunu türk dilinin, heca vəzni də heca qanununun ruhundan, bətnindən doğulmuşdur.

Türk dilində sözlər səslər şəklində yox, hecalar şəklində tələffüz olunur. Ona görə sözdə vurğu səsin yox, hecanın üstünə düşür. Bölgü səs prinsipinə yox, heca prinsipinə əsaslanır. Musiqi notları da hecalara əsaslanır. Bundan başqa, türk dilində açıq və qapalı heca tipləri var. Ahəng qanununa belə tərif verilmişdir: *"Sözdə uyğun səslərin bir-birini izləməsi"*. Əslində Ahəng qanununda da uyğun səslər yox, onların iştirakı ilə əmələ gəlmiş hecalar bir-birini izləyir. Məsələn, qalın səsli hecanın dalınca qalın səsli heca gəlir. Al+ma, ar+mud. Yaxud incə səsli heca ilə incə səsli heca birləşir: iy+nə, düy+mə və s. Eyni sözləri samitlər haqqında da demək olar. Onda Ahəng qanununun tərifini bir qədər dürüstləşdirmək lazım gəlir: *"Sözlərdə uyğun səslərdən əmələ gəlmiş hecaların bir-birini izləməsi"*.

Şumer dilində də möhkəm bir heca sistemi olmuşdur. Bu dildə də birhecalı sözlərin sayı yetərincə çoxdur. Çoxhecalı sözlər də səslərdən yox, hecalardan əmələ gəlmişdir. Sözlər oxunarkən hətta hecaların yeri dəyişə bilir. Məsələn, *kə+lə=kələ* sözü həm də *lə+kə=ləkə* şəklində oxunur. Bundan başqa, çox zaman sözün birinci hecası yazılır, yerə qənaət etmək məqsədilə sonrakı hecalar buraxılır. Çünki şumer dilində mixi işarələr səsləri yox, hecaları bildirir. Ona görə də *ba* şəklində yazılan söz şumer dilində mətnə uyğun olaraq müxtəlif anlamlarda oxunur. Başqa sözlə desək, *ba* hecası ilə başlayan sözlərin yalnız ilk hecası yazılır. Əgər şumer dilində hər hansı heca müstəqil olaraq məna daşıyırsa, onda onun işarəsi də həmin sözü ifadə edir. Heç bir səsin ayrıca işarəsi yoxdur. Məsələn, ! işarəsi *a* kimi oxunur, ancaq *a* səsini yox, *a* hecasını göstərir. Şumer dilində də sözlər hecalar şəklində tələffüz olunur. Sözlər sətirdən-sətirə keçirilərkən hecalara bölünür. Bir hecanın parçalanması, səslərə bölünməsi nəzərə çarpmır. Bütün bunlar şumer dilində də Heca qanununun mövcud olduğunu təsdiqləyir.

İslam SADIQ

Türk dilində heca qanunu

Xülasə

Türk dilində möhkəm bir heca sistemi var. Bu dildə sözlər səslərdən yox, hecalardan əmələ gəlir. Sözlər sətirdən sətirə keçirilərkən mütləq hecalara bölünür və yalnız bütöv hecalar bir sətirdən digərinə keçirilə bilir. Sözlər heca-heca tələffüz olunur. Söz kökləri və şəkilçilər ən azı bir hecadan ibarətdir və s.

Məqalənin müəllifi yuxarıda deyilənləri hərtərəfli araşdıraraq bu qənaətə gəlmişdir ki, türk dilində Heca qanunu mövcuddur.

Ислам САДЫГ

Закон слога в Турецком языке

Резюме

В турецком языке есть сильная система слога. В этом языке слова образуются не из звуков, а из слогов. При переносе слова обязательно делятся на слоги, и только односложные слова не переносятся. Слова произносятся по слогам. Корни слов и суффиксы состоят как минимум из одного слога и т.д.

Всесторонне исследуя вышесказанное, автор статьи пришел к заключению, что в турецком языке существует Закон слога.

Islam SADIG

Syllable law in the Turkish language

Summary

There is a strong syllable system in Turkish. The words are formed not by means of sounds, but by means of syllables in this language. While hyphenating words are divided into syllables, except monosyllabic words. Words are pronounced according to syllables. Roots of the words and suffixes consist of minimum one syllable.

Having thoroughly investigated the above mentioned, the author of the article came to a conclusion about existing of Syllable law (rule) in the Turkish language.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Siracəddin HACI
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
siraceddin-haci@rambler.ru

NİZAMİNİN DÜNYA TƏSƏVVÜRÜ (“MÜDRİK MÖBİDİN HEKAYƏSİ”NİN ŞƏRHİ)

Açar sözlər: *Nizami, hekayə, dünya, axirət, insan, imtahan*
Ключевые слова: *Низами, рассказ, мир, загробная жизнь, человек, испытание*
Key words: *Nizami, tale, world, the other world, human, examination*

GİRİŞ

“Sirlər xəzinəsi” dastanındakı “Dünyanın vəfasızlığı haqqında” adlı məqalə ilə bağlı olan “Müdrik möbidin hekayəti” iyirmi beş beytdir (orijinalda “hekayə” sözü yerinə “dastan” sözü var). Şair ənənəsinə uyğun olaraq məqalənin ideyasını mənzum hekayə vasitəsi ilə örnəklə şərh etmişdir. Məqsəd dünyanı tanıtmaq, insanın dünya təsəvvürünü doğru əsaslara bağlamaqdır.

Məqalənin başlığı tanıtma, bilgiləndirmə, örnəyə yönləndirmə xarakterlidir. Şair başlıqda örnək göstərəcəyi insanın iki özəlliyini önə çəkir: o, müdrikdir, möbiddir (“sahebnəzər”dir). “Müdrik” sözü o, ağıllıdır, həyatı doğru anlayır, təcrübəlidir, dünyanın bərkindən, boşundan çıxmışdır, yaşayaraq öyrənmişdir, həyatı öyrədən müəllimdir, ona diqqətlə qulaq as, öyüd al, dediklərinə inan, arxasınca get... kimi mesajlar verir.

Hekayənin başlığındakı “möbid” sözü də örnək olan insanın başqa bir özəlliyini önə çıxarır: o, dindardır. “Məbəd”, “məbud” və “möbid” sözləri ərəbcədir, “a-be-de” kökündən gəlir, “məbəd” ibadət və qulluq edilən yer anlamındadır, “məbud” ibadət və qulluq edilən varlıq deməkdir (müsəlmanın məbudu uca Allahdır (c.c), “əbd” sözü də “qul” mənasını daşıyır), “möbid” də ibadət edən, inandığına qul olan insandır, o, varlığını uca Allaha (c.c) təslim etmişdir, həyatı və həyatını, dünyanı və dünyasını Onun ölçüləri ilə anlayır və yaşayır, örnək seçilməsinin səbəbi də budur.

Nizami mənzum hekayənin (dastanın, orijinaldakı adı: “Dastane möbide sahebnəzər”dir) mesajını müdrik və möbid olan insana yükləmişdir, o, sıradan bir dindar deyil, ağıllı, təcrübəli, anlayışlı, alim dindardır, inancı sağlamdır, şüurlu iman sahibidir.

Mənzum hekayənin süjet xətti bir neçə hissəyə bölünür. Şair öncə örnək şəxsiyyətlə bağlı üçüncü informasiyanı mətnə daxil edir, onun yerini göstərir, bəlli olur ki, müdrik möbid Hindistanda yaşayır. İki beyt onun hərəkət istiqamətini, səfər xəritəsini təqdim edir.

Şair dastanın ideyasının təqdimində vasitə olaraq bədii təzadı seçir, bu, doğru seçimdir, insanın təsəvvüründə dünyanın önünü və sonunu bir arada canlandırır. "Dünya" adlı filmin, hekayənin, romanın süjet xəttini tam görmək, oxumaq imkanı verir (insanın dünyəviləşməsinin səbəbi dünyanın bir parçasını, yaşadığı anı oxuması, görməsidir, o, dünyanı axirətdən, bədəni ruhdan, sözü mənadan, bu günü gələcəkdən ayırır, arxa planı, dərin qatı unudur, nəticədə, anın məhkumu olur, həyata, dünyaya bağlanır, ölümü və axirəti yaddan çıxarır, varlığı onu yaradandan qoparır, sonra da qopardığı o varlığı ilahlaşdırır, köləsi olur, təkdünyalı yaşayır və həlaka sürüklənir).

Bədii təzad insana deyir ki, varlıqlar, hadisələr arasında əlaqə qur, onları gerçək sahibinə bağla, bil ki, ağ varsa, qara da var, həyat varsa, ölüm də var, bu dünya varsa, axirət də var, söz varsa, məna da var... Sən dünyanı, həyatı, sözü, bir sözlə, hər şeyi bu ölçü ilə oxu ki, doğru tanıyasan və doğrunu tanıyasan, doğru seçəsən və doğrunu seçəsən. Dünyəviləşmə xəstəliyinin çarəsi də budur: dünyanı axirətə bağla.

Nizami bədii təzadın imkanlarından yararlanaraq dünyanı tanıtmaq üçün öncə gözəl bir bağ təsvir edir: "Qönçə çərxi-fələk kimi qandan kəmər bağlamışdı", "az ömürlü lalə özündən xəbərsiz, sərxoş idi", "çarpaz rəngli güllər çəmənlikdə tüğyan edirdi", "batman-batman şəkər şəraba qatılmışdı", "qalxanabənzər gül öz oxu ilə yaralanmışdı", "söyüd öz canının qorxusundan titrəyirdi", "bənövşənin zülfü boynuna ip olmuşdu", "nərgizin gözü ətəyinə dirhəm olmuşdu", "lalə gövhər yonurdu", "gül isə firuzə yonurdu", "lalə bir anlıq idi, gül isə birgünlük"...

Nizami bu gözəl təbiət mənzərəsinə altı beyt ayırır, dünyanın gözəl halı, səni aldadan, özünə bağlayan yönü budur deyir, sonra süjet xəttinə bir keçid beyti artırır, insanı düşünməyə çağırır, ömrün bir nəfəsdən çox deyil, niyə aqibətini düşünmürsən, bir anlıq lalə, birgünlük gül sənə dərs vermirmi?

Keçid beyti bu mesajları yüklənir: dünya və insan ölümlüdür, yaradılan heç bir varlıq əbədi deyil, ölüm var, ey insan, axirətə hazırlaş, ey insan, bu dünyan axirət azuqəsi olsun, ey insan, təbiətdə hər an və hər gün ölüm gerçəkləşir, onları görmədinmi, oxumadınmı, ibrət almadınmı, ey insan!

Süjet xəttinin doqquzuncu beytində Nizami diqqəti yenidən mərkəzi fiqurun, örnək insanın, mesaj yüklü şəxsin üzərinə yönəldir, onun "unudulmasına" imkan vermir. Süjet xəttinin bu bölməsində təhkiyə müəllifin dilindən verilir. Müdrik möbid susur, "ekranda" görünür, hərəkət edir, ancaq danışmır, şair oxucunu müdrik insanın öyüdünə hazırlayır, hələ onun sözünə sıra çatmayıb, indi söz təbiətindir, o, dünyanın adından "danışır", onu tanıdır, bu mərhələdə söz yoxdur, göstəriş var, məna sözə deyil, əlamətə tökülmüşdür, "danışan" dilsiz müsəlmanlardır: qönçədir, lalə, gül, şəkər, şərbət, söyüd və bənövşədir...

Nizami doqquzuncu beytdə hadisələri sürətləndirir, "bir neçə ay" keçir, bəlli olur ki, müdrik, möbid və Hindistanlı olan insan həm də qocadır. Şair onunla bağlı ilk üç bilgini (müdrikdir, möbiddir, Hindistanlıdır) başlığa və birinci beytə, üçüncü informasiyanı da doqquzuncu beytə yerləşdirir, onun qoca olduğu indi "yadına düşür". Seçilən yer və sıra doğrudur, "qoca" sözü beytdə bədii məna yüklənir, ideyanın ifadəsində rol alır, Belə ki, o cənnət kimi bağın halı dəyişmişdir, o cavan bağ "qocalmışdır".

Bu beytdən başlayaraq cəhənnəmə çevrilmiş bağın o qoca halı təqdim olunmuş, bədii təzadın ikinci tərəfinin ifadəsinə dörd beyt yazılmışdır, təhkiyə müəllifi yenə

Nizamidir, qoca hələ də susur, “qoca bağın” halını ibrətlə seyr edir: “Gül və bülbüldən əsər yox idi”, “bülbüllər yox olmuş, yerini bir dəstə sağsağan, qarıltısı bağı başına götürmüş qarğa tutmuşdu”, “elə bil cəhənnəm cənnətin yerinə köçmüşdü”, “o qəsrin qeysəri yəhudilər məbədinə köçmüşdü”, “göyərtilər (yaşıllıqlar) əriyib buxar olmuşdu”, “gül dəstəsi bir şələ tikan olmuşdu”...

Nizami on üçüncü beytdə bağın iki halını da görmüş (şair hadisələrin inkişafını “bir neçə ay”a sığışdırmışdır, bu zaman dilimini məqsədli seçmişdir, ona ideyanın ifadəsində yer ayırmışdır, Belə ki, dünya həyatı, ömür qısadır, bir nəfəs qədərdir, bir gül kimi açar və solar, yaz qarı kimi yağar və əriyər, doyumsuzdur, bir udumluqdur...) qocanın halını təqdim edir, beyt içində təzada yer ayırır. Qoca dünyadan tez keçənlərə baxıb gülür, öz halına isə ağlayır. Gülür, çünki tez açıb tez solanlar əbədi olacaqlarını zənn edirdilər, ağlayır, çünki onlara ibrətlə baxır, öyüd alır, halını, aqibətini düşünür, hesabını verə biləcəyim ömrüm varmı deyə özünə sual verir...

On dördüncü beytdə sıra qocaya çatır, o danışır. Nizami müdrik möbidin sözlərinə üç beyt ayırır, mesajlarını çatdırır, ağlamasının səbəbini açıqlayır. Qocanın gördüyü mənzərədən çıxardığı nəticələr bunlardır: hər varlıq yaradılmışdır, su və torpaqdan yaradılmışdır, heç bir şey əbədi deyil, ölümlüdür, ölüm ilahi qanundur və qaçılmazdır...

Nizami sıradakı iki beytdə qoca ilə bağlı fikirlərini açıqlayır, onun həyat ölçülərini və aqibətini təqdim edir: O, gördüyü mənzərədən öz payını götürdü, həyatı ibrət gözü ilə oxudu, uca Allahdan yardım istədi, bəsirət gözü açıldı, özünü tanıdı, yaradanı bildi, həyatın mənasını öyrəndi, imanla yaşadı.

Şair on doqquzuncu beytdə insana müraciət edir və yeddi beytlik öyüdünü bir-bir sıralayır: ölüm var, hind möbidindən öyüd al, dünyanın köləsi olma, onu tərk et, onun düşmən olduğunu bil, mala aid olma, ona sahib ol, bil ki, dünya nemətlərinin əsir olan mənasını, məqsədini və dəyərini itirər...

Nizami son beytdə özünü örnək göstərir, təcrübəsini bölüşür, ümid verir, dünyanı məğlub etməyin mümkünlüyünə inandırır: “Nizami kimi Nizamidən xilas ol”.

BİRİNCİ BEYTİN ŞƏRHİ: MÖBİD YOLA DÜZƏLDİ

Hindistan ölkəsində bir möbid,
Bostana tərəf yola düzəldi.(1, 137)

Nizami örnək seçdiyi insanı tanıdır. İlk bilgini başlıqda verir: o, müdrik möbiddir, “sahebnəzərdir”, ağıllıdır, təcrübəlidir, həyatı, hadisələri ibrət gözü ilə oxuyur. Birinci beytdə “müdrik” sözü ixtisar olunur, “möbid” önə çəkilir, bəlli olur ki, o, dindardır, varlığını uca Allaha təslim etmişdir. Şairin məqsədi bir dindarın (həm də dinin) həyat anlayışı necə olmalıdır, o, dünyanı hansı ölçülərlə tanımalıdır sualına cavab verməkdir. Ona görə də örnək insanın möbidliyinin üzərinə işıq salır, onun dindar yönünün aydın görünməsini istəyir.

Şair beytdə möbidin yaşadığı ölkənin adını çəkir, o, Hindistanda yaşayır. (“Sirlər xəzinəsi” dastanında iyirmi məqalə və iyirmi mənzum hekayə var. Bu hekayələrdən yalnız dördündə hadisələrin baş verdiyi yer göstərilmişdir: Şam-beşinci hekayə; Yəmən-səkkizinci hekayə; Hindistan-on birinci hekayə; Mərv-on beşinci hekayə; on üçüncü hekayədə isə Kəbəyə gedən bir nəfər təsvir olunur). Belə bir sual verilə bilər ki, Nizami mesajları niyə uzaq ölkələrdən verir? Öncə onu deyək ki, bu ölkələrin ha-

mısı ümmət coğrafiyasına daxildir, bizə yad deyil, eyni dini duyğuları paylaşdığımız insanların yaşadığı ölkədir. Nizami ümmətin düşünən, yol göstərən alimidir, şeyxidir, onun fikir xəritəsi bir bölgəyə aid deyil, o, insanlığa aiddir, insanın nicatını istəyir.

İkincisi, bunlar bir hekayədir, hadisələrin yeri, məkanı mütləq deyil, belə bir hadisə baş vermişdir demək də doğru deyil, şərtilik var, məkan konkretdir, ancaq mesaj ümumidir, hamıya aiddir. Üçüncüsü, "uzaq məkan"lar maraq oyadır, fərqli olan cəlb edir, məkan dəyişsə də, həqiqət dəyişmir, önəmli olan qissədən hissə almaqdır...

Beytdə hadisənin baş verdiyi məkan da göstərilir: o, bostana tərəf yola düzəldi. "Bostan" ("bustan"), bağ, bağça, gülüstan deməkdir. Məkan olaraq niyə bostan seçilir? Çünki şair həyatı və ölümü anladacaq, dünyanı tanıdacaq. Bağça çox gözəldir, rəngbərəng güllər açmışdır, gəl-gəl deyir, cəzb edir, özünə bağlayır, məndən gözəli yoxdur iddiasındadır, insanı aldadır. Ancaq o bağçadakı güllərin ömrü çox qısadır, onlar ölümlüdür, tez solur, yox olur, gözəllikdən əsər-əlamət qalmır... Bostan bu dünyanın simvoludur, o, gözəldir, "hiyləgərdir", onu tanımayanı yoldan çıxarır.

Nizami həqiqətin, dünyanın dəyərini anlatmaq üçün bədii təzad yolunu seçir: həyatı və ölümü, ağı və qaranı, gecəni və gündüzü bir arada verir, bu gün bütün gözəlliyi, rəngi, ətri, görünüşü ilə insana gəl-gəl deyən bağça qısa zamanda solur, rəngini, ətrini itirir, yox olur, torpağa qarışır.

Nizaminin əlində təbiət ayələri ("kövni ayələr") bir dərs kitabıdır, o, çiçəklə, böcəklə, su və ağacla dərs verir, dünyanı tanıdır, öyüd al deyir, ey insan, doğan və batan Günəşi, açan və solan gülləri, doğulan və ölən insanları, gündüzü və gecəni doğru oxu, ibrət götür, bu bostana (dünyaya) aldanma, varlığın arxasındakı yoxluğu, bu dünyadan sonrakı axirəti, bədənin içindəki ruhu, sözün içindəki mənanı gör, önəmli olan budur, dəyərini anla, solanı, yox olanı, fanini ver, əbədi olan axirətə yönəl, ömrünü o "salam yurdunu" qazanmağa həsr et!

İKİNCİ BEYTİN ŞƏRHİ: BİR MƏMLƏKƏT TAPDI

Ribatlar kimi naxışlı bir sahə gördü,
Təzvirlə bəzənmiş bir məmləkət tapdı. (1, 137)

Nizaminin dünyanın faniliyini təqdim etmək üçün seçdiyi ən önəmli metod (bədii vasitə) bədii təzaddır (qeyd edək ki, təzadla tanıtmaq, öyrətmək, tərbiyə etmək uca Allahın metodudur. O, kainatı ikiqütblü yaratmışdır, ağ da var, qara da, gündüz də, gecə də, həyat da, ölüm də var, çiçək açır da, solur da, Günəş çıxır da, batır da, sevinc və kədər bir-birini əvəz edir... Bu təzad ayəsi insana deyir ki, yaradılan heç bir şey əbədi deyil, ölüm var, axirət var...)

Bədii təzadda önəmli məsələlərdən biri məkan təsviridir. Şair də örnək seçdiyi insanla bağlı üç informasiya verdikdən sonra (müdrikdir, möbiddir, Hindistandandır) məkanı təqdim edir. Bəlli olur ki, o, bostana tərəf gedir. İlk beytdə məkanın əlaməti "bustan" sözünə yüklənir, bu söz gözəl məkan təsəvvürü yaradır. İkinci beytdə məkanın əlaməti "ribat" sözü ilə verilir.

Möbid ribatlar kimi naxışlı bir sahə görür. "Ribat" sözü "rəbt" sözü ilə eyni kökdəndir, "bağlamaq", "bağ", ölkənin sınırını düşməndən qoruyan əsgərlər üçün tikilən qışlaq mənasını daşıyır, "məkan", "yer" mənası da var, həm də at sürüsünə ribat deyi-

lir. Ribatın ən önəmli özəlliyi nizamın olmasıdır, ora naxışlarla bəzənmişdir, gözəldir, ahəng var, insanı özünə bağlayır.

Nizami misrada "ribat" sözünün "bağlamaq" mənasını önə çəkir, o sahə (bağ, gülüstan) naxışlı ribat kimi insanı özünə bağlayırdı. Buradan şairin o sahənin gözəlliyinin təsvirində "rəbt" ("r-b-t", "rabitə" sözü də eyni kökdəndir) sözü ilə bir kökdən olan "ribat" sözünü seçməsi də aydın olur. Məsələ burasındadır ki, o ribat kimi naxışlı sahə bu dünyanın simvoludur. "Ribat" sözü ilə verilən mesaj budur: dünya elə gözəldir ki, insanı özünə bağlayır.

Şair ikinci misrada o sahəni "təzvirlə bəzənmiş məmləkət" adlandırır. "Təzvir" sözü yalan, qondarma, süni, yapma, aldatmaq niyyəti ilə bəzənmək mənalarını daşıyır. O sahənin, məmləkətin dünyanın simvolu olduğunu nəzərə alsaq, iki beyti bir arada oxuyub bu səhnəni gözümüz önündə canlandıra bilərik: bu dünya insanın düşmənidir, o, insanı aldadıb öldürmək istəyir, insanın (dindar olan insanın) bustana tərəf yola çıxdığını bilir (insan bu dünyada səfərdədir), aldatmaq niyyəti ilə öncədən bəzənərək (süni, təzvir) insanın keçəcəyi yolda dayanır ki, görünsün. O, elə bəzənib ki, görməmək, baxmamaq, bağlanmamaq mümkün deyil.

İnsanın qarşılaşacağı sahə (məmləkət) haqqında ön bilgisi yoxdur. Birinci beytdəki "bustana tərəf yola düzəldi" misrası möbidin hərəkət istiqamətini göstərir, sonrakı beytlərdən bilinir ki, o, bustana getmir, sadəcə, yolu oradan keçir, nəyi görəcəyini bilmir, sanki, dünya onu izləyir, haradan keçəcəyini bilir, bəzənib yolunun üstündə dayanır.

Bu fikrin üç dəlili var: birincisi, möbid o sahədə dayanmır, keçib gedir (müdrik möbid olduğundan dünyaya bağlanmır, özünü, işini, gedəcəyi yeri (hədəfini) unutmur), ikincisi, birinci misrada "gördü" ("did") feili var, yəni möbid "ribat kimi naxışlı sahəyə çatdı" deyil, "sahəni gördü" deyilir, bu yolla da sahənin onun gedəcəyi son nöqtə olmadığı bildirilir. Üçüncüsü, beytdə "tapdı" ("yaft") feili var, "o, təzvirlə bəzənmiş bir ölkə tapdı". Şair niyə "tapmaq" feilini seçir? Çünki möbidin gözləmədiyi bir səhnə ilə qarşılaşdığını ifadə etmək istəyir. "Tapdı", yəni öncədən düşünmədiyi bir şey başına gəldi.

"Təzvir" (yalan, uydurma, süni, aldatmaq niyyəti ilə bəzənmə) sözü bizə deyir ki, dünya insanın düşmənidir, o, hiyləgərdir, maskalanmağı bacarır, insanın zəif yerlərini bilir, hər addımını izləyir, onu tora salmaq üçün bəzənmişdir.

Beytdə "məmləkət" sözü də var, bu söz məkanın genişliyini, bir güllər ölkəsi olduğunu göstərir, şair məkanı böyüdür, insan elə bir ölkəyə daxil olmuşdur ki, onun üçün, ondan xəbərsiz, öncədən qarşılama törəni hazırlanmışdır. Ribatdakı çiçəklər atlı əsgərlər kimi sıra ilə düzülmüş ("ribat" sözünün "əsgərlər" mənası da var, bu söz mənalarla doludur, ona görə də beytə yerləşdirilmişdir, "bağlamaq", "yer", "məkan", "nizam", "at sürüsü", "əsgərlər" mənasının hər biri öz işini yerinə yetirmiş, dünyanı bütün məna çalarları ilə tanıtmışdır), insanın keçəcəyi hər yer al-əlvan bəzədilmişdir, hiyləgər dünyanın əmri ilə hər varlıq insana "xoş gəldin" deyir.

QAYNAQLAR

1. Nizami Gəncəvi, “Sirlər xəzinəsi”, (filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Rüstəm Əliyevindir), Bakı, Elm, 1981, s. 247.
2. *Hacı S.* “Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)”, I kitab, “Nafta-Press”, Bakı, 2006;
3. *Hacı S.* “Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)”, II kitab, “Nafta-Press”, Bakı, 2008;
4. *Hacı S.* “Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)”, III kitab, “Nafta-Press”, Bakı, 2009;
5. *Hacı S.* “Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)”, IV kitab, “Nafta-Press”, Bakı, 2010;
6. *Hacı S.* “Həzrət Nizami Gəncəviyə görə, insan qəlbinin həqiqətləri”, V kitab, “Nafta-Press”, Bakı, 2012;
7. *Hacı S.* “Həzrət Nizami Gəncəvinin “Sirlər xəzinəsi” dastanındakı ilk dörd məqalənin şərhi” VI kitab, “Nafta-Press”, Bakı, 2013;
8. *Hacı S.* “Həzrət Nizami Gəncəvinin “Sirlər xəzinəsi” dastanındakı V-IX məqalələrin şərhi” VII kitab, “Nafta-Press”, Bakı, 2014;
9. *Hacı S.* “Həzrət Nizami Gəncəvinin “Sirlər xəzinəsi” dastanın şərhi (X-XIII məqalələr)” VIII kitab, “Nafta-Press”, Bakı, 2015.
10. *Hacı S.* “Həzrət Nizami Gəncəvinin “Sirlər xəzinəsi” insanlığın ana yasasıdır”, “Nurlar”, Bakı, 2015.

Представления Низами о мире

Резюме

В статье комментируется «Рассказ о мудром благочестивом» в сказании «Остров сокровищ» Низами Гянджеви. Низами дает понятие о мире в трех направлениях: во первых, мир создан, он, принадлежит человеку, соотвествует потребностям человека, мир смертный. Во вторых, мир, это место для посева, поле загробной жизни, место испытания. В третьих, мир, оторванный из загробной жизни, является врагом человека, он, вводит человека в заблуждение.

Nizami’s world imagination

Summary

In the article the part “The wise religious man’s tale” in the epos “The treasure of secrets” by Nizami Ganjavi is explained. In this part Nizami introduces the world in three directions: the first, the world has been created, it is for human, it is suitable for human’s need, the world is transitory. The second, the world is a sowing area, it is the field of the other world, it the place of examination. The third, the broken world off the other world is the enemy of the human, it deceives the human.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Gülsümxanım HASİLOVA
AMEA Folklor İnstitutunun böyük elmi işçisi

FÜZULİ YARADICILIĞI “FOLKLOR VƏ YAZILI ƏDƏBİYYAT” KONTEKSTİNDƏ (Əzizə Cəfərzadə tədqiqatında)

Ключевые слова: *Азиза Джафарзаде, писательница, Физули, фольклор, роман*
Keywords: *Aziza Jafarzadeh, writer, Fuzuli, folklore, novel*

“Ə.Cəfərzadə və folklor” probleminin tədqiqi yazıçı-alimin ilk növbədə “ədəbiyyat-folklor” əlaqələrinə necə yanaşdığını öyrənməyi zərurətə çevirir. Qeyd edək ki, Ə.Cəfərzadə etnik milli xüsusiyyətləri, adət-ənənələri dərindən bilən qələm sahibi idi. O, yazılı ədəbiyyatla yanaşı, şifahi xalq ədəbiyyatı örnəklərinin toplanması, araşdırılması və nəşri işində də böyük xidmətlər göstərmişdir. Ə.Cəfərzadə el-obamızı qarışqarış gəzib, sinəsi hikmətli söz xəzinələri ilə dolu olan nənələrimizin yaddaşında olan söz örnəklərini toplayaraq mədəni irsimizi zənginləşdirmişdir. Onun yaradıcılıq işində folklora müraciət, müxtəlif folklor janrları, eləcə də motiv, mövzu, süjetlərdən bolbol istifadə ədibin şifahi sənətə sonsuz məhəbbət və bağlılığından irəli gəlir.

Məlumdur ki, Azərbaycan şifahi xalq ədəbiyyatı, onun müxtəlif janr və növləri, mövzu, motiv, epizodları və s. yazılı ədəbiyyatın davamlı şəkildə qaynaqlandığı zəngin mənbə olmuşdur. Ayrı-ayrı yazıçı və şairlərin yaradıcılığında geniş yer tutan bu irs əsərlərin həm ideya, həm də bədii xüsusiyyətlərinin tamamlanması və dolğunlaşmasında orijinal bədii vasitəyə çevrilmişdir.

Folklordan yaradıcı şəkildə istifadə, xüsusilə klassik irsin öyrənilməsində geniş tədqiqat obyekti kimi götürülmüş, ayrıca Nizami, Füzuli, Nəsimi, Sabir yaradıcılığının folklordan qaynaqlanma imkanları öyrənilmişdir. Klassik irsə bağlı Füzuli yaradıcılığı, bütövlükdə sənətkarlığının araşdırılmasında isə folklorun Füzuli sənətinə təsiri məsələləri davamlı şəkildə tədqiqatların mərkəzində saxlanılmışdır. Bu cəhətdən Ə.Cəfərzadənin “Füzuli əsərlərinin xalq ədəbiyyatına təsiri haqqında bir neçə söz” adlı məqaləsi səciyyəvidir. Yazıçı-alim məqalədə qəzəl ustadı Füzulinin xalq ədəbiyyatından qaynaqlandığını göstərməklə yanaşı, şairin özünün folklora təsiri problemini tədqiqatın predmetinə çevirmişdir.

Məqalədə Ə.Cəfərzadə ilkin olaraq Füzuli yaradıcılığının folklora bağlılığına istinad edərək şifahi ədəbiyyatımızdan ayrı-ayrı məsəllər, atalar sözləri, hikmətli ifadələrin şairin lirikasında xüsusi yer tutduğunu göstərir. Xalq arasında geniş yayılmış “Qanlını qan tutar”, “İldə bir Novruz olur”, “Yamanlıq yamana qalar”, “Hər aşığın bir dövranı var” və sairə ifadələrin Füzuli qəzəllərindəki bədii mövqeyini ayrı-ayrı nümu-

nələrdə əsaslandıran yazıçı, həm də bu beytlərin zaman-zaman daha çox sevilib yayıldığını nəzərə çatdırır:

Gəh gözdə, gəh könüldə xədəngin məkan tutar,
Hər qanda olsa qanlını, əlbəttə, qan tutar.
(İldə "Qanlını qan tutar").

Hər gün açır könlümü zövqi-visalın yengidən,
Gərçi güllər açmağa hər ildə bir Novruz olur.
(İldə "İldə bir Novruz olur")

Hərifi-bəzmi-qəməm, xuni-dil şərabım olub
Ki, yaxşı-yaxşıya uğrar, yaman-yamanə yetər.
(İldə "Yamanlıq yamana qalar") (1, 243).

İkinci qrup əsərlərdə xalq danışıq dili daha çox obrazların təqdimi, onların ruhi-psixoloji vəziyyətlərinə uyğunlaşdırılaraq poetikləşdirilir. Ə.Cəfərzadə bu baxımdan Leyli və Məcnun obrazlarının nitqinə bağlı Füzuli dilindəki xalq ifadələrinin poetik bütövlüyü üzərində dayanır:

Olmam olur-olmaz ilə dəmsaz
Başım kəsilirsə söyləmən raz.
Təqdir çu böylədir, nə tədbir,
Təqdiri edərmi kimsə təğyir? (1, 244).

Verilən ilk beytdəki fikir Leylinin sədaqəti "Çırağın başı kəsilməsə işıq verməz" idiomu ilə təzad təşkil edirsə, ikinci beytdə Məcnunun nəsihət qəbul etməməsi "Yazıya-pozu, təqdirə-tədbir yoxdur" xalq hikməti üzərində möhkəmləndirilir.

Qəzəl ustası M.Füzulinin böyük sənət irsi, həm də şairin fitri istedadından, dərin biliyindən qaynaqlanır. Bu baxımdan Ə.Cəfərzadə xalq ədəbiyyatından bəhrələnən Füzuli yaradıcılığını eyni zamanda bu irsin folklora təsiri baxımından da araşdırmışdır. Məlumdur ki, xalqın sevdiyi Füzuli qəhrəmanları, elə bu obrazları əfsanələşdirən şairin, müəllifin sözü ilə yaddaşlara köçürülür. Bu qəhrəmanların taleyi, düşüncəsi, arzuları və sairə bağlı obrazlı nitqi eynilə şifahi danışığa yol almış, xalq dilinin məhz yazılı ənənə vasitəsilə zənginləşməsinə səbəb olmuşdur. Ə.Cəfərzadə bu gün də xalq arasında işlənən bir çox ifadə və sözlərin məhz Füzuli qəhrəmanlarının adı ilə bağlı olduğunu göstərir:

Füzuli dərd əlindən dağa çıxdı,
Dedilər: bəxtəvər yaylağa çıxdı.
"Leyliyə Məcnun gözü ilə bax"
"Məcnun kimi quran oxuyan "Vəlleyli"də qalar" və s. (1, 245).

Ə.Cəfərzadə Füzuli irsinin xalq ədəbiyyatına təsiri məsələsini daha sonra A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinə daxil etdiyi bir tarixi hadisə, hicri 1254-cü ildə yazılmış nağıllardan ibarət "Tutinamə" üzərində araşdırır. "Gülüstani-İrəm" əsərində Fətəli xan dövründən bəhs edən A.Bakıxanov xanın bacısı Fatma xanıma elçi düşən Məmmədsəid və keçmiş vəkil Kərim xanın münasibətlərinə toxunur, Kərim xanın qardaşı Ağası xanın qarşı tərəflə məktublaşmasının məhz Füzuli beytləri ilə aparılmasını göstərir. "Onun qardaşı Ağası xan Fətəli xanın Şirvan iddiasında olduğunu bilib, bu işdən narazı qalır. Özü də Əlvənddə imiş. Füzulinin bu beytini yazıb ona göndərir:

"Kuhkən Şirinə öz nəqşin çəkib, vermiş firib,
Gör nə cahildir: yonar daşdan öziçün bir rəqib" (1, 245).

Məmmədsəid xan da cavabında Füzulinin bu beytini yazıb göndərir:

"Kuhkən künd eyləmiş bin tişəni bir dağ ilə,
Bən qoparıb atmışam bin dağı bir dırnaq ilə" (1, 246).

Məşhur "Tutinamə" nağıllarından ibarət əlyazma-məcmuənin lirik ricət məhəbbət qəhrəmanlarının təqdimində sıx-sıx Füzuli lirikasına müraciəti də Ə.Cəfərzadə ayrıca bir mövzu kimi götürmüşdür. Yazıçı qeyd edir ki, bütün "Tutinamə"lərdə, əsasən Hafiz, Sədi kimi klassiklərin əsərlərinə istinad edilir, aşiqanə mükalimələr daha çox İran və Tacik şairlərin şeirləri üzərində aparılırdı. Əlimizdə olan bu "Tutinamə"də Nizami ilə yanaşı, Füzulinin adı da çox təkrarlanır. Ayrıca məcmuədə "Füzulinin üç qəzəlindən beş beyt, "Leyli və Məcnun"dan 18 beyt, rübailərdən 1 beyt və sair verilir (1, 246).

Füzuli qəhrəmanlarının məhəbbət istəklərinə bağlı bu beytlər nağıl obrazlarının sevgi macəralarının daha dolğun təsvirində və ifadəsində lirik nəqletməni tamamlayır. Əzizə Cəfərzadə yazır ki, "Tərtibatçı bu şeirləri yerli-yerində elə məharətlə düzə bilmiş, yerində işlədə bilmişdir ki, bunlar surətlərin daxili aləmini yaxşı açır və onların əhvali-ruhiyyəsini aydınlaşdırır, səciyyələrini başa düşməyə kömək edir, lirik qəhrəmanların məhəbbətinin dərinliyini, sədaqətini açıb göstərir"(1, 247).

Ardıcıl olaraq Ə.Cəfərzadə məcmuədə 32-ci hekayətdə Məhmudə və Əyaz, 34-cü hekayətdə hindli bəhmənin Babil şahzadəsinin və sairə sevgisindən bəhs olunan nağıllarda Füzuli beytlərinin yer aldığını qeyd edir. Oxşar motiv və qəhrəmanların taleyinə görə, Məhmudə və Əyazın iztirabi, məhəbbət cəfası Leyli və Məcnunla uyğunlaşdırılır, nəticə olaraq "Leyli" adının lirik mətndə "Məhmudə"ilə əvəzlənməsi verilir.

"Məhmudədə dərs iztirabı
Olsa, rüxi-Qeys idi kitabi,
Çün lövhələr üzrə xət yazardı,
Ümdə xətini qələt yazardı.
Yəni ki, xəta təvəhhüm edə,
Ol gül açılıb təbəssüm edə (1, 248).

Əlyazmanın ayrı-ayrı hekayələrindən çıxış edən Ə.Cəfərzadə qeyd edir ki, Füzuli əsərləri, onun qəhrəmanlarına olan xalq sevgisi, məhəbbətinin nəticəsidir ki, məhz nağıllarda belə sevgi, iztirab, hicran epizodları səhnələri bilavasitə şairin məşhur beyt, qəzəlləri üzərində aparılır.

Qeyd edək ki, görkəmli tədqiqatçı alim Ə.Cəfərzadənin Füzuli irsinə bu münasibəti orijinal olmaqla, yeni bir baxış, tədqiqat istiqamətidir. O, Füzulinin xalq ədəbiyyatına təsiri məsələsini qoymaqla həm də davamlı şəkildə belə mükəmməl əsərlərin yazılması istəyindən çıxış edir. Bu isə yazıçının ədəbiyyatşünas-alim, sənətkar kimi ədəbiyyata, bütövlükdə sənətə olan qayğısını əks etdirir.

Beləliklə, Ə.Cəfərzadənin "Füzuli əsərlərinin xalq ədəbiyyatına təsiri haqqında bir neçə söz" adlı məqaləsinin burada "yazılı ədəbiyyat və folklor" kontekstində araşdırılması bizə müəllifin folklorşünaslıq görüşləri ilə bağlı aşağıdakı nəticələrə gəlməyə imkan verir:

Birincisi, Ə.Cəfərzadəyə görə, şifahi xalq ədəbiyyatı, onun əsrlər boyunca cilalana-clalana gələn sənət inciləri Füzuli yaradıcılığının poetik qaynaqlarından birini təşkil edir. Azərbaycan poetik düşüncəsinin bağrından qopmuş Füzuli bütün yaradıcılığı boyunca bu poetik yaddaşa, şifahi düşüncəsinə bağlı qalmış, ondan bütün yaradıcılığı boyunca bəhrələnmişdir. Ə.Cəfərzadənin əsas qənaətlərindən birinə görə, Füzuli yaradıcılığındakı möcüzə səviyyəsinə qalxan bədii dil folklor dili ilə mayalandığı üçün belə yüksək səviyyəyə qalxa bilmişdir.

İkincisi, Ə.Cəfərzadəyə görə, "Füzuli-folklor" münasibətləri ikitərəfli, daha doğrusu, qarşılıqlı yaradıcılıq prosesi olmuşdur. Xalqın şifahi sənət xəzinəsindən bütün ömrü boyu qaynaqlanan bu ustad sənətkar eyni zamanda öz yaradıcılığı ilə folklora, xalq dilinə, xüsusilə xalq dilinin deyim fonduna (nitq folkloruna: frazeoloji, paremioloji vahidlərə və s.) təsir etmişdir.

Üçüncüsü, Füzuli yaradıcılığında folklor ilk növbədə folklor dilindən yaradıcı şəkildə istifadədə ifadə olunur. Şifahi ədəbiyyatımızın məsəllər, atalar sözləri, hikmətli ifadələr və s. kimi janr və formaları Füzulinin lirikasında xüsusi yer tutur. Ə.Cəfərzadəyə görə, Füzuli xalq dilinin ifadə imkanlarını yazılı poeziyaya gətirərkən folklor janrlarını dəyişdirmir, atalar sözləri və başqa deyimləri bütöv halında mətndə işlətməklə bu deyimlərin poetik enerjisini öz şeirlərinin ruhuna qatmış olur. Füzuli poetik situasiyanı, həyati davranışları modelləşdirən deyim qəliblərini öz qəhrəmanlarının dilində işlətməklə vermək istədiyi poetik ideyanın xalq təfəkküründə əsrlər boyunca cilalanmış, qəliblənmiş, mükəmməlləşmiş obrazlar vasitəsilə təqdiminə nail olur.

Dördüncüsü, Ə.Cəfərzadəyə görə, folklor Füzuli düşüncəsindən keçməklə yeni poetik səviyyə, yeni poetik obrazlılıq kəsb edir. Füzulinin şifahi ədəbiyyatdan alaraq öz yaradıcılığına gətirdiyi folklor obrazları, ümumən, folklorizmlər burada yazılı ədəbiyyatın poetikası ilə zinətlənir və yenidən xalqa, şifahi yaşam formasına qayıdır. Füzuli poeziyası xalq arasında məşhurlaşdıqca, onun yaradıcılığı şifahi yaddaşa köçdükcə "Füzuli-folklor" əlaqələri yeni səviyyələr kəsb edir. Bu da Ə. Cəfərzadəyə görə, yaradıcı subyektin folklor yaradıcılığına təsirinin ən bariz nümunəsidir.

QAYNAQLAR

1. Azərbaycan dastanları. 5 cilddə, I cild / tərtib edənləri Ə.Axundov, M.H.Təhmasib. Bakı: Çıraq, 2005, 424 s.
2. Cəfərzadə Ə. Füzuli əsərlərinin xalq ədəbiyyatına təsiri haqqında bir neçə söz // "Füzuli" (məqalələr məcmuəsi). Bakı: 1948, s. 243-249
3. Cəfərzadə. Eşq sultanı. Bakı: Şirvannəşr, 2005, 204 s.
4. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə. Bakı: Turan nəşrlər evi, 2002, 680 s.

Резюме

Знаменитая азербайджанская писательница, учёная Азиза Джафарзаде написала множество романов и повестей. В их число входит статья «Несколько слов о влиянии произведений Физули на устное народное творчество». Именно в этой статье литературовед обращает внимание на то, что в лирике Физули основное место занимают различные пословицы, поговорки и афоризмы, имеющие связь с фольклором.

Summary

The well-known writer, scientist Aziza Jafarzadeh wrote a lot of novels and narratives. One of them is "Some words about the influence of the works of Fuzuli to the oral folk literature". In this article the literary critic pays attention to the fact that the importance place in the lyrics of Fuzuli occupies various proverbs, riddles and aphorisms dealing with folklore.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Aygün QASIMOVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun
kiçik elmi işçisi

HÜSEYN ARİFİN POEMALARINDA XALQ RUHUNUN POETİK İFADƏSİ

Açar sözlər: *Hüseyn Arif, poema, xalq ruhu, ozan-aşıq şeiri, milli ənənə.*
Ключевые слова: *Гусейн Ариф, поэма, народный дух, озано-ашугское стихотворение, национальная традиция.*
Keywords: *Huseyn Arif, poem, nation spirit, ozan-ashig poets, national tradition.*

Hüseyn Arif ədəbiyyatımıza yazılı poetik ənənələrlə Azərbaycan şifahi xalq ədəbiyyatından, ozan-aşıq şeirindən, sözlə, xalq ruhundan gəlir. O. milli şeirin forma və məzmun xüsusiyyətlərini mükəmməl mənimsəyib, özünə ustad hesab etdiyi heç bir ustad sənətkarı təkrarlamayıb, orijinal, novator şeirləri və poemaları ilə yeni bir sənət zirvəsi yaradıb.

Bu yolda o, “şübhəsiz ki, milli ənənəyə əsaslanıb, Dədə Qorqud, Yunus İmrə, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər, Dədə Şəmşir, Aşıq Şenlik dühasından bəhrələnib. Bunu da qeyd edək ki, adını çəkdiyimiz sənətkarların hər birinə Hüseyn Arif ayrıca şeir həsr edib. Şairin təkcə şeirlərində deyil, poema-dastanlarında da milli ənənələrlə bağlılığın çox güclü olduğunu görürük.

Artıq düz bir əsrdir ki, poeziyamızda ənənəvi şeirlə, sərbəst şeir tərəfdarları arasında ədəbi müstəvidə mübahisələr davam edir. Hətta ənənəvi şeirin vaxtının keçdiyini söyləyən tənqidçi və ədəbiyyatşünaslar da var. Ancaq iki əsrin keçidində, yeni minilliyin astanasında Hüseyn Arif ənənəvi şeir formasına yeni nəfəs gətirdi, öz şeirləri və poemaları ilə klassik aşıq yaradıcılığını yeni mərhələyə yüksəltdi, novator bir sənət nümunəsi yaratdı.

Müxtəlif şeirlərində, o cümlədən “Saz” poemasında saz obrazı Hüseyn Arif yaradıcılığında mücərrəd obraz deyil, xalq ruhunu ifadə edir, azərbaycançılıq məfkurəsinə, milli özünüdərkə işarədir. Şair poemada sazı Dədə Qorquddan ərməğan kimi qəbul edir, onun mənəvi varisi kimi ortaya çıxır. Dövlətçilik təfəkküründən çıxış edən şair sazı vətən, qeyrət, namus məfhumu kimi başa düşür, onu babaların ruhu kimi dəyərləndirir, keçmişdən bu günə, bu gündən gələcəyə gedən mənəvi körpü kimi tərənnüm edir.

H.Arif poemada sazı dilə gətirir, onunla üzbəüz dayanır, həmsöhbət olur, gah Kərəmin, gah Koroğlunun dili ilə danışır, məhəbbətdən qəhrəmanlığa, qəhrəmanlıqdan məhəbbətə körpü yaradır. Onu bu gündən gələcəyə aparır, sabahımızın taleyi ilə bağ-

layır. Poemalarımızda ozan-aşıq mədəniyyətinə bağlılıq şifahi yaradıcılığa müraciətin, özünəqayıdışın ən güclü ənənələrindəndir: "Aşıq sənəti böyük sənətdir, xalqa çox yaxın və doğmadır. Xalqın həyatının, məişətinin müxtəlif cəhətləri, adət-ənənələri, zövqü və təsəvvürləri bu sənətdə əks olunur. Aşıq dastanları yazılışı etibarilə, hadisələrin inkişafı, təsvir vasitələri və insan surətlərinin canlandırılması etibarilə xalq dastanlarına və nağıllarına çox yaxındır" (7, 450).

Ayrı-ayrı sənətkarlarımız ozan-aşıq ənənələrini davam etdirərkən bizi milli yaddaşa qaytarır, xalqımızın tarixi taleyi ilə bağlı olan mövzuları, ideyaları, bədii obrazları yenidən işləyir və beləliklə, bu günümüzlə ulu tariximiz arasında son vaxtlarda az qala unudulmaqda, uçulmaqda olan tarixi genetik bütövlüyü yada salmaqla xalqı tarixin keçmişi müəyyən ibrətamiz anlarına, dövrlərinə qaytarır. Bu da tamamilə təbiidir. Ulu və zəngin tarixini yaddaşlara həkk edən xalqımız bizə, zəngin bir mənəvi irs qoymuşdur. Bizim isə həmin irsə dönə-dönə qayıtmaq, onu bu günümüzə, sabahımıza çatdırmaq ən böyük mənəvi, əxlaqi borcumuzdur. Məhz bu baxımından Hüseyn Arifin "Saz", "Dilqəm", Nəbi Xəzrinin "Əfsanəli yuxular", A.Abdulzadənin "Ulu Qorqud" poemaları maraq doğurur.

Bu poemalarda həyatımızın ən dərin qatları ilə bağlı mənəvi-əxlaqi dəyərlər, bu günümüz üçün çox zəruri olan estetik ideal və nəhayət, saz sənətinin inkişaf mərhələləri üçün zəruri olan ozan-aşıq ənənələri ilə bağlı qaynaqlardan istifadə məsələsi ön plana çəkilmişdir. Belə ki, müasir yazıçı həyatda cürbəcür insanları görür, onların taleyini izləyir, fəaliyyətlərinə göz yetirir, başqaları ilə əlaqəsinə diqqət edir, xasiyyətlərini öyrənir və bütün bunlara əsasən müxtəlif obrazlar haqqında onda müəyyən təsəvvür yaranır. Bu təsəvvürə uyğun, daha doğrusu onu reallığa çevirən ədəbi meyarlar üzərində fikirləşir. Bu işdə, bu yaradıcılıq prosesində, ümumiləşdirmə, tipiklik və fərdilik məsələlərində o, folklora, klassik irsə baş vurur, nəzərdə tutduğu ideyanı cana gətirmək üçün xalq yaradıcılığından uyğun gələn motivləri seçir, tarixi və əfsanəvi mahiyyətini qorumaq şərtilə onlara müasir tələb və ehtiyaclara uyğun ideya-estetik çalarlar verir. Belə realist təsvir yolu ilə əfsanələrdən, nağıl, dastan və digər xalq yaradıcılığı nümunələrindən düşən gur işıqlar müasir əsərə dolğunluq gətirir. Bu cəhətdən Azərbaycan klassikası müasir ədəbiyyat üçün nümunə, örnəkdir. "Bu əsərlərdə təsvir olunan tarixi hadisələr hazırda yaşayan nəsillər üçün bir ibrət dərsidir, onların ürəyində yüksək duyğular oyadır, onları tərəqqi və inkişaf sövq edir, yer üzündə həqiqi bərabərlik, ədalət, sülh və səadət uğrunda mübarizəyə ruhlandırır".(7, 283)

Bu bir həqiqətdir ki, tarixi kökdən bəhrələnmədən, ulu irsin ibrətamiz ənənələrini yaşatmadan qüdrətli poeziya yaratmaq olmaz. Təhlil olunan poemalarda milli həyatın elə qabarıq cəhətləri tədqiqata cəlb edilmişdir ki, bunlar müasir dünyamız üçün aktual və zəruri olsun. Məsələn, Hüseyn Arifin "Dilqəm" poemasında XIX əsr Azərbaycan mənəvi dünyasının tərənnümü ön plandadır. Bu mənəvi dünyanın əsas göstəricisi isə poemadakı çoxsaylı və çoxqatlı folkor simvolikasında öz əksini tapıb.

Poema XVIII əsrin sonu, XIX əsrin birinci yarısında yaşayıb yaratmış Yəhya bəy Dilqəmin əfsanəvi həyatı və könül dünyası haqqındadır. Şifahi xalq ədəbiyyatında bu məşhur el şairi haqqında "Yəhya bəy və Dostu xanım" adlı dastan da mövcuddur. Həmin dastanda Dilqəmin əmisi qızı Dostu xanımla olan məhəbbət macəralarından,

onun eşqi yolunda çəkdiyi bəlalardan, min bir məşəqqətdən, nakam taleyindən bəhs edilir.

Poemada həmin anların, məqamların xatırlanması qoşma janrını geniş imkanları hesabına, heca vəzindən geninə-boluna istifadə etməklə nəql edilir. Elə Yəhya bəy Dilqəmin "Vrmola" qoşmasının xatırladılmasında olduğu kimi:

Heyif oldu, əlim əldən üzüldü,
Mənim üçün bir saat da yüz ildi.
Bağlar xəzan oldu, güllər pozuldu,
Mən kimi gülşəni solan varmola(6, 202).

"Yəhya bəy və Dostu xanım" dastanından Dilqəmə məxsus olan bu şeri Hüseyn Arif oxucuya olduğu kimi təqdim edir. Azərbaycan aşıq ədəbiyyatına müraciət etdikdə Yəhya bəy Dilqəmin yaradıcılığında belə və buna bənzər qoşmalar nəzər-diqqətimizi özünə cəlb edir. "Yetişirmi ola", "Azalarmola" və s. qoşmalar bu qəbildəndir. Və yaxud poemada Yəhya bəyin dilindən verilən və onun özünəməxsus bir sənətkarlıqla yana-yana dediyi aşağıdakı qoşmaya baxaq:

Şəmkir qələmində, Kür qırağında,
Uçdu telli sonam gölə gəlmədi.
İstədim cananın vəsfini yazım,
Sığışıb qələmə, dilə gəlmədi (6, 199).

Bu nümunənin birinci bəndinki "Şəmkir qələmində" misrası dastanda "laçın barəsində" kimi işlənmişdir. Görünür şairə qoşmanın başqa bir misra ilə başlanan bu variantı da məlumdur. Ümumiyyətlə, bəzi oxşarlıqların üst-üstə düşməsinə baxmayaraq, bəzən dastanla müqayisədə poemada bir-birinə bənzəməyən anlara rast gələrik. Təbii ki, bu şairə təxəyyülünün daha geniş imkanlara malik olmasından irəli gəlir.

Hüseyn Arifin əsərində Dilqəmin ömür-gün yoldaşının adı Telli xanımdır, dastanda isə Dostu xanım. Dastandan fərqli olaraq "Dilqəm" poemasında Yəhya bəyin atı ilə tanışlıq müəyyən maraq doğurur və elə buradaca aşığın sonradan götürdüyü Dilqəm sözünün də mənası yavaş-yavaş açılır. Məlum olur ki, Yəhya bəy Dilqəm adlı sevimli atının əbədi olaraq itirəndən sonra atının ölümündən çox məyus olmuş və adının sonuna Dilqəm təxəllüsünü əlavə etmişdir. Lakin bütün təzadlarına baxmayaraq poema Dilqəm haqqında nakam və ilahi bir məhəbbətin acı xatirələri fonunda əsl həqiqəti müasir nəslə realist bir tərzdə çatdıra bilir:

Könül həmdəmini itirən kəsi
Nə ocaq qızdırır, nə od isidir.
Dünyanın dünyadan ağır itkisi
Ailə itkisi, yar itkisidir (6, 198).

Şair gileylidir, ulu irsimizə biganəlikdən doğru bu şair gileyi. Dədə-babalarımızın qədimlərdən müdrik ozanlara, müqəddəs qopuza hörmətin xatırladır. Sanki bir tədqi-

qatçı gileyidir, bu giley. O, vərəqlədiyi kitablardan Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Yəhya bəy Dilqəm haqqında ancaq bir neçə sətir məlumatın verilməsini görüb daha da kövrəlir. Poemanı yazmaq haqqında ciddi axtarışlar da elə bu narahatlıqdan sonra reallaşır. Sanki şair belə bir poemanı yazmaqla aşıq ədəbiyyatımızın yaradanlar haqqında mövcud olan boşluğu doldurmaq istəmişdir və təkcə bu poemada yox, həm də bütün şerlərində bu istəyinə nail olmuşdur. Mərhum alimimiz Xudu Məmmədovun dediyi kimi "həyatımızda elə bir dəyərli yenilik olmayıb ki, Hüseyn Hüseynzadə ona laqeyd olsun. "Ömrü ömürlərə bağlı olan xalqın verdiyi qiyməti sənətkar üçün ən yüksək qiymət hesab edən şair başqa cür ola bilməz"(8, 10).

Hüseyn Arif yaradıcılığı ana südü kimi təmiz, təbiət qədər saf və gözəldir, bütövdür. Çünki bu poeziya ilkinlikdən, folklordan qaynaqlanır, mifik təfəkkürdən yaranır. İstənilən poemasını nəzərdən keçirsək, orada folklor izi, xalq deyimi dərhal nəzəri cəlb edir. Borçalıdan, Dərbənddən, Qərbi Azərbaycandan, Qarabağdan, Naxçıvandan, Şirvandan-fərqi yoxdur, Azərbaycanın istənilən regionundann bəhs edəndə şair həmin məkanın tarixi-etnoqrafik özünəməxsusluğunu, mərasim folklorunu, ictimai-mədəni həyatını qələmə alır. Özü də elə ustalıqla, dəqiq cizgilərlə "işləyir" ki, oxucu heyran qalır. Hiss olunur ki, şair poema üzərində işləyərkən xeyli elmi ədəbiyyata müraciət edib, şifahi xalq ədəbiyyatı, folklor qaynaqları haqqında mükəmməl bilgi toplayıb. "Borçalıda qalan izlər" poemasında S.Vurğun Borçalının Faxralı elinə qonaq gəlir. Ev sahibi ağsaçlı qadın qonağı layiqincə qarşılamaq üçün əl-ayağa düşəndə, niyə yuxusuz qaldığını soruşanda o qonağa zarafatla bir xalq deyimini söyləyir.

Hüseyn Arif poeziyası poetik söz tarix dəryasına yeni bir ümman kimi daxil olur, çünki vardığı yolun mahiyyət və siqlətini gözəl bilir. Onun saldığı yol xalq ruhundan keçir və orada da əbədiləşir.

QAYNAQLAR

1. Belinski V. Seçilmiş məqalələri, Bakı, 1979
2. Bayram T. Bəli həyatın nəfəsi şeirdir, “Azərbaycan jurnalı”, 1970, №7. səh 202-207.
3. Cəfərov N. Hüseyn Arif dünyası. “Azərbaycan jurnalı”, 1999, № 4, səh 150-153.
4. Əhmədov C. H.arif şeirinin poetikasına dair. “Ulduz” jurnalı, Bakı. 1981, N 9, səh. 53-56.
5. Həbibbəyli İ. Millilik və bəşərilik. Bakı, Azərnəşr, 1993.
6. Hüseynzadə H. Seçilmiş əsərləri. İki cilddə, 1 cild, Bakı, Azərnışr, 1975, səh. 202.
7. İbrahimov M. Xəlqilik və realizm cəbhəsində. Bakı, Azərnəşr, 1961, səh, 450.
8. Qarayev Y. Poeziya və nəşr. Bakı, 1989.

Айгюн ГАСЫМОВА

Средства поэтического выражения народного духа в поэмах Гусейна Арифа

Резюме

Статья о поэтическом средстве выражения народного духа в поэмах Гусейн Арифа, который принес новое дыхание в традиционную стихотворную форму, поднял ашугское творчество на новый этап своими стихами и поэмами. В этих поэмах на передний вышли морально-духовная жизнь, связанная с самыми глубокими слоями нашей жизни, вопрос использования источников, касающихся озано-ашугскими традициями, которые очень необходимы для нашего сегодняшнего дня.

Aygun GASIMOVA

Poetical expression means in the poems by Huseyin Arif

Summary

The presented scientific work is about the poetical expression means of nation’s spirit in the poems by Huseyn Arif, which increased classic ashig creativity to the new stage with his poems and poets also giving new spirit to the traditional poetical forms. In these poems the deepen stages connecting with the spiritual-ethical life and utilization problems of resources of ozan-ashig traditions, which is important for the present-day has given forward.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Ülkər DADAŞOVA
AMEA Folklor İnstitutunun doktorantı
Azərbaycan Respublikasının Milli Qəhrəmanı
Mübariz İbrahimov adına Biləsuvar Məktəb lisey kompleksinin
ana dili və ədəbiyyatı müəllimi

İRAQ-TÜRKMAN TOY MƏRASİMİ VƏ ŞUMER İZLƏRİ

Açar sözlər: *Tanrı, tanrıça, bərəkət, toy, tərif, qurban, su, baş örtüyü*

Giriş

Qədim xalq və təməl mədəniyyətinə malik olan Şumerlər e.ə IV minilliklərdə Mesopotamiyada yaşamış, onların zəngin düşüncə tərzi, həyatı dərketmə anlamıbir çox xalqların mədəniyyətlərə daxil olmuşdur. Odur ki, istər öz folklor, istərsə dəyazılı nümunələrində bu və ya digər şəkildə Şumer mədəniyyətinin əlaqəli inteqrasiyasına şahid ola bilərik.

Tarixinin zənginliyi ilə seçilən xalqlar sırasına daxil olan türklərin folklor nümunələrinin əsas mahiyyəti ilə, daşıdığı anlamlarla Şumer gil lövhələrindəki yazılı nümunələri müqayisə etdikdə nə qədər yaxın, hətta eyniyyət təşkil edən məqamların olduğunu görə bilərik. Bu iki düşüncə kondeksinin müqayisəsi türk və şumer prizmalarının aydınlaşmasında mənbədir.

Bir xalqın folkloru, xüsusilə onun mərasim qolu araşdırmaçılara həmin xalqın soykökünün öyrənilməsində zəngin materiallar verir, etnogenezini, tarixi keçmişini, düşünmə təfəkkürünü özündə əks etdirir.

Bu günümüzdə rastlaşdığımız, həyata keçirdiyimiz, hazır ənənələrə söykənən mərasimlər əslində neçə-neçə yüzilliklər, minilliklərdən süzülüb gəlmişdir. Nəzər yetirsək, bir daha şahidi olarıq ki, mərasimlər müxtəlif tarixi şəraitlərin, ictimai-siyasi proseslərin “isti-soyuğ”undan keçməklə əsas məğzini, ilkinliyini hələ də qoruyub saxlamış və gələcək nəsillərə ötürmüşdür.

Ən qədim zamanlarda həyat haqqında məlumatları bəsit olan, ətrafdakı təbiət hadisələrini fövqəltəbii qüvvə saymaqla hər gücdə tanrı görən insanlar bu gün bizlərin tərcih etdikləri mərasimləri, bənzətmələri, tərifləri onlar tanrılara, bütlərə etmiş, onlara müqəddəs mərasimlər keçirmişlər və sonrakı dövrlərdə isə bu mərasimlər adiləşərək tanrı-insan əvəzlənməsi ilə nəticələnmişdir. Biz insanlar üçün ailə bütövlüyünün qorunması, bu yola yönələn hər addımın son məqama qədər atılmasının özümüzdə mənəvi borc bilməyimizin kökündə, görən, nə durur? Araşdırsaq, bir daha şahidi olarıq ki, bir tərəfdən bu müqəddəsliyin kökündə bir evin, ailənin bünövrəsinin qurulmasın-

dan irəli gələn sayqı, hörmət durursada, digər bir tərəfdən lap uzaq keçmişdən gələn müqəddəslik durur.

İnsanların yaşam anlamını təşkil edən qidaların mövcudluğu, onun bərəkətinin çoxalması naminə ritualların daimiliyini təmin etmək istəyi hələ çox-çox əsrlər əvvəllər də (neolit dövründə) insanları düşündürmüş və öz düşüncə səviyyəsinə istinad edərək onu qidalarla təmin edən təbiətin bu bərəkətini itirməmək, əksinə artırmaq üçün müxtəlif mərasimlər həyata keçirirdilər. Dünyaya uşaq gətirən anaya məhsul, bərəkət verən torpağın bənzədilməsi-təbiətdə məhsul dövrü ilə bağlı baş verən mərhələlərin dünyaya övlad gətirən ananın keçirdiyi mərhələlərlə eyniləşdirilməsi insanların torpaqla qadını bir görmələrindən, yəni torpağa bir qadın, qadına isə yaradıcı gücə malik bir tanrı kimi yanaşmasından irəli gəlirdi. Nəhayət, bu iki varlıq birləşərək hər şeyi yaradan torpaq ana-ana tanrıça yarandı. Ana tanrıçanın yaratdığı tanrı ilə evliliyindən sonra yeni təbiət oyanmağa başlar, məhsul, bərəkət olar. (Bu baxımdan da evliliklə bərəkətin bir anlamda götürülməsi insanların ilkin təsəvvürlərindən irəli gələrək günümüzdə də keçirilən mərasimlərdə mmeydana gəlmişdir, toy mərasiminin müxtəlif mərhələlərində fərqli yeyinti məhsullarının olması, ola bilsin ki, bu yanaşmanın nəticəsi olaraq özünü göstərmişdir. Demək, toy mərasimlərinin keçirilməsi ilk əvvəllər insanların artımı ilə yaranacaq sevinc olmaqla yanaşı, eyni zamanda zəngin qidalarla təmin olmaq amacı durmuşdur) Bəzən bu "təbii gediş" təbiətdəki fövqəl-təbii halların nəticəsi olaraq olmaya da bilər və əgər bu evlilik olmazsa, bərəkət də olmaz, qıtlıq olar. Belə bir vəziyyətə düşməmək, çətinliklərləqarşılaşmamaq üçün insanlar "sığortalanmaq" prinsipindən yanaşaraq bu evliliyi təlqinləşdirməklə istədikləri olayı özləri tərəfindən həyata keçirirlər.(*2;* ***112-113)*** Belə ki hər il Şummer kralları (Dummuzini simvolizə edərək) tanrıça məbəddə baş rahibə(tanrıça İnannanı təmsil edərək) ilə məğzində, qayəsində torpağı zənginləşdirmək, bərəkəti çoxaltmaq niyyəti duran simvolik toy mərasimi keçirmişlər.(2;114)

Hələ e.ə. 3-cü minilliyə aid edilən mənbələrdə bitki, təbiət tanrısı Dummuzla eşq, bərəkət, torpaq tanrıçası İnannanın evlənmə səhnəsində bu günümüzdə keçirdiyimiz mərasimlərdə təsadüf etdiyimiz əlamətlərin olması bir daha toyun çox qədim zamanlara mənsub bir adət-ənənələri özündə birləşdirməsini təsdiq edən bir sübutdur və toydakı atılacaq addımların demək olar ki, hamısında bərəkət simvolizə edilmişdir. Bu adətlərin qorunub saxlanılaraq dövrümüzə qədər gəlib çıxmasını, dəyişikliklərin müəyyən qədər az olmasını isə, fikrimizcə, şumerlərin adətlərinin bugünkü əksinin ifadəsi olaraq "müqəddəs mərasim" yanaşmasının nəticəsi olaraq qəbul etmək lazımdır.

Demək, toy mənşəyində, kökündə bərəkəti, torpağı zənginləşdirərək bol məhsul almanın, bunun da nəticəsi olaraq insan həyatında, rifahında müsbətə doğru atılacaq addımın başlanğıcı vəbu başlanğıcın, insan yaşayışındakı, sonralar isə iki gəncin sevgilərinin müəyyən bir dönüşə səbəb olan anını cəmiyyət tərəfindən böyük sevgi, coşqu ilə qarşılanaraq, şənliklər, məclislər keçirməsini simvolizə edən xalq mərasimidir. Beləliklə də, ilkin insan yaşayışını təmin edən təbiət gedişlərinin axıcılığını təmin etmək məqsədi, sonralar isə iki gəncin birgə addımlayacağı həyatlarının başlanğıcında olan bu dönüş müxtəlif mərhələlərlə həyata keçirilən önəmli məişət mərasimlərinə yol açmış və demək olar ki, hər addımında da uzun sınaqlardan keçmiş inanclara söykənən ayınlərin həyata keçirilməsinin vacibliyini özündə əks etdirmişdir.

Uzaq keçmişi, zəngin ümumtürk mədəniyyətini özündə cəmləşdirən xalqlarından zamanın müəyyən mərhələsində qoparaq bu günümüzdə ayrı-ayrı dövlət adları altında yaşayan xalqlardan biri olan, Azərbaycan xalqının ayrılmaz parçası, əsrlərdən bəri ayrı düşən kərküklülərin də öz anakökünə sahibliyini folklor yaradıcılığında, xüsusən də etnik dəyərlərinin zənginliyi ilə seçilən toy mərasimlərindəki adət-ənənələrdə daha qabarıq görmək olar.

Digər ümumtürk xalqlarında olduğu kimi İraq-Türkman toy mərasimlərdəki adətlərdə də qədim Şumer mənbələrinə sirayət edən müxtəlif element izlərinin mövcudluğunu görə bilərik. Məlumdur ki, toy mərasiminin keçirilməsi müxtəlif mərhələlərlə həyata keçirilir. Hələ toyun keçirilməsində ilk başlanğıc addım sayılan "qız bəyənmə" mərhələsi zamanı qızın gözəlliyinin sözlərlə ifadəsinin etimologiyasını araşdırsaq, izlərinin şumer mənbələrindən qaynaqlandığını görərik. Ətraflarında münasib qız tapmayan ana bu işdə qarılara müraciət edər və qarı axtarıb bəyəndiyi qızı anaya təsvir edərək tərifler. Qız tapıldıqdan sonra ilkin mərhələ üçün vacib olan qızbəyənmə işini qız evinə "kəşfiyyat"a gedən "görücü"lərə həvalə edərlər və oğlanın yaxınlarından olan bu görücülər qızı bəyənərsə, onlar da tərifler. Bu tərifərə nümunə olaraq:

"Gözləri ceyran gözüdü,
Qaşılarıkamana bənzər.
Sinəsi mərmər kimidi,
Əlləri xiyara,
Ağzı badama bənzər,
Burnu fındıq kimidi(11; 200)

Və ya:
Qaşı var qələm kimin,
Gözü var ceyran kimin,
Ağzı var badam kimin,
Yerişi çalxalama, hörügü kəmənd
Boyu var çinar kimin. (1; 46)

Qeyd etdiyimiz kimi toyun başlanğıc mərhələsinə aid olan bu bənzətmələrin kökü daha qədimlərə-şumerlərə gedib dayanır. Şumerlərin bütləri əzizləyərək müxtəlif daşqaşlarla öz istədikləri kimi bəzəmələri sonralar əməldən sözlərə keçərəkklassik ədəbiyyata, hətta xalq danışıq deyimlərinə kimi gəlmişdir. Bu bənzəmələr nəinki poetik dil olan şeirə, həmçinin adi danışığa da sirayət edərək məişət dilindən də yan ötməmişdir. Belə ki hələ qız bəyənmə mərhələsində oğlan anasının oğluna bəyəndiyi qızın təsvirində bu bənzətmələrigörmək olar:" Oğlum, sənin üçün bir qız tapdım ki, dünyanı axtarsan, belə arvad tapa bilməzsən. Gözəllikdən gözəllik, əxlaqdan əxlaq. Boyu çinara, biləkləri xiyara, ağzının kiçikliyi badama, saçlarının telləri ipəyə, gözləri ceyrana, qaşları yeni doğulmuş aya, yanaqları qırmızı qönçə gülə, dodaqları laləyə, dişləri inciyə, burnu fındığa, gərdanı şişəyə, yürüşü qaza bənzər. Su içdiyində su görünür. Göksü üzərində turunclar yerləşmişdir. Danışanda bülbüllər susar, bağçada çiçəklər açar."(10; 44)

Qız bəyənilən zaman onun zahiri görünüşü ilə yanaşı, həm də daxili aləmi, şəxsi bacarığı da tərifdən kənar qalmaz:

Xamır edər saqqız kimin,
Köndə kəsər bibər kimin,
Əkmək yapar qalxan kimin,
Nənəm, alın bu qızı!
Bacım, alın bu qızı.

Suya gedər tatar kimin
Yer süpürər aslan kimin,
Tikiş tikər inci kimin,
Gəlin alın bu qızı.(1 ; 46-47)

"Allahın əmri və Peygəmbərin gevliylə" ümumi qəbul olunmuş cümlə ilə oğlan atası qız atasından qızı istər. Bu mövzuda razılaşma baş tutarsa, elə həmin gecə hər iki tərəf arasında söz kəsilər, yəni hər iki tərəfin anlaşması olar, şərbətiçmənin, sonra isə toyun vaxtı müəyyənləşər, söz bazarlığı edilər, kəbin söhbəti açılaraq kəbin, yol pulu müəyyənləşər, pulun ödənilməsi isə, əsasən, həmin gün, ya da şərbət içmə günü və ya bəzən nişandan sonra baş tutar."Buna Kərkükdə "yol aparmaq " da deyilir. Ayrıca qız evinə "toyluq" deyilən duyu, yağ, un, şəkər, göyərti, ət və duz göndərilir. "Kəbin, yəni nigah üçün təsbit edilən miqdar nigar aktında yazılan mihr-i müecceldir. Gəlin üçün ödənilən yol pulundan ailənin hər hansı miqdarda götürməsi böyük ayıb sayılır.(9; 24) Kəbin pulunun miqdarına gəldikdə isə bu pul qız toyuna xərclənəcək məbləği, qıza alınacaq hədiyyələri-qızılı, paltarın qiymətlərini özündə əks etdirə biləcək civarda olmalıdır və nişandan toya qədər olan müddətdə də qız evi kəbin pulundan lazimi ləvazimatları-əşyaları alıb hazırlayırlar.

"Bəzi yerlərdə "kese biçe" deyilən bir adət də vardır. Kese biçe yeznə tərəfindən qız tərəfinə verilən bir çeşit başlıqdır. Buna görə başlıq miqdarından çox xərclənəcək məsrəflərə oğlan tərəfi qarışmaz."(11; 201)

İraq türkləri nəinki qız alanda, həmçinin qız boşananda da qız atasına pul ödəməli olurlar. Bu zaman vəziyyət bir az da çətinləşir: qız atasının dediyi böyük məbləğin aşağı salınması-normal hala gətirilməsi uzun proses, vaxt, əziyyət tələb edər.

Qeyd edək ki, qız evinin oğlan evinə gətirəcəkləri, verəcəkləri hədiyyələr keçmişlərdən gələn ənənəyə söykənən adətlərdəndir. Biz əgər qədim şummer mənbələrini araşdırsaq, orada da belə bir halla, buna bənzər epizoda rast gəlmək olar. Toy prosesini təsvir edən mənbəni nəzərdən keçirdikdə təbiət tanrısı Temmuzun bərəkət tanrıçası İnannaya gətirəcəyi çoxlu hədiyyələrin (burada yeyintilər-buğda, xurma və s.şəklində göstərilir) gətirilməsinin şahidi oluruq.

Digər Şumer izlərinə xınayaxdı mərasimində də rast gəlmək olar. Gəlinin və bu məclisdə iştirak edənlərin xınayaxdı məclisində xınalanması ad edilən tərəfin işarə vurularaq, onun qorunulacağına inanamdan irəli gəlir. Əgər biz qədim şumer mənbələrini nəzərdən keçirsək və bunun İraq Türklərinin keçirdiyi xınayaxdı mərasimləri ilə üzləşdirsək, bir daha gəlinin güclü qüvvələrə tapınaraq onlar tərəfindən qorunması istəyinin olduğuna şahid olarıq. Belə ki, şumer mənbələrində təsvir edilir ki, daimi yaşarlıq, həyat ağacı simvolu olan Dummuz tanrının olduğu yerdə mütləq su, çeşmə olur, çünki su tanrısı Enki onun atasıdır və onların olduğu yerə günəş gələrdi. Biz, demək olar ki, eyni səhnəni xınayaxdı mərasimində də görə bilərik: gəlin ağac outracaqda üzü qibləyə oturur, ayaqları altında teşdə aydınlıq olsun deyə su qoyulur, ömrü aydınlıqda olsun deyə üzünə güzgü tutulur. Fikrimizcə, günəşi təmsil edən güzgüdən, ağacdan oturacağın olması ilə əlaqələndirilən Dummuz tanrısından, qabdakı sudan-Enki tanrısından bu səhnənin canlanması ilə həmin tanrıları simvolizə etməklə şər, mənfi qüvvələrin onlara xələl vura bilməsinin qarşısının alınmasına nail olmağı istə-

mişlər və elə bu niyyətlə də ad edərək, nişan vuraraq, yəni xına yaxaraq məqsədlərinə çatacaqlarına inanmışlar.(3)

Digər şumer mənbələrini nəzərdən keçirsək, bir daha bağlılıq, oxşar səhnəni görmüş olarıq: külək tanrısı olan Ninurta oturmuş, əlində əsa, bir dizində bərəkəti təmsil edən qoyun, digər yanında günəşi təmsil edən ceyran, arxa tərəfində ağac, önündə çay-su. Ümumiyyətlə, şumerlərdə müqəddəs sayılan yerlərdə ağacla suyun bir yerdə olmasına tez-tez təsadüf etmək olar, hətta olması vacib sayılan bir əlamət kimi qəbul olunmuşdur. Fikrimizcə, buradakı ceyran günəşi simvolizə edərək öz ifadəsini gəlinin əlinə bağlanan qızılda tapmaqla, qoyunu şəkər, yaxud mülebbes əvəz etməklə bu səhnələr uzaq keçmişdən bu günümüzə simvolik əlamətlərlə, dillə daşmışdır.(3)

Nişan günü lazım olacaq müxtəlif yeyintiləri: düyü, yağ, göy-göyərti, meyvə və s. bir gün qalmış oğlan evindən göndərilir.Nişan günü oğlan evindən çağrılan yalnız qadın qonaqlar birlikdə qız evinə müxtəlif hədiyyələrlə gedərlər. Həmçinin oğlan evindən sürmə, xına, sabun, güzgü, daraq, başörtüyü və paltarların yanında türk folklorunda gözəlliyin, bərəkətin, qoruyuculuğun, tükənməzliyin, çoxalmanın və eşqin simvolu kimi(**12)** qəbul edilən bir az qara üzüm də gətirilir.

Gətirilən hədiyyələrin içində baş örtüyünün olması tarixi keçmişdən gələn izlərin daşıyıcısı olaraq çıxış etməsindən qaynaqlanmışdır. Baş örtüyünün köklərini, tarixi mövcudluğunu araşdırarkən bunun da şummerlərə gedib çıxdığını görürük. Əvvəlcə məbəddəki "müqəddəs qadın"ların digərlərindən fərqlənmələri üçün istifadə etdiyi baş örtüyü sonralar e.ə 1500 illərində yaşamış Assur krallarından birinin qərarına əsasən evli və dul qadınların digərlərindən seçilməsi üçün istifadə olunmuşdur. Aydın bir məsələdir ki, bir ölkədə formalaşan mədəniyyət, dəyərlər müəyyən dəyişikliklərə uğramış olsa da belə, bu və ya digər dərəcədə başqa ölkələrə də keçmişdir. Baş örtüyünün bu günlərə kimi gəlinə aparılması, dinlərə keçməsi də bu gedişdən yararlanan gedişdir.(5)və belə mərasimlərdə baş örtüyünün gətirilməsi həmin qızın "ad edilməsi" deməkdir, yəni ətrafa artıq bu qızın "sahibi var" kimi işarət edilir.

Qədim şumerlərə qədər uzanan qurban vermə adəti türklərdə də *"Divanü Lügat-it-Türk*", "Dədə Qorqud"da qeyd olunan, uzaq keçmişdənbu günə kimi öz dəyərlərini qoruyaraq bu və ya digər dərəcədə gələcək nəsillərə ötürülmüşdür. Bir çox mərasimlərdə rast gəlinən, lakin, əsasən, toy mərasimləri vasitəsilə günümüzə ötürülən qansız qurban adətləri İslamda "sadaqa" anlamına gələn türklərdə isə "saçı" sözü ilə ifadə olunmaqla xəyali, ruhi güclərə inanaraq onlardan kömək, ruzi diləməkdir.(6)

Gəlinin bəy evinə daxil olarkən başına şəkər, pul, quru üzüm və s. tökülməsi, gəlinin başına kuru yemiş, almanın atılması evə bolluq, bərəkət, xoşbəxtlik gətirmək diləyi ilə icra edilən bir ənənədir. Uşaqların sevinclə yığışdırdıqları bu "saçı"ların gəlinin təzə evindəki həyatının firavanlığı üçün inanılaraq qansız qurbanlar ənənəsindən irəli gələn bir addım olmuşdur.

Gəlin ata evini tərk edərkən arxasınca su atılması bu gün üçün aydınlıq əlaməti olaraq qəbul edilsə də, qədim şumer inanclarından süzülüb gələn digər xüsusiyyəti də özündə formalaşdıran adətlərdən biri kimi dəyərləndirmək olar. Şummerlər saxsı qablarda bəslədikləri bitkiləri suya atarkən oxuduqları nəğmələrdə tanrının (bitkilərin) öldüyünün, lakin buna baxmayaraq geri gələcəyi (su ilə bitkinin birləşməsi ilə bitkiyə yenidən həyat verərək qayıtması) fikrini ifadə etmişlər. Demək, su yenidən diriltmə,

yaşamı, qovuşmanı, təkrar geri dönməsini təmin edən gücə malik bir qüvvə olaraq dəyərləndirilmişdir. (3)

Nəticə

Mərasimlər yarandığı dövrün həyata olan baxışlarını, yaşayış tərzini, ictimai-siyasi ab-havasını əks etdirsə də, mürəkkəb zaman keçidlərindən keçməsinə, dəyişən dünyagörüşü, fikirlərinin olmasına baxmayaraq ilkinliyi bu və ya digər dərəcədə qorumuşdur.İnsanlar bəzən daşıdığı ilkin mənasından belə xəbərsiz olaraq müxtəlif ayinlərlə mərasimləri keçirmişlər.

Özündən güzlü saydığı hər qüvvədə tanrı görən insanlar ilk mərasimləri də onlara keçirmişlər. Bugünkü gəlinə göstərilən qayğının, diqqətin kökündə tanrıça göstərilən diqqət, qayğı durur ki, bunu da tanrıça-gəlin əvəzlənməsinin ifadəsi olaraq qəbul etmək olar.

Toy mərasimlərində olan gəlinin tərifi də, yaxud onun xüsusi bəzədilməsi tanrıları simvolizə edən bütlərin bəzədilməsinin əksi olaraq qəbul etmək olar.

Mahiyyətində bərəkəti simvolizə edən toy mərasimlərində torpaq tanrıçası ilə bitki tanrısının evliliyi mərasim şəklində keçirməklə insanlar yaşayışlarını təmin edən qidalarla zənginləşdirmək məqsədi güdmüşlər. Odur ki, toy mərasiminin istənilən mərhələsində qidalar və yaxud qansız qurbanlar daha çox üstünlük təşkil edir.

Müəyyən vaxt keçdikdən sonra tanrıların evliliyi kral və baş rahibə ilə əvəzlənmiş, daha sonra isə adi insanların həyat tərzinə daxil olmuşdur və artıq adı insanlarda toy mərasimi keçirmişlər.

Bundan əlavə, toy zamanı oğlan evindən qız evinə gələn hədiyyələr də uzaq keçmişlə səsləşən bir yanaşma olmuşdur. Qeyd edilən xüsusiyyətə Tanrıçaya-İnannaya tanrıdan-Dummuzidən gətirilən hədiyyələrlə eyniləşmiş şəkli kimi yanaşmaq olar

Beləliklə, qədim tarixə malik olan Şumerlər, onların həyata yanaşma tərzi, düşüncəsi bir çox xalqların madii-mənəvi dünyalarına siraət etmiş və bu xalqların bugünkü folklor yaradıcılığının mahiyyətini dərk etməkdə qaynaq rolu oynamışdır.

QAYNAQLAR

1. Azərbaycan folkloru antologiyası, II kitab, (İraq-Türkman cildi), Bakı-2009
2. dergiler.ankara.edu.tr/ dergiler/26/1513/16700.pdf
3. https://www.youtube.com/watch?v=3oWx6NUBDM8
4. http://acikarsiv.ankara.edu.tr/browse/26344/ORNEK-Sivas_ve_Cevresinde.pdfFilename:ORNEK-Sivas veCevresindepdf
5. http://ahmetdursun374.blogcu.com/bas-ortusu-ortunmenin-tarihcesi/2465717
6. http://turkoloji.cu.edu.tr/HALKBILIM/salahaddin_bekki_kurban.pdf
7. İslam Sadıq. Şumerdə izim var. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı-2008
8. Qəzənfər Paşayev. Seçilmiş əsərləri. III cild, “Təhsil”Bakı-2012
9. Metin Türktaşı “Kerkük folklorundan örnekler”Denizli1997
10. Şakir Sabir “Kerkükün eski toyları” Kardaşlık dergisi, may1961, say1
11. ÜmitToqatlı “Kerkükdə evlənmə adetleri” SosyalBilimlerEnstitüsüDergisi Sayı:6Yıl 1995
12. www.millifolklor.com/tr/sayfalar/.../164-172.pd...

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

İlham ƏLİYEV
Bakı Dövlət Universiteti

SAY BİRLƏŞMƏLƏRİ VƏ SAY TƏRKİBLİ BİRLƏŞMƏ

Ключевые слова: *числительные, количествнные числительные, сочетания числителных, сочетания содержаюшие числительные*
Keywords: *numeral, cardinal numerals, numeral combinations, word combination, numeral content combination*

Nitq hissələrinin təsnifi dilin lüğət fonduna daxil olan sözlərin müəyyən prinsiplər üzrə bölgüsü əsasında aparılır. Nitq hissələri müstəqil mənalarına, morfoloji əlamətlərinə və sintaktik roluna görə, morfoloji və fonetik əlamətlər toplusu ilə fərqlənən struktur-semantik söz sinifləri kimi, bəzən isə söz əmələgətirmə və forma əmələgətirmə tiplərinə, söz birləşməsi, cümlə tərkibində sintaktik funksiyalarına görə bir-birindən fərqlənən leksik-qrammatik söz qrupları kimi təsnif edilir (1).

Nitq hissəsi kimi sayın təyini ilə bağlı tədqiqatçılar arasında fikir birliyi vardır. Bu cəhət sayları məna növlərinə ayırmada da özünü göstərir. Sayın leksik-qrammatik mənası kəmiyyət bildirməkdir.

Dünya dillərində, o cümlədən də Azərbaycan dilində sayları mənaca iki qrupa ayırırlar: 1) miqdar sayları; sıra sayları. Miqdar saylarının daxili bölgüsü də mümkündür. Bu zaman dörd yarımqrupu fərqləndirmək olar: 1) müəyyən miqdar sayları; 2) qeyri-müəyyən miqdar sayları; 3) təqribi miqdar sayları; 4) kəsr sayları.

Müəyyən miqdar sayları əşyanın konkret miqdarını bildirir, neçə? nə qədər? Suallarından birinə cavab verir, quruluşca sadə və mürəkkəb olur. Məs.: üç, beş, on bir otuz üç, yüz əlli iki və s. Müəyyən miqdar saylarının aşağıdakı xüsusiyyətləri vardır:1)müəyyən miqdar sayları birinci növ təyin söz birləşməsinin birinci tərəfi kimi işlənir. Məs.: on bir futbolçu; qırx fənd; yeddi min yeddi yüz yetmiş yeddi dəli; qırx gün, yeddi gün, yeddi möcüzə və s.; 2) miqdar sayları üçüncü növ təyini söz birləşməsinin ikinci tərəfi kimi işlənərək mənsubiyyət şəkilçisi qəbul edir və hallanır. Məs.: oxuyanların ikisi, quldurların onu, işçilərin iyirmisi və s.

B.Xəlilov Azərbaycan dilində bütün ədədləri adlandırmaq üçün iyirmi üç müxtəlif sözdən istifadə olunduğunu, bunlardan üçünün-milyon, milyard, trilyon alınma olduğunu göstərir (2, 118-119). Y.Seyidov Azərbaycan dilində leksik vahid kimi 25 (+2) say olduğunu qeyd edir, Onun ayırdığı leksik vahidlər arasında milyon, milyard alınma sayları, eləcə də çox, az, xeyli sözləri vardır. Müəllifin mötərizədə verdiyi üstəgəl iki qeydi, özünün fikrinə görə, ümumxalq dilində işlənməyən trilyon və saksalyon alınma saylarını ifadə edir (3, 277).

Azərbaycan dilində ədədləri adlandırmaq üçün Azərbaycan mənşəli iyirmi müxtəlif sözdən istifadə olunur. Bu sözlərin hər birinin, eləcə də onların başqa miqdarı bildirmək üçün yaratdıqları derivatlarının (məsələn, otuz iki, iyirmi dörd və s.) başqa sözlərlə birləşmə imkanlarında, ilk baxışdan belə görünür ki, nəzəri cəhətdən müəyyən bir spesifik xüsusiyyət tapmaq mümkün deyil. Buna baxmayaraq, dildə sayların işlənmə imkanları və yaratdıqları sərbəst söz birləşmələrinin işlənmə tezliklərində əsaslı fərqlər aşkara çıxır. Sayların miqdar ifadə etməsi, ədədlərin ardıcıl olaraq artması təkcə saylardan ibarət olan birləşmələrin əmələ gəlməsinə səbəb olur. Onluq say sistemində birinci onluğa daxil olan və təkliklər adlanan sayların (bir, iki, üç, dörd, beş, altı, yeddi, səkkiz, doqquz) bir-birindən sonra gələrək yeni say yaratması mümkün deyildir (məsələn, bir bir, bir iki, iki bir və s.). Bunun müqabilində onluqlardan sonra təkliklər işlənir və yeni miqdarı bildirən törəmə say əmələ gəlir. Məsələn, on bir, on iki, on üç, iyirmi bir, iyirmi iki, iyirmi beş, otuz altı, qırx dörd və s.). Eyni hal yüzlük, minlik ifadə edən saylardan sonra aşağı tərtib sayların işlənməsində də müşahidə olunur. Nəticədə, müxtəlif sayların adlarının yanaşı işlənməsi ilə iki, üç, dörd, beş və i.a. sayda sözün birləşməsi kimi formalaşıb bir predmeti bildirən birləşmələr yaranır. Dilçilikdə iki sözün bir-birinə yanaşaraq söz birləşməsi yaratması yanaşma əlaqəli birləşmələr anlayışı ilə izahını tapır. Lakin ağ quş, üç kitab, yeddi ağac, beş kəlmə kimi birləşmələrlə on bir, otuz beş, qırx dörd birləşmələri arasında semantik fərq vardır və bu fərq aşkar şəkildə hiss olunur. Birinci növ təyini söz birləşmələrinin iki komponentin bir-birinə yanaşması ikinci komponentin müəyyən əlamət və keyfiyyətə görə təyinini gerçəkləşdirir. «Ağ quş» birləşməsinin birinci komponenti ayrılıqda rəng bildirən sözdür. Nitq hissəsi kimi sifətdir. Ikinci komponent isimdir. Birinci komponent ikinci komponenti rəngə görə təyin edir. Burada ümumiyyətlə quşların arasından ağ rəngli olanın fərqləndirilməsi hadisəsi baş verir. Birləşmə semantikasına görə hər hansı quşu deyil, ağ rəngli quşu ifadə edir. «On bir» birləşməsində isə konkret bir say ifadəsini tapır. Bu birləşmə semantik cəhətdən on, bir, beş kimi adların ifadə etdiyi məna ilə eyni formalı mənaya malikdir. Fərq miqdardadır. On və on beş saylarının hər birinin arxasında konkret bir ədəd durur. «Ağ quş» birləşməsində də semantik təyin planında bir obyekt durur-quş. Lakin birləşmə həm də quşun rəngini fərqləndirməyə, onu quşlar toplusunda bir əlamətə görə ayırmağa xidmət edir. Belə olan halda on beş sayının da miqdara görə bir sayı digərindən fərqləndirməsini qeyd etmək mümkün olsa da, burada ikinci komponent öz konkret mənasını itirir. Ağ quş» birləşməsinin semantikasında həm birinci, həm də ikinci komponentin mənası vardır. «On beş» birləşməsində isə nə «on», nə də «beş» öz mənasını qorumur. Onların ifadə etdikləri miqdarların sanki cəmlənməsi hadisəsi baş verir.

Y.Seyidov bu məsələyə münasibət bildirmişdir. O göstərir ki, «say birləşmələri kimi hər iki tərəfi saylarla ifadə olunan beş yüz, on min, əlli beş, on dörd tipli birləşmələr nəzərdə tutulur. Bunlar ismi birləşmələrdir, konkret olaraq, onları «say birləşmələri» adlandırmaq olar» (4, 7). Müəllif yeni bir anlayış daxil edir: say birləşmələri. Şübhəsiz ki, bu birləşmələrlə söz birləşmələri arasında paralellər araşdırılmalıdır. Fikrimizcə, anlayışın definisiyasında ziddiyyət vardır. Əvvəla, hər iki tərəfin saylarla ifadə olunması konkret nümunələrin sıralanması ilə tam həllini tapmır. Məsələn, onun ikisi, beşdə üç, yüz bir tam dörddə üç, beşin üçü, ikisindən biri kimi birləşmələr də ismi

birləşmə tipindədir. Lakin bu birləşmələr Y.Seyidovun sadaladığı nümunələrdən qrammatik şəkilçilərlə işlənmək baxımından fərqlənir. Bu birləşmələrdən də bəziləri konkret miqdar bildirir: beşdə üç, yüz bir tam dörddə üç və s. Deməli, birləşmə tərkibindəki komponentlərin hər ikisinin adlıq halda olması ortaya atılan məsələnin tam həlli olmur, konkret miqdarın adlandırılmasına xidmət edən kifayət qədər çox birləşmə yuxarıdakı tərif dairəsindən kənarda qalır.

Aydındır ki, söz birləşməsi haqqında sintaktik təlimdə bu məsələ yetərincə öyrənilməmişdir. Mövcud qrammatikaların sintaksis hissəsində, söz birləşmələrinə aid tədqiqatlarda hər iki komponenti say olan və konkret miqdar, bir obyekt ifadə edən birləşmələrdən, demək olar ki, həmişə yan keçilir. Bununla belə, say adları dilçilikdə morfologiyada həmişə diqqət mərkəzinə çəkilir. Göründüyü kimi, konkret sayları ifadə edən birləşmələr iki və daha artıq sözdən ibarət olur. Sözlərin miqdarı say miqdarı tərtiblər üzrə artdıqca artır. Məsələn, «bir trilyon yüz səksən milyon iki yüz əlli altı min üç yüz on altı» birləşməsinin tərkibində 14 söz vardır ki, onların hamısı saydır. Bu tərkibdə eyni sözün təkrarlanması da özünü göstərir və bəzi say adlarında belə təkrarları maksimallaşdırmaq olur. Məsələn, «iki trilyon iki yüz otuz iki milyon iki yüz otuz iki min iki yüz otuz iki» say adında iki 7, yüz 3, otuz 3 dəfə təkrarlanır. Söz birləşmələrində belə təkrarlar mümkün deyildir. Ağ quş quş, ağ ağ quş tipli birləşmələr dilin normalarından kənara çıxır.

«Tövlə-tövlə şahbaz atlarım gərəksə, onun miniyi olsun
Qatar-qatar dəvələrim gərəksə, onun yüklüyü olsun!» (5, 179).

Verilmiş nümunədə tövlə-tövlə və qatar-qatar təkrarları vardır. Bu tipli təkrarların defislə yazılışı şübhəsiz ki, yazı qaydaları ilə bağlıdır. Yəni dildə belə qoşa sözün ayrı yazılması qəbul olunarsa onda bəzi söz birləşmələrində birinci komponentin təkrarı faktı ilə üzləşmiş oluruq. Belə məqam intensivliyi, kəmiyyəti və başqa əlamətləri gücləndirmək məqsədi daşıyır. Bu da qoşa söz tipli saylar məsələsinə baxılmasını da aktuallaşdırır.

Eyni saylar qoşa sözlər əmələ gətirir. Məsələn, bir-bir, iki-iki, üç-üç, beş-beş, on-on və s.

«Beş-beş verər, on beş-on beş bağışlar,
Bu qılıqda çodar olmaz, ay olmaz» (Koroğlu).

Qoşa söz şəkilli sayların başqa formaları, yəni eyni sözün deyil, müxtəlif sayların təkrarlanması ilə formalaşanlar da vardır. Məsələn, üç-dörd, bir-iki, beş-altı, yeddi-səkkiz və s. Belə qoşa sızlər birdən ona qədər miqdar sayları iki yanaşı miqdar sayından azdan çoxa doğru sıralanma ilə daha çox formalaşır, Lakin bunun istisna halları da az deyildir. Onu da qeyd edək ki, Y.Seyidov qoşa sözləri morfoloji kateqoriya adlandırır və onların mürəkkəb sözlərdən də fərqləndiyini göstərir (6, 53). Onu da deyək ki, qoşa sözlər söz birləşməsində bir komponent kimi çıxış edir. Məsələn, beş-altı kilo, iki-üç saat və s. “Uğultu kəsildi, Şövqü nitqini davam elədi, amma indi də mikrofon onun sözlərini əks-səda kimi iki-üç dəfə təkrar edirdi” (Anar. Macal)

Bəzi tədqiqatçılar bu fikirdədir ki, müxtəlif miqdar sayları yanaşı işlənərək təqribi miqdar sayları yaradır. Məs.: üç-dörd, dörd-beş, beş-altı və s. (2, 126).

Biz hələlik qoşa söz şəkilli miqdar saylarının semantik çalarlıqları məsələsinə toxunmaq istəmirik. Hələlik sayların yanaşı işlənməsi ilə əmələ gələn birləşmələrin təsnifi üçün yekdil fikir formalaşdırmaq daha əhəmiyyətlidir. Bu isə say birləşmələri ilə say tərkibli birləşmələri ayırmaqla bağlı araşdırmadır.

Konkret say adlarını bildirən birləşmələr, adətən, sözə bərabər tutulur, leksik vahid kimi, morfologiyada say bəhsində öyrənilir. Say birləşmələrinə münasibətdə fərqli fikirlər müşahidə olunur.

Əvvəla, belə birləşmələr təklikləri bildirən say adları ilə tam eyni müstəvidə götürülür (7, 242; 8, 38). Müxtəlif qrammatikalarda miqdar saylarına aid nümunələrdə həm təklik adları, həm say birləşmələri ilə ifadə olunan adlar bir sırada sadalanır. Məsələn, dörd, beş, on bir, on iki, beş yüz, iki min və s. Beləliklə, ayrı-ayrı sözlərlə iki və daha artıq sözlü birləşmələr qrammatik cəhətdən eyniləşdirilir. Ikincisi, miqdar saylarının quruluşca iki növündən-sadə və mürəkkəb saylardan bəhs olunur və bu zaman bir sözdən ibarət sayları sadə, iki və daha artıq sözdən ibarət saylar isə mürəkkəb say adlandırılır (9, 126; 7, 50). Üçüncüsü, miqdar saylarını quruluşca iki qrupa ayırırlar. Birinci qrup sadə saylar, ikinci qrup isə «tərkibi saylar» hesab olunur (10, 102). Dördüncüsü, miqdar saylarını quruluşca üç qrupa ayırırlar: sadə, mürəkkəb, tərkibi. Belə bir təsnifin yaranmasına bəzi dillərdə qəbul edilmiş mürəkkəb söz quruluşuna malik sayların olmasıdır (11, 366).

Y.Seyidovun say birləşmələrinə aid etdiyi birləşmələr mürəkkəb sözlərin strukturuna uyğun gəlmir. Digər tərəfdən, bunlar strukturca söz birləşmələrinə oxşasalar da, söz birləşmələri ilə tam eyniyyət təşkil etmirlər. Mürəkkəb söz kimi formalaşmayan hər hansı bir dil vahidini, eləcə də say birləşməsini mürəkkəb say adlandırmaq özünü doğrultmur.

Y.Seyidov belə bir qənaətə gəlir ki, «iki və daha artıq lüğəvi mənalı sözün (sayın) məna və qrammatik cəhətdən əlaqələnərək yaratdığı ifadələrin morfoloji kateqoriya kimi, saylara daxil edilməsi, leksik vahidlərlə yanaşı qoyulması səhvdir. Onlar söz birləşmələridir və bu sintaktik vahidin bütün tələblərinə cavab verir. Həmin birləşmələrin morfologiyaya daxil edilməsini həm ümumi-ümumən söz birləşmələrinin öyrənilməsi tarixi ilə bağlı səbəbləri var; həm də xüsusi-bilavasitə say birləşmələri ilə bağlı səbəbləri var» (4, 10). Bu və ya digər səbəbdən ziddiyyətli məqamları yenə də qalan belə bir fikri əsaslandırarkən müəllif dörd əsas səbəb göstərmiş və sonuncu səbəbin özünü də iki yerə bölmüşdür: 1) söz birləşmələri təlimi yetirincə bütün birləşmə tiplərini müəyyənləşdirməmişdir; 2) sintaksisin söz birləşmələri ilə bağlı olan bəzi məsələlərinə morfologiyada baxılır; 3) bir sıra qrammatik kateqoriyaların müəyyənləşdirilməsində olduğu kimi, bu məsələdə də dil və nitq münasibətləri nəzərə alınmamışdır. Dil vahidləri ilə nitq vahidləri-leksik kateqoriyalarla sintaktik kateqoriyalar fərqləndirilməmişdir; mürəkkəb sözlə mürəkkəb ad eyniləşdirilmişdir; 4) say birləşmələrində hər iki tərəf say olduğundan birləşmə daxilində bu tərəflərin ayrı-ayrı məfhumlar ifadə etməsi bir qədər çətin nəzərə çarpır; saylar rəqəmlə yazıla bilir.

Say birləşmələri terminin qəbul edilməsi, onluqdan yuxarı tərtibli əksər sayların adlarının söz birləşməsi olması fikrini qəbul etmək mümkündür. Lakin bu halda say

birləşmələrini xüsusi tip söz birləşməsi kimi təyin etmək lazım gəlir. Təyinetmə zamanı komponentlərarası əlaqə, birləşmənin bir obyekti ifadə etməsi kimi iki fərqləndirici əlamət aparıcı sayıla bilər. Yalnız bundan sonra say birləşmələrinin spesifik xüsusiyyətlərini aydınlaşdırmaq lazım gələcəkdir. Məsələn, say birləşmələrində yalnız saylar iştirak edir. Komponentlər arasına başqa say daxil etmək olmur və s.

Say birləşmələrinin birinci və əsas fərqləndirici cəhəti onların komponentlərinin hər ikisinin eyni zamanda sayla ifadə olunmasıdır. Digər tərəfdən, bu birləşmələrin mənasındakı bütövlük-kəmiyyət bütövlüyü də birləşmələr üçün səciyyəvi cəhətdir. Bu birləşmələr sərbəst birləşmələrdir, lakin məna bütövlüyü onları az da olsa, sabit birləşmələrə yaxınlaşdırır. Sabitləşmə say birləşmələrinin konkret obyekt adı kimi formalaşmasından irəli gəlir. Konkret ədəd olduğundan onun adı da olmalıdır. Deməli müxtəlif sayları ifadə edən adlar mövcuddur. Onlar nitq prosesində meydana çıxmır, nitq prosesindən kənarda da mövcuddur. Say birləşmələrinin hər biri say tərkibli birləşmə yaratmaqda iştirak edə bilir. Məsələn, yeddi min yeddi yüz yetmiş yeddi dəli, beş yüz on bir istinad, on iki imam və s.

Dilin lüğət tərkibinin artması, genişlənməsi və zənginləşməsində sayların özünəməxsus və mühüm rolu vardır. Belə ki, dilimizin lüğət fonduna daxil olan və leksikanın xüsusi bir qrupunu təşkil edən saylardan külli miqdarda yeni sözlər yaranır. Bunlara ona görə sayköklü sözlər deyilir ki, onların əmələ gəlməsində saylar əhəmiyyətli dərəcədə rol oynayır. Sayköklü sözlərin bir qismi düzəltmə, bir qismi isə mürəkkəb sözlərdən ibarətdir.

Say tərkibli birləşmələr və onların semantikasının bir sıra cəhətləri vardır ki, bu cəhətlər birləşmənin işlənmə xüsusiyyətləri ilə bağlıdır. «Beşıin yarısı» birləşməsindən birinci komponentin qəbul etdiyi yiyəlik hal və ikinci komponentin qəbul etdiyi üçüncü şəxs mənsubiyyət şəkilçisi də müəyyən informasiyanın formalaşmasına xidmət edir. Söz birləşməsində «yarı» məhz «beş» miqdar sayına aiddir və ya yarı beşə mənsubdur. Bu halda ilkin təsəvvür kimi kəsr ədədi yada düşür. Bu ədəd kəsr miqdar sayı olub «iki yarım» və ya «iki tam onda beş» kəsr sayıdır. Söz birləşməsinin daşıdığı informasiya müəyyən bir kəmiyyətin yarısı haqqındadır. Dilin hansı sistemə aid olmasından asılı olmayaraq informasiyanın bu şəkildə ötürülməsi və dialoji nitq prosesində pauzanın yer alması adresatın ilkin ötürülmüş informasiyaya münasibətinin formalaşmasının əsasını qoyur. Ötürülən informasiya tam deyildir. Burada real baş vermiş, baş verən və baş verəcək hadisə haqqında məlumat yoxdur. Fakt linqvistik baxımdan gerçəkliklə tamamlanmış əlaqədə deyil. Fakt və ya hadisə gerçəkliyə aid edilməmişdir. Hər bir sintaktik quruluş əsasında daha mürəkkəb və daha çox sözü əhatə edən sintaktik quruluşlar yaratmaq mümkündür. Lakin onların heç biri cümlə kimi formalaşmır. Strukturda cümləyə yaxınlaşma olsa da, semantika və praqmatikada yaxınlaşma zəifdir və yox dərəcəsindədir. Ötürülən informasiya tam formalaşdırılmayıb və aktuallaşma özünü göstərmir.

QAYNAQLAR

1. Adilov M.I., Verdiyeva Z.N., Ağayeva F.M. Izahlı dilçilik terminləri lüğəti.- Maarif, 1989
2. Xəlilov B. Müasir Azərbaycan dili morfologiya. Bakı,
3. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, BU nəşri, 2002
4. Seyidov Y.M. Say birləşmələri// Azərbaycan dilində sintaktik konstruksiyalar. Bakı, ADU nəşri, 1987, s. 6-11
5. Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1988
6. Seyidov Y. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, Maarif, 1966.
7. Языки народов СССР, т.II, Тюркские языки. Москва, Наука, 1966
8. Чикобава А.С. Грузинский язык//Языки народов СССР, т.IV, Иберийско-кавказские языки. Москва, Наука, 1967
9. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, Elm, 1980
10. Zeynalov F.R. Türk dillərinin müqayisəli qrammatikası. I hissə. ADU nəşri, Bakı, 1974
11. Грамматика русского языка, т.1. Фонетика и морфология. Москва, Русский язык, 1960

Сочетания числительных и сочетания содержащие числительные

Резюме

В статье рассматривается способ создания числительных сочетаний. Называния содержащие большие числительные, большинство которых состоит из двух и более слов является причиной структурного отличия этих единиц от слов. Но при обозначении конкретных названий. Они приравниваются к слову. Статья изучает сходства и различия сочетаний числительных и сочетаний содержащих числительные.

Numeral combination and numeral content combination

Summary

In the presented article the problemof numerals creating combination is invistegated. As the majority of names consisting of two or more words that show large numerals in odd compiling may cause the differing of this unit structurally. But it is equalized with the name of a word as it shows the concrete number. In the article the similar and different features of numerical content combinations are learnt as well.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Ülviyyə QULİYEVA
ADPU-nun magistrantı

İSMAYIL ŞIXLININ “AYRILAN YOLLAR” ROMANINDA KONFLİKT VƏ XARAKTER

Açar sözlər: *nəsr, roman, konflikt, xarakter, ədəbiyyat, yazıçı, əsər, qəhrəman, məqalə, bədii, mövzu, tənqid*
Ключевые слова: *проза, роман, конфликт, характер, литература, писатель, произведение, герой, статья, художественный, тема, критика*
Keywords: *prose , roman, conflict, character, literature, writer, work, character, art, artistic, theme, criticism*

Məlumdur ki, bədii yaradıcılıqda konflikt müəyyən həyati səbəblər, ideoloji-məfkurəvi faktorlar, sosial-mənəvi amillər, üslub-janr xüsusiyyətləri ilə şərtlənərək cürbəcür formalarda təzahür tapır. Dövrün aparıcı ruhu, vəziyyət və şəraitin real məzmunu, hərəkət və hadisələrin inkişaf məntiqi burada çox mühüm rol oynayır. Konflikt latınca, “toqquşma, ixtilaf, mübahisə” demək olsa da, onu təkcə kəskin və açıq toqquşma, döyüş, vuruş şəklində dərk və qəbul etmək doğru olmazdı. Dərin psxioloji səpkidə, insanın daxili-mənəvi varlığında da böyük ictimai-tərbiyəvi əhəmiyyətli konfliktlər baş verir. Sənət məzmun və forma əlvanlığına malik konfliktlərlə zənginləşməyə doğru getməlidir.

50-ci illərdə Azərbaycan nəsrinin aparıcı nümayəndələri S.Rəhimov “Ağbulaq dağlarında” (1954-1955), Manaf Süleymanov “Dalğalar qoynunda” (1956), Bayram Bayramov “Ayrılıq” (1957), Əbülfəz Abbasquliyev “Bahar axşamları” (1956), Əli Vəliyev “Ürək dostları” (1957), Mehdi Hüseyn “Qara daşlar” (1957), Mirzə İbrahimov “Böyük dayaq” (1957), Salam Qədirzadə “Qış gecəsi” (1957), İsa Hüseynov “Yanar ürək” (1957), İlyas Əfəndiyev “Söyüdlü arx” (1958), Sabir Əhmədov “Aran” (1959) romanlarını məhz bu tarixi dövrdə oxuculara təqdim etdilər. Hərəsinin özünəməxsus cəhətləri, məziyyət və qüsurları olan bu əsərlərin müəllifləri məsələləri əsasən real səpkidə qaldırmağa və canlandırmağa çalışırdılar.

Bu baxımdan 50-ci illərin ədəbi məhsullarından olan “Ayrılan yollar”da müəyyən maraq doğurur. Mehdi Hüseyn bu romanı ədəbiyyatımızın son illərdəki nəsr əsərlərində güclənən həyat konfliktlərini cəsarətlə açıb göstərmək meylinə misal çəkərək deyirdi: “Burada artıq mübarizə yalnız köhnə sədrlə yeni sədrin şəxsi interesləri arasında yox, iki cür iş üsulunu təmsil edən adamlar arasında gedir. Burada mədəniyyətlə cəhalətin konflikti, özü də bizim zəmanəmiz üçün səciyyəvi olan bir şəkildə verilmişdir. İmranla Kosaoğlunun konflikti tipik olduğu qədər də canlıdır.” (5, s.78).

Gerçəkliyi bədii idrak özünəməxsusluğu, həyata münasibət yeniliyi və həqiqəti aşkarlama cəsarəti ilə seçilən "Ayrılan yollar" ilk dəfə tam halında "Azərbaycan" jurnalının 1956-cı il 1-ci, 2-ci, 3-cü saylarında, 1957-ci ildə isə ayrıca kitab şəklində çıxdı. Roman İ.Şıxlının ən çox sevdiyi əsərlərindən idi. Oxucu kütləsi, ədəbi ictimaiyyət və tənqid də "Ayrılan yollar"ı rəğbətlə qarşıladı. Mətbuat öz səhifələrində bir-birinin ardınca maraqlı məqalə və rəylər çap etdi.

"Ayrılan yollar" romanının ictimai-bədii münaqişə xətti şəxsiyyət-cəmiyyət arasında baş verən ziddiyyətlərə söykənmirdi. Bu, reallığın müəyyən naqis cəhətləri, mənfi hadisə və məqamları əleyhinə ayrı-ayrı adamların apardığı mübarizədən doğan, uzaq başı, fərdlə kollektiv arasında anlaşılmazlıq-barışmazlıq üzündən yaranıb kəskinləşən və inkişaf tapan ixtilaf idi.

Gah açıq, gah da gizli davam edən həmin konflikti bir tərəfdən Kosaoğlu, Kazım, Musa, hesabdar kimi şəxslər, digər tərəfdən də Kərim kişi, Nəsib dayı və İmran, Zeynəb, Əli kimi cavanlar təmsil edirdilər. Zəruri cizgi-rəngləri tapıb işlədəndə müəllif bir qədər xəsislik göstərdiyindən obrazların bəzisi epizodik çıxmış, bəzisi isə nisbətən ətraflı işlənmişdi. Lakin onların heç biri Kosaoğlu kimi dolğun xarakter svəiyyəsinə qalxa bilməmişdi. Bununla belə, hamısı süjetin inkişafında özünə görə iştirak edir, konfliktin həlli və ifadəsində özünəməxsus mövqe tutur, ideya-bədii funksiya daşıyır, müəyyən ictimai-əxlaqi meyli təmsil edirdi.

Tənqidçi Q.Xəlilov romana obyektiv mövqedən həssas yanaşaraq müəllifin başlıca uğurunu ən əvvəl təzə xarakterli, fərdi xüsusiyyətlərə malik canlı obrazlar yaratmasında, mətləbləri, vəziyyət və situasiyaları inandırıcı, şirin və rəvan dillə açıb göstərməsində görürdü. O, konflikti forma cəhətdən o qədər təzə saymasa da, hadisələrin inkişaf və ifadəsini tamam orijinal hesab edirdi.(4)

Başqa bir məqalə müəllifi müəllim Zeynal Tağızadə yazıçının müasir kəndi, adamları, əlaqə və münasibətləri yaxşı öyrəndiyini, əmək, məhsul, plan kimi məsələlərə mücərrəd, mexaniki yanaşmadığını, insan taleyini diqqətlə izlədiyini, xəyal, arzu, ümid, sevinc, kədər, şadlıq hallarını məharətlə təsvir etdiyini xüsusi nəzərə çatdırırdı. Mülahizələrini əsasən romanın dili ilə əlaqələndirir, surətlərin mübarizə, duyğu və düşüncələrini, hərəkət və fəaliyyətini canlandıranda yazıçının münasib bədii vasitələr tapdığını, dil imkanlarından, antonim sözlərdən, müdrik kəlamlardan, tabeli və tabesiz mürəkkəb cümlələrdən bacarıqla istifadə etdiyini xatırladırdı.

Məqalə müəllifi yazıçının bədiiliyi artırmaq məqsədilə bəzən yerli şivəyə məxsus sözlərdən də faydalandığını, həmin bu sözlərin mətn daxilində, cümlələrin ümumi məzmununda və surətlərin konkret danışığında anlaşıqlı olduğunu vurğulayırdı: "İ.Şıxlı sözləri və ibarələri çox ehtiyat və qənaətlə seçib işlədir, təsvir etdiyi surətlərin həm daxili aləmi, həm də xarici əlamətləri haqqında oxucuda təsəvvür yaradır". Amma o, nədənsə "ovuntu", "çisələmə", "qaradinməz", yaxud "qımışmaq", "yalxı", "sinə-sinə" kimi sözləri "ədəbi dildə hələ möhkəmlənməyən, az işlədilən və ancaq şivəyə aid olan" sözlər hesab edirdi. Bu, yanlış münasibət idi. Məqalədə özünü tam doğrultmayan digər kiçik qeydlər də vardı. Bütövlükdə məqalə müəllifi "Ayrılan yollar"ı təqdir edib gənc nasirin müvəffəqiyyəti sayırdı. (10)

Məqalələrin hamısında roman yüksək qiymətləndirilir, haqqında xoş, səmimi və obyektiv mülahizələr söylənirdi. Bu, təsadüfi deyildi, əsərin sənətkarlıq səviyyəsi, məsələlərin real və həyati inikası ilə əlaqədar idi.

Ədəbi təcrübəsinə arxalanan yazıçı uydurma süjet və hadisələr qura bilmədiyini açıq etiraf ediərək yazırdı ki, yazılarının hamısının əsasında gerçək hadisələr, mövcud insanlar dayanır. "Kerç suları" adı altında toplanmış hekayələrimdən tutmuş son yazılarıma qədər təsvir olunan hadisələr əsasən özünün iştirak etdiyi hadisələrdir. İnsanlar isə yoldaşları, həyatda təsadüf etdiyim adamlardır. "Ayrılan yollar"dakı epizodik surətlərə qədər hamısının prototipləri var. "Dəli Kür" də həmçinin, hekayələri də bu qəbildəndir.

"Ayrılan yollar"da uydurma əhvalatlar, süni vəziyyət və situasiyalar yoxdu, mövzu yazıçının yaxşı bildiyi, gördüyü və yaşadığı həyatdan götürülmüşdü. Hər şey bədii təfəkkür süzgəcindən keçirilərək təbii əks olunmuşdu. Əsasında zəngin həyat materialı dayanan romanın birnəfəsə oxunması isə onun tez və asan yazılması demək deyildi. Şübhəsiz, müəllif yaradıcılıq əzabları keçirə-keçirə, gördükləri və duyduqlarını dərindən yaşaya-yaşaya qələmə almışdı. Roman üzərində azı üç il işləmişdi. Yaranan əsərə münasibət məsələsində o, yazdıqlarını variantlarsız çatdıran Mir Cəlal, İ.Əfəndiyev kimi sənətkarlarla eyni mövqedə dayanırdı.

"Ayrılan yollar" bu cür ərsəyə yetən, dönə-dönə işləndikdən sonra işıq üzü görən həyat nəfəsli bir əsərdir. Təsadüfi qoyulmamış ad özü də süjeti, ideyanı, konflikti müəyyənləşdirməyə və formalaşdırmağa təkan verirdi. Bədii konfliktə baxışda əsasən iki fikir mövcuddur. Biri əksəriyyətin-əsəri oxuyub bəyənən və təqdir edənlərin, digəri də Məmməd Arifin nisbətən kəskin səciyyəli fikridir.

M.Arifi, hər şeydən öncə, romanda "konfliktin inkişafı və bədii ifadəsi" qane etmirdi. (7, s.443) Bununla əlaqədar olaraq o, ümumiyyətlə, konflikt məsələsi, konfliktsizlik "nəzəriyyəsi" barədə söz açıb, mülahizələrini əsaslandırmağa çalışırdı. M.Arif "Ayrılan yollar"da əsas konfliktlə yanaşı insanlar arasında mövcud olan bir sıra əlaqələrin təbii inkişaf etdiyini və bəzi xarakterlərin açılmasına kömək göstərdiyini görürdü. Lakin istəyirdi ki, əsərin ağırlıq yükünü daşıyan əsas ictimai konflikt fon olaraq qalmasın, xarakterlərin məhək daşına və vuruş meydanına çevrilsin. Bu, ümumiyyətlə, arzu-istək kimi məqbuldu. Lakin bütövlükdə konkret olaraq romandan irəli gəlmirdi. "Ayrılan yollar"ın süjeti ardıcıllıqla izlənərsə, hadisələr, vəziyyətlər, əlaqə və münasibətlər diqqətlə nəzərdən keçirilərsə, bunun əslində Arif müəllimin dediyi və düşündüyü səpkidə olmadığı görünər.

Əsas konflikt, əsl mübarizə, İmranın yeni üsul uğrunda fəaliyyəti heç də ancaq "səhnə arxasında" getmir, həyata "bir gözlüklə" baxılmır, hadisələr "sxem çərçivəsi"nə salınmır. Arif müəllim bir neçə əsəri misal gətirərək MTS direktoru, sovet və kolxoz sədri obrazlarının bir-birlərinə oxşadıqlarını, "xüsusən kolxoz həyatından bəhs edən roman və povestlərdə məhdud bir dairə sxemi yarandığını" söyləyirdi.

M.Arifin gəldiyi qənaətə görə, sxem olan yerdə həqiqi sənət ola bilməz. Sxem rəngarəngliyin, təravətin və yeniliyin düşmənidir; sxem yaradıcılıq təşəbbüslərinə imkan vermir; sxem təkrar deməkdir. Həyatda bir-birinə oxşamayan, öz danışığı, rəftarı, hərəkəti, ruhu və xasiyyəti ilə bir-birindən fərqli olan adamları sxem bir qəlibə salır, bir rəngdə, bir biçimdə göstərir, həyatı qurudur, məhdudlaşdırır." (7, s.446) Bu qənaət

ədəbiyyatımızın keşiyini çəkən, taleyini düşünən, ona ziyan-zərər vura biləcək hər hansı vəziyyətə qarşı cəsarətlə çıxan təəssübkeş alimin-tənqidçinin haqlı mövqeyini əks etdirirdi.

Əsərə münasibət bildirən tənqidçilər "Ayrılan yollar"ı dəyərləndirərkən konflikt məsələsinə də toxunurdular. Qtyd edilirdi ki, "Ayrılan yollar" romanının konflikti bir-birinə zidd əqidələr, arzular konfliktidir. Bu konflikt ciddi əksliklər üzə çıxarmağı tələb edirdi. Şübhəsiz, əksliklər təkcə söz olaraq qalmır, konkret əməl, mövqe və hərəkətlərdə əyaniləşir. Müasir kənd mövzusuna həsr olunmuş "Ayrılan yollar"ı yüksək qiymətləndirən Yəhya Seyidov onu "tərəqqiyə maneçilik törədən real nöqsanlara atəşin qüvvətlənməsi meylini" əks etdirən əsərlərdən biri kimi görürdü.(1, s.260)

Daha sonralar İ.Şıxlı yaradıcılığını bütövlükdə nəzərdən keçirən Bəkir Nəbiyev "Ayrılan yollar"ın konfliktini belə mənalandırırdı: "Bu mübarizə təkcə yaxşı bir aqronomla pis bir kolxoz sədrinin, yaxud pambıq becərilməsindəki köhnəlmiş bir üsulla yeni üsulun tərəfdarları arasında deyil, hər şeydən əvvəl, əqidələr, mənəviyyatlar arasında gedən mübarizədir, böyük ideallarla idealsızlıq, vətəndaş pafosu ilə kiçik ehtiraslar arasında gedən mübarizədir."(8, s.4)

Sənətkar İ.Şıxlı istəyirdi ki, həqiqət heç vaxt gizli qalmasın, aşkarlanıb açıq-aydın görünsün. Axı, yarımçıq, natamam, "süni və şirin-şit" təsvir realist ədəbiyyata yaddır. Bədii təcəssümdə ancaq işıqlı, parlaq və əlvan boyalara aludəçilik birtərəfliliyə, təhrif və yanlışlığa aparıb çıxarır. Ona görə gerçəklikdəki nöqsanları, rəzalətləri, naqis və eybəcər cəhətləri də görüb göstərmək mütləq lazımdır. İ.Şıxlı dövrünə görə, cəsarətli addım ataraq mənəviyyatda, həyatda və cəmiyyətdə mövcud olan bir çox nöqsanları özünəməxsusluqla açıqladı, mənfilikləri xarakterlərini yaratdığı kolxoz sədri, kolxoz briqadiri, rayon prokuroru obrazlarının simasında əks etdirməyə nail oldu.

Ali təhsil alıb ata-baba yurduna, tək, kimsəsiz, köməksiz qalmış anasının yanına qayıdan İmranı qeyrətli övlad, vətəndaş mütəxəssis kimi doğma kəndlərinin yeniləşməsi, inkişaf və tərəqqisi problemi çox ciddi düşündürən məsələlərdən idi. İnamla can atdığı xeyirxah yolda o, bir sıra əngəllər və çətinliklərlə, ilk növbədə, mühafizəkar rəhbər, saxta və hiyləgər Qurban Kosaoğlu ilə üzləşməli olur. Mövqe, hərəkət və münasibətlər birdən-birə kəskinləşib açıq toqquşma və dərin ziddiyyət səviyyəsinə qalxmır. Bu və digər hadisələr gerçək mahiyyətində və təbii süjet axarında tədriclə əks olunur. Əsərin başlanğıcında sədr Qurban briqadir Kazımla İmran haqqında belə bir söhbət edir:

"Deyəsən, o, aqronomluq məktəbində oxuyurdu?

- İndi qurtarıb. Özü də deyirlər, yaxşı aqronom olub.
- Olsun də, guya ki, məktəb qurtaranda mənə ağzı ilə quş tutacaq. İndiki məktəb qurtaranların başında beş qəpiklik şey yoxdur.
- Deyirəm, əşi, doğrudan da, bu dünyanın işi lap qəmədiyədir. Ağzı qatıqlı uşaqlar da özünü adam cərgəsinə qatır. Heç dul Tükəzbanın oğlundan aqronom olar?
- Olanda gəlib xonçamızın başını ha dağıtmayacaq. Heçi ayrı, köçü ayrı, bizə nə var. Qapını ört, get işində ol, mən də bir azdan gələcəyəm." (9, s.14)

Bu kiçik söhbət oxucunu həyata və insanlara "yuxarıdan" baxan, yaxşı şeyə sevinməkdənsə dodaq büzən, istehza edən, irad tutan iki naqis təbiətli şəxsi görüb, getdikcə yaxşı tanımağa hazırlayır. Kolxoz sədri Kosaoğlu əvvəlcə özünü İmrana yaxın adam,

“xeyirxah”, “qayğıkeş”, “canıyanan” insan kimi göstərməyə çalışır. Özü ilə Kərim kişi ilə arasında gərginləşmiş vəziyyəti nəzərə alaraq İmrana öyüd-nəsihət tərzində deyir: “-A bala, sən belə şeylərə məhəl qoyma, evləri yıxılmışlar aman verirlər ki, adam bir düz əməlli iş görsün? Qapıdan girən kimi zəli olub yapışırlar boğazımıza. Mən də ki, axır vaxtlar bir az kəmhövsələ olmuşam, hə... Söylə görək nə var, nə yox? Yəqin anana baş çəkməyə gəlibsən. Sözün düzü, iş-güc başımı o qədər qatıb ki, heç gedib arvadın halını-zadını da xəbər ala bilmirəm. Anan necədir?”

“Ayrılan yollar”da hadisələr, mətləb və obrazlar, demək olar ki, belə bir istiqamətdədir. Bu mühüm məqam ziddiyyətləri üzə çıxarmağa, Kosaoğlu və tərəfdarları ilə Nəsib dayı, Kərim kişi, İmran, Zeynəb, Əli və başqaları arasında ixtilafı kəskinlik həddinə çatdırmağa imkan verirdi. Kiçik bənddə, “qabaqcıl” kolxozda böyük nöqsanlar, haqsızlıq və ədalətsizliklər mövcud idi. Bunları görüb aradan qaldırmağa cəhd göstərənlər də az deyildi. Lakin onlar müxtəlif çətinliklərə, maneə və müqavimətlərə rast gəlirdilər. Kosaoğlu yenə də əvvəlki qayda ilə işləmək, əkib-becərmək, plan doldurmaq və ad-san qazanmaq istəyirdi. Həyatın real inkişaf və yüksəliş qanunu isə buna qarşı dururdu. Nə qədər ki, Nəsib kişi kənddə yoxdu, İmran hələ qayıdıb fəaliyyətə başlamamışdı, Kosaoğlu özünü tam sərbəst aparır, bildiyi və istədiyi kimi hərəkət edirdi. Elə ki onlar gəlib çıxdılar, vəziyyət tədricən dəyişməyə doğru getdi, Kosaoğlunun “suyu bulanmağa” başladı. O, zahirən özünü sakit aparsa da, asanca təslim olmasa da, bir narahatlıq, hətta daxilə işləyən bir təşviş-qorxu hissi keçirirdi. Beləliklə, Kosaoğlu tərəqqi-təkamül yolunda bir əngələ çevrilir, sanki bir “sədd” və “kötük” kimi qarşıda dayanırdı. Hər işə qarışanları, hər şeylə maraqlananları və “düz yolla getməyənləri” kənarlaşdıra bilmədikdə isə özü “kənarlaşırdı”.

Kosaoğlu daxilən ona görə səksəkəli və böhranlı hallar keçirirdi ki, hər şeydən öncə, məsul vəzifəsini, mal-mülkünü, cah-cəlalını həmişəlik itirə biləcəyindən qorxurdu. Odur ki, var gücü ilə hər şeyi qoruyub saxlamağa can atırdı. Gün qalxanda mindiyi atı məktəbə doğru çaparkən Kosaoğlu ürəyindən qorxunc bir hiss keçirirdi: “Kim qabağıma çıxsa, dəli inək buzovunu ayaqlayan kimi ayaqlayacağam”. Həmin hiss təmiz və şəffaf havada ağacların başına toplaşıb qırıldaşan qarğaların kənd sükutunu pozduğu məqamda digər təsvirlə daha da qüvvətləndirilirdi: “Bir dəstə quş havalanıb lap yuxarı qalxmışdı. Onlar güclə seçilirdi. Birdən küyültü qopdu. Quşlar qanadlarını büküb yerə şığıdılar. Bu, Kosaoğluna ləzzət verdi. “Bax, belə lazımdır!”-deyə düşündü-Yuxarı qalx, sonra da aşağı şığı, qabağına kim keçsə, üstünə cum. Onda səni sayarlar”

Kosaoğlunun mövcud iş üsuluna, plan doldurma və qəhrəman hazırlama vasitə-imkanlarına obyektiv tənqidi münasibət indi adi görünə, hünər və cəsarət sayılmaya bilər. Lakin mürəkkəb tarixi dövrdə, total rejim şəraitində, kosaoğluların hökmran olduqları vaxtda isə bir çox mətləbləri də özündə cəmləşdirən o cür mənfiliklərə, neqativ və naqis hallara qarşı çıxmaq, danışmaq, yazmaq, onları realizm duyğusu ilə ədəbiyyatda açıqlamaq heç də asan məsələ deyildi. Yazıçının mürəkkəb bir şəraitdə həyat həqiqətlərini qələmə alması, onlara fəal vətəndaşlıq mövqeyindən münasibət bildirməsi təqdirəlayiq hal kimi qiymətləndirilməlidir.

QAYNAQLAR

1. Azərbaycan sovet ədəbiyyatı. Bakı: Maarif, 1966.
2. Azərbaycan sovet ədəbiyyatı tarixi, iki cilddə, 2-ci cild, Bakı: Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, 1967.
3. Hacıyev A. Epik ənənə və müasir bədii nəsr. Bakı, 1984.
4. Xəlilov Q. Ayrılan yollar. "Ədəbiyyat və incəsənət" qəzeti, 1956, 27 may.
5. Mehdi H. Ədəbiyyat və müasirlik. //Azərbaycan, 1959, №1, s.19-26.
6. Müasir Azərbaycan ədəbiyyatı. I cild. Bakı: Bakı Universiteti, 2007.
7. Məmməd A. Seçilmiş əsərləri, üç cilddə, I cild, Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1967.
8. Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə, 1-ci cild. Bakı:Azərnəşr, 1971.
9. Şıxlı İ. Ayrılan yollar. Bakı: Uşaqgəncnəşr, 1957.
10. Tağızadə Z. "Ayrılan yollar" romanının dili haqqında. "Ədəbiyyat və incəsənət", 1956, 26 avqust. 57

У.КУЛИЕВА

Конфликт и характер в романе И.Шихлы «Пути расходятся»

Резюме

В статье анализируется идейно-художественные особенности романа «Пути расходятся» народного писателя И.Шихлы. Особое внимание уделяется на характеристику художественных образов главных героев Имрана и Косаоглы, на социальные, общественные корни их противостояния. Отмечается, важность нравственных, общественно-политических проблем, поднятых авторам, реализм повествования.

U.GULIYEVA

The conflict and the character in the novel I.Shihly "Parting of the Ways"

Summary

The article analyzes the ideological and artistic features of the novel "The Parting of the Ways" national writer I.Shihly. Particular attention is paid to the characteristics of artistic images of the main characters of Imran and Kosaogly, social, social roots of their conflict. It noted the importance of the moral, social and political issues raised by the authors, the realism of the narrative.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Gülşanə XUDİYEVA
ADU-nun doktorantı
me@mail.ru

SABİR AZƏRİ YARADICILIĞININ LEYTMOTİVİ-İNSAN VƏ CƏMİYYƏT MÜNASİBƏTLƏRİNƏ FƏLSƏFİ BAXIŞ

Açar sözlər: *cəmiyyət, insan, mühit, bədii əsər, “Dalanda” romanı, “Sonsuzluq” romanı*
Ключевые слова: *общество, человек, среда, художественное произведение, роман “В тупике”, роман “Бесконечность”*
Keywords: *society, human, environment, art work, the novel “At the deadlock”, the novel “Eternity”*

Giriş: Yaradıcılığının ilk dövründən Sabir Azərini düşündürən, narahat edən əsas məsələlərdən biri məhz insan-cəmiyyət münasibətləri olmuşdur. Yazıçı həm insanı, onun daxili aləmini tədqiq edir, həm də cəmiyyətininsan üzərində təsirini və eyni zamanda hər bir şəxsin ayrı-ayrılıqda sosial mühitin formalaşmasındakı məsuliyyət payını, cəmiyyətdəki əxlaqi-mənəvi problemləri araşdırır. İnsanın daxili aləmi ayrıca mühit kimi tədqiq edilir, yaxşı və pisi ilə birlikdə inkişafda verilir və bu mühit cəmiyyətlə qarşılaşdırılır. İki mühit biri-birindən təsirlənir, bir-birinə müəyyən təsirlər edə bilirlər. İnsan ya ətraf mühitin simasına çevrilir, cəmiyyətdə baş verən proseslər, yeniliklər onun daxili mühitini formalaşdırır, ya da əksinə zamanın və mühitin sındıra bilmədiyi insan daxili saflığını qorumaq üçün mücadilə verməli olur.

Məsələnin qoyuluşu:“Dalanda” romanında insan-cəmiyyət münasibətləri xüsusilə diqqət çəkir. Bu mənada diqqət çəkən məqamlardan biri düşdüyü mühitlə ayaqlaşmayan qəhrəman tipidir. Bu problemi “Dalanda” romanının qəhrəmanı Qafarın nümunəsində izləmək mümkündür. Romanda iki mühit təsvir olunur: Qafarın özünü rahat hiss etdiyi doğma kəndi və həyatının uzun bir dönəmini yaşadığı, lakin mənəvi rahatlıq tapmadığı şəhər mühiti.S. Azərinin məqsədi kənd və ya şəhər mühitinin problemlərini əks etdirmək deyil. Yazıçını ümumiyyətlə, insan cəmiyyəti, insanın cəmiyyətdə rolu və geniş mənada insanlıq düşündürür. “Dalanda” romanında təsvir olunan hadisələr əsas etibarilə İçərişəhərdəki dalanlardan birində baş verir. Bu dalan böyük şəhərlərin, geniş sosial mühitlərin problemlərini yansıdır. Qafar eyni zamanda həm böyük şəhərdə, həm dar dalanda, həm də öz ailəsində mübarizə aparmalı olur. İş yerində, cəmiyyətdə mübarizliyi, inadkarlığı ilə seçilən qəhrəman ailə daxilində təmkinli və dözümlü olmağa çalışır. Qafarın həyat yoldaşı Fəridə də onun mübarizə apardığı cəmiyyətin bir parçasıdır. Ona görə də, yaşadığı şəhər kimi ailəsi də ona mənəvi cəhətdən yaddır. “Onun daxili aləmində dəhşətli bir faciə var.İstər-istərməz ömrünü şəhərdə xərcləyən Qafar burada yaddır.Onun içində şəhərdə qonaq olması, təbiilik və ilkinlik

mühitinə hansısa qayıdış illuziyası vardır. Bu illuziya bütün mahiyyəti ilə tragikdir.” (4) Yaşadığı şəhərə yad olan qəhrəmanın cəmiyyətdə müəyyən müsbət dəyişikliklər etmək üçün göstərdiyi səylər nəticəsiz qalır.Hətta sosial mühit digərlərindən fərqli olduğu üçün-ictimai mənafeyi öz mənafeyindən üstün tutduğu üçün qəhrəmanı qəribəlikdə, “donkixotluqda”ittiham edir. Lakin sosial mühit olaraq problemi sırf şəhər ilə əlaqələndirmək də düzgün deyil. Çünki öz patriarxal xarakteri ilə Qafar nə qədər kənd mühitinə bağlı olsa da, kəndin özündə də şəhərdə olduğu qədər olmasa da mənəvi əyintilər mövcuddur. Demək, müəllif “şəhəri ittiham etmir”. Bu əyintilər zamanla həm şəhərdə, həm kənddə daha da çoxalır. Qafar isə bu mənəvi qüsurlara göz yuma bilmir. Əsərdə zamanla insanların da (Qafarın dostu Fərəc), mühitin də (məsələn, kənd) dəyişdiyi əks olunur, amma dəyişməyən Qafar və onun öz saflığı olur. Demək Qafarın bəlası da elə məhz dəyişməməyində, cilddən cildə düşməməyindədir. Qafarın həyatı cəmiyyətlə uyğunlaşmayan insanın faciəsini əks etdirir. Bu faciənin konkret səbəbi və bu səbəbin insan, yoxsa cəmiyyət faktorundan qaynaqlanması ilə bağlı müxtəlif fikirlər səslənib. Məsələn, “Romanın niyyəti bir kəndli balasının şəhər taleyinə həsr olunmuşdur, buna kəndlinin şəhərliyə çevrilməsi prosesi də demək olar. Roman göstərir ki, bu proses tam şəkildə baş tutmur və şəhərliyə çevrilmə ağır və əzablı bir mənəvi faciədir. ...(Qafar-G.X) Nə şəhərli ola bilir, nə də burada özünü xoşbəxt hiss edə bilir.” (3, s. 384) Yuxarıda nümunə gətirilən fikirlər mahiyyət etibarilə bir-biri ilə səsləşir və Qafarın yaşadığı şəhərdə yad olduğunu əks etdirir. Bu fikirləri romandan nümunə gətirəcəyimiz bir parça ilə təsdiqləyə bilərik. Şəhərdə Qafarın inamsız, iradəsiz, zəif olmasını yazıçı böyük ustalıqla və bədii dillə belə ifadə edir: “Xəzəlin altındakı otlar cücərmişdi, amma o saat bilinirdi ki, bunlar yaz cücərtisi deyil. Otların rəngi qaçqın idi, bu göy otlar yetim uşaq təki səksəkəli idi. Hava bulansa, azca qar-şaxta gəlsəydi, dərhal məhv olacaqdı. Yazda cücərən otlar isə şux olur, diri olur, az qala adamın gözünün qabağındaca uzanır. Qafarın ürəyindən keçdi ki, şəhərə gedəndən o da qışda cücərən otlara dönüb, qorxaq olub, zəif olub.” (1, s.77)

Məmməd Qocayev Qafarın kənddən ayrılmasını milli köklərindən uzaqlaşma kimi dəyərləndirir və qəhrəmanın faciəsinin kökünü də məhz bu səbəblə əlaqələndirir. “Əsərin qəhrəmanı Qafarın faciəsi məhz öz kökündən ayrı düşmüş şəxsin faciəsidir.”(6)

Biz Qafarın uğursuzluğunun həm zaman, həm də məkan çərçivəsində baş verdiyini düşünürük. Belə ki, həyatı boyu doğma ata yurdunda ev tikdirmək arzusunda olan Qafar həyatının mühüm illərini şəhərin mərkəzində ev almağa sərf edir. O öz arzusunun dalınca getməyin labüdlüyünü çox gec anlayır. Fəridənin keçmiş ərinin qəbrinin yanında özünə qəbir yeri saxlaması Qafarın dərindən sarsılmasına səbəb olur və o, əslində aid olduğu məkana, doğma kəndinə qayıdır, lakin sözsüz ki, bu qayıdış çox gec baş verir. Məmməd Qocayevin “Zərurəti dərk etməyincə” adlı məqaləsində də bənzər fikir qeyd olunub. “Romanda məkan və zaman anlayışları vacib yer tutur.”(6) Şəhərin dar küçələrinə, İçəri şəhərin ensiz dalanlarına, evinin kiçik otaqlarına, arxivin dar və qaranlıq otaqlarına yad olan Qafar tədricən “şəhər bədbəxtdir” deyə düşünür. Çünki, Qafarın xoşbəxtlik anlayışı kəndin istiliyini, təbiətin genişliyini, səmanın ənginliyini tələb edir.

“Dalanda” romanında qoyulan problem isə daha dərindir. Faciə bir şəxsə deyil, bütün cəmiyyətə aiddir. Fərəcin əqidəsinə xəyanət etməsi (sonda ürəyi tab gətirməyib ölür), Qafarın şəhəri tərk etməsi cəmiyyətin mənəvi itkisi, məğlubiyyəti idi. Əsərin

əvvəlində Qafarın özünə verdiyi sual əslində yazıçının oxucusuna verdiyi sualdır. “Kimi aldadırıq? Yəni anlamırıq ki, yalnız özümüzü aldadırıq? Axı niyə aldadırıq? Nəyin naminə aldadırıq?” (1, s. 6) Qafarın rastlaşdığı problemlər elə bütün cəmiyyətin problemi idi. Qəhrəman yalnız öz şəxsi problemlərinə, ailəsindəki münaqişələrə görə əziyyət çəkmir. Onu incidən, narahat edən cəmiyyətdə baş verən mənəvi aşınma, insanların düşüncəsindəki kütlük və cəmiyyətə laqeyd münasibətləridir. Qafarın donkixotluqda ittiham olunması cəmiyyətin yaxşı mənada fərqlənən insana verdiyi cəzadır. Bu cəzadan qorxduğu üçün Qafarın dostu Fərəc öz prinsiplərindən əl çəkmişdir. Qafar kimi insanlara bu ittihamları oxuyan isə Fəridə, Yaqub, Mürşüdov, Qəmər xanım kimi insanlardır.

Sabir Azərinin “Sonsuzluq” romanında özü və düşüncələri ilə tək qalmış insan təsvir olunur. Göldə azmış, şaxtanın soyuğundan üşüyən insan əslində sanki həyatın dolanbac yollarında azır, qansız, amansız insanların laqeydliyindən üşüyür. Baş qəhrəman Muradın xatirələri və təxəyyülü vasitəsilə müəllif insanın daxili aləminin mürəkkəbliyini, insan nəfsinin tarixən səbəb olduğu qlobal fəlakətləri təsvir edir. Burada insan cəmiyyətinin daha qlobal problemlərinə müəllifin fəlsəfi baxışı əks olunmuşdur.

Hər hansı sənətkarın yaradıcılığına nəzər salarkən mütləq müəllifin yaşadığı zamanı və mühiti də nəzərə almaq lazım gəlir. Sabir Azərinin əsərlərində də bəşəri, əzəli fikirlərlə yanaşı sırf zaman və məkan ilə bağlı tezislərə də sıx rast gəlinir.“Sonsuzluq” romanına hər iki prizmadan yanaşmaq lazımdır. Yəni bu romanda müəllifin qeyd etdiyi fikirlər zaman və məkan məhdudiyyəti olmadan bəşəri qayğılardan doğursa da eyni zamanda konkrettəəssüratlarla, Azərbaycan xalqının tarixi və sovet imperializm siyasəti ilə də bağlıdır. Əsərdə iki süjet xətti təsvir olunur. Birinci xətt sovet cəmiyyətində yaşayan Muradın cəmiyyətdə uğur qazana bilməməsi və çəkdiyi əzablarla bağlıdırsa, ikinci xətt qeyri-müəyyən zamandan, mistik tarixdən bəhs edir. Qeyri-müəyyən zamanda, məchul keçmişdə mövcud olan sivilizasiya insan nəfsi, şöhrətə hərisliyi nəticəsində məhv olmuşdur. Bu məchul keçmişdə baş verən hadisələr iki imperiyanın dünyaya ağalıq üstündə müharibə etməsi, xalqların müqəddəratı ilə oynayıb onlara qan uddurması ilə bağlıdır. Müəllif müasir dünyamızın siyasi mənzərəsinin iki qütbə ayrılmasını və bu imperialist qütblərin digər xalqların taleyinə etinasızcasına müdaxilə etmələrini, qəsbkar niyyətlərini pisləyir, dünyamız üçün böyük təhlükə olan nüvə silahını şər qüvvənin meyvəsi kimi səciyyələndirir. İmperializm və xalqların həyatına qəsbkar müdaxilə Sabir Azərinin demək olar ki, bütün əsərlərində pislənilir. Bu əsərdə isə müəllif problemə fəlsəfi aspektdən yanaşır. O həm insanın, fərdin duyğularına enib mikroskopik müşahidələr aparır, həm də tarixi inkişafı, dünyanın müasir ictimai-siyasi mənzərəsini seyr edib ümumiləşdirmələr aparır. Yazıçının qənaətinə görə hər bir insan öz daxilində şərə qalib gəlməli və cəmiyyətdə gedən proseslərə etinasızlıq etmədən ümumun rifahı üçün çalışmalıdır, çünki cəmiyyətdə baş verən ədalətsizliklərə göz yuman, yalnız öz mənafeyini düşünən insan mahiyyət etibarilə elə şər qüvvəyə xidmət etmiş olur. “Vallah, kim nə deyir, desin, insan qəribə, nadir nüsxədir, onun ürəyində Ətalətlə Sürət, Soyuqla İsti, Qaranlıqla İşıq, Mütiliklə Üsyankarlıq qoşadır və bu qoşa qüvvələrin hansının əvvəlcə oyanması, hərəkətə gəlməsi İnsanın özündən asılı ola-ola, bunu Özü də çox gözəl dərk edə-edə gözləyir ki, görsün bu vəziyyətə düşmüş bir başqası neynir, haçan tərpənəcək?”(2, s.72) Yazıçı bəşəriyyətin aqibətini, xeyirlə şərin mübarizəsində tarazlığı, tərəflərin üstünlüyünü insanın daxili mübarizəsi ilməlaqələndirir. Dünyadakı bütün yaxşılıqlar da, pisliklər də insanın daxi-

lindəki inam və iradədən güc alır.İnsan yer üzündəki pisliklərlə, şərlə mübarizəyə ilk öncə öz daxilindəki şəri yenməkdən başlamalı və hadisələrə seyirçi qalmamalı, təşəbbüskar olmalıdır.“...İnsanın bir qüdrəti də onun həmişə, hər məsələdə özünə haqq qazandırmağı bacarmasındadır. Əgər belə olmasaydı, yəni insan özünün despotizminə də haqq qazandırmağı, hətta lazım gələndə ona humanizm rəngi vurmağı bacarmasaydı, bəlkə də günahlarını vaxtında dərk edərdi, beləliklə özünü də, başqalarını da çox bəlalardan qurtarardı. Amma heyf ki, belə olmur, çox zaman insanın özünüdərki, daha dəqiqi desək özünümühakiməsi gecikir.”(2, s.106) Əsərin əvvəlindən sonunadək Murad göldə tuluğa dönmüş keçmiş dostu ilə baş-başa qalır, ona olan nifrətini dinləyib onu məhv edəcəyinə, yoxsa insanlıq göstərib ona kömək edəcəyinə qərar verə bilmir. Yazıçı insanı tuluq şəklində təsvir etməklə şərə boyun əyən adamın öz insani simasını itirdiyini, insanlıqdan uzaqlaşdığını obrazlı şəkildə təsvir edir. Muradın tərəddüdü oxucunu son səhifələrədək gərgin və intizarda saxlayır. Əsərin adından da məlum olur ki, yazıçı xeyirlə şərin, ədalətlə zülmün mübarizəsinin sonsuzluğa qədər davam edəcəyi qənaətindədir. Əsərin sonunda Tuluq onu xilas etmiş insanı məhv etmək istəyir, daxilindəki şərə təslim olub əsl simasını büruzə verir, lakin özü məhv olur. Göylərin müdaxiləsi ədaləti bərpa edir.Burada göylərin müdaxiləsi məllifin müdaxiləsi kimi səciyyələnməlidir.İkinci süjet xətti indiki Yer kürəsindən də böyük dünyanın iki imperiyaya darlıq etməsi nəticəsində sivilizasiyanın məhv olmasını təsvir edirsə, birinci süjetin sonunda da qayıq Murad və Tuluğa darlıq edir. Lakin burada məhv olan şər olur. Sabir Azəri yaradıcılığına xas olan nikbin və inamlı təmkin burada da özünü göstərir.“Yaxşı ki, Tarix adında ədalətli bir hakim var, Tarix heç bir zaman heç bir xalqın ahını, günahsız qanlarını yerdə qoymur.”(2, s.101) Yazıçı cəmiyyətdə mövcud olan qüsurları təsvir edərkən bədbinliyə qapılmır, insanın daxilindəki humanist duyğuların şər üzərində təntənə qazanacağına inamını əks etdirir.

Bu roman insanın özünü və dünyanı dərk prosesinin, xeyirlə şər arasındakı mübarizənin əbədi və sonsuz mahiyyətini şərh edir. Yazıçı özü əsər haqqında aşağıdakıları qeyd etmişdir: “Bu əsərimin adı-“Sonsuzluq” bioloji mənada başa düşülməməlidir. Yəni insanın dünyanı, haqqı, ətrafı, özünü dərk etməsi sonsuz bir prosesdir və bunun sonuna varmaq da çətindir, bəlkə də mümkün deyil.”(5) Yazıçının bütün yaradıcılığı boyu pərakəndə şəkildə səpələnən fəlsəfi fikirlər bu romanda uğurla ümumiləşdirilmişdir. Yazıçı həyatının sonuna yaxın sanki öz yaradıcılığına məntiqi sonluq vurmağa çalışmış, ən çox sevdiyi mövzuda (insan, cəmiyyət münasibətləri) fəlsəfi baxışlarını bu əsərdə əks etdirmişdir. İnsan psixologiyasına gözəl bələd olan, insan cəmiyyətini fəal müşahidə edən yazıçı bu əsərdə filosof yazıçı statusuna yüksəlir. Təəssüf ki, əsər az tirajla çap olunmuş və ədəbi tənqid tərəfindən də layiqli qiymətini almamışdır.

Nəticə: Sabir Azərinin bədii irsi reallığı, həyat həqiqətlərinə sıx bağlılığı, psixoloji dərinliyi ilə seçilir. O, cəmiyyətimizə güzgü tutmağı bacarmış, zamanının aktual problemlərini ustalıqla işıqlandıra bilmiş istedadlı qələm sahiblərindən biri olmuşdur. Yazıçının hər bir əsərində dərin həyati müşahidələr, ümumiləşdirilmiş mülahizələr, müxtəlif fərqli və ya səciyyəvi situasiyaların təsviri öz əksini tapmışdır. Yazıçı öz tanıdığı, bildiyi, yaxından izlədiyi cəmiyyəti və bu mühitin fərdlərini təsvir edir. Sabir Azəri insanı mürəkkəb varlıq kimi təsvir etdirir və onun əsas qayəsi insanın hisslərini, duyğularını araşdırmaq, cəmiyyətdə yaranan müxtəlif münasibətlərin özülünü məhz insanın iradəsində əks etdirməkdir.

QAYNAQLAR

1. A. Sabir. Günəşə sarı gedəndə. Bakı, “Yazıçı” 1988.
2. A. Sabir. Sonsuzluq. Bakı, “Gənclik” 2001.
3. Ə. Nurlana. Sovet dövrü Azərbaycan ədəbiyyatı. Bakı, “Elm və təhsil”, 2013.
4. Ə. Rəhim. Həyat həqiqətinə sədaqət. “Ədəbiyyat və incəsənət” qəz., 1988, 1 aprel.
5. H. Böyükkişi, H. Sevil. Sabir Azəri: Fəxr edirəm ki, türkəm. “Müsavat” qəz., 2008, 17 mart.
6. Q. Məmməd. Zərurəti dərk etməyincə. “Azərbaycan” jur., 1984-cü il, N12

Лейтмотив творчества Сабира Азери-философский подход к отношениям человека и общества

Резюме

Одним из ведущих тем творчества Сабира Азери являются отношения между человеком и обществом. Писатель постоянно наблюдает за обществом благодаря своей инициативе интеллигента, и пытается определить корень общественных проблем. Он, исследует внутренний мир человека в качестве объекта художественного исследования и выявляет связь между окружающей средой и социальной средой. Согласно иодному из основных заключений, отраженных в ряда произведениях писателя, человек должен приступить к борьбе с внутреннего мира. Во время описания образов такого типа автор олицетворяет своих гуманистических чувств и оптимистических заключений. В этом смысле, пиСАтель считает важным демонстрацию гражданской инициативы каждого человека. Эти рассуждения слишком характерны для творчества Сабира Азери, который является представителем литературного наследия шестидесятых годов.

Motives in Sabir Azeri’s creativity-philosophical views in to human-society relationships

Summary

One of the leading topics in Sabir Azeri’s creativity is human-society relations. The writer as an enlightened person always observed the society anxiously and tried to determine the roots of social problems. He researches internal world of a man as a literal research object and finds out ties between this world and social medium. One of the general outcomes derived from the author’s most works is that, a man must start the struggle firstly from his inside. The writer shows his own humanist feelings and positive conclusions while describing such personages/ characters. Thus, the writer believes that it’s essential for everyone to show out his or her own citizen anxiouty. As a representative of 60’s literal generation these ideas are specific to Sabir Azeri’s creativity.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

İslam SADIQ

“AT İGİDİN QARDAŞIDI”

“Koroğlu” dastanı atla bağlı olaylarla başlamışdır və bu qətiyyən təsadüfi deyil. Alı kişi ilxıçıydı, Həsən xanın ilxısına baxırdı və at tanımaqda zəngin təcrübəsi, böyük səriştəsi varıydı. Onun gözləri də at üstündə çıxarılmışdır və hər şey bu qanlı olaydan qaynaqlanmışdır. Bəlkə də Həsən xan Alı kişinin gözlərini çıxartdırmasaydı, heç “Koroğlu” dastanı yaranmazdı.

Alı kişi gözlərinin qan bahası olaraq Həsən xandan Qıratı və Düratı istəyir. Alı kişi bu dayların gələcəkdə necə at olacaqlarını yaxşı bilirdi. Ona görə də dayları götürüb evinə gəlir, bundan sonra hər şeyi Rövşənə başa salır. Vaxtı-vədəsi çatanda Həsən xandan qisaslarını alıb Çənlibeldə yurd salırlar. Qıratın qiymətini, dəyərini də Alı kişi ilk dəfə Çənlibeldə deyir Koroğluya: *“Nə qədər ki, Misri qılınc sənin belində, sən də Qıratın belindəsən, özün də bu Çənlibeldəsən, sənə heç kəs dov gələ bilməyəcək”* (1,s.53).

Yaxşı fikir verin: Koroğlu, Çənlibel, Qırat, Misri qılınc! Bunlar bir-birindən ayrılmazdır. Onlardan birinin adı çəkilən kimi hamısının adı yada düşür. Çənlibel uca bir dağ belidir, alınmaz qaladır, Koroğlunun arxası, dayağıdır. Onu yurd kimi Alı kişi seçib!

Misri qılınc ildırım parçasındandı. Onu da Alı kişi düzəltdirib.

Qırat dərya atının balasıdı. İlahi mənşəlidi, adi at deyil. Onu da Alı kişi bilirdi. Onları da necə varsa, Rövşənə demişdi. Ona görə də İstanbulda Koroğlu Nigar xanıma deyir:

-Nigar xanım, qorxma, Qıratın üstünə minəndən sonra bizə heç vaxt zaval yoxdur.

Nigar xanımı maraq götürür, axı o atasının qoşununa yaxşı bələdiydi və düşünürdü ki, bir at iki adamı həmin qoşunun içindən necə çıxarıb qurtara bilər? Odur ki, soruşur:

-Bu qədər Qırat, Qırat ki, deyirsən, axır o necə atdı ki, bizim ikimizi bu qoşunun içindən çıxarıb apara? (1,s.59).

Onda Koroğlu Qıratı Nigar xanıma belə tərifləyir:

Uca dağ başında yel kimi əsər,
Dar günümdə mənə ürək Qıratım.
Bir aylıq mənzili bir gündə kəsər,
Köhlən bəsləmişəm, gərək Qıratım.

Bəli, Qırat adi at deyildi. O, dağ başından əsən yelə bənzəyir, bir aylıq mənzili bir günə kəsirdi. Çünki onun qanadları olmalıydı:

Yolların tozunu göyə qaldırar,
Müxənnət üstünü birdən aldırar.

Meydanın içində düşmən saldırar,
Olar yiyəsinə dirək Qıratım.

Qoç Koroğlu qonar olsa yəhərə,
Yağı düşmənləri salar qəhərə.
Axurda arpasın qoymaz səhərə,
Dara düşsəm, mənə kömək Qıratım. (1,s.59)

Qırat bax belə at idi və sonra Nigar xanım gözləri ilə gördü ki, QıratKoroğlunu və onu Xotkarın sel kimi axıb gələn qoşununun içindən necə qurtardı.

"Eyvazın Çənlibelə gətirilməyi" qolunda Ərəb Reyhan yolu kəsir. Koroğlu dərənin o tayında qalır. Bircə çıxış yolu var. Qırat dərənin bu tayından o tayına atılmalıdır. Bu da ağılabatan iş deyil. Ərəb Reyhan da bunu heç ağlına gətirmir ki, Qırat üstündə də iki adam dərənin bu tayından o tayına hoppansın. Ancaq Koroğlu Qırata yaxşı bələddi və ona inanır. Odur ki, Qıratın boynunu qucaqlayıb, deyir:

Arxam qarı düşmən, qabağım uçrum,
Apar Çənlibelə məni, Qıratım!
Sənə sığınmışam, qurtar bu dardan,
Apar Çənlibelə məni, Qıratım!

Olur Çənlibelin söhbəti, sazı,
Gəlir gümrah keçir baharı, yazı.
Almışam tərkimə igid Eyvazı,
Apar Çənlibelə məni, Qıratım!

Koroğlu əməyi getməsin zaya,
Gərək qan udduram bəyə, paşaya.
Sıçrayıb quş kimi atıl o taya,
Apar Çənlibelə məni, Qıratım! (1,s.132-133)

Burada Koroğlu Qıratla söhbət eləyir. Qırat onun nə demək istədiyini çox gözəl başa düşür. Qırat bilir ki, Koroğlu dardadır, Ərəb Reyhan yolu kəsib. Uçurumun bu tayından o tayına hoppanmaqdan başqa yol yoxdur. Ona görə də Qırat özünü yığışdırıb uçurumun bu tayından o tayına üstündə Koroğlu və onun tərkində Eyvaz elə sıçrayır ki, Koroğlunun başında papağı da tərpənmir. Onda Koroğlu Qıratı öyüb deyir:

Canım Qırat, gözüm Qırat,
Bu döyranlar ərzənindi.
Səni minən alar murad,
Uzaq yollar ərzənindi. (1,s.133)

Koroğlu arxayın idi ki, "Qıratı minən muradına çatacaq". Çünki Alı kişi ona demişdi ki, "nə qədər ki, Qıratın belindəsən, sənə heç kəs dov gələ bilməz".

Qırat insan kimi dil bilirdi. Onun da hissi, duyğusu varıydı. O hətta üstündə oturan adamın hərəkətindən onun məqsədini duyurdu. "Durna teli" qolunda Eyvazın tutulduğunu bilən Qırat bir gözünü yumur, qulaqlarını sallayır, quyruğunu qısır və axsaya-

axsaya yeriyir" (1,s.144). Bunlar elə-belə detallar deyil və Koroğlu-Qırat münasibətlərini açmaq üçün önəmli faktlardı. Qırat Bağdadda Eyvazın tutulduğunu bildiyinə, gördüyünə görə, acığından belə eləyirdi. Bununla düşmənə qəzəbini göstərirdi. Halbuki Dəmirçioğlunun və Bəlli Əhmədin atları Qırat qədər hissli, duyğulu olmadığına görə, onlar hətta dostla düşməni də seçə bilmirlər. Biz bu hərəkətləri yalnız Qıratda görürük.

Qıratın necə at olduğunu xanlar, paşalar, sultanlar da bilirdilər. Mehtər Murtuz isə yeddi il Koroğluya ilxıçılıq eləmişdi. Koroğlunu da, Qıratı da yaxşı tanıyırdı. Alı kişinin Qırat haqqında Koroğluya dediklərini də bilirdi Mehtər Murtuz. Ona görə Hasan Paşa Koroğlunun üstünə qoşun çəkmək istəyəndə ona deyir: "...Koroğlunun igidliyinin düz yarısı Qıratdandı. Nə qədər ki, o, Qıratın üstündədi, biz ona heç nə eləyə bilmərik" (1,s.169). Mehtər Murtuzun söylədikləri Alı kişinin yuxarıda xatırlatdığımız sözləri ilə necə də üst-üstə düşür. Keçəl Həmzəni də məhz Hasan paşa Qıratı Koroğlunun əlindən çıxarmaq məqsədilə Çənlibelə göndərmişdi. Koroğlu da Qıratın dəyərini yaxşı bilirdi, ona görə onun buxovunun açarını heç kimə vermirdi. Lakin Keçəl Həmzənin bu işdə bəxti gətirir. O, Düratı oğurlayıb qaçırdır, "yüz il lotuluq işlədən" Koroğlunu dəyirmanda aldadır və Qıratla Düratı dəyişir, beləcə Qıratı aparıb Hasan paşaya verir.

Keçəl Həmzə dəyirmanda Qıratın yüyənini Koroğludan alıb minir və Koroğlu aldandığını biləndə Həmzəyə yalvarmağa başlayır. Həmzə nə bilir at nədi, at minmək nədi, mərdlik, kişilik nədi? Odur ki, Qıratın yüyənini qorxusundan elə dartır ki, az qalır atın cəvcələrini kəssin. Bunu görən Koroğlunun ürəyi dözmür:

Canım Həmzə, gözüm Həmzə,
Həmzə, incitmə Qıratı!
Budu sənə sözüm Həmzə,
Həmzə, incitmə Qıratı!

Qıratdı mənim dirəyim,
Əriyər, qalmaz ürəyim.
Sən olasan duz-çörəyim,
Həmzə, incitmə Qıratı!

Qırat Koroğlunun dirəyiydi. İndi bu dirəyi əlindən alıb aparırlar. Qıratı əlindən alınmış Koroğlu dirəyi götürülmüş dam kimidir. Ona görə Keçəl Həmzəni verdiyi duz-çörəklə anda çəkir, ancaq Həmzə nə qanır duz-çörək nədi? O, Çənlibelə məhz bu məqsədlə gəlib və indi də əlinə ağlına gəlməyən fürsət düşüb. Koroğlunun isə dünya başına fırlanır:

Qırat mənim iki gözüm,
Belə dərdə necə dözüm?
Həmzə, sənə budu sözüm,
Oğul, incitmə Qıratı!

Eşidər paşalar, bəylər,
Şadlıq xəbərin söylər.
Koroğlu iltimas eylər,
Həmzə, incitmə Qıratı! (1,s.177-178)

Koroğlu Keçəl Həmzəyə nə qədər dil töküb, yalvarırsa, onu yola gətirə bilmir. Qıratın əlindən çıxdığını duyur və onun qiymətini deyir:

Əylən qiymətini deyim Qıratın,
Səksən min sərkərdə mala da vermə!
Səksən min ağ tüklü qəmər öyəcə,
Səksən min xəzinə pula da vermə!

Səksən min ilxıya, səksən min ata,
Səksən min mahaldan gələn barata,
Səksən min kotana, səksən min cütə,
Səksən min kotanlı kala da vermə!

Görürsünüzmü, təkcə Qırat səksən min ilxıya, səksən min ata, səksən min mahaldan gələn barata, səksən min kotanlı kala qarşı qoyulur, yenə onlardan baha tutulur və Koroğlu deyir ki, atı bu sadaladıqlarıma da vermə. Halbuki Keçəl Həmzə Qıratı Hasan paşanın qızını almaq üçün aparır, yəni bir qıza görə Koroğlu kimi igidin atını oğurlayır. Həm də burada heç bir sevgi, məhəbbət ola bilməz. Hamının qapıdan qovduğu Keçəl Həmzəni Hasan paşanın qızının sevdiyini heç düşünmək belə olmaz. Sadəcə olaraq, Hasan paşa onun bu xəyanətinin qarşılığında əlacsız qalıb qızını ona vermişdir. Keçəl Həmzə də qıza vurulub-eləməyib. Bu yolla yaxşı yaşamaq istəyir və bunu biləndə Koroğlu ona deyir:

Koroğlu dövlətin endirsin düzə,
Say, götür hamısın səksən min yüzə.
Səksən min gəlinə, səksən min qıza,
Səksən min ərgənə, dula da vermə! (1,s.179)

Koroğlu deyir ki, sən atı bir qıza görə aparırsan, ancaq onu səksən min gəlinə, səksən min qıza da vermə. Qıratı Koroğlu özünün bütün var-dövlətinə dəyişməyə hazırdır. İndi fikir verin! Qıratın Koroğlu üçün nə demək olduğu bu şeirdə o qədər gözəl, poetik, real verilmişdir ki, Koroğludan başqa heç kim Qıratın belə dolğun, bənzərsiz tərifini xəyalına da gətirə bilməzdi. Bu şeir bədii cəhətdən o qədər mükəmməl, bitkin, gözəl alınmışdır ki, onunla yanaşı qoymaq üçün at haqqında yazılmış ikinci bir şeir tapmaq mümkün deyil. Bu şeirlə yalnız Koroğlunun öz şeirlərini yanaşı qoymaq olar. Doğrudur, Koroğlunun at haqqındakı bütün şeirləri gözəldir, çünki onları atı özünə qardaş bilən, atı dərindən duyan, tanıyan Koroğlu qoşub, ona görə bu şeirlər belə gözəldir. Ancaq həmin şeirlər də bir-birindən seçilir. Çünki onlar ayrı-ayrı anlarda düzülüb-qoşulmuşdur. Koroğlunun bir də "Alma gözlüm, qız birçəklim Qırat, gəl!" qoşması bu səviyyədədir.

Birincisi, şeirin quruluşu gözəldir, ustad nəfəsilə yoğrulmuş, ustad xanasında toxunmuşdur. Bu şeir gözəl toxunmuş bir qənirsiz xalçaya bənzəyir. Birinci misrasından sonuncu misrasına qədər şeirin bütün sətirlərində qoşmanın 6+5=11 bölgüsü gözlənmişdir. "Səksən min" ifadələrinin təkrarı hesabına həm bənzərsiz alliterasiya, həm də mübaliğə, şişirtmə yaradılmışdır. Şeirdə sanki bir tərəzi təsvir edilmişdir. Koroğlu həmin tərəzinin bir gözünə yalnız Qıratı, digər gözünə isə hər dəfə sadaladığı "səksən

min”lərdən birini qoymuş, birincinin daha ağır olduğunu vurğulamaqla Qıratın əsl dəyərini göstərmişdir. Koroğlunun saydığı “səksən min”lər ayrılıqda çox böyük rəqəmlər olsa da, onların dəyəri ölçüyə gəlməsə də, hətta hər birinin arxasında ağılasığmayan maddi dəyərlər dursa da, onların hamısı Qıratla müqayisədə Koroğlunun gözünə olduğca xırda görünür. Biz indi bunları mübaliğə, şişirtmə adlandırsaq da, Koroğlu üçün burada heç bir mübaliğə, şişirtmə olmayıb. Koroğlu necə düşünübsə, şeiri də heç nə artırıb-azaltmadan eləcə düzüb-qoşub. Koroğlu üçün Qıratın dəyəri gerçəkdən elə o qədəriymiş.

Koroğlu Qıratın dalınca Toqata gedir. Tövlənin qapısına yaxınlaşanda Qırat Koroğlunun iyini alır. Koroğlu ilə Qıratın görüşü dastanda belə təsvir olunur: “Koroğlu sözü qurtarıb sazı bir tərəfə qoydu. Qucaqlayıb atın üzündən-gözündən öpüb duz kimi yalamağa başladı. Qırat da burnunu onun qoynuna, qoltuğuna soxub elə iyləyirdi, elə iyləyirdi ki, elə bil inək balasını iyləyir” (1,s.198).

Bu səhnənin təsviri göstərir ki, Koroğlu Qıratın qiymətini elə-belə deməyib. Qırat doğrudan da Koroğlunun dediklərinə layiqdir.

Короьлунун адамы щейрятя эятирян эюзял гошмалары чохдур. “Гырат, эял” гошмасы да поетик эюзяллийиня, психолоjи тясириня эюря сечилян сюз инъиляриндяндир. Кечял Щямзя Гыраты апарыб Тогатда Щасан пашайа верир. Короьлу Тогата эялир. Щасан паша Гыраты сакитляшдирмяк цчцн Короьлуну ашыг билиб онун йанына салыр. Короьлу Гыраты эюряндя Тогатда олдуьу да, Щасан паша да, онун гошуну да йадындан чыхыр, сазы баьрына басыб Гыраты юйцр.

Чянлибелдян сяни дейиб эялмишям,
Алма эюзлцм, гыз бирчяклим, Гырат, эял!
Дямир либас, полад эейиб эялмишям,
Алма эюзлцм, гыз бирчяклим, Гырат, эял!

Язял gündян mən биляйдим щалыны,
Яшряфидян кясдиряйдим налыны.
Йцз эюзяля тохудайдым чулуну,
Алма эюзлцм, гыз бирчяклим, Гырат, эял!

Габагда галырмы арпан сящяря,
Üзянэиляр ня йарашыр йящяря.
Дялиляр салмышды мяни гящяря,
Алма эюзлцм, гыз бирчяклим, Гырат, эял!

Мяним атым атым-атым атылар,
Гулаглары гарьы кими чатылар.
Уъузлугда мин тцмяня сатылар,
Алма эюзлцм, гыз бирчяклим, Гырат, эял! (1,s.198)

Бу шеiри Гыраты ялиндян вериб пийада галмайан, онун хиффятини чякмяйян, Чянлибелдя дялилярин вя ханымларын гылынъдан ити qınaqlarıyla цзляшмяйян, Тогатда Гыратын сахландыьы тювляйя эириб ону эюряндя

Короьлу кими кюнлц губарланмайан, цряйи теллянмяйян щеч бир сяняткар гоша билмязди. Бу гошма гошулмайыб, щямин анда Короьлунун цряйиндян булаг суйу кими сцзцлцб эялиб. Она эюря шеірдя сюзляр мунъуг кими дцзцлцб, артыг биръя нюгтя-верэцл дя йохдур. “Мяним атым атым-атым атылар, Уъузлугда мин тцмяня сатылар” мисраларыны дцшцнцб söyləmək олармы?! Биринъи мисрада “атым” сюзц цч дяфя тякрарланмагла эюзял бядии тякрир йаратмышдыр. “Алма эюзлцм, гыз бирчяклим, Гырат, эял!” мисраларыны да йягин ки, гящряманлыьынын тян йарысы Гыратын пайына дцшян Короьлудан башга кимся сюйляйя билмязди. Гырата цнванланмыш “алма эюзлцм, гыз бирчяклим” кими эюзял поетик ифадяни дя анъаг Гыраты Короьлу гядяр севян бир адамын гялби пычылдайа билярди. Бу пычылтылар йалныз Короьлунун щиссляри, щяйяъанлары иля йоьрулдуьундан беля эюзял, беля поетик ифадя олунмушду.

Koroğlu Qıratı niyə bu cür ürəkdən öyürdü? Çünki Qırat Koroğlunun dostuydu, onlar bir-birlərini yaxşı duyurdular. Qırat Koroğlunun döyüş yoldaşıydı. Koroğlu qılıncla vuruşanda, Qırat da heç ondan geri qalmırdı. Tutaq ki, Bayaziddə Koroğluya aman verməyib Xəlil paşanın başını Qırat üzmüşdü. Toqatda Koroğlu artıq Qıratın yanındaydı. O bilirdi ki, Qırat altında olandan sonra Hasan paşanın qoşunu ona bata bilməz. Ona görə də Qıratı tövlədən çıxardıb minəndən sonra Hasan paşaya deyirdi:

Mindim Qıratın belinə,
Kaş ki, düşmən yüz olaydı.
Çəkəndə Misri qılıncı,
Dərə, təpə düz olaydı. (1,s.205)

Koroğlunun sözləri Qırata insan kimi rəsir edirdi, ona güc-qüvvət verirdi. Qırat Koroğlunun nə demək istədiyini anlayırdı, duyurdu, hiss eləyirdi. Dastan boyu bunu çox yerdə görmək olur. Ancaq “Hasan paşanın Çənlibelə gəlməyi” qolundakı bir səhnə olduqca maraqlıdır. Hasan paşa on beş min qoşunla Koroğlunu üzük qaşı kimi dövrəyə alır. Koroğlu Qıratdan düşüb onun yüyənini Dəli Mehtərə verir. Özü Hasan paşa ilə bulaq başında oturub söhbət eləyir. Qıratla Koroğlu bir-birindən aralı düşür. Hasan paşa ürəyində çox şey fikirləşir, hər şeyi ölçüb-biçir və qəfildən adamlarına əmr verir ki, Koroğlunu tutsunlar. Adamlar Koroğlunun üstünə axışırlar. Bu zaman Dəli Mehtər Qıratı buraxır. Həmin səhnə dastanda görün necə real təsvir edilmişdir: “Adamlar töküldülər . Koroğlu əlindəki şeşpəri tovlayıb bir sağa hərlədi, bir sola hərlədi, özünə yol açıb çıxdı. Dəli Mehtər Qıratı buraxdı. At bir dəfə fınxırıb dördəmə özünü Koroğluya yetirdi. Koroğlu qızılquş kimi sıçrayıb atın belinə düşdü” (1,s.364). Burada Qıratın özünü Koroğluya yetirməsi də, Koroğlunun qızılquş kimi atın belinə sıçraması da bir göz qırpımında baş verir və bunları yalnız həmin anda belə eləmək olardı, çünki vaxt bunu belə tələb edirdi.

Bu çox maraqlı bir səhnədir. At insan kimi başa düşür ki, Koroğlunu düşmən dövrəyə alıb. Dəli Mehtər onu buraxan kimi özünü yetirir Koroğluya. Tutaq ki, “Koroğlunun qocalığı” qolunda Eyvaz gedib Qıratı tapıb gətirir, Qırat birbaşa Koroğlunun yanına gəlmir. Çənlibeli bir dəfə dörd fırlanıb qayıdır. Niyə? Çünki Çənlibeldə düşmən Koroğlunu dövrəyə almamışdı, Qırat da bunu duyurdu. İndi isə Koroğlu düşmənin ortasında qalıb. Bunlara yalnız dastan motivi kimi baxmaq olmaz. Bu səhnələr real həyat lövhələridir.

“Koroğlunun qocalığı” qolunda Koroğlu dəliləri başından dağıdır, Qıratı da, Düratı da buraxır. Ancaq namərd düşmən Çənlibelə hücuma hazırlaşır. Koroğlu dəliləri təzədən Çənlibelə toplayır. Eyvaz Qıratı tapıb gətirir. Qırat Koroğlunu, Nigar xanımı, dəliləri Çənlibeldə görəndə bəlkə də hamıdan çox sevinir. Atın sevinci dastanda belə təsvir olunur: “Belə baxanda gördülər Qırat elə gəlir, elə gəlir ley kimi, üstündə də Eyvaz. Hamı döndü, at Çənlibeli bir dəfə dörd dolanıb hərləndi, sonra qızılquş kimi süzüb düz Koroğlunun qabağında dayandı. Elə kişnədi, elə kişnədi ki, dağlar, daşlar lərzəyə gəldi!” (1,s.388).

Atın duyumunu, sevincini bundan gözəl necə ifadə eləmək olar? Axı burada atın insan kimi daxili, iç dünyası açılıb göstərilmişdir. Bax indi tam aydın olur ki, Koroğlu Qırata niyə “at igidin qardaşıdı” deyirdi?! Keçəl Həmzə Qıratı oğurlayıb aparanda Koroğlu nə qədər eləyirsə, onu fikrindən döndərə bilmir. Onda Qıratı Həmzəyə belə tapşırır:

Həmzə, atı yaxşı saxla,
At igidin qardaşıdı.
Muğayat ol, gündə yoxla,
At igidin qardaşıdı.

Yay olanda dağa yollat!
Yaz olanda ifçin nallat!
Qış olanda məxmər çullat!
At igidin qardaşıdı.

Atı sevib bəslə körpə,
Hayqıranda çıxsın sarpa.
Hər yeyəndə qırx tas arpa,
At igidin qardaşıdı.

Uzaq-uzaq yollarınan,
Beli ipək çullarınan.
Hoqqa yarım nallarınan,
At igidin qardaşıdı.

Məclis qurdum çoxlarınan,
Dava etdim oxlarınan.
Qara polad mıxlarınan,
At igidin qardaşıdı.

Sərin-sərin yu suyunan,
Quyruğunu düy muyunan.
Qoç Koroğlu çox öyünən
At igidin qardaşıdı. (2,s.73)

Burada sözlər nə qədər sadə, onların düzülüşü nə qədər gözəl, fikrin ifadəsi nə qədər aydındırsa, şeirin poetexnologiyası da o qədər mükəmməldir. Bu şeir sadə sözlərin adi yığınından uzaqdır. Burada adi sözlərin qeyri-adi düzümündən danışmaq daha

doğru olar. Bu şeirin arxasında şəkli sözlə çəkilmiş canlı bir mənzərə durur. Ona görə "canlı" deyirəm ki, həmin mənzərə donuq deyil, hərəkətdədir. Burada hisslərin, duyğuların, psixoloji durumların canlılığı var. Fikir verin: "Yay olanda dağa yollat!Yaz olanda ifçin nallat! Qış olanda məxmər çullat!" misralarında sözlərin seçimi, düzümü, qafiyələrin səlisliyi, təzəliyi (yollat, nallat, çullat) bütövlükdə şeirə hansı gözəlliyi verirsə, misralardakı dinamiklik, hərəkətlilik, oynaqlıq da bu gözəlliyi elə onun özü qədər artırır. Bu şeirin üç misrasında türkün üç fəsildəki həyatı, ata üç fəsildə necə qulluq göstərildiyi yüksək poetik boyalarla özünün dolğun ifadəsini tapmışdır. O biri bəndlər də bundan heç geri qalmır: "Uzaq-uzaq yollarınan, Beli ipək çullarınan. Hoqqa yarım nallarınan" misraları da əsl poeziya örnəyi sayılmağa layiqdir və yuxarıda deyilən fikirləri bunların haqqında da söyləmək olar. Burada bir xırda detala diqqət yetirmək lazımdır. Yuxarıdakı bənddə Koroğlu "Qış olanda məxmər çullat!", sonrakı bənddə isə "Beli ipək çullarınan" deyir. Görəsən niyə? Bu, bir təsadüfdürmü? Qətiyyən! "Koroğlu" dastanında və Koroğlunun şeirlərində təsadüf yoxdur, çünki onlar böyük istedadın məhsullarıdır. "Qış olanda məxmər çullat!" misrasını "Qış olanda ipək çullat!" şəklində yalnız naşı adamlar deyərlər. Koroğlu isə naşı deyil və həmin misranı heç vaxt belə deməzdi. İpək sərin, soyuq olan parçadır. Qışda atı ipəkdən tikilmiş çulla çullamazlar. Məxmər isə isti parçadır. Yayda da atı sərin olsun deyə, məxmər yox, ipək çulla çullayarlar. Yaxud "Məclis qurdum çoxlarınan, Dava etdim oxlarınan. Qara polad mıxlarınan" misralarına baxın. Burada bir dənə də yerində işlənməmiş, artıq söz yoxdur. Şeirdən hansı gözəllik tələb olunursa, burada var.

Koroğlu Qıratı özünə qardaş bilirdi. Onu doğma qardaş kimi sevirdi. Keçəl Həmzə Qıratı incidəndə ürəyi dözmürdü, az qalırdı dayansın. Qırat da bu sevgini duyurdu. Qırat da bu sevgiyə layiq atıydı. O Koroğlunu Toqatda Dona çayını üzüb keçəndə, Təkə-Türkməndən gələndə uçurumdan atılanda, daha harda, harda elə darlardan qurtarmışdı ki, bunları Qıratdan başqa heç bir at bacarmazdı.

Türk epik qəhrəmanlarının hamısı atı özlərinə qardaş sayırdı, çünki at öz dostuna, yiyəsinə qardaş qədər, bəlkə qardaşdan daha artıq sədaqətli olur. Biz bunu "Dədə Qorqud"da , "Koroğlu"da və digər türk dastanlarında görürük.

Türk epik qəhrəmanlarının atları da ağıllı və müdrikdirlər, ən başlıcası, onların da insan kimi hissləri, duyğuları, düşüncələri var. Onlar qəhrəmanın düşdüyü durumu duyurlar. Bütün bunlar ondan irəli gəlir ki, türk epik qəhrəmanlarının atları da özləri kimi, ilahi mənşəlidir, göydən, Tanrı tərəfindən göndərilmişdir. Qırat dərya atından törənmişdir, yəni Qıratın atası dərya atıydı. Dərya burada su başlanğıcını, ilahi mənşəyi bildirir. Alı kişi də müdrik olduğundan bunu bilirdi və qulun vaxtı çəlimsiz, çöpüklü görünən Qıratın gələcəkdə böyüyüb möcüzə olacağına öncədən inanırdı. Zəki Vəlidi Toğan türk epik qəhrəmanlarının atlarının dağ yaxud dəniz ayğırından törənməsini Tanrının türkləri digər xalqlardan üstün tutması kimi dəyərləndirmişdir (3,s.108). "Koroğlu" eposunda Qıratın hərəkət və davranışlarını diqqətlə izlədikdə onun nə qədər ağıllı, duyğulu, hissiyyatlı və müdrik olduğu aydın görünür. Ata müdrik deyildiyinə etiraz edənlər ola bilər. Halbuki yuxarıda Qıratın müdrikliyini göstərən incə məqamlardan bir neçəsinə toxunulmuşdur. Koroğlu "At igidin qardaşıdı" şeirini təsadüfən qoşmamışdır. Qıratın öz hərəkətləri, duyğusu, hissi, düşüncəsi, ən çətin ayaqda Koroğlunun fikrini anlaması bu şeirin yaranmasına səbəb olmuşdur. Muxtar Kazımoğlu Qıratın dərya atından doğulmasını və Qoşabulağın suyundan içdikdən sonra Koroğluya qeyri-adi bahadırlıq və qeyri-adi aşıqlıq verilməsini doğru müşahidə etmiş, hər ikisinin su başlanğıcından törədiyinə əsaslanaraq onların mifoloji qardaş

olduqlarını söyləmişdir (4,s.38).

Deməli, Koroğlu-Qırat qardaşlığının daha qədim, dərin və mifik düşüncə donuna bürünmüş ilahi kökləri var.

Biz ata qardaş deyildiyini "Dədə Qorqud"da da görürük. Basat 16 il dustaq olur, düşmənin qızı onu yorğanla aşağı sallayır, Basat ilxının yanına gəlib özünün dəniz qulunu Boz ayğırını görür. Qırat Koroğlunu görəndə kişnədiyi kimi, Boz ayğır da Beyrəyi görəndə kişnəyir, yəni yiyəsinin gəlişindən, onunla görüşündən sevinir. Onda Beyrək atını belə öyür:

Açıq-açıq meydana bənzər sənin alıncığın,
İki şəbçırağa bənzər sənin gözciyəzin.
Əbrişimə (ipəyə) bənzər sənin yəliciyin.
İki qoşa qardaşa bənzər sənin qulacığın.
Əri muradına yetirər sənin arxacığın.
At deməzəm sana, qardaş derəm
Qardaşımdan yey!
Başıma iş gəldi, yoldaş derəm.
Yoldaşımdan yey!-dedi. (5,s.60)

Basatın da Boz atına "At deməzəm sana, qardaş derəm Qardaşımdan yey!" deyə müraciət etməsi türk epik ənənəsində qəhrəman-at qardaşlığının möhkəm yer tutduğunu göstərir və "Koroğlu" dastanına da bu qədim ənənədən gəldiyini söyləməyə əsas verir. Basatın və Koroğlunun Tanrı mənşəli olduqları bəllidirsə, onların "qardaşım" dedikləri atların da Tanrı mənşəli olduğuna heç bir şübhə yoxdur. Qıratın dərya, Boz atın da dəniz atından törənməsi onları ilahi mənşəyə bağlayan ən tutarlı faktdır.

Son olaraq bir şeyi demək istəyirəm ki, "Koroğlu" dastanının mətnini duymadan, obrazların xarakterinə, psixologiyasına, davranış və hərəkətlərinin altında gizlənmiş məqsəd və niyyətlərinə, qəhrəmanların fikir və düşüncələrinə, hiss və duyğularına dərindən bələd olmadan, hər sözün, hər cümlənin alt qatlarında yatan əsl mənanı duymadan onun araşdırılmasına girişmək ingilis dilində 200 söz öyrənib Şekspiri orijinaldan tərcümə etmək fikrinə düşməyə bənzəyir. Bu sözlər eynilə dastandakı şeirlərə də aiddir. Çox zaman "Koroğlu" dastanının mətnini və ordakı şeirləri duymurlar. Ancaq "Koroğlu" dastanını kor-korana araşdırır, ağıllarına gələni yazıb, yeddi dərənin suyunu bir-birinə qarışdırırlar. "Koroğlu" dastanından yalnız onu duyub yazmaq olar!

QAYNAQLAR

1. Азярбайъан дастанлары. Беш ъилддя, 4-ъц ъилд (Тяртиб едяни М.Щ.Тящмасиб). АзМЕА няшрийяаты, Бакы, 1969.
2. Koroğlu. Hoydu, dəlilərim, hoydu (Toplayıb tərtib edəni və ön sözün müəllifi İslam Sadıq). Azərbaycan Dövlət Nəşriyyatı. Bakı. 2006.
3. A.Zeki Velidi Toğan. Ümumi türk tarihine giriş. İstanbul. 1981.
4. Kazımoğlu Muxtar. Folklorda qəhrəmanın oxşarı//Azərbaycan Şifahi xalq Ədəbiyyatına dair Tədqiqlər. AMEA Folklor İnstitutu. Bakı. 2009. Sayı XXVIII. Səh. 29-39.
5. "Kitabi-Dədə Qorqud" (Tərtib edəni Həmid Araslı). Bakı. "Gənclik". 1978.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Aytac ABBASOVA
AMEA Folklor İnstitutunun
“Folklor və yazılı ədəbiyyat”
şöbəsinin elmi işçisi
folklorgirl@mail.ru

MÖVSÜM MƏRASİMİ: NOVRUZ ADƏT-ƏNƏNƏLƏRİ

Açar sözlər: *Novruz, bahar bayramı, folklor, çərşənbələr, ritual, tonqal, Kəlbəcər*
Ключевые слова: *Навруз, праздник весны, фольклор, четвергам, ритуал, костер, Келбаджар*
Keywords: *Novruz, a spring festival, folklore, Thursdays, ritual, bonfire, Kelbejer*

Qədimliyi və inancları ilə əsrlərdən günümüzə qədər gələn, hər il təntənəli şəkildə qeyd etdiyimiz və digər mərasimlərə nisbətən öz ilkin izlərini qoruyub saxlayan mövsüm mərasimlərdən biri də Novruz bayramıdır. Novruz bayramı türk xalqlarının ortaq bayramıdır. Azərbaycanda, Türkiyədə və Orta Asiya türk dövlətlərində Novruz mart ayında bahar bayramı kimi qeyd olunmaqdadır. Dünya xalqlarının əksəriyyəti bahar fəslinin gəlişi ilə bağlı müxtəlif adlarda, günlərdə bayramlar keçirmiş, bir çoxu bu bayramı özlərinin milli xalq bayramına çevirmişdir.

Azərbaycanda və ayrı-ayrı bölgələrimizdə də Novruz bayramı özünəməxsus şəkildə qeyd edilir. S.Əfəndiyev yazır ki, “Novruz kütləvi xalq bayramıdır. Onun xalq arasında geniş yayılması xalqın məişətinə, həyatına dərin nüfuz etməsinin nəticəsidir. Azərbaycanda və onun müxtəlif bölgələrində Novruz bayramı eyni cür keçirilmir. Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ və İsmayıllı rayonlarında, bir çox kəndlərimizdə bu bayramın özünəməxsusluğu barədə müəyyən fikir söyləmək mümkündür” (4, 75). Elə rayonlarımız da vardır, iyirmi ildən çoxdur ki, orada Novruz bayramı qeyd edilmir. Düşmən əsarəti altında qalmış bu torpaqlarda Novruz adət-ənənələrinin heç biri yerinə yetirilmir. Novruz bayramının dörd çərşənbəsi, Novruz tonqalı, Novruz hazırlıqları bu yerlərdə, bu torpaqlarda illərdi keçirilmir. Öz yurd-yuvasından, elindən didərgin düşmüş insanlar Bahar bayramını Azərbaycanın müxtəlif bölgələrində özünəməxsus adət-ənənələrlə keçirməyə çalışırlar. Belə bir deyim vardır: “Əgər bayram günü evdə olmasan, yeddi il dərbədər olacaqsan”. Sanki bu deyim işğal olunmuş rayonlarımızın sakinləri üzərində öz əksini tapmışdır. Belə rayonlarımızdan biri də Kəlbəcərdir.

Əhali dağılmasına, müxtəlif ərazilərdə yerləşməsinə baxmayaraq, Novruz bayramını könülləri nisgilli şəkildə qeyd edir. Goranboy rayonunda məcburi köçkünlər üçün salınmış düşərgədə Kəlbəcərin Zivel, Keştək, Aşağı Ayrım,

Milli, Sarıdaş, Dəmirçidam, Seyidlər, Qamışlı, Yanşaq, Nəcafalı kəndlərinin sakinlərindən topladığımız nümunələrdə bunu aydın şəkildə görürük.

Baharın gəlişi, havaların istiləşməsi, qarın əriməsi, təbiətin canlanması, yeni təsərrüfat ilinin başlaması şərəfinə böyük təntənə ilə hər il keçirilən Novruz bayramı, sözsüz ki, birdən-birə başlanmırdı. Bütün bunlar insanlara bayram hazırlıqlarının başlanmasının xəbərini verirdi. Buraya ev-eşiyin, həyət-bacanın təmizlənməsi, yeni paltarların alınması, bayram bazarlığı, bayram yeməklərinin hazırlanması və s. daxil idi. Kəlbəcər sakini bayram hazırılğını belə təsvir edir: "Bayram təmizliyini birinci məhlədən, qapı-bacadan başlayırdılar. Görürdün ki, yerdən yarpuz, bəzi pencərlər baş qaldırır, bənövşə açır, onda birinci qapı-bacanın hər yerini təmizdəyirdin, payızın zir-zibilini, xəzəlini süpürüf tökürdün. Sonra keçirdik evə. Mütləq kənddəki evlər əhənglə ağardılırdı. Əhənglə ağartmax isə təmizlik əlaməti idi. Mitillər çölə tökülür, palazlar yuyuluf tər-təmiz edilirdi. Qabax mis qavlar olurdu. Həmin mis qavları aparırdıx çay üsdünə qumla sürtüf, təmizləyif bayram aşının bişirilməsi üçün hazırlayırdıx" (2).

Novruz bayramına aid adət kimi göstərilən "bayram təmizliyi" əslində mifoloji aləmdən xəbər verir. Belə ki, insanlar köhnə dünyadan çıxıb yeni dünyaya (xoasdan kosmosa) getmək istəyir. Bunun üçün də xüsusi hazırlıq görür. Evlərini və əşyalarını təmizləyən insanlar sonra özlərini yeniləyirlər-təzə paltar geyinirlər. Beləliklə də, bayram günü yeni dünyaya qədəm qoyurlar.

Novruz bayramına hazırlıq təkcə təmizlik işləri görməklə bitmir. Bayram süfrəsinin hazırlanması üçün də xüsusi hazırlıqlar görürlər. "Bayramda yaşlılar xamır yoğurur, ərişdə kəsirdilər. Qız-gəlin yığılıf qoğal, fəsəlli, qatlama, sajaltı pişirirdi" (2, 147). Başqa bir söyləyici isə deyir: "Kəlbəcərdə aşı ancax ərişdə ilə bişirirdih. Bir gün birinin evində, o biri gün o birinin evində yığılıb əriştə kəsirdik, təmiz yuduğumuz palazların üstünə sərif evin üsdünə, damın üsdünə toz olmasın deyə qoyurdux. Uşaqlar da onu quşdan, toyuxdan qoruyurdu. Deyirdilər ki, axırda sizə "cijiqurvan" verəjəyik. "Cijiqurvan" ərişdənin altının yanmış, qara, şirin xırdalarına deyirdik. Bayram aşına təmiz pak adamlar duz atmalı idi. "Qırmızı bayramlara çıxax"-deyib atırdılar. Bişən aşdan qonşulara pay aparırdıx. Qonax gəlirdi, qonax gedirdik" (2).

Kəbəcərdə bayram yeməyi kimi mütləq "əriştəli aş" bişərdi. Söyləyicinin dediyi kimi bu əriştəni kəsmək üçün iməcilik təşkil edilirdi. Bayramdan bir həftə əvvəl kəndin qız-gəlini yığışıb əriştəni kəsərdi. "Qırmızı bayramlara çıxaq"-deyimi isə Novruz bayramının islamda I xəlifə olan İmam Əli ilə əlaqələndirilməsindən yaranıbdır. Xalqın inancına görə bu gün Həzrəti Əlinin qırmızı geyinib taxta çıxdığı gündür. Qapıya, səmənninin ortasına qırmızı lent bağlanması, qırmızı paltar geyinilməsi, ümumiyyətlə qırmızı rəngə bayramda üstünlük verilməsi də bununla əlaqədardır. Bayramın İmam Əli ilə bağlı olması, qapılara qırmızı lent bağlanması Zəngilan, Laçın, Qubadlı bölgəsində də mövcuddur. "Həmin gün Cənab Əli qırmızı geyif, taxta çıxıf. Onun şərəfinə Novruz bayramına on gün qalmış hər qapıya qırmızı bağlanırdı" (6, 222). Mifoloji anlamda isə qırmızı rəng xoşbəxtliyin, sevincin rəmzidir.

Qarabağa məxsus folklor nümunələrinə nəzər saldıqda görürük ki, ayrı-ayrı bölgələrdə Novruz bayramının keçirilməsi üçün görülən tədbirlər-bayram hazırlığı, bayrama məxsus xörəklərin bişirilməsi, qapı-bacaya qırmızı bağlanması, bayramlaşmaq adəti, qız-gəlinin səhər tezdən su gətirməyə getməsi və s. (6, 223) eynilik təşkil edir.

Novruz bayramı Qubadlı, Kəlbəcər və Laçın regionunda eyni inanc və adətlərlə keçirilir.

Bildiyimiz kimi, Novruz gəlməmişdən öncə onun ilk carçısı kimi hər həftə ocaqlar qalanır və dörd çərşənbəyə bölünür: "su, od, torpaq, külək". Bu, demək olar ki, dörd həftəni özündə birləşdirir. Axırıncı çərşənbəyə isə "ilaxır çərşənbə" yaxud "axır çərşənbə" deyilir. İlaxır çərşənbə təmtərağı ilə özündən əvvəlki çərşənbələrdən fərqlənir. Doğrudur, bu çərşənbədə də olduğu kimi əvvəlki çərşənbələrdə də hazırlıq görülür, süfrə bəzənir, tonqal yandırılır və s. Amma axır çərşənbədə bu təmtəraq daha zəngindir. Kəlbəcərin Aşağı Ayrım kəndinin sakini olan İbrahimova Əsli Sadıq qızı danışır ki, "uşaxlar, cavannar tonqal qalamax üçün meşədən ardış, şam ağaclarını kəsif gətirər, çovan darağı toplayardılar. "Çovan darağı" tonqalda səs-küylə yandığından mütləq onu tapardılar. Keçəni yumuruyub bərk-bərk bağlayar və üstünə ağ neft tökərdilər. Sonra məftilə bağlayıb yandırardılar. Fırladıb havaya atdıqları bu keçə göyün qaranlıq qatlarını işıqlandırırdı. Bu "füşəngi" bir neçə dəfə havaya atmaq olurdu" (2).

İlaxır çərşənbədə hər ev, ailə tonqal yandırmalı idi. Həm də bu tonqalda yandırılan çır-çırpını içərisində mütləq tikanlı kol da olmalıdır. Azərbaycanın dağ rayonlarında bu cür kolu əldə eləmək asan olurdu. İnama görə, guya qışın, şaxtanın, soyuğun qoruyucusu, hamisi sayılan şər qüvvələr yazın, baharın gəlməsini yubandırmaq üçün günəşin rəmzi sayılan od-ocağı söndürməklə təbiətin oyanmasının qarşısını alır. Onlar ocağa atılan tikanlardan qorxduqları üçün isə oda yaxınlaşıb onu söndürməkdən çəkinirlər (8, 111).

İlaxır çərşənbəsi mərasim və ayinlərlə də zəngindir. Bu ayin və rituallar xalqın inam və etiqadlarını, ən qədim dünyagörüşünü özündə əks etdirir. Bu rituallarda suyun əsasən də axar suyun böyük əhəmiyyəti var idi. A.Babəkin də qeyd etdiyi kimi, "Azərbaycan folklorunu su ilə bağlı inanclardan kənarda təsəvvür etmək mümkün deyildir. Su stixiyası, onun mifoloji obrazlarının folklorda öz əksini tapan şəkilləri və inamlar folklorumuzda özünə geniş və zəngin yer tutur. Folklorumuzun mifoloji köklərinin və obrazlar sisteminin geniş və hərtərəfli tədqiq olunması su stixiyası ilə bağlı inamların öyrənilməsini zərurətə çevirir (1, 8)". Kəlbəcər sakinlərinin Novruz bayramında icra etdiyi "su başına getmək, fala baxmaq adəti vardı. Bulaxdan daş gətirib evə qoyardılar ki, bərəkətli olsun. Kim durub su üstə getməsəydi "ağırlığı uğurluğu" onun üstündə qalırdı" (2).

Başqa bir söyləyici deyir: "Bayram axşamı gördükləri yuxunu suya danışardılar. Bayram səhəri kim tez qalxsa bütün qonşularının hamısını örtüdə suya qatardı. Bulaqdan gətirdiyi suyu ayrı-ayrı qonşuların qapısına tökərdilər. Bir qonşunun qapısına apardığı suyu digər qonşunun qapısına aparmazdılar" (2).

Novruz adətləri tarixin dərin qatlarına gedib bağlanır. "Dünyanın dörd ünsürü-su, od, hava və torpaq üzərində pərəstiş tapması fikri fəlsəfə tarixində müəyyən yer tutur. Bunların içində od və axar su əsasdır. Ocağa, suya and içərlər, onu müqəddəs sayarlar. Su ilə saflaşma isə suyun real əlamətilə əlaqədardır" (1, 109). Su ilə əlaqədar olan ənənələr Azərbaycanda təzə illə bağlıdır. Təzə ildə axar suyun üstündən tullanmaqla, keçən ilin günahlarını yumuş olursan. Sözsüz ki, İlaxır çərşənbə inamları çoxdur. Onların böyük əksəriyyəti arxaik düşüncə və mifoloji dünyagörüşə əsaslanır.

Professor K.Əliyevin dediyi kimi, "Novruz bayramını yaşadan və yaddaşlara daha dərindən hopduran amillərdən biri Novruz mərasimləri ilə bağlıdır. Belə ki, xalqın təsəvvüründə Novruzu ona qədərki olan mərhələdən kənarda, təcriddə təsəvvür etmək mümkün deyildir. Bu mənada yaddaşımızda özünə mühüm yer tutan çillələr daha çox səciyyəvidir" (5, 4). Fevral ayının əvvəlindən başlayaraq iyirmi gün davam edən Kiçik çillə qışın oğlan çağı sayılır. Kiçik çillə soyuqluğu, boran-tufanı, şaxta-sazağı ilə özündən əvvəlki çillələrdən fərqlənir. Kiçik çillənin "Xıdır Nəbi" adlanan birinci ongünlüyü isə ümumiyyətlə, qış fəslinin ən sərt vaxtı sayılır. "Xıdır Nəbi" mərasimi də elə bu vaxtlarda keçirilir. Bu mərasimi keçirməzdən əvvəl adətən, çillənin ilk günlərindən hazırlıq işləri görülürdü. Buğda qovurulub əl daşından (kirkirə) qovut çəkilir. Yumurtalar qaynadılıb günəşin və yazın simvolu sayılan rənglərdə boyanırdı. "Kəlbəcərdə boz aya çillənin bir həftəsi qalanda bayramdan əvvəl Xıdır Nəbi bayramı keçirilirdi. Adına axşamı qovurğa qovurulurdu. Gecə onun üstündə çıraq yandırırdılar sonra həmin çıraq bayram aşının altında yanardı. Xıdır Nəbi bayramında üç gün oruc tutulur, sonra da qovut qayırılırdı. Qovutu xonça kimi düzəldib böyüklərə böyük, kiçiklərə kiçik pay hazırlayıb bir-bir qonşulara paylayırdılar. Xonçaya yeddi növ nemət qoyulurdu. Bayramla çərşənbənin arasında "aralıq kömbəsi" bişirilirdi. Yumurta və unla sajda bişirilirdi. Ona da "sajarası" yəni iki çərşənbə arası deyirdik" (2). Hətta belə bir inanc da vardır: "deyilənə görə sacarasının göbəyi yəni ortası kimə düşürdüsə, o bəxtəvər olurdu... Sacarasının ortasını oyub, ora yağ töküllər, o pişənə qədər onu yağlıyıllar" (7, 168). Laçın regionunda isə bu günə məxsus "qırmızı içli kömbə" bişirirdilər (6, 231). Qubadlı bölgəsində keçirilən "Xıdır Nəbi" mərasimi Laçın və Kəlbəcər regionundakı adətlərlə eynilik təşkil edirdi. Ümumiyyətlə, bu mərasimə məxsus xörəklər vardır ki, bunlar xaşıl, qovut və kömbə idi. Xaşıl daha çox üstünlük təşkil edirdi. Çünki kəndin cavan qızları bişirdikləri xaşılla fala baxma rituallını keçirirdilər. "Kəndin gənc qızları bişirdiyi xaşılı yüksək bir yerə-qaya, yaxud da ağac başına qoyur. Əgər qarğa gəlib, xaşılı dimdikliyib hansı tərəfə uçsa, demək həmin qızın bəxti bu il açılacaq və o qarğa uçan istiqamətə ərə gedəcəkdir" (7, 172).

Türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mif və folklorunda mifik obraz, yazın gəlməsi ilə bağlı mövsüm mərasimi kimi "Xıdır Nəbi" mərasimi olduqca geniş keçirilmişdir. Doğrudur, müasir dövrümüzdə bu mərasim bəzi bölgələrimizdə çox az qeyd edilir. Kəlbəcər sakinlərindən topladığımız nümunələrdə isə bu mərasimin əvvəllər daha geniş keçirildiyini, lakin indiki dövrdə, demək olar ki, unudulduğunu görürük.

Folklorşünas Ə.Cəfərzadə yazır ki, "Xıdır Nəbi, Xıdır Ellaz, Xıdır İlyas, Xızır Əlləz adlandırılan əfsanəvi şəxsiyyətlər kimdir, onun haqqında nə bilirik? Birinci rəvayətə görə Xızırın əsl adı İlyas olmuş, yaxşılıq mənasına gələn "xızır" sözü onun ləqəbidir, çünki o, hara qədəm bassa, o yerlər göyərər, yaşıl dona girərmiş. "Nəbi" isə peyğəmbər mənasına gəlir, onun əfsanəvi 124 min peyğəmbərdən biri olduğuna işarədir. Rəvayətə görə Xızır Nəbi həyat, dirlik, su gətirir çöllərə. Xilaskar ərəndir. Azanlara yol göstərir, gəmisi bir girdaba düşənləri batmaqdan qurtarır" (3, 8). Folklorşünas M.H.Təhmasibin qeyd etdiyinə görə isə "Xızır bizdə çox zaman Xıdır İlyas adlandırılır. Yuxarıda qeyd edildiyi kimi, lüğətlər də buna əsaslanaraq onu İlyas peyğəmbərin

ləqəbi qəbul edirlər. Əslində isə bunlar ayrı-ayrı əsatiri surətlərdən, miflərdən ibarətdir.

İlyas bir sıra xalqlarda olduğu kimi, bizdə də su, yağış, dənizlə əlaqədar olan bir mifdir" (9, 41).

Göründüyü kimi adamlar çıxılmaz, çətin vəziyyətə düşdükdə həmişə Xızır arzulayır və o da kömək əlini dara düşənlərdən əsirgəmir.

Azərbaycan xalqının sevilən və hər il təntənəli şəkildə xalq tərəfindən qeyd edilən Novruz bayramının yaranması haqqında müxtəlif fikirlər olmuşdur. Novruzun əsasında əski xalq mərasimləri dayanır. Dünya xalqlarının bir çox mərasimləri də belədir. Onlardan bəzilərinə sonralar dini mahiyyət qazandırılır və beləliklə də, əski mərasim mədəniyyəti ilə dini adətlər birləşdirilmiş olur. Yəni zaman keçdikcə insanlar imtina edə bilmədikləri ibtidai zamanın ənənələrini yeni dövrə uyğunlaşdırıb dini bayramlar olaraq qəbul etmişlər. Novruzun da rəsmi bayram kimi keçirildiyi qədim və orta əsrlərdə dini əfsanələrlə əlaqələndirilmiş və ona dini bir mahiyyət qazandırmağa cəhd göstərilmişdir.

Kəlbəcərin yaşlı sakinlərinin düşüncələrinə əsasən Novruz bayramı dini bayram kimi İmam Əlinin (Cənab Əli) adı, onu qırmızı geyinib taxta çıxması ilə bağlamasını islam dininin göstərdiyi təsirin gücü ilə əlaqələndirmək olar.

Bir də ki, "Novruz"-hərfi mənada "yeni gün" deməkdir. Qışın bitib, yazın gəlməsi, yeni ilin, fəslin, günün başlanması mənasındadır. Novruz yazın, baharın gəlişinin bayram edilməsidir. Bu çox geniş yayılmış və ümumi bir fikirdir. Novruz qədim ənənələrə söykənən Azərbaycan dövlətinin milli varlığını özündə təcəssüm etdirən əsas bayramlardan biridir.

QAYNAQLAR

1. Aynur Babək, Azərbaycan folklorunda su ilə bağlı inam. Bakı, Nurlan, 2011, 212 s.
2. Bu nümunələr müəllifin şəxsi arxivindədir.
3. Cəfərzadə Ə. Xızır Nəbi bayramı. // Elmvə həyat, 1991, №2
4. Əfəndiyev S. Xalqımızın Novruz ənənələri. // Dirçəliş XXI əsr, 2001, №3
5. Əliyev K. Novruz mərasimləri. // Elmi axtarışlar , № 2/04-2009
6. Qarabağ: Folklor da bir tarixdir. IV c. / Tərtib edəni: İ.Rüstəmzadə. Bakı, Elm və təhsil, 2013, 458 s.
7. Qarabağ: Folklor da bir tarixdir. VI c. / Toplayıb tərtib edən: L.Süleymanova. Bakı, Zərdabi LTD, 2013, 465 s.
8. Novruz bayramı ensiklopediyası.Bakı, Şərq-Qərb, 2008, 208 s.
9. Təhmasib M.H. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı, Mütərcim, 2010, 488 s.

Mövsüm mərasimi: Novruz adət-ənənələri
(Kəlbəcər nümunələri əsasında)

Xülasə

Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının mənəvi dəyərlər sistemində Novruz bayramının da özünəməxsus yeri vardır. Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə birləşdirən böyük mədəniyyət hadisəsidir. Novruzun tərkibi quruluşca mürəkkəb, məzmunca geniş və əhatəlidir. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğunu görürük.

Сезон на: традиции Новруз
(Примеры Келбаджарский)

Резюме

Древняя история и богатая культура народа Азербайджана Новруз байрамы занимает особое место в системе нравственных ценностей. Навруз богатый материальные и духовные ценности народа является крупным культурным событием, сочетая важную роль. Состав сложной структуры Навруз, содержание носит комплексный характер. Когда мы смотрим на историческом развитии этого фестиваля его древних культурных корней и посмотреть, что это связано с источниками.

Season at: traditions of Novruz
(Kelbejer examples)

Summary

Novruz Holiday has a special place in moral value system of Azerbaijan people, which has an ancient history and rich culture. Novruz is a big cultural event which involves some rich material and moral values of Azerbaijan people. The subject of Novruz is complex structured, huge objective and detailed. If we overview this holiday from the historical point of view, we’ll see it is bound to old cultural roots and spiritual sources.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Rəqsanə VƏLİYEVA
AMEA Folklor İnstitutunun dissertantı

“BEOVULF” DASTANININ SÜJET TİPOLOGİYASI

Ключевые слова: *«Беовульф», типология, эпос, героический эпос*
Keywords: *Beowolf, epos, typology, heroic poem*

“Beovulf” dastanı haqqında Azərbaycan dilindəki ensiklopedik məlumat onu belə təqdim edir: Qədim ingilis sözü olan Beowulf-hərfi tərcümədə "arı canavarı", yəni "ayı" deməkdir. "Beovulf" eramızın, təxminən, VIII-XI əsrlərinə aid olan qədim ingilis dilində yazılmış Anqlosaks qəhrəmanlıq dastanıdır. 3182 sətirlik bu dastan qədim ingilis dilində yazılmış ən böyük poemadır və anqlosaks ədəbiyyatına aid nümunələrin 10%-ni təşkil edir. Əlyazması Britaniya Muzeyində saxlanılır (1).

Dastanın qısa məzmunu, təqribən, belə ümumiləşdirilir: Dastanda Heotlar qəbiləsinin qəhrəmanı Beovulf öz dəstəsi ilə daniyalıların kralı Hrodqara kömək uçün onların torpaqlarına yola düşür. Hadisələr Skandinaviyada, indiki Danimarka və İsveç torpaqlarında baş verir. Dastanda Beovulfun nəhəng Qrendel, onun anası və əjdaha ilə mübarizəsi təsvir olunur. Son vuruşmada Beovulf ölümcül yaralanır. “Beovulf” haqqında ümumiləşdirilmiş ensiklopedik məlumatlarda göstərilir ki, bu dastan anqlosakson epik poemasıdır. Hadisələr anqlların Britaniyaya köçməsinə qədərki dövrdə Skandinaviyada cərəyan edir. Belə hesab olunur ki, dastan, təqribən, VII əsrin sonu-VIII əsrin əvvəllərində yazılıb. Eposun qədim ingilis dilində olan yeganə nüsxəsi XI əsrə aiddir (2; 3, 168).

Deyildiyi kimi, 3182 sətirdən ibarət olan dastan-poema iki hissəsdən ibarətdir. Dastan ümumuyyətlə yasla başlayıb yasla bitir. Birinci hissə daniya kral sülaləsinin banisi Skildin dəfninin təsviri ilə başlayır. Poemanın ilk 50 sətri Skildin bir rəhbər kimi əsas keyfiyyətlərini təsvir və tərənnüm edir. Bunun ardınca dastanın əsas süjeti başlayır.

Daniya kralı Hrodqarı nəhəng bir div incidir. Divin adı Qrendeldir. O, gecə qəfildən gələrək kral Hrodqarın Heorot adlanan qəsrinə daxil olur, onun əsgərlərini öldürüb yeyir.

İsveçin cənub-şərqində yaşayan hautların knyazı Beovulf Hrodqatrın başına gələn bədbəxtlikdən xəbər tutaraq ona kömək etmək qərarına gəlir. O, özünün say-seçmə igidlərdən ibarət dəstəsi ilə Hrodqarın sarayına yollanır. Beovulf bununla həm Hrodqara kömək etmək, həm də eyni zamanda özünə bir qəhrəman kimi şöhrət qazanmaq istəyirdi.

Beovulf yer üzünün ən güclü adamıdır. Onun hər qolunda 30 adamın gücü var. Yəni bir pəhləvan kimi Beovulfin gücü 60 pəhləvanın gücünə bərabərdir.

Hrodqarın sarayında yer üzünün ən güclü pəhləvanı olan Beovulfu böyük bir sevinc və coşqu ilə qarşılayırlar. Divin qorxusundan hər gecəni ölüm dəhşəti ilə keçirən saray adamları üçün Beovulfun gəlişi böyük bir möcüzə olur.

Beovulfun qəsrə gəldiyi günün gecəsi Qrendel yenə hücum edir. Qəfil hücum hamını çaşdırır. Lakin Beovulf Allahı çağıraraq divlə döyüşə girir. O, Qrendelin bir qolunu qopardaraq, onu ölümcül yaralayır.

Səhərisi gün qəsrdə böyük şadyanalıq olur. Beovulfun şərəfinə qurulmuş məclisdə nəğməkarlar Siqmund və Heromoda kimi igidlərin şərəfinə qoşulmuş nəğmələr oxuyurlar. Axşam kral Beovulfun şərəfinə ziyafət verir və burada onu bahalı hədiyyələr təqdim edir. Şair-nəğməkar bard (ozan, aşıq-R.V.) Finnsburq haqqında dastanı oxuyur. Nəğmədə Daniyanın keçmişindəki daxili müharibələrlə bugünkü şənliklərin qarşılaşdırılması şairə Daniya kral xanədanının tezliklə xəyanət üzündən süqut edəcəyənə işarə etməyə imkan verir.

Qrendelin anası oğlunun intiqamını almaq üçün elə həmin gecə qəsrə hücum edir. Beovulf onunla vuruşur. Lakin ana div kral Hrodqarın baş müşavirini götürüb qaça bilir.

Beovulf onun dalınca gedir. Ana div göldə, suyun altında yaşayır. Beovulf onunla vuruşmaq üçün suya baş vurur və gölün dibinə enir.

Beovulfun ana divlə sualtında baş tutan bu ikinci döyüşü çox çətin olur. Div az qalır ki Beovulfu öldürsün. Beovulf, axır ki, gölün dibindəki sehrli qılıncın vasitəsi ilə Qrendelin anasını öldürür.

Beovulfun döyüşçüləri suyun altında baş verənlərdən xəbərsiz halda intizarla onu gözləyirlər. Nəhayət, onlara elə gəlir ki, Beovulf həlak omuşdur. Bu zaman o, əlində Qrendelin qənimət kimi götürdüyü başı ilə suyun üzünə çıxır. Beləliklə, Daniya divdən xilas olur.

Beovulf öz qəhrəmanlığı haqqında krala xəbər verir. Divlərin öldürülməsinə çox sevinən kral Hrodqar eyni zamanda bu hadisənin şöhrətində başı dumanlanan Beovulfu xəbərdar edir ki, o, bu möhtəşəm qəhrəmanlığı ilə lovğalanıb günaha bata bilər. Özünü bu cür günahlardan qorusun.

Səhərisi gün Beovulf öz dəstəsi ilə vətəninə yola düşür. Bütün saray və insanlar onu böyük hörmətlə yola salırlar. Daniya krallığına və şəxsən onun özünə təmənnasız yardım edib, ölkəni və sarayı məhv olmaqdan xilas edən Beovulfu oğlu kimi sevən qoca Hrodqar ayrılığa dözməyib ağlayır.

Vətəninə-Hautlandiyaya qayıdan Beovulf öz qəhrəmanlığı barəsində əmisinə-ölkənin kralı Hiqelaka danışır. O, həmçinin əmisinə xəbər verir ki, Daniyanın kralı Hrodqar öz qızı İngeldi headobard tayfasının kralına ərə versə də, onlar tezliklə Daniyaya hücum edəcəklər. Beovulf bu söhbətdən sonra kral Hrodqarın ona verdiyi bütün hədiyyələri öz ağasına təqdim edir. Kral Hiqelak da ona əvəzində torpaq və var-dövlət verir.

Bununla dastan-poemanın birinci hissəsi tamamlanır.

İkinci hissədə göstərilir ki, kral Hiqelak və onun oğlu vəfat edirlər. Beovulf kral olur. O, 50 il müddətində ölkəni əmin-amanlıq içində idarə edir. Lakin bir oğrunun törətdiyi hadisə Beovulfun xoşbəxtlik içərisində keçən həyatına son qoyur. Həmin oğru mağarada gizlədilmiş xəzinəni oğurlamaq fikrinə düşür. Xəzinəni əjdaha qoruyur.

Əjdaha uzun illərdir ki, xəzinənin üstündə yuxuya gedib. Oğru xəzinəni gizlincə oğurlamaq istəyərkən əjdaha yuxudan oyanır.

Beovulf öz dəstəsi ilə əjdahanın mağarasına gedir. O, burada haut kral xanədanının qanlı tarixi və onun isveçlərlə daxili müharibələri haqqında düşünür.

O, öz dəstəsinə bildirir ki, əjdaha ilə təkbətək döyüşəcək. Əhdaha ağzından od püskürərək Beovulfun bədənini qarsalayır. Bütün döyüşçülər dəhşət içində qaçmağa başlayırlar. Lakin gənc döyüşçü Viqlaf qaçmır, o, alovun içindən keçərək ağasına köməyə gəlir. Beovulf qılıncını güclü bir zərbə ilə əjdahanın başına çalır. Qılınc sınır. Əjdaha Beovulfun boğazını gəmirir. Bu zaman Viqlav öz nizəsini zərblə əjdahanın qarnına sancır. Ölümcül yaralanmış Beovulf isə əjdahanın işini bitirir.

Beovulf Viqlafdan xahiş edir ki, o, xəzinəni mağaradan çıxarsın. Son dəqiqlərini yaşayan qəhrəman sevinir ki, kral olduğu müddətdə ölkəni yaxşı idarə etdi və vicdanı rahat şəkildə ölə bilər. Ancaq Beovulf həm də təəssüf edir ki, onun heç bir varisi qalmadı.

Beovulf Viqlafa onu harada və necə dəfn etmələrini Viqlafa tapşıraraq gözlərini yumur. Bu zaman qorxaq əsgərlər qayıdırlar. Viqlaf onlara tənə edərək gülür.

Viqlaf kralın ölüm xəbərini çatdırmaq üçün saraya çapar yollayır. Çapar kral şurasında onun ölümünü xəbər verir. Dastanda çaparın şuradakı nitqi epik söyləmə kimi təqdim olunur: burada Beovulfun ölümü ilə hautların düşmənlər tərəfindən düçar ediləcəkləri kədərli tale xəbər verilir (4).

“Beofulf” dastanının bu qısa süjeti öz tipoloji xüsusiyyətləri etibarilə Oğuz dastançılıq ənənəsi, xüsusilə “Kitabi-Dədə Qorqud” oğuznamələri ilə yaxından səsləşir. Diqqəti birinci olaraq Beovulf və Oğuz xan obrazlarının qeyri-adi qəhrəman görkəmləri cəlb edir.

Qədim ingilis sözü olan “Beowulf”, deyildiyi kimi, hərfi tərcümədə “arı canavarı”, yəni “ayı” deməkdir. İndi bu sözdəki birləşən zooloji mənalara diqqət edək:

Arı-həşərat, qanadları olan uçan canlı;
Canavar-vəhşi, yırtıcı, ətyeyən heyvan;
Ayı-vəhşi, yırtıcı, ətyeyən heyvan.

Dastanda igid, qəhrəman, gözəl görkəmə malik insan kimi təsvir olunmuş Beovulf, əslində, üç zooloji varlığın əlamətlərini özündə daşıyır. O, sanki heyvanlar aləminin (üç heyvanın) şəkillərinin ümumiləşdirilməsindən yaranmışdır.

Bu məsələ Beovulfun mifik kökləri baxımından təəccüblü deyildir. Mifik qəhrəmanlar öz mənşələri baxımından, adətən, ilk insan, ilk əcdadlar olurlar. İlk əcdadlar insan kimi təsvir olunsalar da, onlar heyvani əlamətlərə, şəkillərə də malik olurlar. Elə Beovulfun bir insan kimi həm də heyvanların əlamətlərinə malik olması onu oğuzların ulu əcdadı, mifik cəhətdən ilk insan, ilk əcdad olan Oğuz kağanla yaxınlaşdırır.

Uyğur “Oğuznamə”sində Oğuz belə təsvir olunur:
Olsun dedilər. Onun şəkli budur.
Bundan sonra sevinc tapdılar.

Yenə günlərin bir günü Ay kağanın gözləri
yarıdı, bir oğlu oldu.
Bu oğlanın üzü göy idi.
Ağzı atəş kimi qırmızı, gözləri ala,
saçları, qaşları qara idi.
Gözəllikdə mələklərdən də gözəl idi.
Bu oğlan anasının döşündən ağız südünü əmdi.
Bundan sonra bir də əmmədi,
çiy ət, aş istədi, şərab istədi, dil açdı.
Qırx gündən sonra böyüdü, yüyürdü, oynadı.
Onun ayağı öküz ayağına, beli qurd belinə,
kürəyi samur kürəyinə,
köksü ayı köksünə bənzəyirdi.
Bədəninin hər yeri sıx tüklə örtülmüşdü (5, 124).

Göründüyü kimi, dastan Oğuzu "gözəllikdə mələklərdən də gözəl" bir insan kimi təqdim edir. Oğuz da Beovulf tək bir neçə heyvanın şəkil əlamətlərinə malikdir:

Öküz-ayağı öküz ayağına bənzəyir;
Qurd (canavar)-beli qurd belinə bənzəyir;
Samur-kürəyi samur kürəyinə bənzəyir;
Ayı-köksü (sinəsi) ayı köksünə bənzəyir;
Heyvan-bütün bədəni heyvan kimi tüklə örtülüdür.

Dastanın ayrı-ayrı süjet və obrazları "Kitabi-Dədə Qorqud"la çox yaxından səsləşir. Məs., Hrodqarın sarayına hücum çəkən div Qrendel sanki "Dədə Qorqud"dakı Təpəgözdür. Qrendeli anası onu himayə etdiyi kimi, Təpəgözü də onun anası Pəri qoruyur.

"Dədə Qorqud"da Basat Təpəgözü mağaradakı sehrli qılıncla öldürdüyü kimi, Beovulf da Qrendelin başını sehrli qılıncla kəsir. Bu cəhətdən Beovulf və Basat obrazları eyni tipoloji cərgədə dura bilir. Beofulf daniyalıları Qrendeldən xilas etdiyi kimi, Basat da oğuzları Təpəgözdən xilas edir.

"Beovulf" dastanındakı şair-nəğməkarlar "Dədə Qorqud"dakı ozanlarla eyni vəzifəni yerinə yetirirlər. Həmin nəğməkarlar Siqmund və Heromoda kimi əfsanəvi igidlərin şərəfinə qoşulmuş nəğmələr oxuyurlar. "Kitabi-Dədə Qorqud"dakı əfsanəvi ozan Dədə Qorqud da oğuz igidlərinin şərəfinə nəğmələr qoşur. Məs., "Dəli Domrul" boyunu sonunda Dədə Qorqudun gələrək nəğmə-dastan qoşması belə təsvir olunur:

"Dədə Qorqud gəlib boy boyladı, soy soyladı. "Bu dastan Dəli Domrulun olsun. Məndən sonra igid ozanlar söyləsinlər! Alnıaçıq, əliaçıq igid şəxslər dinləsinlər!" dedi" (6, 181).

Göründüyü kimi, həm oğuz ozanlar, həm də daniyalı nəğməkarlar xalqın əfsanəvi qəhrəmanları haqqında qoşulmuş dastanları el məclislərində oxuyurlar.

"Kitabi-Dədə Qorqud" da bu nəğməkarlar ozan adlanır. "Beovulf"da isə biz onların bard adlandığını görürük. Bard-orta əsrlər şair-nəğməkarıdır. "Kitabi-Dədə Qor-

qud”da Dədəd Qorqud həm ozan, həm də gələcəkdən xəbər verən övliya-şamandır. Epos onu belə təqdim edir: “Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından Qorqut ata diyərlər bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi,-nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həqq təala anın könlinə ilham edərdi” (6, 31).

Eyni “övliya-şaman” funksiyasını Hrodqarın Beovulfun ilk qələbəsi şərəfinə verdiyi ziyafətdə oxuyan bardın obrazında müşahidə edirirk. O, deyildiyi kimi, burada Finnsburq haqqında dastanı oxuyur. Bard nəğmədə Daniyanın keçmişindəki daxili müharibələrlə bugünkü şənliklərin qarşılaşdıraraq, Daniya kral xanədanının tezliklə xəyanət üzündən süqut edəcəyəni eyhamla xəbər verir. Beləliklə, o da Dədə Qorqud kimi gələcəkdən xəbər verir.

Div Qrendel və onun anası üzərində parlaq qələbə çalmış Beovulf öz qələbəsi ilə lovğalanır. Onu oğlu tək sevən kral Hrodqar Beovulfu xəbərdar edir ki, o, bu möhtəşəm qəhrəmanlığı ilə lovğalanıb günaha bata bilər.

Buradan aydın olur ki, “Beovulf” dastanında lovğalıq qəbul olunmayan keyfiyyətdir. Lovğalığa, təkəbbürə eyni münasibəti “Kitabi-Dədə Qorqud”da da görmək olur. Eposun müqəddiməsində deyilir:

“Təkəbbürlük eyləyəni Tənrı sevməz.
Könlin yuca tutan ərdə dövlət olmaz” (6, 31).

“Beovulf” dastanının süjeti ilə “Kitabi-Dədəd Qorqud” dastanı süjetləri arasında daha bir güclü səsləşmə qəhrəman Beovulfla qəhrəman Salur Qazanın əjdaha ilə vuruşmalarıdır. Yuxarıda göstərildiyi kimi, Beovulf qorxmadan əjdahanın üzərinə gedir, onunla ölüm-dirim döyüşünə girərək əjdahanı məğlub edir. O, əjdaha üzərinə gedərkən bilirdi ki, onu bu yolda ölüm də gözləyir. Lakin qorxmaz, cəsur, mərd, xalqı yolunda hər cür təhlükələrə atılan Beovulfu heç nə dayandıra bilmir. Eyni mənəvi-əxlaqi keyfiyyətləri Salur Qazanın əjdaha ilə vuruşunda da müşahidə edirik.

“Dədə Qorqud” dastanının “Salur Qazan tutsaq olub oğlı Uruz çıqardığı boyı bəyan edər” adlanan 11-ci boyunda Qazan özü haqqında deyir:

Qılağuzsuz yol başaran Qazan ər idim.
Yedi başlı əjdərhaya yetüb vardım.
Heybətindən sol gözüm yaşardı.
Hey gözüm, namərd gözüm, müxənnət gözüm.
Bir yılandan nə var ki, qorxdun!-deyü ögünmədim (6, 117-118).

Məlum olur ki, Salur Qazan 7 başlı əjdahanın üzərinə hücum etmiş, bu zaman qorxudan onun sol gözü yaşarmışdır. Qazan bir ilandan qorxduğu üçün sol gözünü qınamışdır.

Ümumiyyətlə. əjdaha ilə vuruş dünya xalqlarının dastanlarında geniş yayılmış motivdir. V.V.İvanov bu mifik obraz haqqında yazır ki, o, qanadlı ilan, müxtəlif heyan elementlərinin birləşməsi şəklində təsəvvür olunan mifoloji varlıqdır. Əjdaha ilan obrazının sonrakı inkişafı sayıla bilər. Əjdaha ilə bağlı əsas əlamət və mifoloji motivlər əsas cizgiləri etibarilə mifoloji ilanı səciyyələndirən əlamət və motivlərlə üst-üstə dü-

şür. Əjdaha da ilan kimi, məhsuldarlıqla və sahibi kimi çıxış etdiyi su stixiyası ilə bağlıdır (7, 394).

"Beovulf" dastanının süjet tipologiyasının öyrənilməsi göstərir ki, "Bevulf"la "Kitabi-Dədə Qorqud" dastanları arasında oxşar motivlərin sayı çoxdur. Azərbaycan-ingilis ədəbi əlaqələrini öyrənmiş Şahin Xəlilli bu oxşarlıqlara əsaslanaraq yazır ki, "Kitab-Dədə Qorqud" və "Beovulf" dastanları arasında oxşar motivlərin müəyyənləşdirilməsi və digər aspektlərin oxşar qanunauyğunluqlarının elmi çərhinin verilməsi dastanlarda müəyyən hallarda iqtibas və ədəbi təsirin tarixi köklərinin araçdırılıb müəyyənləşdirilməsində çox vacib və əhəmiyyətli bir məsələdir (8, 138-139).

İşin elmi nəticəsi. Tədqiqat göstərdi ki, "Beofulf" dastanının süjeti öz tipoloji xüsusiyyətləri baxımından "Kitabi-Dədə Qorqud" dastanı ilə yaxından səsləşir. Bu isə hər iki dastranı daha geniş müqayisəli planda öyrənməyə imkan verir.

QAYNAQLAR

1. Беовульф-Википедия / ru.wikipedia.org/wiki/Беовульф
2. Beowulf: An Anglo-Saxon Epic Poem-Project Gutenberg / www.gutenberg.org/files/16328/.../16328-h.ht...
3. Гуревич А.Я. Очерк «Бéовульф» / Мифы народов мира. В 2-х томах. Том 1. Москва: Советская энциклопедия, 1980, с. 168
4. Beovulf / http://www.russianplanet.ru/filolog/epos/beowulf/pereskaz.htm
5. Bayat F. Oğuz epik ənənəsi və «Oğuz kağan» dastanı. Bakı: Sabah, 1993, 194 s.
6. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.
7. Иванов В.В. Дракон / Мифы народов мира. В 2-х томах. Том 1. Москва: Советская энциклопедия, 1980, с. 394-395
8. Xəlilli Ş. Azərbaycan-ingilis ədəbi əlaqələri (folklor materialları əsasında). Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, 2002, 216 s.

Раксана АЛИЕВА

Сюжетная типология эпоса “Беовульф”

Резюме

«Беовульф»-англосаксонский героический эпос VIII-XI веков нашей эры. Сюжет этого эпоса по типологическим особенностям обладает схожестью с Огузскими дастанными традициями, в особенности с «Книгой моего деда Коркута». В первую очередь привлекает внимание необычный героический внешний вид Беовульфа и Огуз кагана. Оба образа обладают зоологическими чертами. А также отдельные образы и сюжетные линии «Беовульфа» схожи с «Книгой моего деда Коркута». Поэты-песенники в эпосе «Беовульф» выполняют идентичную функцию с озанами из «Деде Коркута». Еще одной идентичностью эпосов является битва Буевульфа, и Салур Казана с драконом.

The script of typology of “Beowolf” epos

Summary

Beowolf, the oldest heroic poem of Anglosaxons written in English, belongs to 8-11th centuries. The script of this epos due to its typological features closely coincides with oghuz epos traditions, especially with ” Kitabi Dede Gorgud” oghuznames. Extraordinary heroic features of Beowolf and Oghuz khan characters attract attention firstly. Both characters possess zoological pictures. Different scripts and characters of the epos have the same features with Kitabi Dede Gorgud. Poet singers in “Beowolf” fulfil the same function with ashugs in “Kitabi Dede Gorgud”. Another strong coincidence between the script of “Beowolf” and” Kitabi Dede Gorgud “ is the struggle of Beowolf and Salur gazan with dragon.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Nurəli İSAYEV
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
Fazil RÜSTƏMOV
fəlsəfə üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
rustemov_1969@mail.ru

AZƏRBAYCAN MAARİFÇİLİYİNİN MİLLİ-MƏDƏNİ YENİLƏŞMƏ İDEYALARI VƏ MÜASİRLİK

Açar sözlər: *milli-mədəni yeniləşmə, maarifçilik, milli ideya, mənlik şüuru, azərbaycançılıq, azadlıq, müasirlik*
Ключевые слова: *просветительство, национальная идея, культурно-национальное обновление, самосознание, азербайджанство, свобода, современность*
Keywords: *enlightment, national idea, nationo-cultural innovation, the concept of personality, freedom, modernity.*

Qədim və zəngin Azərbaycan tarixinin keyfiyyətcə yeni dövrünü təşkil edən XIX əsrin ikinci yarısı-XX yüzilliyin əvvəlləri bütün ziddiyyət və məhrumiyyətlərinə baxmayaraq milli oyanış, milli-mədəni intibah prosesi ilə daha əlamətdardır. Bu dövrün ictimai-fəlsəfi və ədəbi-bədii fikirlərdə təcəssümünün bitkin ifadəsi olan Azərbaycan maarifçiliyi özünün milli-mədəni yeniləşmə, milli özünüdərk, milli dirçəliş, tərəqqi və azadlıq ideyaları ilə milli şüurun, milli qurtuluş və istiqlal məfkurəsinin formalaşmasında mühüm rol oynamışdır.

Bəşər tarixinə “əql dövrü” kimi daxil olmuş maarifçilik Azərbaycanda da yeni dövrün-feodalizmdən kapitalizmə keçid dövrünün mühüm mədəni-ideoloji hadisəsidir. Lakin Azərbaycan maarifçiliyinin başlıca spesifik xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onun yaranışı və inkişafı xalqın milli mənlik şüurunun təşəkkülü və formalaşmağa başlaması ilə bir vaxta düşür. Bu proses isə ağır və məşəqqətli müstəmləkə əsarəti şəraitində getdiyindən Azərbaycan maarifçiliyi nəinki feodal-patriarxal münasibətlərə və onların törətdiyi nəticələrə, habelə rus çarizminin milli oyanış və mədəni yeniləşmə yolunda yaratdığı maneələrə, eləcə də sosial-iqtisadi durumun kapitalistcəsinə təbəddülatından meydana gələn haqsızlıqlara qarşı mübarizə aparmalı olmuşdur. Milli müstəmləkəçiliyə qarşı mübarizə M.F.Axundzadədə dolayısı olmuşsa, sonralar getdikcə dərinləşmiş və XX əsrin əvvəllərində, yəni maarifçiliyin son mərhələsində milli-azadlıq hərəkatı səviyyəsində aydın siyasi xarakter kəsb etmişdir. Maarifçilik XIX əsrin ikinci yarısı-XX yüzilliyin başlanğıcında millətin, milli şüurun formalaşmasını səciyyələndirən mədəni-intellektual inkişafın ana xətti olmuşdur. XX

əsrin əvvəllərində Azərbaycan milli-ictimai fikrində inqilabi demokratik, milli istiqlalçılıq, liberal demokratik kimi siyasi cərəyanlar bu zəmində yüksəlmişdir.

Azərbaycan maarifçiliyi mənşəyi, mahiyyəti və qayəsinə görə milli səciyyə daşımışdır. Bununla belə dövrün tələb və çağırışlarına uyğun olaraq onda milliliklə ümumbəşərilik, milli-mənəvi dəyərlərlə sivil, demokratik, müasir dünyəvi bəşəri dəyərlər də dialektik tərzdə uzlaşır. Lakin burada millilik aparıcı meyl kimi əsaslı rol oynayırdı. Belə ki, ümumdünya maarifçiliyinə klassik nümunə vermiş Fransadan və digər Avropa ölkələrindən fərqli olaraq Azərbaycanda maarifçilik burjuaziyanın siyasi mənafeyini ifadə edən sırf antifeodal ideologiya kimi deyil, ümumən xalqın mənafeyini təmsil edən milli-demokratik məfkurə kimi yaranmışdır. Bu maarifçilik "üçüncü təbəqənin" deyil, yenicə təşəkkül tapmaqda olan milli ziyalı zümrəsinin başladığı milli-mədəni oyanış və yeniləşmə hərəkatı idi.

Azərbaycanda maarifçilik o dövrün yeni-realist təfəkkürünün təcəssümü olmaqla yanaşı, milli oyanış hərəkatının, milli özünüdərk, milli-mədəni yeniləşmə prosesinin başlanğıc mərhələsidir. Milli oyanış hərəkatının, milli-mədəni yeniləşmə, tərəqqi və azadlıq ideyalarının və onların şüurlara aşılanmasının ilk mənada maarifçilik xarakteri daşıması qanunauyğun hal idi. Doğma xalqını cəhalət yuxusundan oyatmaq və tərəqqi yoluna çıxartmaq kimi mühüm taleyüklü bir vəzifəni qarşıya qoyan maarifçi mütəfəkkirlər ictimai inkişafda elm və maarifin rolunu mütləqləşdirsələr də, onlar xalq içərisində təhsilin, elmi biliklərin təkcə yayılması naminə deyil, həm də keyfiyyətcə yeni ideyaların təbliği və aşılanması uğrunda mübarizə aparmış, cəmiyyətin ağlauyğun tərzdə dəyişdirməyin yollarının dərk edilməsinə çalışmışlar. Onların tərənnüm etdikləri vətənpərvərlik, milli oyanış, yeniləşmə, tərəqqi, azadlıq kimi taleyüklü ideyalarının Azərbaycan ictimai-fəlsəfi fikrinin yeni istiqamətdə inkişafında mühüm rol oynaması bədii və nəzəri təfəkkürdə önəmli dönüşü milliliyin düşüncələrdə aparıcı meylə çevrilməsi demək idi. Bütün bunlar isə öz növbəsində milli ideyanın təşəkkülü və formalaşması üçün zəmin hazırlayırdı.

Akademik Ramiz Mehdiyev "Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi" adlı məqaləsində milli ideyanın mahiyyətindən, onun tarixi önəmindən bəhs edərkən yazır: " Fəlsəfə elmində çoxdan təsdiqlənmişdir ki, milli ideya cəmiyyətin həyatında, siyasi praktikada mühüm rol oynayır. Ona görə də hər bir millətin öz milli ideyası olmalıdır, əks halda həmin millətin yaşamağa haqqı yoxdur. Filosoflar milli ideyanı xalqın taleyini, onun vəzifəsini ifadə edən və taleyüklü məsələlərin həlli üçün milli enerjini səfərbər edən inteqrativ milli mənlik şüuru konsepsiyası adlandırırlar.

Milli ideya bir insanın ixtirası deyil, o, xalqın şüurunun dərinliklərindən qaynaqlanır və konkret tarixi məqamda sosial reallıq onu dəstəkləyir... Milli ideya cəmiyyətin inkişafının ümumi məqsədi və strategiyasıdır... Qeyd etmək lazımdır ki, milli ideya əvvəlcə milli şüurun oyanması, milli müstəqillik uğrunda mübarizə ilə şərtlənən əqli nəticə, ictimai ideya kimi yaranır" [2].

Bu baxımdan Azərbaycan maarifçiliyinin milli şüurun oyanışına xidmət edən, rəvac verən milli-mədəni yeniləşmə ideyalarının və onların gerçəkləşməsi yolunda atılmış ilk tarixi addımların müstəsna əhəmiyyəti vardır. Çağdaş elmi-fəlsəfi tədqiqatlarımızda da belə bir qənaət əsaslı təsdiqini tapmışdır ki, millətin taleyi və müqəddəratı ilə bilavasitə əlaqədar olan milli şüurun oyanış probleminin Azərbaycan ictimai-fəlsəfi fikir tarixində qoyuluşu və həlli məsələsi maarifçilik hərəkatı ilə bağlıdır. Bu cəhət-

dən professor Ə.M.Əhmədovun vaxtilə tədqiqatlarında Azərbaycan maarifçilik fəlsəfəsini "oyanmaqda olan milli mənlik şüur fəlsəfəsi" [11, s.290] kimi səciyyələndirməsi diqqətçəkəndir. Təşəkkülünün ilkin mərhələsində maarifçilik xarakteri daşıyan milli oyanış və mədəni yeniləşmə ideyaları XX əsrin əvvəllərində aydın siyasi məna və yönüm kəsb etmiş, milli məfkurənin formalaşması üçün zəmin hazırlamışdır. Özünün təşəkkülü və formalaşmasında Azərbaycan milli ideyası, milli istiqlal ideologiyası həmin ideyalardan qaynaqlanmış, bəhrələnmişdir. Professor Ə.M.Tağıyev " Milli ideya və milli ideologiya: problemlər və onların şərhi" adlı kitabında qeyd edir ki, " Azərbaycan milli ideologiyasının elmi-nəzəri, ideya-siyasi mənbəyinə Azərbaycan ideyası, Azərbaycan maarifçiliyinin xalqa aşıladığı milli-mənəvi dəyərlər sisteminin məcmusu daxil idi" [8, s.23].

Akademik R.Mehdiyev adı çəkilən məqaləsində yazır: " İranla müharibə nəticəsində 1828-ci ildən Rusiya imperiyasının tərkib hissəsinə çevrilmiş Şimali Azərbaycanda XIX əsrin ikinci yarısından etibarən dini identiklikdən Azərbaycan milli ideyasının formalaşmasının başlanğıcı olan etnik identikliyə keçid ideyası bu məkanda ideya axtarışlarının mərkəzində dayanırdı. Bu dövrdə ən ümdə məqsəd etnik şüurun dini şüurdan ayrılması ideyası idi. XIX əsrin A.A.Bakıxanov, M.F.Axundzadə, Mirzə Kazımbəy kimi mütəfəkkirləri bu yöndə çalışırdılar" [2]. XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində Azərbaycan ictimai-fəlsəfi fikrində aparıcı ideyalardan olan milli oyanış, milli-mədəni yeniləşmə, dünyəviləşmə kimi ideyaların əsas qayəsi və leytmotivi milli dirçəliş və qurtuluşun zəruriliyinin dərk edilməsi olmuşdur. Bu cəhətdəndir ki, bəhs edilən dövrdə təşəkkül tapan müxtəlif ideoloji cərəyanlar, " baxışlar arasında yaranışının adı bilavasitə A.A.Bakıxanov və M.F.Axundzadə ilə bağlı olan Azərbaycan milli hərəkatı ideyaları daha çox diqqəti cəlb etməkdə idi" [7, s.116]. Bu meyl heç də subyektiv istəklərdən deyil, tarixi prosesin daxili gedişatından irəli gəlirdi. XIX əsrin sonu-XX yüzilliyin əvvəllərində H.Zərdabi, M.Şahtaxtlı, Ə.Topçubaşov, Ə. Ağaoğlu, Ə.Hüseynzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli və digər görkəmli maarifçilər, milli klassiklər azərbaycanlıların milli mənlik şüurunun oyanmasında, milli-mədəni dirçəlişində başlıca rol oynamışlar.

Milli maarifçilik ideyalarının gerçəkləşməsinin ilkin mərhələsində əldə edilən nailiyyətlərin böyük gələcəyi oldu. XIX əsrin ikinci yarısında Azərbaycanda maarifçilik hərəkatı zəminində milli teatrın, milli-demokratik mətbuatın, anadilli məktəblərin və s. yaranması " mədəni müstəqillik qazanılması" (M.Ə.Rəsulzadə) yolunda ilk böyük nailiyyətlər olub, milli şüurun formalaşmasına güclü təkan verdi. " Milli şüurun formalaşması isə müstəmləkə zülmünə qarşı, torpağın suverenliyi uğrunda mübarizə üçün çox vacib idi" [1, s.613].

Tarixin təcrübəsindən bəlli olduğu kimi, hər bir xalqın azadlıq istəyi, tərəqqiyə, müstəqilliyə meyli onun özünüdərk etməsi prosesində qərarlaşır, mənafeyini nəzəri ifadə edən müəyyən ideyalar əsasında tədricən həqiqi məna, aydın yönüm kəsb edə bilir. Məhz həmin prosesin zəruri tələbi kimi yaranan milli oyanış, milli-mədəni yeniləşmə ideyaları tədricən milli hərəkatı şüurlu cəhətdən istiqamətləndirə biləcək milli ideologiyaya çevirir. Azərbaycanda milli oyanışa və mədəni yeniləşməyə aparan yolun başlanğıcında zəngin və orijinal yaradıcılıqları ilə çoxlarına örnək olmuş A.A.Bakıxanov, M.F.Axundzadə və H.Zərdabi durmuşdu. Yeni dövr Azərbaycan mə-

dəniyyətinin, ədəbi-bədii, ictimai-fəlsəfi fikrin inkişaf yolunu müəyyən etmiş, millətin tərəqqisini uzaqgörənliklə Avropa sivilizasiyasına qoşulmaqda görmüş bu intibah tipli şəxsiyyətlərin xalqımızın milli mənlik şüurunun oyanışı, formalaşması tarixində xidmətləri əvəzsizdir. Burada ən başlıcası olan budur ki, hərgah A.A.Bakıxanov yeni azərbaycanşünaslıq elminin, yeni tipli milli təhsil sisteminin layihəsinin təməlini qoymuşsa, M.F.Axundzadə ilk dəfə olaraq milli oyanış, yeniləşmə və tərəqqi ideyalarını proqram müddəalarla irəli sürmüş, H.Zərdabi isə həmin ideyaları inkişaf etdirməklə bərabər, onların anadilli mətbuat, milli teatr vasitəsilə şüurlara aşılanmasının əsasını qoymuşdur. Milli oyanışın, milli özünüdərk və mədəni yeniləşmənin ideya-nəzəri əsaslarını, milli varlığın əsas təminatlarından sayılan milli məfkurəni yaradan maarifçi-demokratik ziyalı nəslin başında duran M.F.Axundzadə, H.Zərdabi kimi dühalar milli mənlik şüurun təşəkkülünün ilk parlaq mücəssəməsi idi.

Birliyi əsrlərin tarixindən süzülüb gələn Azərbaycan xalqının mahiyyətcə "özü üçün varlığa" çevrilməsi prosesinin mənəvi təzahürü kimi milli şüurun yaranması və onun nəzəri cəhətdən istiqamətləndirilməsinə yönəldilmiş milli ideya axtarışları, milli birlik məfkurəsinin formalaşdırılması yolları şovinist rus çarizminin müstəmləkəçilik siyasətindən irəli gələn kəskin maneələrlə, mürəkkəb ictimai mühitlə üzləşdiyindən ikiqat çətin və ziddiyyətli olmuşdur. Burada tarixi gerçəkliklə yanaşı, psixoloji, milli ideya daşıyıcılarının özünəməxsus fəaliyyəti kimi subyektiv amillərlə şərtlənən spesifik xüsusiyyətlər ümumbəşəri cəhətləri heç də istisna etmir. Lakin həmin prosesin dünyanın müstəqil, suveren ölkələrindən fərqli olaraq torpağı zaman-zaman yadelli imperiyalar arasında bölüşdürülmüş və vahid dövlətçiliyindən məhrum edilmiş Azərbaycanın müstəmləkə asılılığı şəraitində, milli ayrıseçkilik siyasətinin yeridildiyi bir dönəmdə baş verməsi faktı isə öz-özlüyündə çox şeyi deyir. Belə bir mürəkkəb və ağır vəziyyətdə, tarixin obyektiv gedişatından köhnəliklə mübarizədə yaranan problemlərə milli varlığı, milli-mənəvi dəyərləri kənar-yad assimilyasiya təsirlərindən qoruyub hifz etmək, müstəmləkə əsarətindən xilas olmaq əzmi kimi taleyüklü problem də əlavə olunur. Bu səbəbdəndir ki, XIX əsrin ortalarından milli oyanış, tərəqqi və azadlıq məramı ilə yaranan və ilkin mərhələdə maarifçilik xarakteri daşıyan milli-mədəni yeniləşmə ideyaları xüsusi əhəmiyyət kəsb edir. Bu ideyalarda siyasi üstqurumun dəyişilməsini nəzərdə tutan radikal motivlər deyil, hər şeydən öncə mədəniyyətin, təhsilin zamanın tələbinə uyğun islahatçılıq və təkamül yolu ilə modernləşdirilməsi meyli üstünlük təşkil edir.

Görkəmli Azərbaycan maarifçilərinin ədəbi-bədii, publisistik və elmi-nəzəri yaradıcılığında oyanış, tərəqqi və azadlıq problemləri əsas yer tutmuş, başlıca düşüncə predmeti olmuşdur. Bu problemlərin həlli yollarının axtarışının nüvəsini isə milli-mədəni yeniləşmə ideyaları təşkil edirdi. Belə ki, milli-mədəni yeniləşmə yolu ilə milli dirçəliş və tərəqqiyə nail olmaqla azadlığa qovuşmağın mümkünlüyünə nikbin inam maarifçilərin dünyagörüşündə dərin iz buraxmışdı. Doğrudur, onların baxışlarında siyasi motivlər də az deyildi. Məsələn, M.F.Axundzadənin yaradıcılığının son dövrünə aid olan əsərlərində istibdad üsul-idarəsinin devrilməsinə səsləyən inqilabi-demokratik xarakterli çağırışlara rast gəlirik. Başda M.F.Axundzadə olmaqla o dövrün görkəmli zəka sahibləri cəhalət və istibdadı xalq üçün əsas "iki düşmən" (C.Məmmədquluzadə) hesab etmişlər. Onların əsərlərində xalqın gözünü açmaq niyyətilə cəhalətin tənqidi isə daha geniş yer tutur, daha güclü səslənir. Sözsüz ki, bu tən-

qidin atxasında məntiqi olaraq istibdad rejimi, çar üsul-idarəsi dururdu. Ancaq, ümumiyyətlə, götürdükdə cəhalət və istibdadın "səltənətini maarifin topu" ilə dağıtmağa çalışan maarifçilərdə mədəniyyət və elmin gücünə inam daha böyük olub.

XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində milli özünüdərkin, milli-mədəni yeniləşmənin zəruri amillərindən sayılan milli dil, milli mətbuat, milli təhsil məsələləri mühüm aktuallıq kəsb edir. Xalq təhsili ideyası qızğın təbliğ olunur. M.F.Axundzadədən gələn bu ideyanın daşıyıcıları xalq təhsilində "fanatizmdən azad dünyagörüşünə yiyələnməyin", tərəqqinin, inkişaf edən Avropa xalqlarına çatmağın başlıca yolunu görürdülər. Bu ideya bəhs edilən dövrdə Azərbaycanda kapitalizm iqtisadi ukladının təşəkkülü və inkişafından, feodal-patriarxal münasibətlərə qarşı mübarizənin kəskinləşməsindən qaynaqlanırdı. Mütərəqqi qüvvələrlə mühafizəkar dairələrin həmin dövrdə ictimai həyatın müxtəlif sahələrində üz-üzə gəlməsi özünü ilk növbədə tədris ocaqlarına olan münasibətdə qabarıq göstərir. Xalqın mədəni inkişafına nail olmaq, onu orta əsr geriliyindən xilas etmək üçün kimya, biologiya, fizika və s. kimi müasir, dünyəvi elmləri öyrənmək, texniki biliklərə və sənətlərə yiyələnmək ən zəruri məsələ kimi qarşıya çıxır. Maarif və mədəniyyətin tərəqqisi uğrunda çalışan demokratik maarifçilər bunu bütün kəskinliyi ilə dərk edir, gənc nəslin savadlanmasından ötrü mübarizə apardılar. Onlar Avropanın yeni təlim-tərbiyə üsullarını Azərbaycanda xalqın adət-ənənəsinə uyğun olaraq yaradıcılıqla tətbiq etməyin yolları və vasitələrini arayıb axtarmış, "üsuli-cədid" hərəkatına başçılıq etmişlər. Buna müasirləşmənin-"avropalaşmanın" ümdə şərtlərindən biri kimi baxılırdı. Çağdaş elmi-fəlsəfi tədqiqatlarda da göstərilir ki, XIX əsr-XX əsrin əvvəllərində "bütün türk-islam dünyasında yeniləşməyə-avropalaşmağa ilkin cəhdlər... Azərbaycanda edilmişdir. Milli şüurun oyanışı zəminində dil və mədəniyyət sahəsində ilk addımlar atılmışdır. Əlifba islahatının zəruriliyi ortaya qoyuldu. Milli dildə qəzet-jurnal nəşrinə başlandı, dram və operanın əsası qoyuldu, milli dildə tədrisə qədəm qoyuldu və hətta qızlar və qadınlar da ona cəlb olundu. Avropa və rus elminə, mədəniyyətinə yiyələnmək meylləri və təbliğatı güclənildi. Bu zəmində azərbaycanlıların bir millət kimi formalaşması prosesi başladı. Hətta azərbaycanlılar etnik millətdən siyasi millətə doğru inkişaf etməyə üz qoydular" [8, s.26]. 1918-ci ildə Azərbaycanda demokratik respublikanın yaradılması isə deyilənlərin ən parlaq nümunəsidir.

XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində Azərbaycanın ictimai-iqtisadi həyatında, sosial strukturunda yeni kapitalist münasibətlərinin təşəkkülü, köhnə feodal-patriarxal qayda-qanunlarının tənəzzülü zəminində gedən obyektiv dəyişikliklər yönümündə, dövrün mənəvi təcəssümü kimi inkişafının yeni məcrasına düşən ictimai-fəlsəfi fikirdə də bir çox "ilk"lər, yeni "izm"lər və məfhumlar meydana gəlir, ciddi düşüncə obyektinə çevrilirlər. Belə məfhumlar sırasında "vətənpərvərlik", "millətsevərlik", "millət", "milli birlik" kimi məfhumlar daha çox nəzər-diqqəti cəlb edir. Hətta XX yüzilliyin əvvəllərində belə Azərbaycan ictimai mühitində "millət", "milliyyət" məfhumları tam aydınlığı ilə ortaya çıxmasa da, onların fikirlərə daxil olması, ideya axtarışlarının ağırlıq mərkəzində durması milli şüurun oyanışı və dini şüurdan, ənənəvi ümmətçilik-müsəlmançılıq düşüncə tərzindən vətənpərvərlik, millətpərvərlik düşüncə tərzinə keçidin başlanğıcının qoyulması cəhətindən olduqca önəmlidir.

Vətənpərvərliyin, millətpərvərliyin sosial-fəlsəfi anlamını ilk dəfə ictimai fikrə gətirən M.F.Axundzadə və onun ideya davamçıları xalqda vətən təəssübkeşliyi, milli lə-

yaqət, milli qeyrət hisslərinin tərbiyələndirilməsi məsələlərinə müstəsna önəm vermişlər. Bu mövqedən apardıqları yaradıcılıq axtarışları üzərində getdikcə yüksələn Azərbaycan vətənpərvərliyi, vətənçilik-azərbaycançılıq ideyası geniş mənada milli birlik, tərəqqi və azadlıq ideyalarını özündə birləşdirirdi. Humanizm, vətənpərvərlik ideyalarını tərənnüm edən M.F.Axundzadə, H.Zərdabi, M.Şahtaxtlı və b. öz dövrləri üçün real və zəruri bildikləri milli birlikdə oyanış və dirçəlişin başlıca rəhnini görürdülər. Milli birliyin demokratik maarifçilik ideyası isə dinçiliyə, milliyyətçiliyə deyil, ərazi, dil, mədəniyyət və mənəviyyat birliyinə əsaslanırdı. Demokratik maarifçilər Azərbaycan vətənpərvərliyini milli qeyrət, milli birlik ideyası kimi irəli sürməklə, hətta indinin özündə belə polemikalar mövzusu olan azərbaycanlı ideyasının təməl daşını qoymuş olurlar. Bu isə daxili məntiqə görə hədəfi müstəqil olmayan, məhkum azərbaycanlıların xilası olan Azərbaycan milli ideyasının, azərbaycançılıq düşüncəsinin formalaşmasının, milli identikliyə keçidin tarixi müqəddiməsi demək idi. Bu da indiki və gələcək nəslimiz üçün ibrətamiz olan bir həqiqətdir ki, Azərbaycan mövzusunun yaradıcılıqlarının baş mövzusu olan demokratik maarifçilər əsl azərbaycançılıq mücəssəməsi idilər.

Burada belə bir cəhəti də nəzərə almaq lazımdır ki, qarşılarına qoyduqları məqsədlərinə nail olmaq üçün maarifçi mütəfəkkirlər olduqca ağır bir şəraitdə fəaliyyət göstərməli olmuşlar. Azərbaycan milli istiqlal hərəkatının qabaqcıl nümayəndələrindən olan M.B.Məmmədzadə yazırdı ki, “Mirzə Fətəli ilə Həsən bəyin açdıqları milli oyanış dövrü, mədəni millətçilik hərəkatı”, milli burjuaziya və ziyalı zümrəsinin “yetişib güclənməsinə qədər çox ağır... şəkildə yürümüşdü” [3, s.17]. Bunun səbəblərini isə M.Ə.Rəsulzadə belə izah edirdi:” Çarizm, Azərbaycanı ruslaşdırmaq üçün iki cəbhədən gəlirdi. Bir tərəfdən xəlqin hissiyyati-diniyyəsini idarə edən üləma və molları kəndi (öz) kontroluna tabe tutur, digər tərəfdən də milli tərbiyyəyə meydan verməyərək xəlqi rus məktəblərində... oxumağa icbar (vadar) edirdi” [4, s.16]. Lakin “orta əsrlərin sxolastik, çürük və milli varlığı təhdid edən köhnə ictimai təsisatların cahil... nümayəndələrinin din pərdəsi altında kəskin müqavimətlərinə” [3, s.18], çar üsul idarəsinin güclü təzyiqlərinə məruz qalmalarına baxmayaraq vətənpərvər əqidəli maarifçilər xalqın milli ruhda tərbiyələndirilməsi, milli şüurun oyadılması, mədəniyyətin yeniləşdirilməsi yolunda yorulmadan çalışmış, cəsarətli addımlar atmaqla Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyətə malik olan müəyyən müvəffəqiyyətlərə də nail ola bilmişlər. M.B.Məmmədzadənin yazdığı kimi, onlar “XIX əsrin ortalarında savaşa atılaraq qısa müddət sonra bizə müasirləşmiş bir ədəbiyyat, mətbuat, sənət, teatr, müasir məktəb və maarif ver”mişlər [3, s.18]. Milli dramaturgiyanın banisi, “Şərqin Molyeri” kimi böyük şöhrət qazanmış M.F.Axundzadənin məşhur komediyaları deyilənlərin ilk bariz nümunəsi idi. Azərbaycan ədəbiyyatı tarixində “milli təfəkkürlə bədii təfəkkürün harmonik vəhdətini ilk dəfə profesional realist sənət səviyyəsində həll” edən M.F.Axundzadənin dramaturgiyasında, akademik K.A.Talıbzadənin yazdığı kimi, “azərbaycanlılar və Azərbaycan həyatı, azərbaycanlı psixologiyası, düşüncə tərzi, danışığı, dili, folkloru ilk dəfə... qabarıq milli cizgilərlə... öz təcəssümünü tapdı”[9, s.195].Bu isə milli özünüdərk, özünütanıma yolunda atılan ilk mühüm addım demək idi.

Şərq mədəniyyətindən mükəmməl surətdə bəhrələnən və “rusca vasitəsilə də Qərb mədəniyyətinin əsasları ilə tanış olan” M.F.Axundzadə ilə “başlayan teatr ədəbiyya-

tı”[4, s.17] N.Vəzirov, Ə.Haqverdiyev, S.M.Qənizadə, N.Nərimanov, C. Məmmədquluzadə kimi görkəmli ədiblər tərəfindən inkişaf etdirilir. Bu yöndə də yeni-milli ədəbiyyatın milli oyanışa, milli mənlik şüurunun təşəkkülünə təsir dairəsi genişlənirdi. Vaxtilə “Avropa mənasında... ilk azərbaycanlı müəllim, Mirzə Fətəlinin əsərlərini səhnəyə qoyan ilk teatr yaradıcı, ilk mühərrir(yazar), ilk xeyriyyə cəmiyyəti” və ilk milli mətbuat banisi, ictimai xadim kimi haqlı olaraq yüksək dəyərləndirilən H.Zərdabi isə naşiri olduğu “Əkinçi” qəzetinin vasitəsilə milli oyanış, milli-mədəni yeniləşmə və tərəqqi ideyalarını, dünyəvi elmi bilikləri sadə, anlaşıqlı tərzdə aşkar təbliğ edib insanların şüuruna aşılamaqla yanaşı, ”hüriyyət fikrini meydana atmışdır”[3, s.20].

XIX əsrin sonlarında “Əkinçi”, “Kəşkül” və “Kaspi” qəzetlərinin səhifələrində milli müəyyənlik məsələsinin qaldırması üçün edilən ilk cəhdlər mövcud vəziyyəti dəyişdirmək üçün milli özünüdərkin zəruriliyini göstərirdi. Bu yöndə Azərbaycan milli ideyasının təşəkkülü və təsir dairəsinin genişlənməsi problemi xüsusi önəm kəsb edirdi. Prof.Ə.M.Tağıyevin qeyd etdiyi kimi, Azərbaycan milli ideyasının tarixi kökləri qədimlərə gedib çıxır. “Lakin “fikirdə və əməldə təzəsini edən” (M.Ə.Rəsulzadə) Azərbaycan ideyası yeni dövrün məhsulu hesab olunmalıdır. XIX-XX əsrlərdə Rusiya türkləri arasındakı milli oyanış hərəkatı, bu hərəkatın ən əvvəl Bakıda və Qazaxda meydana gəlməsi türklük və azərbaycançılıq ideyalarının ziyalılar arasında bir dəstxətt, xətti-hərəkət kimi qəbul edilməsinə və genişlənməsinə səbəb oldu”[8, s.25]. Burada demokratik maarifçilərin rolunu da ayrıca qeyd etmək lazımdır. Onlar ilk dəfə olaraq Azərbaycan vətənpərvərliyini, milli qeyrət, milli birlik anlamında irəli sürməklə, həm də indinin özündə belə polemikalar mövzusu olan azərbaycanlı milli ideyasının təməl daşını qoymuş olurlar. Bu ideyanın müəllifi olan və ilk dəfə olaraq “azərbaycanlı”, “Azərbaycan dili” sözlərini leksikonumuza gətirən Məhəmmədağa Şahtaxtlı 1891-ci ildə “Kaspi” qəzetində çap etdirdiyi “Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı? başlıqlı məqaləsində eyni adlı suala verdiyi cavabında belə bir qənaətə gəlir ki, indiyədək “müsəlman”, “tatar” adlanan “Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə tatar dili əvəzinə Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı”[10, s.29].

Bu fikrin bir növ ideyaca davamı olaraq M.Ə.Rəsulzadə 1914-cü ildə “Dirilik” məcmuəsində dərc etdirdiyi “Milli dirilik” məqalələr silsiləsində yazır:”Bir çox...qövmiyyət və tayfalar cəm olub bir dil ilə bərabər müəyyən bir mədəniyyətə malik olan azərbaycanlılardan bir milliyyət kimi bəhs etmək olar”[6, s.468].

Problemin bu cür qoyuluşunun və onun həlli yönümündə edilən ilk cəhdlərin millət, milli mənsubiyyətin təyini məsələsində baxışlarda qeyri-müəyyənliyin hökm sürdüyü, haçalanmanın getdiyi mürəkkəb bir dönəmdə ictimai fikrin düzgün istiqamətləndirilməsi, milli mənlik şüurun təşəkkülü, milli oyanış “mexanizminin” hərəkətə gətirilməsi üçün mühüm önəmi olan Azərbaycan və azərbaycançılıq ideyasının formalaşması baxımından nə dərəcədə vacib və əhəmiyyətli olmasının təfsilatı ilə isbatına lüzum yoxdur. Onu qeyd etmək lazımdır ki, Azərbaycan xalqının milli mənlik şüurunun formalaşması, dirçəliş və qurtuluş prioritetlərinin müəyyən edilməsi üçün uzun bir yol keçmək lazım olmuşdur. Bu çətin yolda milli-mədəni yeniləşmə ideyalarının axtarışı və bu ideyaların gerçəkləşməsi istiqamətində atılan ilk addımların böyük əhəmiyyəti var idi. XIX əsrin ikinci yarısında görkəmli maarifçilər tərəfindən başlanğıcı

qoyulan bu yol, XX əsrin əvvəllərində qabaqcıl milli məfkurə sahibləri tərəfindən milli-azadlıq uğrunda mübarizənin məqsədləri kontekstində türkçülük, islamçılıq və müasirlik kimi təməl ideoloji prinsiplər əsasında daha da inkişaf etdirilərək son hədəfinə-azad Azərbaycan idealının gerçəkləşməsi məqamına çatdırılmasıdır. Bu gün həmin prinsiplər Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil dövlətimizin üçrəngli bayrağında təcəssüm olunur.

Azərbaycan xalqının qurtuluş və istiqlal amalının ilk dəfə olaraq XX əsrin ikinci onilliyinin sonunda suveren Azərbaycan Xalq Cümhuriyyətinin timsalında reallaşması milli ideya axtarışlarının, milli oyanış, milli mənlik şüurunun formalaşmasının obyektiv məntiqi yekunu oldu. AXC-nin timsalında M.Ə.Rəsulzadənin təbirincə desək, "xalqın düşüncəsində Azərbaycan məfhumu coğrafi bir mənadan ziyadə fikir və əməl şəklində təcəssüm edir" [4, s.95], siyasi-ideoloji bir varlığa çevrilir. Milli özünüdərkin, milli özünüifadənin və istiqlaliyyətin tarixi tərcümanı olan AXC 23 aylıq varlığı ilə sübut etdi ki, Azərbaycan xalqı üçün "istiqlal xaricində... bir Azərbaycan yoxdur"[4, s.95].

70 il totalitar sovet rejimində yaşamağa məhkum edilmiş Azərbaycan xalqı məhz bu müqəddəs istiqlal amalı ilə XX əsrin sonunda yenidən mübarizəyə qalxaraq özünün milli dövlət müstəqilliyinin bərpa edilməsinə nail ola bilmişdir.

Müasir dövrdə Azərbaycan Respublikası ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlətçilik strategiyası əsasında müstəqilliyinin əbədi və dönməz olması yolunda uğurla inkişaf etməkdə, beynəlxalq aləmdə böyük nüfuz qazanmaqdadır.

QAYNAQLAR

1. Azərbaycan tarixi.I cild. Bakı, Azərnəşr, 1994
2. Mehdiyev R. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi. "Azərbaycan" qəzeti, 26 may 2011-ci il
3. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992
4. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990
5. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı.Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991
6. Rəsulzadə M.Ə. Əsərləri.II cild. Bakı, Şirvannəşr, 2001
7. Tağıyev Ə.M. Milli ideya və milli ideologiya: problemlər və onların şərhi. Bakı, Təbib, 2000
8. Tağıyev Ə.M. Azərbaycan ideyasının təsiri. "Sosial-siyasi problemlər(elmi məqalələr toplusu)". VIII buraxılış. Bakı, Qismət, 2003
9. Talıbzadə K.A. Tənqid və tənqidçilər. Bakı, 1989
10. Şahtaxtlı M. Seçilmiş əsərləri. Bakı, Çaşıoğlu, 2006
11. Ахмедов Э.М. Философия азербайджанского просвещения. Баку, Азернешр, 1982

Nurəli İSAYEV
Fazil RÜSTƏMOV

Azərbaycan maarifçiliyinin milli-mədəni yeniləşmə ideyaları və müasirlik

Xülasə

Məqalədə Azərbaycan maarifçiliyinin milli-mədəni yeniləşmə ideyalarının konseptual-struktur təhlili verilir, onların milli-ictimai fikrin, milli dirçəliş və qurtuluş məfkurəsinin formalaşmasında yeri və rolu göstərilir. İzah edilir ki, Azərbaycan maarifçiliyinin milli-mədəni yeniləşmə ideyaları XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində oyanış, tərəqqi və azadlıq kimi taleyüklü problemlərinin həlli yollarının axtarışında aparıcı rol oynamışdır.

Нурали ИСАЕВ
Фазил РУСТАМОВ

Национально-культурные идеи обновления Азербайджанского просветительства и современность

Резюме

В статье дается концептуально-структурный анализ национально-культурных идеи обновления азербайджанского просветительства, описывается их мессто и роль в формировании национально-общественного мнения, понятия национального возрождения. Отмечается, что национально-культурные идеи обновления Азербайджанского просветительства, как возрождение, прогресс и свобода сыграли важную роль в поиске способов решений проблем II половины XIX и начала XX веков.

Nurali ISAYEV
Fazil RUSTAMOV

National-cultural renovational ideas of Azerbaijan enlightment and modernity

Summary

In the article conseptual-structural analysis of national-cultural renovational ideas of Azerbaijan enlightment is given, their place and role in formation of national-public opinion, conception of national renaissance are described. It has been mentioned that national and cultural renovational ideas of Azerbaijan enlightment played a significant role in the search of solving methods of such problems in the second half of XIX and at the beginning of XX centuries, as renaissance, progress, freedom.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Salatın ƏHMƏDOVA
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi

HEYDƏR ƏLİYEVİN NƏZƏRİ İRSİNDƏ BƏXTİYAR VAHABZADƏ DRAMATURGİYASI

Ключевые слова: *Гейдар Алиев, Бахтияр Вагабзаде, национальная свобода, литературно-исторический процесс, национальный театр, драматическая трагедия*

Keywords: *Heydar Aliyev, Bakhtiyar Vahabzadeh, national freedom, literary-historical process, national theater, dramatic tragedy*

Xalq şairi, akademik Bəxtiyar Vahabzadənin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı və elminin parlaq bir səhifəsidir.50-ci illərdə yaradıcılığa başlasa da onun poetik manifesti 60-cı illərdə formalaşmış, estetik idealı altmışıncılar mühitində bülluralşmışdır. B.Vahabzadə Azərbaycan fəlsəfi-intellektual poeziya təmayülünə mənsub görkəmli bir sənətkardır. 60-cı illərdə sərt rejimli dəmir imperiyada kiçik bir mülayimləşmə yarananda Azərbaycanda milli hissin güclənməsində B.Vahabzadənin, M.Arazın, X.Rzanın mühüm xidmətləri oldu. Onları ciddi həbs cəzası gözləyirdi. B.Vahabzadənin milli-mənəvi taleyimizdən bəhs edən rus imperializminə qarşı yazılmış məşhur “Gülüstan” poeması qadağan olundu. Belə bir çətin məqamda o zaman DTK-nın rəhbəri olan H.Əliyev müxtəlif vasitələrlə onların azadlıqda qalmasına nail oldu. Hər üç şairin, xüsusilə B.Vahabzadənin yaradıcılığı həmişə, lap ömrünün sonuna kimi H.Əliyevin diqqət mərkəzində olub. O, Bəxtiyarı və Şəhriyarı milli şerimizin korifey sənətkarları kimi çox sevir və yüksək qiymətləndirirdi. O, çıxışlarının birində deyib: “Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Xəlil Rzanın-bu üç şəxsin adını mən fərəhlə çəkirəm. Dünən mən üç fərman vermişəm.Bildiyimiz kimi müstəqil Azərbaycanın ən yüksək ordeni “İstiqlal” ordenidir.İndiyə qədər bu ordenlə heç kəs təltif olunmayıbdır. Dünən isə mən fərman verərək Bəxtiyar Vahabzadəni, Məmməd Arazı və mərhum Xəlil Rzanı “İstiqlal” ordeni ilə təltif etmişəm. Bu bir təsadüf, yaxud ki, birdən meydana çıxmış, mənim tərəfimdən birdən qəbul olunmuş qərar deyil. Bu haqda mən çox düşünürəm.

Bilirsiniz, milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Bu da asan bir proses deyildir... Yaşadığımız o rejim dövründə bu prosesə açıq təkan vermək də çətin idi.Ancaq Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza kimi insanlar öz yaradıcılığı ilə bu sahədə çox

iş görüblər” (Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. B., Ozan, 1999. s.250-251). H.Əliyev bu üç istiqlal şairinin, xüsusən də B.Vahabzadənin cəsarətini yüksək dəyərləndirirdi.B.Vahabzadə filosof şair, dramaturq və ədəbiyyatşünas alim kimi həmişə eyni estetik ideala xidmət etmiş, Azərbaycan ədəbiyyatında dahi Füzulinin, türk və Azərbaycan romantik poeziyasının ənənələrini davam etdirmişdir.

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək-
Şamın yaşaması yanmağındadır.

O, “Sən yanmasan, mən yanmasam Nasıl çıkar qaranlıqlar aydınlığa?”-deyə haykıran böyük türk şairi Nazim Hikmətlə eyni estetik idealın daşıyıcısıdır. Bəxtiyar poeziyasına böyük sufilərdən-Mövlana Cəlaləddin Rumidən, Mövlana Məhəmməd Füzulidən gələn bu yanğı poeziyada yandıraraq yaşatmaq üsulu idi.Ömrünü şam kimi əridib qaranlıqları işıqlandırmaq əqidəsi B.Vahabzadənin dramaturgiyasında-“Hara gedir bu dünya”, “Özümüzü kəsən qılınc” (“Göytürklər”), xüsusilə böyük hürufi şair-filosof İ.Nəsimiyə həsr edilmiş “Fəryad” dramatik faciəsində milli səhnəmizə də gətirildi. Mənəvi-psixoloji mövzuda yazılmış “Hara gedir bu dünya” tamaşasına baxdıqdan sonra müəllifi, gənc rejissor B.Osmanovu və teatrın kollektivini təbrik edən Heydər Əliyev demişdir: “Bəxtiyar Vahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir. Bəxtiyar Vahabzadə adətən şeirlər, poemalar yazır, ancaq bir neçə səhnə əsəri də yaradıbdır. O, 70-ci illərə də uğurlu əsərlər yazmışdır. 1991-ci ildə də belə bir əsər yaradıbdır” (s.447).H.Əliyevi bu tamaşada cəlb edən konfliktin gözlənilməz sonluqla açılışı, hadisələrin qeyri adi məntiqi olmuşdu. O, bu psixoloji pyesi “elmi əsər” adlandırırdı.

Ulu öndərin diqqətini cəlb edən ikinci mühüm cəhət tamaşanın hazırlıqlı tamaşaçı üçün nəzərdə tutulması, mürəkkəb həyati proseslərin dərin psixoloji qatlarını qaldırması idi: “Bu tamaşa həyatı əks etdirir. Bəxtiyar müəllim belə bir əsər yazmaqla insan yaranandan indiyədək adamların arasında, onların həyatında gedən psixoloji prosesi əks etdirmək istəyib. Hesab edirəm ki, o, buna nail olubdir” (s. 448). H.Əliyev göstərir ki, B.Vahabzadənin “Hara gedir bu dünya” əsəri insanı paklıq, mənəvi saflıq, mənəvi təmizlik uğrunda mübarizəyə sövq edən, dəvət edən bir əsərdir.H.Əliyev əsərin qəhrəmanı Laçını öz əqidəsi uğrunda, əxlaq uğrunda mübarizədə ardıcıl, dönməz, sadiq olduğuna görə yüksək qiymətləndirirdi.

Ulu Öndər əsəri həm də obyektiv surətdə tənqid edərək deyib: “Mən Bəxtiyar müəllimə bildirmək istəyirəm-bu əsərdə bəzən bir az ümidsizlik hiss olunur. Ümidsizlik olmamalıdır.İnsan ümidlə yaşamalıdır ki, cəmiyyət mənfi hallardan xilas olsun. Biz bəlkə də buna nail ola bilməyəcəyik. Amma gələcək nəsillər buna mütləq nail olacaqlar. Əsərdə kökə qayıtmaq məsələsi var, mən onun mənasını belə anlayıram ki, kökümüzdə olan müsbət cəhətləri götürmək lazımdır.Mən də sizinlə razıyam ki, tamaşadakı kimi ibtidai icma quruluşuna qayıtmayacağıq.Bu mümkün deyil” (s.450).

H.Əliyev adi tamaşaçı üçün çox çətin hesab etdiyi əsərdə ümidsizliyi tənqid edir.-

Mövzunun aktuallığını xüsusilə vurğulayan əvəzolunmaz lider, "İnsan ümidlə yaşamalıdır, mən bədbin deyiləm, nikbinəm və bu əsərin ümidsizlik nüansları, notları ilə də razı deyiləm" deyir. Onun fikrincə borcumuz mükəmməl insan, mükəmməl insan cəmiyyəti yaratmaqdır. B.Vahabzadənin əsəri də məhz bu qayəyə xidmət edir. H.Əliyev konkret şəxslərə də, konkret əsərlərə də təkcə öz zövqündən çıxış edərək dəyər vermir, konkret tarixi kontekstdə, mövcud cəmiyyətin tarixi gedişatını nəzərə alaraq təhlil edir və dəyər verirdi.

B.Vahabzadənin yaradıcılığına münasibət də belə idi. O, B.Vahabzadənin yaradıcılığına Azərbaycan fəlsəfi-intellektual poeziyasının poetik təkamülü məcrasında yanaşır, ona əqidə şairi, məslək şairi, şəxsiyyətinə sadiq sənətkar kimi dəyər verirdi.

1998-ci il aprel ayının 12-də H.Əliyev Azərbaycan Akademik Milli Dram Teatrında B.Vahabzadənin "Özümüzü kəsən qılınc" ("Göytürklər") pyesinin tamaşasına baxır. O bu dramı "milli birliyi, dövlətçiliyimizi qorumağa səsləyən əsər" kimi yüksək qiymətləndirir. Biz artıq qeyd etmişik ki, H.Əliyev ədəbiyyat və mədəniyyətin bütün məsələlərinə, konkret əsərlərin ədəbi-tarixi prosesdəki roluna məhz dövlətçilik prizmasından baxırdı. "Tarixi mövzuda əsər yazmaq mürəkkəbdir, çətindir....

Belə bir əsər qədim tariximizin, o cümlədən millətimizin qədim köklərinin tarixinin böyük bir səhifəsini açıb ictimaiyyətə göstərir.Bunun özü böyük bir işdir və hesab edirəm ki, böyük yaradıcılıq qələbəsidir. Bunu Bəxtiyar Vahabzadə çox böyük məharətlə edibdir.

...Millətimizin tarixi elə gətirib ki, onu keçmiş zamanlarda təhrif ediblər" (s.464).

H.Əliyev tariximizin indiki və gələcək nəsillərə çatdırılmasını xalq, millət, tarix və gələcək nəsillər qarşısında böyük xidmət hesab edirdi: "Bu xidmətə görə mən Bəxtiyar Vahabzadəyə xüsusi təşəkkür edirəm və hesab edirəm ki, millətimiz, xalqımız, cəmiyyətimiz də bu təşəkkür sözlərimə qoşulacaqlar və daim minnətdar olacaqlar" (s.465).

H.Əliyev "Özümüzü kəsən qılınc" əsərinin bədii-tarixi əhəmiyyətini bir də bunda görürdü ki, tarixi həqiqətləri yüksək pafosla tamaşaçıya çatdıran bu əsərdə müəllif tarixdən ibrət dərsi götürmək məsələsini gündəmə gətirirdi.Ümumiyyətlə, təbiətən türkçü, millətçi olan B.Vahabzadə türk xalqlarının birliyi ideyasını işləyir, türkün qədim tarixini əks etdirən hadisələr-qardaş qırğınları fonunda müasir türkləri milli-mənəvi birliyə səsləyirdi.

B.Vahabzadənin əsərinin tamaşası ilə bağlı dərin məzmunlu söhbətində H.Əliyev həm də teatra qiymət verir, rejissor və aktyor sənətimizin çağdaş durumu haqqında təsəvvür yaradırdı. O, bir nəzəriyyəçi kimi fikirlər söyləyirdi: "Sözün təsiri onun mənasında və bir də intonasiya ilə deyilməsində, necə ifa olunmasındadır. Bəxtiyar Vahabzadə bu əsəri böyük qəlblə, milli hisslə, böyük istedadla, fədakarlıq və vətənpərvərliklə yazdığı kimi, siz də tamaşanı eyni dərəcədə sevə-sevə yaratmısınız.Mən aktyorluq sənətinə az-çox bələdəm.Düzdür, sənətşünas deyiləm, ancaq bilirəm-əgər ifa olunan əsər aktyorun sinəsinə düşməsə, onun ifası süni olacaqdır.Ancaq Bəxtiyar Vahabzadənin əsəri ilə rejissorun və aktyor truppasının harmoniyası pyesi gördüyümüz kimi meydana çıxardı.Ona görə də mən rejissorun, quruluşçu rəssamın, tamaşanın bütün iştirakçılarının yaradıcılıq fəaliyyətini çox yüksək qiymətləndirirəm" (s.468).

H.Əliyev cəmiyyətşünaslıq, dövlətçilik məsələlərində olduğu kimi, ədəbiyyat, mədəniyyət məsələlərində də güzəştsiz idi. O, çox iti təfəkkürə, fenomenal yaddaşa ma-

lik bir nəzəriyyəçi idi. Uzun illərin rəhbərlik təcrübəsi, adamlarla işləmək bacarığı, yüksək siyasi hazırlığı, qeyri-adi zəkası ona imkan verirdi ki, ən çətin tarixi situasiyalardan asanlıqla çıxış yolu tapsın. O, sözü dəqiq, məntiqlə və yerində işlətməyin böyük ustası idi. H.Əliyev ən çətin vəziyyətlərə qlobal yanaşmağın parlaq nümunələrini vermişdir. Onun B.Vahabzadəyə verdiyi bir cavab olduqca maraqlıdır: "Bilirsiniz, bu əsərin xüsusiyyəti ondan ibarətdir ki, burada hansı rolun baş rol olduğunu demək çətindir. Səhnə əsərlərinin çoxunda baş rol və iki-üç ikinci dərəcəli rollar olur.Kütləvi səhnələrdə iştirak edən rollar da var.

Bəxtiyar Vahabzadə: Müsbət baş qəhrəman sosializm realizmi əsasında yazılan əsərlərdə olur.

Heydər Əliyev: Elə sən də həmişə həmin o sosializm realizmi əsasında yazmısan. İndi o yazdıqlarını niyə yadından çıxarırsan?Yox, elə deyildir.Niyə elə deyirsən? Məsələn, Şekspirin əsərlərində-"Hamlet", "Otello" və başqalarında baş rollar var. Sən burada bir az səhvə yol verdin. Sənin bu əsərində bilmirəm kimi baş rolun ifaçısı hesab etmək olar.Hamısı baş roldur" (s.468).

H.Əliyev öz mövqeyindən dönməyən sərt və prinsipial şəxsiyyət idi. O, dünya ədəbiyyatını, mədəniyyət və incəsənəti dərindən bilirdi. Göründüyü kimi, o, baş qəhrəman məsələsini sosrealizm çərçivələri ilə məhdudlaşdıran mülahizəyə də çox sərt, məntiqli və konkret cavab verir.B.Vahabzadənin səhvi onda idi ki, o, əsərdə baş rol məsələsi ilə müsbət baş qəhrəman məsələsini qarışıq salırdı.H.Əliyev "müsbət baş qəhrəman" ifadəsini işlətməmişdi.

H.Əliyev xalq mənəviyyatının aynası, milli sərvətimiz olan ədəbiyyat və mədəniyyətə təsadüfi, düşünülməmiş naşı münasibəti heç vəchlə qəbul etmir, sərt tənqid edirdi. O, mülahizələrinin birində inamla deyirdi: "Çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik... Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır.Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz".

H.Əliyevin ədəbi-tarixi proses konsepsiyası mədəniyyət və incəsənətə dair sahələri də əhatə edirdi. Göründüyü kimi, o, B.Vahabzadənin pyeslərinə teatr tamaşaları əsasında qiymət verir və dönə-dönə qeyd edirdi ki, bu əsərlər tamaşaya qoyulmasaydı, kitab və jurnallarda qalsaydı bu qədər böyük effekti və əhəmiyyəti olmazdı. Beləliklə, B.Vahabzadənin dramatik faciələri kontekstində Ulu Öndər həm də milli teatrın çağdaş durumuna qiymət vermiş olurdu: "Ümumiyyətlə, sizin bu günkü tamaşanız onu göstərir ki, bizim Azərbaycan teatrı yaşayır və inkişaf edir" (s. 468).

Dramaturgiyaya onun səhnə taleyini görmədən, nəzərə almadan obyektiv qiymət vermək mümkün deyil.

QAYNAQLAR

1. Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər: Çinar-çap, 2007.-136 s.
2. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı: nitqlər, məruzələr, çıxışlar. Bakı: Ozan, 1999.-495s.
3. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, 248 s.
4. Heydər Əliyev və mədəniyyət: müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə. C.1. : 1969-1982, 1993-1996. Nurlar, 2008.-504 s.
5. Heydər Əliyev və mədəniyyət: müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə. C.2 : 1997-1998. Nurlar, 2008.-520 s.

Творчество Бахтияра Вахабзаде в теоретическом наследии Гейдара Алиева

Резюме

В статье исследуется глубокое уважение Гейдара Алиева к творчеству поэта Бахтияра Вахабзаде. Результат, полученный в результате этого исследования, говорит о том что, Национальный лидер в контексте драматических трагедий Б.Вахабзаде оценивал также современное положение национального театра.

Drama of Bahtiyar Vahabzade in the heritage of Heydar Aliyev

Summary

Deep respect of Heydar Aliyev to the creative work of dramatist, poet Bakhtiyar Vahabzade is studied in the Article. The result of this study is that national leader also appreciated modern state of national theatre in the context of dramatic tragedy of B.Vahabzade.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Abbas ABBASOV
Bakı Dövlət Universiteti

LEKSİKOQRAFİYADA «BAŞ SÖZ» VƏ «LÜĞƏT MADDƏSİ» ANLAYIŞLARI

Ключевые слова: *лексикография, словарь, заголовочное слово, вокабула, словарная статья*
Keywords: *lexicography, dictionary, head words, vocabulary, word-article*

Leksikoqrafiya dilçilikdə ayrıca bir istiqamət kimi formalaşdığından bilavasitə onun anlayışlarının adlarını ifadə edən xeyli sayda termin vardır. Bu terminlər leksikoqrafiya terminologiyasını əhatə edir və hesab edirik ki, bu terminosisteminin qurulması, onun vahidlərinin nizama salınması, eləcə də unifikasiyası vacib məsələlərdəndir. Çünki leksikoqrafiya terminologiyasında da variantlılıq müşahidə olunur, bir sıra terminlər sinonim və substitutlar kimi işlədilir. Bəzi terminlərin dubletləri də yaranmışdır. Bu da bir sıra terminlərin dəqiq təyin olunmadığını təsdiq edir. Qeyd olunan cəhət leksikoqrafiyanın əsas anlayışlarını və onların variativlik məsələlərini nəzərdən keçirməyə əsas verir.

Leksikoqrafiyanın ilkin inkişaf dövründə lüğətlərin tərtibi ilə əlaqədar meydana çıxan bir çox nəzəri məsələlər öz həllini bütünlüklə tapmasa da, müəyyən səviyyədə işlənmişdir. Lüğət tərtibçiləri özlərindən asılı olmayaraq leksikoqrafiya nəzəriyyəsi ilə məşğul olmuşlar. Lakin bu halda nəzəri tədqiqatı tətbiqi məsələdən ayırmaq üzərində düşünülməmişdir. Çünki qarşıya qoyulan məqsəd bilavasitə lüğətin hazırlanması olmuşdur. Lüğətdə materialın yerləşdirilməsi metodları da ilkin lüğətçilik dövründə tədricən öz həllini tapmışdır. Ilkin leksikoqrafiya dövründə də materialın ideoqrafik və əlifba üsulu ilə yerləşdirilməsindən istifadə edilmişdir. Ideoqrafik üsul daha əvvəlki tarixə aiddir. Sözlərin mövzu əsasında düzülməsi qədim Şumerdə və Misirdə tətbiqini tapmışdır. Bunun bir səbəbi də leksikoqrafik vasitələrin yaradılması ilə əlifbanın yaradılmasının paralel inkişafıdır. Intibah dövründə həm əlifba, həm də ideoqrafik üsullar geniş istifadə olunmuşdur. Bir sıra hallarda hər iki tipli lüğətlərin eyni vaxtda yaradılması, müxtəlif üsulların bir lüğət daxilində tətbiqi də müşahidə edilir.

Qeyd olunduğu kimi, ilk lüğətlərin hazırlanması dövründə leksikoqrafiya nəzəriyyəsi yox idi. Lakin tərtibçilər bu gün də aktuallığını saxlayan bir çox məsələləri ilk lüğətlərin hazırlanması prosesində həll etməyə çalışmışlar. Məsələn, lüğətdə izah olunan sözün ayrılması və ya fərqləndirilməsi ilk lüğətlərdə müşahidə olunur. Təbii ki, ayırma ayrılanın onun izahından seçilməsinə zəmin yaratmış və nəyin izah olunduğunu, eləcə də izahın nəyi əhatə etməsini vizual göstərmək məqsədi daşımışdır. Ayırma müxtəlif vasitələrlə reallaşdırılmışdır. Məsələn, söz qara şriftlə, baş hərflərlə yazıl-

mışdır, sözün altından xətt çəkilmişdir və s. Bu səbəbdən leksikoqrafiyada ayrılan sözə müxtəlif adlar verilmişdir. «Baş söz», «qara söz», «əsas söz», «lüğət vahidi», "vokabula" kimi terminlər yaranmışdır. Lüğətçilik inkişaf etdikcə terminoloji mahiyyət daşıyan bu vahidlərin də sayı artmışdır. Hazırda leksikoqrafiyada «baş söz» və «lüğət maddəsi», «lüğət məqaləsi», «qara söz» terminlərinin sinonim kimi işlənməsi hallarına rast gəlinir. Təbii ki, yuxarıda göstərilən termin variantlarının hamısı dilçilik terminləri lüğətlərində qeydə alınmır.

Leksikoqrafik tədqiqatlarda «lüğət məqaləsi» və onun qarşılığı kimi «lüğət maddəsi» terminlərindən istifadə olunur. Bundan başqa, «baş söz» termini də eyni məqamda işlədilir.

«Baş söz» anlayışına müxtəlif tərifler verilmişdir. «BAŞ SÖZ-Lüğət maddəsində izah olunan, xüsusi fərqləndirici şriftlə yığılan və hər bir lüğətin prinsiplərinə müvafiq şəkildə (əlifba sırası üzrə, mövzular üzrə və s.) qurulan sözlüyün ünsürü» [1, 32]. Fikrimizcə, bu mənbədəki tərif O.S.Axmanovanın lüğətindən əxz olunmuşdur. D.Rozental və M. Telenkovanın lüğətində baş söz lüğət məqaləsində izah edilən söz kimi təyin edilmişdir [2, 104].

H.Həsənov baş söz anlayışına belə tərif verir: «Lüğətdə təsvir və ya izah edilmək, yazılışını və ya tərcüməsini vermək əlifba sırası ilə düzülmüş söz və ifadələrə baş söz deyilir» [3, 153]. Tərifdə, çox güman ki, «tərcüməsini vermək» ifadəsindən sonra «üçün» sözü texniki xəta nəticəsində yer almamışdır. Eyni zamanda, lüğətin yalnız əlifba sırası üzrə tərtib olunmadığını nəzərə alsaq, təbii ki ideoqrafik və digər lüğətlərdəki baş sözlər bu tərifdən kənarda qalır. Həmçinin onu da qeyd etməliyik ki, birdilli lüğətlərə aid edilən siyahı tipli lüğətlərdə təsvir və ya izah olmur. Onda bu cür siyahı tipli lüğətlərdəki «baş söz»lər D.Rozental və M.Telenkovanın, eləcə də H.Həsənovun tərifindən kənarda qalır, daha doğrusu tərifin meyarlarına cavab vermir. Fikrimizcə, «baş söz» anlayışına belə tərif vermək olar: Baş söz lüğətin müəyyən qaydada yerləşdirilən, kursivlə fərqləndirilən, əsasən təsvir və ya izah olunan vahididir. Lüğətin sözlüyü «baş söz»lərin toplusundan ibarətdir.

Baş sözün kursivlə fərqləndirilməsinin mümkün hallarına baxaq. Təbii ki, bu mümkün hallar müxtəlif lüğətlərdə qəbul edilən fərqli formaların əsas dairəsini müəyyənləşdirməyi əhatə edəcəkdir. Onu da qeyd edək ki, lüğətlərdən seçilən nümunələrin imkan daxilində leksikoqrafiya ilə bağlılığına üstünlük verməyi məqsədəuyğun saymaq lazımdır. Çünki bu halda həm nümunə üzrə müəyyən məsələnin şərhinə imkan yaranır, həm də leksikoqrafiyanın müəyyən anlayışının müxtəlif mənbələrdəki izahları işdə yer almış olur.

«LÜĞƏT TƏRKIBI-Hər hansı dildə olan bütün sözlərin məcmuyu. Lüğət tərkibinin daxilində əsas lüğət fondu mühüm yer tutur» [1, 153].

«İzahlı dilçilik terminləri» kitabında müəlliflər kursiv məqsədilə baş sözləri böyük hərflərlə vermişlər. Burada baş sözdən sonra ayırma üçün əlavə olaraq «tire» işarəsindən istifadə olunmuşdur. Tire baş sözlə izahı ayıran demarkasiya xətti funksiyasını yerinə yetirir. Onu da qeyd edək ki, Azərbaycan dilində tərtib olunan lüğətlərdə «tire» işarəsinin işlədilməsinin bir səbəbi də vardır. Bu səbəb lüğətlərin rus dilində olan lüğətlərə uyğunlaşdırılmasından irəli gəlir. Rus dilində bu durğu işarəsi müəyyən mövqelərdə «**это**», «**есть**», «**являеться**» sözlərinə uyğun mənanı verir və rus leksikoqrafiyasında «tire» həmin məqsədlə istifadə olunur. Məsələn: «**СИМВОЛ** (от греч.

Сймболон-знак, опознавательная примета)-идея, образ или объект, имеющий собственное содержание и одновременно представляющий в обобщенной, неразвернутой форме некоторое иное содержание» (4, 168). Bu lüğət məqaləsində iki dəfə «tire» işarəsindən istifadə olunmuşdur. Birinci halda «tire» işarəsindən sonra yunan dilində olan sözün mənasının izahı verilir. Baş söz tire və sonrakı izah bir yerdə götürüldükdə izah tamamlanır, predikasiya qazanır. Burada «tire» predikasiya ünsürü rolunu oynayır. Rus dilində cümlədə «**есть**» və ya «**являеться**» sözləri buraxılır, onların yerinə tire işarəsi qoyulur. Bu halda tire cümlənin predikativi funksiyasının yerinə yetirir. Deməli, lüğətdə istifadə olunmuş «tire» işarəsi daha çox predikativliyin əldə olunmasına xidmət edir. Eyni zamanda, bu işarə assosiativ olaraq baş sözü ayırma vasitəsi təsiri də bağışlayır. Bəzi lüğətlərdə bu ayırma işarəsi (tire) olmur. Məsələn, O.Axmanovanın lüğətində baş sözdən sonra tire qoyulmur. Rus dilində tirenin cümlədə oynadığı rol ondan sonrakı sözün kiçik hərflə yazılmasını əsas verir. Azərbaycan dilində isə baş sözlə izah hissəsini ayıran tiredən sonra məlumat böyük hərflə başlanır. Məsələn,

«LEKSIKOQRAFIK SÖZLƏR-Əsas nitq hissələrinə məxsus «avtosemantik» sözlər.

LEKSIKOQRAFIK IŞARƏ-Lüğət maddəsində qeyd olunub onun leksik, qrammatik və üslubu səciyyəsini əks etdirən şərti ixtisarlar. **Qrammatik leksikoqrafik işarə**-Lüğətdə sözün qrammatik səciyyəsini əks etdirən leksikoqrafik işarə: *bağl* (bağlayıcı), *əvəz.* (əvəzlik), *əd.* (ədat), *z.* (zərf), *miqd. s.* (miqdar sayı). **Üslubi-leksikoqrafik işarə**-Lüğət maddəsinin üslubi xüsusiyyətini əks etdirən leksikoqrafik işarə: *qəd.* (qədim söz), *dan.* (danışıq dilində), *zar.* (zarafatla), *kit.* (kitab dilində işlənən söz). **Xüsusi leksikoqrafik işarə**-Lüğət maddəsinin hansı həyati, elmi sahəyə aid olduğunu əks etdirən leksikoqrafik işarə: *dəniz.* (dənizçilik), *opt.* (optika), *iqtis.* (iqtisadi), *məd.* (mədən işləri) [1, 150]. Bu cür yazılış tirenin predikasiya ünsürü deyil, ayırma elementi olduğunu təsdiq edir. Nümunələrdə baş sözdən sonra verilən məlumat cümlə şəklində tam formalaşdırılmamışdır. Onlarda xəbər yoxdur. Buna baxmayaraq, adresat onu cümləyə qədər tamamlayır. LEKSIKOQRAFIK IŞARƏ-Lüğət maddəsində qeyd olunub onun leksik, qrammatik və üslubu səciyyəsini əks etdirən şərti ixtisarlardır. Yaxud: Lüğət maddəsində qeyd olunub onun leksik, qrammatik və üslubu səciyyəsini əks etdirən şərti ixtisarlara LEKSIKOQRAFIK IŞARƏ deyilir. Tamamlanmamış cümlə şəklində verilən məlumatlardan sonra nöqtə qoyulması da izahın tamamlanmasının assosiativ göstəricisidir. Lüğət kommunikasiyasında baş söz lüğət müəllifinə ünvanlanmış sualın tərkib komponentidir. Yuxarıdakı nümunədə lüğət müəllifi «LEKSIKOQRAFIK IŞARƏ nədir?» sualına cavab verir. Əgər müəllifin nitq aktında soruşulan təkrar olunarsa, onda cavab üçün «LEKSIKOQRAFIK IŞARƏ lüğət maddəsində qeyd olunub onun leksik, qrammatik və üslubu səciyyəsini əks etdirən şərti ixtisarlardır» konstruksiyasından istifadə olunması lazım gəlir. Bu konstruksiyada kəmiyyətə görə uzlaşmanın pozulması da lüğətin spesifikasından irəli gəlir. Lüğətdə baş sözün təkrarlanmasına yol verməmək, eləcə də lüğət məqaləsinin həcmini genişləndirməmək məqsədilə lüğət kommunikasiyasında əsas komponent fərqləndirilərək qeyd olunur və onun izahı müəyyən sintaktik struktura, xüsusi halda təsəvvür edilən predikativ formaya salınır. Lüğətdə baş sözü ayırmaq üçün tiredən istifadə olunmadığı hallarda yazılışda ümumi ardıcıllıq saxlanılır. Baş sözlə izah probellə (iki söz-forma arasındakı boşluq) ilə bir-birindən ayrılır.

Baş sözün baş hərflərlə yazılması və ondan sonra nöqtə qoyulması halında kursiv funksiyasını həm böyük hərflə yazma, həm də qaraltma yerinə yetirir. Nöqtə ayırmanı bildirir. Məsələn,

«**СЛОВАРЬ. 1**. *англ*. vocabulary, *фр*. vocabulaire, *нем*. Wortschatz, *исп*. vocabulario. Совокупность слов данного языка, территориального или социального диалекта; та часть общего словарного состава языка, которая отличает язык того или другого писателя. Литературного направления и т. п.; *ср*. лексика. *Словарь активный*. *Словарь пассивный»* [5, 420].

O.S.Axmanovanın lüğətində baş sözlə bağlı bir sıra məqamlar diqqəti cəlb edir. Məsələn, yuxarıda verilmiş nümunədə baş sözdən sonra nöqtə qoyulmuş, bundan sonra ərəb rəqəmi ilə «1.» qeydindən istifadə edilmişdir. Sonra kiçik hərflərlə və çəpinə verilmə kusivi ilə qısaltma qeyd və ona uyğun söz yazılmışdır. Birinci izahdan sonra abzasda «2.» rəqəmi ilə başlanan lüğət məlumatı verilir.

«**2**. (*лексикон). *англ*. dictionary, word-book, фр. Dictionnaire, *нем*. Wörterbuch, *исп*. Diccionario. Книга, содержащая систематическое описание словаря (в 1 знач.). *Словарь академический*, *Словарь акцентологический*. *Словарь идиом*. *Словарь иностранных слов*. *Словарь исторический*. *Словарь многоязычный*. *Словарь нормативный*. *Словарь орфографический*. *Словарь орфоэпический*. *Словарь отраслевой*. *Словарь политехнический*. *Словарь синонимов*. *Словарь-справочник*. *Словарь терминологический*. *Словарь узкоотраслевой*. *Словарь языка писателя*. Словарь двуязычный… Словарь диалектологический… Словарь дифференциальный… Словарь идеологический… Словарь одноязычный… Словарь паремиологический… Словарь переводной… Словарь толковый… Словарь филологический… Словарь фразеологический… Словарь частотный… Словарь школьный… Словарь энциклопедический… Словарь этимологический… В словаре иллюстрации *см*. иллюстрации в словаре [5, 421].

Hər şeydən əvvəl, qeyd edək ki, nümunədə tərkibdəki kursivli vahidlərin hamısının verilməsində məqsəd leksikoqrafiya terminlərinin göstərilməsidir. Bu terminlər rus dilinin leksikoqrafiya terminologiyası sisteminə daxil olur və təbii ki, onların Azərbaycan dilindəki qarşılıqları Azərbaycan dilində leksikoqrafiya terminologiyasına daxil olacaq terminlər olacaqdır. Nümunədə iki bənddə baş sözdən sonra verilən materialı müqayisə etdikdə ayrı-ayrı mənalardan bəhs olunması aydınlaşır. Bu halda lüğət sözünün başqa dillərə tərcümələri də fərqli terminlərlə ifadəsini tapır. Deməli, rəqəm baş sözün fərqli, mənalarda olmasını göstərmək məqsədilə istifadə edilmişdir. Bu cür yerləşdirmə omonim sözlərin lüğətdə düzülüşünə qismən uyğun gəlir. O.S.Axmanovanın terminoloji lüğətində baş söz kimi verilən terminlərin ingilis, fransız, alman və ispan dillərinə tərcümələri verilir. Bu da lüğətin həm tərcümə lüğəti, həm də izahlı lüğət kimi iki funksiyanı yerinə yetirməsinə imkan yaradır. Əslində bu, çoxdilli izahlı terminoloji lüğətdir. Həmin lüğətdə bilavasitə baş sözdən sonra nöqtənin qoyulması iki halda özünü göstərir. Birinci hal omonim mənaları ayırmaq məqsədi daşıyır. Nöqtə ilə ayırma ikinci halda baş söz kimi verilmiş bir lüğət vahidindən başqa bir baş sözə istinad zamanı üzə çıxır. Bu da terminin variantlarının mövcud olduğunu təsdiq edir. Baş söz deyəndə lüğət məqaləsi, əksinə lüğət məqaləsi deyəndə baş söz yada düşür. Baş söz lüğətin sol, lüğət məqaləsi isə sağ tərəfidir. Sol tərəf lü-

ğətdə haqqında danışılan, sağ tərəf sol tərəf barədə deyiləndir. Başqa sözlə desək, sol tərəf mübtədadır, sağ tərəf isə xəbərdir. Baş sözə üç aspektdən baxmaq lazımdır: 1. Lüğət məqaləsinə arayış ədəbiyyatının janrı kimi; 2. Lüğət məqaləsinə xüsusi dil və müxtəlif semantik vasitələrin kommunikasiya vasitəsi kimi uyğunlaşması; 3. Lüğət məqaləsinə xüsusi funksional və fərdi üslubi birlik kimi. Baş sözü verbal olaraq 4 formada mənalandırmaq olar: 1.Sözün ana dilə izahı; 2. Alınma sözlərin ana dilinə tərcüməsi; 3. Öyrənilən dilin sözlərinin ana dildə təsviri; 4. Sadalanan metodların müəyyən kombinasiyası. Baş söz, ona verilən izah və təsvir, mənalandırma, illüstrasiya-bunların hamısı birlikdə lüğət məqaləsini yaradır. Lüğət məqaləsinin əsas komponentləri bunlardır: 1.Baş söz; 2.Baş sözün formal səciyyəsi (qrammatik, orfoqrafik, orfoepik və s.); 3.Onun mənalandırılması; 4. Illüstrasiya üçün material, sitat gətirmə; 5.Müxtəlif səciyyəli və vəzifəli arayışlar; 6. Işarə etmə. «Baş söz» və «lüğət maddəsi» fərqli anlayışlardır. «LÜĞƏT MADDƏSI-Lüğətdə baş sözü izah və şərh edən məqalə»[1, 153]. «Lüğət maddəsi» termini O.S.Axmanovanın lüğətinə daxil edilməmişdir. D.E.Rozental və M.A.Telenkovanın lüğətinə isə rus dilində termin və onun eyni izahı, eləcə də «lüğət yuvası» anlayışı daxil edilmişdir [2, 395-396]. “Lüğət yuvası” termini Azərbaycan dilindəki lüğətdə də yer alır və eyni şəkildə izahlanır. [1, 153].

Rus dilindəki «**статья**» sözü çoxmənalıdır. Onun «maddə», «məqalə» kimi mənaları vardır. Maddə və məqalə terminoloji səviyyədə götürüldükdə tamamilə fərqli anlayışları ifadə edir. Azərbaycan dilindəki lüğətdə «lüğət maddəsi» düzgün izah olunmur. Burada «lüğət məqaləsi» terminin izahı verilmişdir. Fikrimizcə, tərtibçilər D.E.Rozental və M.A.Telenkovanın lüğətinə daxil edilmiş termini tərcümə edərkən «**статья**» sözünün «maddə» qarşılığını seçmişlər. Bu isə yanlış izaha yol açmışdır. Qeyd etdiyimiz kimi, leksikoqrafiyaya dair tədqiqatlarda «baş söz» və «lüğət maddəsi» terminlərinin sinonim, substitut və dublet kimi işlədilməsi qeydə alınır. Lakin bunlar fərqli anlayışları ifadə edən terminlərdir. «Lüğət maddəsi» anlayışı «baş söz» anlayışı ilə birbaşa bağlılığa malikdir. Lakin «lüğət maddəsi» daha genişdir. «Lüğət maddəsi» baş sözə aid bir sıra əlavə məlumatları özündə birləşdirir. Bunu konkret nümunələr əsasında izah etməyə çalışaq. «İzahlı dilçilik terminləri» lüğətində baş söz mövqeyində verilmiş «ANTROPONIMIK LEKSEM (ANTROPOLEKSEM) [1, 21]; «ANTROPONIMIK FORMANT (ANTROPOFORMANT, ANTROPONIMIN FORMANTI)-» (1, 22); Əl-HƏRƏKƏT DILI (GINETIK DIL) [1, 106]; «LƏFVÜ-NƏŞR (LƏF VƏ NƏŞR)»[1, 151]; «MÜRƏKKƏB IXTISAR (SÖZ)» [1, 178]; «SAMIT (SƏS)» [1, 230]; «UZAQ KEÇMIŞ (ZAMAN)» [295]; «QƏTI GƏLƏCƏKLI KEÇMIŞ (zaman)» [1, 52]; «QLAQOLITSA (rus)» [1, 52] və bu formada yazılmış baş söz mövqeyində verilmiş «tire» işarəsi ilə izah hissəsindən ayrılmış vahidlər vardır. Bu vahidlər baş söz anlayışına verilən tərifdən kənara çıxır. Çünki onlarda mötərizə daxilində baş söz oblastına daxil edilmiş əlavə element vardır. ««ANTROPONIMIK LEKSEM» baş sözdür. Ondan sonra mötərizədə verilmiş «ANTROPOLEKSEM» bu baş sözün dubletidir və «antroponimik leksem» termininin birinci komponentin bir hissəsi və ikinci komponentin birləşdirilməsi şəklində formalaşmış (antropo + leksem) ixtisar formasıdır. «Əl-HƏRƏKƏT DILI» və «GINETIK DIL» də eyni anlayışı bildirən termin variantlarıdır. Baş söz mövqeyində «LƏFVÜ-NƏŞR (LƏF VƏ NƏŞR)» şəklində konstruksiyada mötərizə daxilində izafətin açılmasına xidmət edir. «MÜRƏKKƏB IXTISAR (SÖZ)» və «SAMIT (SƏS)» vahidlərində mötərizədə veri-

lən baş sözün nəyə aid olduğunu göstərir. Mürəkkəb ixtisar sözdür. Lakin bütün sözlər ixtisar deyildir. Samit səsdir. Lakin bütün səslər samit deyildir. «Samit səs», «sait səs» termin-söz birləşmələri müvafiq olaraq samit və sait terminlərinə uyğun gəlir. Ancaq «mürəkkəb ixtisar söz» ayrılıqda götürüldükdə termin deyildir. «QLAQOLITSA(rus)» burada mötərizə daxilindəki «rus» baş sözün hansı dildən götürüldüyünü göstərir. «UZAQ KEÇMIŞ (ZAMAN)», «QƏTI GƏLƏCƏKLI KEÇMIŞ (zaman)» vahidlərində mötərizə daxilində verilmiş «zaman» sözü söhbətin «UZAQ KEÇMIŞ» və «QƏTI GƏLƏCƏKLI KEÇMIŞ» anlayışlarından getdiyini deyil, məhz «UZAQ KEÇMIŞ ZAMAN» və «QƏTI GƏLƏCƏKLI KEÇMIŞ ZAMAN» anlayışlarından getdiyini göstərir. O.S.Axmanovanın lüğətindən üç nümunəni nəzərdən keçirək. Nümunələrdən birincisi terminin variantının ayrıca verilməsini göstərir və bu zaman izah məqsədilə yönəltmə üsuluna müraciət olunur.

«**ЗАГЛАВНОЕ СЛОВО**. То же, что заглавочное слово» [5, 150]

«**ЗАГОЛОВОЧНОЕ СЛОВО** (заглавное слово) *англ*. vocable. Слово как элемент словника (вокабула, черное слово), разъясняемое в словарной статье, выделяемое особым шрифтом и помещаемое в соответствии с принятой в данном словаре схемой расположния (алфавитной, тематический и т. п.).

«**СЛОВНИК** *англ*. word-list. Список слов, подлежащих словарной обработке; совокупность заголовочных слов в словаре. Словник нормативный, Словник типовой» [5, 422].

Ikinci nümunədə baş söz mövqeyində «**ЗАГОЛОВОЧНОЕ СЛОВО** (заглавное слово) *англ*. vocable.» yazılmışdır. Burada təbii ki, baş söz «**ЗАГОЛОВОЧНОЕ СЛОВО**» olacaqdır. Lakin baş söz mövqeyində «(заглавное слово) *англ*. vocable.» də məlumatı vardır və izah bundan sonrakı hissəni əhatə edir. Üçüncü nümunədə «**СЛОВНИК** *англ*. word-list.» baş söz mövqeyindədir. Burada baş söz «**СЛОВНИК**» sözüdür. Baş söz mövqeyində yer alan «anql. word-list.» baş sözün ingilis dilinə tərcüməsidir.

D.E.Rozental və M.A.Telenkovanın lüğətindən də bir nümunəni nəzərdən keçirək: «**интервокальный** (лат. inter-между + vocalis-гласный) **согласный**. Согласный, находящийся между двумя гласными, с чем могут быть связаны его фонетические свойства и тенденции развития в некоторых языках» [2, 131].

Bu nümunədə baş söz mövqeyində «**интервокальный** (лат. inter-между + vocalis-гласный) **согласный**» verilmişdir. Baş söz və ya izah ediləcək termin «**интервокальный согласный**» olacaqdır. Baş sözün birinci komponentindən sonra mötərizədə verilmiş «(лат. inter-между + vocalis-гласный)» hissəsi baş sözün birinci tərəfini aydınlaşdırır.

Nümunələrdən aydın olur ki, lüğətlərdə baş söz bəzən tək halda deyil, müəyyən əlavələrlə işlənir. Baş söz bu cür əlavələr baş söz kompleksini təşkil edir. Baş söz və onun əlavəsi bir yerdə «lüğət maddəsi» adlandırılmalıdır. Mövcud ədəbiyyatda biz belə bir anlayışa rast gəlmədik. Belə hesab edirik ki, «lüğət maddəsi» və «baş söz kompleksi» anlayışları ilk dəfə olaraq bu işdə elmi dövriyyəyə daxil edilir.

Alınma terminin təşkilediciləri, yaxud komponentlərindən biri (bir neçəsi) alınma mənşəli olduqda bunların izahı verilir. Göstərilən məlumatların lüğət maddəsində tam şəkildə ifadəsini tapması müəyyən çətinliklər törədir. Bu, bir tərəfdən, lüğət maddəsindəki mətnin həcminin genişlənməsi ilə bağlıdırsa, digər tərəfdən, hər variant üçün

müvafiq məlumatların toplanması ilə əlaqədardır. Fikrimizcə, etimoloji məlumat dominant və ya digər variantlarla müqayisədə nisbətən çox işlənən bir variant üçün verilməsi kifayətdir. İzahlı terminoloji lüğətlərdə terminin köhnəlmiş və arxaikləşmiş termin və ona uyğun gələn təriflər lüğətin məqsədindən asılı olaraq istifadə olunur. Bəzən terminin köhnəlməsi haqqında qeydlə kifayətlənmək mümkündür. Bu məlumatların, habelə transkripsiyanın da lüğət maddəsinə daxil edilməsi məqsədəuyğundur.

QAYNAQLAR

1. Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı, Maarif, 1989, 364s.
2. Розенталь Д.Э., Теленкова М.А. Словарь-справочник лингвистических терминов. Москва, Просвещение. 1976, 543 с.
3. Həsənov H. Azərbaycan lüğətçiliyinin nəzəri əsasları. Bakı, BU nəşri, 1978, 336s.
4. Горский Д.П., Ивин А.А., Никифоров А.Л. Краткий словарь по логике. Москва, Просвещение, 1991, 208 с.
5. Ахманова О.С. Словарь лингвистических терминов. Москва, Изд-во Советская Энциклопедия, 1966, 608 с.

Понятия «заголовочное слово» и «словарная статья» в лексикографии

Резюме

В статье обосновываются формирование и развитие терминологической системы лексикографии, в результате разделения этой области науки в лингвистике. Выводится на передний план, вариативность терминов этой системы, их синонимичность, использование их в научных текстах как субститут и дублеты. дается сравнительный анализ двух из этих терминов-«заголовочное слово» и «словарная статья», определяется их точная дефиниция.

The conceptions of “head word” and “dictionary article” in lexicography

Summary

In the presented article as a result of separation of lexicography in linquistics as a seperate scintific direction and the development of formation of its terminological system is based on. Some terms having variants in this terminological system, using of term varinats as synonym, substitue and doublet in scientific texts are put forward. The comprative analyses of two terms, like “head word” and “dictinary article” and their exact definition are also determined in the article.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Elçin İSMAYILOV
AMEA Nəsimi adına Dilçilik İnstitutu
Zəminə GÜLÜSTANİ
Mingəçevir Dövlət Universiteti

AD VƏ AD

Açar sözləri: *ad, toponim, labaz, təxəllüs, Şirvan*
Ключевые слова: *антропоним, имя, куня, прозвищ, псевдоним.*
Keywords: ethimology, anthropology, labaz, nickname, Kanaan

Hər bir dilin lüğət tərkibinə nəzər saldıqda onun onomastik vahidlərin özünəməxsusluğu bədiiliyi və eyni zamanda qohum dillərin onomastik vahidləri ilə olan ümumi cəhətləri diqqəti cəlb edir. Lakin bununla belə bir dilin onomastik sistemi mütləq qaydada yalnız onun özünə məxsusdur.

“Xüsusi adlar dilin lüğət tərkibində mühüm yer tutur. Bununla əlaqədar olaraq xüsusi adları ümumi sözlərlə məşğul olan elmi üsullar tətbiq etməklə araşdırmaq mümkün deyil və hazırda dilçilikdə elmi ixtisaslaşma mövcuddur, Belə ki, ümumi sözlərlə leksikologiya elmi, xüsusi adlarla isə onomastika məşğul olur”. (l, səh.246)

Antroponimlər dilçiliyin maraqlı bölməsi olmaqla, həm nəzəri, həm də praktik baxımdan daçox önəmlidir. Belə ki, bu sahə uşaqiarımıza ad qoyarkən faktiki olaraq hər kəsin müraciət etdiyi, bəlkə də yeganə dilçilik sahəsinə çevrilir. Antroponim və şəxsi ad, yaxud adlar topiusudur ki, şəxsə rəsmi şəkildə aid olur və yalnız orıa məxsusdur, bir insanın kimliyinin atributudur.

Dildəki antroponimlərin rolu və vəzifəsi eyni deyildir. Müxtəlif tarixi dövrlərdə cəmiyyətdə işbdilən antroponimlər bir-birindən fərqlənmişdir.

Müasir Azərbaycan dili zəngin aıitroponomik leksikaya malikdir. «Azərbaycan antroponimləri sistemini təşkil edən onomastik vahidlər cərgəsində şəxs adları xüsusi yer tutur. Şəxs adı cəmiyyətdə insanın birinin digərindən fərqləndirilməsi üçün şərti işlədilən sözə deyilir».(l, s. 164, 171)

Ad şəxsə məxsusdıır (konkret halda); ad rəsmən şəxsin heç bir fiziki xüsusiyyətini ifadə etmir; adlarda konservatizm meylləri güclüdür, eyni zamanda burada novatorluq da diqqəti cəlb edir.

Azərbaycan şəxs adlarınm-antroponimlərin toponimlərlə, hidronimlərlə, zoonim, oykonim, oronim, kosmonim, ümmən bütün onomastik vahidlərlə qarşılıqlı əlaqələri mövcuddur.

Azərbaycan xalqı arasında Şamaxı toponimi ilə bağlı çoxlu rəvayətlər dolaşmaqdadır. Şiravanşahlar dövlətinin, Şirvan əyalətinin, Şirvan xanlığının, Şamaxı Quberniyasının, əsas şəhəri, baş kənd olan bu qədim şəhər ipək yolunun üstündə yerləşirdi və öz dövrü üçün “sayılıb-seçilən” şəhərlərdən idi. Şəhər əhalisi öz dövrü üçün çox idi. Bəzən əhali o qədər artırdı ki, şəhərin bu əhalini qida məhsulları ilə təmin etməyi çətin-

ləşirdi, dəfələrlə zəlzələlər nəticəsində dağılsa da yenə öz əhəmiyyətini itirmirdi. Bu şəhər özünün iqtisadi, hərbi, mədəni əhəmiyyətini son dövrlərə qədər qoruyub-saxlaya bilmişdi. Şəhərin adına gəldikdə isə bir çoxları Şamaxını "Şam Əxi" yəni şama qardaş, Şamın qardaşı kimi izah edir. Ədalət naminə qeyd etmək lazımdır ki, bu variant xalq arasında daha dolaşmaqdadır. Lakin bəzi mənbələr bu toponimi ərəb sərkərdəsi və şəhərin banisi olan Şamax adlı bir nəfərin adı ilə əlaqələndirir və şəhərin onun tərəfindən islamiyyətin ilk illərində salındığını iddia edir.

Şirvan əyalətinin adına gəldikdə isə bu etno-toponim zərdüştlik zamanından qalma təshihatdır.Şirvan Azərbaycancanın mərkəzində yerləşən əsas əyalət olduğu kimi, qəti şəkildə deyə bilərik ki, həm də şəxs adı kimi ən çox yayılan onomastik vahidlərdən biridir.

Antroponimlk sistemə daxildir: adi soy adı, ləqəb, künyə (təxəllüsü də nəzərdə tuturuq). Məsələn, Əbu Əli İbn Sina, İlyas Yusif oğlu Nizami Gəncəvi, Xacə Nəsirəddin Tusi, Mustafa Kamal Atatürk, Fətəli Xan Xoyski, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov, Əbülfəz Elçibəy, Xəlilrza Ulutürk və s.

Ərəb islam mədəniyyətinin fəslrl ilə VII əsrdən başlayaraq türk antropommləri ərəb təsiri ilə müəyyən mənada aşılanmaya-tənəzzülə məraz qaldı. Altaylardan üzü Avropaya qədər müsəlmanlaşan türk xalqlarının məişətinə milli türk adları ilə paralel işlənərək əksər hallarda dominantlıq qazanan ərəb adları da daxil oldu. Ərəb adlarından danışarkən isə bu adlarm bəzi özəlliklərini mütləq qeyd etmək yerinə düşər. Yəni onların bir addan çox ad sistemi kimi qavranılmasını qeyd etməliyik. Ərəb ad sistemi olduqca maraqlı və çoxçeşidlidir. Bu məsələyə nəzər salmağa çalışaq.

Alam ərəb adının ilkin forması, yəni əsas hissədir. Bu komponentə heç bir əlavə artırılmır və bi elementdən ibarətdir. Məsələn, Məhəmməd, Əli, Hüseyn Abdullah və s.-Nəsəb-bu element insanın atasının və babasının kimliyini bildirir. Məsələn, Məhəmməd ibn Abdullah ibn Əbdülmütəllib ibn və s. Bu ad elemnti ibn, bin və bint hissəcikləri ilə yaradılır. Bəzən insanın daşıdığı vəzifə göründüyü işlə əlaqədar olaraq. Fəxri ad da qazanır. Bunları ləqəbdə saymaq olar. Məsələn, Atatürk, Kamalüddövlə, Türkmənbaşı.-Künyə elementi şəxsin kimin atası yaxud anası olduğunu bildirməklə *əbu* və *ümm* hissəcikləri ilə yaranır: Əbülqasim ümm Gülsüm və s. Künyənin bir qədər şərtlik çaları da çövcuddur. Belə ki, insanlara həm yaxşı, həm də pis mənada künyə yaraşdırılır. Məsələn, Əbuxeyr, Əbuzər, Əbufərəh yaxşı mənada, Əbusək, Əbukəlb, Əbu Xurayra pis mənada. Ləqəb isə insanlara verilən əlavə addır. Bu ad forması əsasən tanınmış inanlara-şair, yazıçı, dövlət xadimlərinə verilir. Bundan başqa bəzi cəhətlərinə görə də insanlara ləqəb verilir. Məsələn, Uzun Həsən, at Balaxanım və s.

Azərbaycan şəxs adları içərisində sadaladığımız bütün ad formalarına rast gəlsək də, ən çox ləqəblərlə üzləşirik. Yəni əvvəllər ləqəb olmuş sonradan ada çevrilmiş antroponimlər dilimizdə daha çoxdur. Məsələn, Nizami, Fizuli, Xətai və s. Bundan başqa ərəb dilində Nisbə, Labas, Xitab, Təxəllüs kimi ad formalarına da rast gəlirik. Bu. tip antroponimlər bizim dilimizdə milli ad kimi bir qayda olaraq işlənmir. Amma bununla belə bu tip ad komponentlərinə soyad şəklində rast gəlirik. Məsələn, Gəncəvi, Beyləqani, Şirvani, Göyçaylı, Fəhmi, Xəmneyi. Hətta qrupa variantı ilə Şuşinski, Şəkinski, Naxçivanski və s.

Bəzən nəsil adı kimi işlənən antroponimlərə də rast gəlinir. Belə antroponimlər ad, yaxud soyad deyil, bir qayda olaraq nəsil bildirir. Məsələn Gəncəli, Şəkili, Əhmədlilərdən, Qara Abbaslılardan, Nazarlılardan və s.

«Ad şəxsin xüsusiyyətlərini daşımır» dedikdə biz insanın bu və ya digər fiziki və mənəvi özəlliyi ilə onun adı arasında bağlılığını olmadığını nəzərə çatdırmaq istəyirik. Məsələn, Böyükağa balaca, Kiçikxanım ucaboy ola bilər. Yaxud Alim adı daşıyan alim, Knyaz adı daşıyan da knyaz deyil və s.

Adlarda konservatizm ona görə güclüdür ki, bir sıra adlar konkret tarixi şəxsiyyətlərlə-qəhrəmanlar, peyğəmbərlər, dini baxımdan imtiyazlı şəxs adları ilə bağlıdır. Həm də insanlar öz ata-analarının, qohumlarının, hətta özlərinin adlarım bu yola, yəni körpələrə verməklə yaşatmaq istəyirlər. Bir səbəb də, əlbəttə, ənənəvi adların bəzilərinin estetik gözəlliyi ilə bağlıdır. Məsələn, Məhəmməd, ƏM, Hüseyn, Həsən, Fatimə, Ramil, Əlif, İlham, Fərizə, Rəşad, Aynur, Elxan, Orxan adlarında söylədiyimiz fikir müşahidə edilə bilər.

Şəxs adlarında novatorluqdan danışarkən ilk növbədə burada həm mənfi, həm də, müsbət meyllərin duyulduğu diqqəti cəlb edir. Məsələnin müsbət tərəfi məlumdur. Əgər dilimizin leksik-semantik imkanlarından istifadə edərək təzə bir ad yaradılırsa, bu, dilimizi zənginləşdirməklə yanaşı, özümüzə, öz dilimizə xidmət etməkdir. Bu baxımdan Anarın, Elçinin, Kamal Abdullanın və başqalarının xidmətləri danılmazdır. Elə adi vətəndaşlar da öz övladlarına Aysu, yağmur kimi adlar qoymaqla bu işi yerinə yetirmiş olur.

Yeni milli ad həyat tərzində baş verən dəyişikliklərlə bağlı olur (2, s. 9). Yeni həyat tərzinə keçilməsi ilə tarixin müxtəlif dövrlərində formalaşmış və dildə özünəməxsus mövqeyə malik olan ərəb, fars, rus və s. Mənşəli, dilin fonetik tərkibinə uyğunlaşmayan mürəkkəb adlar əvvəlcə funksionallığını itirmiş, sonra isə arxaik sözlər kimi işləklikdən çıxmış, onların yerini yeni səs tərkibinə görə sadə və anlaşıqlı adlar tutmuşdur. Elşən, Şahin Vüqar, İradə, Emin və s. (3, s. 53).

Yeni soyadlarının yaranmasında da fərəhləndirici məqamlat çoxdur. Soy adlarımızda milli komponentlərin bərpası, bir növ milli kimliyimizin atributlarının bir hissənin, bərpasə deməkdir.

Təəssüf ki, novatorluq bəzən dilimizin inkişafına xidmət etmir. Yaxın keçmişdə qoyulmuş Kombayn, Traktor, Kolxoz adları kimi, bu gün verilən ozal, İzaura, Ram, Şam, Rac kimi qeyri-təbii "yeni" adlar da gülüncdür.

Təbii ki, biz onomastik vahidlərin qarşılıqlı əlaqələrindən danışarkən antroponimlə toponimlərin qarşılıqlı əlaqəsinə daha çox diqqət ayırmalıyıq. Çünki burada tədqiq ediləsi və diqqət veriləsi məqamlar daha çoxdur.

a) Toponimlərdən düzəlmiş antorponimlər. Azərbaycanda toponimlər yer və şəhər və ölkə adlarının insanlara verilməsi lap qədimdən mövcuddur. Bu hala demək olar ki, bütün dünya xalqlarında bu və ya digər formada rast gəlinsə də, Azərbaycanda bu daha aktualdır. Məsələn, Şirvan-Şirvan regionu, Lənkəran-rayon və rayon mərkəzi, Şəki-şəhər və rayon mərkəzi, Naxçıvan-muxtar respublika, Quba-şəkər və rayon mərkəzi, Təbriz-şəhər, Tehran-şəhər, Tiflis-şəhər, Nəcəf-şəhər, Riyad-şəhər, Mədinə-şəhər, Gülüstan-kənd, Turan-türk yurdu, Misir-ölkə, Kənan-Qədim Finikiyanın müsəlman variantı, Gürcüstan-ölkə, Dağıstan-Muxtar Respublika, Ellada-Qədim Yunanıstan, Fərqanə-Özbəkistanda vilayət, Tatar-millət adı, Özbək-millət adı, İngilis-millət adı və s. Bu şəxs adlarının məzmununa nəzər salaq. Misir, Kənan Ellada zəngin ölkələr olduğundan ad qoyan da verdiyi adın daşıyıcısının arzulayıb. İstəyib ki, bu adı daşıyan uşaq gələcəkdə həmin ölkələr kimi zəngin olsun. Tatar, Özbək, Dağıstan, İngilis adları isə qüdrət rəmzidir. Bu ərazilərin bu və ya digər müsbət cəhətləri ilə məşhurdurlar. Fərqanə də orta Asiyanın ən zəngin və gülçiçəkli regionlarındandır. Təbriz,

Tehran adları bizim cənub həsrətimizi ifadə edir. Quba, Lənkəran, Şirvan isə vətənə sevgimizdir.

Antroponimlərimizin arasında dağ, çay və dəniz adları ilə bağlı adlara da təsadüf edirik. Qoşqar, Kəpəz, Savalan, Səhənd, Elbrus, Kazbes, hətta Qafqaz kimi dağ adları ilə yanaş, Araz, Yenisey, Ceyhun, Seyhun kimi çay adları və Xəzər dəniz adı dilimizdə bu gün şəxs adı kimi də işlənməkdədir.

Şərqdə ənənəvi olaraq göy cisimlərinin adları həmişə körpələrə, xüsusən də qız uşaqlarına verilir. Zöhrə, Günəş, Aftab, Xurşud, Ülkər, Mehr, Qəmər, Aygün, Günay, Ulduz, Ülkər, Sitarə adları bu qəbildəndir.

Burada daha bir məqama da diqqət vermək lazımdır. Dünyada toponimlərin antroponimlərə çevrilməsi kimi, əksinə antroponimlərin də toponimlərə çevrilməsi geniş yayılmışdır. Bəzən onların yaranması tarixi hadisələr, bayramlara əlaqədar da baş verir. Məsələn, Novruz, Bayram, Qələbə. Oruc, Qurban, İnqilab, Qurtuluş, Barış adlarında olduğu kimi.

Hələ antik tarixçilərdən Plutarx 1 (bax: Plutarx. "Tarix") Afina, Roma və bir sıra qədim şəhərlərin adlarının tarixi şəxsiyyətlərin adları ilə bağlı olduğunu yazırdı. Ümumiyyətlə bu olduqca geniş yayılmış bir hadisədir. Konstantinopol, İskəndəriyyə, Vaşinqton, Sidney, Rustavi, Osmaniyyə kimi iri şəhərlərlə yanaşı daha kiçik yaşayış məntəqələri də bir sıra tarixi şəxsiyyətlərin adını daşımaqdır. Məs: Azərbaycanda Əlibayramlı, Sabirabad, Cəlilabad, Nərimankənd kimi toponimləri buna misal göstərə bilərik.

Bəzən adlar arasında hətta ərəb qəbilə adına da rast gəlirik ki, bu da Məhəmməd peyğəmbərin mənsub olduğu Qureyş qəbiləsinin adıdır. Əlbəttə, öz tayfa adlarımızı daşıyanlar daha çoxdur. Bizdə Əfşar, qaçar kimi adlara daha tez-tez rast gəlmək olar.

Ən qədim zamanlarda türk xalqları üçün Günəşin və Ayın xüsusi anlamı olmuşdur. Bu Şamanizm və Tanrıçılıqla bağlı məslədir. İstər "Divani-Lüğət it türk"də, istərsə də "Qurdadku bilikdə" Günəşlə və Ayla bağlı olan çoxlu ada rast gəlinir. Ümumiyyətlə, belə adlar, demək olar ki, bütün türk şifahi və yazılı abidələrində geniş yayılmışdır. Misallara diqqət verək:

A) Hələ qədim Altayda dünyanın yaranması haqqında əfsanədə ilk insanın adı "Ay Atandır". Onun oğlunun adı isə "Gündoğdu"dur. (5, s. 11).

B) Yusif Xos Nəsib. XI əsr qəhrəmanlardan biri "Aytoldu" adlanır.

C) Oğuz boyunun yaranması ilə əfsanədə Oğuz xaqanının oğlanlarının adı "Ay" və "Gündür".

D) "Manas Dastanı qəhrəmanlardan birinin adı "Altınay", o birinin adı "Ay-Çiçək"dir.

E) "Kitabi Dədə-Qorqud"-da "Qaragünə" də rast gəlirik.

F)Yusif Balasaqunlnun əsərində olan «Ay»-a, «Aydoldu», «Gün», «Gündoqdu» adlarına bu gün də türkmənlərdə rast gəlinir.

Bu gün qırğızların «Kintuu», yəni «günlü», «Aytuu», yəni «aylı» adlı qəbilələri mövcuddur.

Bəzən başqa onomastik vahidlərin antroponimlərə çevrilməsi sırf təsadüfi xarakter daşıyır. Məsələn, adətən hansı körpəyə anadan olduğu konkret ərazinin adı verilir. Bizim doğma kəndimiz Muradxanda doğulan körpə və Muradxan adının verilməsinin şahidi olmuşam. «Bakinski raboçiy» qəzetinin əməkdaşı Ceyla İbrahimovanın da adı belə yaranıb və populyarlaşıb.

Ad qoyarkən diqqətli olmaq lazımdır, bəzən insanla onun adı arasında təəccüblü paralellər də yarana bilir. Övladlarımıza leksik-semantik və estetik baxımdan ləyaqətli adlar verməliyik.

Gəlin unutmayaq ki, peyğəmbərimiz də övlad borcundan danışarkən ilk növbədə onlara gözəl ad verməyi buyurmuşdur.

QAYNAQLAR

1. Axundov A. «Onomastik vahid, onun mahiyyəti və dil sistemində yeri», «Azərbaycan onomastikası problemləri». II APİ, Bakı, 1988, s.245-246.
2. Qurbanov A. «Azərbaycan dilinin onomalagiyası», «Maarif», Bakı, 1988.
3. Садыхов З.Н. «Личные имена в азербайджанском языке» АКД. Баку, 1975.
4. Xudiyev N. «Azərbaycan antroponimlərinin təşəkkülü və inkişafı». Azərnəşr, Bakı, 2005.
5. Bortold V.V. «Die historische Bedeutımder alturkischen in sehriften alt türkischen inschriften in der Monqolei». Neue folqe SRB 1897.
6. Велиханов Ч.Ч. «Следы шаманства у киркизов» СРБ 1904.

Ad və ad

Xülasə

Təqdim olunmuş məqalədə müxtəlif Azərbaycan dilində antroponimik vahidlərin qarşılıqlı inteqrasiya məsələlərinə toxunur, toponimin yer adına, əksinə adın toponiminə çevrilməsindən ədəbi təxəllüsün, künyəni labazın, ləqəbin, şəxs adlarına çevrilməsi məsələlərində danışır. Müəllif, həm də, məqalədə bu adların mənşəyi barədə də, lazımlı məlumatlar verir. Elmi müddəalarla çıxış edir.

Имя и имя

Резюме

В статье говорится о взаимовлиянии антропонимов и ономастических единиц. В частности рассматриваются вопросы происхождения антропонимов, роли других ономастических единиц в этимологии азербайджанских личных имен. Здесь освещаются вопросы влияния арабских имен на азербайджанские, а также прозвищ, псевдонимов и «кунья» на азербайджанские антропонимы.

Name and name

Summary

The article provides information on the mutual integration about antroponomik units. The author also explained the etymology of the names that spread in Azerbaijan.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Aynur MİRZƏYEVA

ELAM DİLİNİN TƏDQİQİ TARİXİ VƏ TƏDQİQATÇILARI

Açar sözləri: *xətti yazıları, mixi yazıları, təsərrüfat sənədləri, akkad, say sistemi.*
Ключевые слова: *иероглиф, клинообразные знаки, экономические документы, аккад, чистильная система.*
Keywords: *hieroglyph, cuniform, economic documents, akkadian, numeral system.*

Elam kitabələri, mifoloji mətnləri, təsərrüfat sənədləri XIX əsrin ortalarından tədqiqatçıların diqqətini cəlb etmişdir. A.Says, Q.Maspero, V.Masson, Z.Raqozina və b. Elam yazıları ilə maraqlanmışdırlar. Daha sonra V.Hints, F.Vaysbax Elamın mədəni və sosial həyatı ilə bağlı tədqiqatları davam etdirdilər (1.S.3-18; 2.S.68-76; 3.S.194-216; 4.S.3-192; 5.S.3-94; 6, 3, 276).

Azərbaycan tədqiqatçılarından Yusif Yusifov Elam tarixi ilə bağlı tədqiqatlar aparmışdır. O, Elam xətti yazılarının özünəməxsus xüsusiyyətlərinə toxunmasa da Assuriya və Babil mənbələrinə istinadən Elam təsərrüfat sənədləri üzərində işləmiş, ölkənin sosual-iqtisadi həyatına aid tədqiqat əsəri yazmışdır.

Y.B.Yusifovun Elamın sosial-iqtisadi həyatına did monoqrafiyası 1968-ci ildə Moskvada “Nauka,, nəşriyyatında çap olunmuşdur (7.S.3-407). Müəllif bundan xeyli sonra 1993-cü ildə Bakıda nəşr etdirdiyi “Qədim şərq tarixi,, kitabının bir fəslini Elamın iqtisadi, siyasi, mədəni həyatına həsr etdi (8.S.196-224).

İndiyədək yazılan monoqrafiya və məqalələr içərisində Azərbaycan dilçiliyi üçün ən əhəmiyyətlisi alman alimi Fridrix Vaysbaxın əsərləridir. F.H.Vaysbax ilk dəfə olaraq belə bir fikri əsaslandırdı ki, Elam dillərindən biri türk dillərinə qohumdur.

O, Baqastan yazılarının Anşan mətninin digər əhəməni yazılarında fərqləndiyini qeyd etdi. Sonra digər tədqiqatçılar şərti olaraq ikinci kateqoriya əhəməni mətnləri adlandırdılar. N.Y.Marr 1914-cü ildə nəşr etdirdiyi əsərində əsaslandırmağa çalışdığı ki, həmin yazının dili Yafəs dillərindən biridir (9.S.3-76). Ancaq Yafəs dillərinin türk dilləri ilə qatışıq olması barədə bir söz demədi.

Yafəs dillərinin formasından türk etnolinqvistik faktorunun elmi ictimaiyyətə çatdırılması R.İ.Şorun adı ilə bağlıdır. R.İ.Şor bu problemlə bağlı SSRİ Elmlər Akademiyasının humanitar elmlər bölməsində məruzə etdi (10.S.223-244).

Elam və yaxud elamit dili indiki İranın cənub-qərbində yerləşən qədim şərq xalqı olan elamların ölü dilidir. Elam mətnləri bizim eradan əvvəl 2400-350-ci illərə aiddir. Ümumi götürdükdə təxminən iki min ildən artıq tarixə malikdir

Elam dili qədim şərq dillərinin çoxu ilə qohum deyil: O. nə semit (məsələn, akkad), nə indo-german (xett) dillərinə aiddir. Ancaq onun Anşan mətni nə də qonşu şumer dili ilə qohumluq təşkil edir. Bəzi tədqiqatçılar Elam dilini ayrıca bir dil hesab

edir, digərləri onu hind subkontinentinin dravid dilləri ilə genetik əlaqəsi olduğunu düşünürlər. Əslində isə O, Şumer dilinə çox yaxın olub, öz morfoloji quruluşuna görə iltisaqidir.

Elam mətnləri üç fərqli yazı sistemində gerçəkləşmişdir ki, onlardan ikisi Mesopotamiya mixi yazı formasına gedib çıxır, üçüncüsü isə elamların özlərinin işləyib hazırladıqları xətti yazıdır. Həmin yazı ilə yalnız bir mətn arxeoloji qazıntılar zamanı aşkara çıxarılmışdır.

Elamın ən qədim tarixi haqqında məlumatlar azdır. Şumer və Akkad piktroqrafik yazılarındakı Elama aid olan ötəri məlumatlar, e.ö. IV minilliyin sonlarına aiddir. Bundan əlavə, Suziana və Anaudan tapılan keramika Elamın mədəniyyət tarixinə aid qiymətli nümunələrdir.

Elamlılar ən azı bizim eradan qabaq 3-cü minilliyin əvvəlindən etibarən İranın cənub-qərbində, təxminən indiki Xuzistan və mərkəzi Zaqros dağları ərazisində yurd salmış, həmin ərazidə öz dövrünə uyğun zəngin mədəniyyət və dövlət yaratmışlar.

Əsas məskənləri Anşan (indiki Tall-i Malyan) və Susa (indiki Şuş mahalları və şəhərləri idi). Elam ərazisindəki dövlətlərin inkişafının əsas mənbəyi Susiananın çox məhsuldar olması və Mesopotamiyadan İrana və Hind çayı vadisinə aparan ticarət yolunun onun ərazisindən keçməsi idi. Mesopotamiyanın qonşu ölkələri ilə daim qarşılıqlı siyasi, hərbi və mədəni təsirlər Elam tarixində dərin iz buraxmışdır. Həmin ölkələr uzun dövr ərzində Elam ərazilərində hökmranlıq etmişlər. Buna baxmayaraq, elamlılar bir çox sahələrdə mesopotamiyalılarla münasibətdə özünəməxsusluqlarını qoruyub saxlaya bilmişdilər. Məsələn, onlar e.ö. XVIII əsrdə 50-km-lik su kanalı çəkərək min hektarlarla zəmidən bol məhsul əldə etmiş, hələ o zaman əkinçilik və bağçılıq işində borc-kredit sistemi yaratmışdılar. Mixi və xatti yazılarda torpaq sahiblərinə bürünc külçələrlə kredit verən onlarla xəzinədarların adı qalmışdır.

Elamların öz böyük nailiyyətlərindən biri də güclü qonşular ilə vuruşa öz dillərini və dini inanclarını qoruyub saxlamalarıdır. Onların özlərindən çox güclü olan əhəmənilərə tabe olmamış, inanılmaz bir fədakarlıqla ölkənin üç şəhərində Xəzinədarlıqlar dövləti yaratmışlar.

Makedoniyalı İsgəndər Daranı məğlub edəndən sonra Xəzinədarlar dövlətinin başçılarını hakimiyyətdə saxladı və onlarla qohumluq əlaqələri yaratdı (11.S.162).

Elam və onun vilayətləri tarixən ayrı-ayrı adlar daşımışdır. Şumerlər onu Elama, yəhudilər Elam, akkadlar Elamtu, assurlar Elimey adlandırdılar. 1874-cü ildə ingilis şərqşünası A.Says akkad mənbələrinə istinadən ölkəni Elam, ölkə əhalisini elamita adlandırmaq fikrini irəli sürdü və bu təklif qəbul olundu.

Elamın tarixinə aid xeyli tədqiqat əsəri yazılsa da, o, indiyədək yalnız mərhələlərlə təsvir edilmişdir. Elamın tarixini tarixçilər beş dövrə bölürlər:

Protoelam dövründə, yəni bizim eradan əvvəl 3100-2600-cı illərə qədər olan dövrdə elamların dilinə aid hələ heç bir məlumat yoxdur. Ondan sonrakı dövrün davamı olan qədim elam dövrü mədəniyyəti onu deməyə əsas verir ki, Susianada olan protoelam mədəniyyətinin daşıyıcıları da elə elamlılar olmuşlar. Bu dövrdə e.ö. 3050-2800-cü illərdə sumer yazısından istifadə edilməklə indiyədək hələ də oxunuşu mümkün olmayan "protoelam heroqlif yazısı" yaradılmışdı və ondan iqtisadi idarəetmədə istifa-

də olunurdu. Həmin dövrə aid çoxsaylı təsərrüfat sənədləri arxeoloji qazıntılar zamanı aşkara çıxarılmışdır.

Eramızdan əvvəl 2800-1500-cü illərdə Elam vilayətlərini Anvan, Simaş və Eparti sülalələri idarə etmişdir. Sonra Akkadın və Mesopotamiyanın Elamda təsiri güclənmişdir. Puzur İn-Şuşinakın e.ö. III minilliyin sonlarındakı qısa hakimiyyətindən sonra şumerin Ur şəhərinin hakimiyyətləri ölkəni əsarət altına aldılar. Yalnız e.ö. 2100-cü ildə Elam müstəqillik qazana bildi. Ur sülaləsinin süqutu ilə ölkə yenidən azad oldu. Daha sonra Hammurapinen və xələflərinin üç əsrlik (e.ö. 1900-1600) hakimiyyəti başladı.

Elamlılar qədim Elam dövründə e.ö. XXII əsrdə öz xətti yazılarını yaratdılar və qısa müddət ərzində bu yazıdan istifadə etdilər. Sonra onlar Mesopotamiya mixi yazısını xeyli dəyişdirərək öz dillərinə uyğunlaşdırdılar və ondan uzun zaman ərzində istifadə etdilər (4.S.68-69).

Orta Elam dövrü eramızdan əvvəl təqribən 1500-1000-ci illəri əhatə edir. Bu dövrdə ölkədə İgehalk və Şutruk sülalələri hökmranlıq edirdilər. Elam çar Untaş Napirişanın dövründə yeni salınmış Dur-Untaş şəhəri (indiki Çoğa Zanbil) və bütün Yaxın Şərqdə indiyədək yaxşı qorunub saxlanılmış Zikkurat məbədi ilə ən yüksək inkişaf mərhələsinə çatmışdır. I Nebukadnezarın hakimiyyəti dövründə Babil çarları bu mərhələni sona çatdırdılar (4.S.72-76).

Dur-Untaş şəhəri çar Untaşın mərkəzi qərargahı idi. Bu iki söz türk dillərinin tarixi leksikası əsasında izah olunur. Dur "duracaq", yəni qərargah deməkdir.

Yeni Elam dövründə, eramızdan qabaq təqribən 1000-550-ci illərdə ölkə yeni inkişaf dövrünə qədəm qoydu və e.ö. 760-740-cı illərdə (760-640) sonuncu ən yüksək mərhələsinə çatdı. Sonra mənşəli etnosların ölkəyə hücumu ilə Elam zəiflədi və nəhayətdə assuriyalılar tərəfindən süquta uğradıldı (7.S.123-124).

530-330-cu illərdə əhəmənidlərin dövründə Elam Əhəməni səltənətinin mühüm bir hissəsini təşkil edirdi. Həmin illərdə Elam dili dörd dövlət dilindən biri olunmuşdur (pars, babil, aramey). Persepolda və Susada dövlət dəftərxanasını əsasən Elam mirzələri idarə edirdilər və mühasibat qeydiyyatı əksər hallarda Elam dilində aparılırdı. Elamın formal paytaxtı Susa yeni böyük sarayları ilə Əhəməni dövlətinin inzibati mərkəzinə çevrildi. Yazılı elam mətnlərinə eramızdan əvvəl 350-ci illərindən sonra rast gəlinmədiyindən, belə güman edilir ki, elamca yalnız bizim eranın I minilliyinin sonlarına qədər Xuzistanda danışılmışdır.

Son tədqiqatlar göstərir ki, Elamın üç qədim dillərindən biri xozi dili türk dillərinə qohum olmuşdur. Hələ 1866-cı ildə İ.İ.Şopen yazırdı ki, sonralar xozi adlandırılan etnosun adı əvvəllər Kuş olmuşdur (12.S.192). Kuş totemi qartal olan qədim bir türk etnosunun adıdır. Onlar əvvəlcə Misirdə, sonra Xəzər dənizi ilə Hindistan arasında dövlətlər qurmuşlar. İran tarixçiləri onlar Kuşan, erməni tarixçiləri Kus və Xus adlandırırlar (13.S.193-198).

Fikrimizcə, xozi dili elə kuş dilidir. Əvvəllər fin və türk dillərinə qohum olan Kuş dili sonralar sami və hind dillərinin təsirilə xeyli dəyişmiş, xozi dilinə çevrilmişdir.

Şumer yazısının kəşfindən sonra Elamda da eramızın 3050-ci illərindən 2800-cü ilinə qədər Urukdakı nisbətən qədim arxaik şumerlərinkinə bənzər yazı formasına rast gəlinir və onun kimi, demək olar ki, söz və rəqəm işarələrindən ibarətdir. Bu protoe-

lam mixi yazısıdır. Əsas tapılma yeri Susa şəhəridir və tapılan şeylər 1600 gil lövhələrdən ibarətdir. Ayrı-ayrı tapıntılar bütün İranın cənub-qərbində və səpələnmiş halda isə şərqindədir. Xətti indiyədək oxuya bilməmişlər, ancaq lövhələr öz quruluşlarına və yəqin ki, həm də məzmunlarına görə iqtisadi idarəetmə məqsədlərinə görə istifadə edilmiş arxaik şumer lövhələrinə bənzəyir. Protoelam yazısı 5000 variantda rast gəlinən 1000-ə yaxın işarədən ibarətdir.

Bu kitabələrin say sistemi həddindən artıq mürəkkəbdir, hər bir say obyekti üçün Uruk mətnlərindəki kimi müxtəlif vahidlərdən istifadə edilir. 1989 və 1997-ci illərdə Englundda və 1989-cu ildə Damerovdakı yazılardan aşağıdakı say formaları göstərilir:

Protoelam yazısının fərqli say sistemi

Obyekt növləri Əsas quruluşu İşlədilən vahidlər

insanlar, heyvanlar onluq 1-10-100-1.000-10.000
fasiləli hərəkətsiz altmış misli 1-10-60-600-3.600
taxıl payları (iki)altmış misli 1-10-60-120-1.200
tutum ölçüsü (taxıl) qarışıq 1-2-4-12-24-60-360-3.600 və s.
sahə ölçüsü qarışıq 1-6-18-180

Fərqli say sistemlərinin hər bir vahidi üçün fərqli işarələrdən istifadə edilmədiyindən, ayrı-ayrı miqdarda kütlə işarəsinin say dəyəri onların hansı sistemdə çıxış etdiklərindən asılıdır.

Bu mətnlərin həqiqətən də elamitlərə aid olması, hətta mənası dəqiq oxunsaydı belə, dildən asılı olmayan söz işarələrinin həddindən artıq olmasına görə mümkün hesab edilə bilməzdi. Bu yazıların oxunuşunun aktual vəziyyətini 2002-ci ildə Robinson hərtərəfli təsvir etmişdir.

Elam cizgi (ştrix) yazısı

23-cü əsrdə elamlar müstəqil bir heca yazısı (xətti) yaratdılar ki, bu da özünəməxsus cizgi xəttinə görə "cizgi yazısı„ (ingiliscə "Linear Elamite") adlandırılır. 1961-ci ildə AFR-in Göttingen şəhərindən olan iranist və elamist Valter Hinz bu yazı formasının əsas əlamətlərini dərc elətdirdi və bu zaman həmin mətnlərin elamca oxunuşundan çıxış etdi. Bu barədə 1962, 1964 və 1969-cu illərdə məlumat verdi. Bu oxunuş akkad-elam dilləri bazasında (daş kitabələr yazısı A) xüsusi isimlərin ("İnşuşinak„, "Susa„) oxunuşundan istifadə edəndə və elam dili bilgilərinin bundan əvvəl oxunmuş yeni elam və əhəmədi şahlarına aid yazılarından istifadə edilməklə baş tutdu. Onlar heç də bütün mütəxəssislər tərəfindən tanınmadı. Elam cizgi (cızıq) xəttində yazılan mətnlər çox kasaddır və demək olar ki, yalnız Puzur-İnşuşanikin hakimiyyəti dövrü ilə (23-cü əsrin sonu) məhdudlaşır. İndiyədək yazılar təxminən otuz daş və kərpic kitabələr üzərində aşkar edilmişdir, onlardan biri gümüş vazanın üstündədir. Məzmunca cızıq kitabə yazılarında əksər hallarda ithaf yazılarından bəhs edilir.

Yazıda cəmi 103 işarə forması vardır ki, onlardan da 40-ı yalnız bir dəfə işlədilib, bu da onların şərhinin əvvəlcədən sırf heca xəttinə (söz-heca xəttləri Mesopotamiya mixi xəttləri kimi xeyli böyük işarə ehtiyatından istifadə edirlər) yaxındır. Buna misal olaraq V. Hinz tərəfindən oxunmaq üçün seçilmiş elam mətnini göstərmək olar. O, mətni oxuyub onu öz sətri tərcüməsində vermişdir (Nömrələnmə bu yazının xəttlərinə (sırasına) uyğun gəlir):

Elam cizgi (cızıq) xətti *(Daş xətti A, Hinzə görə, 1969)*
(1) te-im-tik-ki nap in-šu-ši-na-ik un-ki
(2) u ku-ti-ki-šu-ši-na-k zunkik hal-me ka
(3) hal-me-ni-ik šu-si-im-ki
(4) ši-in-pi-hi-iš-hu-ik
(5) ša-ki-ri nap-ir lik hi-an ti-la-ni-li
Sətri tərcüməsi:
(1) Cənab Tanrı İnşuşinaka bu ağac (dirək)
(2) mən, Kutik-İ (n) şuşinak, ölkənin şahı
(3) Susanın vəliəhdi
(4) Şinpi-hişukun
(5) oğlu, allahlığın məbəd üçün əsası kimi bəxş olunmuşam
Kutik-İ (n) şuşinak adı bu gün "Puzur-İnşuşinak" kimi oxunur.

QAYNAQLAR

1. Масперо Г. Ассирия. М, 1916, 295 с.
2. Масон В.И. Передняя Азия и древний Восток. М, Наука, 1964, 468 с.
3. Рагозина З.А. История Ассирии. СПб, 1902, 500 с.
4. Хини В. Государство Элам. М, Наука, 1987, 192 с.
5. Wiessbach F.H. Nuu Butrağe kur Kukde der Susischen inschriften. Leipziq, 1890.
6. Wiessbach F.H. Die kelinschriften der Achameniden. Leipziq, 1911.
7. Юсифов Ю.Б. Элам. Социально-экономическая история. М, Наука, 1968.
8. Yusifov Y.B. Qədim şərq tarixi. Bakı, Azərnəşr, 1993.
9. Марр Н.Я. Определение языка второй категории. Ахамендских клинообразных надписей по данним Яфетического языкознания. СПб, 1914.
10. Шор П.И. К вопросу о Яфетигеско-турецком языковом смешении. Доклады Ан ССЕГ, №3, М, 1931, с. 223-224.
11. Квинта Курция. История о Александра великим т.1, СПб, 1750.

Aynur MİRZƏYEVA

Xülasə

"Elam dilinin tədqiqi tarixi və tədqiqatçıları" adlanan bu məqalədə Azərbaycan dilinə qohum olan bir dilin öyrənilməsi tarixi və ən məşhur tədqiqatçılarının fikirləri tədqiqatın obyektinə çevrilir.

Həmin tədqiqatçılar arasında alman alimi Fridrix Vaysbaxın yaradıcılığına ayrıca diqqət yetirilir. Göstərilir ki, tədqiqatçılar arasında F.H.Vaysbax ilk alimdir ki, Elam kitabələrinin Anşan mətni ilə türk dillərinin qohumluğunu irəli sürmüşdür.

Резюме

В статье названным «История исследование и исследователей Эламского языка» рассматривается история изучение родственного языка с Азербайджанским и мысли популярных исследователей.

Среди этих исследователей большое внимание уделяется творчеству немецкого ученного Фридриха Вайсбаха. Указывается но то что он был первым исследователем подчеркнувшим что Аншанские Техсты Эламских книг родственны с тюркскими языками.

Summary

The history off researching relative language to Azerbaijani and thoughts of famous researchers become the object of our research in the article named "The History of researching and researchers of Elam language". Among these researchers a great attention is given to the creativity of German scientist F.Weisbeach. He was the first researcher who mentioned that Anshan texts of Elam books is relative of turkic language.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Mətanət XUDİYEVA
filologiya üzrə f.d.,
Azərbaycan Texniki Universitetinin müəllimi

NİTQ MƏDƏNİYYƏTİ MİLLİ MƏDƏNİYYƏTİN TƏRKİB HİSSƏSİ KİMİ

Açar sözlər: *natiqlik sənəti, etik normalar, aydın diksiya, mədəni nitq, ritorik suallar, görkəmli natiq, ədəbi dil normaları.*
Ключевые слова: *специальность ораторства, этические нормы, ясная дикция, культурная речь, риторические вопросы, выдающийся оратор, нормы литературного языка*
Keywords: *the art of public speaking, ethic norms, clear articulatio, cultural speech, a rhetorical questions, outstanding speaker, the norms of the literary language.*

Nitq mədəniyyəti dilçiliyin praktik sahəsi olub, dildən ünsiyyət vasitəsi kimi istifadə qaydalarını öyrənir. Nitq mədəniyyətinə yaxşı yiyələnmək üçün dilin fonetik (orfoepik və orfoqrafik), leksik və qrammatik qayda-qanunlarını bilmək və nitq zamanı onlara əməl etmək zəruridir.

Nitq mədəniyyətində dilçiliyin nəzəri fikirləri əməli (praktik)şəkildə həyata keçirilir. Buna görə də nitq mədəniyyəti dilçiliyin nəzəri yox, praktik sahəsi sayılır. Nitq mədəniyyətində ayrı-ayrı dil faktları və ya hadisələri yox, dilçiliyin qayda-qanunları sistemi öyrənilir. Ümumiyyətlə, nitq mədəniyyətinin konkret predmeti yoxdur.

Hər hansı bir xalqın milli mədəniyyətinin göstəricilərindən biri də gözəl nitqdir. Gözəl nitq üçün, əsasən, iki şərt tələb olunur:

1. Dilin özünün ifadə imkanlarının genişliyi, yəni hər hansı bir fikri ifadə etmək imkanının olması.
2. Bu dildə danışanın yüksək hazırlığı, yəni dilin ifadə imkanlarından düzgün şəkildə istifadə etməsi.

Azərbaycan dili fonetik, leksik və qrammatik quruluşuna görə dünyanın inkişaf etmiş və zəngin dillərindən biri sayılır. Bu dil özünəməxsus musiqili ahəngi, səlisliyi və axıcılığı ilə diqqəti cəlb edir. Çox-çox qədim zamanlarda dilimizdə şifahi xalq ədəbiyyatı nümunələri, sonralar isə yazılı ədəbiyyat yaranmışdır. İstər şifahi, istərsə də yazılı ədəbiyyatımız xalqımızın gözəl və zəngin nitq mədəniyyətinin olduğunu sübut edir.

Milli mədəniyyətin, o cümlədən də nitq mədəniyyətinin qoruyucusu, daşıyıcısı bütövlükdə xalqdır. Xalqın hər bir nümayəndəsi nitq mədəniyyətinə dərindən yiyələnməli və onu layiqli şəkildə qorumalıdır. Bu mədəniyyəti inkişaf etdirməkdə, yaymaqda söz ustalarının böyük xidmətləri olmusdur.

Nitq mədəniyyətinin əsas şərtləri bunlardır: nitqin düzgünlüyü, nitqin dəqiqliyi və nitqin ifadəliliyi.

1. **Nitqin düzgünlüyü** dedikdə dilin fonetik, leksik və qrammatik qayda-qanunlarına əməl etmək nəzərdə tutulur. Məsələn, *"öyə getmək"*düzgün deyil. Burada dilin fonetik (orfoepik) qaydası pozulmuşdur. Bu ifadəni «evə *getmək»* kimi dedikdə nitq düzgündür.

2. **Nitqin dəqiqliyi** dedikdə fikrin ifadəsi üçün birbaşa tələb olunan söz və ya ifadənin seçilməsi nəzərdə tutulur. Məsələn: *«Uşaq dərsdən gəlir»*-cümləsi düzgündür, ancaq dəqiq deyil. *«Uşaq məktəbdən gəlir»*-cümləsi isə həm düzgündür, həm də dəqiqdir.

3. **Nitqin ifadəliliyi** isə üslub baxımından ən uğurlu və bədii dil vahidinin işlədilməsi deməkdir. Məsələn: *«O, klassik ədəbiyyatı çox sevir»*cümləsi düzgün və dəqiqdir, lakin ifadəli deyil. *«O, klassik ədəbiyyatın vurğunudur»* cümləsi isə düzgün və dəqiq olmaqla yanaşı, həm də ifadəlidir.

Nitqin düzgünlüyünə və dəqiqliyinə hamı əməl etməlidir. Nitqin ifadəliliyi isə daha çox şair və yazıçılara məxsusdur.

Dil ünsiyyət vasitəsidir. Dilin özünəməxsus qrammatik quruluşu və ifadə imkanları vardır.

Nitq ünsiyyət prosesidir. Nitq dilin ifadə imkanları əsasında hər hansı bir məlumatın verilməsi şəklində ortaya çıxır. Dil əsasdır, nitq isə ondan törəmədir. Dil tarixən az dəyişkən, nitq isə ona nisbətən çox dəyişkəndir. Məsələn, bizim keçən əsrdəki dilimiz indikindən az fərqlənib, ancaq həmin yüzülikdə yasayan şəxslərin nitqi indıkindən çox fərqli olubdur.

Nitq fəaliyyəti isə nitqin ortaya çıxması üçün lazım olan ictimai, psixoloji və fizioloji proseslərin toplusudur.

Ədəbi dil-milli dilin müəyyən qayda-qanunlara tabe olan və xalqın nümunəvi ünsiyyətinə xidmət edən nitq formasıdır. Başqa sözlə desək, ədəbi dil milli dilin müəyyən normalar sisteminə malik olan ən yüksək formasıdır.

Ədəbi dilin tabe olduğu qayda-qanunlar sisteminə nitq normaları deyilir.Norma sözün fonetik (səs) tərkibinin, leksik mənasının və cümlənin qrammatik quruluşunun hamı tərəfindən qəbul olunan şəkildə fəaliyyətinə deyilir. Ədəbi dil iki şəkildə özünü göstərir: şifahi ədəbi dil, yazılı ədəbi dil.

- **Şifahi** ədəbi dil səslənən ədəbi dildir. Ədəbi dilin bu forması orfoepik normalara tabe olur. Nitq, çıxış və məruzələr şifahi ədəbi dil normalarına aiddir.
- **Yazılı** ədəbi dil yazılan dildir, orfoqrafik normalara tabe olur.

Yeri gəlmişkən qeyd etməliyik ki, Azərbaycan yazı dili şifahi dildən daha normativ olduğuna görə şifahi dildəki qüsurlar, yaxud nəyin qüsur olub-olmamağına dair mübahisələr yazı dilindəkindən müqayisə edilməyəcək qədər çoxdur ki, bu da bir tərəfdən Azərbaycan dilində yazı ənənəsinin zənginliyi ilə bağlıdırsa, digər tərəfdən ümumiyyətlə yazı dilinin daha çox normativliyindən və ya standartlığından irəli gəlir. Təsadüfi deyil ki, bəzi xalqlar "ədəbi dil" əvəzində "yazı dili", yaxud "yazılı dil" ifadəsini işlətməklə yazıya ədəbilik, normalılıq statusu verirlər. Və həqiqətən yazı, demək olar ki, bütün xalqların dili üçün elə bir mədəni nüfuza malikdir ki, şəxsin (dil istifadəçisinin) savadı birinci növbədə ona (yazıya) nə dərəcədə bələd olub-olmaması ilə müəyyənləşir.

Lakin etiraf etmək lazımdır ki, son zamanlar yazının, eləcə də yazı normativliyinin və ya orfoqrafiya qaydalarının kultunun zəifləməsi müşahidə olunur. Və bu, bütün dünyada olduğu kimi Azərbaycanda da belədir. Əgər bir vaxtlar orta məktəblərdə hüsnxət dərsləri keçirilir, uşaqlara gözəl xətlə yazmaq öyrədilirdisə, böyük tarixi ənənəsi olan həmin ehtiyac bugün, demək olar ki, aradan qalxmışdır. Yazının texnikiləş-

məsi, ilk növbədə kompüter texnologiyalarının sürətlə inkişafı hüsnxət barədəki tarixi təsəvvürü tamamilə dəyişdirməklə elə bir mühit yaratmışdır ki, ümumiyyətlə əl yazısının nə vaxtsa yalnız ekzotik bir hadisəyə çevriləcəyi artıq indidən heç bir şübhə doğurmur.

Yazının meydanının daralması özünü onda da göstərir ki, şifahi kütləvi informasiya vasitələri müxtəlif baxımlardan daha effektli, operativ olduğuna görə mətbuatı-yazılı kütləvi informasiya vasitələrini qabaqlayır. Və təsadüfi deyil ki, əgər bir vaxtlar radiodan, yaxud televiziyadan daha çox yazı dilinin intonasiyası, diktor tələffüzü eşidilirdisə, bugün, əksinə, mətbuatın-qəzetlərin, jurnalların dilində şifahi nitq xüsusiyyətləri yazılı dilin normativlərini az qala hər addımda "pozmaqla" yeni ünsiyyət, diskurs modelləri təqdim edir ki, bu da tamamilə təbiidir.

Ancaq hər kəsin danışdığı və hər kəsin yazdığı bir dövrdə hər kəsin məsuliyyət daşıdığını güman etmək çox çətindir. Bugün Azərbaycan mətbuatında hazırlıqsız, yaxud qeyri-peşəkar jurnalistlərin, televiziya və ya radioda nitq səviyyəsi yüksək olmayan, bir sıra hallarda isə təfəkkür mədəniyyəti aşağı aparıcıların çox olması, yəqin ki, mübahisə mövzusu deyil. Əlbəttə, kütləvi informasiya vasitələrindəki dil qüsurları bir də ona görə təhlükəlidir ki, cəmiyyət, xüsusilə gənc nəsil həmin qüsurları çox hallarda (inersiya ilə!) norma kimi qəbul edib işlədir. Və nəticə etibarilə, ana dili, eləcə də milli dil təfəkkürü zədələnir.

Fikrimizcə, ədəbi dil, əsasən, aşağıdakı hallarda dağıdıcı təsirə məruz qalır:

1) dialekt sözlərinə, yaxud dialektdən gələn tələffüz xüsusiyyətlərinə geniş meydan verilməsi;

2) alınma sözlərdən yerli-yersiz istifadə olunması, yaxud başqa dillərin tələffüz-intonasiya xüsusiyyətlərinin ana dilinə gətirilməsi;

3) düşüncə və ya təfəkkür mədəniyyətinin aşağı olması.

Əlbəttə, Azərbaycan dilinin dialektləri, şivələri bizim milli sərvətimizdir. Və çox az azərbaycanlı təsəvvür etmək olar ki, hansısa bir dialektə, şivəyə mənsub olub onu az və ya çox bilməsin. Məişətdə ləhcədən istifadəni də heç kəs yasaqlaya bilməz. Hətta televiziyada, ya radioda müəyyən ekzotik təəssürat yaratmaq üçün dialektizmə müraciət etmək də mümkündür... Ancaq, necə deyərlər, qədərində... Və dinləyici hiss etməlidir ki, norma hansıdır, bu və ya digər məqsədlə normadan yayınma nədən ibarətdir.

Etiraf etməliyik ki, ədəbi dilimizdə olmasa da, xalq danışıq dilimizdə rus sözləri, ifadələri kifayət qədər geniş yayılmışdır: açki, znaçit, pasluşnı, seryoznı, paryadoçnı, toçnı, damaşnik, maşennik, zakonnı, tak şto, kaneşna, sveji və s. Bu cür sözlərin, ifadələrin işlədilməsi yalnız bu və ya digər şəxsin nitq qüsuru, yaxud subyektiv marağının təzahürü kimi izah oluna bilməz. Ədəbi normaya belə kütləvi təcavüz eyni zamanda ümumən milli dil təfəkküründəki yad sözlərə müqavimət immunitetinin zəifliyi ilə bağlıdır. Bu isə o deməkdir ki, yuxarıda sadaladığımız, eləcə də sadalamadığımız yüzlərlə rus sözlərinin ana dilindəki qarşılıqları milli dil təfəkküründə ya lazımi qədər möhkəm oturmamışdır, ya da xalq danışıq dilində alınma sözün ekzotik-ideoloji nüfuzu o qədər yüksəkdir ki, ana dili sözünü sıxışdırmaq gücündədir.

Bir vaxtlar ailədə ata, ana kimi qədim ənənəsi olan milli (və doğma) söz-müraciətlərin əvəzində papa, mama daha çox işlənirdi... Bugün də işlənir, ancaq müşahidə edilir ki, papa yerinə ata deyilməsi artır, mama yerinə ana deyilməsi isə, demək olar ki, əvvəlki səviyyədə qalmaqdadır. Və maraqlıdır ki, ailədə valideynlərinə papa, mama deyən uşaqlar da kənarda-ictimai yerlərdə valideynləri haqqında danışarkən adətən atam, anam sözlərini işlədirlər.

Ümumiyyətlə, nitq o zaman gözəl, məzmunlu, təsirli olur ki, birinci növbədə, gərək nə dediyini biləsən; ikinci növbədə, necə deyəcəyini, hansı sözlərdən, ifadələrdən istifadə edəcəyini qərarlaşdırasan və nəhayət, çalışasan ki, sənin sözün (nitqin) kimisə nəyəsə sövq etsin, ünvanlı olsun, təsir göstərsin...

"Nitq mədəniyyəti" nə qədər təcrübədən keçmiş, ümumi (və mükəmməl!) prinsiplərə malik olsa da, şəxsin nitqinin mədəniyyətində təzahür etmirsə, riayət edilməyən, icra olunmayan qanuna bənzəyir ki, onun da cəmiyyətə fayda verə biləcəyini düşünmək düzgün olmazdı.

QAYNAQLAR

1. Əhmədov B., Ana dili dərsində şagirdlərin nitqini inkişaf etdirmək yolları. Bakı, Maarif, 1967.
2. Abdullayev A.S., Nitq mədəniyyəti və natiqlik sənəti. Bakı, Maarif, 1981.
3. Hüseynov S.S., Nitq mədəniyyəti, Bakı, Yazıçı nəşriyyatı, 2010.

М.ХУДИЕВА

Культура речи как составная часть национальной культуры

Резюме

Культура речи-это умение красиво говорить и писать, владеть языком и умение успешно выбирать слова и пользоваться ими. Культура речи ценится в его содержании, просвещении, последовательностью и уточнении. Для подрастающего поколения очень важно овладеть высокой культурой речи, и такая задача стоит перед преподавателями. Все изучаемые предметы, и азербайджанский язык в частности, помогают развитию правильной речи и мышления. Преподаватель для развития речи своих студентов должен использовать развивающие упражнения.

M.KHUDIYEVA

Culture of speech as part of the national culture

Summary

Culture of speech as ability to speak dutifully and right to master the language perfectly and ability to choose words successfully and use them as well. Culture of speech is valuable in its plot teaching and exactness. It is very important to master high culture of speech for the growing generation. And the teaches face with such kind of problems. All studied subjects especially of Azerbaijani language help to improve the correct speech and thinking of the pupils. The teacher must use the correct improving exercises for developing his pupils speech.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Aygun ZEYNALOVA

NİTQ MƏDƏNİYYƏTİ VƏ DİL MƏDƏNİYYƏTİ: UNİFİKASİYA VƏ DİFERENSİASİYASI

Açar sözlər: *Unifikasiya-Ümumi bir qaydaya salma.*
Ключевые слова: *унификация, дифферентация, речь, реализация языка через речь, прогресс.*
Keywords: *unification; differensiation; speech; language; realization; development.*

Dil mədəniyyəti. Hər bir xalqın, millətin dili onun varlığının sübutudur. Bu fikri şərtləndirən isə dilin kommunikativ funksiyasıdır. İnsan fəaliyyəti olmayan yerdə dil də mövcud deyildir. Çünki dil cəmiyyətlə bağlıdır, cəmiyyətlə birgə yaranmışdır. Dilin ictimai hadisə olması da məhz onun ictimai ünsiyyətə xidmət etməsi ilə əsaslandırılır.

Dil cəmiyyətlə birgə yarandığı üçün onun tarixi də mənsub olduğu xalqın tarixi ilə sıx surətdə bağlıdır. Bu əlaqə isə tarixilik prinsipinə əsaslanır: dilin tarixi-xalqın tarixi. Dünyada elə bir xalq tapmaq olmaz ki, həmin xalq dilindən bir neçə ilə əvvəl, yaxud sonra mövcud olsun. Bu fikrin əksinin də qeyri-mümkünlüyü təsəvvür edilməzdir. Çünki dünya dilləri arasında elə bir dilə təsadüf etmək olmaz ki, o dil mənsub olduğu xalqın tarixindən çox əvvəl və ya gec yaranmış olsun. Dilin daşıyıcısı xalqdır, o dildə danışanlardır. Dilin kommunikativ funksiyası yalnız ünsiyyət yaratmaq, fikir mübadiləsi etməkdən ibarət deyildir. Dil həm də etno-kulturoloji kommunikasiyanın daşıyıcısıdır.

Dilin xalqın etnoqrafiyası ilə davranışı və mədəniyyəti ilə əlaqəsini tədqiq edən dilçilik sahəsi etnolinqvistikasıdır. Dilin xalqın adət-ənənəsi ilə əlaqəsi ideyasını ilk dəfə XVIII əsrdə alman romantiki İ.Q.Herder irəli sürmüşdür. XIX əsrdə məşhur alman dilçisi və ictimai xadimi Vilhelm fon Humboldt dilin “xalq ruhu” ilə sıx əlaqəsindən bəhs edərək, onun xalqın adət-ənənəsi ilə yaxından bağlılığı fikrini ortaya çıxarmışdır: “Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir-bundan da güclü eyniyyət təsəvvür etmək çətindir”.

Xalqlararası inteqrasiya-iqtisadi, siyasi və ədəbi-mədəni əlaqələr birliyi dil vasitəsi ilə tətbiq edilir və həyata keçirilir. Bu cür qarşılıqlı əlaqələrin geniş miqyas alması hər birinin öz istiqaməti üzrə möhkəmlənərək təcrübi əhəmiyyət qazanması, eyni zamanda, dilin həmin sahələr üzrə inkişafına da təsirsiz ötüşmür. Dilin xalqın etnoqrafiyası ilə, mədəniyyəti ilə əlaqəsi dinamik səciyyə daşıyır.

Dillə mədəniyyətin bağlılığına dair görkəmli Azərbaycan dilçisi, AME-nin müxbir üzvü olmuş, mərhum professor A.Qurbanovun bəzi fikirlərini xatırlamaq yerinə dü-

şərdi: “İnkaredilməz bir həqiqətdir ki, dillə mədəniyyət bir-biri ilə əlaqədardır. Hər şeydən əvvəl dil mədəniyyətin bünövrəsini təşkil edir. Buna görə də milli dil milli mədəniyyətin formasıdır. Lakin dillə mədəniyyət arasında eyniyyət işarəsi qoymaq, onları bərabərləşdirmək heç bir cəhətdən doğru ola bilməz. Çünki dil və mədəniyyət mahiyyət və xarakterinə görə eyni hadisə deyil...”.

Dil və mədəniyyətin əlaqəsindən bəhs edərkən digər vacib məsələlər kimi ədəbi dilə də xüsusi diqqət edilməlidir. Çünki dilin mədəni fikir tarixindəki xidməti milli dilin ən yüksək forması sayılan ədəbi dillə həyata keçirilir. Bu, ümumbəşəri prosesdir. Hər bir millət beynəlxalq aləmə, dünyaya ədəbi dili ilə çıxır. Demək, millətlərarası mədəni inteqrasiya ədəbi dil vasitəsi ilə formalaşdırılır və tanınır. Ədəbi dil mədəniyyətin silahıdır. Nəzərə alsaq ki, mədəniyyət özü ədəbi dildən başlanır, onun vasitəsilə gələcək mədəniyyətlərin möhkəm təməli qurulur, o halda söylədiyimiz fikrin doğruluğu qənaətinə gəlmiş olarıq. Bu keyfiyyət ədəbi dilin istər leksik semantikasında, istərsə də onun formalaşma prinsiplərindən nəzərəçarpacaq dərəcədə diqqəti cəlb edir.

Belə ki, ədəbi dil “seçmə” və “əvəzetmə” prinsipləri ilə yaranır. Canlı danışıqda əksər sözlərin rəngarəng variantları müşahidə edilir. Ədəbi dil onlardan yalnız öz normalarına uyğun olanını seçərək, işlənmə tezliyi və “vətəndaşlıq hüququ” qazandırır. “Seçmə” üsulunda ədəb qaydalarına müvafiq leksik vahidlərin ünsiyyətə cəlb edilməsi mühüm şərtlərdəndir. Məhz belə əxlaqi keyfiyyətləri baxımdan əksər Avropa xalqları ədəbi dilə “mədəni dil”, “mədəniyyət dil” deyirlər. “Ədəbi dil” anlayışı təkcə qrammatik konstruksiya kimi deyil, eləcə də leksik-semantikası cəhətdən də vəhdət təşkil etdikdə nitqin keyfiyyət dərəcəsi yüksəlir.

“Ədəbi dil” və “dövlət dili” terminlərinin eyni anlayış kimi izahı haqqında dilçilik ədəbiyyatında yanlış mülahizələrə də ara-sıra rast gəlinir. Bu isə bir neçə xalqın, millətin vahid mərkəzdən idarə edilməsi səbəbindən doğan tarixi bir yanlışlıqdır. Belə ki, müxtəlif xalqların həyatında hakim dil rolunu oynayan dil müəyyən dövrlər həmin millətlərin hər biri üçün ədəbi dil olmuşdur.

İdarəçilik sistemi vahid dövlətlə bağlı olan millətlər üçün hakim millətin dili onların (istifadə etməsələr belə) ədəbi dili olmuşdur. Bu cür ictimai-siyasi şəraitlə sıx əlaqədar olan linqvistik proses Azərbaycanda da təsirsiz qalmamışdır. Məsələn, sovetlər birliyi zamanı dövlət idarə və müəssisələrində rəsmi şəkildə işlənən rus dili azərbaycanlıların ədəbi dili kimi təbliğ edilirdi. Dilimizə bu cür ögey münasibət və ayrıseçkilik orta əsrlərdə də mövcud olmuşdur. VII əsrdən XI əsrə qədər ərəb dili, XI əsirdən XIII-XIV əsrə qədər isə fars dili ölkəmizdə hakim dil olduğu çün bütün kargüzarlıq işləri bu dillərdə həyata keçirildiyindən ərəb-fars dilləri ədəbi dilimiz kimi təqdim edilmişdir. Daxili mükəmməlliyi baxımından dilimiz bu dillərin müxtəlif istiqamətlərdə olan assimiliyasiyasına qarşı davamlı olmuşdur.

Azərbaycan dili uzun zaman şeir dili kimi yaşamışdır. Bu tarixi-poetik xidməti cəhətinə görə də bədii üslub ədəbi dilimizi xeyli müddət ərzində təmsil etmişdir. Dilçilik ədəbiyyatında tez-tez təsadüf etdiyimiz “ədəbi-bədii dil” ifadəsi də məhz bu səbəbdən yaranmışdır. Ədəbi dilin əsasında ümumxalq dili dayanır. Ədəbi dil üçün səciyyəvi əlamət xüsusi qəlibə salınmış, normalaşdırılmış dil olmasıdır. Əvvəldə qeyd etdiyimiz kimi mədəniyyətin təbliğetmə vasitəsi olan dil özü, ilk növbədə, müəyyən

ölçüyə malikolmalı, xüsusi meyara əsaslanmalıdır. Bu ölçü, meyar isə ədəbi dilin keyfiyyət göstəricisidir.

Ədəbi dilin dildaxili prosesin-dialektin əsasında yaranması da mümkündür. Bu, dünya dillərində də baş verən bir linqvistik əməliyyatdır. Yəni ədəbi dil mənsub olduğu xalqın mərkəzi əhalisinin dialekti əsasında formalaşır. Ədəbi dil nümunəvi dildir. Bu dil dialektlərə, loru dilə qarşı duran və cəmiyyətin bütün təbəqələrinin nümayəndələri tərəfindən qəbul edilən bir dildir.

Ədəbi dil üçün "Ümumxalq dilindən alınan sözlər "xammal" rolu oynayır. Həmin sözlər ədəbi dildə müxtəlif aspektlərdən cilalanır: a)söz ümumişlək status qazanır; b)sözün əməli yazı nümunələri üçün münasib vəziyyətə salınması həyata keçilir; c)mədəni miqyası ölçülür; d)beynəlmiləl səciyyəsi müəyyənləşir; e)yazışma dilinə müvafiq olub-olmaması dəqiqləşdirilir.

"Azərbaycan dilinin qrammatik quruluşu olduqca möhkəmdir. Onun morfoloji quruluşunda möhkəm qanunlar var: bütün isimlər eyni qayda ilə hallanır, hallanmadan kənarda qalan işim yoxdur; bütün feillər eyni cür təsrif olunur, təsrif qaydasına tabe olmayan feil yoxdur. Bu dilin sintaktik quruluşu da zəngindir. Hər cür cümlə quruluşları bu dildə var...".

Azərbaycan dili geneoloji və morfoloji cəhətdən daxil olduğu türk dilləri içərisində ahəngdarlığı, səlisliyi ilə fərqlənir. Dilimiz qrammatik cəhətdən olduğu kimi, fonetik və lüğət tərkibi baxımından da zəngindir. Bu keyfiyyətlər dilin mükəmməlliyinin təzahürüdür. Belə olduqda müsahiblə anlaşma daha asan olur, ünsiyyətin məzmunu dəqiq ifadə edilir.

Nitq mədəniyyəti "Dil mədəniyyəti" anlayışı ilə yanaşı "nitq mədəniyyəti" termini də geniş şəkildə işlənməkdədir. Bu problemin həlli üçün məsələyə bir neçə istiqamətdən yanaşmaq məqsədə müvafiqdir. Fikrimizcə, nitq və dil prizmasından yanaşma məsələnin həllini asanlaşdırmış olar. "Dil mədəniyyəti" və "nitq mədəniyyəti" anlayışları zahirən eyni termin, vahid, ifadə təsiri bağışlayır. Hətta bəzi hallarda bunların sinonimliyi, yəni eyni məfhumun formaca müxtəlif leksik vahidlə ifadəsi haqqında da məlumata rast gəlinir. "Mədəniyyət" məfhumu ilə vəhdət təşkil etsə də, nitq və dil arasında oxşar əlamətlərlə yanaşı ciddi, fərqli əlamətlər də mövcuddur.

Əvvəlcədən qeyd edək ki, bu terminlərin (nitq və dil) dilçilik ədəbiyyatında yaxın səslənməsinin səbəbi hər ikisinin eyni ictimai hadisənin müxtəlif tərəfləri olmasıdır. Bu anlayışlar arasındakı sərhədi və yaxınlıq dərəcəsini müəyyənləşdirmək üçün müqayisəli üsul vasitəsilə aparılan araşdırmanın nəticəsi olaraq aşağıdakı xüsusiyyətləri qənaətbəxş meyar kim göstərmək olar:

I Ümumi (oxşar) əlamətlər:

-Hər ikisi ictimai xarakter daşıyır

-Dil ilə nitq arasındakı münasibət hər ikisinin obyektinin eyni olmasıdır (sözə əsaslanması nəzərdə tutulur).

-Dil öz mövcudluğunu nitqdə, nitq isə öz qaynağını dil materialından götürür

-Hər ikisi kommunikativ funksiyanın daşıyıcısıdır

-Dilin inkişafı nitqə əsasən müəyyənləşdirilir

-Dildə baş verən dəyişikliklər (işlər lüğət tərkibi, istərsə də qrammatik quruluşu baxımından) nitq vasitəsilə yaranır və fakta çevrilir

-Nitq prosesi olmasa dil, dil olmasa nitq prosesi baş verməz və reallığa çevrilməz

-Nitqdə meydana gələn hər hansı bir yeni fakt dildəki arxaik qanunları sıradan çıxarır. Odur ki, ictimai quruluşla bağlı dəyişikliklər nəticəsində bir sıra məfhumları ifadə edən sözlər köhnələrək sıradan çıxdığı kimi, elmin, texnikanın bütövlükdə cəmiyyətin inkişafı ilə əlaqədar yeni sözlər də mövcud olur. Bu cür linqvistik prosesi nəzərə alaraq deyə bilərik ki, nitq dilin inkişaf vasitəsi olduğu kimi, dil də nitqin məhsulu sayılır.

-Dildə baş verən istənilən dil faktı, hadisəsi nitqdə öz əksini tapdığı kimi, nitqdə əmələ gələn elə bir əlamət tapmaq olmaz ki, o, dildə müşahidə edilməsin

-Dil və nitq-hər ikisi qrammatik quruluşu və sintaktik sıralanma qaydası cəhətdən də eyniyyət təşkil edir

-Hər ikisi ədəbi dilin norma vahidliyinə görə də oxşarlıq yaradır. Fonetik leksik-semantik və qrammatik normalar eyni nəticəyə xidmət edir

Dil və nitq eyni təfəkkür prosesi ilə bağlıdır. Yəni biz nə düşünürüksə, onu dilimiz və nitqimiz vasitəsilə ifadə edirik. Odur ki, dil və nitq təfəkkürün təzahür formalarıdır.

-Hər ikisi elmi və nəzəri aspektləri baxımından eyni metod və üsullarla tədqiq edilir və müxtəlif istiqamətlərdən öyrənilir.

II Fərqli xüsusiyyətlər:

-Dil öz xarakter və təbiətinə görə işarələrdən ibarətdir. Dil işarələri zəncirvari əlaqədən ibarət möhkəm bir sistemə malikdir. Dil kollektivin məhsuludur. Dil ünsiyyət vasitəsidir.

-Nitq ünsiyyətin özüdür. Nitq inşalar arasında dil vasitəsilə həyata keçirilən fikir mübadiləsi və ünsiyyət prosesidir

-Dil informasiyanın saxlanması və başqasına ötürülməsinə, insan əxlaqının idarə olunmasına xidmət edən xüsusi ictimai vasitədir

-Nitq fərdi səciyyə daşıyır. Müxtəlif xarakter və psixologiyaya malik insanların danışığının cəmidir. Bu cəhətinə görə də “yazıçı dili”, “obrazların dili” və s. dedikdə onların nitqi nəzərdə tutulur

-Dil ünsiyyət vasitəsidirsə, nitq ünsiyyətin yaradıcısıdır.

-Dil mahiyyətcə nitqdə öz əksini tapır. Dil təhlil, nitq qavrama, anlama yolu ilə dərk edilir

-Dili ünsiyyət vasitəsi kimi müşahidə etmək mümkün deyildir. Bu müşahidə fərdlərin nitqi və onun məhsulu olan mətn üzrə müəyyənləşdirilir

-Nitq daha çox sintaksislə əlaqədardır, onun sinonimi kimi işlənir

-Dil mövcud olan bütün vahidlərin məcmusu kimi fəaliyyət göstərir

-Nitq işləndiyi şərait zamanı qarşılaşdığı kənar hadisə və amillərin təsirinə məruz qalır. Bu halda dil normalarının təsirindən xilas olmaq üçün həmin normaların praktik təcrübəsindən faydalanır.

-Nitq dil ilə müqayisədə mütəhərrik və dinamikdir, onun vahidləri nitq prosesində yaranır. Nitq dildə baş verən hər hansı dəyişikliyi tətbiq edir və onun qanuniləşməsini tənzimləyir.

-Dil nitq üçün baza rolunu oynayır. Nitq isə dili inkişaf etdirir, onun perspektivlərini müəyyənləşdirir

-Dil insan tələbatını nitq vasitəsilə ödəyir

-Dil həcmcə və kəmiyyətcə nitqdən çox genişdir

Dil öz funksiyasına görə də nitqdən fərqlənir. Dil cəmiyyətdə üç mühüm funksiyasını yerinə yetirir: a)ictimai-tarixi təcrübəni yaşatmaq; b)kommunikasiya rolunu icra etmək; c)intellektual fəaliyyət vasitəsi olmaq.

Nitqin də özünəməxsus vəzifələri mövcuddur:

a)Nitq prosesində əşyalar, hal-hərəkət, vəziyyət şərait, zaman və s. konkret adlandırılır; b)nitq prosesində sözlər vasitəsilə ümumiləşdirmələr aparılır; c)nitq prosesi fikir mübadiləsinə xidmət edir.

Dil və nitq tərkibinə görə də bir-birindən fərqlənir. Kommunikativ funksiyanın yerinə yetirilməsində iştirak edən əlaqə vahidləri dil və nitqin öz struktur məzmununa uyğun müəyyən edilir. Dilin strukturu onun ən böyük vahidi olan cümləyə əsaslanır. Sintaktik konstruksiyalardan söz birləşməsi və cümlə dilin qrammatik mövqeyini müəyyənləşdirən əsas meyar hesab edilir.

-Nitq isə öz strukturu tərkibinə cümlə ilə yanaşı, abzas və mətni də daxil edir. Dildə ən böyük vahidlərdən sayılan cümlə nitq üçün ən kiçik vahid hesab olunur.

-Nitq dil ilə müqayisədə mütəhərrik və dinamikdir. Düzdür, ictimai ünsiyyətin bu iki formasının biri o birinə nisbətən əsas, digəri isə ondan törəmədir. Yəni dil əsas nitq isə ondan törəmədir. Dil vahidləri olan fonem, leksem, söz birləşmələri və cümlələr nitq prosesində formalaşaraq, özlərinə işlənmə təcrübəsi qazandırır. Bu vahidlər müxtəlif şəraitlərdə müəyyən məqsədlər üçün nitqə fikir mübadiləsi, hər hansı informasiyanı almaq (və ya ötürmək) zərurətini ödəmək məqsədilə xüsusi vasitə kimi daxil olur.

-Dil isə nitqlə müqayisədə sabitdir, dəyişmir (və ya az dəyişkəndir). Nitq isə cəmiyyət həyatında baş verən keçid dövrlərində daha dinamik səciyyə daşıyır. O xalq kütlələrini öz azadlıqları, müstəqillikləri uğrunda mübarizəyə istiqamətləndirən başlıca vasitəyə çevrilir. Bu cür kütləvi hərəkatların geniş miqyas aldığı bir məqamda ictimai azadlıq ideyalarının dalğalandığı ərəfələrdə nitq mədəniyyəti də məzmun və formaca təkmilləşmə mərhələsinə qədəm qoyur.

Dil nitq üçün ilkin şərt olmaqdan başqa, həm də nitqin məhsuludur. Dil insan tələbatını nitq vasitəsi ilə ödəyir. Bu əlamətlərinə baxmayaraq dil həcmcə və kəmiyyətcə nitqdən genişdir. Yeni dil həm kollektivdə hər bir üzv üçün fərdi, həm də kollektivin hamısı üçün ümumi kommunikativ xidmət göstərir. Odur ki, dil dünyada olan hər bir xalqın və millətin ən önəmli mövcudluq faktıdır.

Dildə elə bir dil faktı, elə bir hadisəsi yoxdur ki, o nitqdə təzahür etməsin. Lakin nitq dili tam şəkildə əks etdirə bilməz. Yəni həcmindən asılı olmayaraq bir nəfər natiqin nitqi öz məzmununda bütöv dil vahidlərini əhatə etmək imkanında deyil.

Hər bir milli dil onun sahibi olan cəmiyyətin şüurunda lüğət kimi mövcuddur. Xalqın hər bit nümayəndəsi mövcud olan sözü eyni ilə dərk edir və yaddaşında saxlayır. Amma həmin leksik vahidlərdən (sözlərdən) heç də hamı eyni məqsədlə yararlanmır. Hər kəs öz qabiliyyəti və bacarığına görə müəyyən məqsədlər üçün istifadə edir ki, bu isə artıq dil yox, nitq hesab edilir. Demək, nitq insan danışığının cəmidir.

Müasir dövr cəmiyyətin rəngarəng iqtisadi, siyasi, ədəbi-mədəni hadisələrlə zəngin olduğu bir dövrdür. Bunların cəmiyyət həyatında nə dərəcədə rol oynadığını nitqlə

müəyyənləşdiririk. Nitq həm bu cür ictimai hadisələrin inkişafına, tətbiqinə kömək edir, hım də belə hadisələrin fonunda məzmunca yeniləşir, cilalanır. Özünə yeni sahələr kəşf edir.

Dil mədəniyyəti anlayışı çox geniş və məzmunca əhatəli bir məfhumdur. Bu anlayışı ifadə etmək üçün dilçilikdə "dil mədəniyyəti" və mədəni dil terminlərindən istifadə olunur. Dil mədəniyyəti lüğət tərkibi baxımından geniş olduğu qədər də məzmunca zəngindir. Məzmunca zəngin olan dil, eyni zamanda, çox həssas və zərif olur. Bu mənada dilimiz mədəni cəhətdən yüksək səviyyəli bir dildir. Bu dilin mədəni keyfiyyətini yüksəldən onun əsas vasitəsi sayılan hər cür leksik vahidin: bədii, elmi, həqiqi və məcazi, monosematik və polisemantik, frazeoloji və terminoloji və s. olmasıdır. İstər fonetik sistemi, lüğət tərkibi, istərsə də qrammatik quruluşu baxımından mükəmməl olan dilimiz istənilən fikri dərəcəsindən və keyfiyyət tutumundan asılı olaraq, ən yüksək tərzdə ifadə etmək iqtidarına malikdir.

İctimai ünsiyyət vasitəsi olan dilimiz müxtəlif təbəqələrin mədəni səviyyəsini onların öz yaşam tərzinə müvafiq şəkildə əks etdirmək qabiliyyəti olan dillərdən sayılır. Yəni dil mədəniyyəti ictimai mənşəyin müəyyən edilməsi qabiliyyətinə görə də rəngarəngdir. Nəinki hər təbəqənin mədəni səviyyəsini ümumi əlamətlərinə görə, həm də həmin təbəqəyə mənsub hər kəsin fərdi cəhətdən, xarakterik xüsusiyyətləri baxımdan da təyin edilməsini təqdir etmək dil mədəniyyətimizin kommunikativ funksiyası daxilindədir.

Dil mədəniyyəti ədəbi dilin həm yazılı, həm də şifahi qolları ilə bağlıdır. Yazılı ədəbi dil əlifba, orfoqrafiya, terminologiya, durğu işarələri; şifahi ədəbi dil isə orfoepiya, vurğu, intonasiya, ahəng, ton və s. məsələlərini tədqir edir. Məlumdur ki, bir çox dünya dilləri hələ çox qədimdən yazıya sahib olmuş və zaman-zaman öz yazı mədəniyyətlərini formalaşdırmışdır.

Dil mədəniyyəti tarixi səciyyə daşıyır. Ayrı-ayrı dövrlərdə cəmiyyətin inkişafı ilə əlaqədar müxtəlif dil faktları, məzmunca rəngarəng olan dil hadisələri meydana gəlir. Bəzi dil faktları müasir səviyyəyə müvafiq gələrək dilə keçir, elələri də olur ki, köhnələrək dili tərk edir. Bu linqvistik proseslər dilin ayrı-ayrı qatlarında (yaruslarında) olsa da, daha çox fonetik sistemdə, xüsusilə onun orfoepiya və orfoqrafiya sahələrində müşahidə olunur.

Beləliklə, dil mədəniyyətinin inkişaf yolları müəyyənləşir. Elmin, texnikanın tərəqqisi ilə əlaqədar əksər dünya dillərində, o cümlədən Azərbaycan dilində də neologizmlər, terminlər meydana gəlir. Müasir Azərbaycan dili dünyanın ən nüfuzlu, inkişaf etmiş mədəni səviyyəli dillərindən biridir. Bu keyfiyyət, ilk növbədə, dilimizin lüğət tərkibinin və ədəbi normalarının zənginliyi ilə ölçülür. Dil öz inkişafını nitqdə tapdığından mədəni gücünü də məhz leksik bazası sayılan dildən alır.

QAYNAQLAR

1. Axundov A. Dul və mədəniyyət. Bakı, “Yazıçı”, 1992
2. Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri, Bakı, “Bakı Universiteti” nəşriyyatı, 1992
3. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, ADPU-nun mətbəəsi, 2014
4. Ferdinand de Sössür. Ümumi dilçilik kursu. Bakı, “BDU nəşriyyatı”, 2003
5. Hacıyeva İ.H. Nitq mədəniyyəti. Dərs vəsaiti, AZTU-nun mətbəəsi, 2011
6. Qurbanov A. Ümumi dilçilik, II cild, Bakı, “Elm”, 2011
7. Nitq mədəniyyəti məsələləri, Bakı, “Elm”, 1969
8. Rəfiqə Teymur qızı. Bədii dilin özəlliyi və gözəlliyi. Bakı “Ozan”, 2000
9. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika. Bakı, “Nurlar”, 2014

Nitq mədəniyyəti və Dil mədəniyyəti: Unifikasiya və diferensiasiyası

Xülasə

Nitq mədəniyyəti, hər şeydən əvvəl, ədəbi dilin normalarına, meyarlarına və tələblərinə əməl edilməsidir. Dil öz inkişafını nitqdə tapır, nitq isə materialını bazası olan dildən alır.

Культура речи и языка: Обзор унификации и дифференцации

Резюме

Культура речи выполняет прежде всего нормы, критерии и требования литературного языка. Язык находит свое развитие в речи и речь базируется на языке.

Speech and language culture: Unification and differensiation

Summary

Speech culture first of all means realization of action of norms of literary language criteria and demands. Language finds its development in speech but speech gets its material from language.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Aygün BALAMƏMMƏDOVA
Bakı Avrasiya Universitetinin doktorantı
Azərbaycan Respublikası Prezidenti yanında
Dovlət İdarəçilik Akademiyası
dillər kafedrasında alman dili müəllimi

DİLDƏ REALİLƏR VƏ ONLARIN QRUPLARI

Açar sözlər: *Reali, Tərcüməşünaslıq, Dilçilik, Leksik vahid, Milli kolorit, Məişət tərzi, Xalqın tarixi, İctimai-siyasi həyat, Tərcüməsi izah tələb edən söz*
Ключевые слова: *Реалия(реалии), .Перевод, .Лингвистика, Лексическая единица, Национальный колорит, . Бытовой стиль, .Национальная история, . Социально-политическая жизнь, Необходимая информация перевода слова*
Keywords: *realia, translation studies, linguistics, lexical unit, national colouring, living standard, history of the people, socio-political life, the word requiring the translation and explanation*

Reali termini latın mənşəli realis (“maddi, cismi”, “real”)-“şey”, “əşya” mənaları verir.[1] (Словарь иностранных слов. М., 1964).Azərbaycan dilçiləri bu termini iki formada: reali (realilər[2]) və realiya (realiyalar[3]) formalarında işlədirlər. ([2] M.İ.Adilov, Z.Verdiyeva, F.M.Ağayeva. İzahlı dilçilik terminləri. Bakı, 1989, səh.224.) “Reali” terminin burada verilmiş izahı rus dilçiliyindən götürülmüşdür. Reali termini tərcüməşünaslıqda iki mənada işlənir. Bu terminlə, birincisi, denotat, yəni predmet, ikincisi isə leksik vahid-söz və ya söz birləşməsi ifadə olunur.

Rus dilçiliyində reali termini çoxdandır ki, işlənir. A.V. Fedorov bu terminlə “başqa dillərdə ekvivalenti olmayan xüsusi milli sözləri” nəzərdə tutur.[3] (А.В. Федоров. Введение в теории перевода. М., 1958, с.140) S.V.Vlaxov və S.Florin isə realiləri “ başqa xalqa məxsus spesifik anlayışlar bildirən” söz qrupları hesab edir.[4] (С. Влахов и С.Флорин. Непереводимое в переводе. Реалии. Мастерство перевода. М., 1970, с.433.) V.S. Vinoqradov realilərə tərif verməzdən əvvəl fon informasiyası haqqında məlumat verir və göstərir ki, fon informasiyası müəyyən millət üçün xarakterik olan sosial-maddi mədəniyyətin həmin milləti təmsil edən kütlə tərəfindən qəbul olunaraq onun dilində əks olunmasıdır. O, realiləri təyin etmək üçün tərkibində fon məlumatı olan olan söz qruplarını müəyyənləşdirir və buraya milli birliyin tarixinə və dövlət quruluşuna aid spesifik faktları, onun coğrafi mühitinin xüsusiyyətlərini, keçmiş və indiki dövrlə bağlı maddi mədəniyyətə xarakterik əşyaları, etnoqrafik və folklor anlayışlarını və sairəni daxil edir.[5] (В.С.Виноградов. Лексические вопросы перевода художественной прозы. М., 1987, с.87.

“Reali” termini Ayərbaycan dilçiliyində demək olar ki son illərdə işlədilməyə başlamışdır. Həmin terminə və onun bildirdiyi anlayışa biz N.Xudiyevin tədqiqatında rast gəlirik. N.Xudiyev realilərlə əlaqədar qeyd edir ki hər hansı bir xalqın özünəməx-

sus məişət tərzi milli adət ənənələri koloriti hətta mifik təfəkkürü ilə bağlı lekisik vahidlər də mövcuddur. Bu cür leksik vahidlər xalqın bədii ədəbiyyatında da öz əksini tapır. Deməli, hər hansı xalqın dilində bədii ədəbiyyatında işlənən onun məişəti milli təfərrüatı və s. ilə əlaqədar sözlər realilər adı altında qruplaşdırır. Realilər ən çox bədii ədəbiyyatın tərcüməsi ilə yayılır. Belə ki ədəbiyyatın milliliyini və xəlqiliyini tamamlayan vasitələrdən biri də realilərdir.[1] (N. Xudiyev. Tərcümə ədəbiyyatı və ədəbi dilimiz. Bakı 1991 səh.37.

S. Vlaxov və S.Florin bu məsələyə həsr etdikləri oçerkdə realiləri aşağıdakı kimi səciyyələndirir: Realilər xalq dili sözləri olub coğrafi mühitə, mədəniyyətə, maddi məişətə, yaxud xalqa, millətə, ölkəyə, qəbiləyə aid əşya anlayış və haidsələrin adlarıdır. Beləliklə realilər yerli və tarixi koloritin daşıyıcılarıdır. Bu səciyyəyə malik leksik vahidlərin ətraflı elmi səciyyəsi verilmişdir. Realilər sırf milli xarakterli məişətlə bağlı əşyaların, mücərrəd varlıqların adını ümumiləşdirir, əks etdirir. Realilər elə leksik vahidlərdir ki onları başqa dilə tərcümə etmək mümkün olmur.

Realilər ən çox bədii tərcümə ilə bağlı yada düşür. Bu leksik vahidlər bir tərəfdən bədii əsərlərin tərcümə olundugu dili zənginləşdirir, digər tərəfdən isə əsərin mənsub oldugu xalqın milli koloritini adət ənənlərini məişət tərzini mifologiyasını, milli təfəkkürünü, hətta tarixini yaşadır, onun yaşadığı zamanın ictimai-siyasi ahəngini özündə əks etdirir. Aşağıda Həmid Arzulunun etdiyi bədii tərcümədən bir neçə misal gətirək: Gotthold Ephraim Lessingin " Nathan der Weise" ("Müdrik Natan") adlı dram əsərində „Tempelherr" sözü işlədilir: " Wer war das? Wo ist mein Recha? Wer rettete sie?-Ein junger *Tempellherr*, den, wenig Tage zuvor man hier gefangen eingebracht und Saladin begnadigt hatte" (G.E.Lessing. Nathat der Weise. S.5) XII əsrin əvvəllərində Fələstində meydana gələn dini cəngavərlər cəmiyyətinə məxsus şəxslər Tempelherr adlandırlırdı. Əsəri tərcümə edən Həmid Arzulu "Tempellherr" sözünü olduğu kimi saxlamışdır:

" Natan: Kimdir o şəxs? Haradadır? Mənim əzin Rehamı de, xilas edən o şəxs kimdir?

Dayə: Cavan, cəsur mücahiddir, Tempellherrdir."

(Q.E.Lessing "Müdrik Natan")

Həmin əsərdən daha bir misal:"Sultan" sözü əsərdə olduğu kimi saxlanılıb: "Wie? Dem Sultan Saladin das Leben ließ? „ Necə? Salədini əhv eləyib?" (Q.E.Lessing " Müdrik Natan") Daha sonrakı səhifələrdə "dərviş" sözünü Lessing alman dilində də " Derwisch" olaraq verir: Natan: Ich seh, dort mustert mit neugier'gem Blickç Ein Muselmann mir die beladenen Kameele. Kennt ihr ihn? Daja : Ha. Euer Derwisch. (Natan : Fikir verin, dəvələrin yüklərinə çox diqqətlə, Nəzər salan o müsəlman görən kimdir? Dayə: Hə, dərvişdir.) (Q.E.Lessing " Müdrik Natan" səh 12)

Q.E.Lessing bu əsərdə bir çox sözləri yerli xalqın dilində səsləndiyi kimi saxlayıb. Məsələn : Natan-" Was ich vermag, mir stets willkommen.-Aber Al-Hafi Defterdar des Saladin, Der, dem (G.E.Lessing. Nathat der Weise. S.13) Həmid Arzulu bu hissənin tərcüməsini ağağıdakı kimi verib: Dərviş: Nəylə gəlsən, mən ömrümdə yox deməram. Lakin Sultan Saləddin sarayının dəftardarı Əl-Hafiyə... təkcə ona... (Q.E.Lessing " Müdrik Natan", səh 30,)

S. Vlaxov və S.Florin belə qeyd edirlər ki realilər yarandığı dilin daşıyıcısı olan xalqa məxsusdur, cünki o həmin dildə meydana gəlmişdir, realiləri başqa dillər qonaq kimi qəbul edir, bunlar həmin dildə ola bilsin ki, bir gün, ola bilsin bir il qalsın. Elə

hallar da olur ki, reali keçdiyi dildə kök salır və ömürlük həmin dildə qalır.[2] (С.Влахов и С.Флорин. Непереводимое в переводе. Реалии. Мастерство перевода. М., 1970, с.437). Bu izah bir çox cəhətdən reali anlayışını əhatə edir. Lakin müəllifin belə bir fikri ilə razılaşmaq olmur. Onun qeyd etdiyinə görə realilərin başqa dillərdə dəqiq qarşılığı yoxdur. Bu məhfumun heç bir başqa dildə olmamasını yoxlamaq çətindir. Bunun üçün bütün dünya dillərini tutuşdurmaq lazım gələrdi. Buna görə də S.Vlaxov S.Florin tərəfindən realilərə verilən tərifin müəyyən qədər dəqiqləşdirilməsinə ehtiyac olduğu meydana çıxır. A.V.Fyodorov da realiləri başqa dillərdə ekvivalenti olmayan xüsusi milli sözlər kimi qəbul edir.[3] (А.В. Федоров. Основы обшей теории перевода. s. 135).

Müəyyən leksik-semantik qruplar üzrə aparılan tutuşdurmalar nəticəsində göstərmrək olar ki, bir vaxtlar, məsələn, rus geyim, yemək, məişət əşyalarının Azərbaycan dilində ya qarşılıqlı yaranmış, ya da onlar bu dildə vətəndaşlıq hüququ qazanmışdır. Buna misal olaraq *borş, kotlet, bulki, sup* kimi xörək adlarını göstərmək olar. Ruslarla sosial-iqtisadi və mədəni əlaqələrlə *sup* sözünün Azərbaycan qarşılıqlı olaraq *şorba* sözü yaranmışdır.

Buradan belə nəticəyə gəlmək olar ki, realilər nisbətən dəyişkənliyə malikdir. Müəyyən tarixi inkişaf prosesində reali başqa dilin ümumişlək leksik vahidinə çevrilə bilər. E. Allahvediyeva realilər haqqında geniş məlumat vermişdir. Müəllif yazır: "... realiyalar iki dilin leksik səviyyədə tutuşdurulmasında, yaxud bir dildən digərinə tərcümə prosesində müəyyənləşdirlir. Bir xalqın dilində işlənən, həmin xalqın maddi mədəniyyətinə, məişətinə, coğrafi mühitinə, ictimai-tarixi xüsusiyyətlərinə aid əşyaların adını bidirən, konkret, başqa bir dildə işlənməyən, tərcüməsi izah tələb edən sözlər, obyekt dilə münasibətilə mənbə dildə mövcud olan realiyalardır".[1] (E.Allahverdiyeva. Bədii tərcümənin linqvistik problemləri.) E.Alahverdiyeanın realilərə verdiyi bu izah əvvəlki müəlliflərin izahlarına nisbətən əhatəli və dəqiqdir. Biz də bu sonuncu müəlliflə razılaşıb onun realilərə verdiyi tərifi qəbul edirik.

Beləliklə, hər bir dildə öz ətrafındakı sözlərdən fərqlənməyən sözlər vardır, onlar başqa dilə aid vasitələrlə çevrilmirlər və tərcüməçidən xüsusi yanaşma üsulu tələb edirlər. Onların bəziləri tərcümə olunduqları mətnə dəyişdiirlmədən keçir (transliterasiya olunurlar), başqaları isə özünün morfoloji və fonetik strukturunu qismən saxlayırlar, üçüncüləri isə qeyri bərabər, ilk baxışda "düzəldilmiş" leksik vahidlərlə əvəz edilir. Bu sözlər arasında məişət elementləri, tarix və mədəniyyətə aid sözlər olur. Bu kimi sözlər həmin xalqa, ölkəyə, yerə aid olur və başqa xalqlarda və ölkələrdə həmin sözlər işlənmir. Bu qəbildən olan sözlər tərcüməşünaslıqda reali adlanırlar.

Realilərin terminlərə oxşarlığı nəzərə çarpır. Bir sıra başqa sözlərdən fərqli olaraq realilər müəyyən anlayış, əşya və hadisəni bildirir. Adətən bunlar təkmənalı, sinonimləri olmayan sözlərdir, çox hallarda terminlər "xalqlararası " leksikaya daxil olurlar, onlar arasında müəyyən darixi dövr üçün məhdud olan sözlərə rast gəlinir. Bunu realilərə də aid etmək olar. Bundan əlavə, bu iki kateqoriya arasında bəzi sözlər vardır ki, onları bu və ya digər kateqoriyaya aid etmək mümkün olmur, elə sözlər də də vardır ki, onları qanuni əsasa görə hər iki kateqoriyaya aid etmək olar. Buna baxmayaraq terminlərlə reaililər arasında kəskin fərqlər vardır.

Terminlər elmi leksikanın əsasıdır. Onların fəaliyyət dairəsi ixtisasa və elmi ədəbiyyata aid olmasıdır. Başqa sahələrdə, əsasən bədii əsərlərdə, onlar müəyyən üslubi məqsəd üçün işlənir. Realilər isə əsasən bədii ədəbiyytda işlənir, burada yerli və tarixi

kolorit elementi olur. Onlara biz bəzi təsviri elmlərdə, əsasən təsvir olunan əşyanın adı, yaxud təmiz şəkildə termin kimi rast gəlirik.Termin adətən adı olduğu əşyanın yayılması ilə yayılır. Hər bir xalqın dilinə öz evi kimi daxil olur, bildirdiyi əşya ilə bu və ya digər yolla tanınır. Biz termindən "milli aidliyi" tələb edə bilmərik, o, bütün bəşəriyyətin nailiyyətidir və ondan hamı istifadə edə bilər. Reali isə bir xalqa məxsusdur, onun dilində yaranmışdır. Onu başqa dillər qonaq kimi qəbul edirlər, onlar həmin dildə bəzən bir gün, bəzən isə bir il qonaq olur, həmin dildə birdəfəlik qalır, ya onu zənginləşdirir, ya da həmin dilə "havayı yük" olur.

Terminlərlə reaililər arasında fərq onların meydana gəlməsində də görünür. Bir sıra terminlər bu və ya digər bir əşyanın, hadisənin və anlayışın adı olaraq eyni şəkildə yaradılır. Realilər isə təbii sözyaratma ilə meydana çıxır, bu isə təmamilə aydındır; reali xalq sözüdür, xalqın məişətilə sıx bağlı olan sözlərdir. Bu anlayışları (termin-reali) müqayisə etdikdə realilərin xarakter xüsusiyyətləri üzə çıxır. Bunun üçün realilərin müxtəlif növlərini müəyyən məntiqi ardıcıllıqla nəzərdən keçirək. Bu və ya digər dildə milli koloritlə bağlı olan bir dildən başqa dilə tərcümə zamanı çətinlik törədən söz və ifadələr külli miqdardadır. Hər halda onları bir sistem şəklində tədqiq etmək məqsədilə aid olduğu sahələrdə həmin söz və ifadələrinn isteminə əsaslanıb təxmini də olsa, müəyyən leksik-semantik qruplara bölmək lazım gəlir. S.Vlaxov və S. Florin həmin söz sinfini aşağıdakı dörd qrupa bölmüşdür:

1. Coğrafi və etnoqrafik realilər.
2. Folklor və mifologiyaya aid realilər.
3. Məişət reaileri.
4. Ictimai və tarixi reailiər.[1]

(С. Влахов и С.Флорин. Непереводимое в переводе. Реалии... М., 1970, с.433)

N.Xudiyev dilimizə tərcümə ədəbiyyatı hesabına keçən realiləri leksik-semantik cəhətdən beş qrupa cəmləşdirir: 1. Mənsub olduğu xalqın milli musiqisi ilə bağlı realilər. 2. Dini mərasimlər, adət-ənənələrə bağlı realilər. 3. Heyvandarlıqla bağlı realilər. 4. Məişətlə, geyimlə və s. bağlı olan realilər. 5.Hərbi sahələrə-sənayeyə, milli etnoslara və s. sahələrə aid realilər.[2] (N.Xudiyev. Tərcümə ədəbiyyatı və ədəbi dilimiz. Bakı, 1991, səh.44-45)

Burada N.Xudiyevin bölgüsü S.Vlaxov və S.Florinin verdiyi bölgüdən ilk baxışda fərqlidir. Lakin bu, ikinci bölgüyə diqqətlə yanaşılarsa, onun birinci bölgüdən fərqli olmadığı aydın olar. S.Vlaxov və S. Florinin bölgüsü ümumidir, əslində N.Xudiyevin xırdaladığı leksik-semantik qruplara daxildir. Birinci bölgüdə ümumiləşdirmə, ikinci bölgüdə isə xırdalama, daha çox təfərrüata varma hiss olunur.

Məlumdur ki, reali hesab olunan leksikaya çoxlu miqdarda söz daxildir. Onları küll halında öyrənmək, tədqiq etmək əvvələn, metodik cəhətdən düzgün deyildir. Digər tərəfdən isə, reailərin problemlərini bu cür, yəni onları küll halında tədqiq etmək qeyri-mümkündür. Dildə sistemlilik vardır. Dilin leksikasında, məsələn, Azərbaycan dilində təxminən 85 min söz, ingilis dilində 160-170 min söz vardır.[1] (Большой англо-русский словар в 2-х томах. 1987, т 2, М., 1988) Bu qədər sözü tədqiq etmək üçün onları semantik və qrammatik prinsiplərə uyğun olaraq nitq hissələrinə, hər bir nitq hissəsinə aid olan sözləri isə leksik-semantik qruplara, qrupları yarimqruplara, yarimqrupları mikroqruplara, sinonim cərgələrə qədər bölürlər. Leksikada semantik bölgü denotativ prinsipə əsaslanır. Yəni hər halda bir sözün arxasında müəyyən əşya və ya anlayış dayanır. Bu da konkret və ya abstrakt məfhumlardan ibarətdir. Bizi əha-

tə edən maddi aləmdə donotatlar-əşya və hadisələr ümumən siniflərə bölünür və onları adlandıran leksik vahidlər də bu yaxınlığa əsaslanaraq siniflənir. Realiləri də bu siniflərə əsaslanaraq siniflərə (məna qruplarına) bölmək mümkündür. Insanı əhatə edən ətraf mühitdəki hadisələr insan beynində sistemli şəkildə mövcuddur. Nitq zamanı danışan bu və ya digər sözü bir göz qırpımında tapıb işlədə bilir. Bu da dildə hər şeyin sistemliliyi ilə izah olunur.

Beləliklə, realilərin də əsaslı tədqiqi üçün, semantikasından çıxış edərək onları müəyyən qruplarda cəmləşdirmək olar. Əlbəttə, qrupların sayını artırmaq da olar. Bu da gələcəkdə həmin problemin tədqiqatçısından asılıdır. Biz S.Vlaxov və S.Florinin bölgüsünü əsas tuturuq və realiləri onların bölgüsünə əsasən qruplaşıdırırıq:

A. Coğrafi və etnografik realilər:

1. Coğrafi anlayışlar.

Savanna, tundra, taiga-tayga, fiord-fjord, north-nord, north-üest-nord-vest, north-east-nord-ost və s.

2. Etnografik anlayışlar: milli qrupların, qəbilələrin adı, yaxud ləqəbləri: bantu-bantu, guzul (gu: ‘ zu:l)-gutsul, Bashkir-başkir, Jakut (ja:kut)-yakut, Eskimo-eskimos, kalmuk-kalmık, Uzbek (u:z) özbək, albanian-alban və s.

B. Folklor və mifoloji anlayışlar:

Saga (‘sa:ga)-saqa, bylina (bı’li:nə), runes-run, Edda-edda, skald, minnezinger-minnezinger, troumbador (‘tru:bəduə)-, trubadur, akyn-akın, ashug-aşıq, cahstoska-çastoşka və s.

C. Məişət realiləri :

1. Xörək adları, ərzaq və içkilər: blin-blin, pelmeni-pelmen, varenik-varenik, pilav, pilaff-plov, whisky-viski, absinth-absent, koumiss-qımız, lemon-limon, lemonade-limonad, kefir-kefir, sherbet-şərbət, kabab, dushbara-düşbərə, brynza-brınza, pudding-puddinq və s.

2. Geyim adları və bəzək şeyləri: kimono-kimono, sombrero-sombrero, sarafan, kokosnik-kokoşnik, kubanka-kubanka, moccasin-makasin və.s.

3. Yaşayış yeri (ev), ev əşyaları və qab-qacaq adları: cottage-kottec, amphora-amfora, wigwam-viqvam və s.

4. Daşıma vasitələri: ricksha-rikşa, troika-troyka, landau-lando, canoe-kanoye, junk-conka, limouse-limusin və s.

5. Musiqi alətləri: rəqslər, oyunlar: balalaika-balalayka, bayan-bayan, saz-saz, tar-tar, kamancha-kamança, gusli-qusli, castanet-kastanet, banjo-banco, kazatchok-kazaçok, hopak-qopak, tarantella-tarantella, cricet-kriket, gorodki-qorodki, whist-vist, lapta-lapta, golf-qolf, lyre-lira, rock’n’roll-rok-n-roll və s.

6. Ölçü vahidləri: lev, lew-lev, sterling-sterlinq, lira-lirə, dollar-dollar, real-real, centime-santim, cent-sent, pfennig-pfennik, manat-manat, copeck-qəpik, ton-ton, pood-pud və s.

Ç. İçtimai və tarixi realilər :

zəngin maddi mədəniyyət nümunələri (müxtəlif sayda şirli saxsı qab qırıqları, XIII-XV əsrlərə aid mis və gümüş sikkələr) tapılmış və qeyd olunmuşdur ki, Sulut orta əsrlərdə, xüsusilə son orta əsrlərdə şəhər səviyyəsinə qədər yüksəlmiş iri yaşayış məntəqəsi olmuşdur. Kəndin şimalda, Xirəki adlı ərazidə (təqr. 1330 m yüksəklikdə) çay daşından hörülmüş qala divarları və dördkünc formalı bürc qalıqları aydın şəkildə izlənir. Bəzi yerlərdə istehkamlar ikiqat qala divarları ilə möhkəmləndirilib. Arxeoloji axtarışlar zamanı ərazidən ilk orta əsrlər üçün xarakterik olan maddi mədəniyyət nümunələri tapılmışdır. Mütəxəssislər həmin tapıntılara əsasən, buranın təqribən 1600-1700 il əvvəl yaşayış məskəni olduğunu bildirirlər (10, s. 329).

Maraqlıdır ki, XIV əsrin tarixçisi və coğrafiyaşünası Həmdullah Qəzvini 1340-cı ildə yazdığı "Nüzhət əl-Qülub" ("Qəlblərin əyləncəsi") əsərində Azərbaycan şəhərləri və yaşayış məntəqələrindən bəhs edərkən "Xirək" adlı yerin də adını çəkir. Onun yazdığına görə, Xirək Bərdənin yaylağıdır. Bura bulaq suları, bol otlaqları, yaxşı ov yerləri olan gözəl bir məkandır. Bərdə əhalisi yayda oraya köçür, qış tərəfi şəhərə qayıdırlar (11, s. 54).

İsmayıllı-Basqal avtomobil yolunun kənarındakı Tircan kəndinin cənubunda-"Soğanlıq" adlanan ərazidə antik dövrə aid nekropol mövcuddur. Qədim albanlara məxsus bu abidədən e.ə. I minilliyin son rübünə aid xeyli maddi mədəniyyət nümunələri (saxsı qablar, dəmir əmək alətləri, silahlar və s.) əldə olunmuşdur. Bundan əlavə, qəsəbənin 3-4 km cənub-şərqində-Şamdlan adlı orta əsr yaşayış yerində aparılan kəşfiyyat xarakterli axtarışlar zamanı əldə olunan tapıntılar da bu ərazinin VIII-XIII əsrlərə aid yaşayış yeri olduğunu düşünməyə imkan verir (12, s. 286).

Beləliklə, Ağsu-İsmayıllı abidələrinin arxeoloji tədqiqi bu böğlgənin Azərbaycan tarixində tutduğu yeri müəyyənləşdirmiş, eyni zamanda ilk orta əsrlərdə Azərbaycanda (Qafqaz Albaniyasında) mövcud olmuş inzibati-siyasi vahidlərdən birinin-Girdiman vilayətinin Şirvan ərazisində olması ehtimallarını da elmi şəkildə əsaslandırmağa imkan vermişdir. Qalıqları günümüzə qədər gəlib çatmış Girdiman qalasının isə 640-cı ildə Cavanşir geri qayıdarkən ərəblərə və onlara mübarizədə məğlub olmuş sasanilərə müqavimət göstərərkən müdafiə məqsədilə tikildiyi bildirilir.

Basqalda da yurdumuzun uzaq keçmişindən söz açan əzəmətli qala qalıqlarına, tarixi-memarlıq incilərinə, qəbiristanlığa, dini abidələrə, sənətkarlıq məhəllələrinə, tarixi tikililərə rast gəlmək mümkündür. Bu abidələr, xüsusilə də qəsəbənin bir-birinə bitişik evləri, qovuşuq həyətləri, çay daşları ilə döşənmiş əyi-üyrü döngələri, dar küçələri, dərələri, məhəllələri buranın çoxəsrlik tarixindən xəbər verir. Xüsusilə Şamaxı-Qəbələ ticarət yolunun üstündəki hündür təpəlikdə aşkar edilmiş "Qalalar" (yerli əhalinin dediyinə görə ətrafı qala divarları ilə əhatə olunduğu üçün belə adlandırılmışdır) arxeoloji abidəsi daha çox diqqəti cəlb edir. Abidənin "Qalalar" adlanması alimləri ciddi şəkildə maraqlandırmış və XX əsrin 60-70-ci illərində burada arxeoloq Fazil Osmanov tərəfindən aparılmış tədqiqatlar zamanı təqribən 1800-2000 il əvvələ aid qala və yaxud şəhər tipli yaşayış yerinin olması ehtimalı irəli ürülmüşdür. Lakin ərazidə fundamental arxeoloji qazıntı işləri aparılmadığından, verilən məlumatlar şübhəsiz ki, tam deyil və bu müdafiə divarlarının hə vaxt, hansı məqsədlə çəkildiyi tam aydınlaşdırılmamışdır (2, s. 192).

Tədqiqatlar zamanı o da məlum olmuşdur ki, bölgədə tez-tez baş verən güclü zəlzələlər nəticəsində "Qalalar" şəhər yeri torpağın dərinliyinə çökmüş, lakin bu zaman tikililərin bəziləri salamat qalmışdır. Yerli əhalinin məlumatına görə, illər uzunu ətraf kəndlərin əhalisi inşaat materialı əldə etmək məqsədilə həmin tikintiləri dağıdaraq,

materiallarından şəxsi ehtiyacları üçün istifadə edilmişdir. Abidənin ərazisi isə zaman keçdikcə torpaqla dolduğundan, ərazinin böyük bir hissəsi tikinti sahəsi kimi əhaliyə paylanmış, burada müasir evlər və bağlar salınmışdır.

Basqalın cənub kənarında "Qala yeri" adlanan sahədə də qalınlığı 1 metrə çatan qala divarlarının izləri qalmaqdadır. Təəssüf ki, qala divarları uçub dağıldığından onun formasını müəyyənləşdirmək mümkün olmamışdır. XI-XII əsrlərin yadigarı olan bu abidə təbii-coğrafi xüsusiyyətlərinə və hərbi-strateji mövqeyinə görə Basqal sakinlərinin müdafiə qalasını və yaxud gözətçi məntəqəsini xatırladır (13, s. 48-50). Qala divarı qalıqlarının hörgüsündə tətbiq olunan çay daşı, qaya daşı, gil və s. inşaat materialı onun möhkəmliyini göstərir. Eyni zamanda qala divarlarının mövcudluğunu tədqiqatçılar, yaşayış yerinin şəhər tipli yaşayış məntəqəsi olduğunu təsdiqləyən çox mühüm əlamət hesab edirlər (2, s. 189).

"Qala yeri" ərazisindən çaydaşı, əhəngdaşı, həmçinin digər tikinti qalıqlarına, metal əmək alətlərə, şüşə əşyalara, şirsiz və tək-tək şirli saxsı qab nümunələrinin, digər məişət əşyalarının nümunələrinə təsadüf edilmişdir. Əldə olunan tapıntılar arasında dulusçuluq məmulatı (nehrə, küp, badya, eyni zamanda mətbəx üçün hazırlanan müxtəlif formada dulus qablar) çoxluq təşkil edir. Onların hamısı dulus çarxında hazırlanmış və öz forma və texniki xüsusiyyətlərinə görə, Azərbaycanın Beyləqan, Bərdə, Şamaxı, Qəbələ, Gəncə, İsmayıllı və Ağsu kimi orta əsr şəhərlərində tapılmış maddi mədəniyyət nümunələri ilə uyğunluq təşkil edir. Buradan aşkar edilən müxtəlif ölçülü dən daşları (yarma daşları), həvəngdəstələr, sürtgəclər və s. maddi mədəniyyət nümunələrinin qalıqları da Basqalda bir sıra sənət sahələrinin inkişaf etdiyini göstərir. Bu cür tapıntılar qəsəbənin "Həsənxan bağı" adlanan ərazisində də aşkar edilmişdir (14, s. 55-57).

Ərazidə əldə edilən mis sikkələr bu qədim yaşayış yerinin iqtisadi, siyasi və mədəni həyatını öyrənmək, xüsusilə ticarət əlaqələrini aydınlandırmaq baxımından böyük əhəmiyyət daşıyır. Sikkə nümunələrinin azlığı isə yuxarıda qeyd olunduğu kimi, hələlik ərazidə arxeoloji qazıntıların aparılmaması ilə əlaqədardır. Bununla belə, bəzi elmi-tədqiqat əsərlərində Basqalın XVIII-XIX əsrlər dövrünün siyasi, iqtisadi və mədəni həyatına dair müəyyən məlumatlar əksini tapmışdır. Məsələn, arxiv materiallarına istinad edən tədqiqatçı Nailə Bayramova qeyd edir ki, XVIII yüzilliyin 90-cı illərindən etibarən Şamaxı xanlığının ərazisi 17 mahala bölünmüşdü və Basqal Ağsu, İsmayıllı və Şamaxı rayonlarının ərazisini özündə birləşdirən Houz mahalının tərkibinə daxil idi. Mahalın əhalisi 33205 nəfər idi və əsas etibarilə əkinçilik və sənətkarlıqla məşğul olurdular. Houz mahalı Şamaxı xanı Mustafa xanın qohumları Xancan, Mərdan və Mehdi bəyə məxsus olmuş və onlar tərəfindən idarə edilmişdir (15, s. 44).

Mahal hakimi vəzifəsini icra edən naiblər əsas etibarilə təsərrüfat və inzibati məsələlərlə məşğul olur, xanların sərəncamlarını icra edir, vergilərin vaxtı-vaxtında toplanılması işi ilə məşğul olurdular. Sənətkarlar üzərinə vergi qoyulması, vergilərin qaydaya salınması da naibin öhdəsinə düşürdü (16, s. 451). Buradan toplanan vergilər mahal mərkəzinə, oradan da xanlığın mərkəzi olan Şamaxıya daxil olurdu. Yeri gəlmişkən onu da qeyd edək ki, 1824-cü ilin bəzi vergi sənədlərində də Basqalın inzibati cəhətdən Şirvan əyalətinin Houz mahalının tərkibində, 1851-ci ilə aid sənədlərdə isə Şamaxı qəzasının Houz dairəsinə daxil olduğu göstərilir.

Beləliklə, bütün məlum faktları və sübutları nəzərə alan tədqiqatçılar Basqalın yaşayış məntəqəsi olaraq hələ eramızın əvvəllərindən mövcud olduğunu və son orta əsrlərədək öz əhəmiyyətini itirmədiyini ehtimal edirlər. Lakin bununla bağlı son və qəti

fikir heç şübhəsiz ki, ərazidə geniş arxeoloji qazıntıların aparılmasından sonra söylənə bilər.

Müasir Basqal qəsəbəsi orta əsrlər Azərbaycan şəhərlərinin bir çox xüsusiyyətlərini özündə yaşadan unikal yaşayış məntəqələrindən biridir. Plan-məkan quruluşuna görə, qəsəbə iki hissəyə bölünür: "Aşağı o tay", "Yuxarı bu tay". Onları bir-birindən Basqal çayı üstündə inşa edilmiş körpü sonra ayırır. Çayın sol sahilində-"Bu tayda" qərarlaşan qədim Basqal dağın döşündə amfiteatr sayağı elə salınmışdır ki, uzaqdan baxanda evlərin üst-üstə tikildiyini güman etmək olar. Küçələr darısqal, əyri-dolanbac olduğundan, onların xeyli hissəsində nəqliyyat hərəkət edə bilmir. Bununla belə, Bakının İçərişəhərini xatırladan Basqalın səliqəli, təmiz küçələrinə heyranlıqla tamaşa etməmək mümkün deyil. Onun baş küçəsi bazar meydanından başlayaraq çay qırağı ilə Kəlfərəc yolunadək uzanır və sakinlərinin əksəriyyəti tarixən toxucu və boyaqçı olub. Arxeoloq A.R.Fituni "Şirvanın son paytaxtının tarixi" məqaləsində yazır: "... 1795-ci ildə İran şahı Ağa Məhəmməd Şah Qacarın Gürcüstana, Muğana, Talış və Şirvana hücumu zamanı Mustafa xan (Şamaxı xanı) öz yaxın qohumları ilə Fit dağındakı qalaya çəkilir. Onlar qaladan çox da uzaq olmayan Basqal adlı şairanə yerdə ipək əyirən fabrik açır (16, s. 189). Yaşlı nəslin nümayəndələrinin söylədiyinə görə, "o tay" adlanan hissə təxminən son 30-50 ildə salınmış və orada bir neçə ipək sexi fəaliyyət göstərmişdir (artıq neçə illərdir ki, o sexlər daha işləmir).

Həyətyanı torpaq sahəsinin azlığı Basqalda evlərin sıx halda yerləşməsinə səbəb olmuşdur ki, bu səbəbdən də Basqal bir növ orta əsr Şərq şəhərlərini xatırladır. Təsadüfi deyil ki, XIX əsrdə burada olmuş bəzi müəlliflər öz yol qeydlərində Basqalı məhz "şəhər" olaraq təqdim etmişlər. Məsələn, XIX əsr rus müəllifi M.N.Lebedev-Kostromsev "Qafqaz" qəzetinin 1822-ci il 310 sayında yazır: "....*Basqal şəhərinə* qəza mərkəzi kimi Şamaxıdan Rusiya atlarından kiçik, lakin zərif və iti yerişli kəhər atla gəldik. Atın sahibi yerlilərin "çarvadar" adlandırdığı orta yaşlı bir adam öz heyvanına elə bil dil öyrətmişdi. At öz sahibini mütilliklə dinləyir və iri daş topası ilə dolu olan maneələri, yoxuşları, gur dağ çayını dəf edirdi.

....*Basqal şəhərinə* axşam vaxtı yetişdik. Neft lampaları evlərin eyvanını, həyətləri kifayət qədər işıqlandırırdı. Melodik səs ruhumuzu oxşadı. Çarvadar Məşədi Əzim kişi bu səsin məscid minarəsindən gəldiyini mənə başa saldı. Məscid işçisi şam əzanı verirdi..." (1, s. 8).

Basqalda, həmçinin XVI əsrdən indiyədək fəaliyyətdə olan müxtəlif mədəni-iqtisadi, dini-ibadət tikililəri, hamam, bazar meydanı, daş döşəməli küçə və həyətlər də orta əsr şəhərlərinin xüsusiyyətlərini əks etdirən, şəhər mədəniyyətinin elementlərini özündə birləşdirən mühüm amillərdəndir. Əhalini içməli su ilə təchiz etmək üçün XIII yüzilikdə qəsəbəyə saxsı borularla su kəməri çəkilmiş, çirkab suların axıb getməsi və təmizlənməsi üçün kürəbənd-kanalizasiya şəbəkəsi qurulmuşdur. Tədqiqatçılar hesab edirlər ki, kürəbənd su və kanalizasiya şəbəkəsinin ən azı 800 ildən 1000 ilədək yaşı var və o, Basqalın hələ qədim dövrlərdən yüksək şəhər mədəniyyətinə malik olduğunu sübut edən faktorlardan biridir. O da məlumdur ki, Basqal əhalisi heç vaxt elliklə kənd təsərrüfatı işləri ilə məşğul olmamışdır. Buranın insanlarının əsas məşğuliyyəti toxuculuq, xüsusilə də kəlağayıçılıq olmuşdur. Ayrı-ayrı dövrlərdə Basqalda 1500-ə qədər dəzgahın işlədiyi yüzlərlə toxuculuq müəssisəsi olmuşdur ki, bu da şəhər mühiti üçün xarakterik olan kustar sənaye istehsalının mövcudluğu deməkdir. Başqa sözlə desək, Basqal tarixən Şirvanın ipək ticarətində çox mühüm rol oynamışdır. Basqal ustalarının bədii təfəkkür məhsulu olan növbənöv ipəyi, qanovuz və

kəlağayısı təkcə yerli tələbatı ödəməyib, Yaxın və Orta Şərq ölkələrinə, Avropa ölkələrinə də ixrac olunurdu. XVIII-XIX əsrlərdə Basqal kəlağayı istehsalı üzrə nəinki Azərbaycanda, eləcə də bütün Cənubi Qafqazda mərkəzi mövqelərdən birini tuturdu (17, s. 187; 18, s.33). Basqalın el sənətkarlarının hazırladıqları ipək parçalar və və basmaqəlib üsulu ilə naxışlanmış kəlağayıları Paris, London, Sankt-Peterburq, Moskva, Tiflis və s. çəhərlərdə keçirilən beynəlxalq sərgilərin yüksək mükafatlarına layiq görülmüşdür.

Basqalın şəhər adlanmasını şərtləndirən digər vacib bir şərt, qəsəbənin öz dövrü üçün mükəmməl yol infrastrukturuna malik olması idi. Belə ki, XIX əsrdə el arasında "Nikolay yolu" adlanan "Şamaxı-Basqal yolu" böyük iqtisadi əhəmiyyət kəsb etmişdir. Bandan başqa, qəsəbənin coğrafi mövqeyi, sənaye mərkəzi kimi perspektivləri, əlverişli kurort-istirahət məkanı kimi bütün tələblərə cavab verməsi əlaqədar qurumların buraya daha 3 istiqamətdən-Şamaxı, Ağsu və İsmayıllıdan qəsəbəyə araba-furqon yolunun çəkilməsinə sövq etmişdi.

Nəinki orta əsrlərdə, hətta son illərə qədər Basqal camaatının ən sevimli yeri ticarət dükanlarının və sənətkar emalatxanalarının cəmləşdiyi Bazar meydanı (bu yerə "kimğə" yeri-adamların bir yerə yığışdığı yer deyirdilər) olmuşdur. Lakin burada təkcə ticarət aparılmır, həmçinin məhəllədaxili problemlər, ticarət əlaqələri, qəsəbənin ictimai, iqtisadi və məişət həyatına aid bütün məsələlər müzakirə olunurdu. Təəssüf ki, basqallıların ən sevimli yeri olan həmin meydan indi yoxdur.

Köhnə Basqalın məhəllələri (Qoşabulaq, Dəmirçibazar, Qəlibgah, Dərəməhəllə, Qalabaşı, Kələküçə, Xarabiyan) də öz enişli-yoxuşlu, dərəli-təpəli, əyri-üyrü küçələri, dar dalanları, döngələri ilə qədim və orta əsr şəhərlərini xatırladır. Bu məhəllələrin hər birində bu və ya digər peşə və sənət növü ilə məşğul olan insanlar yaşayıb və bu cəhər bir çox hallarda məhəllələrin adlarında da əksini tapmışdır. Bundan əlavə hər məhəllənin qərinələrdən bəri suyunun ləzzəti, adı ilə tanınan bulaqları olub: Bədəl bulağı (XIV əsr), Qoşabulaq (XVI əsr), Xarabiyan bulağı (XVII əsr), Hacı Çələbi bulağı (XVIII əsr), Miğcöhün bulağı (XIX əsr), Dambulu bulağı (XIX əsr), Bədo bulağı (XIX əsr), Hüseyn bulağı (XIX əsr), Əmrəki bulağı (XIX əsr), Çömçəbulaq (XIX əsr) və s. Dağların döşündən süzülərək axan bu bulaqları heç şübhəsiz vaxtilə Basqal sakinləri çəkdirib. Onlar öz nəcib əmelləri ilə indi də neçə-neçə yolçunun, bulaq başına gələnlərin alqışını qazanır, savab yiyəsi olur, həm özlərinə, həm də nəsil-köklərinə əbədi rəhmət qazandırırlar. Təəssüflər olsun ki, onları inşa edənlər haqqında ətraflı məlumat əldə edə bilməmişik.

Beləliklə, yuxarıda deyilənləri təhlil edib belə bir qənaətə gəlmək olur ki, Basqal Azərbaycan tarixinin, xalqımızın şəhərsalma mədəniyyətinin, sənətkarlıq irsimizin çox maraqlı, nadir və unikal bir abidəsidir. 1932-33-cü illərdə indiki İsmayıllı rayonunun mərkəzi olmuş bu qədim qəsəbənin hər bir daşı, tikilisi, hər bir binası və təbiət abidəsi uzaq keçmişimizin yadigarı olmaqla, özündə neçə-neçə açılmamış sirləri yaşadır. Lakin Basqalın tariximizdə, mədəniyyətimizdə yerinin və rolunun daha dəqiq müəyyənləşdirilməsi baxımından burada arxeoloji tədqiqatların aparılması olduqca vacibdir. Hesab edirik bu iş Basqalın keçmiş şöhrətinin qaytarılmasına, onun etnoqrafik model-kənd, açıq səma altında muzey, o cümlədən turizm-istirahət mərkəzi kimi formalaşmasına təkan verəcəkdir.

QAYNAQLAR

1. Hüseynov M. Basqal əcdadlarımızın əks-sədasıdır. B., 2002
2. Cəbiyev Q. Bura vətəndir (Ismayıllı abidələri haqqında tarixi-arxeoloji, etnoqrafik oçerklər), B., 2003
3. Azərbaycan toponimlərinin eksiklopedik lüğəti. 2 cilddə, c. 1, B. 2007
4. Османов Ф. Античное посление у деревни Кюрдиван //Археологические и этнографические изыскание в Азербайджане (1976). Б. 1979.
5. Osmanov F. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV-b.e. III əsrləri). B. 1982.
6. Aşurbəyli S. Şirvanşahlar dövləti (VI-XVI əsrlər). B., 1997.
7. Şərifli M. IX əsrin 2-ci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri. B. 1978.
8. Cəbiyev Q. Girdman tarixi. B. 2010.
9. Минорски В. История Ширвана и Дербенда (X-XI вв.). М. 1969.
10. Osmanov F. Sulut orta əsr yaşayış yeri və Xirəki istehkamı haqqında //Azərbaycan Tarixi Muzeyi. B. 2003
11. Казвини Х. Нузхат ал-Кулуб (Материалы по Азербайджану). Пер. с английского З.М.Бунятова. Б. 1983.
12. Azərbaycan Sovet Ensiklopediyası (ASE). X cilddə. c. 9. B. 1986.
13. Osmanov F.L, Basqal-Niyal, Kürdüvan-Xankəndi ətrafında arxeoloji kəşfiyyat. Saleh Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş sessiyanın materialları. Bakı, Elm, 1994
14. Джабиев Г. Некоторые средневековые памятники Ширвана // АЕИА (1985). Б. 1986
15. Bayramova N. Şamaxı xanlığı. B., 2009
16. Azərbaycan tarixi, VII cilddə, c. 3, B. 1990,
17. Сумбатзаде А. Промыщленность Азербайджана в XIX веке. Б. 1964.
18. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. B. 2002.

Tofiq BABAYEV
Tahir ŞAHBAZOV

Basqal: arxeoloji və tarixi-etnoqrafik xarakteristika

Xülasə

Basqal qəsəbəsi Azərbaycanın orta əsr şəhər mədəniyyətinin xüsusiyyətlərini yaşadan unikal yaşayış məntəqələrindəndir. Tarixən burada bir çox ənənəvi sənətkarlıq sahələri, xüsusilə də ipəkçilik yüksək dərəcədə inkişaf etmiş, Basqal kəlağayası Cənubi Qafqaz, Avropa, Yaxın və Orta Şərqdə geniş şöhrət qazanmışdır. Basqalın tarixi-memarlıq abidələri (məscid, hamam, türbə və s.) seysmik qurşaqlı qədim yaşayış evləri, çay daşı ilə döşənmiş dar küçə və dalanları isə bu qəsəbənin çox qədim tarixindən və tikinti mədəniyyətindən xəbər verir.

Lakin bir sıra tarixi qaynaqlarda və ədəbiyyatda əksini tapmış epizodik məlumatlar, həmçinin bəzi elmi-kütləvi əsərlər istisna olmaqla, hələ ki Basqalla bağlı geniş el-

mi-tədqiqat işləri, o cümlədən arxeoloji qazıntılar aparılmamışdır. Bu səbəbdən də, bu diyarının qədim və orta əsrlər tarixi, ənənəvi maddi və mənəvi mədəniyyəti demək olar ki, öyrənilməmiş qalmışdır. Təqdim edilən məqalədə bütün bu məsələlər və son illər Basqalda aparılmış etnoqrafik tədqiqatların nəticələri əksini tapmışdır.

Тофиг БАБАЕВ
Тахир ШАХБАЗОВ

Баскал: археологическая и историко-этнографическая характеристика

Резюме

Баскал один из уникальных поселков, который является носителем средневековой городской культуры Азербайджана. Исторически здесь были высоко развиты многие отрасли традиционного ремесла, особенно производство шелка. Шелковые келагаи Баскала славились не только на Кавказе, а также далеко за пределами Азербайджана-в Европе, Ближнем и Среднем Востоке. О древней истории строительного дела и архитектуры Баскала свидетельствуют историко-архитектурные памятники (мечети, бани, мавзолеи и т.д.), древние жилые дома, сооруженные особыми способами против землетрясений, узкие улицы и улочки, выстланные речными камнями. Но к большому сожалению, кроме эпизодических сведений в источниках и литературе, Баскал в историко-этнографическом отношении остается неизученным и здесь до сих пор не проведены фундаментальные археологические раскопки. В данной статье даются сведения об этом, и об этнографических исследованиях, проводимых в последние годы в Баскале.

Tofiq BABAYEV
Tahir SHAHBAZOV

Basqal: archeological, historical and ethnographic characteristics

Summary

Basqal being one of the unique settlements represents medieval urban culture of Azerbaijan. Historically, many traditional branches of handicraft, in particularly, silk production had been highly developed there. Furthermore, silk kelagai (headgears) of Basqal have been renowned not only in the Caucasus but outside Azerbaijan-in Europe, Near and Middle East. In addition, historic and architectural monuments such as (mosques, bath houses, mausoleums and etc.) including dwelling houses, which were constructed by the special method of earthquake-resistant buildings with narrow streets and backstreets, covered with river rocks. It is deeply regrettable that apart from the episodic information based on the sources and literature, Basqal in regard to historic and ethnographic aspects remains largely unexplored and there still has not been carried out basic archeological exploration. The reviewed article provides an additional information about it, including ethnographic research that has been conducted recently in Basqal.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Əsəd ƏLİYEV
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun
aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru

XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ GÜRCÜSTAN AZƏRBAYCANLILARININ QADIN GEYİMLƏRİ

Açar sözlər: *Gürcüstan, azərbaycanlılar, qadın, geyimlər*
Ключевые слова: *Грузия, азербайджанцы, женщина, одежда*
Keywords: *Georgian, azerbaijanis, woman, clothes*

Maddi mədəniyyətin bu və ya digər sahəsi kimi, Gürcüstan azərbaycanlılarının (türklərinin) milli geyim və bəzəklərinin tarixi-etnoqrafik tədqiqi mühüm elmi, nəzəri və praktiki əhəmiyyət kəsb edir. Geyim və bəzək tiplərinin öyrənilməsi xalqın məişət tərzinin, empirik bilik, bacarıq, vərdiş və yaradıcılıq qabiliyyətinin, görkəmli etnoqraf Q.T.Qaraqaşlının yazdığı kimi, mənşəyi məsələsinin (15, 123), təsərrüfat məşğuliyyətinin, mədəni və iqtisadi həyat şəraitinin, etnik və sinfi mənsubiyyətinin, bədii-estetik zövqünün, milli xüsusiyyətlərinin və başqa xalqlarla mədəni-tarixi əlaqələrinin açıqlanmasında gərəkli mənbə sayılır (13, 174; 11, 3 ;17, 3; 10, 8).

Gürcüstan azərbaycanlılarının (türklərinin) uzun zaman kəsiyində inkişaf prosesi keçirərək formalaşan geyim və bəzəkləri barədə yazılı bilgilər çox kasaddır. Təkcə “Xəzər və Qara dəniz arasında yaşayan xalqlar” (СПб, 1822) kitabındakı təsvirdən (18, 157), M.Tilkenin rəsm əsərlərindən, A.Q. Trofimovanın Gürcüstan Dövlət Muzeyində saxlanılan (Borçalı-Kəpənəkçi və Telav-Qaracalar kəndlərinə aid) qadın geyimləri əsasında yazdığı məqaləsindən (18, 155-209) və N.Q.Volkovanın verdiyi çox səthi məlumatdan (12, 114-115) başqa, digər müəlliflərin əsərlərində araşdırdığımız məsələ barədə heç bir məlumata rast gəlmirik. C.Ə.Novruzovun bu yaxınlarda işıq üzü görən monoqrafiyası (16) problemin həllinə yönələn ilk cəhd kimi qiymətli olsa da, müəllif məsələyə kompleks şəkildə yanaşmamışdır. Bütün bunları nəzərə alaraq, apardığımız tarixi-etnoqrafik tədqiqatda araşdırdığımız bölgələrin geyim mədəniyyətinin kompleks şəkildə həllinə çalışmışıq.

Gürcüstan azərbaycanlılarının (türklərinin) ənənəvi xalq geyimlərindən fərqli olaraq, Azərbaycan türklərinin XIX-XX əsrin əvvəllərinə aid geyim tipləri həm xalqımızın maddi mədəniyyətini araşdıran etnoqraf alimlər (Qaraqaşlı Q.T., Ələkbərov Ə.Ə., Mustafayev A.N., İzmaylova Ə.Ə., Həvilov H.A., Vəliyev F.İ., Məmmədov H.N. və b.), həm də sənətşünaqlıq nöqteyi-nəzərindən sənətşünaslar (Əfəndiyev P.S., Dünyamalıyeva S.S. və b.) tərəfindən araşdırılmışdır.

Yuxarıda adları çəkilən müəlliflərin əsər və məqalələri mövzumuzla birbaşa bağlı olduğundan, topladığımız çöl-etnoqrafik materiallara həmin tədqiqat işlərini söykənəcək yeri seçmiş və lazım gəldikcə bəhrələnmişik.

Gürcüstan azərbaycanlılarının (türklərinin) ənənəvi qadın geyimləri öz mövcudluğunu XIX əsrin sonu və XX əsrın 40-50-ci illərinə kimi qoruyub saxlamışdır. Qadın geyimləri əsasən köynək, tuman, arxalıq, şal, kəlağayı, örpək, yaylıq-ləçək, məndil, başmaq, cuqa, çust, məst, corab, badış və s.-dən (məqalədə yalnız qadın alt və üst paltarından danışacağıq) ibarət idi.

Köynəklər "can" və "üst" köynəyi olmaq etibarilə iki növə ayrılırdı. Bölgələrimizdə "can köynəyi" kimi tanınan bu geyim tipi Azərbaycanın müxtəlif etnoqrafik bölgələrində "alt köynəyi" (15, 126) və "uzunluq" (Muğan) (6, 83) adlanırdı.

Yaşlı adamların dediyinə görə, qadın alt köynəyini həm pambıq, həm də ipək parçadan qadınların özləri tikərdi. Kasıb qadınların köynəyi əsasən pambıq parçadan hazırlanaraq uzun qollu və uzun ətəkli, yanları bütöv, yaxası, biləyinin ağzı və ətəyinin qıraqları bəzəksiz olurdu. Boğazının altından isə bir və ya iki ilgək-düymə ilə düymələnirdi. Bəzən səriştəli kasıb qadınlar köynəklərinin yaxa kəsiyinə ağ sapla "həşkə" adlanan bəzək vururdular. Xalq arasında belə köynəklərə "həşkəli köynək" deyilirdi. Varlı qadınların alt köynəyi isə ipək parçadan tikilərdi. Onların köynəyinin yaxa kəsiyinə, qollarının ağzına və ətəyinə rəngli saplardan daha çeşidli naxışlar vurulurdu. A.Q. Trofimova Borçalının Kəpənəkçi kəndinin varlı qadınlarına məxsus Gürcüstan Dövlət Muzeyində saxlanılan can köynəyindən bəhs edərək göstərir ki, köynək qırmızı rəngli ipək-qanovuzdan tikilmişdir. Düz biçimli olan bu köynəyin uzunluğu 138 sm-dir. Qollarının altına 12x12 sm ölçüsündə xişdək qoyulub. Köynəyin özü al-qırmızı qanovuzdan olsa da qol, xişdək və yanlarına edilən əlavə parça zoğal rəngli ipəkdəndir. Boyun dairəsi və yaxa kəsiyi qara rəngli bafta, ətəyinin yanlarına qoyulmuş 59 sm-lik yarıq isə 1 sm enində qızıl rəngli bafta ilə bəzədilib (18, 171-172; 1, 157).

Çöl-etnoqrafik materialları göstərir ki, A.Q.Trofimovanın yuxarıda təsvir etdiyi qadın can köynəyi təkcə Borçalının Kəpənəkçi kəndinin yox, tədqiq etdiyimiz Başkeçid, Zalqa, Ağbulaq, Bolus, Qarayazı, Qaraçöp, Muxran vadisi, eləcə də azərbaycanlılar yaşayan digər bölgələrin varlı qadınları üçün də səciyyəvi olmuşdur.

Qadın alt paltarından biri də tuman idi. Tumanlar alt, orta və üst tumanı olmaqla üç çeşiddə hazırlanardı. Alt tuman "dizlik", orta tuman "cütbalaq", üst tuman isə "büzməli" və "çivrikli" sayılırdı.

Məlumatçılarımıza görə, rəngli pambıq parçadan tikilən dizlik orta tumanın altından geyilirdi. Bu geyim tipi baldıra kip oturmaqla dizə qədər olurdu. Gümanımızca, "dizlik" termini də bununla əlaqədar yaranmışdır. Alt tuman Naxçıvanda "topuqluq" (10, 26), Zaqatala bölgəsində yaşayan etnik qruplar arasında "xebet" (avarlar), "bada", "vaxçek" (saxurlar), "nibxavi", "mukasor" və ya "mukasa" (ingiloylar) adlanırdı. Azərbaycanlılar isə "dizlik" və "badış" deyirdilər (14, 86).

Cütbalaq müxtəlif rəngli (zoğalı, qara, qırmızı və s.) parçadan hazırlanardı. Yaşlı qadınların dediyinə görə, cütbalağın balaqları ayrı-ayrılıqda biçilib, xişdək vasitəsi ilə bir-birinə birləşdirilirdi. Tumanın beldə durmasından ötəri belini büzüb, qaytan (tumanbağı) keçirmək üçün oraya ön və arxa tərəfi yarıqlı "nifə" tikirdilər. Nifə yarığının ön və arxa hissədə olması tumanın həm ön, həm də arxa tərəfini aldəyişik edib ge-

yinməklə istifadə müddətini daha da artırırdı. Onu da qeyd edək ki, tumanı geyən şəxsin bel və baldır ölçüsündən asılı olaraq, tuman üçün işlədilən parçanın ölçüsü də müxtəlif idi. Çit və ya sətindən tikilib kasıb zümrələr üçün səciyyəvi olan bu tipli tumanlar əsasən astarlı olurdu. Varlı qadınların cütbalağı bahalı parçalardan hazırlanaraq "ətəyinə qızılı bafta" (18, 172) tikilirdi. Cütbalaq çox vaxt üst tumanı əvəz edirdi.

Məlumatçılara görə, alt libası kimi zoğal rəngli dəyişəcəklərdən də istifadə edilərdi. Qıraqları zərlə işlənən bu tipli alt geyiminə "şeyidiş" və ya "gecə paltarı" deyilərdi.

Gürcüstanın azərbaycanlı (türk) qadınları üst tuman kimi "büzməli" və "çivrikli" geyinərdi. Başına nifə qoyularaq ipək qaytanla bağlanan büzməli tumandan fərqli olaraq, çivrikli tumanın hissələrini baş tərəfdən qatdalayıb qasır və üstünə köbə vururdular. Bu tipli tumanın başı arxadan azca yarıq saxlanılırdı. Tumanı belə köbənin uclarına bəndlənən qaytanla bağlayırdılar. Belə tumanların tikilişinə 10-12 arşın parça istifadə edilirdi (15, 143). Çivrikli tuman Azərbaycanın etnoqrafik bölgələrində "qırçınlı" adı ilə məlum idi (7, 87).

Xatırladaq ki, yaş fərqinə uyğun olaraq, qadın tumanlarının materialı və rəngi birbirindən fərqlənirdi. Qocaların tumanı qara, göy və şabalıdı, imkanlı gənc qadınlarınkı qırmızı, yaşıl, bənövşəyi rəngdə bahalı, kasıblarınkı isə ucuz sətin və boyalanmış çitdən olurdu (15, 143-144; 12, 114).

Uzun illər yaylaq-qışlaq güzəranı keçirən qocaların dediyinə görə, haqqında bəhs olunan tumanlar ilin soyuq aylarında və dağ-aran köçü zamanı çox münasib idi. Belə ki, tumanın balaqlarını badışın içinə yığıb üstündən qatma ilə bağlamaqla həm soyuqdan mühafizə olunur, həm də ayaqlarını gen açıb ata rahat minə bilirdilər. Təsadüfi deyil ki, tədqiqatçılar bu geyim tipini köçmə məişət tərzi keçirən xalqlara aid edirlər (15, 133).

Qadınların geyim dəstinə daxil olan libaslardan biri də üst köynəyi idi. Alt köynəyi kimi üst köynəyi də çox vaxt tuniki biçim üsulunda (7, 85), biləyi bilərzikli (məcəli) və yelpazəli (məcəsiz) olurdu. Köynəyin yaxa, bilək, ətək hissəsinə və yan yarıqlarına bafta vurulurdu. Tədqiqatçılar yazır ki, maddi durumundan asılı olaraq, doğrama və ya kəsmə üsulu ilə hazırlanan üst köynəkləri bahalı (atlas, xara, qanovuz, darayı, mov, bursa), eləcə də ucuz məbləğə başa gələn (çit, sətin, fay, şal və s.) parçalardan tikilərdi. Qoltuğunun altına xişdək qoyulan belə köynəklərin ətəyinə və yan çapıqlarının üstünə qızıl və ya gümüş abbasılar düzülürdü. Köynəyin qabaq ətəyinə müxtəlif döymə, basma və kəsmə bəzəklərlə (midaxıl, pilək, zərənduz və s.) zəngin olan ətəklik də tikirdilər (7, 86;10, 27). Keçmişdə ümumazərbaycan səciyyəsi daşıyan bu tipli zəngin üst köynəkləri şübhəsiz ki, Gürcüstan azərbaycanlılarının (türklərinin) varlı qadınları arasında da dəbdə idi.

Yeri gəlmişkən xatırladaq ki, məişətdə geniş istifadə edilən "darayı", tədqiqatçıların fikrincə, miladdan öncə VI əsrdə (521-486) yaşamış İran hökmdarı Daranın adından alınmışdır. Mənası isə hökmdar, məlik deməkdir. Darayı əvvəlcə İranda, sonralar isə Yaxın və Orta Şərq ölkələrində, Türkiyədə, Suriyada, Azərbaycanda və s. yerlərdə istehsal olunmuşdur (2, 24).

Məlumatçılara görə, can köynəyi kimi üst köynəyini də qadınların özləri tikərdi. Alt köynəyi tumanın altında qaldığı üçün onun yaraşıqlı olub-olmaması elə də fərq etməzdi. Üst köynəyi isə alt köynəyindən qısa olduğuna və tumanın üstünə çıxarıldığı-

na görə onun bəzək-düzək elementlərinə xüsusi diqqət yetirilirdi. Varlı qadınlardan fərqli olaraq, kasıb qadınların bayır (toy-nişan, bayram, qonaqlıq) libasları elə də göz-oxşayan olmurdu. Onlar qanovuz (ipək) parçadan tikilən köynəkləri toy-nişan mərasimi günlərində imkanlı qohum-əqrəbadan alıb geyinər, sonra isə geri qaytarardılar. Xalq arasında buna "əndam (bədən-Ə.Ə.) söyündürən" bəzəyi deyilərdi.

Onu da əlavə edək ki, "Dədə-Qorqud" dastanında köynək yalnız kişi üst geyimi kimi təsvir edilsə də (8, 151.), Azərbaycan orta əsr məhəbbət dastanlarında bu geyim tipi kətan parçadan hazırlanan qadın üst köynəyi kimi xatırlanır:

Yeriyəndə kətan köynək dizindən,
Danışanda dürr tökülür sözündən.
Yaxud:
Kətan köynək geyib köksü düyməli,
O da sizin kimi gözəl, öyməli...
Yaxud da:
Kətan köynək geyib güldən tazəcək,
Bülbül sitəm eylər gülə yazəcək...
Kətan köynək geyib lalədən nazik,
Qonça cövr eləyər bülbülə yazıq (3, 100, 136, 142).

Zaman keçdikcə ictimai həyatda baş verən dəyişikliklər qadın geyimlərinə də təsir edirdi. Artıq geyimlərin adlarında və tikiş əlamətlərində fərqlər əmələ gəlir, yeni-yeni libaslar meydana çıxırdı. Bu libaslardan biri də "don" adlanırdı. Çöl-etnoqrafik və ədəbiyyat materialları göstərir ki, don uzun və qısa ətəkli olmaqla iki çeşiddə hazırlanırdı. Tikiş üsulu eyni olan bu donlar üç hissədən-bədən, ətək və qollardan ibarət idi. Oxşarlığına baxmayaraq, donların bir sıra elementlərində-qollarında, ətəklərində, uzun və qısalığında, bağlama, düymələmə olmasında, yaxasının bütöv və yarıqlığında və s. fərqlər özünü göstərirdi. Belə donları müxtəlif növ parçalardan-"tirmə", " şəmsi-qəmər", "zərri ", "şal", "hacı mənə bax", "gendə dur", "məxmər" və s. tikərdilər (15, 155).

Çöl-etnoqrafik materiallarından aydın olur ki, müharibədən (1941-45) əvvəl Başkeçidin Qarabulaq, Örməşen, Şindilər, Qızılhacılı, Yırğançay, Armudlu, Aşağı və Yuxarı Oruzman, Baxçalar, Səfərli, Məmişlər, Boğazkəsən, Bəzəkli, Hamamlı, Qızılkilsə, Qəmərli (Kəmərli), Yaqublu; Aran Borçalının Keşəli, Kəpənəkçi, Kosalı, Qaş Muğanlı, Aşağı Qullar, Görarxı, Təkəli, Qızılhacılı, Hallavar, Qaçağan, Qasımlı, Baytallı, Yuxarı Saral, Kirovka (Mamay), Sadaxlı; Bolusun Faxralı, Arıxlı, Həsənxocalı, Qoçulu, Darvaz, Dəllər, Aşağı və Yuxarı Güləver, Saraclı, Kolagir, Aşağı və Yuxarı Qoşakilsə, Daşdıqullar, Kəpənəkçi, Sisqala; Qarayazının Ağtəhlə, Qaratəhlə, Qaracalar, Soğanlıq, Muğanlı, Təzəkənd, Birlik, Kalinin (Tatyanovka), Botanika, Aşağı Kəpənəkçi, Kosalı, Nəzərli; Qaraçöpün Ləmbəli, Tüllər, Düzəyrəm, Muğanlı, Qarabağlı, Əyrəm, Qazlar; Laqodexinin Qabal, Ağbulağın Kosalar, Barmaqsızın (Tsalka) Ərcivan-Sarvan, Msxetanın (Muxran vadisi) Tsixisdziri, Ağalar, Ferma, Lisi, Sxaldid, eləcə də azərbaycanlılar-türklər yaşayan (Tiflis, Rustavi-Bostanşəhər, Telav, Karel, Kaspi və s.) digər yerlərdə qız-gəlinlər "xasqırmızı" parçadan don geyirdilər. Tədqiqatçı-

lara görə, xasqırmızı parça tünd qırmızı yerlikdə sarı, yaşıl, göy, ağ, qara mil və zolaqlara malik olub, əsasən Gəncədə istehsal edilirdi (2, 45).

"Kitabi-Dədə Qorqud" dastanında da geyimlərin adı "don" kimi ifadə edilir. Məsələn, "Yalın görsə tonatdı", "Cigin quşlı cübbə ton vergil bu oğlana", "Ac görsəm toyurdım, yalıncıq görsəm, tonatdım", "Yalıncıq görsəm, tonadaydım sənin üçün" (4, 35, 36, 38) və s.

Qocaların dediyinə görə, qadınlar toy-nişan mərasimində və bayramlarda ağ, qırmızı, sarı, yaşıl, bənövşəyi; matəmdə (yasda) isə qara və göy rəngli parçadan don geyinərdi. Bu xüsusiyyət Dədə-Qorqud dastanında da xatırlanır. Məsələn, Bamsı Beyrəyin yoxa çıxması ilə bağlı cərəyan edən bir hadisəyə diqqət edək: "Baybörə bəgin dünlügi altun ban evinə (şivən) girdi. Qızı-gəlini qas-qas gülməz oldı. Qızıl qına ağ əlinə yaqmaz oldı. Yeddi qız qardaşı ağ çıqardılar, qara tonlar geydilər. Qalın Oğuz bəgləri Beyrək içün əzim yas tutdılar. Umud üzdilər" (4, 57-58). Və yaxud, Uruz dustaq olarkən atasına belə söyləyir:

Mənim anam mənim içün qayırmasun!
Üç ayda varmazsam, öldügimi ol vəqt bilsün!
Anam mənim içün gög geyüb, qara sarınsun (4, 75).

Qadınların üst geyimlərindən biri də məzər və önlük idi. Məzər iki hissədən-döş və ətəkdən ibarət biçilib tikilirdi. Onun uzunluğu dizə qədər olub, bel və boyuna qatmayla bağlanırdı. Önlük isə məzərdən fərqlənirdi. Belə ki, o, döşlüksüz olduğu üçün bağlanma yeri yalnız beldən idi.

İstər məzər, istərsə də önlük müxtəlif rəngli bahalı və ucuz parçadan tikilərdi. Bahalı (qanovuz) parçadan hazırlanan məzər və önlük açıq, qırmızı, bənövşəyi rəngli olub, toy-nişan mərasimi, bayram və ailə şənliyi üçün nəzərdə tutulurdu. Gündəlikdə istifadə edilən məzər və önlük isə tünd və göy rəngli çit parçadan olurdu. Onu da qeyd edək ki, rəng çaları baxımından qanovuz parçalar müxtəlif adlarla ifadə edilirdi. Məsələn, "şahi" və ya "cənnəti" (qırmızı rəngin sarı ilə qarışığından ibarət əla əbrişim ipəyi), "ördəkboynu" (yaşıl göy ilə), "gecə-gündüz" (qara qırmızı ilə), "səhər-axşam" (ağ qara ilə) və s. bu qəbildən idi (2, 188).

Bölgələrimizin qadınlarına aid məzər nümunəsi Gürcüstan Dövlət Muzeyinin geyim fondunda da saxlanılır. Bu məzər döş və ətək hissədən ibarətdir. Döş hissənin uzunluğu 34, eni isə 31 sm-dir. Tünd (moruq) rəngli parçadan tikilib. Üzərinə yaşıl, qara, narıncı, bənövşəyi və göy parçadan qondarma (stilistik) bəzək vurulub. Yaşıl parçadan olan 9-10 dişli bəzək döş hissəni yuxarı və aşağıdan, eyni dişli qara parça bəzəyi isə yanlardan əhatə edir. Bu rəng tədricən ortasında bənövşəyi rəngli kvadratlar olan narıncı rəngli səkkiz bucaqlıya keçir. Məzərin ətək hissəsi göyümsov rəngli qanovuzdan tikilib. Belindən 2, 5 sm enində qırçınlarla qırçınlanaraq kəmərə yığılıb. Beldə eni 35, ətəkdə isə 101 sm olan məzərin ətəyinin uzunluğu 92 sm-dir. Ətək və yan tikişlərinin qıraqları 1sm enində qızılı bafta ilə bəzədilib. Məzər bel və boyun ətrafına qaytanla bağlanır (18, 173).

Estetik gözəllik kəsb edən bu məzər, fikrimizcə, varlı qadınlar üçün daha səciyyəvi olmuşdur. Çünki, o dövrdə bir qarına ac, bir qarına tox güzəran keçirən, bu gününü

ötürməmiş sabahını düşünən kasıbların bahalı parçalardan bəzək-düzəkli məzər geyinməsi ağlasığmaz görünür.

Gürcüstan azərbaycanlılarının (türklərinin) qadın, eləcə də kişi geyim dəstində arxalıq-axalıx (axaluxi) mühüm yer tuturdu. İmkanlı qadınların arxalıqları qanovuz, məxmər, darayı, atlas və s. kimi bahalı parçalardan tikilsə də, kasıblarınkı qara ləstik və sətin parçalardan olardı. Çox vaxt yaşlı qadınlar arxalıq əvəzinə kürəklərinə qalın (yun) şal bağlayırdı.

Yuxarıda adı çəkilən muzeydə tədqiq etdiyimiz bölgələrin qadınlarına məxsus arxalıq da saxlanılır. Arxalıq firuzəyi rəngli atlasdan tikilib. Çiyni tikişli olan bu arxalığın üzərində sarı buta və mavi əhatəli qırmızı gülləri var. Arxa hissədə bütünlükdə beldən kəsmə, ön hissədə isə qismən bütöv biçimlidir. Belindən aşağıya doğru büzməli ətək əlavə edilib. Uzunluğu və bel dairəsi 70, ətəyinin eni isə 130 sm olan bu arxalığın yan tikiş xətti çapıqlıdır. Qolu qol kəsiyinə düz bənd edilərək altına yarıq qoyulub. Yarıqdan başlayaraq qollar 23 sm tikilib, ondan aşağı 25 sm daraldırıb, qalan hissəsi isə açıq saxlanılıb. Qolların uzunluğu 78 sm-dir. Aşağıdan yuxarı qollarına 34 sm uzunluğunda yaşıl qanovuzdan astar qoyulub. Tikişlərin kənarına yaşıl qanovuzdan 1 sm enində bafta vurulub. Əlcəyi daha çox bəzədilən qolçağa arxa xətti boyu 40-dan çox asma metal bəzəklər tikilib (18, 173-174).

Ümumiyyətlə, geyim tiplərinin əksəriyyətində olduğu kimi, bu və ya digər bölgələrin arxalıqlarında da məhəlli xüsusiyyətlərlə yanaşı oxşarlıq və eynilik özünü göstərir. Məsələn, Gürcüstan azərbaycanlılarının (türklərinin) arxalıqları bel kəsiyinin formasına görə Bakı, Şirvan və Kürdəmir arxalığı ilə, qolların formasına görə isə Qazax arxalığı ilə eyniyyət təşkil edirdi (1, 166).

Yaddaşına güvənikli qocalar danışır ki, gəlin köçən qızların toyluq boxçası içərisində estetik zövqlə hazırlanmış arxalıq da olardı. Yaxasına qızıl və ya gümüş bənd edilmiş belə arxalıqlar varlı ailələrin qızları üçün tikilirdi. Kasıb qızların arxalıqları isə sadə və bəzək-düzəksiz idi. Azərbaycanda kasıb qadınların gəlinlik arxalıqları bəzən anadan qızına ötürülürdü (7, 90). Bu kimi ötürmələr, hər şeydən əvvəl, o dövrün sosial bərabərsizliyinin damğası kimi qiymətləndirilməlidir.

Mövcud arxalıq tipləri tədqiq etdiyimiz bölkələrin əhalisi arasında XX əsrin 40-cı illərinə kimi saxlanılmışdır (16, 111). Dağlıq və dağətəyi yerlərdə yaşayan yaşlı adamların əynində sadə formalı arxalıqlara indi də rast gəlmək olur.

Geniş istifadəsini tapan qadın üst geyimlərindən biri də “katibi” idi. Tədqiqatçılara görə, kürdü, ləbbadə, nimtənə kimi katibi sözü də Cənubi Qafqaza Ön Asiyadan keçmişdir (15, 141).

Xatırladaq ki, bölgələrimizdə mövcud olan katibi ilə Azərbaycanda qolsuz qış paltarı kimi təsvir edilən katibi arasında (10, 39) kəskin fərq özünü göstərir. Belə ki, Borçalının Kəpənəkçi, Telavın isə Qaracalar kəndinə aid olan katibilər atmaqol (Kəpənəkçi) və yarımqol (Qaracalar), həm də uzunətəklidir. A.Q. Trofimova Qaracalar kəndinə məxsus olan katibini səhv olaraq “katubu” kimi vermişdir (18, 177). Halbuki həm azərbaycanlılar, həm də gürcülər bu geyim tipini katibi adlandırırdı. Sözü gedən hər iki katibinin qollarında olduğu kimi, yaxa kəsiklərinin işlənməsində də fərqlər nəzərə çarpır. Kəpənəkçi katibisinin təkcə yuxarı yaxasına təbii xəz tikildiyi halda

(18, 174-175), Qaracalar katibisinin qolu, ətəyi və aşağı yaxa kəsiyinə xəz vurulmuşdur (18, 177-178).

Azərbaycan MEA Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi əməkdaşı M.Q.Nurməmmədlinin verdiyi məlumata görə, "katibi"ni müxtəlif rəngli məxmər parçalardan tikərdilər. Yay üçün hazırlanan katibinin astarı ipəkdən, qış üçün tikilən katibinin astarı isə xəzdən olardı. Katibinin arxası (omuzluğu) ayrıca biçilmiş parçadan tikilərək bədənə kip oturar, aşağı hissəsi isə geniş biçimli olaraq uzunluğu dizə qədər çatardı. Onun boğazı-yaxalığı və kənarları (qol, bel, ətək xətləri) xəzlə haşiyələnərdi. Dekorativ səciyyə daşıyan qolların ucları rəngli sap, muncuq və bəzən almazla işlənərdi.

Nəzərə çatdıraq ki, araşdırdığımız bölgələrin qadın üst geyim tipləri yuxarıda adlarını çəkdiklərimizlə bitmirdi. Məlumatlar tədqiq etdiyimiz dövrdə qadınların "zıvını", "kürdü" (sırıqlı), "küləcə", "ləbbadə" və s. kimi libaslardan da geniş istifadə etdiyini göstərir.

Dövründən, zamanından asılı olmayaraq, azərbaycanlı (türk) qız-qadınları həmişə yüksək estetik zövqlə hazırlanmış paltarlar geyinmişlər. Təsadüfi deyil ki, XV əsr Ağqoyunlu hökmdarı Uzun Həsənin sarayında Venesiya Respublikasından olan səfir-italyan səyyahı və diplomatı Ambrozzo Kontarini yazırdı ki, Azərbaycan qadınları dedikcə qəşəng geyinirlər (5, 112). Biz bu deyimin əksini neçə-neçə poetik nümunələrdə, eləcə də ünlü türk ozanı-şair Təhləli Novruzun yaradıcılığının bütün qatlarında hiss edirik:

Geymisən zər-ziba, yaşıllar, allar,
Tər köynək altından tax həmayıllar.
Vurmusan ürəyə həbəşi xallar,
Görsənir yaramda vəz, qayıt indi.
Yaxud:
Al geyinib sən seyrana çıxanda,
Zərrin libas, tirmə şala baxıram.
Səyyadam, tor qurdum dağ damənində,
Şikar bəsləyirəm, yola baxıram (9, 140, 100).

Beləliklə, yuxarıda təsvir edilən qadın alt və üst libaslarının estetik duyum və zövqlə hazırlanmasından, onların çeşidindən, rəng və naxış çalarından aydın olur ki, Gürcüstanın azərbaycanlı-türk qadınları yüksək geyim mədəniyyətinə malik olmuş və bu geyimlər ümumtürk və ümumazərbaycan, bəzi elementlərinə görə isə ümumqafqaz səciyyəsi daşısa da, yerli-lokal xüsusiyyətlərini də qoruyub saxlamışdır.

QAYNAQLAR

1. Dünyamalıyeva S.S. Azərbaycan geyim mədəniyyəti tarixi. Bakı: Nağıl Evi Nəşriyyatı, 2003.
2. Əliyeva G.M. Azərbaycanın bədii parça və tikmələri (XIX-XX əsrlər). Bakı: Elm, 1990.
3. "Əsli-Kərəm" // Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979.
4. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988.
5. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: Gənclik, 1985.
6. Məmmədov H.N. Muğanın maddi mədəniyyəti. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001.
7. Mustafayev A.N. Şirvanın maddi mədəniyyəti. Bakı: Elm, 1977.
8. Rəcəbli Q.Ə. "Kitabi-Dədə Qorqud" Azərbaycanın qədim və erkən orta əsrlər geyimləri haqqında // Dil və ədəbiyyat. Nəzəri, elmi, metodik jurnal. 4 (29), Bakı-2000.
9. Təhləli Novruz. Dağlar, əyil, yar görünsün... Bakı: Nurlan, 2003.
10. Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (geyimlər və bəzəklər). Bakı: Elm, 2006.
11. Белицер В.Н., Маслова Г.С. Против антимарксистский извращений в изучении одежды // СЭ, №3, 1954.
12. Волкова Н.Г. Азербайджанцы Грузии (по материалам полевых исследований 1973-1976 гг.) // Полевые исследования Института Этнографии 1976. М.: Наука, 1978.
13. Измайлова А.А. О народный одежды Нахичеванской зоны в XIX-начале XX века // Известия АН Азерб. ССР. Серия истории, философии и права №2, 1981.
14. Измайлова А.А. Женская народная одежда Закатальской зоны в конце XIX-начале XX века // Известия АН Азерб. ССР. Серия истории, философии и права. №4, 1974.
15. Каракашлы К.Т. Материальная культура азербайджанцев северо-восточной и центральной зоны Малого Кавказа. Баку: Изд-во АН Азерб. ССР, 1964.
16. Новрузов Дж.А. Традиционная и современная материальная культура Азербайджанцев Грузии (конец XIX-80-е гг. XX вв.). Баку: Элм, 2007.
17. Сухарева О.А. Вопросы изучения костюма народов Средней Азии // Костюм народов Средней Азии. М.: Наука, 1973.
18. Трофимова А.Г. Обзор коллекции одежды народов Азербайджана Государственного Музея Грузии им. С.Н. Джанашиа // Хозяйство и материальная культура народов Кавказа в XIX-XX вв., вып.1, М.: Наука, 1971.

Асад АЛИЕВ

Женская одежда азербайджанок Грузии к. XIX-нач. XX вв.

Резюме

Статья посвящена традиционной азербайджанской женской одежде (верхняя и нижняя), которая характерна для населения Грузии в XIX-XX вв. На основе богатого этнографического материала в статье даются основы покроя и шитья, узоров и цветов, а также сведения тканях, которые использовались для этого. В статье нашли свое отражение сходство и различие с одеждой, носимой в Азербайджане.

Asad ALİYEV

Women's clothing of Georgian Azerbaijanis in the XIX-early XX centuries

Summary

In the article, women's clothes (underwear and outer clothing) existed among Georgian Azerbaijanis in the XIX-early XX centuries are considered. The variety, designing and sewing technique, ornament and color tone of wome's garments, as well as fabric materials from which they were made are widely discussed in this article written on the basis of rich literature and ethnographical materials. It is indicated that there were the same, similar to and different qualites from Azerbaijani women's clothes, and women of the region had high-level weraing culture.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Səbinə QARAŞOVA
Bakı Dövlət Universiteti
Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası, s.e.f.d.

MÜASİR MƏRHƏLƏDƏ ABŞ-ın XARİCİ SİYASƏTİNİN REALLAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ: İRAQDA GÜC AMİLİ VƏ ANTİTERROR STRATEGİYASI

Açar sözlər: *ABŞ, xarici siyasət, geosiyasət, strategiya, beynəlxalq terrorizm, antiterror əməliyyatları.*
Ключевые слова: *США, внешняя политика, геополитика, стратегия, международный терроризм, антитеррористические операция.*
Keywords: *United States foreign policy, geopolitics, strategy, international terrorism, anti-terrorist operation.*

Giriş

Yaxın keçmişin müşahidələri aydın şəkildə göstərdi ki, SSRİ-nin süqutu və sosializm sisteminin tarixə qovuşması Amerikanın dünya hegemonluğuna yaşıl işıq yandırdı. Məşhur amerikan strateqi Z.Bjezinskinin 1999-cu ildə işıq üzü görmüş “Nəhəng şahmat taxtası” kitabında bu barədə fikirlərini bu tərzdə bölüşür: Rəqibin sıradan çıxması nəticəsində ABŞ üçün unikal vəziyyət yaranmışdır. ABŞ həqiqətən də dünyada birinci və yeganə gücə çevrilmişdir. Z. Bjezinskiy müasir ABŞ-ı Roma imperiyası ilə müqaisə edərək yazır: İmperiyanın çiçəklənmə dövründə ölkə sərhədlərindən kənarda roma legionlarının sayı üç yüz mindən az deyildi. Bu nəhəng güc idi. Üstün taktika, silahlanma və mərkəzdən səmərəli idarəetmə bu gücü daha da dəhşətli edirdi. Bütün bunları qeyd etməklə o, ABŞ-ın hazırkı dünya hegemonluğunu Qədim Roma imperiyasının ətraf dövlətlərə münasibəti ilə müqaisə edirdi. Z.Bjezinskiy xüsusi olaraq nəzərə çatdırır ki, Roma İmperiyasından qat-qat çox əhaliyə malik olan ABŞ 1996-cı ildə xaricdə 296 min peşəkar əsgər saxlayır.[2] Buna baxmayaraq ABŞ-ın hərbi legionları Avrasiyanın qərb və şərq şərhədlərində etibarlı şəkildə möhkəmlənmişlər. Bundan başqa, onlar Fars körfəzini də nəzarətdə saxlayırlar. Bütün bu məqamlar aşkar göstərir ki, dünyanın siyasi sisteminin dəyişməsindən sonra ABŞ-ın qlobal mövqelərində də onun xeyrinə miqyaslı dəyişikliklər baş vermişdir.

Beləliklə, Sovet İttifaqı və Varşava paktının dağılmasından sonra müasir beynəlxalq münasibətlər sistemində köklü dəyişikliklər baş verdi. ABŞ dünyanın yeganə fövqəldövlətinə çevrildi. Nəticədə beynəlxalq münasibətlər sistemi “yeni dünya nizamı” adı altında xarakterizə olunmağa başlandı. Bir çox ABŞ strateqləri yeni şəraiti, ideoloji baxımdan “strateji pauza” kimi dəyərləndirdilər və hesab etdilər ki, dünyada yeni rəqib ola biləcək dövlət meydana gələnədək bu proses davam edəcək.

B.Klinton administrasiyası rəsmən bəyan etdi ki, ABŞ-ın dünyada yeganə fövqəldövlət statusunu qoruyub saxlamağı üçün onun silahlı qüvvələri minimum iki regional müharibədə eyni vaxtda qalib gəlmək potensialına malik olmalıdır. 2001-ci ildə hakimiyyətə gəlmiş neomühafizəkarları "strateji pauza" və "iki regional müharibə" ideologiyası qane etmədiyindən daha radikal olan və Amerikanın qlobal üstünlüyünün əksər hallarda güc tətbiqi hesabına əldə edilməsini ehtiva edən "Buş doktrinası" yaranmış oldu.[3, 67]

ABŞ siyasətinin ilkin prioriteti olaraq beynəlxalq terrorizmə qarşı mübarizə əsas hədəf kimi nəzərdən keçirilmişdir. Qlobal terrorçu təşkilatların məhv edilməsi ABŞ strategiyasının əsas hədəflərindəndir. Bu prioritetin reallaşmasına ölkənin iqtisadi, siyasi, xarici və hərbi siyasəti tabe olmalıdır.

ABŞ siyasətinin ikinci prioriteti tərkibi İraq, İran və Şimali Koreyadan ibarət "Şər oxu"na qarşı mübarizə aparılmasını nəzərdə tutur. Ümumi və mücərrəd terrorizmə qarşı mübarizə ideyasından fərqli olaraq bu halda konkret hədəflərin göstərilməsi Vaşinqtonun potensial təhlükə mənbələrinə qarşı yeni "taktiki davranış"dan istifadə edəcəyindən xəbər verirdi.

Müasir mərhələdə ABŞ rəhbərliyinin xüsusi diqqət mərkəzində olan və ya hətta, demək mümkündür ki, xüsusi diqqət mərkəzində yerləşdirilən məqamlardan biri də terrorizmə qarşı mübarizədir. 11 sentyabr hadisəsindən sonra ABŞ-ın antiterror strategiyasının həyata keçirilməsi istiqamətində ciddi fəaliyyətə keçilmişdir. Buna baxmayaraq, ABŞ-da etiraf edirlər ki, qısamüddətli uğurlara baxmayaraq, bütövlükdə beynəlxalq terrorizmə qarşı hərbi mübarizə gözlənilən nəticələri vermir. Belə ki, ABŞ-ın "unikal" hesab edilən antiterror strategiyasına baxmayaraq, bu gün dünyada terror təhlükəsi nəinki azalmışdır, əksinə daha da gücləndiyini qeyd edə bilərik. Hətta, ABŞ-ın özündə terror təhlükəsinin ciddiliyi böyük narahatçılıq yaratmaqdadır. ABŞ rəsmilərinin özləri etiraf edirlər ki, yaxın gələcəkdə ABŞ ciddi sınaqlarla qarşılaşmalı olacaqdır. Belə ki, terrorçuların ABŞ-ın özündə ciddi teraktların törədə bilmə ehtimalları getdikcə güclənməkdədir. Bu baxımdan, ABŞ özünün antiteror strategiyasına daha ciddi bucaq altında nəzər yetirmək məcburiyyətində qalır.

İraqa hücum yeni xarici siyasi strategiyanın başlanğıcı kimi

XXI əsrin başlanğıcında ABŞ-ın yeni xarici siyasi gedişləri əsasən "Buş doktrinası" adı altında həyata keçirildiyini müşahidə etmək olardı. Yeni xarici siyasi kursun formalaşmasında ABŞ-da baş vermiş 11 sentyabr terror aktları katalizator rolunu oynadı. Buş doktrinanın mahiyyət və məzmunundan irəli gələrək ABŞ-ın Əfqanıstanda və İraqda müharibələri başlandı. Hələ də 8 il ərzində həmin müharibələrin aparılmasına baxmayaraq rəsmi Vaşinqton strateji məqsədinə nail ola bilməmişdir. Əfqanıstanda Taliban rejiminə və Əl-Qaidə terror təşkilatına qarşı ABŞ başda olmaqla koalisiya qüvvələrinin başladığı antiterror hərbi əməliyyatlar, əslində İraqda S.Hüseyn rejiminə qarşı planlaşdırılan müharibənin "baş məşqi" oldu. Nəticədə Taliban rejimini zəifladən "Əl-Qaidə" təşkilatına ciddi zərbələr endirən ABŞ hökuməti onların tam ləğvinə nail olmadan İraqda növbəti müharibəyə başlamış oldu. İraqda S.Hüseyn rejiminin devrilməsinə 3 həftə ərzində nail olan ABŞ hökuməti müharibədən sonrakı dövrün reallıqlarını düzgün qiymətləndirmədiyindən olduqca mürəkkəb problemlərlə üzləşdi. B. Obamanın hakimiyyətə gəldiyi vaxtda müharibənin başlamasından 6 il keçməsinə baxmayaraq, hələ də İraqda siyasi sabitlik əldə edilməmişdir. B.Obama administrasi-

yasının yeni İraq siyasəti regionun təhlükəsizliyi ilə bağlı kövrək ümidlər yaratsa da, perspektiv haqqında nikbin proqnozlar vermək üçün elə də ciddi əsaslar yoxdur.[7]

Beləliklə, ABŞ-da baş vermiş 11 sentyabr terror aktları ölkənin xarici siyasət kursunda ciddi dəyişikliyə səbəb oldu. Beynəlxalq terrorizmə qarşı mübarizə ABŞ-ın müasir xarici siyasət doktrinasının əsasını təşkil etdi. Əslində ABŞ və beynəlxalq koalisiya qüvvələri tərəfindən Əfqanıstanda Taliban rejiminə endirilmiş zərbə beynəlxalq terrorizmə qarşı başlanan total müharibənin ilk və ciddi döyüşü oldu. Əsas döyüş ərazisi olaraq isə Pentaqon üçün İraq seçilmişdir. Bu seçim müasir mərhələdə ABŞ xarici siyasətinin istiqamətlərini və həyata keçirilməsi taktikasını özündə ifadə edən "Buş doktrinası"nın mahiyyətindən irəli gəlirdi. Bəs bu proses hansı mexanizmə əsaslanırdı? Zənnimiczə, hakimiyyətdə olan neomühafizəkarlar üçün xarici siyasət məsələlərinin həlli prosesində güc tətbiqi ən çox istinad edilən amil idi. Hadisələrin sonrakı gedişatı bu reallığı bir daha təsdiqlədi. Fikrimizi əsaslnadırmağa çalışaq. 2003-cü ilin mart ayının ortalarında antiiraq koalisiyasının komandanlığı Fars körfəzi zonasında, Türkiyədə, İordaniyada və Şərqi Aralıq dənizi ərazisində quru, hava və dəniz qüvvələrindən ibarət ümumi sayı 280 min nəfərədək olan qoşun birləşməsi cəmləşdirmişdi. Bunlardan 250 min nəfərini ABŞ hərbi kontingenti təşkil edirdi. [8, 78]

Quru qoşunları qruplaşması dəniz-piyada qüvvələri ilə birlikdə 176 min nəfərdən ibarət idi (ABŞ-160 min nəfər, Böyük Britaniya-16 min nəfər). Quru qoşunlarının böyük bir hissəsi Küveyt ərazisində, əsasən ölkənin şimal hissəsində yerləşdirilmişdi. Dəniz piyadaları əsasən dənizlərdə, qismən isə Küveyt ərazisində cəmləşdirilmişdi. Hərbi-hava qüvvələrinin bəzi hissələri və xüsusi təyinatlı qruplaşmalar üçün İordaniya, Türkiyə və İsrail ərazisi seçilmişdi. [8, 79] S.Hüseyn rejiminə qarşı müharibədə ABŞ İraqın şimalında məskunlaşmış kürdlərin 30 min nəfərə qədər olan silahlı birləşmələrini də cəlb etmək niyyətində idi. Türkiyə İraqla sərhəddə 70 min nəfərlik 2 ordu korpusu cəmləşdirmişdi. Müharibə ərəfəsində aviasiya qruplaşmasının tərkibində 900-ə qədər strateji (42 ədəd bombardmançı B-2A, B-1B, B-52H), taktiki və HDQ-nin göyərtə tipli hərbi təyyarələri (F-15, F-16, A-10, "Tornado", F/A-18) səfərbər edilmişdi. [8, 81] Strateji bombardmançılar Dieqo-Qarsia adasında (Hind okeanı), Ferfordda (Böyük Britaniya), Markaz Tamariddə (Oman) və Ueytmendə (ABŞ), taktiki aviasiya isə Türkiyənin İncilik hərbi hava bazasında, habelə Küveyt, Qətər, Bəhreyn, İordaniya və Səudiyyə Ərəbistanın aviabazlarında yerləşdirilmişdi. Təyyarələrin mütləq əksəriyyəti ABŞ-a məxsus idi. Böyük Britaniya 25, Avstraliya isə 18 təyyarə ilə təmsil olunurdu. İraqa qarşı hərbi əməliyyatlar cəlb olunmuş ABŞ HHQ-nin şəxsi heyəti 25 min nəfərə qədər idi. Böyük Britaniyada isə müvafiq göstərici 1000 nəfər təşkil edirdi. [8, 81] Koalisiyanın hərbi-dəniz qüvvələri 115 gəmi ilə təchiz olunmuşdur. Bunlardan 6-sı aviadaşıyıcı (ABŞ-ın 5 bu tip gəmisinin 3-ü Fars körfəzində, 2-si isə Aralıq dənizinin şərq hissəsində keşik çəkirdi. Böyük Britaniyanın isə 1 gəmisi Fars körfəzində idi), 30-u isə qanadlı raketlər daşıyan gəmilər idi. Onlardan da 12-ni sualtı qayıqlar, 18-ni isə suüstü gəmilər təşkil edirdi. 750 "Tomoqavk" tipli qanadlı raketin yerləşdirildiyi bu gəmilər Fars körfəzində, Ərəb, Qırmızı və Aralıq dənizlərində hərbi keşik çəkirdi. [8, 82] Koalisiya qüvvələrinin birləşmiş hərbi gərargahı Qətər ərazisindəki Es-Seyliyə bazasında yerləşirdi. Müharibə ərəfəsində İraqın silahlı qüvvələri 389 min nəfərdən ibarət idi. Bundan savayı, İraqda Respublika qvardiyası, xüsusi təyinatlı Respublika qvardiyası, "Səddamın fədainləri", təhlükəsizlik qüvvələri,

sərhəd qoşunları və xalq könüllüləri də ölkənin müdafiəsi funksiyasını yerinə yetirirdi. Müharibənin başlanmasından bir qədər əvvəl İraq ərazisi 4 hərbi zonaya (komandanlığa) bölünmüşdü: Cənub (qərargahı Bəsrədə), Şimal (Mosul), Mərkəz (Bağdad) və Mərkəzi-Fərat (Kərbəla). Ölkənin müdafiəsi ilə bağlı ali rəhbərliyi Səddam Hüseyn həyata keçirirdi. Ölkənin havadan müdafiə sistemi də 4 bölməyə ayrılmışdı: Şimal (qərargahı Kərkükdə), Şərq (Küt əl-Xey), Cənub (Bəsrə) və Qərb (Ramadiya). Ümumən, İraqın silahlı qüvvələri texnika baxımından aşağı səviyyəyə malik idi.

Beləliklə, yuxarıda səslənən fikirlər müharibənin başlanmasının labüd olduğunu təsdiqləyirdi. Bu istiqamətdə atılan sonrakı diplomatik addımlar da eyni nəticəyə gəlməyə əsas verirdi. Belə ki, 16 mart 2003-cü il tarixində Atlantik okeanında Portuqaliyaya məxsus Azor adalarında ABŞ, Böyük Britaniya və İspaniyanın dövlət və hökümət başçılarının iştirakı ilə keçirilən sammitdə İraqla müharibənin başlamayacağı haqqında son və kövrək ümidlər birdəfəlik puç oldu. Düzdür, formal olaraq müharibə elan olunmasa da, əslində onun elanını ehtiva edən yeni qətnamənin qəbulu məqsədilə BMT TŞ-na bir sutka vaxt verildi. 15 üzvündən 5-nin əleyhinə olması, 6-nın tərəddüd etməsi reallığı ilə üzləşən Vaşinqton-London-Madrid-Sofiya dördlüyü müdafiə etdiyi yeni qətnamə layihəsini martın 17-də BMT TŞ-nın müzakirəsinə çıxarmaqdan belə imtina etdi. Martın 18-də ABŞ prezidenti C.Buş İraq prezidenti S.Hüseynə səlahiyyətlərindən imtina edib, ölkəni tərk etməklə bağlı ultimatumunu ünvanladı. Müvafiq qərar qəbul etmək üçün İraq liderinə 48 saat müddət ayrılmışdı. 49,5 saatdan sonra ABŞ rəhbərliyi altında antiiraq koalisiyası qüvvələri Bağdada ilk zərbəni endirdi. Qeyd edək ki, Çinin daha ehtiyatlı davrandığını müşahidə etmək mümkün idi. [6] Beləliklə, labüdlüyünü dəfələrlə qeyd etdiyimiz yeni Fars körfəzi müharibəsi martın 20-də Bağdad vaxtı ilə 5.29 dəqiqədə başladı. Əməliyyatlar "İraqın azadlığı" şərti adı altında aparıldı. [11, 13]

Azərbaycanın da daxil olduğu 35 dövlətin iştirakı ilə yaradılmış antiiraq koalisiyası qüvvələri aprelin 9-da müqavimətlə üzləşmədən Bağdada daxil oldular, apreli 11-də isə S.Hüseynin doğulduğu Tikrit şəhəri də alındı. Vurğulamaq lazımdır ki, koalisiya qüvvələri İraqın cənub hissəsində nisbətən ciddi müqavimətlə rastlaşmışdır. [9, 45]

2003-cü il mayın 1-də prezident C.Buş İraq üzərində qələbə çalındığını və müharibənin başa çatdığını elan etdi. Lakin hadisələrin sonrakı gedişatı göstərdi ki, bu bəyanat heç də İraqda baş verən hadisələri adekvat olaraq əks etdirmirdi. Əslində bu qələbə tam formal xarakter daşıyırdı. Bağdad, Əl-Ənvar, Tikrit və digər şəhərlərdə koalisiya qüvvələrinə qarşı ciddi müqavimət göstərilirdi. Elə bu səbəbdən də prezident C.Buşun qələbəni elan etməsinə baxmayaraq, ölkədə hərbi əməliyyatlar davam etdirilirdi. S.Hüseynin ələ keçirilməməsi də ABŞ başda olmaqla koalisiya qüvvələrini xeyli narahat edirdi. Uzun axtarışlardan sonra S.Hüseyn 2003-cü ilin dekabrın 13-də "Qırmızı sübh"əməliyyatının gedişində Tikrit şəhəri yaxınlığında ələ keçirildi. Çoxsaylı insanlıq əleyhinə cinayətlərdə ittiham olunan S.Hüseyn 2006-cı il dekabrın 30-da edam edildi.

Ümumiyyətlə, ABŞ-ın İraqa hücumunu xarakterizə edərkən bir sıra məqamlara qısaca olaraq aydınlıq gətirmək yerinə düşərdi. Birincisi, qeyd etmək lazımdır ki, ABŞ ordusu İraqda partizan və diversiya qruplarına qarşı səmərəli mübarizə apara bilməmişdir və İraqda son günlərdə baş verən hadisələr bunu bir daha təsdiq edir. İkincisi, İraqda müharibə bir növ, sözün əsl mənasında biznes kompaniyasına çevrilmişdir. Belə ki, müharibədən sonra ərazidə təhlükəsizliyinin təminatı ilə fərdi mühafizə şir-

kətləri məşğul olurlar. Bunun müqabilində isə həmin şirkətlər milyard dollarla gəlir əldə edmişlər. Bundan başqa, fərdi şirkətlərin hərbi fəaliyyəti İraqdakı vəziyyəti nəinki stabilləşdirir, əksinə daha da dərinləşdirir. [4]

İraqın işğalını başa çatdırdıqdan ABŞ qarşısında yeni növbəti vəzifələr meydana gəldi. Bu ilk növbədə Səddam Hüseyndən sonrakı dövr İraqının yenidən qurulması ilə bağlı məsələləri ehtiva edirdi. Bu məqsədlə də BMT TŞ İraqla bağlı 1483 saylı qətnamə qəbul etdi. Sənədə əsasən, İraqın idarəçiliyi və bu ölkəyə məxsus neftin satışından əldə olunan vəsaitdən istifadə hüququ ABŞ-ın yaratdığı administrasiyaya verilirdi. Bunun ardınca ABŞ, Böyük Britaniya, İspaniya və Kamerun İraqla bağlı yeni qətnamə layihəsini BMT TŞ-ya təqdim etdilər. Qətnamə layihəsində vahid komandanlıq altında çoxmillətli silahlı qüvvələrin yaradılması və BMT üzv ölkələrin bu qüvvələrə qoşun ayırması nəzərdə tutulurdu. Bundan savayı, BMT TŞ təşkilata üzv ölkələri, habelə beynəlxalq və regional maliyyə institutlarını İraqa yardım göstərməyə çağırmalı idi. Qətnamə layihəsi ciddi müzakirələr doğurdu. Əsas müzakirə predmeti hakimiyyətin iraqlılara verilmə vaxtı ilə bağlı idi. Belə ki, Fransa hakimiyyətin 2003-cü ilin oktyabrında müvəqqəti milli hökümətə verilməsinin, ilin sonunadək isə konstitusiya layihəsinin hazırlanmasının vacibliyini bəyan edirdi. Rusiya, Çin və Almaniya da tezliklə İraqın suverenliyinin bərpasının tərəfdarı olduqlarını bildirirlər. ABŞ tərəfi isə hakimiyyətin iraqlılara verilməsi vaxtı ilə bağlı konkret öhdəliklər götürmək istəmirdi. Nəticə etibarilə, qətnamənin son variantında İraqın müvəqqəti idarəetmə şurasına 15 dekabra qədər seçkilərin keçirilməsi və konstitusiya layihəsinin hazırlanma qrafikini TŞ-na təqdim etmək tapşırıldı.

Digər bir məsələ çoxmillətli qüvvələrlə bağlı idi. ABŞ bu qüvvələrin onun nəzarəti altında fəaliyyət göstərməsini istəyirdi. Amma qətnamədə göstərilirdi ki, çoxmillətli qüvvələr adından ABŞ TŞ-na 6 aydan bir hesabat verməli idi. Göstərilən dəyişikliklərlə 1511 saylı qətnamə 2003-cü il oktyabrın 16-da qəbul olundu. Qətnamənin qəbulunun səhəri günü Almaniya, Fransa və Rusiya birgə bəyanat yayaraq üzərlərinə əlavə maliyyə, hərbi öhdəlik götürməyəcəklərini bildirirdilər. Bu üçlük eyni mövqeyi oktyabrın 23-24-də İraqın bərpasına həsr olunmuş Madrid konfransında da nümayiş etdirdilər. Bu konfransda ABŞ İraqın bərpasına 15 mlrd. dollar ayrılmasına nail olmaq istəyirdi. Amma konfransda 13 mlrd. dollar vəsait əldə edə bildi. Bu məbləğin çox az hissəsini Avropa ölkələri ayırmışdı. Avropa ölkələri içində ən çox vəsait ayıran Böyük Britaniya idi. Fransa İraqın borclarının müəyyən hissəsinə baxmağa hazır olduğunu bildirirdi. Rusiya isə, ümumiyyətlə, hər hansı donor yardımı göstərməkdən imtina etmişdir. Vəsaitin böyük hissəsini qeyri-Avropa ölkələri (məsələn: Yaponiya 5 mlrd. dollar) və beynəlxalq maliyyə institutları-BVF, Dünya Bankı ayırmışdı. Beləliklə, ABŞ BMT vasitəsilə də müharibə əleyhdarı üçlüyü İraqın bərpasına cəlb edə bilmədi. [10] 2005-ci ili yanvarın 31-də iraqlılar keçici İraq hökümətini seçdilər. Bu hökümət konstitusiya layihəsini hazırlamalı idi. Hazırlanmış konstitusiya 15 oktyabrda keçirilən referendumda təsdiqləndi. Həmin ilin dekabrında isə İraq Milli Məclisinə seçkilər keçirildi. Bu məclis tərəfindən təsdiqlənmiş Nuri Əl-Malikinin başçılıq etdiyi İraq hökümməti 2006-cı il mayın 20-də fəaliyyətə başlamışdır. 2007-ci il mayın 10-da İraq parlamentinin 144 üzvü petisiya imzaladılar. Petisiyada ABŞ-dan qoşunların çıxarılma qrafikini müəyyənləşdirmək tələb olunurdu. Bu arada isə Böyük Britaniyanın Baş Naziri T.Bleyer ingilis qoşunlarının tədricən Bəsrəni tərk edəcəyini bildirmişdi. Elə

həmin ildə T.Bleyeri əvəz edən Qordon Braun da bu fikirləri təsdiqləyərək, qoşunların 2008-ci ilin sonunadək İraqdan çıxarılması planını təqdim etmişdi. 2008-ci ilin noyabr ayında rəsmi Vaşinqton və İraq hökuməti arasında ABŞ qoşunlarının bu ölkədəki statusunu müəyyənləşdirən saziş imzalandı. İraq parlamenti tərəfindən təsdiqlənmiş bu sənədə əsasən, ABŞ hərbi hissələri 2009-cu il iyunun 30-dək İraq şəhərlərindən, 2011-ci il dekabrın 31-dək isə bütün İraq ərazisindən çıxarılmalıdır. Sazişdə öz əksini tapmış müvafiq maddəyə əsasən, təhlükəsizlik paktı ilə bağlı 2009-cu ilin ortalarında İraqda referendum keçirilməlidir. [12]

ABŞ-da 2009-cu il yanvar ayının 20-dən fəaliyyətə başlamış B.Obama administrasiyası da İraqdan qoşunların çıxarılması ideyasının tərəfdarı kimi çıxış edir. Təsadüfi deyildir ki, B.Obama hələ prezident seçkiləri ərəfəsində qeyd edirdi ki, ABŞ-ın Ali Baş Komandanı olacağı təqdirdə 16 ay ərzində hərbi qüvvələri İraqdan çıxardacaqdır. B.Obamanın fikrincə, 11 sentyabr hadisələrindən sonra İraqın beynəlxalq terrorizmə qarşı mübarizənin ön cəbhəsi elan edilməsi səhv addım idi. Onun mövqeyinə görə, bu cəbhə İraqda deyil, Əfqanıstanda yerləşir. O, qoşunları tez bir zamanda İraqdan çıxaracağı və onların 2 briqadasının Əfqanıstanda yerləşdirəcəyini bildirmişdi.

Qeyd edək ki, İraqda cərəyan edən son hadisələr göstərdi ki, ABŞ İraqdakı missiyasını yerinə yetirə bilməmişdir və ya bunu istəməmişdir. Belə nəticə çıxarmaq mümkündür ki, ABŞ bütövlükdə Yaxın Şərqi nəhəng münaqişə ocağına çevirmək niyyətindədir və onun yeni xarici syasi strategiyasının xüsusiyyətlərindən biri də məhz bundan ibarətdir. Belə ki, ABŞ administrasiyası bilməmiş deyildi ki, İraqda kifayət qədər yaxşı silahlanmış qruplaşmalar mövcuddurlar və ilk münbit şəraitdəcə onlar ABŞ-ın formalaşdırdığı hakimiyyətə qarşı çıxacaqlar. 2014-cü ilin iyun ayında İraqda qeyri-leqal hərbi qruplaşmalarla hakimiyyət arasında əsl müharibə başladı. Sual doğuran məqam ondan ibarətdir ki, İŞİD döyüşçülərinin sürətlə irəlilədiyi bir zamanda ABŞ demək olarki, seyrci mövqe tutmaqdadır. Bu da qeyd etdiyimiz ehtimalları bir qədər də gücləndirir.

Azərbaycanın ABŞ-ın antiterror strategiyasında iştirakı

Azərbaycan Respublikası ABŞ ilə strateji tərəfdaşlıq münasibətlərindən çıxış edərək bu dövlətin antiterror mübarizə siyasətini dəstəkləmişdir. Antiterror koalisiyasının faəl üzvü olan Azərbaycan dövləti İraqda sülhün və təhlükəsizliyin təminatında yaxından iştirak etmişdir. Daha dəqiq desək, 2003-cü ilin mayında Azərbaycan Respublikası prezidenti Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 16-cı bəndinə uyğun olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələri kontingentinin beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etməsi üçün Milli Məclisə təklif göndərmiş və parlament 7 may 2003-cü il tarixli iclasında "Azərbaycan Respublikası Silahlı Qüvvələri bölüyünün beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etməsi haqqında" qərar qəbul etmişdir. [1]

Kontingent İraqa 2003-cü il avqust ayının 15-də göndərilmişdir. Azərbaycan Sülhməramlı bölüyü Çoxmillətli Qüvvələrin Qərbi İraq qrupunda, konkret olaraq ABŞ Dəniz Piyadaları taburunun tərkibində fəaliyyət göstərərək nəzarət etdikləri ərazidə asayişin qorunmasını, humanitar yüklərin müşayiət edilməsini, hərbi və inzibati obyektlərin mühafizəsinin təşkilini həyata keçirmişlər. Bölük Əl-Anbar vilayətinin Əl-Həditha şəhəri yaxınlığında xidmət edərək, buradakı su anbarını və İraqın 30%-ni

elektrik enerjisi ilə təmin edən su elektrik stansiyasını mühafizə etmiş, 450 mülki iraqlının işlədiyi stansiyanın nəzarət-buraxılış məntəqəsində post-patrul xidmətini aparmışlar. Su elektrik stansiyası Fərat çayının üzərində inşa edilib. Obyektin ərazisi şimaldan Əl-Qadisiyah gölü, cənubdan isə yaşayış məntəqəsi ilə əhatə olunub. Müəyyənləşdirilən cavabdehlik ərazilərinə görə Azərbaycan sülhməramlıları obyektin cənub hissəsinin mühafizəsini həyata keçirirdi.

Azərbaycan sülhməramlı bölüyünün strukturu 5 tağımdan, şəxsi heyəti isə 15 zabit, 16 gizir, 120 çavuş və əsgər olmaqla cəmi 150 nəfər hərbi qulluqçudan ibarət idi. Sülhməramlı bölüyün şəxsi heyətinin 50 faizi rotasiya qaydasına uyğun olaraq 6 aydan bir dəyişdirilirdi. Bu bölük Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı əməliyyatlarda iştirak edən ən böyük bölməsi idi. Bölüyün bütün təminatı ABŞ tərəfindən, şəxsi heyətin pul təminatı isə Azərbaycan tərəfindən həyata keçirilirdi. 2008-ci ilin dekabrında sülhməramlıların mandatı bitmiş və onlar geri qayıtmışlar.[13] Beləliklə, Azərbaycan Respublikası ABŞ-la birlikdə antiterror mübarizə sahəsində də sıx əməkdaşlıq xəttinə sadiqlik nümayiş etdirmişdir.

Nəticə

Beləliklə, XX əsrin 90-cı illərində qlobal geosiyasi proseslərin məntiqi nəticəsi olaraq yeganə fövqəldövlət statusuna yüksəlmiş ABŞ bu reallıqdan maksimum faydalanaraq unilateralizm (birtərəfli fəaliyyət) siyasətini həyata keçirməyə üstünlük vermişdir. ABŞ siyasi elitasının neomühafizəkarlar qanadı hakimiyyətə gəldikdən və onların dəstəklədikləri namizəd C.Buş 2001-ci il yanvarın 20-dən başlayaraq prezidentlik fəaliyyəni reallaşdırdığı andan keçən müddət ərzində həmin siyasət praktiki olaraq tətbiq olunmağa başladı.

"Buş doktrinası" adı altında həyata keçirilən yeni xarici siyasi strategiyanın başlıca səciyyəvi xüsusiyyəti və ya görünən elementi ondan ibarət idi ki, Amerika Birləşmiş Ştatları daha aşkar və genişmiqyaslı hərbi güc tətbiqinə üstünlük verməyə başlamışdır. XXI əsrin astanasında ABŞ, bir çox parametrlərinə və reallaşdırılması taktikasına görə ötən dövlərdəkindən ciddi şəkildə fərqlənən yeni xarici siyasət strategiyasının formalaşmasında və dinamikliklə həyata keçirilməsində Amerika Birləşmiş Ştatlarında 2001-ci ilin sentyabr ayının 11-də baş vermiş terror aktları katalizator rolunu oynamışdır. ABŞ-ın atdığı addımların sonrakı məntiqi qeyd etməyə əsas verir ki, onun, Əfqanıstanda Taliban rejiminə və Əl-Qaidə terror təşkilatına qarşı müttəfiqləri ilə birgə həyata keçirdiyi miqyaslı antiterror əməliyyatları, əslində İraqda Səddam Hüseyn rejiminə qarşı başlanılması nəzərdə tutulan və sürətli qələbəni təmin edəcək müharibənin məşqi kimi nəzərdən keçirilirdi. Bu irəli sürdüyümüz fikirləri təsdiq edən başlıca məqam isə ondan ibarət oldu ki, Amerika Birləşmiş Ştatları Taliban rejimini və "Əl-Qaidə" təşkilatını tam sıradan çıxarmadan İraqa qarşı hərbi hücum təşkil etmişdir. ABŞ-da C.Buşdan sonra hakimiyyətə gələn Barak Obama isə əvvəllki administrasiyanın reallaşdırdığı xarici siyasi strategiyada bir sıra ciddi çatışmazlıqların olduğunu bəyan etmişdir. Məsələn, ümumiyyətlə, Amerika Birləşmiş Ştatlarının kifayət qədər dəqiqliklə hazırladığı və sürətlə həyata keçirdiyi İraq kompaniyası uğurlu addım kimi qiymətləndirilmirdi.

Azərbaycan Respublikası Amerika Birləşmiş Ştatlarının həyata keçirdiyi yeni xarici siyasi strategiyasında kifayət qədər yerə və rola malik olmuşdur. Belə ki, ABŞ-ın beynəlxalq terrozimə qarşı qlobal müharibə elan etdiyi ilk dövrdən Azərbaycan

Respublikası beynəlxalq antiterror koalisiyasının fəal üzvlərindən və real iştirakçılarından biri olmuşdur. Beynəlxalq antiterror əməliyyatlarında birgə iştirak Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin formasında təsirli rol oynamışdır.

QAYNAQLAR

1. "Azərbaycan" qəz., 8 may 2003. 2. Бжезинский З. Великая шахматная доска, http://rus-sky.org/history/library/bzhezins.htm/
2. Василенко И.А. Геополитика современного мира./ Учебное пособие. М., издательство «Юрайт», 2011, 395 с.
3. Володин В. Красная кровь в «Черной воде». Первой в Ираке стреляет частная армия // Время Новостей.-2007, 9 октября.
4. Иванов В. Антитеррористический «Смерш» США // Независимое военное обозрение, 2007, 30 ноября-6 декабря.-№ 42.-С. 2.
5. "Известия" газ., 18 марта 2003.
6. Новая геополитика США и Россия: к «великому компромиссу»// http://www.1news.az/politics/20140225075655553.html, 25.02.2014
7. Юрченко В.П, О некоторых предварительных итогах военных действий в Ираке // Ирак: первые итоги, выводы, уроки. И., ИИИБВ, 2003, с. 78.
8. Полонский Д., Урбан К. Мародеры и гости столицы // "Коммерсант. Власть", 14-20 апреля 2003, с. 45.
9. Обзор деятельности Совета безопасности за 2003 год / http://www.un.org/press/en/2004/sc7982.doc.htm (müraciət tarixi:26.01.16)
10. Черникова А. Шокотерапия // "Коммерсант. Власть", 24-30 марта 2003, с.13
11. War in Iraq / http://www/whitehouse.com
12. http://www.mod.gov.az/index2.php?content=beynalxalq/4(müraciət tarixi:26.01.16)

Сабина ГАРАШОВА

Особенности осуществления внешней политики США на современном этапе: фактор силы и антитеррористическая стратегия в Ираке

Резюме

В научной статье главным образом рассматривается реализация новой внешнеполитической и антитеррористической стратегии США. Отмечается, что после распада Советского союза и мировой социалистической системы у США появились уникальные возможности для глобальной гегемонии. Об этом говорится и в книге известного американского стратега Зб. Бжезинского. Так, в книге «Великая шахматная доска» автор отмечает: «После ликвидации единственного противника для США появилась уникальная возможность». На самом деле можно считать, что после распада СССР США остались единственной мировой державой. Как единственный глобальный центр силы США начали разрабаты-

вать и реализовывать качественно новую внешнеполитическую стратегию. В данной научной статье раскрывается суть этой новой стратегии. В статье отмечается, что есть серьезные основания считать, что даже масштабная борьба против международного терроризма является центральным направлением новой стратегии США.

В научной статье также внимание уделяется вторжению США в Ирак. Анализируется международное положение перед войной в Ираке. Делается вывод, что США не смогли или не захотели полностью осуществить свою стратегию в отношении Ирака, так как после вывода основных частей американских войск там начались серьезные вооруженные столкновения. Таким образом, все эти и другие вопросы всесторонне рассматриваются в данной научной статье.

Sabina GARASHOVA

Features of the U.S. foreign policy at the present stage: power factor and anti-terrorism strategy in Iraq

Summary

In a scientific article mainly discusses the implementation of a new foreign policy and U.S. anti-terrorism strategy. That, after the collapse of the Soviet Union and the world socialist system, the U.S. has a unique opportunity for global hegemony. This is stated in the book of famous American strategist Z. Brzezinski. As in the book "The Grand Chessboard" the author notes: "After elimination of a single enemy for the United States a unique opportunity. In fact, we can assume that after the collapse of the Soviet Union the United States remained the sole world power. As the only global center for U.S. forces began to develop and implement a qualitatively new foreign policy strategy. In this research article reveals the essence of this new strategy. The article notes that there are serious grounds to believe even a large-scale fight against international terrorism is the central focus of the new U.S. strategy.

In the scientific article also focuses on the invasion of Iraq. Analyzed the international circumstance before the war in Iraq. It is concluded that the U.S. could not or don’t want to fully implement its strategy for Iraq. Since after the

withdrawal of the main parts of U.S. troops from Iraq began there serious fighting. Thus, all these and other issues are fully considered in this research article.

BAKI AVRASİYA UNİVERSİTETİ
"Sivilizasiya" jurnalı 2016.№1

Fikrət ƏLİYEV
Təhsil İşçilərinin Peşə İnkişafı İnstitutunun
baş müəllimi, p.e.n.

FASİLƏSİZ İXTİSASARTIRMA

Açar cözlər: *ixtisasartırma, statik struktur, dinamik struktur, inzibati-kurator departamenti.*

Problemin aktuallığı. İdrak birdəfəlik zehni akt olmadığından vahid zaman hüdudlarına sığmır. Insan özünün ən qədim dünənindən bu gününə kimi dərk edə-edə gəlmiş, ən uzaq sabahına da elə bu münvalla gedəcədir. Filogenetik və ontogenetik inkişaf müstəvilərində hər bir dərkin dəyər-nəticələri var. Kimlərin kəşfi, ixtirası olmasından asılı olmayaraq, dəyər-nəticələr bütövlükdə bəşəriyyətə məxsus təcrübə xəzinəsidir. Kəşflər, ixtiralar, tətbiq modelləri nə qədər təkmil elmi mexanizmlərə (dərkolunma dərinliyinə və genişliyinə) malik olarsa, təcrübə xəzinəsi də bir o qədər zəngin və faydalı olar.

İdrakın birdəfəlik zehni akt olmaması onun konservatizmliyini şərtləndirir, mütləq həqiqətin və bunun nəticəsi olan mütləq dəyərliliyin dərkini onilliklər, yüzilliklər intervalında ləngidir, fərdi, cəmiyyəti, bəşəriyyəti fəaliyyət konservatizminə uğradır, funksiya dinamizmindən-proqram-məqsəd çevikliyindən məhrum edir.

Fərdlərə xas olan və onların vasitəsilə kollektivləri, cəmiyyəti, bəşəriyyəti operativ inkişaf dinamizmdən sapdıran idrak konservatizmliyi insan intellektinin obyektiv yox, subyektiv ətalətliliyi ilə şərtlənir. Çünki intellekt təbii, yəni obyektiv olaraq ətalətsiz yaranmış zehni fenomendir.

İntellektin subyektiv ətalətliliyi və onun şərtləndirdiyi idrak konservatizmliyi idrak subyektinin kifayət dərəcədə sıxlığa malik öz iradə sahəsini yarada bilməməsidir. Fəaliyyət orbitində belə bir iradə sahəsini yarada bilməyən idrak subyekti öz nəzəri təfəkkürünün üfüqlərini genişləndirə, onun tənqidliyini, divergentliyini, orijinallığını, çevikliyini, yeniləşdirmə atributivliyini dinamikləşdirə bilməz, mövcud olanla kifayətlənər. İntellektin subyektiv ətalətinin hasil etdiyi idrak konservatizmi bütövlükdə təhsildə, o cümlədən tamamlayıcı pedaqoji təhsilin bütün növlərində, ələlxüsus da ixtisasartırmada dünyəvi xarakter daşıyır. Problemi həll etmə tədqiqatları da qlobal miqyaslıdır. Bununla belə, konservatik ənənəvi ixtisasartırma probleminin realist paradiqma əsasında həlli qalmaqdadır. Çünki ixtisasartırmada idrakın konservatizmlik faktorları aşkarlanmır, mutant innovasiyalarla qarışdırılır, ixtisasartırma elə həmin bəhrəsiz klassik, ənənəvi məzmun-forma koordinatlarında saxlanılır.

Problemin həll olunmamasının əsas faktorları ixtisasartırma texnologiyasında, məzmununda, pedaqogikasında, psixologiyasında, statik-dinamik atributlarında tənqidi təfəkkür mexanizmlərinin, qeyri-səlis məntiq mahiyyətli pedaqoji paradiqmanın yaradılmamasıdır.

Dediklərimizi nəzərə alaraq tamamlayıcı pedaqoji təhsilin, ümumiyyətlə, kadrhazırlamanın keyfiyyət dinamikasını təmin edə biləcək hamılıqla fasiləsiz ixtisasartırma modelini işləyib hazırlamış, təqdim edirik.

Modelin ehtimal nəticəliliyi:

- İxtisasartırmanın ənənəvi fasiləliyi onun fasiləsizliyi ilə əvəzlənir.
- Ümumtəhsil sistemi pedaqoqlarının ixtisasartırma (tamamlaycı) təhsili sosial gözləmələrin, fərdi ehtiyac və tələbatların ideal səviyyədə ödənilməsini təmin edir.

Modellərin məqsədlər kompleksi:

❖ Təhsil məkanında inzibati və elmi-metodik idarəetmə paralelliyini, qarşılıqlı idarə-icra iyerarxiyasını yaratmaq.

❖ Ənənəvi fasiləli ixtisasartırmanı (tamamlayıcı təhsili) fasiləsizləşdirmək.

❖ Tərəfimizdən formulə edilmiş təbii unikallığı əks etdirən zaman-məkan-funksiya vəhdəti prinsipini ixtisasartırma prosesinə tətbiq etməklə, bütün kateqoriya ümumtəhsil pedaqoqlarının hər il, hamılıqla və eyni zamanda təhsilini artırmaq.

❖ Təhsili idarəetmənin tərəfimizdən formulə edilmiş funksiya birinciliyi; idarəetmə sisteminin struktur səviyyələrinin vəhdəti; qarşılıqlı tabelik və funksiya sərhədliliyi; idarəetmə sisteminin kifayət dərəcədə maddi-intellektual təminatlılığı; idarəetmədə struktur-funksional komponentlərin eyniyyətliliyi; idarəetmədə demokratiyanın və humanistliyin ekvivalentləşdirilməsi; təbii məsuliyyət qanunlarının ixtisasartırmada tətbiqni reallaşdırmaq.

❖ İxtisasartırmanın, ixtisas hazırlığının və pedaqoji fəalliyyətin birmüstəvili klaster proqramlığını, tamlığını və bütövlüyünü həyata keçirmək.

❖ İxtisasartırma prosesində tədris, tədqiqat, mübadilə, tətbiq sintezinə nail olmaq.

❖ Hamılıqla ixtisasartırmaya hamılıqla hazırlaşmanı motivasiyalaşdırmaq, onu ixtisasartırmada özünütəhsilin vektorial istiqamətliliyinə çevirmək.

❖ Klassik, ənənəvi və innovativ tədris metodlarının kompleks tətbiq mümkünlüyünü istifadə arsenalında saxlamaqla, müdavimlər üçün azəhəmiyətli imperativ ixtisasartırmanı çoxəhəmiyyətli şəxsiyyətyönümlü ixtisasartırmaya transformasiya etmək.

❖ Hamılıqla ixtisasartırmanı bütün pedaqoji kadrların peşə hazırlığının diaqnostikası və onun zəminində proqnozlaşdırılan orta nəticələr zəminində təşkil etmək.

❖ Əsasları məktəblərdə öyrədilən elmlərdə, həmçinin pedaqogika, psixologiya və metodikada kəşf edilmiş yeni biliklərin məktəb pedaqoqlarının hamısına, eyni zamanda mənimsədilməsini təmin etmək.

❖ Pedaqoji peşəkarlığı maksinun mümkün edən ikiqütblü ixtisasartırma sistemi yaratmaq.

❖ Fərdi pedaqoji fəaliyyətin müntəzəm, sistemli diaqnostikasını və qiymətləndirilməsini mümkün edən faktorlar sistemini modelləşdirmək və reallaşdırmaq.

❖ İxtisasartırma təhsilinin keyfiyyət problemini ənənəvi sınaq və imtahan keçirmədən, maliyyə və resurslar məsarifinə yol vermədən həll etmək.

❖ Ixtisasartırmanı pedaqoji kadrları istehsalatdan ayırmadan, onu təsdiq edən sənəd vermədən keçirmək.

Ənənə reallığı. İxtisasartırma hər bir pedaqoji fərd üçün beş ildə bir dəfə təmin edildiyi üçün fasiləlidir, ixtisası artırılanın və onun işlədiyi müəssisənin sifarişi ilə yox, ixtisasartıranın iradəsi, proqramı, ehtimalı əsasında həyata keçirildiyi üçün yolverilməz dərəcədə səmərəsizdir. Nəticədə müəllimlər mütəxəssisi olduqları elmlərin, həmçinin pedaqogika və psixologiyanın yeniliklərindən bütün fəaliyyətləri ərzində tam və bütöv informasiya almırlar.

Ənənəvi ixtisasartırmada təkcə pedaqoji kadrların peşəkarlıq tələbatları yox, həm də ümumtəhsil məktəb şagirdlərinin idrakı, sosial-hüquqi, peşəseçmə, özünüreallaşdırma tələbatları ödənilməmiş qalır, ailə institutunun, ali pedaqoji məktəbin, ixtisasartırma subyektinin eyniməqsədli fəaliyyətləri vahid məzmun-forma kontekstinə gətirilmir. Nəticədə məktəb fəaliyyətində təhsilin şəxsiyyətyönümlülüyü, ali məktəbdə kadrhazırlamanın ümumtəhsil məktəbi müəllimin fəaliyyətindən uzaqlaşdırılması, ixtisasartırma prosesinin rabitəsiz fraqmentarlaşdırılması, ailə-məktəb sistemində etimad defitsiti baş verir.

Dünənki və bugünkü ixtisasartırma monitorinqsiz miniatür bakalavriat təhsili statusunda təşkil olunduğundan, kurslarda, treninqlərdə, seminarlarda pərakəndə nəzəri biliklər "mən, deyim-sən eşit!" metoduyla mənimsədilir, texnologiya praktikası işə salınmır. Kursdan qayıdan müdavimlərin öz iş yerlərində, heç olmasa, söhbət-monitorinq sınağı keçirilmir. Nəticədə müdavim kontingenti interaktiv və digər təlim texnologiyalarının tətbiq mexanizmlərinə yiyələnmir.

Ənənəvi ixtisasarırma imperativ olduğundan, ümumtəhsil müəllimlərini özütəşkilolunan ixtisasartırmadan ayırır, özünütəhsili təxirə salır. Bu isə rəsmi pedaqoji fəaliyyətdə müəllim laqeydliyini şərtləndirir, şəxsi təhsilin keyfiyyət əmsalını, yaradıcılıq məsuliyyətini və mənimsəmə iqtidarlığını azaldır.

İndiyə kimi təhsil sistemində inzibati və elmi-metodik idarəetmə paralelinin yaradılmaması ixtisasartırmada sifariş-icra rabitəsizliyini, səmərəsizliyini qaçılmaz edir.

Ənənəvi diskretlik hamılıqla eyni zamanda ixtisasartırmanı mümkünsüz edir.

Adından və təyinatından asılı olmayaraq bütün növ ənənəvi ixtisasartırmada elmi-metodik ehtiyac və tələbatların diferensial ödənilməsi təmin edilmir.

Real ixtisasartırma statikası birqütblüdür, yəni ixtisasartırma müəssisəsində əsasən nəzəri peşə biliklərini mənimsədən statika ümumtəhsil məktəblərində tətbiqi texnologiyalara kondisiya səviyyəsində transformasiya edən statika ilə tamamlanmır. Nəticədə kurs müdavimləri nəzəri biliklərin bələdçisinə, praktik bacarıqların və vərdişlərin naşısına çevrilirlər.

Postsovet dovründə ixtisasartırma institutu özünün qanunvericiliklə təsbit edilmiş xidmət sahələrindən-ümumtəhsil müəsisələrindən təcrid edilmişdir. Nəticədə institutun pedaqoji kollektivlərdə aparılması zəruri olan diaqnostik, tamamlayıcı, korrektiv, profilaktik, təşkilati, kommunikativ, bərpaedici, intellektual-informativ və i.a. fəaliyyətləri dayandırılmışdır.

Fasiləsiz ixtisasrtırmanın statik quruluşu (anatomiyası): Milli Elmlər Akademiyasının məktəb təhsilinə elmi xidmət mərkəzi-Pedaqoji Elmi-Tədqiqat və Təchizat İnstitutunun məktəb dərslikləri haqqında informasiya qrupu-Təhsil Nazirliyinin tamamlayıcı pedaqoji təhsilə sifariş və inzibati xidmət idarəsi-İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun inzibati-kurator departamenti-Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu-Ümumtəhsil sistemi müəssisələri metodik xidmətinin alim pedaqoq-koordinatorları.

İxtisasartırma sistemi statikasının struktur komponentlərinin funksional heyətlə komplektləşdirilməsinin aşağıdakı variantını optimal sayırıq:

Milli Elmlər Akademiyasının məktəb təhsilinə xidmət mərkəzi: mərkəzin rəhbəri-mərkəz rəhbərinin müavini-3 nəfərdən ibarət tədqiqatçı-ekspert qrupu-elmi katib-operator. Təhsil Nazirliyinin tamamlayıcı pedaqoji təhsilə sifariş və inzibati xidmət idarəsi: idarənin rəisi-rəis müavini-5 nəfərdən ibarət koordinatorlar qrupu-operator-katib. Elmi-Tədqiqat və Təchizat İnstitutunun məktəb dərslikləri haqqında informasiya qrupu: qrupun rəhbəri-qrup rəhbərinin müavini-3 nəfərdən ibarət ekspert-informatorlar qrupu-operator-katib. Ixtisasartırma və Yenidənhazırlanma İnstitutunun inzibati-kurator departamenti: müdir-onun müavini-pedaqoji kadrların ixtisasının artırılması üzrə 3 kurator.

İxtisasartırma və Yenidənhazırlanma İnstitutu: rektor, rektor köməkçisi, operator-elmi Şura: elmi katib, 15-17 şura üzvü-ümumi şöbə: müdir, operator-kargüzar-tədris işləri üzrə prorektor (hər prorektor ştatına bir operator)-eksperimentlər və elmi tədqiqatlar üzrə prorektor-prorektor-kurator-təsərrüfat fəaliyəti üzrə prorektor-fasiləsiz təhsil təşkilatçılarının ixtisasartırma fakültəsinin dekanlığı: dekan, onun müavini, baş laborant, iki operator-yenidənhazırlanma fakültəsinin dekanlığı: dekan, onun müavini, baş laborant, iki operator-birtipli məktəb fənləri üzrə kafedralar: müdir, onun müavini, dövlət normativləri müəyyənliyində professor-müəllim heyəti, tədris fənləri sayda metodistlər, laborant-katib, operator-tədris-metodik şöbə: müdir, onun müavini, inspektor, tədris proqramları üzrə kurator, baş laborant, kargüzar, iki laborant-informasiya, beynəlxalq əlaqələr və təhsilin keyfiyyəti şöbəsi: müdir, informasiya kuratoru, təhsil keyfiyyəti üzrə kurator, beynəlxalq əlaqələr kuratoru-tədris proqramlarının analizi şöbəsi: müdir, ekspert, proqram müəllifləri, kafedra müəllimləri-mühasibat: indiki normativlər əsasında komplektləşdirilir-kitabxana: indiki normativlərə uyğun komplektləşdirilir-texniki mərkəz-texniki xidmət bloku: indiki normativlərə uyğun komplektləşdirilir və təsərrüfat fəaliyyəti üzrə prorektor tərəfindən idarə olunur.

Hamılıqla fasiləsiz ixtisasartırma sisteminin dinamikası (fiziologiyası) aşağıdakı ardıcıllıqdan və funksional toplananlardan ibarətdir:

Milli Elmlər Akademiyasının məktəb təhsilinə elmi xidmət mərkəzi daim fəaliyyət göstərir. Əsasları ümutəhsil məktəblərində tədris olunan elmlərdə müəllimlərin və şagirdlərim bilməli olduqları yenilikləri Akademyanın uyğun struktur-funksional komponentlərindən toplayır, tədqiq edir, sistemləşdirir, təqvim ilinin yanvarında İxtisasartırma və Yenidənhazırlanma İnstitutuna təqdim edir.

Elmi-Tədqiqat və Təchizat İnstitutunun məktəb dərslikləri haqqında informasiya qrupu institutun məktəb dərslikləri laboratoriyası, dərslik müəllifləri Şurası (bu qurumlar yaradılmalıdır), Təhsil Nazirliyinin tamamlayıcı pedaqoji təhsilə sifariş və in-

zibati xidmət idarəsi, ümumtəhsil sistemi müəssisələri ilə əməkdaşlıq edir, dərslik yeniliklərini toplayır, təsnifatlaşdırır, təqvim ilinin yanvarında İxtisasartırma və Yenidənhazırlanma İnstitutuna təqdim edir.

Təhsil Nazirliyinin tamamlayıcı pedaqoji təhsilə sifariş və inzibati xidmət idarəsi daim fəaliyyət göstərir. Təhsil Nazirliyinin ixtisasartırmaya və yenidənhazırlanmaya tələbatlarını tədqiq edir, ümümiləşdirir, həmin tələbatların ödənilməsi üzrə dövlət sifarişi hazırlayır, fasiləsiz ixtisasartırmanın təşkili və keçirilməsi üçün baza (dayaq) məktəblərini müəyyənləşdirir, qeyd olunan miqyas əhatəliliyində informasiya hazırlayır, Təhsil Nazirliyinin sərəncamı statusunda yanvar ayında İxtisasartırma və Yenidənhazırlanma İinstitutuna təqdim edir, instituta müntəzəm olaraq inzibati xidmət göstərir.

İxtisasartırma institutunun inzibati-kurator departamenti Təhsil Naziriliyinin İxtisasartırma və Yenidənhazırlanma İnstitutuna sifariş-sərəncamının yüksək keyfiyyət səviyyəsində icrası üçün tələb olunan inzibati tədbirləri həyata keçirir: İnstituta təhkim olunan baza məktəblərin tədris-texniki təchizatını ixtisasartırma standartları məzmununda təmin edir; tabelikdə olan bütün ümümtəhsil müəssisələrinin pedaqoji kontingentinin fasiləsiz ixtisasartırmaya hamılıqla eyni zamanda cəlbini təşkil edir, ixtisasartırmada o, öz funksional fəaliyyətinin inzibati müstəvisində, Təhsil Nazirliyi ilə yanaşı, dövlət sifarişçisi və nəzarətçisi, elmi-metodik müstəvisində isə İnstitut göstərişlərinin icraçısıdır.

İxtisasartırma və Yenidənhasırlanma İnstitutu, indiyə qədər olduğu kimi, qapalı müəssisə statusunda yox, açıq təhsil subyekti statusunda fəaliyyət göstərir. Onun elm, təhsil sosial institutlarına çıxışı var. Hamılıqla fasiləsiz təhsil subyektlərindən hər təqvim ilinin yanvarında aldığı informasiyalar sifarişlər, eləcə də özünün il ərzində apardığı tədqiqatlar, keçirdiyi diaqnostikalar, monitorinqlər, məktəb rəhbərlərinin, pedaqoqların sifarişləri və təcrübələri, Təhsil Nazirliyinin sərəncamları, müxtəlif mənbələrdən yığılmış informasiyalar, sosial gözləmələr əsasında hərilki tədris planlarını, proqramlarını, qabaqcıl təcrübə informasiyalarını, tədris materiallarını hazırlayır, fasiləsiz ixtisasartırmanın mühazirəçilərinə, koordinatorlarına, məktəb rəhbərlərinə, metodbirləşmə rəhbərlərinə mənimsədir. Har ilin avqust ayında baza məktəblərində keçirilən ongünlük kurslara rəhbərlik edir. Hamılıqla fasiləsiz ixtisasartırma haqqında sənəd verilmir.

İnstitut daim fəaliyyət göstərir, tədqiqat aparır və ən yaxşı peşəkar müəllimləri, innovativ təcrübəyə malik professor-müəllim kontingentini müəyyənləşdirir, onlardan xüsusi kurslarda fasiləsiz təhsil mühazirəçiləri, seminaristləri, ekspertləri hazırlayır. Məktəbəqədər uşaq tərbiyə müəsisələrinin bütün kateqoriya pedaqoji kadrları, məktəb rəhbərləri üçün klassik formatda, innovativ texnologiyalı ixtisasartırma kursları keçirir, ümumtəhsil sistemi müəssisələrinin, orqanlarının hamısına müasir məzmunlu pedaqoji dəstək xidməti göstərir.

Məktəbdaxili elmi-metodik koordinasiya şurasının üzvləri hər il ixtisasartırma institutunda xüsusi kurslar keçir, pedaqoji kollektivləri fasiləsiz ixtisasartırmaya hazırlayırlar.

QAYNAQLAR

1. ƏliyevF.Q. Pedaqoji süfrə. Tədris-metodik vəsait, Bakı: ”Elm və təhsil”. 2012, 448s.
2. ƏliyevF.Q. Pedaqoji mətbəx. Tədris vəsaiti, Bakı: ”Elm və təhsil”. 2013, 320s.
3. Гретченко А.И. Болонский процесс: интеграция России в европейское и мировое образовательное пространство /А.И.Гретченко, А.А.Гретченко-М.: КНОРУС, 2009, 432с.

F.ƏLIYEV

Fasiləsiz ixtisasartirma

Xülasə

Fasiləsiz təhsil paradiqması və bu konseptual əsasda fasiləsiz ixtisasartırma təklif olunur.

Fasiləsiz ixtisasartırmanın statika və dinamika mexanizmləri, ehtimal olunan nəticələr, məqsədlər kompleksi məqalədə ardıcıl sistemləşdirilir.

Ф.АЛИЕВ

Непрерывное повышение квалификации

Резюме

Предлагается парадигма непрерывного образование и на этой концептуальной основе непрерывное повышение квалификации.

В статье предлагаются статические и динамические механизма повышения квалификации, вероятностная результативность, целевой комплекс непрерывной системы повышения квалификации.

F.ALIYEV

Continuous frofessonal development

Summary

On the basis of this conseptual paradiqm of continuos education and continuous professional development is offered.

Statics and dynamics of continuous professional development, are likely to be consistently high results in the article.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Севиндж МАМЕДЛИ
Докторант Академии Государственного Управления
при Президенте Азербайджанской Республики

СИСТЕМЫ И КАНАЛЫ РЕКРУТИРОВАНИЯ ПОЛИТИЧЕСКОЙ ЭЛИТЫ

Açar sözlər: *elita, siyasielita, elitanınseçilmə sistemi, elitanınseçilmə kanalları, siyasielitanınformalaşması və inkişafı*
Ключевые слова: *элита, политическая элита, системы рекрутирования, каналы рекрутирования, формирование и развитие политической элиты*
Keywords: *elite, political elite, recruitment systems, recruitment channels, the formation and development of the political elite*

Теоретические исследования и факты реальной жизни подтверждают, что политическая элита-это реальность сегодняшнего и завтрашнего этапов развития человеческой цивилизации. В настоящее время существует большое количество различных концепций, обосновывающих деления общества на управляющее меньшинство и управляемое большинство. Представление о том, что в современных условиях широкие слои населения могут осуществлять властные функции, в полной мере участвовать в политическом процессе, в действительности оказывается иллюзией. На практике участие граждан в политической жизни той или иной ограничивается выборами, а реальную власть осуществляют политические элиты. Они принимают стратегически важные решения и используют ресурсы государственной власти для их реализации. Основные функции, которые выполняют в обществе политические элиты следующие :

1. выражение совокупного интереса представляемых ими классов или слоев;
2. формирование и реализация политического курса на основе учета всех социальных интересов(общенационального интереса);
3. кадровая политика на высшем уровне, выдвижение политических лидеров;
4. защита ценностей, характерных для данного общества;
5. распределение ценностей и ресурсов в обществе;
6. принятие конкретно-управленческих решений [4]

Политическая элита неоднородна, внутренне дифференцирована, среди элит различают правящую, то есть непосредственно обладающую государственной властью и оппозиционную (контрэлиту). Правящая политическая элита общества не равнозначна таким понятиям, как «руководство страны» и «правительство». Последние представляют собой лишь часть политической элиты общества, а именно такую ее часть, которая наделена полномочиями публичной, то есть государственной власти. Сюда входят президент страны, члены прави-

тельства, руководители крупных государственных ведомств, парламентарии, которые поддерживают курс президента и правительства.

Другая часть политической элиты находится за пределами государственных структур. Это, прежде всего, лидеры политических партий, движений, профсоюзов, различных политических организаций, фондов, ассоциаций, видные политологи, публицисты, вовлеченные в политику известные писатели, телерадиообозреватели. Следовательно можно утверждать что, к первой принадлежат чиновники государственных органов и работники аппаратов партий и движений. Они назначаются на свои должности руководителями организаций. Их роль в политическом процессе сводится в основном к подготовке политических решений и юридическом оформлении уже принятых решений.

Ко второй категории относятся публичные политики, для которых политика не только профессия, но и призвание. Они не назначаются на должности, а завоевывают свое место в политической структуре в открытой политической борьбе. Во многих странах к перечисленным группам политической элиты присоединяются представители финансово-промышленного капитала и военно-промышленного комплекса, выполняющие роль групп давления на правительство и парламент страны с тем, чтобы политика государства не шла вразрез с интересами соответствующих отраслей экономики. Во внеправительственной части политической элиты могут формироваться лобби, «теневое» правительство, политическая оппозиция и т.д. По оценкам международных экспертов, лоббированием интересов различных групп и компаний в Европарламенте, то есть среди политической элиты Евросоюза, занято по крайней мере 30 000 лоббистов в Брюсселе, почти 31 000 сотрудников, нанятых Европейской комиссией. Делается это как официально, то есть агентствами, предоставляющими услуги по лоббированию, так и в рамках неформальных объединений, например, национальных ассоциаций или клубов выпускников.[14]

Формирование и воспроизводство элит-непрерывный процесс, включающий в себя рекрутирование политической элиты, благодаря которому индивиды делегируются для занятия высших политических должностей. Исследовать процесс рекрутирования-«значит понять, как люди вовлекаются в политику, выдвигаются на руководящие посты (в том числе становятся политическими лидерами), устанавливают политические контакты, как они делают политическую карьеру». [3]

Процесс рекрутирования политической элиты является важным звеном в формировании качественной политической власти в стране. Качество элиты зависит от принципов ее образования. Для исследования процесса рекрутирования политической элиты важным является определение нескольких категорий, связанных с данным процессом. Во-первых, важен селекторат-круг лиц, осуществляющий отбор элиты. Во-вторых, большую роль играет механизм отбора. Механизмы рекрутирования-это некие принципы выдвижения в ее состав новых членов.

В стабильных политических системах рекрутирование элиты осуществляется в соответствии с тщательно разработанными процедурами (обычно священными традициями), в результате чего персональный состав элиты с большей или меньшей периодичностью обновляется, а сама политическая структура остается в значительной степени неизменной. По-иному обстоит дело в условиях ломки

политической системы, в периоды политической нестабильности. Тогда происходит трансформация или смена элит: люди, занимающие ключевые позиции в государственном управлении, лишаются своих постов, возникает много ваканнсий, которые заполняются с нарушением обычных рутинных норм. Общество обычно никогда не испытывает недостатка в желающих занять элитные позиции. Это стимулируется высоким статусом управленческой деятельности, престижем, возможностью получить ряд привилегий, в том числе материальных. Иное дело, насколько квалифицированными оказываются "новобранцы" на элитных позициях, каковы их моральные и деловые качества. Процесс создания элиты исключительно важен для политической системы: он может либо обеспечить более или менее равные возможности доступа к власти всем гражданам, либо ограничить эти возможности, а то и вовсе их лишить. Одна из характерных черт подлинно демократической системы-создание возможностей для каждого гражданина достичь такого положения, которое дает ему право считаться членом политической элиты.

Только в течение 2012-го года была начата реализация 18 проектов, охватывающих сельские дороги. Для осуществления этих проектов, помимо выделенных средств из государственного бюджета, по распоряжению Президента также были выделены средства из его Резервного Фонда. В результате реализации начатых в 2012 году проектов в 2013 году ожидается прокладка сельских дорог протяженностью 634 километра и ремонтно-строительные работы на 42 мостах. Эти дороги и мосты соединят 18 районов, включающих 400 населенных пунктов с населением 450 тысяч человек.

Кроме этого, в 2013 году по поручению Президента было начато осуществление новых проектов по сельским дорогам протяженностью в 600 километров. В течение 10 лет реализации государственных программ внутренний валовой продукт увеличился в 3, 2 раза, в том числе ненефтяной сектор-в 2, 6 раза, промышленность-в 2, 7 раза, сельское хозяйство-в 1, 5 раза, инвестиции-в 6, 5 раза, доходы населения-в 6, 5 раза, среднемесячная заработная плата-в 5, 5 раза. В результате осуществленных за этот период целенаправленных мер в стране было создано более 1, 2 миллиона новых рабочих мест, в том числе 900 тысяч постоянных, 55, 6 тысячи предприятий, безработица сократилась до 5 процентов, а уровень бедности-до 5, 3 процента. Широкомасштабная работа, проделанная в рамках государственных программ, создала прочную основу для развития регионов и в предстоящие годы (3).

То, что развитие ненефтяного сектора экономики является приоритетом для Азербайджана, отмечается уже давно. Сегодня страна смогла достичь того, что ненефтяной сектор в экономике значительно превышает энергетический. Перед республикой стоят новые перспективы-производство высокотехнологичной

продукции, ориентированной на экспорт, выход на зарубежные рынки. Еще одним приоритетом является развитие сельского хозяйства. Как отметил глава государства, производство, удовлетворение внутренних потребностей и экспорт сельхозпродукции должны стать единой системой. Особо впечатляют цифры производственного потенциала в Азербайджане, приведенные главой государства. Они в разы превышают существующее производство, которое в нынешнем состоянии удовлетворяет внутренние потребности. То есть, увеличив его в несколько раз, Азербайджан создаст крупнейший экспортный потенциал.

Учитывая все это, а также тот факт, что сегодня страна имеет самую быстроразвивающуюся экономику в регионе, возможности инвестирования в создание новых предприятий, развитую транспортную инфраструктуру, Азербайджан может превратиться в крупнейшего экспортера. Тем более, что отсутствие инвестиций на близлежащих рынках делает их зависимыми от импорта товаров из-за рубежа. Сегодня Азербайджан продемонстрировал возможности правильного использования доходов от энергетики и развития в период “нефтяного бума”. Сегодня страна может продолжить действие азербайджанской модели, показав всему миру, как добывающие страны могут продолжать развитие в условиях низких цен на нефть (4).

ЛИТЕРАТУРА

1. Государственная программа по реализации стратегии занятости Азербайджанской Республики для 2011-2015 годов.
2. Газета “Азербайджан” 28 январь 2015 год, выступление президента Азербайджанской Республики на конференции посвящённой первой четверти текущего года реализации “Государственной Программы социально-экономического развития регионов на 2014-2018 годы”.
3. Статистические материалы Государственного Статистического Комитета Азербайджанской Республики.
4. www.economy. gov.az

Fidan HÜSEYNZADƏ

Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı sahəsində uğurlu dövlət siyasəti

Xülasə

Məqalədə sahibkarlığın inkişafına, infrastruktur, təhsil, səhiyyə, mədəniyyət, idman, informasiya və kommunikasiya texnologiyaları dəstək, iqtisadiyyatın sənaye və kənd təsərrüfatı sahələrində görülən işlər barədə, sosial inkişaf, turizm və ətraf mühitin qorunması, qarşıya qoyulmuş məqsədlər və həyata keçirilən lahiyələr tədqiq edilir.

Bununla yanaşı, məqalədə 2004-2014-cü illərdə sosial-iqtisadi inkişafının əsas göstəriciləri hərtərəfli və ətraflı analiz edilir, bu sahədə dövlət siyasətinin əsas istiqamətləri və qəbul olunmuş proqramlar çərçivəsində görülmüş tədbirlərin yekun nəticələri təhlil olunur.

Məqalədə statistik göstəricilərin ətraflı təhlili əsasında Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması, davamli inkişafı qeyd edilərək bölgələrin sürətlə inkişafı göstərilir. Eyni zamanda, məqalədə Azərbaycannın nəhəng enerji və nəqliyyat layihələri həyata keçirərək iqtisadi və sosial inkişaf baxımından son 11 il ərzində dünya miqyasında sürətlə inkişaf edən ölkə olduğu qeyd edilir.

Fidan HUSEYNZADE

Successful public policy in the field of socio-economic development of the regions of Azerbaijan

Summary

The article deals with the development of entrepreneurship, the support to infrastructure, education, health, culture, sport, information and communication technology, activities in the fields of industry and agriculture of economy, social development, tourism and environmental protection, also objectives, and carried out projects are being studied in the article.

In addition, the main indicators of socio-economic development in 2004-2014 detailed analyzed in the article, the main directions of the state policy in this field, and adopted programmes within the framework of the final results are analyzed too.

According to the comprehensive analysis of statistical indicators the welfare of the Azerbaijani people, the rapid development of the regions indicatng the sustainable development are shown in the article. At the same time, implementing major energy and transport projects in terms of economic and social development of the country over the last 11 years Azerbaijan is the fastest growing country in the world are also highlighted in the article.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Севда ИБРАГИМОВА

О МОМЕНТАХ ИСТОРИЧЕСКОГО ОПЫТА СТАНОВЛЕНИЯ СОВРЕМЕННОГО ПОЛИТИЧЕСКОГО ИСЛАМА В ЕГИПТЕ

Açar sözlər: *Misir, siyasi İslam, islamçılıq, «Müsəlman qardaşlar»*
Ключевые слова: *Египет, политический ислам, исламизм, «Братья-мусульмане»*
Key words: *Egipt, political Islam, Islamite, brothers-moslems*

Введение. Система современного мирового порядка во многом определяется важнейшими тенденциями глобализации. Под воздействием различных системных трансформаций меняется также биполярная карта мира. На место общепринятых полюсов западной модели развития претендуют такие альтернативы, как, в том числе, религия.

В последнее время во всех мусульманских странах наблюдается усиление роли религиозного фактора в общественно-политической и культурной жизни этих государств. Ислам становится не только всемирным идеологическим элементом мусульманского Востока, но и основным политическим и региональным фактором объединения стран и народов этого региона.

Возрождение религиозных доктрин на мировой политической арене, взаимодействие религии и политики тесно связаны с нерешенными культурными, социальными и экономическими вопросами современного общества. Эксперты считают, что интенсивность проникновения религии в общественно-политическую жизнь-это результат, прежде всего, изменения общественного сознания. Политизация ислама в мусульманском обществе трансформирует прежние взгляды на мир, на социальное развитие, на взаимоотношение людей и народов.

Нужно отметить, что политический ислам получил свою наибольшую распространенность в арабских странах. В каждой отдельной мусульманской стране движение имеет особую политическую окраску, обусловленную культурными, социальными и политическими особенностями этой страны. Поэтому, изменения, происходящие в арабских странах, имеют собственные исторические корни. Эти корни глубоко связаны с политическими реформами, начатыми в середине XX века в таких странах, как Тунис, Ливия, Египет, Алжир, Сирия и др. На тот период эти страны столкнулись с идейным кризисом в общественно-политической жизни, сильно повлиявшим на мусульманское мировоззрение.

В первых десятилетиях XX века двигателем революционных настроений народных масс было пробудившееся национальное самосознание. Наиболее ярко

это проявлялось в Египте. Для современной истории Египет, считавшийся долгое время «символом свободы в регионе» (1, 182), был идеологическим центром арабского мира, он стал первым арабским государством, где появилась конституция. При этом, в Египте имелась самая обширная и организованная религиозная группировка-ассоциация «Братья-мусульмане», имевшая филиалы не только там, но и во многих других странах.

1. Исторический ракурс исламизма на фоне национальной борьбы

История политического ислама в Египте начинается задолго до провозглашения независимости страны-с создания партии «Братья-мусульмане» в 1928 г. Идеологи исламизма в то время определяли политические цели религии, используя такое понятие как «нахда», то есть возрождение. Они выходили на политическую сцену с призывами «к традиции» и за сохранение «исламских ценностей», как непременное условие политического и культурного развития египетского народа.

К концу 40-х годов, когда организация действовала тайно, она вела за собой миллионы последователей, превратившись в массовую организацию с большими сетевыми ячейками на местах. Ее социальной базой служили, в основном, передовые слои населения, такие как студенты, интеллигенты, служащие, офицеры, рабочие. Они не базировались исключительно на фундаменталистских положениях, так как в создании современного общества с развитием исламских принципов лидеры «братьев» видели альтернативный третий путь-путь популярных в то время идей социализма и вестернизации.

Нужно отметить, что исламизм, или политический ислам, в начале XX века особо проявлял себя при народных волнениях и во время давления со стороны авторитарных режимов, которые исламисты считали «неверными». Поэтому неудивительно, что концептуальной базой для исламистов послужили труды таких известных идеологов, как Х.Банна, А.К.Ауда, А.Х.БенБадиси, С.Кутба и др. Их идеи были популярны в период правления короляФарука ипрезидента-«западника» Г.А.Насера, сменившего короля в результате переворота. Переворот стал следствием глубокого кризиса внутренней и внешней политики страны. Короля обвиняли в прозападной политике и коррумпированном государственном аппарате. Роль Г.А.Насера оценивалась, как «своего рода приводной ремень» между народом и процессами модернизации.

Ввиду того, что в то время Советский Союз был заинтересован в революционных элементах в регионе, советские эксперты, не придавая особого значения религиозным мотивам, считали, что предпосылкой этих революционных настроений выступала теория «особого пути к социализму». Но идея этого «социализма» отличалась своими националистическими моментами, в связи с чем ее называли «арабским социализмом», давая понять, что мусульманский социализм-это не марксизм.

Отличительная черта «арабского социализма» заключалась, прежде всего, в его религиозно-идеологических доктринах и призывах к антиколониальной борьбе. Основоположник движения М.Афляк отрицал марксизм с его атеистическими идеями и намеривался найти более умеренный, «особый» путь разви-

тия между западным капитализмом и религиозным Востоком. Это и стало привлекательной чертой для тогдашнего режима. Руководитель страны Г.А.Насер, полагаясь на поддержку народа, все время делал безуспешные попытки «действовать на массы через мечеть» (3, 15).

Но политические реформы, проводимые президентом Г.Насером, чрезмерная централизация власти и некомпетентность должностных лиц, в конце концов, привели к серьезным просчетам во внешней и внутренней политике. Именно по этим причинам власть, после убийства Г.Насера, перешла в руки к А.Садату, известному своими происламистскими взглядами и сотрудничеством с «Братьями-мусульманами» (4, 26-33).

Социально-экономический фактор играл особую роль для достижения политической независимости и модернизации египетского общества, а умеренные религиозные идеи выступали как инструмент привлечения масс на сторону власти. В это время религия не имела столь сильного политического оттенка, часто она выступала в качестве форпоста для консолидации сил. Но А.Садат, предпринимавший усилия для придания режиму более демократического вида, не смог удержать этот союз надолго.

При этом до 70-х годов религия, являющаяся вектором арабской консолидации, смогла стать частью идентификации национального самосознания. Привлекая массы на борьбу против колонизаторов, религия смогла не только устоять перед секулярной вестернизацией, но и внедрить в сознание людей то, что «кроме ислама для мусульман нет другого пути».

Во второй половине XX века, когда арабские страны приобрели полную независимость, ислам на мировом уровне был уже более идеологизированным и политическим. Революция в Иране явилась своеобразным импульсом для распространения исламистской идеологии во всем мусульманском мире. Вторжение Советского Союза в Афганистан и палестинский вопрос также дали толчок к консолидации «мусульманского братства» и его активной военной поддержки различных вооруженных группировок. Именно в это время стало понятно, что на сцену глобальной политики вырывается новая сила-политический ислам.

Таким образом, события, произошедшие в Иране, а также длительный процесс модернизации и неудачная внешняя политика мусульманских стран определили выбор нового поколения большинства арабских государств, в том числе Египта. Мусульмане все чаще стали идентифицировать себя с общемировой мусульманской уммой и выступать с призывами неприятия национализма.

2. Ислам в политике: цели и реалии

Несмотря на то, что египетские исламисты были более активными, чем их собратья в других арабских странах, в религиозном отношении они были более умеренными. Формирование политического ислама в Египте было связано, прежде всего, с организацией «Братья-мусульмане».

На протяжении многих лет эта религиозная группа играла ключевую роль в исламизации политических целей народа. История «братьев» стала поистине уникальным феноменом развития крупной религиозной организации, которая,

не теряя свои идеологические цели, меняла свою стратегию под воздействием политических событий.

Демократические преобразования Г.Насера и А.Садата дали реальную возможность политической активизации различным консервативным кругам. Протаскивая религию в новую социально-политическую атмосферу, исламисты пользовались небезразличным отношением к ней со стороны разных кругов общества. Массы верили, что с восстановлением исламских традиций народ приобретет ту свободу и равенство, о которых мечтал.

Политический ислам в Египте, как и во многих других странах мира, проявлялся, в основном, в двух направлениях: умеренном и радикальном. Большинство сторонников данной идеологии, отвергая практику политического террора, предпочитали существовать в форме легально действующих политических партий, общественно-просветительских, благотворительных и правозащитных организаций, выступающих за сохранение и распространение мусульманской культуры. Такие партии не ставили создание исламского государства своей политической целью. Они, в основном, выступали с лозунгами за сохранение «исламских ценностей» как условия дальнейшего развития как страны, так и всего мусульманского общества. Такое отношение религии было неизбежно еще и потому, что в среде исламских деятелей были прогрессивно настроенные силы. Пропагандируя свои концепции «третьего пути», абсолютизировав национальную «индивидуальность», они стремились возродить национальное ДОСтоинство, считая ислам главным элементом национальной идентичности. При этом часто происходило смешивание понятий религиозной и национальной «самобытности».

Политическому исламу без поддержки идей национализма было трудно сохранять свои позиции. Но со временем относительно прогрессивный потенциал религиозных лозунгов с получением национальной независимости исчерпал себя. В решении проблем дальнейшего развития страны исламисты стали выступать с позиций религиозного консерватизма. Этому послужило и то, что демократические силы не желали перенесения религиозных догм в сферу политики. С другой стороны исламское учение отрицало национализм. Поэтому, начиная с 70-х годов, в Египте политика идеологической ограниченности привела к скорейшему усилению экстремистских настроений, как у «братьев», так и других исламистов.

К этому времени в египетском обществе произошли сильные изменения. Курс на экономическую либерализацию, проводившийся без учета ее социальных последствий, привел к резкому имущественному расслоению общества, результатом чего стало обнищание значительной части населения. Модернизация, усиленная сверху, вошла в противоречие с традиционным укладом жизни и системой культурных отношений египетского общества. Нарастание недовольства широких слоев населения привело к активизации консервативных сил, придавших борьбе с режимом оттенки справедливости, равенства и свободы. В это время исламские организации во главе с «Братьями-мусульманами» взяли курс на активную политическую борьбу.

Идеологом этого направления политического ислама в Египте был С.Кутб. Отвергая полностью все проявления современного порядка, он скорректировал прежнюю идеологическую доктрину «братьев» в духе воинствующего фундаментализма. В результате этого в 60-х годы резко усилилась конфронтация между властями и радикалами. С.Кутб был казнен, а члены его организации были подвержены репрессиям.

После Насера пренебрегающий репрессиями новый президент А.Садат также получил резкий «ответ» со стороны исламистов. Он был убит боевиками подпольной группировки «Джихад», а вместо него руководителем государства стал более умеренный политик Х.Мубарак. Хотя Мубарак открыто не выступал против религиозного вмешательства в общественную жизнь, но его государственное управление всячески отбивало политические пути прихода к власти высшего эшелона религиозных политиков, в связи с чем движение исламистов становилось более радикальным.

Из рядов радикального исламизма выходили экстремистские группировки, провозглашавшие «священную войну» против европейской модернизации и демократии как единственный способ создания соответствующего общества с главенствующими исламскими принципами. Сотрудничая с другими организациями разных стран, эти группировки определяли своих противников как врагов религии и всего мусульманского мира. Таким врагом они считали, прежде всего, правящий режим, ставший марионеткой в руках «мирового сионизма», под которыми подразумевались США и ведущие страны Запада, которые «проводят тайную политику войны против Ислама». Поэтому борьба против них считалась «священной», то есть джихадом.

История «братьев», не покидавших политическую сцену страны, продемонстрировала, насколько гибко работала идеология политического ислама за все годы. За свое существование они несколько раз меняли свои политические взгляды и методы борьбы. Так, например, с нарастанием процессов глобализации и изменением мирового порядка организация, возглавляемая исламистами Египта, становилась все более экстремисткой. На переоценку политических взглядов организации сильно подействовало участие ее представителей в борьбе против Израиля в Палестине и советская интервенция в 80-е годы в Афганистан.

С начала 90-х годов на политической сцене Египта появилось радикально-эктремистское течение салафитов. Они ставили перед собой такие далеко идущие цели, как становление мирового исламского государства и верховенство исламских законов. В принципе, салафитские идеи всегда имели место быть в египетских исламских организациях. Например, основоположник организации «Братья-мусульмане»Х.Ал-Банна утверждал, что в упадке исламского мира повинен Запад, вторжение которого в исламское общество привело к падению нравов, забвению мусульманами предписаний Корана. Поэтомуглавным делом организации должно было быть воспитании мусульман согласно идеям САлафитского ислама (5, 18), возвращение общества к состоянию первоначального ислама, идеализируя его «золотой век».

Эта идеология усилила свою деятельность в те годы, когда произошел окончательный слом старой системы международных отношений с ее военными паритетами двух сверхдержав-США и СССР. После распада СССР появилось множество различных программ, так сказать «гуманитарных интервенций», которые наряду с экономической глобализацией и культурной утилизацией, выработанными транснациональными корпорациями и международными структурами, в которых определяющее место занимали представители США, привели к абсолютному доминированию США на международной арене. Мусульманские лидеры принимали происходящие, как политику идеологической экспансии «западных ценностей» и объявляли Запад и США главными «врагами ислама». Возможно, именно такие представления помогли «братьям» совершить «арабскую весну» в Египте, и, не рассчитывая на такое быстрое продвижение, демократическим путем придти к власти после свержения Х.Мубарака (6).

Но перемены, которые претерпел Египет за последние годы в связи с волной так называемой «арабской весны», сильно повлияли на позиции политического ислама в обществе. Неудачная попытка утвердить исламские принципы вместо конституционных и провал политических лидеров вновь заставляют корректировать идеологические концепции политического ислама в Египте.

Выводы

Таким образом, в Египте снова происходит смена поколений, ориентированных на современные реалии. Глобализация, формирование всемирного информационного общества, интенсивные процессы социальной и культурной интеграции меняют прежнее самосознание рядового гражданина, как индивида. Происходит разрыв существующего традиционного уклада уже не сверху и не целеустремленно, а снизу и органично. Политический опыт становления современного политического ислама в египетском обществе показывает, что элита производителей религиозной идеологии, демонстрируя более гибкую политику и способность адаптироваться к требованиям времени, внушает оптимисстическое будущее исламизма в стране.

ЛИТЕРАТУРА

1. Аллахкулиев М. Арабский социализм в контексте современной социально-политической ситуации в Египте// «Власть», № 1, 2013, с.182-183
2. ДолговБ.В. Политический ислам в современном мусульманском мире- http://www.perspektivy.info/book/politicheskij_islam_v_sovremennom_musulmanskom_mire_2007-10-04.htm, (04/10/2007)
3. Алиев Р. Ислам в концепциях «национального социализма» /Актуальные проблемы современного ислама, Баку: Елм, 1986, с.15
4. БорисовА.Б Политическая элита Египта: пути эволюции//Политическая элита Ближнего Востока. М., 2000, 176 с
5. Добаев И.П. Политические институты исламского мира: идеология и практика /Отв. редактор Ю.Г.ВолковРостов-на-Дону: СКНЦ ВШ ,2001,80 с.

6. Демченко А.В. Египет на пути к трансформации политической системы/Перспективы. Фонд исторической перспективы- http://perspektivy.info/oykumena/vostok/jegipet_na_puti_k_transformacii_politicheskoj_sistemy_2013-01-29.htm, (29.01.2013), 1-23
7. Новейшая история стран Азии и Африки (1945-2004): учеб. Пособие / в. И. Бузов, под ред. А. А. Егорова. — Ростов-на-Дону : Феникс, 2005. — 574 с.
8. Mürsəlov R.Ə. Müasir İslam fundamentalizmi. Bakı: Nurlan 2004, c. 160
9. Məmmədov A. İslam fundamentalizmi: mahiyyəti, əsas prinsipləri və təzahür formaları. Bakı: "Nurlan", 2004, 112 s.

Sevda İBRAHİMOVA

Müasir Misirdə siyasi İslamın formalaşmasında tarixi təcrübənin bəzi məqamları

Xülasə

Müasir dünya sisteminin dəyişkən xarakteri əksər hallarda qloballaşmanın mühüm meyilləri ilə izah edilir. Bu gün Qərb inkişaf modeli bir çox, o cümlədən dinin iddia etdiyi alternativlərlə üz-üzə dayanmışdır. Məlumdur ki, bu sahədə İslam daha fəallıq göstərir. Dini ehkamların dünya siyasi səhnəsinə çıxması və onun siyasətə təsir etməsi tədqiqatçılar tərəfindən cəmiyyətdə hələ də həllini tapmayan mədəni, sosial və iqtisadi məsələlərlə izah olunur. Buna görə də islamla bağlı məslələr müasir Müsəlman Şərqinin aktual problemlərindən biridir. Bu mənada, müsəlman dünyasında fəal siyasi fəaliyyətə malik olan İslamın Misir təcrübəsinin tarixi məqamlarına nəzər salmaq məqsədəuyğun olardı.

Sevda IBRAGIMOVA

About the moments of the historical experience of the formation of modern political Islam in Egypt

Summary

Thus, there is again in Egypt a change of generations oriented to modern realities. Globalization, forming of the world information society, intensive processes of social and cultural integration are changing the old consciousness of the ordinary citizen as an individual. It is taking place a digging up of traditional mode not from the top by purposefully way but from below byorganically way. The political experience of formıng of modern political Islam in Egyptian society shows that the elite manufacturers of religious ideology, demonstrating a more flexible policy and the ability to adapt to the trements of time, inspire an optimistic future of Islam in the country.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Rafiq MİRZƏYEV
Lənkəran Dövlət Universiteti
rafiqmirzeyev83@gmail.com

İRƏVAN XANLIĞININ YARANMASI

Böyük Azərbaycan sərkərdəsi Nadir şahın yaratdığı Əfşar imperatorluğunun dağılmasından sonra tarixi Azərbaycan torpaqlarında yaranmış yerli dövlətlərdən Azərbaycan xanlıqlarından biri də İrəvan xanlığı idi. İrəvan xanlığı Şimali Azərbaycanın qərbində - keçmiş Səfəvi imperatorluğunun inzibati-ərazi vahidlərindən biri olan Çuxursəəd bəylərbəyliyinin ərazisində yaranmışdı.

açar sözlər: Azərbaycan, İrəvan, Çuxursəd, xanlıq, bəylərbəylik, müharibələr

İrəvan xanlığının ərazisini əhatə edən Çuxursəd vilayətinin adı ilə bağlı elmi fikirlərin hamısı həmin bölgənin adının qədim Azərbaycan türk tayfalarının adından götürüldüyünü təsdiqləyir. Bu, inkarolunmaz tarixi faktdır ki, Azərbaycan tayfalarından biri olan Sədli və ya Sədlilər Qaraqoyunlu tayfa birliyinə daxil idi. Dövrə aid mənbədə Əmir Teymurun yürüşlərindən bəhs olunarkən Əmir Səədin Çuxursəəd hakimi olduğu qeyd olunur. 1411-ci ildə dünyasını dəyişmiş Sədli hakimi Əmir Səəd İrəvan yaxınlığında dəfn olunmuşdur. Əmir Səədin ölümündən sonra Çuxursəəd vilayətinin hakimi onun oğlu Pirhüseyn oldu. Pirhüseynin dövründə də İrəvan (Rəvan) qalası əmirliyin paytaxtı idi. [1, səh. 37-38]

Əmir Səədin hakimiyyəti altında birləşmiş Azərbaycan türk tayfaları XIV əsrin sonlarından başlayaraq Sədli adlandı. Elə bu dövrdən də Şimal-Qərbi Azərbaycanın Arazyanı Sürməli vadisindəki ərazisi Çuxursəəd adlanmağa başladı. Arpaçayın Arazla qovuşduğu yerdən Naxçıvan və Arazın sağ sahilində yerləşməklə Ağrıdağa qədər əraziləri əhatə edən Sürməli Sədli tayfasının qədim yurdu idi. XV əsrdə Arazboyu torpaqları əhatə edən və Ağrıdağla Alagöz dağları arasındakı vadi də Sədli oymağına daxil idi. Bu vadi böyük bir çuxura bənzədiyinə görə ona el arasında “Çuxur” da deyirdilər. [1, səh. 38]

1410-cu ildə Azərbaycan sülaləsi Qaraqoyunlular Təbrizdə hakimiyyətə gələrkən Sədlilər sülaləsi İrəvan bölgəsinin sahibi idi. Bunu bölgədən tapılan maddi mədəniyyət nümunələri də təsdiq edir. 1420-ci ildə Qaraqoyunlu taxtına çıxan İsgəndər onun taxt tac rəqibi olan qardaşı Əbu Səidin tərəfini saxladıqları üçün Əmir Pirhüseynin xələflərini vilayətin idarəçiliyindən kənarlaşdırmış və Çuxursədin idarəsini birbaşa mərkəzi hakimiyyətə tabe etmişdi. Bu zaman Çuxursəd vilayəti şimalda Gürcüstanla, şərqdə Qarabağ vilayəti ilə, qərbdə Samsxe-Saatabaqo, Pasin, Ələşgird və Bəyazidlə, cənubda isə Naxçıvan, Qapan və Maku ilə həmsərhəd idi.[1, səh. 38-39].

Tarixi şəraitdən asılı olaraq Çuxursəəd vilayətinin sərhədləri dəfələrlə dəyişmişdir. Qaraqoyunluların hakimiyyəti dövründə Çuxursəəd vilayətinin tarixində sonralar bü-

tün Azərbaycan üçün son dərəcə ağır problemlər yaradan bir hadisə də baş verdi: Qaraqoyunlu hökmdarı Cahanşahın icazəsi ilə 1441-ci ildə erməni katolikoslarının fəaliyyət mərkəzi Kilikiyanın Sis şəhərindən Azərbaycana-İrəvan yaxınlığındakı Üçkilsə (Üçmüədzin) monastırına köçürüldü. Bununla Cənubi Qafqazda qriqoryanlığı yayan erməni missionerləri üçün əlverişli şərait yarandı. Qaraqoyunlu hökmdarları erməni katolikoslarını himayə etdilər və onlara sərbəstlik verdilər. Bu vaxtdan Azərbaycanın Çuxursəd diyarında yerləşən Üçkilsə bütün ermənilərin dini mərkəzinə çevrildi. Qaraqoyunlulardan sonra Ağqoyunlulara sığınan Üçkilsə katolikoslarının mövqeyi daha da möhkəmləndi. Beləliklə, Azərbaycan ərazisində - Çuxursəd diyarında Azərbaycan Qaraqoyunlu, Ağqoyunlu hökmdarlarının icazəsi ilə erməni kilsələri tikildi.[1, səh. 39]

XVI əvvəlində mərkəzi Təbriz şəhəri olan mərkəzləşdirilmiş Azərbaycan dövləti yarandı. Azərbaycanın başqa bölgələri kimi, Çuxursəd də Səfəvi dövlətinin tərkibinə daxil oldu. XVI əsrin 30-cu illərində Azərbaycan Səfəvi dövlətinin ərazisi inzibati cəhətdən 13 vilayətə bəylərbəyliyə bölündü. Bunlardan biri də mərkəzi İrəvan qalası olan Çuxursəd bəylərbəyliyi idi.[1, səh. 39-40]

Çuxursəd bəylərbəyliyinə Maku, Sədərək, Naxçıvan (XVII əsrin əvvəllərindən) vilayətləri, Zaruzbilə, Bayazid qalası, Şadılı tayfasına məxsus torpaqlar, Osmanlı fəthləri zamanı bu bölgələrə köçürülmüş Dümbuli kürdlərinin yaşadıqları torpaqlar və Mağazberd daxil idi. Çuxursəd bəylərbəyliyini Səfəvi şahlarının təyin etdikləri iki Azərbaycan tayfasının-ustaclı və rumlu tayfalarının nümayəndələri idarə edirdi. Çuxursəd bəylərbəyliyini Osmanlı imperatorluğu ilə həmsərhəd olduğu üçün həmişə tanınmış Azərbaycan türk sərkərdələri idarə etmişlər. Belə ki, Çuxursəd bəylərbəyliyinin Həsən bəy Rumlunun "Əhsən-üt təvarix əsərində 1538-ci ildə xatırlanan ilk bəylərbəyi Bədir xan Ustaclı olmuşdu. Sonra onu Şahqulu Sultan Ustaclı əvəz etmişdi. 1554-cü ildə Sultan Süleyman Qanuni İrəvana yürüş edərkən Çuxursəd bəylərbəyi Hüseyn xan Rumlu idi. Ondan sonra həmin vəzifəyə Şahqulu Sultan Ustaclı təyin olunmuşdu. Daha sonra onu Məhəmməd xan xan Toxmaq Ustaclı və başqaları əvəz etmişlər.[1, səh. 40]

XVI əsrin əvvəllərindən başlayaraq Səfəvi-Osmanlı sərhədində yerləşən Çuxursəd bəylərbəyliyinin tarixində ən ağır dövr başlandı. Bəylərbəyliyin ərazisi və onun mərkəzi olan İrəvan qalası öz aralarında qanlı müharibələr aparan iki qardaş türk imperiyaları olan Səfəvilərlə Osmanlılar arasında müharibə meydanına çevrildi, dəfələrlə əldən-ələ keçdi.[1, səh. 40-41]. 1582-ci ildə Səfəvi qoşunlarına üstün gələn türk sərkərdəsi Fərhad paşa İrəvan qalasının möhkəmləndirilməsinə, onun müdafiə qüdrətinin gücləndirilməsinə xüsusi diqqət yetirmişdi.[14, səh. 11] 1590-cı il İstanbul sülh müqaviləsinə əsasən, Çuxursəd bəylərbəyliyi Osmanlı idarəçiliyinə keçdi, bu zaman bəylərbəyiliyin inzibati-ərazi quruluşu dövrün mənbəsində - 1590-cı il tarixli "Müfəssəl dəftər"ə görə aşağıdakı kimi təqdim olunur: Çuxursəd bəylərbəyliyinin ərazisi iki livaya-İrəvan və Naxçıvan livalarına bölünmüşdü. İrəvan livasına 10 nahiyə daxil idi: İrəvan, Qərbi, Gərni, Vedi, Aralıq, Talın, Ərmus, Abnik, Abaran, Şərabxana. Naxçıvan livası isə 16 nahiyədən (Ağcadan, Məvaziyi Xatun, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad) və 1 qəzadan-Naxçıvan qəzasından (sancağından) ibarət idi. 100 ildən çox davam edən Səfəvi-Osmanlı müharibələri 1639- cu ildə Qəsri-Şirin müqaviləsi ilə başa

çatdı. İki imperiya arasında 1723-cü ilə kimi davam edən uzun-müddətli sülh dövrü başlandı. [1, səh. 40-41]. Beləliklə, 1514-cü ildən 1539-cu ilədək fasilələrlə davam edən Səfəvi-Osmanlı müharibələri Səfəvi dövlətinin hərbi-iqtisadi qüdrətinə və mədəni həyatına güclü zərbə vurdu.[2, səh. 32] Lakin yaranmış əmin-amanlıq Çuxursəddə sosial-iqtisadi inkişafa və şəhər əhalisinin artmasına müsbət təsir göstərdi. [1, səh. 40-41, 4, səh. 153]. Burada bir məqamı da təəssüflə qeyd etməliyik ki, ermənilərin Azərbaycan ərazisində məskunlaşmasına və tarixi torpaqlarımız hesabına "erməni dövləti" yaratmaq iştahasına ilkin təkan verən amillərdən başlıcası XVI-XVII əsrlərdə getmiş Səfəvi-Osmanlı müharibələrinin acı nəticələri ilə sıx bağlıdır [13, səh. 29]

XVI əsrin əvvəllərində Səfəvi dövlətinin tərkibinə daxil edilmiş Azərbaycan XVIII əsrin əvvəllərinə kimi İran şahlarının təyin etdikləri feodal-bəylərbəyilər tərəfindən idarə olunurdu.[5, səh. 10] Çuxursəd bəylərbəyiliyini də o cümlədən Səfəvi hökmdarlarının təyin etdikləri hakimlər idarə edirdi. Bölgəni osmanlılardan azad edən I Şah Abbas (1587-1629) bu döyüşlərdə göstərdiyi igidliyə görə "Sarı Aslan" ləqəbini almış Əmirgünə xan Qacarı Çuxursəd (İrəvan) bəylərbəyi təyin etdi. 1625-ci ildə Əmirgünə xanın ölümündən sonra bu vəzifəyə onun oğlu, I Şah Abbasın ən tanınmış sərkərdəsi Təhmasibqulu bəy Qacar təyin edildi. Bütün XVII əsr ərzində bu bölgənin idarəçiliyi Azərbaycanın qədim tayfası olan Ağcaqoyunlu Qacarların əlində qaldı.[1, səh. 41]

1663-cü ildə II Şah Abbas (1642-1666) keçmiş Çuxursəd hakimi Əmirgünə xanın oğlu Abbasqulu xanı İrəvana hakim təyin etdi. O, Çuxursəd bəylərbəyliyini XVII əsrin 70-ci illərinin əvvəlinə kimi idarə etdi. Onu bu vəzifədə islamı qəbul etmiş gürcü əsilli Səfi xan əvəz etdi. Səfi xanın ölümündən sonra Çuxursəd bəylərbəyiləri Səfiqulu xan Alxas Mirzə oğlu və Səfiqulu xan Rüstəm oğlu oldular. Bu iki bəylərbəyliyinin zamanında əhalinin vəziyyəti xeyli ağırlaşdı. Nəticədə iki il məvacibzis qalan Qacar və Bayat tayfalarından olan döyüşçülər 1677-ci ildə Səfiqulu xana qarşı üsyana qalxdılar.[1, səh. 41-42, 9, səh. 165] Vəziyyəti nəzərə alan Şah II Səfi (Süleyman) (1666-1694) Çuxursəd bəylərbəyliyinə özünün etibarlı adamlarından biri olan Zal xanı təyin etdi. Onun hakimiyyəti illərində - XVII əsrin son rübündə bütün yaxın Şərq ölkələri kimi, Səfəvi dövləti də dərin tənəzzül dövrünü yaşayırdı. Bu, Çuxursəd bəylərbəyliyi üçün də təsirsiz qalmadı. Bununla belə, Azərbaycanın bir çox yerlərində olduğu kimi Çuxursəddə də ənənəvi iqtisadi həyat davam etməkdə idi. Vilayətin mərkəzi İrəvan şəhəri Osmanlı imperiyasının ticarət mərkəzlərini Tiflis, Gəncə, Şamaxı və İsfahan şəhərləri ilə əlaqələndirən ticarət yollarının qovşağında yerləşirdi. İrəvan digər Azərbaycan şəhərləri ilə daha geniş ticarət əlaqəsi saxlayırdı. "İrəvana hər yerdən tacirlər gəlir, istədiklərini alıb aparırdılar.[1, səh. 41-42] Burada bir məqamı da vurğulamaq olar ki, 1679-cu il iyunun 4 də baş vermiş zəlzələ Çuxursəd vilayətinin paytaxtı İrəvanı yerlə-yeksan etmişdi. [8, səh.11, 11, səh. 184-185]

Səfəvi-Osmanlı müharibələri nəticəsində Çuxursədin tarixi sərhədlərində ciddi dəyişiklik baş verdi. 1635-1639-cu illər Səfəvi-Osmanlı müharibələri nəticəsində Çuxursəd bəylərbəyliyi öz ərazisinin təqribən yarısını itirdi. XIV-XVI əsrlərdə ona məxsus ərazilərdən yalnız İrəvan və Şərqi Şörəyel bəylərbəyiliyin əlində qaldı. I Şah Abbasın ölümündən sonra da Çuxursədin ərazisində dəyişikliklər baş verdi. Belə ki, I Şah Səfi 1629-1634-cü illər arasında bir sıra vilayətlərin sərhədlərində dəyişikliklər etdi. Bu zaman o, Naxçıvan və Makunu Çuxursədin tərkibinə keçirmiş, Pəmbək və

Borçalını isə onun tərkibindən çıxararaq Qarabağ bəylərbəyliyinin tərkibinə daxil etmişdi. E. Çələbinin məlumatına görə, Maku İrəvan (Çuxursəd) bəylərbəyliyinin tərkibində ayrıca sultanlıq idi. XVII əsrin 30-cu illərindən XVIII 20-ci illərində qədər olan dövrdə Çuxursəd bəylərbəyliyi İrəvan, Şərqi Şörəyel, Naxçıvan və Maku əyalətlərini əhatə etmişdir. XVI əsrdən XVIII əsrin I rübü də daxil olmaqla ərzində İrəvan əyaləti sabit sərhədlərə malik olmuşdur. Bu əyalətin ərazisi Arazın hər iki sahilində yerləşirdi.[1, səh. 42-43]

XVIII əsrin əvvəllərində Səfəvi dövlətində mərkəzi hakimiyyət çox zəifləmişdi. Artıq dövlətin digər əraziləri kimi, Azərbaycanın da ayrı-ayrı bölgələrini idarə edən hakimlər, o cümlədən Çuxursəd bəylərbəyləri mərkəzi hakimiyyətdən ayrılıb müstəqil hakimlərə çevrilirdi. Yerli hakimlər öz məqsədlərinə çatmaq üçün xalq üsyanlarından istifadə edirdilər. Bəhs olunan dövrdə Azərbaycanın şimalında ən güclü üsyan Şirvan bəylərbəyliyində baş verdi. Üsyançılar Hacı Davudun başçılığı ilə 1721- ci ilin avqustunda Şamaxı şəhərini ələ keçirərək Şirvan bəylərbəyini qətlə yetirdilər. Bununla Azərbaycanın şimalında ilk dəfə olaraq müstəqil dövlət qurumu xanlıq yarandı. Bundan təşvişə düşən və mərkəzdən kömək ala bilməyən Çuxursəd bəylərbəyi Mehrəli xanla Qarabağ bəylərbəyi Uğurlu xanın birləşmiş qoşunu Şamaxıya doğru hərəkət etdi. Onlar Bərdə yaxınlığında-Kür sahilində görüşərək 30 min nəfərlik qoşun toplasalar da, şah onlara kömək göndərə bilmədi. Bundan xəbər tutan Hacı Davud Dağıstandan gəlmiş müttəfiqləri ilə birlikdə onları Kür çayını keçməyə qoymadı və qəflətən hücuma keçərək məğlub etdi.[1, səh. 43]

Səfəvilərin zəifləməsindən istifadə edən əfqanlar 1722-ci ildə dövlətin paytaxtı İsfahan şəhərini ələ keçirdilər. Belə bir vaxtda yaranmış əlverişli şəraitdən istifadə edən erməni din xadimləri I Pyotrla əlaqəyə girərək onu Azərbaycan torpaqlarının, o cümlədən İrəvanın işğalına şirnikləndirdilər. Tiflisdəki erməni yeparxiyasının başçısı arxiyepiskop Minas Pərvazyan 1722-ci ilin dekabrında vardapet Minasa yazırdı: "Sənə məlumdur ki, İrəvan İran (Səfəvi) torpaqlarının açarıdır və bizim niyyətimiz İrəvan qalasını ələ keçirməkdir. Əgər o bizim əlimizdə olarsa, nə türklər, nə də iranlılar bizə heç nə edə bilməyəcəklər" Rusiya 1722-1723-cü illərdə Səfəvi dövlətinin Xəzərsahili vilayətlərini işğal etdi. Bundan narahat olan Osmanlı dövləti Rusiyanı qabaqlamaq üçün 1723-cü ildə öz qoşunlarını Azərbaycana yeritdi. Rusiya Osmanlı dövləti ilə müharibəyə girməkdən çəkindi. Nəticədə 1724-cü ildə İstanbulda Rusiya və Osmanlı dövlətləri arasında müqavilə imzalandı.[1, səh. 44, 12, səh. 62] Müqavilənin şərtlərinə görə Rusiya işğal etdiyi Xəzərsahili vilayətləri əlində saxlamaqla kifayətləndi. Osmanlı dövləti isə Cənubi Qafqazın, o cümlədən Azərbaycanın qalan ərazilərini işğal etmək üçün Rusiyanın bitərəfliyini təmin etdi. İstanbul müqaviləsindən sonra hücuma keçən Osmanlı imperatorluğu Ərdəbilədək bütün Azərbaycan torpaqlarını işğal etdi.[1, səh. 44]. Bu zaman 1724-cü il sentyabrın 28-də İrəvan qalası osmanlı qoşunları tərəfindən zəbt edildi. [3, səh. 529]

İrəvan bölgəsinin işğalı zamanı osmanlılar ciddi müqavimətlə qarşılaşdılar. Osmanlı ordusunun İrəvan bölgəsini işğal etməsi haqda ən dəqiq məlumat bu əməliyyatların iştirakçısı olan Kəmani Mustafa Ağanın "Rəvan fəthnaməsi"ndə verilir.[1, səh. 44]

Üçkilsə və onun ətrafında məskunlaşan, əsasən qriqorian missionerlərindən ibarət olan ermənilər öz vətənləri olmadığı üçün Çuxursədin və İrəvan qalasının taleyi əsla

maraqlandırmırdı. Əksinə, onlar bu torpaqlarda möhkəmlənmək üçün ölkəyə hücum edən hər hansı xarici qüvvə ilə sövdələşməyə hazır idilər. Buna görə də nə katolikos, nə də erməni missionerləri İrəvanın müdafiəsində iştirak etdilər. Əksinə, ermənilər Osmanlı hərbi hissələri ilə əlaqə yaratdılar və səbirsizliklə Azərbaycana müdaxilə edən Osmanlı qoşunlarının qələbəsini, İrəvan qalasının təslim olmasını gözlədilər. Heç şübhəsiz ki, məhz bu "xidmət" müqabilində Sultan III Əhməd ermənilər barədə xüsusi fərman verdi. İrəvan qalasının mühasirəsindən bir həftə sonra, Sultan III Əhmədin Arif Əhməd paşaya göndərdiyi fərmanda ermənilərin dini mərkəzi olan "Üçkilsəyə hücum etmək qadağan olunur, onun dağıntıya və sakinlərinin qarətə məruz qalmasına yol verilməməsi" tələb edilirdi. Hətta, Arif Əhməd paşa sultan fərmanına uyğun olaraq Üçkilsənin qorunması üçün xüsusi bir alay da ayırdı. Sultan III Əhmədin İrəvanın mühasirəsi zamanı qalanın müdafiəçiləri olan Azərbaycan türklərini qırmağa razılıq verməsi, ermənilərə isə toxunmamaq barədə xüsusi fərman göndərməsi müasir erməni millətçilərinin guya hələ orta əsrlərdən türklərin ermənilərə qarşı soyqırımları həyata keçirmələri barədə böhtançı təbliğatının heç bir əsası olmadığını sübut edir. Əksinə, bu fakt təsdiq edir ki, türklər həmişə ermənilər himayə etmişlər.[1, səh. 45]

İrəvan qalasının müdafiəçiləri Osmanlıların şiddətli top atəşi altında dəfələrlə qalaya olan hücumları qəhrəmancasına dəf etdilər. Mühazirə uzandı. Osmanlılar İrəvan qalasını ala bilmədilər. Qala müdafiəçilərinin müqavimətini qıra bilməyəcəyini görən Osmanlı komandanı əlavə kömək almaq üçün yenidən Sultan III Əhmədə aşağıdakı məzmunda məktub göndərdi: "Bu şəhərdə külli miqdarda qoşun vardır, biz artıq xeyli əsgər itirmişik. Əmriniz necə olacaqdır? Kömək göndərəcəksiniz yoxsa geri qayıdaq?"[1, səh. 46]

Sultan müraciətə cavab olaraq İrəvan qalasını mühasirədə saxlayan Osmanlı qoşunlarına kömək üçün əlavə hərbi qüvvələr göndərdi. Kütahya paşasının başçılığı altında yeni qüvvələrin gəlişi də osmanlıların vəziyyətini dəyişdirmədi. Lakin mühasirə uzandıqca qalada ərzaq, sursat çatışmalığı daha çox hiss olunmağa başladı. Şəhərin müdafiəçilərinə köməyə heç bir qüvvə gəlmədiyindən İrəvan komandanlığı Arif Əhməd paşa ilə danışıqlara girməyə məcbur oldu. Mərkəzdən aramsız olaraq kömək alan Osmanlı qoşunları 92 gün mühasirədə saxladığı İrəvan qalasını, nəhayət ki, böyük çətinliklə ələ keçirə bildi. İrəvanı ələ keçirdikdən dərhal sonra Osmanlı paşası ermənilərin dini başçısı, Üçkilsə katolikosu həmədanlı I Astvasaturu yanına dəvət edərək göstərdiyi xidmət müqabilində ona xələt və ənam verdi. Bununla öz xəyanətkarlıq ənənələrinə sadiq qalan ermənilər növbəti dəfə təcavüzkarın tərəfinə onları 200 oldən çox himayə edən Səfəvi dövlətinə xəyanət etdilər.[1, səh. 46]

İrəvan qalası ələ keçdikdən sonra Anadolu valisi Osman paşa İrəvana hakim təyin olundu.[1, səh. 46-47] İrəvanın itirilməsindən sonra Çuxursəd bəylərbəyliyi 10 ildən çox osmanlıların hakimiyyəti altında qaldı. Osmanlılar işğal etdikləri Azərbaycan ərazilərində öz inzibati idarə sistemlərini tətbiq edərək əyalətləri sancaqlara, onları isə nahiyələrə bölmüşdülər. 1728-ci il tarixli İrəvan əyalətinin "Müfəssəl dəftər" inə görə, bu zaman Maku, İğdır, Sürməli nahiyələri ilə yanaşı Zar, Zəbil və Şərur nahiyələri də Naxçıvan sancağının tərkibindən çıxarılaraq İrəvan əyalətinə birləşdirilir. Eyni zamanda, İrəvan əyalətinin ərazisində Göyçə, Məzrəə, Xınzirək, Qırxbulaq, Dərəçiçək, Sədərək nahiyələri və Şörəyel livası yaradılmışdı. XVI əsrin sonunda mövcud olmuş

Talın, Ərmus, Abnik, Şərabxana nahiyələri, eləcə də Naxçıvan sancağının ərazisindəki Bazarçay və Ağcaqala nahiyələri ləğv olunmuşdu.[1, səh. 47]

Beləliklə, 1728-ci ildə osmanlılar siyahıyaalma keçirərkən İrəvan əyalətinin və Naxçıvan sancağının ərazi-inzibati quruluşu aşağıdakı kimi idi: İrəvan əyaləti-İrəvan şəhəri, Qırxbulaq, Qərbi, Maku, Xınzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrəə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri və Şörəyel livası Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Dərələyəz və Sisyan nahiyələri [10, səh. 35-74, 138-151]

Səfəvi dövlətinin süqutu yaxınlaşmaqda idi. 1726-cı ildən başlayaraq Əfşar tayfasından olan görkəmli Azərbaycan sərkərdəsi Nadirqulu xan Səfəvi dövlətində nizami qoşunlara başçılığı tədriclə öz əlinə aldı. Yeni sərkərdə İsfahanı ələ keçirmiş əfqanları ölkədən qovdu və 1730-cu ildə şəhəri azad etdi. Bunun ardınca o, rus qoşunlarının Xəzərsahili ərazilərdən çıxarılmasına nail oldu. Nəticədə bir istiqamətdə - osmanlılara qarşı sərbəst müharibə aparmaq üçün əlverişli şərait yaratdı.[1, səh. 48] Nadirqulu xan Osmanlı imperiyasına qarşı hərbi əməliyyata Azərbaycanın cənubundan başladı. 1731-ci ilin əvvəllərində Marağa, Təbriz və Ərdəbil şəhərləri azad olundu. Lakin Nadirqulu xanın Naxçıvan və İrəvan istiqamətində hücuma hazırlaşdığı bir zamanda Xorasanda mərkəzi hakimiyyətə qarşı qiyam baş verdi. Bununla o, Osmanlı qoşunlarına qarşı apardığı uğurlu hərbi əməliyyatları yarımçıq qoyaraq Xorasana yürüş etdi. Bundan istifadə edən Səfəvi hökmdarı Şah II Təhmasib xalq içərisində, xüsusilə orduda itirilmiş nüfuzunu bərpa etmək məqsədilə özü Səfəvi qoşunlarının başında İrəvan və Naxçıvan istiqamətində hücuma keçdi. Lakin şah osmanlı qoşunları ilə ilk toqquşmadaca məğlub oldu və geri çəkildi. Osmanlı komandanlığı ilə yenidən ölkə üçün əlverişsiz və ağır sülh müqviləsi bağlandı. Beləliklə, 1732-ci il yanvarın 16-da Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında imzalanan Kirmanşah sülh müqaviləsinin şərtlərinə görə, Azərbaycanın bir çox cənub bölgələri ilə yanaşı, İrəvan və Naxçıvan da Osmanlı imperiyasının tərkibində qaldı.[1, səh. 48]

Xorasan yürüşündən qələbə ilə qayıdan Nadirqulu xan yeni müqavilənin şərtlərini qəbul etmədi. O, orduya arxalanaraq həmin ildə Şah II Təhmasibi taxtdan salıb onun qundaqda olan oğlunu III Abbas adı ilə şah elan etdi və yeni "şah" üzərində qəyyumluğu öz öhdəsinə götürdü. Bununla, faktiki olaraq, Səfəvi dövlətində bütün hakimiyyət Nadirqulu xanın əlinə keçdi.[1, səh. 49]

Nadirqulu xan hakimiyyət başına keçən kimi Osmanlı dövlətindən qoşunlarını 1723-cü ildən bəri işğal etdikləri bütün Səfəvi torpaqlarından geri çəkməsini tələb etdi. Buna rədd cavabı alan Nadirqulu xan Osmanlı qoşunlarına qarşı hərbi əməliyyatı bərpa etdi. Görkəmli sərkərdənin başçılıq etdiyi Səfəvi qoşunlarının zərbələri altında Osmanlı hərbi qüvvələri Azərbaycan ərazisini tərk etməyə başladı. Növbə İrəvana çatdıqda qaladakı osmanlı qarnizonu döyüşə girməkdənsə müdafiə olunmağı üstün tutdu. Lakin tezliklə Osmanlı qarnizonu bunun da mənasız olduğunu nəzərə alaraq Nadirqulu xanla danışıqlara girdi. Nəticədə İrəvan qalasındakı Osmanlı qarnizonu heç bir itki vermədən 1735-ci il oktyabrın 3-də qalanı tərk etdi.[1, səh. 49]

İrəvandan sonra Nadirqulu xan 1735-ci il iyulun 9-da Gəncəni osmanlı qoşunlarından azad etdi. 1736-cı ildə Nadirqulu xan bu vaxtadək formal olaraq "şah" sayılan

Səfəvi sülaləsinin sonuncu nümayəndəsini-4 yaşlı III Abbası rəsmi surətdə hakimiyyətdən kənar etdi və həmin ilin 8 mart tarixində Muğan qurultayında özünü şah "seçdirdi". Yeri gəlmişkən, həmin qurultayda iştirak edən erməni katolikosu Nadirin şah "seçilməsi" mərasimində xüsusi canfəşanlıq nümayiş etdirdi! [1, səh. 49, 6, səh. 175]

Nadir şahın dövlət daxilində həyata keçirdiyi ilk tədbirlərdən biri inzibati idarəçilik islahatı oldu. O, tarixi Azərbaycan torpaqlarında bu vaxtadək mövcud olan inzibati-ərazi bölgüsünü-Şirvan, Qarabağ, Azərbaycan və Çuxursəd bəylərbəyliklərini ləğv etdi. Dörd bəylərbəyliyin əvəzinə mərkəzi Təbriz şəhəri olmaqla vahid azərbaycan vilayəti yaradıldı. Beləliklə, Nadir şah bütün Azərbaycan torpaqlarını inzibati cəhətdən vahid vilayətin tərkibində birləşdirdi. Nadir şah yeni vilayətin idarə olunmasını qardaşı İbrahim xana həvalə etdi. Muğan qurultayı ərəfəsində Nadirqulu xan özünün etibar etdiyi Pir Mahmud xanı İrəvan xanı və eyni zamanda bu bölgənin bəylərbəyi təyin etdi.[1, səh. 50]

Xarici müdaxiləçilərə qarşı müharibədə qazandığı qələbələr Nadir şahın orduda və bütün ölkədə nüfuzunu daha da artırsa da, onun yeni müharibələrə hazırlaşması, bunun üçün şəhər və kənd əhalisində alınan vergilərin durmadan artırılması ümumxalq narazılığını son həddə çatdırdı. Bütün ölkəni xalq hərəkatları bürüdü. Azərbaycan isə böyük imperiyanın tərkibindən çıxaraq öz dövlətçilik ənənələrini bərpa etməyə can atırdı. Azadlıq hərəkatı güclənməkdə idi. Xalqın günü-gündən ağırlaşan güzəranı, taxıl qıtlığı və aclıq vəziyyəti daha da ağırlaşdırırdı.[1, səh. 51] Elə bu səbəbdən Nadir şah onun hakimiyyətinə qarşı bütün imperiyanı bürümüş üsyanları yatırıb ölkədə sabitliyi bərpa edə bilmədi. 1747-ci il iyunun 19-dan 20-nə keçən gecə o, saray əyanları tərəfindən qətlə yetirildi.[1, səh. 51, 15, səh. 66]

Nadir şahın ölüm xəbəri imperiya ərazisində hərc-mərcliyin daha da artmasına səbəb oldu. Azərbaycanda azadlıq hərəkatı daha da gücləndi. Azərbaycan torpaqlarında bir-birinin ardınca müstəqil yerli dövlətlər-xanlıqlar və sultanlıqlar yarandı. Nadir şahın qətlə yetirilməsindən sonra İrəvan əhalisi Mehdi xanın başçılığı ilə üsyan qaldırdı. Mehdi xan özünü müstəqil hakim elan etdi. Lakin yenicə müstəqillik qazanmış İrəvan xanlığının ərazisi keçmiş Çuxursəd bəylərbəyliyinin bütün ərazisini əhatə etmirdi. Onun bir hissəsi əvvəlki inzibati islahatlar zamanı Naxçıvan xanlığının və digər xanlıqların tərkibinə daxil edilmişdi. [1, səh. 51]

İrəvan xanlığı XVIII əsrin ortalarında Azərbaycan ərazisində uzun sürən azadlıq hərəkatından sonra müstəqillik qazanmış 20-dən çox dövlət qurumundan-xanlıqlardan biri idi.[1, səh. 51] Görkəmli Azərbaycan tarixçisi F. Əliyev mənbəyə əsasən göstərir ki, Azərbaycanın Şimal-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü: 1) Qırxbulaq mahalı; 2) Zəngibasar mahalı; 3) Qarnibasar mahalı; 4) Vedibasar mahalı; 5) Şərur mahalı; 6) Suran mahalı; 7) Dərək mahalı; 8) Saatlı mahalı; 9) Tala mahalı; 10) Seyidli-Axaclı mahalı; 11) Sərdarabad mahalı; 12) Qərpi mahalı; 13) Abran mahalı 14) Dərəçiçək mahalı; 15) Göyçə mahalı [7, səh. 27]

1747-ci ildə Nadir şah Əfşarın öldürülməsindən sonra müstəqil İrəvan xanlığının əsasını qoyan Mehdi xan Qasımlı (Əfşar) digər Azərbaycan xanları kimi, öz xanlığının ərazisini genişləndirmək siyasəti yeridirdi. O, bu məqsədlə 1748-ci ildə Urmiya xanlığına hücum etdi. Urmiya hakimi Fətəli xan Əfşar məğlub olaraq öz xanlığının

müəyyən ərazilərini Mehdi xana güzəştə getməyə məcbur oldu. Lakin onun hakimiyyəti uzun sürmədi, 1748-ci ildə onu Məhəmməd Hüseyn xan Gəraylı əvəz etdi. Çox keçməmiş öz nüfuzunu bərpa etməyə çalışan digər Azərbaycan xanı, urmiyalı Fətəli xan Əfşar əfqanıstanlı Azad xanla ittifaq bağladı və onların birləşmiş qoşunları İrəvan istiqmətində hücuma keçdi. 1751-ci ildə İrəvan qalasını ələ keçirərək guya İrəvan xanını müdafiə etməyə gəlmiş II İraklinin qoşunlarını məğlub etdi. Azad xanın II İraklini məğlub etməsindən sonra İrəvan xanlığına dair rəsmi sənədlərdə Azad xanın nümayəndəsi kimi Xəlil xan Özbəkin adına rast gəlinir və onun 1752- ci ildən İrəvan xanlığını idarə etdiyi qeyd olunur.[1, səh. 52]

Lakin bu hadisədən çox keçməmiş, 1755-ci ildə artıq yerli qacarlar sülaləsinin nümayəndəsi Həsənəli xan Qacarın İrəvan xanlığında hakimiyyəti idarə etməsini ilk mənbələr təsdiq edir. Həsənəli xan Qacar hələ Nadir şah dövründə İrəvan xanı olmuş və şah tərəfindən cəzalandırılaraq hər iki gözü çıxarılmışdı. Həsənəli xanın yenidən hakimiyyətə qayıtması İrəvanın qədim yerli tayfası olan Ağcaqoyunlu Qacarlarının əhali arasında nüfuzunun böyük olduğunu sübut edir. Həsənəli xandan sonra onun qardaşı Hüseynəli xan Qacar hakimiyyətə gəldi. Lakin ilk mənbədə Hüseynəli xan Qacarın İrəvan xanı kimi adı 1759-1760-cı illərdən başlayaraq xatırlanır. 1783-cü il noyabrın 9-da Hüseynəli xan Qacar vəfat etdi və onu böyük oğlu, 15 yaşlı Qulaməli xan əvəz etdi. Lakin Qulaməli xanın hakimiyyəti uzun sürmədi. 1784-cü ilin yayında o qətlə yetirildi və taxta Hüseynəli xan Qacarın 12 yaşlı oğlu Məhəmməd Hüseyn xan Qacar çıxdı. 1797- ci ildə Ağa Məhəmməd şah rus qoşunları ilə əlaqə saxladığına görə İrəvan xanı Məhəmməd Hüseyn xan Qacarı həbs edərək Tehrana göndərdi. Q. P. Butkova görə isə, İrəvan xanı Məhəmməd Hüseyn xan Ağa Məhəmməd şaha itaətini bildirmək üçün onun yanına gəldiyi zaman, qohumu olmasına baxmayaraq, şah onu həbs edərək ailəsi ilə birlikdə Qəzvinə göndərdi. Məhəmməd Hüseyn xanın yerinə Ağa Məhəmməd şah öz qardaşı Əliqulu xan Qacarı İrəvan xanlığında hakimiyyətə gətirdi. Lakin Əliqulu xanın vergiləri artırması səbəbindən İrəvan əhalisi üsyan edib onu xanlıqdan qovdu. Ağa Məhəmməd şah Qacarın qətlindən sonra hakimiyyəti ələ alan varisi Fətəli şah Qacar (1797-1836) İrəvan xanı Məhəmməd Hüseyn xan Qacarı həbsdən azad etdi. Üç aylıq hakimiyyətdən uzaqlaşdırılan Məhəmməd Hüseyn xan geri qayıdaraq bölgədə öz hakimiyyətini bərpa etdi. Lakin Fətəli şah Qacarın gözlədiyinin əksinə olaraq, Məhəmməd Hüseyn xan ondan asılı olmaq istəmədi. Buna görə də bir müddət sonra-1805-ci ilin iyununda şahzadə Abbas Mirzə Məhəmməd Hüseyn xan Qacarı həbs edib İrana göndərdi. [1, səh. 53-55].

Bəzi məlumatlara görə Məhəmməd Hüseyn xanı 1805-ci ildə Pirqulu xan Qacar əvəz etdi. Lakin, əslində, İrəvan xanlığında Məhəmməd Hüseyn xandan sonra (1805-ci ilin yayında) hakimiyyətə Mehdiqulu xan Qacar gəlmişdi. Pirqulu xan Qacar isə əslində İrəvan xanı deyil, İrəvan şəhərinin hərbi rəisi olmuşdur. 1806-ci ilin avqustunda irəvanlılar əhali üzərinə ağır vergilər qoyan və xalqı qarət edən Mehdiqulu xana qarşı üsyan qaldırdılar. Həmin ilin avqustunda Mehdiqulu xan Qacarı Təbriz və Marağa xanı Əhməd xan əvəz etdi. Əhməd xan Təbrizdən çoxsaylı piyada və suvari qoşunla İrəvana gəldi və hakimiyyətdə Mehdiqulu xanı əvəz etdi. O, əhalinin rəğbətini qazansa da, cəmi üç aya yaxın hakimiyyətdə oldu. İrəvanda epidemiya baş qaldırdığı üçün xan ağır xəstələndi və dövlət işlərini lazımi şəkildə icra edə bilmədi. O, şahzadənin ən

etibarlı və görkəmli nümayəndəsi olduğu üçün bu hadisə onu çox məyus etdi. Əhməd xan Marağalı 1806 cı il oktyabrın 17-də vəfat etdi. Fətəli şahın tələbi ilə xanlıqdan uzaqlaşdırılan Məhəmməd Hüseyn xan Qacar yenidən İrəvan xanlığına geri qayıtsa da hakimiyyətini davam etdirə bilmədi.[1, səh. 55-56]. Çox keçmədən İrəvan xanlığında yerli hakimiyyət yenidən möhkəmləndi və hakimiyyətə müstəqil İrəvan xanlığının sonuncu xanı Hüseynqulu xan Qacar gəldi. Fətəli şah İrəvanın yeni xanı Hüseynqulu xan Qacara "sərdar"-yəni, Araz çayının sol sahilindəki bütün hərbi qüvvələrin sərkərdəsi titulunu verdi. İrəvan sərdarı təyin edilən Hüseynqulu xan Qacara vilayətin bütün hərbi və mülki hakimiyyəti verilməklə yanaşı, o, çoxsaylı süvari və piyada qoşunla da təmin edildi.

Beləliklə, ilk mənbələrin məlumatları təsdiq edir ki, 1747- ci ildən 1827-ci ilə qədər mövcud olmuş Azərbaycan dövlətini-İrəvan xanlığını əsasən Azərbaycanın yerli türk Qacar tayfasının nümayəndələri olan xanlar idarə etmişlər və onlar İrəvan xanlığının müstəqilliyi uğrunda qətiyyətlə mübarizə aparmışlar. [1, səh. 56-57]

QAYNAQLAR

1. AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu "İrəvan xanlığı" Bakı, Azərbaycan, 2010. 620 s.
2. Baxşəliyev A. F "Azərbaycan tarixi" Bakı-ADDA-2010, 102 s.
3. Bünyadov Z. M, Yusifov Y. B, "Azərbaycan tarixi" Bakı-Çıraq-2007 719 s.
4. Ələkbərli. Ə."Qədim türk oğuz yurdu Ermənistan" Bakı-Sabah-1994.
5. Əliyev. F. M, "XVIII əsrin I yarısında Azərbaycanda ticarət" Bakı (Az. SSR EA tarix inst) 1964, 102 s.
6. Dadaşova. R, "Səfəvilərin son dövrü" Bakı-Nurlan-2003. 440 s.
7. Fuad Əliyev, Ürfan Həsənov "İrəvan xanlığı" Bakı-Azərnəşr-1997.
8. Hüseynov. R, "Ulu yurdum İrəvan" Bakı-Şirvannəşr-2007 148 s.
9. İsmayılov M. Ə. "Azərbaycan tarixi" Bakı-Azərnəşr-1992. 261 s
10. İrəvan əyalətinin icmal dəftəri. (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad. Z. Bünyadov, t.e.n. H. Məmmədov). Bakı-"Elm"-1996. 181 s.
11. Məmmədov. S. "İrəvan şəhərində etnik çevrilişlər" Bakı-Azərbaycan yurnalı-1992 N 1-2.
12. Mustafazadə T. T. "XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri" Bakı-"Elm"-2002. 370 s.
13. Nəcəfli. G. "XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaratmaq cəhdləri" Bakı-Nurlan-2007 425 s.
14. Süleymanov. M, "İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən" Bakı-hərbi nəşriyyatı-1997, 160 s.
15. Арунова. М, Ашрафян. К, «Государства Надир шаха» Москва-изд. вост лит-1958, 284 с.

Xülasə

XVIII yüzillikdə Azərbaycan torpaqlarında yaranan müstəqil dövlətlərdən biri də İrəvan xanlığı idi. İrəvan xanlığı 1747-ci ildə Mirmehdi xan tərəfindən yaradılmışdı. Xanlıq indiki Ermənistan ərazisində - Qərbi Azərbaycan torpaqlarında yaranmışdı. Xanlığın ərazisi inzibati cəhətdən Qırxbulaq, Zəngibasar, Vedibasar, Sərdarabad, Göyçə, Dərəçiçək və s. mahallara bölünmüşdü. İrəvan xanlığının paytaxtı İrəvan şəhəri idi. Şəhər əhalisi Azərbaycan türklərindən ibarət idi. İrəvan şəhəri Azərbaycanın ən mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərindən biri idi.

Резюме

Одним из независимых государств, возникших на территории Азербайджана в XVIII веке, являлось Иреванское ханство. Иреванское ханство было создано в 1747 году Мирмехти ханом. Ханство возникло на территории современной Армении-на землях Западного Азербайджана. В административном отношении территория ханства делилась на Гырхбулагский, Зангибасарский, Ведибасарский, Сардарабадский, Гекчинский, Деречичакский и др. магалы.

Столицей Иреванского ханства являлся город Иреван. Население города состояло из азербайджанских тюрков. Город Иреван являлся одним из важнейших центров ремесла, торговли и культуры Азербайджана.

Summary

One of the territory of independent states in the eighteenth century was the Irevan khanate. Mirmehdi Khan founded in 1747 by Irevan khanate. Khanate in Armenia – Western Azerbaijan there. Girkhbulag administrative aspects of the Khanate, Zangibasar, Vedibasar, Armavir, Goycha, Darachichak and others. divided into districts. Irevan, the capital city of Irevan Khanate. The city's population was composed of Azerbaijani Turks. The most important crafts of the city of Yerevan, was one of the centers of commerce and culture.

BAKI AVRASİYA UNİVERSİTETİ
"Sivilizasiya" jurnalı 2016.№1

FUAD XƏLİL-ZADƏ
Bakı Dövlət Universiteti
xalifa@gmail.com

SEÇKİ SİSTEMLƏRİ: BEYNƏLXALQ TƏCRÜBƏ VƏ AZƏRBAYCAN

Açar sözlər: *majoritar seçki sistemi, proporsional seçki sistemi, yarıproporsional seçki sistemi (qarışıq seçki sistemi).*

Ключевые слова: *мажоритарная избирательная система, пропорциональная избирательная система, полупропорциональная избирательная система (смешанная избирательная система).*

Keywords: *pluralistic-majority voting system, a proportional representation system, mixed electoral system.*

Dünyada seçkilərin keçirilməsinin müxtəlif sistemləri tətbiq olunur. Seçki sistemi dedikdə seçkilərin keçirilməsi, səsvermənin nəticələrinin müəyyən edilməsi, seçki hüquqlarının həyata keçirilməsi ilə bağlı qaydaları və seçki münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu nəzərdə tutulur. Dünyada çoxlu sayda seçki sistemləri vardır. Seçki sistemlərinin çoxluğu bu sistemlərin cəmiyyətin bütün siyasi qüvvələrini tam qane etməməsi, bir sistemin digərindən üstün və çatışmayan cəhətlərə malik olması ilə əlaqədardır. Bu baxımdan ölkələrin siyasi hakimiyyəti, qanunvericilik orqanları daha məqsədəuyğun hesab etdikləri seçki sistemlərini qəbul edirlər.Beynəlxalq təcrübədə seçki sistemlərinin iki əsas forması-plüralist majoritar seçki sistemi və proporsional nümayəndəlik seçki sistemi fərqləndirilir. ***(bax:2)*** Lakin bəzi ölkələr seçkilər zamanı, əsasən də parlament seçkilərində hər iki sistemdən istifadə edirlər ki,bu da qarışıq sistem və ya yarıproporsional sistem adlandırırlır.

Majoritar seçki sistemi. Əsasında əksəriyyət prinsipinin dayandığı majoritar (fransızca «majorite»-«əksəriyyət» deməkdir) sistem tarixən formalaşmış ilk seçki sistemi olmuşdur. Burada mahiyyət ondan ibarətdir ki, səslərin əksəriyyətini qazanmış namizədlər seçilmiş hesab olunurlar. Plüralist majoritar sistemin əsasında hamısı qalibə çatır prinsipi dayanır. ***(bax:9)*** Majoritar sistem mahiyyətcə sadə və anlaşıqlı olsa da, siyasi partiyaların güclü olduğu dövlətlərdə bu sistemdən bütün siyasi qüvvələr razı qalmır. Çünki, səslərin nisbi azlığını alan namizəd (seçicilərin qismən az hissəsinin müdafiə etdiyi) namizədlər kənarda qalırlar. Majoritar seçki sisteminə birmandatlı seçki sistemi də deyilir. Yəni, ölkə ərazisi müəyyən olunmuş deputat yerlərinin sayına uyğun sayda dairələrə bölünür. Hər dairədən isə yalnız bir mandat-daha çox səs qaza-

nanlar qalib müəyyən edilir. Majoritar seçki sisteminin az hallarda çoxmandatlı dairələr üzrə tətbiqi hallarına da təsadüf edilir.

Məsələn, ABŞ-da prezident seçkiləri kollegiyasının seçkilərində prezident seçiciləri siyahılarının rəqabətdə olduğu ştatlar və federal dairə çoxmandatlı seçki dairələridir. Majoritar sistemə rəğbətin köklərini yalnız tarixdə axtarmaq düzgün olmazdı, bunun daha rasional izahı var. Majoritar sistem parlamentdə çoxluq təşkil edən partiyaya öz proqramını həyata keçirməyə imkan verir. Bu sistem hökumətin səmərəli fəaliyyət göstərməsinə şərait yaradır. Majoritar sistemdə fərqli (nisbi, mütləq və ya ixtisaslı) səslər çoxluğu ola bilir ki, bu da majoritar sistemin növlərini təyin edir.

1. Nisbi səslər çoxluğuna görə daha çox səs toplamış namizəd qalib gəlmiş hesab olunur. Məsələn, bir namizəd səsvermədə iştirak edənlərin səslərinin 45 faizini, digəri 20 faizini, yerdə qalan namizədlər 35 faizini əldə etmişdirsə, 45 faiz səs toplayan qalib hesab edilir. Bu nəticəli sistemdir. Burada seçki o zaman nəticəsiz qurtara bilər ki, iki və daha artıq namizəd eyni sayda daha çox səs toplamış olsun. Bu cür hallara çox az təsadüf olunur. Seçkilərin baş tutması üçün müəyyən olunmuş seçici iştirakı ilə bağlı məhdudiyyətin götürülməsi halında tək bir nəfərin iştirakı ilə (səs çoxluğu) seçkilər baş tutmuş hesab oluna bilər.

2. Mütləq çoxluqlu majoritar sistemə görə qalib gəlmək üçün səslərin mütləq əksəriyyətini, yəni onların ümumi sayının yarıdan çoxunu (50 faiz + 1 səs) toplamaq lazım gəlir. Bəzi ölkələrdə səsvermənin baş tutmuş hesab edilməsi üçün səsvermədə seçicilərin minimum iştirak həddi müəyyən edilir. Əgər həmin hədd əldə olunmayıbsa seçkilər etibarsız və ya baş tutmamış sayılır. Bu, qeydə alınmış seçicilərin yarısını, bir çox hallarda isə daha az hissəsini əhatə edə bilər.

Seçicilərin minimum iştirak həddi qeydə alınmış seçicilərin 50 faizini təşkil edirsə, verilmiş səslərin ümumi sayının mütləq əksəriyyəti nəzəri cəhətdən hüquqi seçici korpusunun 25%+1 sayını təşkil edəcəkdir. Bu sistemin nisbi çoxluqlu sistem ilə müqayisədə üstünlüyü ondan ibarətdir ki, səs vermiş seçicilərin mütləq əksəriyyəti tərəfindən müdafiə edilən namizədlər seçilmiş sayılırlar. Lakin nisbi əksəriyyət sisteminə xas olan qüsur burada da saxlanılır: qalib gəlmiş namizədlərin əleyhinə verilmiş səslər itib-batır.

Mütləq çoxluqlu majoritar sistemin tez-tez təkrar olunan nəticəsizlik kimi spesifik nöqsanı vardır. Həm də namizədlər arasında rəqabət güclü olduqca bu nöqsanın baş vermə ehtimalı da böyük olur. Belə ki, seçkidə iştirak edən namizədlərdən (və ya namizədlər siyahısından) heç biri səslərin parçalanması ucbatından tələb olunan əksəriyyəti qazana bilmir. Tələb olunan mütləq əksəriyyət verilən səslərin ümumi sayından hesablandıqda həmin təhlükə daha da artmış olur. Hətta birmandatlı dairədə iki namizədin seçkidə iştirakı zamanı elə vəziyyət yarana bilər ki, seçicilər hər iki namizədin əleyhinə səs verdikləri və ya etibarsız qaydada səs verdikləri halda onların heç birisi mütləq əksəriyyətin səsini əldə edə bilməsin.***(bax:8)*** Lakin son illərdə mütləq səs çoxluqlu majoritar sistemdə iştirakla bağlı məhdudiyyət tələbindən imtinaya meyl güclüdür. Bu da onunla əlaqədardır ki, seçki bir hüquqdur, heç kəs seçkilərə, səsverməyə məcbur edilə, cəlb edilə bilməz. İnformasiya və qloballaşan dünyada sadə xalqın siyasiləşməsinin azalması tendensiyası gedir və insanlar bəzən seçkilərdə iştiraka meyl etmirlər. Bu cür tələbin olması isə seçkilərin baş tutmasını sual altına qoya bilər, yaxud seçkilərə müdaxilə olunmasına (seçkilərin baş tutmasını təmin etmək üçün və

s.) şərait yaradar. Mütləq çoxluqlu majoritar sistem üzrə səsvermənin nəticəsizliyini necə aradan qaldırmaq olar? Bunun üçün müxtəlif üsullar mövcuddur. Onlardan biri birinci turda rəqabət aparan heç də bütün namizədlərin iştirak etmədikləri ikinci turun keçirilməsidir. Mütləq çoxluqlu majoritar sistemin nəticəsizliyini aradan qaldırmağın səsvermənin ikinci turundan yan keçməyə imkan verən digər üsulu alternativ səsvermədir.

Bu sistem Avstraliyada parlamentin aşağı palatasının seçkiləri zamanı, həmçinin ABŞ-da parlament seçkiləri zamanı tətbiq edilir. ***(bax:5)***

3. İxtisaslı çoxluqlu majoritar sistem. Bu sistemdə səslərin ixtisaslı çoxluğunu qazanmış namizəd (namizədlər si-yahısı) seçilmiş hesab edilir. İxtisaslı əksəriyyət qanunla müəyyənləşdirilir və hər halda mütləq əksəriyyətdən üstün olur.

Bu sistem mütləq çoxluqlu sistemdən daha az nəticəli olması səbəbindən az tətbiq olunur. Məsələn, Çilidə Deputatlar Palatası (parlamentin aşağı palatası) ikimandatlı seçki dairələri üzrə seçilir. Dairədə etibarlı səslərin ümumi sayının 2/3-ni qazanmış partiyalar dairədən hər iki mandatı əldə etmiş olur. Partiyalardan heç birisi həmin əksəriyyəti qazanmamışdırsa mandatlar daha çox səs toplamış iki partiyaya verilir.

4. Kumulyativ votum seçki sistemi. Latınca cumulatio -toplanma deməkdir. Bu sistem onunla səciyyələnir ki, çoxmandatlı dairədə hər bir seçici seçiləcək namizədlərin sayı qədər və ya daha az səsə malikdir və öz səslərini namizədlər arasında istədiyi qaydada bölüşdürür: seçici hər bir namizədə bir səs verə və ya namizədlərdən hansınasa özünün bütün səslərini toplu halında verə bilər, yəni öz səslərini bir namizəd üçün toplaya bilər. ***(bax:3)*** Bu sistem Almaniyanın bir çox torpaqlarında, o cümlədən Şərqi alman torpaqlarında tətbiq olunur. Burada hər bir seçicinin üç səsi var, seçki bülletenində hər namizədin soyadı qarşısında üç boş dairə yerləşdirilmişdir. Seçici aşağıdakı variantlardan birini tətbiq edə bilər:

a) bülletendəki soyadların qarşısındakı dairələrdən birinin içərisinə xaç işarəsi qoymaqla hər namizədə bir səs verə bilər;

b) namizədlərin birinə iki səs, o birisinə bir səs verə bilər;

v) hər üç səsi namizədlərdən birinə verinə bilər;

q)bülleteni doldurmadan namizədlərin heç birisini müdafiə etməyə bilər.

Proporsional seçki sistemi. Konstitusion quruluşun formalaşmağa başladığı ilk vaxtlarda siyasi birliklərin proporsional təmsilçiliyi ideyaları irəli sürülməyə başlamışdı. Bu qaydaya görə, həmin birliklərin qazandığı mandatların sayı onların namizədlərinə verilmiş səslərin sayına uyğun gəlir. Belə bir ideyanı Böyük fransız inqilabının görkəmli xadimlərindən olmuş Lui Sen-Jüst 1793-cü ildə Fransa konventində irəli sürmüşdü. XIX əsrin 40-cı illərində proporsional seçki layihələrini amerikalı Tomas Cilpin və isveçrəli Viktor Konsideran təklif etmişdilər. Propor-sional sistem ilk dəfə 1889-cu ildə Belçikada tətbiq olunmuşdur. XX əsrin başlanğıcında bu sistemin 152 növü fərqləndirilirdi.Hal-hazırda ondan 60 ölkədə istifadə olunur. Proporsional sistem də nöqsanlardan azad deyildir. Bu sistemin əsas ideyası ondan ibarətdir ki, hər bir siyasi partiya parlamentdə və ya digər nümayəndəli orqanda onun lehinə səs vermiş seçicilərin sayına proporsional sayda mandat əldə edir. Proporsional nümayəndəlik sistemi seçkilərdə bu və ya digər partiyaya verilmiş səslərin miqdarı ilə bu partiyanın parlamentdə alacağı yerlərin (mandatların) miqdarı arasında mümkün qədər tam uyğunluğa nail olmaq üçün yaradılmış seçki sistemidir. Başqa sözlə, mandatlar veri-

lən səslərin paylı bölgüsünə əsasən müəyyən edilir, yəni hər bir partiyaya verilən səslərin miqdarı ilə parlamentdə tutduğu yerlərin sayı uyğun gəlir. Məsələn 30% səs toplamış partiya parlamentdə yerlərin 30% -ni əldə edir. Bu sistem verilən səslərin itməməsi baxımından cəlbedici görünür. Proporsional seçki sistemi hətta nisbətən kiçik partiyalar üçün də təmsilçiliyi təmin edir. Bu isə parlamentli və ya qarışıq idarəçilik formasında hökumətin formalaşdırılması, sonradan isə onun fəaliyyəti sahəsində mürəkkəb problemlər yaradır. Problemlər əsasən heç bir partiyanın və ya partiyalar koalisiyasının parlamentdə möhkəm mütləq əksəriyyətə malik olmadıqları vəziyyətdə meydana çıxır, proporsional sistem isə məhz belə vəziyyətin alınmasına zəmin yaradır. Bu, həmin sistemin nöqsanlarından yalnız biridir. Bu sistem parlamentdə ədavətdə olan və rəqabət aparan çoxlu sayda partiyaların olmasına şərait yaradır ki, bu da koalision çoxluğun formalaşdırılması işini çətinləşdirir. Hətta bu cür koalisiya yarandıqda belə onun sabitliyinə ümid az olur. ***(bax:7)*** Nəticədə hökumətin effektivliyi kəskin şəkildə aşağı düşür.Siyasi partiyaların daxili demokratik quruluşu və idarəetməsi bir qayda olaraq qanunlarla tənzimlənmədiyindən proporsional seçki sistemi partiyanın dar hakim dairəsi üçün əlverişli olur və sıravi partiya üzvlərinin, partiya elektoratının siyasətdən uzaq düşməsinə gətirib çıxarır. Proporsional sistem yalnız çoxmandatlı seçki dairələrində tətbiq oluna bilər. Qeyd etmək lazımdır ki, dairə böyük olduqca daha yüksək proporsionallıq dərəcəsi əldə etmək mümkün olur. İsrail parlamentinə seçkilərdə bütün ölkə ərazisi bir dairəni təşkil edir və 120 deputatdan ibarət olan İsrail Knesseti (parlamenti) bu yolla seçilir. Daha iri ölkələrdə ölkəni seçki dairələrinə bölmədən keçinmək mümkün deyil. Lakin proporsional sistem üzrə seçkilər üçün seçki dairələri yaradıldığı halda bu dairələr çox böyük olur və onların hər birindən adətən onlarla deputat seçilir. Seçki bülletenində heç də hər bir partiyadan və ya partiyalar blokundan olan namizədlərin siyahısı çap olunmur, burada yalnız siyahının adı və onun qrafik simvolu və bir neçə liderin soyadı qeyd olunur. Siyahı partiyanın rəhbərliyi tərəfindən tərtib edilir, seçici isə yalnız partiyaya səs verir. Bu seçki sisteminin qüsurlarını azaltmaq üçün bir çox ölkələrdə ona müəyyən düzəlişlər edirlər. Mandatların proporsional bölüşdürülməsi üçün daha çox seçki kvotası və bölənlər metodundan istifadə olunur. Seçki kvotası bir namizədin seçilməsi üçün zəruri olan səs minimumudur. O, müxtəlif qaydada müəyyən edilir. 1855-ci ildə ingilis barristeri (yüksək ixtisaslı vəkil) Tomas Her sadə x:u düsturu üzrə müəyyən edilən kvotanı təklif etmişdir. Burada x-səslərin, u isə mandatların sayıdır. Kvota müəyyən edildikdən sonra hər bir partiyanın topladığı səslər bu kvotaya bölünür və bölünmədən alınan tam ədədlər hər partiyaya neçə mandat düşdüyünü göstərir. Lakin bu düsturun belə bir nöqsanı var: tez-tez böyük səs qalıqları və bölüşdürülməyən mandatlar qalır. Buna görə də məxrəcə bir, iki, üç və s. vahidlər artırmaq yolu ilə Herin kvotasını təkmilləşdirməyə başladılar. 1868-ci ildə başqa bir ingilis barristeri Henri Drup və Bazel Universitetinin professoru Eduard Hogenbax-Bişof tərəfindən təklif edilən kvotalar daha çox populyarlıq qazandı. Drupun kvotası {x:(u+1)}+1, Hogenbax Bişofun kvotası isə x:(u+1) düsturu ilə müəyyən edilir. Bu kvotalardan istifadə edərkən Herin kvotasının tətbiqi zamanında olduğundan xeyli dərəcədə artıq mandatı dərhal paylaşdırmaq mümkün olur. Bölənlər metodu dərhal bütün mandatları seçki dairəsində və ya bütün ölkə üzrə paylaşdırmağa imkan verir. Onun mahiyyəti hər bir namizədlər siyahısı üzrə alınmış səsləri müəyyən bölənlər seriyasına ardıcıl olaraq bölməkdən ibarətdir. Bu

bölənlər müxtəlif cürdür. Məsələn, 1882-ci ildə Gent Universitetinin professoru Viktor dOndt sadəcə olaraq 1-dən başlamaqla tam ədədlər ardıcıllığına bölməyi təklif edirdi. İri partiyalar üçün daha sərfəli olan bu metod bir çox ölkələrdə (Almaniya, Argentina, Belçika, Polşa və s.) qəbul edilmişdir. İtaliyalı tədqiqatçı İmperialli də tam ədədlər ardıcıllığına, lakin ikidən başlamaqla bölməyi təklif edirdi; əslində bu, dOntun metodunun bir variantıdır. 1910-cu ildə fransız alimi A.Sent-Laqüe tək ədədlərə (1-ə, 3-ə, 5-ə və s.) bölmək ideyasını təklif etdi. Bu metod, məsələn, Latviyada tətbiq olunmuşdur. Bir sıra ölkələrdə (məsələn, Bolqarıstanda) Sent-Laqüe metodunun mötədil və ya uyğunlaşdırılmış variantı tətbiq edilir. ***(bax:6)*** Bu varianta görə birinci bölənlər 1 və 4, sonrakılar isə 3, 5, 7 və digər tək tam ədədlərdir. Danimarka metoduna görə sonrakı bölən əvvəlkindən 3 vahid böyükdür: 1, 4, 7, 10 və s. Bölmə aparıldıqdan sonra mandatlar payına daha böyük qismət düşən partiyalara verilir.

Qarışıq seçki sistemləri. Bir sıra ölkələrdə ayrı-ayrı sistemlərin üstünlüklərini birləşdirmək və onların nöqsanlarından azad olmaq və ya bu nöqsanları əhəmiyyətli dərəcədə yumşaltmaq məqsədilə majoritar və proporsional sistemlərin bəzi elementlərini özündə birləşdirmiş qarışıq seçki sistemləri tətbiq edilir. Məsələn, Almaniyada qarışıq sistemdən Bundestaqa seçkilərdə istifadə olunur. Bundestaq deputatlarının yarısı bütün ölkəni əhatə edən təkmandatlı seçki dairələrində nisbi çoxluqlu majoritar sistem üzrə seçilir. Deputatların digər yarısı çoxmandatlı seçki dairələri rolunu oynayan alman torpaqları (federasiya subyektləri) üzrə siyasi partiyaların irəli sürdükləri namizəd siyahıları əsasında 5 faizlik məhdudiyyət həddi və daha çox qalıq qaydasına əsasən proporsional təmsilçilik prinsipinə uyğun seçilir. Oxşar sistem Bolqarıstanda da mövcuddur, lakin bu, alman sistemindən onunla fərqlənir ki, təkmandatlı seçki dairələrində birinci turda daha çox səs toplamış iki namizəd arasında ikinci turun keçirilməsini nəzərdə tutan mütləq çoxluqlu majoritar sistem tətbiq olunur. İtaliyada hazırda Parlamentin hər iki palatasının tərkibinin dörddə üçü nisbi çoxluqlu majoritar sistem üzrə təkmandatlı seçki dairələrində, dörddə biri isə əvvəlki proporsional sistem üzrə, lakin dörd faizlik hədlə seçilir. ***(bax:4)*** Gürcüstanda parlamentdə olan 235 yerin 150-si plüralist-majoritar, 85-i isə proporsional nümayəndəlik seçki sistemi ilə formalaşdırılır. Ukrayna parlamentində olan 450 yerdən 250-ə seçkilər plüralist-majoritar, 200 yerə isə proporsional nümayəndəlik seçki sistemi üzrə aparılır.

Bu sistemlərlə yanaşı preferensial səsvermə kimi tanınan alternativ səsvermə və Fransada tətbiq olunan iki turluq sistem mövcuddur. Bunların hər ikisi hamısı qalibə çatır sisteminin potensial qüsurunu aradan qaldırmağa imkan yaradır. Bu qüsur ondan ibarətdir ki, bir mandata 2 namizəd iddia etdikdə qələbə gözlənilmədən elə namizədə çata bilir ki, seçicilərə yenidən seçim imkanı verilsə onlar həmin namizədi rədd edərlər. Alternativ səsvermə bu imkanı yaradır. Alternativ səsvermə sistemindən yalnız Avstraliyada və bir qədər dəyişilmiş şəkildə Sakit okeandakı Nauru ada dövlətində istifadə olunmasına baxmayaraq bəzi ekspertlər onu dəstəkləyir. Bu sistemə görə namizədlər birmandatlı dairələr üzrə seçilir (majoritar sistemdə olduğu kimi). Lakin fərq ondadır ki, seçicilər öz istəklərinə uyğun olaraq namizədləri siyahı üzrə sıraya düzürlər. Siyahıda birinci yer tutana 1 bal, ikinci yer tutana 2 bal verilir və s. Namizədlərdən heç biri səslərin əksəriyyətini toplaya bilmədikdə, ən az səs toplamış namizəd sıradan çıxır. Bu proses o vaxta qədər davam edir ki, namizədlərdən hansısa biri səslə-

rin 50 %-ni toplamış olsun. Belə olduqda təkrar hesablama zamanı namizədə verilmiş "ikinci yerlərin" cəmi nəzərə alınır. Fransada tətbiq edilən iki turluq sistem analoji nəticənin əldə olunmasına yönəlib. Azərbaycan Respublikasında Milli Məclisinə birinci (1995-ci il) və ikinci çağırışda (2000-ci ildə) seçkilər qarışıq sistem üzrə keçirilmişdir. ***(bax:1)*** 125 deputatdan 100-ü majoritar sistem, 25-i isə proporsional nümayəndəlik sistemi üzrə seçilmişdir. 2002-ci ildə keçirilən ümumxalq səsverməsində proporsional sistem ləğv edildi. Əlbəttə, bu heç də proporsional nümayəndəlik sistemindən tamamilə birdəfəlik imtina deyil. Hazırda siyasi partiyaların mövcud durumunda seçkilərin majoritar qaydada keçirilməsi məntiqlidir. Gələcəkdə siyasi partiyaların daha da inkişaf edəcəyi və siyasi mədəniyyətin daha da güclənəcəyi bir zamanda proporsional sistemin bərpası məqsədəuyğun hesab edilə bilər.

QAYNAQLAR

1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995.
2. Michael Gallagher and Paul Mitchell. The Politics of Electoral Systems. Oxford University Press. 2008. p.672
3. İlqar Cəfərov, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun əməkdaşı, Xalq qəzeti.- 2010.- 27 oktyabr.
4. Abdullah Özkan., Siyasal İletişim Stratejileri.TASAM Yayınları,İstanbul, 2007, s.172.
5. Andrew Reynolds, Ben Reilly and Andrew Ellis . Electoral System Design: the New International IDEA Handbook. Stockholm, Sweden.2005. p.224.
6. Jesse Russell, Ronald Cohn. Victor D'Hondt. Book on Demand, 2012 -p.158. D hondt
7. E.H.Nəsirov., Seçki hüququnun Azərbaycanin hüquq sistemində yeri. "Hüquq elminin müasir problemləri" mövzusunda II Beynəlxalq Konfransın tezisləri. Bakı, 2010. S.296.
8. P.Norris.,Chossing Electral Systems:Proportional,Majoritarian and Mixed Systems, İnternational Political Science Review vol(18),1997,p.297.
9. https://az.facebook.com/permalink.php?story_fbid=513753322020147&id=505667012828778 / 14.11.2015

Seçki sistemləri: beynəlxalq təcrübə və Azərbaycan

Xülasə

Azad və demokratik seçkilərin keçirilməsi və belə seçkilərin keçirilməsinə imkan yaradan seçki qanunvericiliyinin mövcudluğu demokratik cəmiyyət quruculuğunun əsas komponentlərindən biridir. Bu baxımdan Azərbaycan Respublikasında ədalətli və şəffaf seçkilərin keçirilməsi üçün mühüm qanunvericilik özülü formalaşmışdır. Seçkilərin beynəlxalq standartlara uyğun şəkildə keçirilməsinə, aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıqda hazırlanmış və müasir demokratik seçki prinsip və normalarını özündə əks etdirən, cəmiyyətin geniş dairələrinin də müzakirəsinə cəlb edildiyi Seçki Məcəlləsi mövcuddur. Bütün dünyada cəmiyyətin və dövlətin siyasi həyatında

iştirak etmək hüququ əsas insan hüquqlarından hesab olunur. Məqalədə müəllifin toxunduğu əsas məqam beynəlxalq seçki sistemlərinin, xarici dövlətlərin seçki prosesində olan təcrübəsinin analizi, onların müsbət tərəflərinin önə çəkilməsi və gələcəkdə Azərbaycan qanunvericiliyinə implementasiyası üçün elmi zəminin yaradılmasıdır.

Ф.ХАЛИЛЗАДЕ

Избирательные системы: Международный опыт и Азербайджан

Резюме

Проведение свободных и демократических выборов и сущность избирательного законодательства, предоставляющего возможность для проведения таких выборов является одним из главных компонентов построения демократического общества. В связи с этим, в Азербайджанской Республике была сформирована важная законодательная база для проведения честных и справедливых выборов. Существует избирательный кодекс, привлечённый к обсуждению в обширных кругах демократического избирательного общества, для проведения выборов в соответствии с международными стандартами, подготовленный в сотрудничестве с ведущими международными организациями и отражающий принципы и нормы избрания. Право на участие в политической жизни государства и общества является одним из главных прав человека во всём мире. Главная суть в статье, которую затрагивает автор состоит из анализа опыта международных избирательных систем, избирательного процесса зарубежных стран, выдвижение их положительных сторон и создание научной основы в будущем для имплементации законодательства Азербайджана.

F.KHALILZADEH

Selection systems: International experience and Azerbaijan

Summary

Carrying out free and democratic elections and essence of the electoral laws giving opportunity for carrying out such elections is one of the main components of creation of democratic society. In this regard, in the Azerbaijan Republic the important legislative base for carrying out fair elections was created. There is an electoral code involved in discussion in extensive circles of democratic electoral society, for elections according to the international standards, prepared in cooperation with the leading international organizations and reflecting the principles and norms of election. The right for participation in political life of the state and society is one of the main human rights around the world. The main essence in article which is mentioned by the author consists of the analysis of experience of the international electoral systems, electoral process of foreign countries, promotion of their positive sides and creation of a scientific basis in the future for implementation of the legislation of Azerbaijan.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Mustafa ŞABANOV
Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin attaşesi və
Bakı Dövlət Universitetinin “Diplomatiya və müasir inteqrasiya
prosesləri” kafedrasının qiyabi doktorantı

RUSİYA-GÜRCÜSTAN MÜHARİBƏSİ VƏ ONUN RUSİYANIN REGİONDAKI SİYASƏTİNƏ TƏSİRİ

Açar sözlər: *Rusiya, Gürcüstan, ABŞ, Cənubi Qafqaz, xarici siyasət, müharibə.*
Ключевые слова: *Россия, Грузия, США, Южный Кавказ, внешняя политика, война.*
Keywords: *Russia, Georgia, USA, South Caucasus, foreign policy, war.*

1991-ci ildə Cənubi Qafqaz dövlətləri öz müstəqilliklərini bərpa etdikdən bu yana böyük və regional dövlətlərin bölgə uğrunda mübarizəsi səngimək bilmir. Görkəmli Amerikan politoloqu Zbiqnev Bjezinskinin də qeyd etdiyi kimi regionda “böyük oyun” hələ də davam etməkdədir.[1] Bu oyunun əsas mükafatı isə Azərbaycandır. Özünün zəngin sərvətləri, mühüm strateji mövqeyi ilə Azərbaycan “böyük oyunçular”ın əldə etmək istədiyi əsas hədiyyədir. Bu oyunda Ermənistan və Gürcüstan isə açıq kartdır. Azərbaycandan fərqli olaraq həmin dövlətlər öz strateji inkişaf yolunu açıq sürətdə bəyan edir, müxtəlif strukturlara inteqrasiya olunmaq istəyini gizlətmirlər. Ermənistan regionda Rusiyanın for-postu funksiyasını uğurla yerinə yetirir və Rusiyanın Cənubi Qafqazda hələ də qalmasına şərait yaradır.

Gürcüstanla Rusiya arasındakı münasibətlər isə lap əvvəldən gərginliyi ilə seçilmişdir. Qərblə Rusiya arasında Gürcüstanda mövqe savaşı həmişə açıq müstəvidə olmuşdur. Gürcüstan müstəqilliyinin ilk illərindən Rusiyadan uzaqlaşma siyasətinin üzərində daha israrlı görünürdü. ABŞ-ın birbaşa maliyyə-siyasi dəstəyini öz üzərində hiss edən Gürcüstan avro-atlantik strukturlara inteqrasiya olunmaq istəyini gizlətmir və bu istiqamətdə bütün diplomatik fəaliyyətini artırmışdır. Mixail Saakaşvilinin rəhbərliyi altında Gürcüstanın yeritdiyi “atlantizm” siyasəti regionda güc balansını və geosiyasi vəziyyəti dəyişmişdir. Artıq Gürcüstan üzərindəki bütün iqtisadi-siyasi təsir rıçaqlarını itirmiş Rusiya Cənubi Qafqazın itirilməsi faktı ilə barışa bilməmiş və tarixə “avqust böhranı” adı ilə daxil olmuş “hərbi şou” yaratmaqla Cənubi Qafqazdan döyüşsüz çıxmayacağını nümayiş etdirdi.

2008-ci ilin avqust ayında Rusiya-Gürcüstan müharibəsini törədən amillər bir qədər əvvəl, SSRİ-nin dağılmağa başladığı dövrdə cərəyan etmişdi. 1989-cu ildə Cənubi Osetiya Ali Soveti Şimali Osetiya ilə birləşmək haqda qərar qəbul etdi. Buna cavab

olaraq isə Gürcüstan Ali Şurası Cənubi Osetiya Ali Sovetinin qəbul etmiş olduğu separatçı sənədi ləğv etdi və Cənubi Osetiyanın muxtariyyətinə xitam verdi.[4, 231]

Tərəflər arasında hərbi qarşıdurma 1991-ci ilin yanvar ayında oldu. Belə ki, Gürcüstan rəhbərliyi Cənubi Osetiyadakı separatçıları zərərsizləşdirmək məqsədilə Gürcüstan silahlılarını bölgəyə göndərdikdə separatçılar Rus qoşunları tərəfindən mühafizə olundular. Tərəflər arasında baş vermiş döyüşdə 2000 nəfərdən artıq hərbçi həlak olmuşdu. Müharibə nəticəsində 100 mindən artıq osetin Gürcüstan və Cənubi Osetiyanı tərk etmiş, 23 min gürcü isə öz yurdundan didərgin olunmuşdu.[9]

Müharibə nəticəsində Gürcüstan əhalisinin 29%-ni təşkil edən (98 500 nəfər) Cənubi Osetiya regionu de-fakto müstəqillik əldə etdi. 1992-ci il Soçi müqaviləsindən sonra isə rəsmi Tsxinvali Gürcüstan ərazisindən ayrıldı və Birləşmiş nəzarət Kommisiyasının nəzarəti altında bölgəyə rus, gürcü və osetin sülhməramlıları yerləşdirildi. 2008-ci ilin may ayına qədər Abxaziyada 2000, Cənubi Osetiyada isə minə yaxın rus sülhməramlıları var idi.[10]

2003-cü ildə Mixail Saakaşvilinin "məxməri inqilabı"na qədər münaqişə dondurulmuş halda qalmaqda idi. Saakaşvili hökümətinin xarici siyasət prioritetləri içərisində NATO ilə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edirdi. Rusiyanın qısqanclıqla yanaşdığı bu yaxınlaşma rus-gürcü münasibətlərində əsas problematik məqama çevrildi.

2004-cü ildə Acariyanın Gürcüstana birləşdirilməsindən ruhlanan Gürcüstan hökuməti eyni ssenarini Cənubi Osetiya və Abxaziya üçün də hazırlayır və ilbəil Gürcüstanın hərbi büdcəsini artırırdı. 2008-ci ildə Gürcüstanın hərbi xərcləri 1 milyard dollar idi ki, bu da bütün ölkə xərclərinin 1/3-nə bərabər idi. Bununla da Gürcüstan hərbi xərclərin səviyyəsinə görə dünyada lider dövlətə çevrilmişdi.[5, 78]

2008-ci il ərzində hər iki tərəf bir-birini müharibəyə hazırlaşmaqda günahlandırırdı. Aprel ayında isə Rusiya tərəfi bəyan edərək bildirdi ki, Gürcüstan 1500 nəfər əsgər və polis dəstəsini Yuxarı Kodor dərəsinə toplayıb və Abxaziyanı işğal etmək istəyir. Cavab olaraq, Rusiya Abxaziya və Cənubi Osetiyaya öz qüvvələrini yeritməyə başladı. İyul-Avqust ayları ərzində tərəflər paralel olaraq iki hərbi təlim həyata keçirdilər: ABŞ-Gürcüstan "təxirəsalınmaz cavab 2008" və "Rusiya-Qafqaz cəbhəsi 2008". Avqustun 7-də Cənubi Osetiya sərhəddində 12 min gürcü əsgəri və 75 tankı, 1000 rus və 500 osetin əsgəri var idi. [3]

Avqust ayının 7-də Gürcüstan Prezidenti Mixail Saakaşvili birtərəfli qaydada atəşkəs elan etdi. Lakin buna baxmayaraq, gürcü qoşunları Cənubi Osetiya sərhəddi boyunca irəliləməyi davam etdirdilər. Artıq axşam saat 11:30-da Gürcü qoşunları Tsxinvalinin artileriya hücumuna başladılar. Avqust ayının 8-də gürcü qoşunları "təmiz sahə" kod adı altında Tsxinvalinin ələ keçirilməsi əməliyyatına başladılar. Elə həmin gün şəhərə daxil olan Gürcü qoşunları Rus-Osetin qüvvələri ilə döyüşə girdilər. Lakin 3 saatdan sonra rus qoşunlarının əks hücumu ilə gürcü qoşunları geri oturduldu. Artıq avqust ayının 14-də rus qoşunları Tsxinvalinin 25 kilometrliyində yerləşən Qori şəhərini aldılar. Ardınca daha da irəliləyərək Tbilisinin 10 kilometrliyində düşərgə saldılar. Müharibə eyni zamanda Abxaziya istiqamətində də aparılırdı. 9 avqustda Rusiyanın Qara Dəniz Donanmasının "Nanuçka 3 " gəmisi 1 gürcü patrul gəmisini batırdı. Bu, rus donanmasının 1945-ci ildə sonra ilk həqiqi hərbi əməliyyatı idi.

Avqust ayının 7-də Mixail Saakaşvili müharibəni başlamaq haqda verdiyi qərarının səbəblərini açıqladı. O, qeyd etdi ki, 2 səbəbdən hərbi əməliyyatlara başlamaq haqda qərar qəbul etmişdi: gürcü kəndlərini osetin işğalından xilas etmək və Cənubi Osetiyada konstitusyon rejimi bərpa etmək.[2] Daha sonra isə Saakaşvili bəyan etmişdi ki, hərbi əməliyyatların əsl məqsədi rus hücumunu dəf etmək idi. Avqustun 8-də BMT-nin Təhlükəsizlik Şurasında keçirilmiş iclasda Gürcüstan tərəfi bəyan etdi ki, Rus qoşunları Cənubi Osetiyaya avqustun 8-i səhər tezdən daxil olmuş, Roki keçidindən keçməklə Gürcüstan ərazisinə hücum etmişlər. "Şpigel" qəzetinə müsahibəsində Saakaşvili bildirmişdi ki, "əslində Gürcü qoşunlarının məqsədi ruslar gürcü kəndlərinə daxil olana qədər onları dayandırmaq idi. Artıq gürcü əsgərləri Tsxinvaliyə daxil olanda ruslar özləri şəhəri bombalamışdı".[6]

Rusiya bildirirdi ki, rus qoşunlarının başlıca məqsədi Cənubi Osetiya vətəndaşlarını və regiondakı sülhməramılarını qorumaq olub. Rusiyanın hərbi əməliyyatlarına haqq qazandıran Rusiya Xarici İşlər naziri qeyd etmişdi ki, "Rusiyanın özünü qorumaq üçün hərbi əməliyyatlara başlamaqdan başqa çarəsi yox idi".[12]

Qeyd edək ki, hərbi qarşıdurma beynəlxalq ictimaiyyət tərəfindən çox həssaslıqla izlənilirdi. Avqust ayının 10-da beynəlxalq müşahidəçilər sülh danışıqları təklifi ilə çıxış etdilər. Aİ və ABŞ qarışıq tərkibdə sülhyaratma missiyasının göndərilməsi təklifi ilə çıxış etdilər. Lakin Rusiya tərəfi bəyan etdi ki, Gürcüstan Cənubi Osetiyadan çıxdıqdan və Cənubi Osetiya, Abxaziya ilə hücum etməmək haqda saziş imzaladıqdan sonra sülh danışıqlarına başlayacaqdır.

Əslində, müahirbənin başlanmasında hansı tərəfin günahkar olması məsələsinə bir mənalı yanaşma yoxdur. Lakin bir çox qərb mütəxəssisləri və NATO rəsmiləri hesab edirlər ki, müharibəni Gürcüstan başlamışdır.

Lakin buna baxmayaraq, müharibə beynəlxalq ictimaiyyətin çox böyük narazılığına səbəb oldu. Birləşmiş Ştatlar və Böyük Britaniya birmənalı sürətdə Rusiyanın güc nümayiş etdirməsini pislədilər. Həmçinin Polşa, İsveç və Baltik dövlətləri də öz etirazını bildirdilər. Corc Buş bəyan etmişdi ki, "Müharibə və güc nümayişi XXI əsrdə xarici siyasətin alətinə çevrilə bilməz".[8] Eyni zamanda müharibədən dərhal sonra Polşa hökuməti ABŞ-ın Avropada Raket Əleyhinə Müdafiə sistemlərini yerləşdirmək planını dəstəklədiyini bildirdi və elə həmin ay ABŞ-la Polşa arasında sonuncunun ərazisində Raket Əleyhinə Müdafiə sistemlərinin raket hissələrinin yerləşdirilməsi haqda saziş imzalandı. Ümumiyyətlə, müharibə zamanı Rusiyaya qarşı ən sərt mövqe nümayiş etdirən Polşa hökuməti Rusiyanın Avropa Şurasındakı üzvlüyünə yenidən baxılması təklifi ilə də çıxış etdi.

İtaliya məsələ ilə bağlı tamamilə fərqli nümayiş etdirmişdi. İtaliya Xarici İşlər Naziri Franko Frattini bəyan etmişdi ki, "Biz Avropada anti-rusiya kompaniyası apara bilmərik. Rusiyanın Avropadan təcrid etmək bizim tərəfimizdən səhv addım olardı. Bu məsələdə biz cənab Putinin mövqeyi ilə razıyıq". Təbii ki, İtaliyanın məsələ ilə bağlı belə mötədil mövqe nümayiş etdirməsi iqtisadi məqamlarla bağlıdır. Belə ki, Rusiya-İtaliya arasında yanacaq sahəsində əməkdaşlıq hər iki tərəf üçün böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, tikintisi planlaşdırılan "Cənub Axını" qaz kəməri layihəsi böyük perspektivlərə malikdir. Həmçinin Fransa və Almaniya da Polşa və digər dövlətlərdən fərqli mövqe tutdular. Fransa, hətta vasitəçi missiyasını öz üzərinə

götürdü. Almaniya da özünün əsas yanacaq ixracatçısı ilə münqsibətlərini korlamaqdan çəkinmiş oldu.

Avqustun 12-də Rusiya Prezidenti Dmitri Medvedev bəyan etdi ki, "hərbi əməliyyatlar öz məqsədinə çatmışdır. Bölgədə sülh və mülki əhalinin təhlükəsizliyi təmin edilmişdir. İşğalçılar layiqli cavabını almışlar". Elə həmin gün Dmitri Medvedev AİNin sədri, Fransa Respublikası Prezidenti Nikolas Sarkozi ilə görüşmüşdür. Danışıqlar nəticəsində "6 bəndlik sülh planı" razılaşdırılmışdır. Həmin gecə Gürcüstan Prezidenti Mixail Saakaşvili planın mətni ilə razı olduğunu bildirmişdir. Əslində, Sarkozinin planı 4 bənddən ibarət idi. Son iki bənd Rusiya tərəfindən əlavə edilmişdir. Gürcüstan tərəfi planın mətninin dəyişdirlməsini istəsə də Sarkozi Saakaşvilini planla razılaşmağa razı salır. 14 avqustda Cənubi Osetiya Prezidenti Eduard Kokoyta və Abxaziya Prezidenti Sergey Bakapş sülh planını imzalayırlar.

Plan aşağıdakı 6 müddəanı özündə birləşdirirdi:

1. Hərbi əməliyyatlar bərpa edilməməlidir;
2. Qarşılıqlı düşmənçiliyə son qoyulmalıdır;
3. Humanitar yardımın təyinat məntəqəsinə çatmasına şərait yaradılmalıdır ("qaçqınların geri qayıtmasına şərait yaradılmalıdır" dəyişikliyi qəbul edilməmişdir);
4. Gürcüstan Silahlı Qüvvələri əvvəlki mövqelərinə doğru geri çəkilməlidirlər;
5. Rusiya Silahlı Qüvvələri münaqişədən əvvəlki mövqelərinə qayıtmalıdırlar. Beynəlxalq mexanizmlər tədbiq olunana qədər Rusiya Silahlı Qüvvələri sülhü təmin etmək üçün əlavə təhlükəsizlik tədbirləri görəcəkdir ("altı ay müddətində" dəyişikliyi qəbul edilməmişdir);
6. Cənubi Osetiya və Abxaziyanın gələcək statusunun və təhlükəsizlik təminatının müəyyən edilməsi üçün beynəlxalq müzakirələr aparılacaqdır ("BMT və ATƏTin qərarı əsasında" dəyişikliyi qəbul edilməmişdir).

Beynəlxalq münasibətlər sistemində çox böyük rezonans doğuran bu münaqişə başlandığı gündən etibarən dünya dövlətləri tərəfindən diqqətlə izlənilirdi. 2009-cu ilin aprel ayında Gürcüstanda 249 Aİ atəşkəs monitorinqi fəaliyyət göstərirdi. ATƏTin monitorinq mandatı yanvarın 1-də başa çatdı. Rusiyanın veto qoymasından sonra mandatın müddəti artırılmadı və qurum öz əməkdaşlarını bölgədən geri çağırdı. Rusiya tərəfi bildirdi ki, mandatın müddətinin uzadılması Rusiya qanunvericiliyinə ziddir. Çünki Rusiya tərəfi Cənubi Osetiyanın müstəqilliyini tanımışdı. Bölgədə BMT müşahidəçiləri isə qalmaqda idi. Onların mandat müddəti fevralın 14-nə kimi uzadılmışdı.[11]

Müharibədən sonra Rusiya tərəfi bəyan edərək bildirmişdi ki, 64 əsgər həlak olmuş, 283-ü isə yaralnmışdı. Gürcüstan tərəfinin itkiləri isə müvafiq olaraq 169 və 1964 idi. Eyni zamanda, hər iki tərəfdən yüzlərlə insan həlak olmuş, minlərlə insan yaralanmışdı. Human Rights Watch-un hesabatına əsasən hər iki tərəf beynəlxalq insan hüquqları və humanitar hüquqları kobud şəkildə pozmuşdur.

Gürcüstan tərəfi iddia edir ki, Rusiya ölkə ərazisindəki iqtisadi infrastrukturu və hava limanlarını da bombalamışdır. Xüsusilə, Gürcüstanın Qara Dənizdəki mühüm limanlarından olan Poti limanına böyük zərər dəymişdi. Eyni zamanda, Tbilisidən 50 km aralıda yerləşən və Şərqi Gürcüstanla Qərbi Gürcüstan arasında əlaqələndirici rolunu oynayan Kaspi dəmir yol stansiyası da dağıdılmışdı.

Beləliklə də, "hərbi şou" vasitəsilə Rusiya Avropa məkanındakı "dost" və "düşmənlərini" fərqləndirmək imkanı qazandı. Müharibə, eyni zamanda, avro-atlantik məkanda parçalanmanın olduğunu, iqtisadi mənfəətin "atlantizm" ideyalarından daha üstün olduğunu nümayiş etdirmiş oldu. Eyni zamanda, müharibədən bir müddət sonra, Rusiya hərbi dairələri bəyan etmişdi ki, müharibə zamanı Ukrayna Gürcüstana öz istehsalı olan silahlar vermişdir. Bu isə Ukrayna-Rusiya münasibətlərində gərginliyi artırmışdı. Hətta bəzi siyasi ekspertlər hesab edirlər ki, 2009-cu ilin yanvar ayında baş vermiş "qaz böhranı"nın əsas səbəbi də, məhz, müharibə zamanı Ukraynanın Gürcüstanı müdafiə etməsi, MDB daxilində "inteqrasiya plüralizmi"ni gücləndirən hərəkətlərə yol verməsidir. Avqustun 25-də Rusiya Federal Şurası Prezident Dmitri Medvedevdən Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımasını tələb etdi. Ertəsi gün isə Rusiya Prezidenti Dmitri Medvedev hər iki subyektin müstəqilliyinin tanınması haqda sənədi imzaladı. Televiziyayla xalqa müraciətində isə bildirdi ki, "Abxaziya və Cənubi Osetiyanın müstəqilliyinin tanınması yalnız insan həyatlarının qorunması məqsədi daşıyır". Bunu beynəlxalq hüququn kobudcasına pozulması kimi qiymətləndirən Gürcüstan hər iki ərazinin müstəqilliyinin tanınmasını Gürcüstan torpaqlarının işğalı adlandırdı. Daha sonra Abxaziya və Cənubi Osetiyanın müstəqilliyi 2008-ci ilin sentyabr ayının 5-də Nikaraqua, qondarma Dağlıq Qarabağ "Respublikası", Hizbullah və HAMAS təşkilatı tərəfindən də tanındı. 2009-cu ilin yanvar ayında isə Belarus Prezidenti Aleksandr Lukaşenko bəyan etdi ki, aprel ayının 2-də Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıyacaqdır. Lakin Aİ-nin təzyiqləri nəticəsində Belarus bu niyyətindən geri çəkilməli oldu. Belə ki, Aİ Belarusu "Şərq tərəfdaşlığı" planından çıxaracağını bildirdi. Siyasi şərhçi Peter Rutlandın fikrinə görə, Aİ yeni dövlətlərin müstəqilliyinin tanınmaması müqabilində Belorusa 2004-cü ildən tədbiq etdiyi Belorus rəsmilərinin Avropaya rəsmi səfərlərinə qoyulmuş qadağanı ləğv etdi. Abxaziya və Cənubi Osetiyanın Rusiya tərəfindən birtərəfli qaydada tanınması bir çox beynəlxalq qurumlar-NATO, ATƏT, Aİ, Avropa Kommisiyası, "Böyük səkkizlər"in Xarici İşlər Nazirləri, Ukrayna tərəfindən pisləndi.

Rusiya özünün Şanxay Əməkdaşlıq Təşkialtı üzrə müttəfiqlərindən dəstək gözləsə də, bu dəstəyi ala bilmədi. Belə ki, Çin də öz ərazisində separatizmdən əziyyət çəkdiyinə görə, Rusiyanın separatçı fəaliyyətinə dəstək verə bilmədi. Beləliklə də, hətta Rusiyanın ən yaxın müttəfiqləri belə Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımadılar.

Müharibədən dərhal sonra NATO Qara Dənizəki fəaliyyətini kəskin surətdə artırdı. NATO rəhbərliyi gəmilərin Gürcüstana yalnız humanitar yardım gətirdiyini bildirsələr də, Rusiya Prezdienti Dmitri Medvedev bildirdi ki, NATO regionda hərbi gərginliyi artırır və Gürcüstana hərbi ləvazimatlar gətirir. Rus generalı Anatoli Nogovitsin isə bildirdi ki, NATO 1936-cı il Montre müqaviləsi ilə Qara Dənizə nəzərdə tutulandan daha çox gəmi göndərmişdir.

Ümumiyyətlə, "Avqust böhranı" NATO-Rusiya münasibətlərinə soyuqluq gətirmiş oldu. 1997-ci ildən etibarən fəaliyyət göstərən NATO-Rusiya Şurasının fəaliyyəti dayandırıldı. Bir çox sahədə həyata keçirilməsi nəzərdə tutulan birgə layihələr ertələndi. Bununla yanaşı olaraq NATO, xüsusilə də, ABŞ Gürcüstanla iqtisadi-siyasi-hərbi sahədə əməkdaşlığını gücləndirmişdir. 2009-cu il may ayında NATO-nun Gürcüstanda

keçirilmiş hərbi təlimləri də bunu bir daha təsdiq etməkdədir. Lakin bütün bunlara baxmayaraq, məhz real müharibənin getdiyi dövrdə ABŞ-ın Gürcüstanı Rusiya qarşısında tək buraxdığını düşünməyə kifayət qədər əsas vardır. Hesab etmək olar ki, ABŞ və Qərb Gürcüstan vasitəsilə ilə Rusiyanın Cənubi Qafqaz regionu ilə bağlı mövqelərinin möhkəmləndirilməsində və əraziyə nəzarəti ələ keçirməkdə nə qədər israrlı olduğunu yoxlamaq niyyətini güdürdü. Hətta Qərb mediası da Gürcüstanın sabiq prezidenti M.Saakaşvilinin aciz durumda qalması haqqında informasiyaları ictimailəşdirmişdir.

Eyni zamanda, Rusiyanın Ümumdünya Ticarət Təşkilatına üzvülüyü məsələsində də problemlər meydana çıxdı. Belə ki, təşkilatın üzvü olan Gürcüstan Rusiyanın təşkilata üzvülüyü istiqamətində bir sıra problemlər çıxarmışdır. Bütövlükdə, "avqust böhranı" Rusiyanın müasir xarici siyasətinin mühüm məqamlarından biridir. Müharibənin başlanması səbəbləri, onun Rusiya xarici siyasəti üçün nəticələri haqda bir mənalı danışmaq mümkün deyil.

Hərbi əməliyyatlarla Rusiya, sanki, hərbi gücünü nümayiş etdirməyə çalışırdı. Rusiya üçün həyati əhəmiyyət kəsb edən, bir çox nəqliyyat, telekommunikasiya, enerji dəhlizlərinin keçdiyi, dünya dövlətlərinin maraqlarının kəsişdiyi Cənubi Qafqaz bölgəsindən asanlıqla, son döyüşsüz çıxmayacağını göstərirdi. Rusiyanın 2008-ci ilin avqustunda və sonrakı dövrlərdə sərgilədiyi mövqe və atdığı addımlar aydın göstərdi ki, o, Cənubi Qafqazda zəifləmiş mövqelərinin reabilitasiyasında israrlıdır. M. Saakaşvilinin hakimiyyəti dövründə Rusiya-Gürcüstan münasibətləri dərin gərginlik dövründən çıxmadı. Yalnız M.Saakaşvilinin hakimyyətdən getməsindən sonra Rusiya ilə Gürcüstan arasında müəyyən səviyyədə istiləşmə müşahidə olunmağa başladı. Hazırda Gürcüstan Qərbə inteqrasiyanın xarici siyasəti üçün prioritet olduğunu nümayiş etdirsə də, Rusiyanı qıcıqlandırmamaq üçün kifayət qədər ehtiyatlı davranır. Bundan başqa, o, Qərbdə siyasi, iqtisadi və hərbi strategiyalarını həyata keçirən zaman Rusiya amilini qismən də olsa nəzərə almağa başlamışdır.

QAYNAQLAR

1. Битва за Кавказ. //"Region plus". 1 марта 2007
2. Chivers C. J., Barry E. Georgia Claims on Russia War Called Into Question.// The New York Times. (6 November 2008).
3. Klussmann Uwe. Saakashvili under Pressure from EU Probe.// Der Spiegel. (2009-03-23)
4. Ghazarova Marine. The Study of the European Neighbourhood Policy: Methodological, Theoretical and Empirical Challenges, 2007, p.231
5. Rutland Peter, "A Green Light for Russia". 2008, p.78
6. The West Begins to doubt Georgian leader. "Der Spiegel", 15 September 2008
7. http://www.civil.ge/eng/article.php?id=19069 "Russia Endorses Six-Point Plan", 2008-08-12.
8. http://en.rian.ru/russia/20080917/116929528.html

9. http://www.caucasus.dk/chapter4.htm
10. http://www.independent.co.uk/news/world/europe/we-are-at-war-with-russia-declares-georgian-leader-889266.html
11. http://www.spiegel.de/international/world/0, 1518, 615160, 00.html
12. http://en.rian.ru/russia/20080917/116929528.html

Война между Россией и Грузией и ее влияние на политику России в регионе

Резюме

В научной статье рассматривается отношения между Россией и Грузией после распада Советского Союза. Для многих государств, таких как Соединенные Штаты Америки и Российской Федерации, этот регион имеет важнейшие геополитическое и геостратегическое значение. Отмечается, что после распада Советского Союза Грузия открыто демонстрировала заинтересованность в западной интеграции. Обосновывается, что Южный Кавказ превратился в поле боя между Западом и Россией. Поэтому в отношениях между Россией и Грузией с самого начала открыто наблюдалась глубокая напряженность. В статье аннализируются основные причины войны между Россией и Грузией. Также отмечается, что после августовской войны (2008) Запад стал в определенной степени учитывать российский фактор в своей региональной политике.

War between Russia and Georgia and its influence on the policy of Russia in the region

Summary

In the scientific article is considered the relations between Russia and Georgia after the collapse of the Soviet Union. This region has the major geopolitical and geostrategic importance for many states, such as the United States of America and the Russian Federation. It is noted that after the collapse of the Soviet Union Georgia openly showed an interest in the western integration. Proved that, South Caucasus turned into a battlefield between the West and Russia. Therefore deep intensity in the relations between Russia and Georgia was openly observed at the beginning. In article the main reasons for war between Russia and Georgia are analyzed. Also it is noted that after August war the West began to consider in a certain degree the Russian factor in the regional policy.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Tural HÜMBƏTOV

MÜASİR TERRORİZMİ DOĞURAN SOSİAL SƏBƏBLƏR

Açar sözlər: *terror, terrorizm, zorakılıq, qorxu, təzyiq, məqsəd, səbəblər.*
Ключевые слова: *террор, терроризм, насилие, страх, давление, цель, причины.*
Keywords: *terror, terrorism, violence, fear, pressure, purpose, reasons.*

Son onilliklər, xüsusilə də XXI əsrin başlanğıcında zorakılıq problemi dünya ictimaiyyəti üçün ciddi aktuallıq kəsb etməyə başlamışdır. hazırda terror aktları təkcə ekstremist qruplar və cinayətkarlar tərəfindən deyil, eyni zamanda bir sıra totalitar ölkələrdə terrorizm xüsusi xidmətlər tərəfindən hətta bir təzyiq vasitəsi kimi istifadə olunmaqdadır. Müasir terrorizm mürəkkəb sosial-iqtisadi hadisə olmaqla, milli sərhədləri aşır və planet əhalisi üçün ciddi təhlükəyə çevrilir. Terrorizmin daha təhlükəli xarakter almasını şərtləndirən əsas məqamlardan biri ondan ibarətdir ki, onun mahiyyətinə dair vahid yanaşma mövcud deyildir. Belə ki, hansı hadisənin terror aktı olmasını müəyyənləşdirən zaman əksər hallarda ideoloji məqamlardan çıxış olunur. Məsələn, ABŞ-da terrorizmin mahiyyətinə dair üç rəsmi yanaşma mövcuddur.[1, s.304] Təbii ki, bu, terrorizmin mahiyyəti haqqında aydın təsəvvürlərin formalaşması imkanlarını məhdudlaşdırmaqla yanaşı, ona qarşı mübarizənin səmərliliyini də ciddi şəkildə azaldır. Elmi ədəbiyyatda “terror” və “terrorizm” məhfumları bəzən fərqli mənalarda işlədilir. Bu məhfumları birləşdirən məqam isə, ondan ibarətdir ki, hər iki halda zorakılıq əsas təsir vasitəsi kimi tətbiq olunur. Zorakılıq təsir vasitəsi olaraq ayrı-ayrı şəxslərə, ictimai qruplara, hətta, siniflərə münasibətdə tətbiq olunur. [2, s.12]

Terrozmi siyasi mesaj, ultimatum forması kimi nəzərdən keçirmək mümkündür. Bu siyasi mesaj və ultimatum forması özünü müasir cəmiyyətin siyasi, iqtisadi və sosial müstəvilərində biruzə verə bilər. Yəni, terrorizmin əsasında dayanan motivlər onun siyasi, iqtisadi və sosial xarakterini üzə çıxarır. Son dövlərin təcrübəsi və ya müşahidələri isə göstərir ki, terror aktına bir vasitə kimi əl atılmasının səbəbləri rolunda getdikcə sosial amillər çıxış etməyə başlayır.

Terrorizmin mahiyyətinə dair yanaşmalar fərqli olsalar da, onların müəyyən ümumi cəhətlərinə əsasən bu zorakı təsir və təzyiq vasitəsi haqqında təsəvvürlərə malik olmaq mümkündür. Belə ki, çoxsaylı yanaşmalardan ümumi bir nəticə çıxararaq qeyd etmək olar ki, terrorizm siyasi məqsədlərlə motivləşdirilən zorakılıqdır. Terrorizm zorakılığın tətbiqi ilə hədələmə və ya tətbiqi ilə siyasi məqsədlər üçün qorxutma və ya məcburetmə üsuludur.[5, s.5]

Terrorizm bir metod kimi təkcə qanuni hakmiyyətin və ya millətin tarazlığını pozma vasitəsi kimi səciyyələndirilmir. Burada başlıca məqsəd həm də ondan ibarət olur ki, qanuni hakimiyyətin təhlükəsizlik şəraitində olmadığını nümayiş etdirməkdən iba-

rət olur. Bir qayda olaraq terror aktı əsas məqsədinə çata bilmədikdə, yəni, o istiqamətlənmiş olduğu obyektlərdə qorxu və vahimə yarada bilmirsə, onda sosial münaqişə obyekti kimi onun "əhəmiyyəti" itmiş olacaqdır. Təhlillər göstərir ki, terrorizmin siyasi və tarixi izahı bir çox hallarda onun mahiyyətini tam açmağa imkan vermir. Bu baxımdan, əksər hallarda terrorizmin mahiyyətini izah edən zaman sosial psixologiya prizmasından yanaşılır. Psixologiya çərçivəsində terrorizm probleminin təkcə hüquqi və mənəvi aspektləri nəzərdən keçirilmir. Bu zaman həm də bir insanı digər günahsız insanları öldürməyə sövq edən hansı psixoloji, şəxsi və sosial-psixoloji məqamların olması təhlil edilir. Əksər tədqiqatçıların fikrincə, psixoloji aspektdə terrorizmin öyrənilməsi insan aqressivliyi nəzəriyyəsi ilə sıx şəkildə bağlıdır. Bundan əlavə terrorizmin ideya-mənəvi aspektlərinin nəzərdən keçirilməsi vacib əhəmiyyət kəsb edir. Belə yanaşma, "qeyri-insani" hadisənin sosial motivlərinin və ümumiyyətlə mahiyyətinin daha dərindən dərk edilməsini şərtləndirir.[4, s.44-45]

Terrorizm problemini nəzərdən keçirərkən terroru törədənin, yəni, terrorçunun şəxsiyyətinə diqqət yetirilməsi məsələsi də olduqca vacibdir. Tədqiqatçılar bu zaman terrorçular arasında daha tez-tez rast gəlinən psixoloji tipin olduğunu qeyd edirlər. Birinci tiplər özlərinin yüksək intellektual səviyyələri ilə seçilirlər. Belə tiplər də özləri haqqında yüksək fikirdə olurlar və özlərini təsdiq etmək üçün əksər hallarda terrorizmi bir vasitə kimi görürlər. İkinci psixoloji tiplər isə zəif özünüqiymətləndirməyə və aşağı intellektual səviyyəyə malik olurlar. Bunun əksini sübut etmək üçün terroz aktı törətməyə daha meylli olurlar. Hər iki psixoloji tipi birləşdirən məqam ondan ibarətdir ki, hər ikisində yüksək aqressivlik olur.[4, s.45] Terrorizmi şərtləndirən digər mühüm motivlərdən biri ondan ibarətdir ki, o, şəxsi identikliyin möhkəmləndirilməsinin əsas vasitələrindən biri kimi nəzərdən keçirilir. Yəni, şəxsi identikliyin möhkəmləndirilməsi şəxslə qrup arasında mənsubluq bağlantısını sübut edir. Bu zaman özünü qrupun ayrılmaz hissəsi kimi hiss edən şəxs terrorizmi vasitə kimi seçərkən müəyyən marginal motivlərdən çıxış edir. Belə ki, terrorun yönəldildiyi hədəfləri özlərinin sosial problemlərinin əsas səbəbkarı kimi nəzərdən keçirirlər. Hesab etmək olar ki, ümumilikdə dünyaya ümumi baxış tərzi terrorçuları birləşdirən əsas amil rolunda çıxış edir. Bəzən cəmiyyətdəki uğursuzluqlar müasir terrorizmin əsas sosial və psixoloji səbəbləri kimi nəzərdən keçirilir. Tədqiqatçıların fikrincə, məhz sosial-psixoloji səbəblər ayrı-aryı şəxsləri terror aktını törətməyə ən çox spvq edən amillərdəndir.

Törədilmiş əksər terror aktlarını dərindən təhlil etsək, əmin olarıq ki, terrorçuların əsas məqsədlərindən biri cəmiyyətin diqqətini cəlb etməkdən, hətta onun simpatiyasını qazanmaqdan ibarət olur. Bu baxımdan hesab etmək olar ki, terrorçular əksər hallarda özünüməhvə deyil, reklama can atırlar. Onu da qeyd edək ki, kütləvi informasiya vasitələri olmadan, terrorçuların öz tələblərini hakimiyyət orqanlarına bildirmək şansları qeyri-mümkündür. Çünki, cəmiyyət üzvlərinin törədilmiş terror aktına reaksiyası daha zəif olardı ki, bu terrorçularının əsas məqsədləri ilə ziddiyyət təşkil edir. Bu baxımdam terror aktının törədilməsi zamanı onun haqqında informasiya maksimum aydın və geniş yayılması xüsusi diqqət mərkəzində saxlanılır. Əksər hallarda terrorçular və ya terrorçu təşkilatı cəmiyyət üzvlərinin daha çox diqqətini cəlb etmək məqsədi ilə zorakılıq hərəkətlərini sosial motivlərlə əsaslandırırlar.[3, s.56]

Ümumiyyətlə terrorizmi meydana gətirən səbəblər ətrafında ciddi müzakirələr aparılmaqdadır. Ümumi səbəblər sırasında əsasən sosial kataklizmlər və sosial və iqtisadi münasibətlərin yenidən qurulması dövründə dövlət hakimiyyətinin zəifliyi əsas məqam kimi qeyd olunur. Belə olan halda hakimiyyət bir qayda olaraq etnokonfesional və separatçı zorakılıq hərakatlarını neytrallaşdırmaq, dəf etmək iqtidarında olmur. Müasir mərhələdə rast gəlinən terror aktlarının səciyyəvi xüsusiyyətlərindən çıxış edərək onun bir sıra ciddi sosial səbəblərini üzə çıxarmaq mümkündür. Ümumi şəkildə qeyd edə bilərik ki, sosial, iqtisadi, dini və digər problemlərin öz həllini tapmaması ayrı-ayrı etnik və dini qrupları terrorizmə sövq edir. Əksər hallarda bu və ya digər etnik qrup həyat resurslarının və təbii sərvətlərin yenidən bölgüsünə nail olmaq məqsədi ilə terror aktları törətməyə üstünlük verirlər. Bu zaman məqsəd hakimiyyəti onlar maraqları çərçivəsində davranmağa məcbur etməkdən ibarətdir. Bir çox hallarda isə etnik və dini sərhədlərin üst-üstə düşməməsi bir millətin digərinə qarşı müəyyən, həmçinin sosial xarakterli iddialarla çıxış etməsinə əsas yaradır. Belə olan halda da təzyiq və təsir vasitəsi kimi yenə terrozimə üstünlük verilir. Müasir terrorizmi şərtləndirən sosial səbəblər sırasında işsizliyin artması və ciddi iqtisadi problemlərin meydana gəlməsi daha çox diqqət mərkəzində olur. Bu özünü bir qayda olaraq daha çox müxtəlif etnosların nümayəndələrinin, dinin təmsilçilərinin yaşadığı iri şəhərlərdə biruzə verir. İşsizliyin hökum sürdüyü, ümumiyyətlə sosial təminatın zəif olduğu hallarda azlıq təşkil edən etnos və din nümayəndələri öz mövqelərini möhkəmləndirmək üçün bu amillərdən istifadə edirlər. Bu zaman əlavə təsir və təzyiq vasitəsi kimi terrorizmdən də geniş istifadə olunur.

Beləliklə, müasir terrorizm özünün mürəkkəb təbiəti və məna çalarlarının çoxluğu ilə fərqlənir. Terrorizmin mahiyyətinə dair universal yanaşmanın olmaması ona qarşı səmərəli mübarizə aparmağa imkan vermir. Müasir terrorizmin müxtəlif səbəbləri mövcuddur. Lakin bu səbəblər arasında sosial amillərin xüsusi çəkisi daha artıqdır və bu, getdikcə daha aydın müşahidə olunmaqdadır.

QAYNAQLAR

1. Mirbəşir oğlu E. Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli. Bakı, “Elm”, 2009, 524s.(304)
2. Климаченкова В. О. Современный терроризм: понятие, условия и причины//Известия Пензенского государственного педагогического университета им. В.Г. Белинского. №07, 2007, с. 12-16(с.12)
3. Кота А. Эпоха терроризма // Международный терроризм и право. М., 2004, с. 56
4. Психологи о терроризме (материалы «круглого стола») // Психологический журнал. 2013, №4, с. 37-48
5. Терроризм в современном мире. Опыт междисципли-нарного анализа: Материалы «круглого стола» // Воп-росы философии. 2005. №6. С. 3-36.(с.5)

Турал ГУМБАТОВ

Социальные причины современного терроризма

Резюме

В научной статье рассматривается характерные черты и социальные причины современного терроризма. Отмечается, современный терроризм характеризуется своей сложной природой. Существует широкий круг подходов к сущности терроризма. Это отрицательно влияет на эффективность борьбы с современным терроризмом. Также отмечается, что на основе современного терроризма стоят причины различного характера. Со временем социальные причины терроризма приобретают более яркую актуальность.

Tural HUMBATOV

Social reasons of modern terrorism

Summary

In the scientific article is considered characteristic features and the social reasons of modern terrorism. It is noted, the modern terrorism is characterized by the difficult nature. There is a wide range of approaches to essence of terrorism. It negatively influences efficiency of fight against modern terrorism. Also it is noted that on the basis of modern terrorism there are reasons of various character. Over time the social reasons of terrorism gain brighter relevance.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Vüsal ALIYEV
Azərbaycan Turizm və Menecment Universiteti
Marketinq kafedrasının 2 -ci kurs magistrantı
vusal513@mail.ru

ŞAHDAĞ TURİZM MƏRKƏZİNİN ÖLKƏNİN QIŞ TURİZMİNİN İNKİŞAFINDA ROLU

Açar sözlər: *Turizm, Şahdağ kompleksi, Qafqaz dağları, Şahdağ oteli, qış turizmi, Azərbaycan turizmi*
Ключевые слова: *туризм, Шахдаг комплекс, Кавказские горы, Шахдаг отели, зимний туризм, туризм Азербайджана*
Key words: *tourism, Shahdag complex, Caucasus Mountains, Shahdag hotels, winter tourism, Azerbaijan tourism*

Azərbaycan ərazisində turizmin inkişaf meylləri əsasən mövsümilik amilinin təsiri ilə zəif inkişaf edir. Ərazi daxilində çimərlik turizminin inkişaf etməsi, daxili turizm iştirakçılarının müxtəlif regionlara yalnız yay aylarında getməsi buna səbəb olan əsas meyarlardan hesab olunur. Paytaxt Bakı şəhərinə gələn şəxslərin əksəriyyəti isə səyahətlərini işgüzar səfərlər və görüşlərin keçirilməsi ilə əlaqədar reallaşdırır. Bu kimi bir sıra problemlərin meydana çıxması nəticəsində turistlərin ölkəyə gəlmə tendensiyası digər ölkələrlə müqayisədə olduqca aşağı səviyyədədir. Məhz buna görə də hər bir ölkə kimi Azərbaycan Respublikası da qış turizminin inkişafını dəstəkləyir və qeyri neft sektoru sayılan turizmdən daha çox gəlirin əldə olunması üçün öz layihələrini həyata keçirir. Dünya ölkələrində turistlərin əksəriyyəti qış mövsümü ərzində dağ -idman turizmi ilə əlaqədar olaraq məşhur kurortlarına müraciət edirlər. Xüsusən Avropa regionu bu istiqamətdə daha yaxşı inkişaf edir və hazırda Avstriya, İtaliya, Fransa, İsveçrə, Almaniya kimi ölkələr siyahıda ilkin yerlərdən birini tutur. Şərqi Avropa ölkələri, Şimali Avropa ölkələri, Türkiyə, ABŞ kimi ölkələr də müəyyən yeniliklər edərək turizm bazarından öz paylarını götürməyə çalışır. Turizmin davamlı inkişafını izləyən Azərbaycan öz ərazisində mövcud olan dağlıq potensialdan istifadə edərək yüksək standartlara cavab verən infrastruktur, əla təmin edilmiş yol, komfortlu otellər və turist bazalarını istismara vermək qərarına gəldi. Azərbaycanda mövsümilik amilinin aradan qaldırılması və mövcud potensial imkanlarımızdan yararlanmaq üçün ilkin araşdırmalar Qusarın Şahdağ ərazisində aparıldı. Nəticədə Şahdağ Milli parkı ərazisində Şahdağ qış-yay turizm -idman kompleksinin açılması barəsində qərar verilərək, 8-10 il ərzində aparılacaq tikinti prosesi 4 mərhələyə bölündü. 2011-ci ilin fevralında Prezident İlham Əliyev kompleksin 2 nömrəli kanat yolunun və xizək enişinin açılı-

şında iştirak etdi. 17 fevral 2012-ci ildə Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Şahdağ qış-yay turizm kompleksinin tikintisinin birinci mərhələsi üzrə tamamlama işləri ilə tanış oldular. İrəli sürülən fikirlərə əsasən obyekt gün ərzində 10 000 şəxsin qəbulunu reallaşdıra bilər İlkin dövrlərdə turizm kompleksində dörd ulduz təsnifat sisteminə daxil edilmiş "Zirvə" və üç ulduz sayılan "Qaya evləri" adlı yerləşmə müəssisəsi fəaliyyət göstərsə də, 2013-cü ildən etibarən daha iki otel bu sıraya qoşuldu. "Pik palace Şahdağ" və "Şahdağ otel və Spa" adlanan bu yerləşmə müəssisələri də turistlərin ixtiyarına verilmişdir. Şahdağ qış-yay turizm-idman kompleksinin tikintisi zamanı nəinki böyüklər, eyni zamanda azyaşlılar da nəzərə alınmış və onlar üçün də ayrıca bölmə hazırlanaraq istifadəyə verilmişdir. Ərazidə xizəklərin satın alınması məqsədi ilə nəzərdə tutulmuş mağazanın olması ilə yanaşı, onların kirayə verilməsi də həyata keçirilir. Lakin xizəklərin kirayə verilməsi ilə bağlı ən böyük problemlər həftə sonları yaşanır. Bunun əsl səbəbi isə xarici turistlərlə yanaşı daxili turizmin də iştirakçılarının həftə sonlarını burada dincəlməyə gəlməsidir, nəticədə yaranan sıxlığın aradan qaldırılması mümkün olmur. Verilən əşyalarda çatışmazlığın olması, növbədənkənar halların yaşanması, böyük vaxt itkisinin müşahidə olunması və s. kimi problemlərin hər biri şəxslərin bu obyekti narazı halda tərk etməsinə səbəb olur. Məhz bu səbəbdəndir ki, istirahət kompleksinə getməmişdən əvvəl onlarla əlaqə yaradaraq sizə lazım olan avadanlıqları, düzgün ölçüləri ilə birlikdə tələb etmək lazımdır. Xizəklərin sürülməsi ilə əlaqədar olaraq müxtəlif mütəxəssislərin bura cəlb olunması əhəmiyyətli amillərdən biridir. Kanat yollarından istifadə, biletlərin satış prosesinin komputerlərlə həyata keçirilməsi, yeni texnologiyalardan istifadəni əks elətdirsə də, işləyən şəxslərin əksəriyyətinin Azərbaycan dilini ümumiyyətlə bilməməsi təəssüf hissi yaradır. Ölkənin müxtəlif regionlarında bu kimi yüksək infrastruktura malik müəssisələrin açılması kənd əhalisinin işlə təmin olunması, yaşayış səviyyəsinin yüksəlməsi və xüsusən də yerli sakinlərin şəhərə axının qarşısının alması ilə nəticələnir. Bu da turizm sektorunun inkişafı nəticəsində regionların və ümumilikdə dövlətin əldə etdiyi gəlirin bariz nümunəsidir. Turizmin inkişafı dedikdə kadr probleminin aradan qaldırılması, müxtəlif dillərin bilinməsi, işçi heyətin kommunikativ bacarıqlara sahib olması və s. kimi meyarlar nəzərə alınsa da, öz dilində danışmağı bacarmamaq nəzərdə tutulmur. Bu da Şahdağ qış- yay turizm kompleksində daxili turizmin iştirakçıları ilə kommunikasiyanın qurulması zamanı bir sıra probleml və anlaşılmazlıqların meydana çıxması ilə nəticələnir. Kompleks daxilində fəaliyyət göstərən şəxslərin əksəriyyəti yerli sakinlərdən olması müsbət hal kimi dəyərləndirilsə də, xidmətin təşkil olunması zamanı yalnız rus dilindən istifadə edilməsi, hətta daxili turizmin iştirakçılarını da buna təşviq etmək xoş qarşılanmayan faktlardan biridir. Turistlər üçün nəzərdə tutulmuş qidalanmanın təşkili həm xizəklərin sürülməsi üçün nəzərdə tutulan trasların kənarında, həm də otellərin daxilindəki restoranlarda reallaşdırılır. Lakin çox təəssüflə qeyd etmək lazımdır ki, otellərin tərkibində mövcud olan menyuların çeşid fərqliliyi olduqca azdır və gün boyunca onlarda heç bir dəyişiklik həyata keçirilmir. Menyuda təqdim olunan təamlar say hesabına görə 15-dən artıq olmamaqla yanaşı, günorta və axşam üçün nəzərdə tutulmuş menyu sistemi də eynilik daşıyır. Bu da gün boyunca insanların qəbul etdikləri qida rasionunun təkrarına yol açmaqla yanaşı, onların otel restoranlarından imtina etməsi ilə nəticələnir. Eyni zamanda men-

yunun hazırlanması zamanı nəzərə almaq lazımdır ki, Qusar rayonu ərazisində yerləşən Şahdağ qış-yay turizm kompleksi Bakı şəhərinə çox yaxınlıqda yerləşir və bura gələn şəxslərin əksəriyyəti məhz daxili turizmin iştirakçılarıdır. Deməli, menyudakı qidaları müəyyənləşdirərkən onların arasına Azərbaycan mətbəxinin nümunələrini də yerləşdirmək məqsədəuyğun olardı. Lakin hazırkı dövrdə fəaliyyət göstərən "Zirvə" otelinin menyusunda müxtəlif xarici mətbəxlərin nümunələri öz əskini tapsa da bir dənə də olsun Azərbaycan mətbəxindən olan təama yer verilməyib. Nəzərə alsaq ki, Azərbaycan bir ölkə kimi hazırkı dövrdə dünya ölkələri arasında öz mədəniyyətini və mətbəxini tanıtmağa çalışır, deməli, bu kimi xırdalıqlara diqqət yetirilməli və mövcud səhvlərin aradan qaldırlımasında vaxt itirməməlidir. Şahdağ qış-yay turizm-idman kompleksində hazırkı dövrdə də bir sıra yenidənqurma və tikinti işləri davam etdirilir. Turizm agentlikləri də həftə sonları bura təşkil olunan birgünlük turlar vasitəsilə ilə az büdcəyə malik olan şəxslər üçün müəyyən təkliflər hazırlayır. Azərbaycanda ilk açılan bu tipli müəssisə olmasını nəzərə alaraq bu kimi problemlərin mövcudluğu mümkündür və buna görə də qısa zaman kəsiyində bunların həll olunması bazara yeni daxil olan müəssisələrlə rəqabət zamanı önə çıxmağa təsir göstərə bilər. Şahdağ qış-yay turizm-idman kompleksi ərazisində həyata keçirilən bütün endirimlər və reklam nümayişləri yalnız qış mövsümü üçün nəzərdə tutulmuşdur. Kompleks qış mövsümü müddətində təxminən 3 aylıq öz xidmətini bütün turistlərə təklif etsə də, qarların yağması və havanın dəyişməsi ilə əlaqədar olaraq müddətin uzanması da mümkündür. Lakin bu kimi nəhəng infrastruktura malik olan müəssisələrin yalnız ilin müəyyən aylarında fəaliyyət göstərməsi və tanıdılması həyata keçirməsi mənfi hallardan biridir. Yay mövsümündə də endirimlərdən yararlanmaq istəyən şəxslər, dağ qoynunda, təbiətlə birbaşa əlaqədə olaraq bunu reallaşdırmaq iqtidarına malikdir. Sadəcə olaraq bunun üçün ilkin addımların atılmasına ehtiyac var. Şahdağ qış-yay turizm kompleksini daha da inkişaf etdirmək üçün aşağıdakı təkliflərin nəzərə alınması məqsədəuyğundur:

- Bütün işçilərin müxtəlif dillərdə danışması ilə yanaşı doğma dilin də öyrənilməsi.
- Yerləşmə müəssisələrində şikayətlərin nəzərə alınması üçün rəy və təkliflər kitabının olması.
- Qidalanma ilə bağlı çox çeşidli menyuların tərtib olunması.
- Həftə sonlarında işçi heyətin sayında artım istiqamətli dəyişikliyin edilməsi.
- Yay ayları üçün nəzərdə tutulan tanıdılmanın həyata keçirilməsi.
- Sosial şəbəkələrdən istifadəni daha da genişləndirərək,müxtəlif yaş qrupuna aid edilən şəxslərin turlara cəlb olunması

QAYNAQLAR

1. Бородин В. В. Анализ социально-экономической эффективности туризма. Москва, Риор Инфра, М, 1996 г, 229 стр.
2. Драчева Е. Л., Забаев Ю. В., Исмаев Д. К. и др. Экономика и организация туризма. Международный туризм. Москва, Кнорус, 2006, 565 стр.
3. Gusar. Baku, Golden Book 2014, 67 p.
4. Shahdag. Baku, Golden Book 2013, 35 p.
5. Silk Way Travel. Baku, 2013, 126 p.

Роль туристического центра Шахдаг в развитии зимнего туризма в стране

Резюме

На протяжении веков северо-восточный угол Азербайджана служил в качестве ворот между Европой и Ближним Востоком. Здесь, в тени величественных гор Кавказа прячется невыразая естественная красота. Нетронутые ледники и глубокие овраги, потрясающие горные озера и каньоны и экологическая сокровищница растений и животных. Это Шахдаг во всей своей красе. Шахдаг колеблется от зимних минимумов -20 ° С до приятных летних вечеров 20 ° С. Несравнима место для одного из крупнейших в мире национальных парков, и в нем, одна из крупнейших в регионе горнолыжных курортов.

Shahdagh Tourism Center 's role in the development of winter tourism in the country

Summary

Across the centuries, the north-east corner of Azerbaijan has served as the gateway between Europe and the Middle East. Here, in the shadow of the majestic Caucasus Mountains, hides untold natural beauty. Pristine glaciers and deep ravines, stunning mountain lakes and canyons, and an ecological treasure trove of plants and animals. This is Shahdag in its entire splendor. Shahdag ranges from winter lows of -20°C to pleasant summer evenings of 20°C. An incomparable location for one of the world’s largest national parks, and within it, one of the region’s largest ski resorts.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Taleh ƏSƏDOV

ŞƏBƏKƏ OTELLƏRİNİN YAYILMASI

Açar sözlər: *Mehmanxana, otel, mehmanxana şəbəkələri, mehmanxana təsərrüfatı, turizm bazarı, mehmanxana sənayesi.*

Мещманхана тясяррцфатынын эялясяк инкишафы онун глобаллашмасыиля баьлыдыр. Бу сащядя фяалиййят эюстярян ширкятляр юз юлкялярисярщядляриндян харися чыхмадан инкишаф едя билмяз. Бейнялхалг мещманхана корпорасийаларынын инкишафы 70-си иллярин ахырында «Боинг-707» вя «Боинг-747» тяййаряляринин мейдана чыхмасы иля ялагядардыр. Озаман бейнялхалг туризмдя сцрятли инкишаф вар иди ки, бу да бейнялхалг мещманхана шябякяляринин йаранмасына сябяб олмушдур.[3]

Мещманхана шябякяляри (ики вя даща чох) мещманхана групларындан ибарят олур, коллектив бизнеси щяйата кечирир вя ващид рящбярлийиннязаряти алтында фяалиййят эюстярир. Мещманхана шябякяляринин рящбярлийи мещманханаларын щяр щансы бир фяалиййятиндян эялир эютцряряк цстцнлцкялдя едир, ейни заманда, иш просесиндя нюгсанларын мясулиййятини дядашыйыр. Шябякялярин йаранмасы дцнйа базарына йцксяк сявиййяли, бейнялхалг стандартлара уйьун мещманхана хидмятляринин чыхарылмасына шяраит йарадыр. Турист хариси юлкядя она таныш олан ширкятин мещманханасында юзцнц ращат вя евиндяки кими щисс едир.[2]

Бейнялхалг мещманхана шябякяляринин бюйцк бир гисми АБШ-амяхсусдур. Бу, лцкс дярясяли мещманхана шябякяляри олан «Щйатт», «Щилтон», «Wест Інн» вя орта дярясяли мещманхана шябякяляри олан «ЩолидайІнн», «Мариотт», «Sheратон», «Рамада» вя башгаларындан ибарятдир.

Инкишаф етмякдя олан юлкялярдя АБШ мещманхана идаряетмятясрцбясиня бюйцк ещтийас вар иди.

АБШ 1948-си илдя Латын Америкасы юлкяляринин игтисадиййатынын инкишафы мягсядиля бу юлкялярдя юз филиалларыны ачмаг вя отелляр тикмяк цчцн бирнечя мещманхана ширкятиня мцрасият едир. Йалныз 1950-си иллярин ахырларында «Pan American Airways» ширкяти буна разылыг верир. Беляликля, онун«Интерсонтинентал Щотелс» адланан филиаллары Венесуелла, Бразилийа, Уругвай, Чили, Колумбийа, Мексика вя Латын Америкасынын диэяр юлкяляриндя йараныр. Артыг 1981-си илдя дцнйанын 50 юлкясиндя бу типли 85 отелйайылмышды. Сонралар «Пан Америсан» юз мещманхана шябякясини «Саисан Жапанеесе Сорпоратион» ширкятиня, о да, юз нювбясиндя,

бумещманхана шябякясини «Эранд Метропелитан» ширкятиня сатмышдыр.[3]

Конрад Щилтон бейнялхалг мещманхана базарыны мянимсяйян илклидерлярдян бири иди. О, 1948-си илдя Сан Хуанда (Пуерто-Рико) «СарибеЩилтон» отелинин идарячилийини яля кечирир. Щилтон юз рягибляринигабаглайараг бу мцгавиляни баьлайыр. Бу ишдя она испан дилини билмяси дякюмяк етмишдир. Артыг 1974-сц илдя Щилтон 31 дювлятдя йерляшян 61 (23 263нюмря) мещманханайа рящбярлик едирди. Щазырда «Щилтон Интернатионал» Бюйцк Британийанын «Ладброкс Эроуп ПЛЪ» ширкятиня мяхсусдур.[6]

«Сщератон Щотел Ъорпоратион ИТТ» ширкятинин дцнйанын 62 юлкясиндя 420-dən çox мещманханасы вар. Бу мещманханаларда нюмрялярин сайы 132000-ə çatır. Юз ямялиййатларына görə Sheraton йалныз Франсанын «Эроуп Ассор» ширкятиндян эери галыр. АБШ мещманхана шябякяляри системиндян башга, дцнйанын мещманхана шябякяляриня ашаьыдакы ширкятляр дахилдир:

- «Ассор» (Франса)-80 000 нюмряси олан 700 мещманхана;
- «Trunsthouse Fort» (Бюйцк Британийа)-70 000 нюмряси олан 800 мещманхана;
- «Слуб Медитранс» (Франса)-61 000 нюмряси олан 243 мещманхана;
- «Групп Сол» (Испанийа)-34 000 нюмряси олан 133 мещманхана вя башгалары (сядвял 2).

Сон онилликдя мещманхана сянайесинин инкишафы мейлиня ашаьыдакылары аид етмяк олар:

- Мещманхана тяклиф вя тяляблярининдяриндян ихтисаслашмасы;
- Вейнялхалг мещманхана шябякяляринин йаранмасы;
- Кичик мцяссися шябякяляринин инкишафы;
- Мещманхана сянайесиндя мцасир компцтер технолоэийасынын истифадяси.

Бейнялхалг Мещманхана Ассосиасийасы мещманхана шябякялярини3 група бюлцр:

1. Кооператив шябякяляр-чохсайлы мцяссисяляря сащиб олан мещманхана ширкятляри;
2. Мцстягил мцяссисяляр шябякяси-бу мцяссисяляр бирляшяряк ващид бронлашдырма, реклам, маркетинг вя с. хидмятляр сийасятийеридир;
3. Идаряедиси хидмятляр эюстярян мещманхана шябякяляри.

Мцхтялиф мещманханаларын хидмятляринин ейнилийи, гонаглар цчцнялверишли гиймятлярин, хидмятлярин кейфиййяти, комфорт нюмряляр вя с.Мещманхана шябякяляринин мцвяффягиййятинин ясас эюстярисиляридир.

Мещманхана шябякясиня дахил олан щяр бир мцяссися шябякя нишаныалтында фяалиййят эюстярир. Юз фирма нишанларына сидди ямял едян мещманханаларын цстцнлцйц ондан ибарятдир ки, ейни нишанлы мцяссисяляринмцштяриляринин бу мещманханаларда (щансы юлкядя йерляшмясиндян асылыоламайараг) тягдим олунан хидмятляр щаггында кифайят гядяртясяввцрляри олур. Бу систем шябякяляря имкан верир ки, йени

мещманханалар фяалиййятя башламаздан яввял онларын рекламыны щяйата кечирсин вя яввялсядян сифариш гябул етсин.[4]

Cədvəl 1. Dünyanın ən iri mehmanxana şəbəkəsi.[2]

№	Mehmanxana şəbəkəsinin adı	Mənzil-qərargahın yerləşdiyi şəhər, ölkə	Nömrələrin sayı	Mahman xanaların sayı
1	HFS Inc	Parsippani, ABŞ	490000	5300
2	Holiday Inn Worldwide	Atlanta, ABŞ	386323	2260
3	Best Western International	Feniks, ABŞ	295305	3654
4	Accor	Evri, Fransa	279145	2465
5	Choice Hotels Internati-onal	Silber Sprinqs, ABŞ	271812	3197
6	Marriott International	Vaşinqton, ABŞ	251425	1268
7	Itt Sheraton Corp	Boston, ABŞ	130528	413
8	Promus Cos	Memfis, ABŞ	105930	809
9	Hilton Hotels Corp	Beverli Hills, ABŞ	101000	245
10	Carlson Hospitality Worldwide	Minneapolis, ABŞ	91777	437
11	Hyatt Hotels/Hyatt International	Çikaqo, ABŞ	80958	176
12	Inter-Continental Hotels	London, Böyük Britaniya	69632	193
13	Hilton International	Uatford, Böyük Britaniya	51305	160
14	Qrupo Sol Meliq	Palmade, Malyorka, İspaniya	47371	203
15	Forte Hotels	London, Böyük Britaniya	46847	259
16	Doubletree Hotels	Feniks, ABŞ	28501	166
17	Westin Hotels & Resorts	Sietl, ABŞ	42897	97
18	Club Mediterrace SA	Paris, Fransa	37906	133
19	Societe du Louvre	Paris, Fransa	36059	567
20	La Quintrq Inns	San-Antonio, ABŞ	32096	249

Сон заманларда МДБ юлкяляриндя мещманхана шябякяляринин йарадылма мейли инкишаф едир. Беля ки, 1997-си илин октйабрында Москвада Русийа мещманхана шябякяси-«Норд-Щотел» йарадылмышдыр. Бу шябякяйя кюнцллц олараг пайтахт Москванын шимал-шярг даирясинин 12 мещманханасы дахил олмушдур. Онлар мцхтялиф мцлкиййят формасына малик идиляр. Бу мещманханалар «Алтай», «Байкал», «Восток», «Зарйа», «Останкино», «Золотой Голос», «Турист», «Йарославскайа», «Звезднайа» вя башгаларыиди. Сабиг ССРИ мяканында юлкядя йеэаня мещманханалар шябякяси «Интурист» Сящмдар Сямиййяти иди. О, 1970-си илдя дцнйада 23-сц йери тутурду. «Интурист» 27 мин нюмряйя малик иди. Бакыда «Интурист» Сящмдар

Сямиййятинин цч мещманханасы вар иди. Бунлар «Азярбайсан», «Москва»вя «Интурист» мещманханалары иди.

Щал-щазырда Русийада юзял мещманхана шябякяси йарадылыб. Бу, «Интурист-Корона» вя «Интуротел-Авроасийа» шябякясидир.[1]

Бакыда фяалиййят эюстярян «Hyatt Regency Баку» (160 нюмря), «Щйатт Парк Баку» (159 нюмря), «Плаза-Бакы» (40 нюмря), «Wеллинэтон-Бакы» (80 нюмря) мцхтялиф мещманхана шябякяляриня дахилдир.

Мещманхана шябякяляриндян фяргли олараг, дцнйа туризмбазарында диэяр хцсуси бирляшмяляр, иттифаглар, ассосиасийалар да активфяалиййят эюстярирляр. Бу ассосиасийаларын ясас мягсяди мяшщур вяфярглянмиш мещманханалары бирляшдирмякдир.

Авропада мещманхана шябякяляринин, мцстягил мещманханаларвя ресторанлар ассосиасийаларынын фяалиййятинин координасийа олунмасыпроблемляри иля Авропа Игтисади Бирлийинин Милли Мещманханалар вяРесторанлар Ассосиасийаларынын Конфедерасийасы (ЩОТРЕК) мяшьул олур.

Тясрцбя эюстярир ки, тякся мещманхана шябякяляринин инкишафычохсайлы туристлярин истяк вя арзуларынын юдянилмясини тямин етмир вя бу, кичик мцстягил мещманханаларын йаранмасына сябяб олур.

Бу кичик мещманханалар ясас цстцнлцйц тякраролунмаз хидмятляря, надирлийя вя гейри-адилийя верирляр. Мящз бунлары мцтяхяссисляр XXIясрин мещманханалары щесаб едирляр. Мясялян, кичик кянд цслубундатикилмиш, ялверишли гиймятлярля, иш вя истиращят цчцн бцтцн шяраити олан, рестораны олмайан (йахын яразидя йерляшян ресторанда мцштяриляр нязакятливя йцксяк хидмят ала билирляр) кичик мещманханаларын надирлийи, гейри-адилийи, хидмят кейфиййяти базар игтисадиййаты шяраитиндя мещманхана сянайесиндя рягабятя давам эятиря биляр. Кичик мещманханалар адятян мцстягилдир, сащибляринин там мцлкиййятидир вя бцтцн эялир она мяхсусдур.[5]

Авропада нящянэ мещманхана империйалары явязиня кюнцллц шябякяляр йаратмаьа даща мейилли олан яняняви мещманханаларын сайыцстцнлцк тяшкил едир.

Щазырда дцнйада 14 милйон нюмряли (26 млн. йер олан) 350 минйцксяк сявиййяли комфорт мещманхана вар. Сон 20 илдя мещманхананюмряляринин сайы 3-4 % артмышдыр. Бу, туристляри йерляшдирмяваситляринин динамикасынын артмасына сцбутдур. Дцнйа мещманханатясяррцфатында Авропа реэиону апарысы йер тутур.[2]

Дцнйа турист ахынынын 70 %-i, мещманхана нюмря фондунун ися 45%-i Авропанын пайына дцшцр. Лакин гейд етмяк лазымдыр ки, туристлярин йарысы мещманханаларда, йарысы ися башга йерляшдирмя мцяссисяляриндя гябул олунур. Америка гитясиндя дцнйа мещманхана фондунун 35 %-ni тяшкил едян 5 милйон нюмря вар. Америка мещманхана базасынын артым сцряти Авропаны габаглайыр. 90-сы иллярдя Америка мещманхана шябякяляринин тясири даща да эцслянир. Онлар мещманхана шябякяляри сийащысында 1-си онлуьундан Авропанын«Travelodge International» вя «Master Hosts International» кими

мещманхана шябякялярини сыхышдырыб чыхармыш вя щазырда бу сийащыда йалныз«Ассор» (Франса) вя «Форте ПЛС» (Бюйцк Британийа) мещманханашябякяляри галмышдыр.[1]

Дцнйа мещманхана нюмря фондунун 14 %-ня (3 млн. нюмря)малик олан Асийа реэиону бу сащядя 3-сц йери тутур. Артым сцряти ися 15-20% олараг ортадцнйа темпини 2-3 % габаглайыр.

Африка реэионунун пайына 0, 4 милйон нюмря дцшцр ки, бу, дцнйанюмря фондунун 3 %-ни тяшкил едир.

Австралийа вя Океанийа реэионунда дцнйа нюмря фондунун 3 %-нитяшкиледир.

Айрыса юлкяляр арасында дцнйа мещманхана сянайесиндя юз гцдрятиня, язямятиня эюря лидерлик АБШ (3, 5 млн.), Йапонийа (1, 65 млн.), Италийа (1млн.), Франса, Испанийа, Инэилтяря, Чин, Австралийа (0, 5 млн.), Австрийа, Мексика, Канада, Йунаныстан (0, 3 млн.), Таиланд, Русийа, Индонезийа, Тцркийя (0, 15-0, 23 млн.), Исвечря, Бразилийа, Арэентина (0, 5 млн.) кимиюлкяляря мяхсусдур.

Дцнйа мещманхана сянайесиндя мещманхана фондунун артымына эюря Тцркийя, Чин, Малайзийа, Сингапур, Мяракеш, Испанийа, Алманийа, Арэентина кими юлкяляр лидерлийя чыхыблар.

QAYNAQLAR

1. Ağakərimov M.M. Otel. Bakı: “Novruz-94”, 2008, 328 s.
2. Soltanova H.B., Ağakərimov M.M., Baba-zadə S.İ. Mehmanxana təsərrüfatı. Bakı 2005, 228 s.
3. Soltanova H.B., Hüseynova Ş.H. Turizmin əsasları. Bakı: Mütərcim, 2007, 317 s.
4. Turizm sektorunda çalışanlar üçün məlumat kitabçası. Bakı: ATİ, 2011, 143 s.
5. David Loudon, Robert Stevens, Bruce Wrenn. Marketing management. New-York: Howorth, 2005, 370 p.
6. Robert D. Reid, David C. Bojanic. Hospitality marketing management, Toronto: John Wiley, 2010, 144 p.

İnternet resursları:

1. http://www.banker.az
2. Azstat.org
3. Deu.edu.gov.az

Xülasə

Mehmanxana öz yaşadığı yerdən kənarda olan insanlara kompleks xidmət göstərən müəssisə kimi xarakterizə olunur. İki və daha çox mehmanxana qruplarından ibarət olan, vahid rəhbərliyin nəzarəti altında fəaliyyət göstərən və kollektiv biznesi həyata keçirən müəssisələr qrupuna mehmanxana şəbəkələri deyilir. Mehmanxana şəbəkələ-

rinin yaranması istehlakçılara beynəlxalq standartlara cavab verən turist xidmətlərinin çatdırılmasına zəmin yaradır.

Yüksək səviyyəli mehmanxana şəbəkələrinin əksəriyyəti ABŞ-na məxsusdur. «Щйатт», «Щилтон», «Wест Інн» вя орта дярсяли мещманхана шябякяляри олан «ЩолидайІнн», «Мариотт», «Sheратон», «Рамада» вя башгаларынı buraya aid etmək olar.

BAKI AVRASİYA UNİVERSİTETİ
"Sivilizasiya" jurnalı 2016.№1

Aytən BABAYEVA
Təhsil İşçilərinin Reşəkar İnkişafı İnstitutunun
"İncəsınət, texnologiya, mülki müdafiə və fiziki tərbiyə"
kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru

ZAKİR BAĞIROVUN "AYGÜN" OPERASINDA XOR SƏHNƏLƏRİNİN MUSİQİLİ-DRAMATURJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *lirik opera, məhəbbət mövzusu, xor səhnələri, musiqili-dramaturji xüsusiyyətlər*
Ключевые слова: *лирическая опера, тема любви, хоровые сцены, музыкально-драматургические особенности*
Keywords: lyric opera, love theme, choral scenes, musical-dramaturgical peculiarities

Lirik-dramatik xarakterli obrazları təcəssüm etdirən Azərbaycan operaları sırasında istedadlı bəstəkar, Zakir Bağırovun "Aygün" operası xüsusilə seçilir. İlk növbədə onu qeyd etməliyik ki, "Aygün" operasından əvvəl Z.Bağırovun "Aygün" kinofilminə (1960) musiqisi yaranmışdı. Z.Bağırovun musiqisi filmin ümumi ahənginə çox uyğun idi. Böyük arzu və ümidlərlə yaşayan, zərif, həssas qəlbli və öz məhəbbəti uğrunda güzəştə getməyi bacaran Aygünün obrazı həzin, ürəyəyatan musiqi ilə filmdə canlandırılır. "Aygün"-ilk azərbaycan bədii televiziya filmi olub, S.Vurğunun xatirəsinə həsr olunmuşdur. Yeni ailə qurmuş iki gəncin münasibətlərindən bəhs edən bu lirik-epik film bir çox yaddaqalan musiqi fraqmentləri ilə az bir vaxt içində məşhurlaşdı. Filmin ilk başlanğıcında səslənən lirik-elegik, həzin və kantilen melodiya qızların şux, oynaq və rəqs-vari "Bağçamızda var" məhsul mahnısı, Aygünün qızı Ülkərin ad günündə Şəfiqənin ifa etdiyi şən "İki könül görüşəndə", Elyarın "Oxu gözəl" mahnıları filmin ən gözəl melodiyaları kimi yaddaşlara həkk olundu. Aygünün filmdə ifa etdiyi "Laylay" və romansı tamaşaçıların qəlbini fəth edən mahnılar kimi tanındı. S.Vurğunun ölməz poeması on il sonra bəstəkarın eyniadlı operasında təcəssümünü tapdı. Təxminən on il sonra yaranan Z.Bağırovun "Aygün" operası (1972) bəstəkarın yaxın dostu N.Hacıyevin xatirəsinə həsr olunmuşdur. Elə bu sujetə opera yaratmaq ideyasını da bəstəkara N.Hacıyev vermişdir. Operanın librettosunu bəstəkar Zakir Bağırov özü S.Vurğunun poeması əsasında yazmışdır. Lirik-dramatik xarakterli və mahnıvari üslubda olan bu opera müasir mövzudadır. Dövri mətbuatda bu opera haqqında müsbət fikirlər söylənmiş, bir sıra məqalələr dərc olunmuşdur. R.Mustafayevin "Ay-

gün” səhnəmizə xoş gəlib” məqaləsində opera uğurlu sınaq kimi səciyyələndirilir, musiqi dilinin sadəliyi və oynaqlığı, melodiyaların axıcı və yaddaqalan olması, harmoniyaların ahəngdarlığı və milli kolorit qeyd edilir (1). Məqalə müəllifi bu operada S.Vurğun poemasının ruhunun saxlandığını, lirik səhnələrin gözəlliyini vurğulamışdır. Eyni zamanda operada xor səhnələrinin maraqlı təsir bağış-laması da qeyd edilmişdir. Həmçinin, operada bəzi nöqsan cəhətlərin olması və müəy-yən çatışmazlıqlar da göstərilmişdir. Məqalə müəllifi birinci pərdədə ilk şəkildə xorun rəqs edərək, oxumasının yaxşı təsir bağışlamadığını vurğulayaraq, bu zaman xorun söz-lərinin tamaşaçıya aydın olmadığını göstərmişdir. Operada səhnə dramaturgiyasının tə-ləblərinin tam ödənilməməsi, səhnə hadisələrində sxematiklik və sadəlövhlüyün nəzərə çarpması nöqsan cəhətlər kimi qeyd olunur. Bütün bu sadalanan nöqsanlarla yanaşı, “Aygün” operasının azərbaycan operası tarixində öz mövqeyi vardır. “Aygün” müəyyən mənada lirik bir opera kimi, F.Əmirovun “Sevil” operasının ənənələrini davam etdirir. “Aygün” operasının digər operalardan əsas fərqləndirici cəhəti burada aparıcı-qiraətçinin hadisələri şərh etməsidir. Belə ki, orkestr interlüdiyaları fonunda aparıcı deklamasiya söyləyir və qəhrəmanların psixoloji vəziyyətindən bəhs edir. Bu xüsusiyyət opera janrının sərhədlərini genişləndirir, ona nəqlilik, dram teatrı və lirik poema xüsusiyyətləri-ni gətirir. Bir lirik opera kimi ön planda şəxsi dramın açılışı dayanır. Onu da qeyd etmə-liyik ki, musiqişünas S.Qasımova bu operanın dramaturgiyasında bir sıra nöqsanları gös-tərmiş, Aygün obrazının bir qədər sxematikliyini, onun yaradıcılıq fəaliyyətinin arxa pl-anda qaldığını vurğulamışdır (2;123).Operada Əmirxan obrazının dəyişməməsi də nöq-san cəhət kimi göstərilir. Obraz bir qədər sxematik və birplanlı təsvir olunur. Aygünün obrazı ilə müqayisədə Əmirxanın obrazı çox tam və dolğun deyildir. Əmirxanın mənə-viyyatının dəyişməsi, obrazın mürəkkəbliyi, onun transformasiyası sona qədər açılmır.

Bütövlükdə “Aygün” operası lirik-mahnıvari opera janrına aiddir, buradakı xorlar əsasən mahnı-romans üslubundadır. Beləliklə, “Aygün” operası ailə-məişət mövzusunda lirik-dramatik, kamera tipli opera kimi müəyyən oluna bilər.

Operanın ədəbi mənbəyi və librettosu arasında da bir sıra fərqlər mövcuddur.Bu fərqlər ətrafında açıqlamalar verməzdən əvvəl S.Vurğunun “Aygün” poemasından bəhs etmək istərdik.İki insanın münasibəti və taleyindən bəhs edən bu lirik-epik poema çox irihəcm-li olub, bir növ mənzum roman xüsusiyyətlərinə malikdir. Yazıçı İ.Şıxlı yazır: “Aygün” poeması dramatik əsərdir. Buradakı dramatik gərginlik hadisələrin zahiri təzahüründən daha çox surətlərin daxili mübarizəsində, psixoloji sarsıntılarda özünü göstərir” (3; 222-226). İ.Şıxlı S.Vurğunun Aygün obrazını “paklıq və ismət mücəssəməsi” adlandıraraq, poemanın əsas qəhrəmanını belə səciyyələndirir: “İnsanın paklığına və nəcibliyinə inanan və bütün yaradıcılığı boyu onu tərənnüm edən Səməd Vurğun Aygünün simasında Azərbaycan qadınlarının məsum, fədakar, genişürəkli, sevməyi bacaran, eşqinə və əhdinə axıra qədər vəfalı olan ölməz surətini yaratmışdır” (3; 222-226).

S.Vurğunun “Aygün” poeması hələ 1952-ci ildə “İnqilab və mədəniyyət” jurnalının birinci və ikinci sayında dərc olunandan sonra şairə qarşı qərəzli hücumlar başlandı və dövr mətbuatda bir-birinin ardınca kəskin ruhlu, ədalətsiz məqalələr dərc olundu (4).

Qeyri-obyektiv ruhda yazılan bu məqalələrdə sosialist dünyabaxışı nöqteyi-nəzərindən müəlliflər poemanı kəskin tənqid atəşinə tutaraq, Aygün obrazında "vətənpərvərlik şüurunun zəif olduğunu" qabardır, onun köhnəliyə qarşı mübariz olmamaqda təqsirləndirir, Aygünü geridə qalmış, gerizəkalı bir obraz kimi səciyyələndirirdilər. Tənqidçi M.Cəfər Aygünü təslimçi olmaqda, Əmirxanın məhəbbətinin tipik feodal məhəbbəti olmaqda günahlandırır, şairin yeniliklə köhnəliyin mübarizəsini inandırıcı şəkildə verə bilməməsini qabardırdı. Tənqidçi M.Quluzadə yazırdı: "Aygün" cəsarətli, aydın, fikirli, yüksək məqsədli sovet qızına oxşamır, bu obraz ümumiləşdirici bir tip olmaq etibarilə ciddi nöqsanlara malikdir", "Aygünün əhatəsi səthi düşüncəlidir". Məqalə müəlliflərinin qabartmaq istədiyi əsas fikir bundan ibarət idi ki, S.Vurğunun "Aygün" poeması ideya cəhətdən nöqsanlı, sönük, zəif əsərdir. Bu poemada S.Vurğun "Bolşevik partiyalılığı, sosialist realizmi prinsiplərindən geri çəkilmişdir, poema partiyanın sovet ədəbiyyatı qarşısında qoyduğu tələblərə cavab vermir, "Aygün" geriyə doğru bir addımdır" (4).

Şairə qarşı bu qərəzli hücümlar qısa bir zaman kəsiyində dəf edilərək, "Aygün" poeması haqqında bir-birinin ardınca müsbət rəylər, poemanın bir çox üstünlüklərini əks etdirən məqalələr dövrü mətbuatda dərc olunmağa başladı. Tənqidçi-filosof M.Arifin 1958-ci il 26 noyabr tarixli "Kommunist" qəzetində dərc olunan "Aygün və müasirlik" məqaləsi, "Azərbaycan" jurnalının 1957-ci il beçinci sayında Q.Qasımzadənin "Aygün" və onun poeziyamızda mövqeyi", Y.Seyidovun "Aygün" xarakterlər poemasıdır" məqaləsində (10) bu əsərin ədəbiyyatımızda mövqeyi, əsərdəki yeniliklər ətrafında bir sıra açıqlamalar verildi. Poemanın dilinin təbii sadəliyi, konfliktin-müxtəlif dünyabaxışları-nın toqquşması şəklində açılışının maraqlı süjet xətti ilə uyğunlaşdırılması, kompozisiyanın mürəkkəbliyi qeyd olundu. Məqalə müəllifləri "Aygün"ə qədər poeziyamızda müasir ailə və məişət mövzusuna həsr olunmuş geniş epik əsər olmadığını və "Aygün" ün bu sahədə ilk addım olduğunu xüsusilə vurğulamışlar.Görkəmli filoloq və tənqidçi Məmməd Arif "Aygün" poemasına həsr olunmuş məqaləsində bu obrazı "mənəvi gözəl-lik heykəli" adlandırmış, S.Vurğunun müasir həyatla ayaqlaşaraq, sağlam ailə, həqiqi məhəbbət haqqında gözəl poema yaratdığını göstərərək, şairin Aygünün simasında özünün qadın və ana haqqındakı ən yaxşı duyğularını ifadə etmək istədiyini vurğulamışdır.M.Arif yazırdı:"Şair öz poemasında qəsdən dramatik vəziyyətlər yaratmaqdan çəkinmişdir.O, hadisələrin zahiri hərəkətindən, birbirinə zidd qüvvələrin xarici mübari-zəsindən artıq insanların daxili mübarizəsinə, mənəvi inkişafına fikir vermişdir"(6;509).

S.Vurğunun "Aygün" poemasındakı bütün bu gözəl məziyyətlər bəstəkar Z.Bağırovu özünə cəlb etmiş və əsər əsasında lirik opera yaranmışdır.Təbiidir ki, poema ilə müqayisədə operada bir sıra dəyişiliklər edilmişdir. Məsələn, poemada bir qədər epizodik rol oynayan Elyarın obrazı operada daha qabarıq göstərilmiş, bununla Aygün-Əmirxan-El-yarın məhəbbət üçbucağı daha da qabardılmışdır. Librettoda əlavə personajlar-Əmirxanın əhatəsində olan Rəfi və Məti ənənəvi komik personajlar cütlüyü (bir növ F.Əmirov-un "Sevil"in operasından Əbdüləlibəy və Məmmədəlibəy ilə assosiasiya yaradır) əlavə olunmuşdur. Qeyd etməliyik ki, poemada bu cütlük yalnız yada salınır, operada isə onlar hadisələrin inkişafında rol oynayırlar. S.Vurğunun "Aygün" poemasında geniş yer verdiyi Muğan mövzusu da operada tərənnüm olunur.

Operanın əsas mərkəzi mövzusu-gənc ailənin taleyi, baş qəhrəman Aygünün qəlb dramı, yeniliyin köhnəliklə mübarizəsi dramaturgiyanın fasiləsiz inkişafı ilə açılır. Opera üç pərdə və səkkiz şəkildən ibarətdir (I pərdə-4 şəkil, II pərdə-2 şəkil, III pərdə-2 şəkil). Proloqdan sonra I pərdə iştirakçıların ekspozisiyasıdır, burada ilk dəfə konfliktli toq-quşma verilir.II pərdədə süjet xətti inkişaf edir.III pərdədə isə hadisələrin düyünü (razvyazka) açılır.

Məlum olduğu kimi, "Aygün" operası mahnıvari opera ənənəsində yazılmışdır. Bu opera növ ilə də postsovet musiqisində rastlaşırıq:İ.Dzerjinski "Sakit Don". T.Xrennikov "Fırtına" operaları ötən əsrin 1930-cu illərində yaranaraq, tematikanın müasirliyi, mahnıvari üslubu, musiqi dilinin demokratikliyi ilə seçilirdi. Lakin, mahnıvari opera üçün bir qədər bəsitlik, ümumi simfonik inkişafın, mürəkkəb ansamblların azlığı səciyyəvidir. Qeyd etməliyik ki, "Aygün" operasında da bu xüsusiyyətlər müşahidə olunur. Operanın dramaturgiyasında, musiqi inkişafında statiklik, opera formalarında dinamik quruluşun zəifliyi nəzərə çarpır. Onu da qeyd etməliyik ki, mahnıvari opera üslubunda təxminən "Aygün"lə bir dövrdə yaranan Ş.Axundovanın "Gəlin qayası" operasında da eyni xüsusiyyətlər müşahidə olunur. "Gəlin qayası" operasında bu xüsusiyyətlərin ətrafında musiqişünas, professor A.Tağızadə öz məqalələrindən birində ətraflı açıqlamalar vermişdir (11; 212-222). Lakin "Gəlin qayası" operasında süjetlə əlaqədar xor səhnələri daha üstünlük təşkil edirdi. Belə bir faktı da qeyd etmək yerinə düşərdi ki, mahnıvari opera ənənələri müəyyən dərəcədə M.Maqomayevin "Nərgiz" operasından da irəli gəlir.

Z.Bağırovun "Aygün" operasında xorların sırf mahnıvari üslubu onları hətta "xor mahnısı" kimi səciyyələndirməyə imkan verir. I pərdədən tələbələrin xoru buna nümunədir.Operadakı xorların bəziləri şərhçi rolunu oynayır.Ülkərin ad günündəki xor bu xüsusiyyətləri daşıyır. Maraqlı bir üsul bəzi xor səhnələrinin replikalar şəklində qurulmasıdır. Məsələn: "Muğam düzü" səhnəsindən "Buyurun, seyr edək" xoru və ya Ülkərin ad günü səhnəsindən "Sakit olun" xoru. Bu xorlara polifonik imitasiyalar xasdır.

Operadakı xorlar əsasən homofon-harmonik fakturaya uyğundur. Bəzən imitasiyalı polifoniya elementləri tətbiq olunur. Bu xorları yuxarıda qeyd etmişik. Xor səhnələrində ən diqqətçəkən məqamlardan biri onların əksəriyyətinin vals ritmi üzərində qurulmasıdır. Tələbələrin xoru, I pərdədən lirik sözsüz xor, I pərdənin III şəklində kolxozçuların "Vaxt gələr Muğan düzü" xoru buna nümunədir. Vals bir növ operada leyt-janr əhəmiyyəti kəsb edir. Məsələn: I pərdədən tələbələrin xorunun orta hissəsi, sözsüz vokaliz şək-lində qadın xoru, İsmət dayının çıxışı səhnəsindəki xor. Operada məzmunla bağlı qadın xorlarına da müəyyən yer verilmişdir.

Zakir Bağırovun "Aygün" operası Azərbaycanda lirik opera janrının inkişafında müəyyən bir mərhələni təşkil edir. "Aygün" operası ailə-məişət mövzusunda lirik-dramatik operadır. Bu mənada "Aygün" bir opera kimi F.Əmirovun "Sevil" operasının ənənələrini davam etdirir. Təbiidir ki, F.Əmirovun Azərbaycan operası tarixində yaratdığı yeni opera növü onun dramaturgiyası və üslub görünüşündə öz izini qoymuşdur. "Sevil" ope-rasında baş qəhrəmanın taleyi xalqın taleyindən ayrılmaz şəkildə göstərilmiş və bununla bağlı kütlə təcəssümünün əhəmiyyəti qabardılaraq, xor səhnələrinə geniş və aparıcı yer verilmişdir. Z.Bağırovun "Aygün" operasında isə lirik şəx-

si dram önəmli yer tutur, qəhrəmanların obrazlarının açılışına dramaturji nöqteyi-nəzərdən daha şox diqqət yetirilir. Xor səhnələrinin dramaturji yükü azaldılır, xorlar əsasən şərhçi, statik və fon rolu daşıyır. Xorlar səhnə situasiyalarını şərh edir, hadisələrin müşayiətçisi rolunu oynayır, önəmli yerdə ailə dramı dayanır. Kütlə-"Aygün" operasında"Sevil"ilə müqayisədə bir qədər zəi-fdir. Bu baxımdan xor səhnələri həlledici rol oynamır. Bu nöqteyi-nəzərdən "Aygün" operasındakı xor səhnələri daha çox Verdinin bəzi lirik-psixoloji operalarında xor səhnələrinin dramaturji rolu ilə (təbiidir ki, burada daha çox C.Verdinin kamera tipli operalarını nəzərdə tuturuq) müqayisə oluna bilər.

Operadakı xorlar lirik-mahnıvari üslubdadır. Ümumiyyətlə, Z.Bağırov bir bəstəkar kimi gözəl melodistdir. Təbiidir ki, bu cəhət xüsusən onun səriştəli mahnı bəstəkarı olması, bu opera və xüsusən operanın xor səhnələrinin melodik üslubu üzərində öz izini qoymuşdur.Digər tərəfdən operanın melodik üslubunda romans xüsusiyyətləri də özünü büruzə verir. Bu cəhət onu P.İ.Çaykovskinin "Yevgeni Onegin" operasına yaxınlaşdırır.

Operadakı xorların dramaturgiyasındakı rolunu müəyyənləşdirmək üçün onları sıralayıb, ümumi kompozisiyanı nəzərdən keçirək:

I pərdə:

1. Qısa orkestr girişindən sonra (proloq) tələbələrin xoru səslənir: "Ömrün ötdü şən günləri". Bu xorun ortasında Elyarın replikaları verilir.
2. Kiçik xor "Alma, armud, bir də nar".
3. Yenə tələbələr xoru təkrar olunur. Qeyd etməliyik ki, tələbələr xoru bu səhnədə bir növ refren rolu oynayır.

II şəkil əsas etibarilə solistlərin çıxışları və dialoqlardan qurulur (Aygün və Əmirxanın səhnəsi).

I pərdə III şəkil-xor səhnəsi ilə başlanır.

1. Xor "Vaxt gələr Muğan düzü".
2. İsmət dayının xor ilə çıxışı.
3. Artistlərin gəlişini xəbər verən "Yoldaşlar" xoru.

II pərdə IV şəkil-burada əsasən solistlərin çıxışı və dialoq verilir (Aygünün və Elyarın çıxışı).

V şəkildə "Buyurun, buyurun, seyr edək" xoru səslənir. Bu şən əhval-ruhiyyəli, rəqsvari bir xordur, dördsəslidir, homofon-harmonik fakturaya əsaslanır. Xorun II hissəsi Moderato-vals ritmində qurulur, dialoq şəklindədir. Burada qarışıq xor və tenorlarla baslar növbələşir. Bu xor bir növ tələbələr xorunun yeni variasiyalarıdır.

III pərdə IV şəkil-Ülkərin ad günü.

1. Qonaqların xoru-soprano və altların ifasında
2. Qonaqların xoru "Sakit olun"

III pərdə VII şəkil

1. Sözsüz xor-Əmirxanın hisslərini əks etdirir, onun çıxışına fon kimi səslənir. Beləliklə, dramaturji baxımdan daha çox operanın I pərdəsinin I şəklində xorlar xüsusi əhəmiyyət kəsb edir.Burada demək olar ki, tələbələrin xoru bir növ refren rolunu oynayır. Eyni funksiyanı oynayan xor bu pərdənin III şəklinə təsadüf edir. Kolxozçuların vals ritmi üzərində qurulan xoru səhnənin refreni əhəmiyyətini kəsb edir.Belə

səhnələrdəki epi-zodlar isə solistlərin çıxışlarıdır.Operada II pərdə(V şəkil)“Buyurun, buyurun, seyr edək” xoru hadisələri istiqamətləndirir və tematik baxımdan onun ikinci hissəsi tələbələrin xo-runa yaxın olub, vals ritminə əsaslanır.Bu nöqteyi-nəzərdən“Aygün”operasında xor səh-nələrinin vals leyt-ritmi qeyd olunmalıdır.Onu da qeyd etməliyik ki, ümumiyyətlə, 1960-70-ci illərdə vals ritmi milli estrada mahnılarımız üçün çox səciyyəvi idi.Buna görə də mahnıvari üslublu“Aygün”operasında bu ritmə önəmli yer verilməsi təsadüfi deyildir.

Operada sözsüz-vokaliz şəklində ifa olunan xorlar da vardır. Bu xorlar əsasən lirik səpkidədir və bir növ solistlərin çıxışlarına fon rolu daşıyaraq, ümumi emosional əhval-ruhiyyəni əks etdirir. Məsələn: İsmət dayının çıxışı səhnəsi və son pərdədə (VII şəkil) Əmirxanın duyğularını əks etdirən sözsüz xor.

Bəzi xorlarda imitasiya üsulu tətbiq olunur. Belə xorlar şərhçi rolu oynayır, hadisələrin gedişatını göstərir. Məsələn: “Buyurun” xoru, Ülkərin ad günü səhnəsində Aygünü sakitləşdirmək məqsədi daşıyan “Sakit olun” xoru. Belə xorlar ayrı-ayrı qrupların replikaları ilə başlanır.

Bütövlükdə Z.Bağırovun “Aygün” operasında xorlar əsasən fon və şərhçi rolunu daşıyır. Bu xorlarda ən maraqlı məqam onların müəyyən janr-vals xüsusiyyətlərini özündə daşı-masıdır.Beləliklə, lirik opera ənənələrinin davam etdirilməsi baxımından“Aygün”opera-sında xor səhnələrinin rolu özünəməxsus xüsusiyyətləri ilə fərqləndirilir və bu keyfiy-yətlər yuxarıda qeyd olunan təhlil zamanı nəzərə çatdırılmışdır.

QAYNAQLAR

1. Mustafayev R. “Aygün” səhnəmizə xoş gəlib”. “Ədəbiyyat və incəsənət” qəzeti, 10 mart, 1973-cü il
2. Касимова С. Оперное творчество композиторов Советского Азербайджана-часть I. Баку: Аз. Гос. Издат., 1973, 102 с.; часть II. Баку: Ишыг, 1986, 123 с.
3. Şıxlı İ. Xatirəyə dönmüş illər. Bakı: Yazıçı, 1980, s. 222-226.
4. Quluzadə M. S.Vurğunun “Aygün” poeması haqqında-“Kommunist”qəzeti, 13 mart, 1952-ci il
5. Cəfərov M.“Aygün” poeması haqqında-“Ədəbiyyat” qəzeti, 15 mart, 1952-ci il
6. Məmməd Arif. Seçilmiş əsərləri. II cild, Bakı, 1968, səh.509.
7. Abbasova İ. Bəstəkar Zakir Bağırovun həyat və yaradıcılıq yolu.B., 2009, 290 s.
8. Qasımova Q.“Aygün”və onun poeziyamızda mövqeyi. “Azərbaycan”jurnalı, 1957, № 5
9. M.Arif. “Aygün və müasirlik”.-“Kommunist” qəzeti, 26 noyabr, 1958-ci il
10. Seyidov Y.“Aygün”xarakterlər poemasıdır.Azərbaycan SSR EA Xəbərləri, 1963.№1
11. Tağızadə A. Bəstəkarlarımızın iki operası / Tağızadə A. XX əsr Azərbaycan musiqisi. Bakı: Elm və təhsil, 2011, s. 212-222.

А.БАБАЕВА

Музыкально-драматургические особенности оперы «Айгюнь» Закира Багирова

Резюме

В представленной статье были рассмотрены музыкально-драматургические особенности оперы «Айгюнь»З.Багирова и исследованы принципы как лирическая опера. Кроме того, были рассмотрены особенности хоровых сцен, некоторые принципы развития и богатства музыкального языка в драматургии оперы «Айгюнь».

A.BABAYEVA

Musical-dramaturgical peculiarities of the opera “Aygun” by Zakir Bagirov

Summary

In this paper the musical-dramaturgical peculiarities of the opera “Aygun” by Zakir Bagirov have been considered and the principles as lyric opera have been investigated. In addition, the peculiarities of choral scenes, some principles of development and richness of musical language in dramaturgy of the opera “Aygun” have been considered.

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Gülnar SEYİDOVA
Azərbaycan Dövlət Rəssamlıq
Akademiyasının dissertantı
seyidova-g@mail.ru

XII-XIV ƏSRLƏR AZƏRBAYCAN DULUSÇULUĞUNDA DEKORUN BƏDİİ HƏLLİ

Açar sözlər: *Keramika, orta əsr, şirə, dekor, tərtibat, nəbati ornament.*
Ключевые слова: *керамика, средние века, глазурь, декор, оформление, растительный орнамент.*
Keywords: *Ceramic, Middle Ages, décor, design, floral ornament*

Azərbaycan dekorativ-tətbiqi sənətin bir sahəsi olan keramika hələ qədim dövrlərdən geniş yayılmış sənət növü sayılır. Hazırlanma texnologiyası ilk əvvəllər primitiv xarakter daşısa da, orta əsrlərdə texnoloji baxımdan bir çox yeniliklər əldə edilmişdi.

XII əsrdə İslam sənətinin klassik dövründə keramika sənəti zirvəyə çatmışdır. Qədim ənənələrə bağlı olaraq inkişaf edən keramika, yeni dekor metodları, müxtəlif parlaq keramika məmulatlarla özünə xas yerli xüsusiyyətlərə sahib olan motiv və mövzulu kompozisiyalarla zənginləşirdi. Keramika rəssamları dekor üsullarının texnoloji müxtəlifliyini, anqob rəngləri və motivləri cızma ilə (sqrafitto), şəbəkəli motivlərlə, anqobu qazaraq bəzək verirdirlər [1.s. 24].

XII əsr keramika sənəti mərkəzləri içərisində ən görkəmli yeri Beyləqan tuturdu. Buradan tapılmış külli miqdarda müxtəlif bədii saxsı qablarla yanaşı, kürələr, formalar, möhürlər (emalatxanaların damğası) və s. əşyalar bu gözəl sənət nümunələrinin Azərbaycanda istehsal olunduğunu bir daha əyani surətdə təsdiq edir.

Azərbaycanın ən böyük keramika mərkəzlərdən biri olaraq Beyləqanda düzəldilən polixrom dekorlu keramika çox dəyərli sayılır. Onların dekorativ motivlər zəngin həndəsi, nəbati və İslam dekorativ sənətlərinə məxsus olan epiqrafiq dekorlardam ibarət idi. Bunlarla bərabər heyvan, quş, insan təsvirləri də qorunmuş və davam etmişdir.

Naxışın yerliyini qazıb dekoru üzə çıxarmaq (sqrafitto üsulu) xüsusi bədii görünüşə malik olub, çox asan yol ilə əldə edilirdi. Mühit xətti müəyyən edilmiş dekorun yerliyini, yeni anqob qatını qazıb çıxardıqdan sonra rəngli şirdən istifadə olunurdu. Anqoblu naxışın üstündəki şir qabın təbii-kərpici qırmızı rəngi üzərindəki şirdən daha açıq rəngdə göründüyündən bu növ qablarda xüsusi rəng effekti yaranırdı. Əsasən yaşıl rəngli şirlə örtülmüş belə qab nümunələrində tünd yaşıl naxış motivləri (şir kərpici-qırmızı qabın üstünə düşür) xüsusilə aydın görünüşə malik idi. Eyni qamma və rəng ahəngdarlığında olan dekor öz relyefliliyi, işıq kölgə effekti ilə seçilir, qabın

ümumi səthinə bədii oynaqlıq verirdi. Görüldüyü kimi, dulusçu ustalar çox sadə dekor vasitələri ilə (anqob, şir və qabın təbii rəngi ilə) zəngin görünüşə malik tətbiqi sənət nümunələri yaradırdılar.

İlk nümunələri XI əsr Beyləqan keramikasından məlum olan bu qablar XII əsrdə xüsusi inkişaf səviyyəsinə çatmış və zəngin bədii keyfiyyətləri ilə dövrün yüksək qiymətli sənət əsərləri kimi səciyyələnir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Nəsibə Nəcəfova qeyd edir ki, "Damaşəkilli, mərkəzdən qabın kənarlarına doğru haçalanan və enliləşən zolaqlar, paralel xətlər və s. kimi həndəsi naxışlarla yanaşı, həndəsi-nəbati və stilizə edilmiş nəbati naxışlı keramika nümunələri, demək olar ki, Azərbaycanın orta əsr şəhərlərində aparılan qazıntıların çoxu üçün xarakterikdir" [4. S. 101-106].

Rəngli şir altından müəyyən edilmiş naxışı qazıb çıxarmaq, kəsməklə, ştampla basma dekor və naxış motivlərini qabın səthinə yaxışdırmaqla keramika növlərinə tamamilə oxşar dekorativ effekt əldə edilirdi.

Rəngli şəffaf şir altında yaranan bu dekorativ effekt XII-XIII əsr rəngsiz şirlə örtülmüş keramika məmulatında daha da təkmilləşdirilərək xüsusi bədiiliklə işlənirdi. Beyləqan, qədim Gəncə, Bakıdan məlum olan belə texnologiyalı qab nümunələri zəngin və çox ustalıqla işlənmiş dekorativ xüsusiyyətlərinə görə diqqəti xüsusilə cəlb edir.

Rəngsiz şir altında ağ anqob yerlikdə təmiz və aydın rəngli boyalarla işlənmiş bu qabların əlvan dekoruna göstərilən texniki üslubla çəkilmiş naxışlar xüsusi rövnəq verir və onların təmtəraqlı görünüşünə nəciblik göstərirdi. Çox güman ki, şənliklər üçün hazırlanan bu nimçə, kasa və güldanlar tamamilə spesifik dekorativ kompozisiyalara malikdir. Enli, yaşıl zolaqların mürəkkəb hörgüsündən yaranan qeyri-müəyyən formalı boşluqlarda ağ anqob yerliyi qazıb çıxarmaqla zərif və dəqiq işlənmiş qıvrım nəbati motivlər üzə çıxarılırdı (üzüm ağacının buğlarını xatırladır). Açıq kərpici-qəhvəyi (rəngsiz şəffaf şir qabın üzərinə düşür) yerlikdə ağ naxışlar nəcib rəng ahəngdarlığı ilə diqqəti cəlb edir. Vaxtilə Beyləqan arxeoloji qazıntılarından tapılan bu növ qabların müxtəlif kompozisiya quruluşlu nümunələri xüsusilə diqqətəlayiqdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Nəsibə Nəcəfova qeyd edir ki, "Yerliyi qazılıb dekoru üzə çıxarılan və rəngsiz şirlə örtülmüş Beyləqan keramika məmulatının bədii həllində Naxçıvan memarlıq abidələrinin qüvvətli təsiri izlənilir. İstər mürəkkəb hörməli kompozisiya quruluşu, istərsə də qazma texniki üsulun yaratdığı bədii görünüşə görə bu qablar Mömünə Xatın türbəsinin mürəkkəb hörmətli naxışı və onların boşluqlarındakı gəc üzərində oyma dekorları çox oxşardır" [4. S. 101-106].

Dulusçu ustalar keramikanın spesifik materialını və onun texniki imkanlarını nəzərə alaraq, istifadə olunan təsvir vasitələrini tamamilə yeni səpkidə işlədiklərindən dekoru materialı ilə həmahəng olan, əsil mənada yüksək bədii keyfiyyətli keramika nümunələri yaratmışlar.

Orta əsr Azərbaycan keramikasının bədii həllində, digər sənət nümunələrində olduğu kimi, ətraf mühitin böyük təsiri izlənilir. Ustanın təbiət və məişət aləmini bədii əsərdə əks etdirmək ehtiyacı hələ çox qədim sənət nümunələrindən məlumdur. Müxtəlif sənət nümunələrində təsadüf edilən və çox vaxt simvolik məna daşıyan dekorativ

motivlər buna yaxşı misaldır. Digər tərəfdən başqa sənət növləri ilə qarşılıqlı əlaqədə inkişaf və bir-birindən bəhrələnmə halları da özünü büruzə verir.

Beyləqandan başqa Azərbaycanın digər bölgələrindən Gəncə, Bəndovan (Muğamda qədim şəhər) Bakı və s. şəhərlərdə şirəli keramika nümunələri tapılmışdı.

Akademik Rasim Əfəndi qeyd edir ki, "Azərbaycanda istehsal olunan XI-XV yüzilliklərə aid saxsı qabların bəzilərində emalatxana damğası ilə yanaşı, onu hazırlayan ustanın da adı yazılırdı. Məsələn, Gəncədə tapılmış bir saxsı qabın üzərində "Əhməd Əbubəkr oğlu Gəncəvi", Beyləqandan tapılmış bir sıra qabların üzərində isə "Əli Əziz oğlu", "Nəsr", "Xəttab", "Rüstəm", "Seyidəli" və s. adlara rast gəlirik" [2. S. 40].

Qazıntı zamanı əldə edilən saxsı məmulatları göstərir ki, bu əsrlərdə Azərbaycanın şəhər və kəndlərində külli miqdarda müxtəlif formalı və bəzəkli saxsı qablardan istifadə edilirmiş. Bunlardan küp, kuzə, sürahi, kasa, nimçə, çıraq və s. göstərmək olar. Bu dövr saxsı məmulatları həm şirli, həm də şirsiz olurdu. Şirsiz saxsı məmulatların əksəriyyəti böyük küplər, bardaqlar və çıraqlardan ibarət idi. Şirsiz saxsı məmulatların istehsalında boyadan istifadə olunmadığı üçün bəzəklər, əsasən cızma və qabartma üsulu ilə edilirdi. Belə bəzəklər içərisində biz nəbati, həndəsi ornamentlərlə bərabər, müxtəlif heyvan, quş, hətta insan fiqurlu motivlərə rast gəlirik.

XII-XIII əsrlərə aid keramikalar ümumiyyətlə hazırladıqları emalatxanaların möhürü vurulur, hətta ustaların adları yazılır. XII-XV əsrdəki keramika nümunələri, həm istifadə, həm də estetik xüsusiyyətlərinə görə iki qrupa ayrılır:

1. məişətdə istifadə olunan keramikalar;
2. memarlıqda istifadə olunan kaşılar.

Məişətdə istifadə olunan keramikalar Azərbaycanın müxtəlif bölgələrində aparılan arxeoloji qazıntılar zamanı tapılmışdı. Burada müxtəlif forma və dekorlu keramikaların istifadəsi görülməkdədir. Bunlar kuzə, sürahi, kasa, boşqab, şamdan və. s misal gətirmək olar.

"Bu dövrə aid keramikalar həm şirəli həm də şirəsiz olurdu. Şirəsiz keramikalar böyük həcmli küplər, süddanlar və çıraqlardan ibarətdir" [5. S. 17-18].

Şirsiz keramikaların dekorları qazma və relyef formada hazırlanırdı. Bu dekorlar nəbati, həndəsi, müxtəlif insan, quş və heyvan şəklində dekorlara rast gəlinib.

Şirəsiz keramikaların dekorları, şirəli keramikalardan fərqli deyil. Ancaq bədii üslubun eyni olmasına baxmayaraq, müxtəlif keramika istehsal mərkəzlərinin özünə məxsusi bəzi dekor növləri də vardır.

Şirəli keramikaların istehsalı XII-XV əsrin keramikasının zirvəsi olduğunu deyə bilərik. Şirə şüşəyə bənzər rəngli maye, şəffaf və möhkəm uzun ömürlü olması ilə böyük şöhrət qazanmışdır. "XII-XV əsrin keramikaları arasında anqobla örtülmüş şirəli keramikalar xüsusi yerə sahibdir" [3. S. 44-46]

Anqoblanmış keramika məmulatları tək rəngli və ya çox rəngli tünd şirə ilə örtülür. Çox rəngli şirə maye halında az dekorlu keramika məmulatlarının üzərinə tökülürdü. Duru, tək rəngli şəffaf şirə isə zəngli dekorlu keramika nümunələrinə tətbiq edilir. Bunun sayəsində anqob üzərindəki motivlər açıq və qabartmalı görülürdü.

Araşdırmalar Azərbaycanda qeyd olunan yüz illərə aid keramikaların forma və dekor motivlərinin zəngin olduğunu göstərir. Forma və mövzu baxımından ayrı-ayrı de-

korlarla, müxtəlif texniki metodlarla, misal üçün oyma, relyef (qabartma) və qazıma üsulları ilə yerinə yetirilirdi.

Boyalı keramika nümunələri keramika məmulatlarının müxtəlif boyalarla dekorlanmasında şirə üstü və şirə altı texnikasından istifadə olunur. Şirəaltı boya bişmiş qabın üzərinə sürtülür. Sonra şirə ilə örtülür. Şirəaltı boyalar yüksək temperatura dözümlü yaşlı, mavi, qara və s. rənglərdən ibarətdir. Şirəaltı rənglərin daha açıq görülməsi üçün şəffaf şirədən istifadə olunur. Keramika məmulatların oyma üsulu ilə dekorlama Azərbaycanda çox yayılmışdı. Oyulmuş və daha sonra rənglənmiş bu tip keramikaların üstünə müxtəlif heyvan, quş şəkilləri çəkilirdi. Oyma dekorlu keramika nümunələri yaşıl, sarı və s. rənglər ilə boyanırdı. "XII-XV əsrlərə aid keramika məmulatların üzərində təbiət təsvirli və geniş mövzulu kompozisiyalara da rast gəlinir. Bu xüsusiyyətlər Beyləqanda tapılmış keramika nümunələrində tez-tez görürük" [5. S. 17-18].

XII-XV əsrlərdə dulusçuluq Naxçıvanda da inkişaf etmişdir. Naxçıvanda monoxrom və polixrom şirəli keramikaların istehsalı da inkişaf etmişdir. Polixrom keramikaları bəzənməsində mavi, firuzəyi, yaşıl, qəhvə rəngi boyalarla istifadə olunurdu. Naxçıvan keramika rəssamları dekorlu keramika məmulatlarının üzərinə qravüra üsulu ilə öz adlarını yazırlar. Naxçıvan dulusçularını öz dəsti-xətlərinə görə yəni başqa rayonlardakı dulusçulardan fərqlənirdilər. Dulusçular keramika məmulatlarının üzərində rəsm və təsvirlərin qrafik eskizini cızır sonra relyef (qabartmalı) rəsmi önə çıxartmaq üçün fonu daha dərin qazırdılar.

QAYNAQLAR

1. Əfəndiyev R.S. Azərbaycan dekorativ-tətbiqi sənətlər (orta əsrlər). Bakı. 1976
2. Əfəndi Rasim. Azərbaycan İncəsənəti. Bakı. 2007. S. 160.
3. Əfəndi T. Orta əsr Azərbaycan saxsı məmulatlarının təsviri motivləri // "Qobustan" jurnalı 1984. №1. S. 44-46.
4. Nəcəfova N. IX-XV əsr Azərbaycan şirli məişət keramikasının texnoloji xüsusiyyətləri və dekor üsulları haqqında // Az. SSR E.A. Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası. 1974 №2. S. 101-106.
5. Cəbiyev Q. Orta əsrlərdə dulusçuluq sənətimizin təşkili // "Elm və həyat" jurnalı 1988. №10. S. 17-18.

Gülnar SEYİDOVA

XII-XV əsrlər Azərbaycan keramikasında dekorun bədii həlli

Xülasə

Məqalədə Azərbaycanın Beyləqan və Naxçıvan bölgələrində aşkar olunmuş XII-XV əsrələ aid keramika məmulatlarının bədii tərtibatı haqda məlumat verilir. Qeyd olunur ki, bu dövrdə istehsal olunan keramik qablar, həm istifadə, həm də estetik xüsusiyyətlərinə görə iki qrupa ayrılır: məişətdə istifadə olunan keramikalar və memarlıqda istifadə olunan kaşılar.

Aparılan təhlillər belə bir nəticəyə gəlməyə imkan verir ki, bu dövrdə istehsal olunan qablar forma və mövzu baxımından ayrı-ayrı dekorlarla, müxtəlif texniki metodlarla, misal üçün oyma, relyef (qabartma) və qazıma üsulları ilə yerinə yetirilirdi.

Гюльнар СЕИДОВА

Художественное решение азербайжанской керамики XII-XV веков

Резюме

В статье рассматривается художественное оформление керамических изделий, созданных в XII-XV веках в Бейлагане и Нахчыване. Отмечается, изготовленная в этот период керамическая посуда по способу использования или своим эстетическим качествами делится на две группы: бытовая и архитектурная керамика.

В результате проведенного художественного анализа можно придти к выводу, что в этот период керамика украшалась декором различной формы и содержания, изготавливалась в различной технике, в т.ч. резьбой, рельефом и гравировкой.

Gulnar SAYIDOVA

Artistic solution of the décor at XII-XV centuries, the Azerbaijan ceramics

Summary

In article there is given information about the artistic design of the ceramics due to XII-XV centuries that founded in Beylagan and Nakhchivan, the regions of Azerbaijan. It is noted that ceramic products produced during this period divided into two groups according to their using and aesthetic features: ceramics used for domestic and architecture. Analysis allows us to come to the conclusion, that ceramic products produced in this period have been implemented individual décor according to their shape and form, various technical methods as carving, relief (relief) and drilling methods

BAKI AVRASİYA UNİVERSİTETİ
“Sivilizasiya” jurnalı 2016.№1

Rövşən HACIZADƏ
Azərbaycan Dövlət Rəssamlıq
Akademiyasının doktorantı
E-mail: r.hacızade@mail.ru

MEMORİAL PLASTİKADA OBRAZLI TUTUMUN YÜKSƏLİŞ YOLLARI

Açar sözlər: *Heykəl, memorial, xatirə, obraz, kompozisiya, plastika*
Ключевые слова: *скульптура, мемориальный, память, образ, композиция, пластика*
Keywords: *statue, memorial, memory, image, composition, plastic.*

Müəyyən hadisənin və süjetin, eləcə də bunların yaradıcısı kimi çıxış edən insanın obrazlaşması onlarda hifz olunan tarixi-mənəvi yükün necəliyindən başqa, həm də zamandan, mövcud iqtisadi-siyasi quruluşun təsirindən asılı olur. Bununla belə çox vaxt yaradıcılar müəyyən ideoloji asılılığa baxmayaraq, yaratdıqları əsərlərdə görüntüyə gətirdiklərinə obrazlı tutum verməyə çalışırlar. Yalnız onların arzulanan obrazlı görkəm almaları belə əsərləri zamansızlığa qovuşdurur, əbədi mənəvi qaynağa çevrilmələrini şərtləndirir. Etiraf edək ki, bir çox hallarda, yəni, obyektiv və yaxud da subyektiv səbəblərdən müəlliflər bədiiləşdirdikləri mövzulara arzulanan görkəmi verə bilmirlər. Bu daha çox yaradıcıların müstəqil olmamalarından irəli gəlir. Küçə və meydanları bəzəyən abidələrdən fərqli olaraq, çox vaxt yaradıcılar memorial xarakterli abidələrdə arzuladıqlarını, görmək istədikləri obrazlı tutumu əsərlərində gerçəkləşdirə bilirlər. Bu yerdə bu məsələdə abidəsi yaradılan şəxsin varislərinin-yaxınlarının da böyük rol oynadığını vurğulamaq istərdik. Belə ki, bilavasitə onlar ucaldılacaq abidədə həmin şəxsin daha səciyyəvi hərəkətinin və cizgilərinin əks olunmasını istəyirlər. Respublikanın müxtəlif guşələrindəki məzarlıqlarda, xüsusilə də Bakıda yerləşən Fəxri Xiyabanda obrazlı görkəm almış memorial abidələrə rast gəlmək mümkündür. Yeri gəlmişkən deyək ki, ötən əsrin iyirminci illərində tanınmış şəxslər Qoşa qala qapısının yaxınlığında dəfn olunurdularsa, otuzuncu illərdə əlaqədar qurumlar indiki Fəxri Xiyabanın yerini bu məqsəd üçün ayırdı.

Fəxri Xiyabandakı belə əsərlərin xronoloji baxımdan daha böyük tarixə malik olanı tanınmış heykəltəraş S.Merkurovun görkəmli Azərbaycan memarı Sadıq Dadaşova (1905-1946) həsr etdiyi portretdir. Ona ayrılmış qısa ömür payında müasir Azərbaycan memarlığında dərin iz qoymuş S.Dadaşovun tunc portretində onun obrazını səciyyələndirə biləcək dərin düşüncə daşıyıcılığı və yaratmaq eşqi qabarıq göstərilmiş, inandırıcı plastik görkəm almışdır. Memarın sadəliyini və yaşayıb-yaratmaq eşqini uğurla bir araya gətirən müəllif, intellektuallığı ilə müasirlərini heyrətləndirən

S.Dadaşovun portretinin obrazlaşmasını və zamansızlığa qovuşmasını şərtləndirmişdir. Memorial abidə yaratmaq sahəsində zəngin təcrübəsi olan görkəmli heykəltəraş Cəlal Qaryağdının Fəxri Xiyabandakı bəstəkar Zülfüqar Hacıbəyova həsr olunmuş əsəri (1962) də obrazlı həllinə görə diqqət çəkir. Tünd moruğu rəngli stela-baş daşı üzərində bəstəkarın çox da dərin olmayan tunc relyef-portretini yerləşdirən müəllif, onun qonşuluğunda qazılmlş relyef formasında bəstəkarın "Aşıq Qərib" operasının müəllifi olmasına işarə kimi əli sazlı aşıq və qız təsviri verməklə, məzar sahibinin yaddaşlarda yaşayacaq obrazını yaratmışdır. Geniş ictimaiyyətə daha çox yaratdığı monumental abidələrlə tanış olan Ömər Eldarovun memorial heykəltəraşlıq sahəsində də səmərəli fəaliyyəti mövcuddur. Təkcə elə Fəxri Xiyabandakı Ü.Hacıbəyli (1956), V.Mustafazadə (1984), F.Əmirov (1988), S.Rəhimov (1991), Ş.Qurbanov (1994), Z.Əliyeva (1995), R.Behbudov (1996), H.Əliyev (1998). Z.Bünyadov (2000), T.Əliyev (1998), Y.Səmədoğlu (2001), S.Rüstəm (2001), T.Quliyev (2001) və b. məzarüstü abidələrinin müəllifi məhz Ömər Eldarovdur. Göründüyü kimi bunların bir qismi məhz sovet dönəmində ərsəyə gətirilmişdir. Həmin memorial abidələrin birincisi dahi bəstəkarımız Üzeyir Hacıbəyli (1956) ilə bağlıdır. Əsər həcm etibarilə kiçik olsa da, onun plastik həllindəki psixoloji-yaradıcı yaşantıların geniş bədii ümumiləşdirmələrlə qovşağı sayəsində obrazlı tutum alan heykəl, həm də monumental təsir bağışlayır. Oturmuş vəziyyətdə-düşüncəli halda məzarüstü daşın yerində ucalan fiqur Üzeyir bəyin qan yaddaşımızda əbədiləşən obrazı ilə həmahəng səsləndiyindən, ziyarətə gələnlərdə xoş təsir bağışlamaqda, onları duyğulandırmaqdadır...[1]

Heykəltəraşın görkəmli musiqiçi-cazmen Vaqif Mustafazadənin qəbri üzərində ucalan əsəri (1984) də duyğulandırıcı plastik tutumdadır. Cazmenin başdaşını əvəzləyən qoşa qranit stela üzərində yerləşən tunc portreti onun musiqi dünyasının yarardığı təlatümə müvafiqdir. Belə ki, onun dağınıq fakturalı yerlikdən baxan portretində musiqiçi öz aləmindədir. Bunu həm onun başının, həm də əllərinin daxili dinamizmə köklənmiş hərəkətinin yaratdığı ekspressiyadan duymaq mümkündür...

Ömər Eldarovun görkəmli dirijor Niyaziyə həsr etdiyi məzarüstü abidə (1989) isə bütün mənalarda əvvəlkilərdən fərqlənir. Aşağı hissəsində yazı olan şaquli kompozisiya yuxarı hissədə çox orijinal görkəmdədir. Belə ki, müəllif tərəfindən ağ mərmər materialda üç Niyazi görüntüyə gətirilib. Ortadakı portretdə məşhur dirijor əli qoynunda təsvir olub. Mərkəzi portreti sağ və sol tərəfdən dirijoru fəaliyyətdə təsvir edən iki profil portret əhatələyir. Onu hamının görüb-tanıdığı pozada təqdim edən heykəltəraş, bu üç portreti obraz səviyyəsinə yüksəldə bildiyindən əsər çox inandırıcı və təsirli baxılır...[3]. Müəllifin görkəmli bəstəkar Fikrət Əmirovla bağlı qəbirüstü abidəsi ümumi formasına görə Niyazinin başdaşı ilə anım-assosiasiya yaratmaq gücündədir. Amma təbii ki, plastik həllinə görə fərqli tutumdadır. Düzdür, burada da heykəltəraş qəhrəmanının psixoloji yaşantılarla baş-başa qalmasına üstünlük verib. Əlləri ilə dizinin üzərindəki not dəftərini saxlayan musiqiçi, onun obrazlaşmasına güclü təsiri olan düşüncəli baxışlarını iç dünyasına kökləməklə, zahirən sakit görünən fiqurunun daxili dinamizmlə zəngin olduğunu sərgiləyir.

Müəllif Fəxri Xiyabandakı memorial xarakterli bir-neçə əsərinin kompozisiyası üçün həmin şəxslərin fiqur tutumunda təqdimatına üstünlük verib. Onun yazıçı Süleyman Rəhimova (1991) və Şıxəli Qurbanova (1994), müğənni Rəşid Behbudov (1996), akademiklər Həsən Əliyevə (1998) və Ziya Bünyadova (2000) həsr etdiyi memorial

abidələr belə nümunələrdəndir. Bu abidələrdə onun qəhrəmanları üçün tapılan səciyyəvi duruşlar bilavasitə mərhumların həyatda hər kəsə bəlli olan hərəkətlərini təkrarladıqdan və yaxud onlarla anım yaratdıqlarından uğurlu hesab olunurlar [4]. Onun mərhumları oturmuş vəziyyətdə təsvir edən memorial kompozisiyalarında da, obrazların daxili aləminə nüfuzetmə güclü və təsirli olduğundan, onlarla göz-gözə qalanlar üçün doğma və yaddaqalan görünürlər. Bu mənada onun görkəmli oftamoloq-alim, akademik Zərifə xanım Əliyevaya (1995), xalq şairi Süleyman Rüstəmə (2001) və bəstəkar Tofiq Quliyevə (2001) həsr etdiyi əsərlərin adını qeyd etmık olar. Fəxri Xiyabandakı digər məzarüstü abidələr arasında digər müəlliflərin yaratdıqları obrazlaşmış əsərlər az deyil. Bu mənada Həyat Abdullayeva, Elcan Şamilov, Tokay Məmmədov, Cəlal Qaryağdı, Elmira Hüseynova və b. ərsəyə gətirdiyi memorial kompozisiyaları xüsusi vurğulamaq lazımdır.

Qənaətimizcə, ilk milli operamız olan "Leyli və Məcnun"da Məcnunun ilk ifaçısı olmaqla tarixiləşən Hüseynqulu Sarabskini dahi aşiqin görkəmində (1981, müəllifi H.Abdullayeva), Azərbaycan dramaturgiyasının inkişafına duyulası töhfələr vermiş Cəfər Cabbarlını ilhamlı tutumda (1969, E.Hüseynova), opera müğənnisi Bülbülün ciddi tunc barelyef-portretini atlı aşıq obrazının qovşağında (1969, müəllifi T.Məmmədov) təqdim edən müəlliflər bütünlükdə həmin şəxsiyyətlərin həyat və yaradıcılıqlarını obrazlaşmış tutumda göstərməyə nail olmuşlar. Belə ki, bu kompozisiyaların hər birində adları xalqımızın tarixinə qızıl hərflərlə yazılmış yaradıcı insanların yaşayıb-yaratmaq eşqinə yaddaqalan plastik görkəm verməyə nail olmuşlar. [5] Respublikanın müxtəlif şəhər və rayon məzarlıqlarında da memorial heykəltəraşlığın yaddaqalan nümunələrinə rast gəlmək mümkündür. Onlardan biri hazırda işğal altında olan Şuşada yerləşir. Bu öz dövrünün görkəmli ziyalısı, şair, musiqişünas və rəssam kimi tanınan Mir Möhsün Nəvvabın məzarüstü abidəsidir. 1961-ci ildə ərsəyə gətirilən memorial abidənin müəllifi Tokay Məmmədovdur. Mərmər lövhəni tamamlayan tunc barelyefdə zəngin mənəvi aləmi ilə müasirlərini heyran qoyan obrazı əks olunmuşdur. Bu abidə Xurşudbanu Natəvanın vaxtilə Ağdam şəhərində yerləşən memorial abidəsi (1970, müəllifi Elcan Şamilov) də ilə anım yaradandır. Burada da mərmər lövhəni şairənin lirik tutumlu-obraz səviyyəsinə yüksəlmiş tunc barelyefi tamamlayır. Müəllifin Qazax rayonun Şıxlı kəndində yerləşən şair Molla Vəli Vidadinin məzarüstü abidəsi də forma-bişim etibarilə yuxarıda adları çəkilən əsərlərini xatırladır. Amma burada müəllif obrazın inandırıcılığının əldə olunması üçün qorelyefdən istifadə edib və bu bədii yanaşma ilə o, plastik tutumun şairin poetik dünyası ilə səsləşən duyğulandırıcılığına nail olmuşdur, desək, yanılmarıq.

Görkəmli tişə ustası Ömər Eldarovun məşhur mənzərə ustası Səttar Bəhlulzadəyə həsr etdiyi abidə rəssamın doğulduğu Bakının Əmircan kəndində yerləşir. 1975-ci ildə tuncdan tökülmüş bu əsəri qətiyyətlə XX əsrdə yaradılmış ən uğurlu memorial abidə saymaq olar. Doğrudan da ayaqüstə görüntüyə gətirilən təbiət aşiqinin varlığında gəzdirdiyi qeyri-adiliyi onun əli çərçivəli heykəlində duymaq mümkündür. Hələ altmışıncı illərdə Səttar Bəhlulzadənin ağacdan iki portretini yaradan Ö.Eldarov, bu işində də rəssamın yaddaqalan obrazını yarada bilmişdir. Şamaxıdakı "Şahxəndan" məzarlığında Seyid Əzim Şirvaninin məzarüstü abidəsi də özünəməxsus bədii məziyyətlərinə görə maraq doğurur. 1975-ci ildə qranitdən hazırlanmış başdaşının müəllifi Aslan Rüstəmovdur. Onun özünəməxsusluğu müəllifin yerli plastika ənənələrindən

istifadə edərək ona Şirvan zonası üçün səciyyəvi olan hündür forma verməsi və onun önə doğru üçbucaq şəklini almış hissəsini portret formasında tamamlamaqdır. Forma və məzmunun uğurlu sintezini özündə yaşadan bu abidə görkəmli şairin poeziyasın müvafiq-obrazlaşmış şəkli aldığından diqqətçəkən və yaddaqalandır. Çox təəssüf ki, son illərdə onu bədii cəhətdən zəif işlə əvəzləmişlər.

QAYNAQLAR

1. Novruzova C. Sovet Azərbaycanın heykəltəraşlığı. 1973. B.
2. Əfəndiyev R.S. Azərbaycan heykəltəraşlığının qaynaqlarına doğru. Qobustan incəsənət toplusu, 1983 №2 səh 75-78
3. Новрузова Д.Г. Некоторые вопросы развития мемориальной скульптуры Азербайджана Известия АН Азерб. ССР 1970, №4 (I п.л.).
4. Новрузова Д.Г. Новые поиски в монументальной скульптуре // Изв. Ан Аз ССР, серия литературы, яз. и искусства 1969 №2 с 123-134.
5. Новрузова Д.Г. Скульптура в городах Азербайджана. Сб. «Искусство и быт»-М.: Советский художник, 1969 № 3 (2 п. л.).

Ровшан ГАДЖИЗАДЕ

Пути восхождения образности мемориальной пластики

Резюме

В статье нашла отражение проблема отражения образа мемориальных памятников, выполненных в различные годы в Азербайджане. Естественно, что говоря о скульптуре, следует отметить немало мемориальных памятников, которые по своим художественно-эстетическим качествам не могут возвыситься до образности. Это можно проследить и на примерах образцов памятников, воздвигнутых как в Аллее Почетного захоронения, так и за ее пределами. Часто, стремясь отобразить портретное сходство, авторы не могут уловить образности своих героев.

Rovshan HAJIZADEH

Figuratively capacity ways to rise in memorial plastic

Summary

In article there is given memorial sculpture samples carried out in different years as the issue of the embodiment of image. Of course, there are monumental monuments according to the artistic and aesthetic capacity ways not to rise. You see the monumental statues that erected in the Alley of Honor, and other places. Most of time, the authors who addicted to get outward resemblance to the portrait, eventually failed to take effective capacity and heroes to imagine.

MÜNDƏRİCAT

Müslüm Nəzərov. Ali məktəblərdə humanitar fənlərin tədrisinə dair **3**
Piri Axundov. İslamda yenilənmə meyllərinin nəzəri əsasları **9**
Vüqar İsmayılov. Kütləvi informasiya vasitələrinin-internetin ailədaxili münasibətlərə təsiri **17**
Solmaz Əhmədova. M.S.Ordubadinin ictimai-siyasi və fəlsəfi görüşlərinin fomalaşdığı tarixi şərait **23**
İslam Sadıq. Türk dilində heca qanunu **27**
Siracəddin Hacı. Nizaminin dünya təsəvvürü ("Müdrik Möbidin hekayəsi"nin şərhi) **34**
Gülsümxanım Hasilova. Füzuli yaradıcılığı "folklor və yazılı ədəbiyyat" kontekstində (Əzizə Cəfərzadə tədqiqatında) **40**
Aygün Qasimova. Hüseyn Arifin poemalarında xalq ruhunun poetik ifadəsi ... **45**
Ülkər Dadaşova. İraq-Türkman toy mərasimi və Şumer izləri **50**
İlham Əliyev. Say birləşmələri və say tərkibli birləşmə **56**
Ülviyyə Quliyeva. İsmayıl Şıxlının "Ayrılan yollar" romanında konflikt və xarakter **62**
Gülşanə Xudiyeva. Sabir Azəri yaradıcılığının leytmotivi-insan və cəmiyyət münasibətlərinə fəlsəfi baxış **68**
İslam Sadıq. "At igidin qardaşıdı" **73**
Aytac Abbasova. Mövsüm mərasimi: Novruz adət-ənənələri **82**
Rəqsanə Vəliyeva. "Beovulf" dastanının süjet tipologiyası **88**
Nurəli İsayev, Fazil Rüstəmov. Azərbaycan maarifçiliyinin milli-mədəni yeniləşmə ideyaları və müasirlik **95**
Salatın Əhmədova. Heydər Əliyevin nəzəri irsində Bəxtiyar Vahabzadə dramaturgiyası **104**
Abbas Abbasov. Leksikoqrafiyada «baş söz» və «lüğət maddəsi» anlayışları .. **109**
Elçin İsmayılov, Zəminə Gülüstani. Ad və Ad **116**
Aynur Mirzəyeva. Elam dilinin tədqiqi tarixi və tədqiqatçıları **121**
Mətanət Xudiyeva. Nitq mədəniyyəti milli mədəniyyətin tərkib hissəsi kimi .. **127**
Aygun Zeynalova. Nitq mədəniyyəti və dil mədəniyyəti: unifikasiya və diferensiasiyası **131**
Aygün Balaməmmədova. Dildə realilər və onların qrupları **138**
Елтмира Искендерова. Фразеологические единицы: связи языка, культуры и мышления **145**
Н.Гулиев, Эльвин Рашидов. Проблемы влияющие на имидж туризма Азербайджана **153**
Tofiq Babayev, Tahir Şahbazov. Basqal: arxeoloji və tarixi-etnoqrafik xarakteristika **158**
Əsəd Əliyev. XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının qadın geyimləri **167**

Səbinə Qaraşova. Müasir mərhələdə ABŞ-ın xarici siyasətinin reallaşdırılması xüsusiyyətləri: İraqda güc amili və antiterror strategiyası **176**
Fikrət Əliyev. Fasiləsiz ixtisasartırma **185**
Севиндж Мамедли. Системы и каналы рекрутирования политической элиты **191**
Цзейир Балакишийев, Йагут Quliyeva. Мултикултурализм, чохдиллилик вя Азярбайъанда дил сийасяти **199**
.....
Фидан Гусейнзаде. Успешная государственная политика в сфере социально-экономического развития регионов Азербайджана (2004-2014) **206**
Севда Ибрагимова. О моментах исторического опыта становления современного политического ислама в Египте **212**
Rafiq Mirzəyev. İrəvan xanlığının yaranması **219**
Fuad Xəlil-zadə. Seçki sistemləri: beynəlxalq təcrübə və Azərbaycan **229**
Mustafa Şabanov. Rusiya-Gürcüstan müharibəsi və onun Rusiyanın regiondakı siyasətinə təsiri **236**
Tural Hümbətov. Müasir terrorizmi doğuran sosial səbəblər **243**
Vüsal Alıyev. Şahdağ turizm mərkəzinin ölkənin qış turizminin inkişafında rolu **247**
Taleh Əsədov. Şəbəkə otellərinin yayılması **251**
Aytən Babayeva. Zakir Bağırovun "Aygün" operasında xor səhnələrinin musiqili-dramaturji xüsusiyyətləri **256**
Gülnar Seyidova. XII-XIV əsrlər Azərbaycan dulusçuluğunda dekorun bədii həlli **263**
Rövşən Hacızadə. Memorial plastikada obrazlı tutumun yüksəliş yolları **268**

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

Bakı Avrasiya Universitetində "Sivilizasiya" jurnalı nəşr olunur. "Sivilizasiya" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 06 iyul 2012-ci il (Protokol №10-R) tarixli qərarı ilə aşağıda göstərilən elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyyə edilən elmi nəşrlərin siyahısına daxil edilmişdir: Tarix, Antropologiya və siyasi elmlər; Fəlsəfə və sosiologiya elmləri; Filologiya elmləri; Sənətşünaslıq sahəsi.

REDAKSİYAYA TƏQDİM OLUNAN YAZILARIN NORMATİV QAYDALARI

1. Məqalələr Azərbaycan və rus dillərində qəbul olunur.
2. Redaksiyaya təqdim olunan məqalələrin həcmi 15 səhifədən artıq olmamalıdır.
3. Redaksiyaya təqdim olunan məqalələrdə müəllifin adı, soyadı, iş yeri, elmi dərəcəsi və ev ünvanı göstərilməli, ingilis və rus dillərində xülasələr, açar sözlər verilməlidir.
4. Xülasə 100, açar sözlər 10 sözü keçməməlidir.
5. Şəkillər, rəsm, not, qrafik və cədvəllər düzgün, aydın çıxacaq vəziyyətdə olmalıdır.
6. Sonda göstərilən elmi ədəbiyyat və mənbələr məqalənin içərisində kodlaşdırılmalıdır.
7. Məqalələr, xülasə və açar sözlər Winword proqramında, Times New Roman şrifti, ara məsafəsi 1.5 olmaqla, 14 punto böyüklüyündə yazı tipi ilə yazılaraq diskdə və A4 vərəqində təqdim olunmalıdır.
8. Müəllifin şəkli və elmi fəaliyyəti haqqında qısa bilgi də məqaləyə əlavə edilməlidir.

Əlaqə telefonu: (050) 357 22 45 İslam Sadıq
islam-sadiqli@rambler.ru
islamsadiq1953@yahoo.com

Kompyuterdə səhifələyəni
Sadıqlı Araz

Səhifələnmişdir: 06-25.01.2016
Çapa imzalanmışdır: 26.01.2016
Kağız formatı: 70 x 84 1/16
Fiziki çap vərəqi: 16. Sayı 200

Bakı şəhəri, AZ 1073, Həsən Əliyev küç. 135A
Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
(07.02.2011-ci il, qeydiyyat № 3336)